H.B.Allahverdiyev
K.S.Qafarov
Ə.M.Əhmədov

# MİLLİ İQTİSADİYYATIN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN ƏSASLARI

Ali məktəblər üçün dərslik

Dərslik Azərbaycan Respublikası
Təhsil Nazirliyinin

«_____» «____________________»2006-ci il

«_______» saylı əmri ilə təsdiq
edilmişdir.

B A K I - 2 0 0 6

downloaded from KitabYurdu.az

Elmi redaktor : H.B.Allahverdiyev i.e.d. professor

Rəyçilər A.Ş.Şəkərəliyev
ADİU-nın Elmi işlər üzrə prorektoru,
Əməkdar elm xadimi, i.e.d. professor.

N.M.Meybullayev
ADİU-nın «İqtisadi nəzəriyyə»
Kafedrasının müdiri, i.e.d. professor.



downloaded from KitabYurdu.az

MÜNDƏRİCAT

G İ R İ Ş……………………………………………………………16 -17

BÖLMƏ I MİLLİ İQTİSADİYYATIN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN NƏZƏRİ VƏ METODOLOJİ ƏSASLARI.

FƏSİL I - MİLLİ İQTİSADİYYATIN TƏNZİMLƏNMƏSİNİN NƏZƏRİ ƏSASLARI.

1. Merkantilizm nəzəriyyəsi……………………………..18 - 21
2. Klassik nəzəriyyə………………………………………21 - 24
3. Neoklassik nəzəriyyə və iqtisadi liberalizm…………24 - 26
4. Keynsin iqtisadi təlimi…………………………………...26 - 38
5. Monetarizm…………………………………………….38 - 44
6. Milli iqtisadiyyatın inkişafı tarixi……………………..44 - 56

FƏSİL II - MİLLİ İQTİSADİYYATIN TRANSFORMASİYASI VƏ ONUN TƏNZİMLƏNMƏSİ.

1. İqtisadiyyatın tənzimlənməsi strategiyasının formalaşması……………………………………………..57 - 83



downloaded from KitabYurdu.az

2. İqtisadi sistemin transformasiya olunması strategiyası……………………………………………..…83 - 93
3. Müasir dövrdə iqtisadiyyatın tənzimlənməsində dövlətin rolu və funksiyaları………………………………...94 - 102
4. İqtisadiyyatın dövlət tənzimlənməsinin obyektləri və subyektləri……………………………………………...103 - 113

## FƏSİL III - KEÇİD İQTİSADİYYATI VƏ BAZARIN FORMALAŞDIRILMASI MEXANİZMLƏRİ.

1. Bazar iqtisadiyyatına keçid konsepsiyası………….114 - 116
2. Keçid dövrünün xüsusiyyətləri və mahiyyəti……...116 -122
3. Bazar iqtisadiyyatına keçidin təkamül yolu………..122 - 123
4. Şok terapeyasının əsas elementləri…………………123 - 126
5. Bazar iqtisadiyyatının formalaşdırılmasının əsas prinsipləri……………………………………………...127 - 130

## FƏSİL IV - MİLLİ İQTİSADİYYATIN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN FORMA VƏ METODLARI.

1. İqtisadiyyatın dövlət tənzimlənməsinin formaları……………………………………………...131 - 158
2. İqtisadityyatın dövlət tənzimlənməsinin metodları….158 - 163
3. İqtisadiyyatın dövlət tənzimlənməsinin modelləri…..164 - 174



downloaded from KitabYurdu.az

FƏSİL V - BAZAR İQTİSADİYYATI ŞƏRAİTİNDƏ MÜLKİYYƏT MÜNASİBƏTLƏRİNİN TƏNZİMLƏNMƏSİ.


1. Mülkiyyətin iqtisadi və hüquqi mahiyyəti…………175 - 178
2. Mülkiyyəti formaları və onların qarşılıqlı əlaqələri…179- 186
3. Mülkiyyət münasibətlərinin dövlət tənzimlənməsi….187 - 190


FƏSİL VI- SAHİBKARLIQ FƏALİYYƏTİNİN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN ƏSASLARI.


1. Sahibkarlıq anlayışı və mahiyyəti…………………...191-197
2. Sahibkarlığın inkişafının dövlət tənzimlənməsi……..198-202
3. Sahibkarlıq fəaliyyətinin iqtisadi və hüquqi əsasları……………………………………………...202-206


FƏSİL VII- DÖVLƏTİN ANTİİNHİSAR SİYASƏTİ.


1. Bazar sistemində azad rəqabət və onun formaları….207-213
2. Dövlətin antiinhisar tədbirlər sistemi……………….214-231


FƏSİL VIII- MİLLİ İQTİSADİYYATDA TƏKRAR İSTEHSALIN TƏNZİMLƏNMƏSİ.


1. Təkrar istehsal iqtisadi kateqoriya kimi……232 -237




downloaded from KitabYurdu.az

2. Təkrar istehsalın makroiqtisadi mütənasiblikləri……237 -240
3. Geniş təkrar istehsal resursları və amilləri…………...241-248
4. Makroiqtisadi təhlilin xüsusiyyətləri………………....248 -258

FƏSİL IX - İQTİSADİ ARTIMIN DÖVLƏT TƏNZİMLƏNMƏSİ.

1. Sosial iqtisadi inkişafın əsas şərtləri…………………259 - 268
2. İqtisadi artım göstəricələri……………………………269 - 302
3. İqtisadi artımın effektivlik göstəriciləri………………303 - 307

BÖLMƏ II. MİLLİ İQTİSADİYYATIN TƏNZİMLƏNMƏSİ MEXANİZMLƏRİ.

FƏSİL X - DÖVLƏTİ STRUKTUR SİYASƏTİ.

1. Dövlətin struktur siyasəti və onun mahiyyəti………308 -319
2. Konservativ uyğunlaşma və innovasiya siyasəti……320 - 322
3. Ölkənin innovasiya potensialı və ondan istifadənin tənzimlənməsi……………………………………………322 - 331
4. İqtisadiyyatın strukturunun tənzimlənməsi…………331 - 336

FƏSİL XI- DÖVLƏTİN İNVESTİSİYA SİYASƏTİ.
1. Dövlətin investisiya siyasətinin mahiyyəti………..337 - 343
2. Multiplikator nəzəriyyəsi və mahiyyəti………….343 - 346



downloaded from KitabYurdu.az

3. Büdcə və borc vəsaitləri, subvensiya və dotasiyalar…347-350
4. Xarici investisiya və onun iqtisadiyyatın inkişafında rolu ……………………………………………350-360
5. Azad iqtisadi zonalar, onların formalaşması prinsipləri…………………………………………………..361 -368

FƏSİL XII - SOSİAL İQTİSADİ İNKİŞAFIN PROQNOZLAŞDIRILMASI.

1. Sosial-iqtisadi inkişafın proqnozlaşdırılması modelləri və metodları………………………………………………………369 - 379
2. İqtisadi- sosial inkişafın proqnozlaşdırılması………379 -382
3. Proqnozlaşdırmada istifadə olunan istehsal funksiyaları………………………………………………..382 - 387

FƏSİL XIII - BAZAR İQTİSADİYYATI ŞƏRAİTİNDƏ QİYMƏTLƏRİN TƏNZİM OLUNMASI.

1. İqtisadi xərclər və onların təsnifatı…………………..388 -396
2. Qiymətlərin tənzimlənməsi……………………………396 -400
3. Dövlətin antiinfilyasiya siyasəti……………………..400 -406
4. İnkişaf etmiş ölkələrdə qiymətlərin tənzimlənməsi təcrübəsi……………………………………………………....407 - 418

BÖLMƏ III. – DÖVLƏTİN MALİYYƏ-KREDİT VƏ PUL SİYASƏTİ.



downloaded from KitabYurdu.az

FƏSİL XIV - DÖVLƏTİN MALİYYƏ SİSTEMİ VƏ BÜDCƏNİN TƏNZİMLƏNMƏSİ.

1. Dövlətin maliyyə və büdcə siyasəti………………….419 -424
2. Dövlətin büdcə gəlirləri və xərclərinin tənzimlənməsi……………………………………….424 - 433

FƏSİL XV - DÖVLƏTİN PUL KREDİT SİYASƏTİ.

1. Dövlətin pul-kredit siyasətinin mahiyyəti……………434 - 437
2. Pul sistemi və pul tədavülü…………………………..438 -441
3. Kredit və kredit sistemi……………………………….442 - 444
4. Bank sistemi və bank əməliyyatları…………………..445 - 448
5. Dövlətin valyuta siyasəti………………………………448 - 455

BÖLMƏ IV MİLLİ İQTİSADİYYATIN ƏSAS SAHƏLƏRİNİN TƏNZİMLƏNMƏSİNDƏ DÖVLƏT SİYASƏTİ.

FƏSİL XVI - DÖVLƏTİN ELMİ – TEXNİKİ SİYASƏTİ.

1. Elmi- texniki siyasətin mahiyyəti və vəzifələri………456 - 458
2. Elmi-texniki siyasətin əsas istiqamətləri…………….458 - 461
3. İnkişaf etmiş ölkələrdə ETT-nin tənzimolunma



downloaded from KitabYurdu.az

modelləri……………………………………………………462 -468

FƏSİL XVII - MİLLİ SƏNAYENİN İNKİŞAFINDA DÖVLƏT SİYASƏTİ.

1. Dövlətin sənaye siyasətinin məzmunu və vəzifələri……………………………………………469 - 473
2. Sənaye siyasətində marketinq konsepsiyası……….474 - 479
3. Əmtəə və texnoloci ixtisaslaşma……………………479 - 486
4. Sənayedə investisiya-innovasiya siyasəti……………486 - 490

FƏSİL XVIII - AQRAR SƏNAYE KOMPLEKSİ VƏ ONUN İNKİŞAFININ TƏNZİM OLUNMASI.

1. Dövlətin aqrar siyasəti, onun məzmunu və vəzifələri……………………………………………….491-498
2. Kənd təsərrüfatında yeni istehsal münasibətlərinin formalaşması və tənzim olunması………………………499 - 502
3. Kənd təsərrüfatında infrastruktur sahələrinin inkişafının tənzimlənməsi………………………………………..502 - 505
4. Kənd təsərrüfatı məhsulları bazarının tənzimlənməsi və taxıl balansı………………………………………………………..505 - 518



downloaded from KitabYurdu.az

FƏSİL XIX - ÖLKƏDƏ YANACAQ – ENERJİ KOMPLEKSİNİN İNKİŞAFININ TƏZİMLƏNMƏSİ.

1. Yanacaq – enerji kompleksinin strukturu…………..519 - 520
2. Respublikanın yanacaq-enerji kompleksinin inkişafı strategiyası…………………………………………520 - 525
3. Yanacaq Enerji kompleksinin inkişafının tənzimlənməsi……………………………………..526 -527

BÖLMƏ V DÖVLƏTİN SOSİAL SİYASƏTİ VƏ ONUN REALLAŞDIRILMASI MEXANİZMLƏRİ.

FƏSİL XX - SOSİAL YÖNÜMLÜ BAZAR İQTİSADİYYATININ FORMALAŞDIRILMASI.

1. Dövlətin sosial siyasəti onun mahiyyəti və vəzifələri…………………………………………528 - 531
2. Dövlətin sosial siyasət strategtiyası………………….532 -539
3. Sosial problemlərin tənzimlənməsinin istiqamətləri……………………………………..539 - 542

FƏSİL XXI - DÖVLƏTİN SOSİAL MÜDAFİYƏ FUNKSİYASI VƏ ONUN MAHİYYƏTİ.

1. Sosial müdafiyənin mahiyyəti və vəzifələri………..543 - 548



downloaded from KitabYurdu.az

2. Dövlətin sosial müdafiyə sistemi və onun əsas istiqamətləri.........................................548 - 554
3. Əhalinin sosial müdafiəsinin təminatının hüquqi əsasları..............................................554 - 570
4. Əhalinin sosial təminatının dövlət tədbirləri............571 - 588

FƏSİL XXII- İQTİSADİYYATIN DÖVLƏT BÖLMƏSİNİN TƏNZİMLƏNMƏSİ.

1. Dövlət bölməsinin strukturu ..............................589 - 592
2. Dövlət bölməsinin inkişafının tənzimlənməsi..........592 - 597
3. Dövlət mülkiyyətinin idarə edilməsi.....................597 - 599

FƏSİL XXIII - SOSİAL İNFRASTRUKTURUN İNKİŞAFININ TƏNZİMLƏNMƏSİ.

1. Sosial infrastrukturun mahiyyəti və strukturu......600 - 603
2. Ölkədə təhsil sistemi və onun tənzimlənməsi........603 - 608
3. Səhiyyənin inkişafının tənzimlənməsi..................609 - 610
4. Xidmət sferalarının inkişafının tənzimlənməsi......610 - 615

FƏSİL XXIV - ƏMƏK BAZARININ TƏNZİMLƏNMƏSİ.

1. Əmək bazarının sosial – iqtisadi mahiyyəti..........616 - 618
2. Əmək resursları və iş qabiliyyətli əhali..................618 - 622



downloaded from KitabYurdu.az

3. Əmək münasibətlərinin tənzimlənməsi……………..623 - 630

FƏSİL XXV - MƏŞĞULLUQ SİYASƏTİ, MAHİYYƏTİ, SOSİAL- İQTİSADİ FUNKSİYASI.

1. Məşğulluğun sosial-iqtisadi mahiyyəti…………….631 - 632
2. İşsizlik və «tam məşğuliyyət» anlayışı……………..633 -642
3. Əmək haqqı sahəsində dövlət siyasəti…………… 642 - 643
4. Dövlət gəlirləri və əmək haqqının tənzim olunması……………………………………………..644 - 649

BÖLMƏ VI - MİLLİ VƏ İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏNZİMLƏNMƏSİ.

FƏSİL XXVI - MİLLİ İQTİSADİYYATIN TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASINDA DÖVLƏT SİYASƏTİ.

1. Təklükəsizlik anlayışı və mahiyyəti……………….650 - 655
2. Dövlətin milli təhlükəsizliyi və milli maraqlar…..655 - 662
3. Sosial-iqtisadi təhlükəsizlik sisteminin əsas istiqamətləri………………………………………...662 - 670
4. Dövlətin iqtisadi təhlükəsizlik strategiyası……….670 - 682

FƏSİL XXVII - DÖVLƏTİN EKOLOGİYA SİYASƏTİ VƏ



downloaded from KitabYurdu.az

TƏBİİ RESURSLARDAN İSTİFADƏNİN TƏNZİMLƏNMƏSİ.

1. Müasir elmi-texniki inkişaf və ekologiya problemləri……………………………………………683 - 687
2. Ekologiya siyasəti və ekoloji təhlükəsizlik…………687 - 691
3. Ətraf mühütin mühafizəsi və monitorinqi………..691 - 703
4. Ətraf mühitin mühafizəsinin dövlət tədbirləri sistemi………………………………………………703 - 707

FƏSİL XXVIII - TƏBİİ RESURSLARDAN İSTİFADƏNİN HÜQUQİ ƏSASLARI.

1. Təbiətdən istifadə haqqında müasir dünya görüşü…………………………………………………708 - 711
2. Təbiətdən istifadədə mülkiyyət hüquqi münasibətlər……………………………………….712 - 717
3. Qolobol ekoloji təhlükəsizlik………………………..718 - 725

FƏSİL XXIX - İSTEHSAL RESURSLARINDAN İSTİFADƏNİN TƏNZİMLƏNMƏSİ.

1. İstehsal resursları anlayışı…………………………726 - 728
2. İstehsal resurslarının strukturunun tənzimlənməsi……………………………………...728 - 733



downloaded from KitabYurdu.az

3. İntelektual və informasiya resurslarından istifadənin tənzimlənməsi……………………………………………733 - 736
4. Əsas istehsal fondlarından istifadənin tənzimlənməsi……………………………………………736 -738

BÖLMƏ VII - DÖVLƏTİN REGİONAL SİYASƏTİ.

FƏSİL XXX - DÖVLƏTİN REGİONAL SİYASƏTİNİN MAHİYYƏTİ.

1. Regional siyasətin mahiyyəti və məqsədi……………739 - 741
2. İqtisadi inkişafda regionların yeri və rolu…………741 - 742
3. «Problem» rayonlar və onların inkişafının tənzimlənməsi……………………………………………742 - 743
4. Regionların kompleks inkişafının tənzimlənməsi……………………………………………743 - 750

FƏSİL XXXI- DÖVLƏTİN XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİ VƏ ONUN TƏNZİMLƏNMƏSİ.

1. Xarici iqtisadi əlaqələrin mahiyyəti və vəzifələri……751 - 758
2. Beynəlxalq iqtisadi əlaqələrdə ticarətin inkişafı istiqamətləri……………………………………………759 - 770



downloaded from KitabYurdu.az

3. Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrinin inkişaf perspektivləri……………………………………….770 - 773

TEST VƏ TAPŞIRIQLAR…………………………….774 - 830

ƏBƏDİYYAT……………………………………….831 - 834



downloaded from KitabYurdu.az

## *G İ R İ Ş*

Müasir dövrdə iqtisadiyyatın dövlət tənzimlənməsi heç bir sivil ölkədə inkar edilmir. Dünya ölkələrinin təcrübəsi göstərir ki, dövlət və biznes bir-birini tamamlayaraq inkişaf edirlər. Bununla belə dövlət və biznes güclərinin optimal münasibliklərinin müəyyən edilməsi axtarışı davam edir.

Bazar münasibətləri şəraitində iqtisadiyyatın idarə edilməsi onda dövlətin iştirakı konsepsiyasına əsaslanır. Lakin onun rolu təkcə bazar mexanizminin tənzimlənməsi və « oyun qaydaları»-nın qoyulması ilə bitmir, mülkiyyət sahibi və bazarın subekti kimi çıxış edir.

İqtisadiyyatın vəziyyətindən və əlaqələrindən asılı olaraq müxtəlif ölkələrdə dövlət tənzimlənməsinin formaları, metodları fərqlənirlər. Məsələn stabil inkişaf edən ölkələrdə bazar mühitinin formalaşması, keçid dövrü yaşayan əlahiddə situasiyalarda inkişaf edən ölkələrdə bazar münasibətlərinin qurulması və s.

Keçid dövrünü yaşayan ölkələrdə dövlət tənzimlənməsinin rolu və təsir gücü yüksək olmalıdır. Bunun obektiv səbəblər də vardır. Beləki, dövlət biznesin inkişafını ( xüsüsilədə kiçik biznesi) dəstəkləməklə yanaşı, onun fəaliyyətinə nəzarəti də həyata



downloaded from KitabYurdu.az

keçirilməlidir. Bu məqsədlə həm iqtisadi-inzibati qanunlardan və hüquqi-normativ aktlardan istifadə olunmalıdır.

Hazırki, dövrdə Azərbaycan Respublikasında iqtisadiyyatın dövlət tənzimlənməsi tam səhmanlanmamışdır. Lakin bununla belə, iqtisadiyyatın müxtəlif sahələrinin tənzimlənməsi haqqında dövlətin müxtəlif qanun və qərarları mövcud olsada, iqtisadiyyatın dövlət tənzimlənməsinin dəqiq, elmi-texniki cəhətdən əsaslandırılmış strateji proqramması tamamlanmamışdır. İqtisadiyyatın dövlət tənzimlənməsi haqqında bitmiş, tam qanuni kodeksdə yoxdur.

Bu qeyd olunanlar «Milli iqtisadiyyatın dövlət tənzimlənməsi» dərsliyinin yazılması zəruri etmişdir.

Dərsliyin əsas məqsədi- milli iqtisadiyyatın inkişafının tənzimlənməsi prosesini açmaqdan, iqtisadi fəaliyyətin müxtəlif sahələrində tənzimlənmənin forma və metodlarının tətbiq olunma imkanlarını göstərməkdən, respublika iqtisadiyyatının inkişafının gələcək istiqamətlərində dövlətin rolu və funksiyalarını şəhr etməkdən ibarətdir.

Dərslikdə obekt kimi, respublikanın makrosəviyyədə iqtisadi inkişafı, onun ayrı-ayrı sahələrində dövlət tənzimlənməsi sərhədləri götürülmüşdür.



downloaded from KitabYurdu.az

## *BÖLMƏ I. MİLLİ İQTİSADİYYATIN DÖVLƏT TƏNZİMLƏN-MƏSİNİN NƏZƏRİ VƏ METODOLOJİ ƏSASLARI.*

## *FƏSİL I. MİLLİ İQTİSADİYYATIN TƏNZİMLƏNMƏSİNİN NƏZƏRİ ƏSASLARI.*

### *I. MERKANTİLİZM NƏZƏRİYYƏSİ.*

Bizim eradan əvvəl IV-əsrdə yaşamış yunan filosofu Ərəstun, iqtisadi məsələlərə diqqət yetirmişdir. O, iqtisadiyyata sərvətin pul və maddi formalarının tədqiqi haqqında elm kimi baxmışdır. Təbiidir ki, həmin dövrdə iqtisadiyyatın dövlət tənzimlənməsi anlayışı ola bilməzdi. İqtisadiyyatın tənzimlənməsi məsələsi müəyyən qədər təkmilləşmiş dövlət quruluşunun yaranması dövrünə təsədüf edir. Bununla əlaqədar qeyd etmək olar ki, iqtisadiyyata dövlətin müdaxiləsi tarixi XI-ci əsrdən başlayır. Belə ki XI-XVI əsrlərdə ölkələrin çoxunda əmtəə-pul münasibətləri formalaşaraq natural təsərrüfatları sıxışdırmağa başlamışdır.

Bu baxımdan iqtisad nlminin inkişafı tarixinə nəzər salmaq zəruridir. Çünki, kapitalist təsərrüfat sisteminin formalaşmasının ilkin çağlarında iqtisadi proseslərin idarə edilməsi və tənzimlənməsinin hansı qaydada aparılması sualı qarşıya çıxmışdır və buna görədə müəyyən bir konsepsiyanın olması vacib hesab



downloaded from KitabYurdu.az

edilirdi. Belə konsepsiyalardan biri MERKANTİLİZM nəzəriyyəsi olmuşdur.

Bu ideya XVI əsrdə İngiltərədə daha çox inkişaf etmiş və o, ilkin monetar merkantilistlərdən U.Stafford ( 1554-1612), Q.Skarrufi (1519-1584) və fransız A.Monkretyen (1575-1621) adları ilə bağlıdır. Elə elmə də ilk siyasi iqtisad adını verən A.Monkretyen olmuşdur.

Daha sonra XVII-əsrdə merkantilizm, əmtəə merkantilizmlə əvəz olunmuşdur ki, bu da Tamas Manın (1571-1641) adı ilə bağlıdır. T.Manın fikrinə görə ixrac idxaldan çox olmalı və bu xammal formasında yox, hazır məhsuldan ibarət olmalıdır.

Rusiyada bu nəzəriyyə İ.Posoşkov (1652-1726) tərəfindən inkişaf etdirilmişdir.

Merkantilizm – ( ingilis, fransız, italyan dillərində-xırdıvatçı alverçi, tacir mənasını ifadə edir) ilkin kapital yığımı dövründə burjua siyasi iqtisadiyyatın ilk məktəbi olmuşdur. Bu cərəyan xüsusi və milli sərvəti bir-birindən ayırmayaraq ona sərvətin mütləq forması kimi baxmaqla, sərvətin artırılmasının ancaq dövlət tədbirləri əsasında aparılmasını qeyd edirdilər. Onların təlimnə görə dövlət ticarət balansını aktivləşdirmək yolu ilə ölkədə pul yığımını artıqmaq tədbirlərini həyata keçirməlidir. Bu zaman heç də ölkədən pul çıxarılması qadağan olunmamalıdır. Çünki, ölkədən çıxanlar pula ucuz mal alınıb ölkəyə gətirilməsi və başqa formada digər ölkələrə satılması son nəticədə ölkədə pul kütləsinin artırılması



downloaded from KitabYurdu.az

deməkdir. Burada əsas tezis « Ucuz alıb baha satmaq»-dan ibarətdir.

Göründüyü kimi merkantilistlər dövlətin rolunu ancaq xarici ticarətin tənzimlənməsində görürdülər. Lakin dövlətin daxili tənzimləmə funksiyasından, kənarda xarici tənzimləmə qeyri mümkündür. Məsələn, əgər ölkə daxilində faiz norması xarici ölkələrdəkindən aşağıdırsa bu xarici səhmdarlar vasitəsilə ölkədən qiymətli metalların sıxarılmasına səbəb olacaqdır. Belə şərait dünya təsərrüfatında mühüm rola malik ölkələr malik ölkələr üçün risklidir. İri həcmli idxal-ixrac əməliyyətları əgər dövlət tərəfindən tənzim olunmazsa bu iflasa gətirib çatdıra bilər.

Merkantilizm dövrünü təhlil edən ingilis alimi J.M.Keyus yazmışdır ki, «ticarət balansının xoş niyyətli qalığı təsərrüfatı stimullaşdırır, bunun əksi isə depressiyaya səbəb ola bilər».

Merkantilizm dövrünün təhlili göstərirdi ki, iqtisadiyyatın dövlət tənzimlənməsinin ilkin başlanğıcı ticarət balansı olsa da, son nəticədə tənzimlnmə siyasətinin ölkə daxilində aparılması əsas məsələdir. Bu dövlət üsün pul indiqatorundan geniş istifadə olunması şansı verir. Lakin merkantli dövlət siyasəti pul toplanması, idxala qarşı qadağaların qoyulması və s. son nəticədə ölkənin böhrana düşşəsinə səbəb olur. Çünki ölkəni ancaq ticarət (tədavül)sferası ilə inkişaf etdirmək olmaz, bunun üçün istehsal vacibdir. Yəni dövlət proteksionizm siyasətindən istifadə etməklə yanaşı, istehsalın inkişafını da təşkil və tənzim etməlidir. Digər tərəfdən həmin dövrdə dövlətin tənzimləmə siyasəti mürəkkəblik



downloaded from KitabYurdu.az

törətdiyi üçün məsələ dövlətin iqtisadiyyata müdaxilə etməməsi kimi qoyulmağa başladı.

Fiziokratlar . Tam iqtisadi nəzəriyyə XVIII- əsrin ortalarında Fransada yaranmış və F.Genenin ( 1694-1774) adı ilə bağlıdır. Merkantiizmdən fərqli olaraq fiziokratlar sərvətin mənbəyinin təcarətdə yox, istezsalda olduğunu göstərirdilər. F.Gens məhsuldar sinif kimi kəndliləri qeyri məhsuldar sinif kimi sənaye işçilərini (çünki onlar məhsulun formasını dəyişirlər), torpaq sahibləri – keşişlər, monaxlar, latfundiyaçıları ayırır. Bunlar torpaq icarəsindən gəlir götürürlər.Fiziokratlar nəzəriyyəsinin sonrakı inkişafı A.R.Turqonun (1727-1781) adı ilə bağlıdır. Turqo sənayeçiləri iki hissəyə bölür: sahibkarlara və muzdlu fəhlələrə. Turqo ticarət və sənaye mənfəətini qəbul edir, lakin onun həcmini torpaqdan alınan gəlirdən çıxılması nəticəsi kimi göstərir. Fiziokratlar dövlətin iqtisadiyyata- müdaxilə etməməsində israrlı idilər. ( nə istəyirlər etsinlər və hara istəyirlər getsinlər. **Laissez faize, Laissez passer)** Bu iqtisadi liberalimz idi.

## *2.KLASSİK NƏZƏRİYYƏ.*

Klassik nəzəriyyənin inkişafı A.Smitin ( 1723-1790) adə ilə bağlıdır. A.Smitin konsepsiyası əsası merkantilist U.Petti ( 1623-



downloaded from KitabYurdu.az

1687) və fiziokrat P.Buaqilber ( 1646-1714) tərəfindən irəli sürülmüş əmək dəyər nəzəriyyəsinə əsaslanmışdır. Fizilaratlardan fərqli olaraq A.Smit sərvətin maddi istehsalda yaradıldığını və onun mənbəyinin əmək olduğunu təsdiq edir. Sərvətin artırılması şərti isə əmək məhsuldarlığıdır.

A.Simit iqtisadi qanunlarda, təbiət qanunları kimi cəmiyyətin inkişafında rolu olduğunu qeyd edirdi. Onun bu fikri «Təbii harmaniya» ideyasına mütabiq gəlirdi. Bu isə iqtisadi proseslərin "«görünməz əl» vasitəsilə idarə olunması anlamına gətirib çıxarırdı, dövlətin iqtisadiyyata müdaxiləsindən imtina edilərək, onun ancaq qayda-qanunu qoruyan bir qrum olduğunu qeyd edilirdi.

A.Smitin davamçısı kimi D.Rikardo (1772-1823) pula tədavül vasitəsi kimi baxırdı. Onun fikrincə insanların şəxsi marağı cəmiyyətin inkişafının təkanvericisidir.

D.Rikardoda iqtisadiyyata dövlətin müdaxiləsini qəbul etmirdi. O, qeyd edirdi ki, iqtisadiyyatda dərk olunun iqtisadi və təbiət qanunları fəaliyyət göstəririrlər. Bunanla belə D.Rikardo dövlətin iqtisadi siyasəti işləyib hazırlanmasını lazım blirdi ki, bu da cəmiyyətin məhsuldar qüvvələrinin işkişafına şərait yaratmış olardı. Smit və Rikardo azad ticarətin təfərdərları olaraq ( friderçilik) qeyd etmişlər ki, merkantil ticarət məhsulların qiymətinin yüksəlməsinə səbəb olur. Buna görə də onlar « müqayisəli xərc» prinsipini rrəli sürürdülər. ( yəni məhsulu kimə və harada satmaq sərfəlidir).



downloaded from KitabYurdu.az

A.Smitin ardıcılı fransız J.B.Sey (1766-1832) olmuşdur. Fransa Vuldar siyası iqtisadının banilərindəndr. Əsas müddəası məşsulun dəyərinin onun fəaldığı ilə yəni, istehlak dəyərində ilə yəni, istehlak dəyərində olmasını göstərməkdir.

Bunun üçün gəlirlərin arqement ondan ibarətdir ki, bazar şəraitində əmək haqqı, faiz stavkası daha çevik olub tələb və təklifin təsiri altında dəyişilərək, bazarın yeni vəziyyətinə tez uyğunlaşırlar.

Bu iqtisadiyyatda « Sey qanunu» kimi ifadə olunmuşdur. J.B.Sey, A.Smitin dəyərlərin yaranması mənbəyi kimi əmək, kapital, torpağın götürülməsini bir azda inkişaf etdirmişdir. Bu mövqedən əmək haqqı, kapitalistin mənfəəti, torpaq rentası istehsal xərclərinə mütabiqdir. Yəni məhsulun mübadilə dəyəri istehsal xərclərinə bərabərdir. Bu fikirlə o, D.Rikardodan irəliyə gktmişdir. Çünki, D.Rikardo torpaq və kapitalın mübadilə dəyəri yaratmadığını söyləyirdir. Kapitalist mənfəəti və torpaq rentası fəhlənin faratdığı dəyərdən çıxılmalardır.

A.Smitin davamçısı və şagirdi olan T.R.Maltus (1766-1834) yoxsulluğun əsasını pis idarəetmədə yox, özünün elan etdiyi « əhali artımı qanunu»nda görürdü. Onun fikrincə əhali həndəsi silsilə ilə istehlak məhsulları isə ədədi silsilə ilə artır. Buna görə də o, dövrü olaraq müharibələrin olmasını zəruri hesab edir.

<u>Marksizm</u>. Bu məktəbin baniləri K.Marks ( 1818-1883) və F.Engels ( 1820-1895) olmuşdur. K.Marks və F.Engelsin yaratdıqları iqtisadi nəzəriyyə klassik məktəblə sıx bağlı olmuşdur.



downloaded from KitabYurdu.az

Öz iqtisadi təlimində K.Marks izafi dəyər nəzəriyyəsinə daha çox diqqət yetirmişdir.

K.Marksa görə kapitalist əməyi yox işçi qüvvəsini alır. İş qüvvəsinin dəyəri isə onun təkrar istehsalına çəkilən xərclərlə müəyyən edilir. ( ərzaq, geyim, yaşayış vasitələri və s.) İş qüvvəsinin bu dəyəri ilə onun yaratdığı dəyər arasındakı fərq izafi dəyərdir.

## *3. NEOKLASSİK NƏZƏRİYYƏ VƏ İQTİSADİ LİBERALİZM.*

İqtisadi inkişafın tədqiqində neoklassik istiqamət XX-əsrdə bir sıra iqtisadçı alimlərin diqqət mərkəzində olmuşdur. Neoklassik məktəbin əsas nümayəndələri A.marşal (1842-1924), L.Mizes ( 1881-1973), F.Xayek ( 1899-1992) olmuşlar.

Bu istiqamətin yaradılcısı isə A. Marşal (1842-1924) olmuşdur. A.Marşalın təklif etdiyi model Lozan məktəbinin nümayəndələrindən olan L.Valras ( 1834-1923) modelindən əhəmiyyətli dərəcədə fərqlənir. L.Valrasa görə qiymət-asılı olmayan dəyişəndir mal təklifi qiymətlə əlaqədər dəyişir, tarazlığa qiymətin hərəkəti ilə nail olunur.

A.Marşal isə mal təklifinin qiymətlə şərğlənmədiyinə və xərclərdən asılı oldüğünü göstərir. Tarazlıq isə məhsul istehsalının həcmi həyata keçirilir. A.Marşal xərclərin dinamikasını istehsal miqyasının dəyişməsi ilə əlaqələndirir. A.Marşal göstərir ki, təklif



downloaded from KitabYurdu.az

qiyməti istehsal xərcləri ilə, tələb qiyməti isə məhsulun son istehlak fazdalılığı ilə müəyyən edilir.

A.marşaldan fərqli olaraq C.Hiks ( 1904-189) son faydalılıq anlıyışını inkar edir. Onun fikrincə faydalılıq ölçülməyə yatımlı deyildir. C.Hiks etinasızlıq əyrisinə əsaslanaraq son əvəzetmə norması anlayışını irəli sürür. C.Hiks göstərir ki, müəyyən növ məhsul kəmiyyəti istehlakçı üçün digər məhsulun son itkisini hansı ölçüdə kompensasiya eləyir. C.Hiksə qədər marşinalistlər faydallıq həddi nəzəriyyəsini yaratmışlar. Marşinalizmin əsası Avstriya məktəbinin nəzəriyyəçiləri K.Menger (1840-1921), E.Bem-Baverk (1851-1914) , F.Vizer ( 1851-1926) tərəfindən qoyulmuşdur.

Marşnalizmmin əsas koteroriyaları məhsuldarlıq həddi, faydalılıq həddi məsrəf zddi sayılır. C.Hiks müxtəlif növ məhsulların məcmu tələbinin nzəri təhlilini aparmışdır.

Samuelson ( 1915) elmi araşdırmalar nəticəsində sübut etmişdir ki, istehsal- istehlak nəzəriyyələrində, beynəlxalq ticarət nəzəriyyəsində müəyyən göstəriciləri riyazi funksiyaların göməkliyi ilə almaq mümkündür. Buna görə də qoyulmuş məsələnin maksimum-minimum hədlərin tapmaq mümkündür və onları başlanğıc şərt kimi qəbul etmək olar.

Neklassiklərin əsas hesab etdikləri dəlil ondan ibarətdir ki, insanların fəaliyyətinin əsasında şəxsi maraq dayanır. Onlar iqtisadiyyata tarazlı harnonik sistem kimi baxırlar. Həmin sistemin hər bir komponentinin eqoizmi azad rəqabət şəraitində cəmiyyətin bütünlükdə əhval-ruhiyyəsinin yaxşılaşdırılmasına gətirib çıxardır.



downloaded from KitabYurdu.az

İqtisadiyyata dövlətin hər bir müdaxiləsi onun fəaliyyətinə xələl gətirir, fərdin nəaliyyətlərini çətinləşdirir və bununlada ümumilikdə cəmiyyətin inkişafını ləngidir.

Bu yanaşma ilk dəfə ingilis alimi A.Smit (1723-1790) tərəfindən irəli sürülmüş və iqtisadi liberalizm adlandırılmışdır. İngilis klassikləri iqtisadiyyatda dövlətin funksiyasını «gecə gözətçisi» kimi məhdudlaşdırmışlar və onun rəqabətin, xüsusi mülkiyyətin, ölkədə qanun-qaydanın qoruyucusu olduğunu qeyd etmişlər. Onların fikrincə dövlət bazar fəaliyyətinə birbaşa müdaxilə etməsədə, sahibkarlığın və fəaliyyəti üçün əlverişli mühit yaratmalıdır. Bu ideyanın ilk müəlliflərindən biri alman alimi V.Oyken ( 1891-1950) olmuşdur. O, sübüt edirdiki dövlət heç bir vəchlə planlaşdırmaya və tənzimləməyə buraxmaq olmaz, bununla belə o, iqtisadi qaydaların elementlərinin formalaşması üçün zəruridir.

## 4. *KEYNSİN İQTİSADİ TƏLİMİ*.

İqtisadiyyata dövlətin müdaxilə etməməsi klassik formada XX əsrin 28-33-cü illərinə qədər, ABŞ-da «Böyük depressiya» dövrünə qədər davam etmişdir. İqtisadiyyata dövlət müdaxiləsi 30-60-cı illərdə



downloaded from KitabYurdu.az

Keyns dövrü kimi adlanır.S.M.Keyns (1886-1946) ingilis burjua siyasi iqtisadçısı olub, müasir iqtisadiyyatın inkişafında mühüm rol oynamışdır. Kembric universitetinin professoru, əsas elmi işi «Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi» (1936) olmuşdur.

Keyns tədqiqatının əsas mahiyyəti iqtisadiyyata dövlətin ardıcıl müdaxiləsidir. Tədqiqatın əsas ilkin momenti iqtisadiyyatda məcmu tələbin tənzimlənməsi sayılır.

Qeyd etmək lazımdır ki, Keynsin təlimi təcrübədən doğmuşdur. Yəni böhran dövrü və ondan çıxmaq tədbirlərini ancaq dövlət həyata keçirə bilərdi.

Keynsin iqtisadi təliminin əsaslarını belə ifadə etmək olar:

a) Kor təbii bazar mexanizminin qiymətləndirilməsi və iqtisadiyyata dövlətin müdaxiləsinin səbəbləri.

b) bu müdaxilənin məqsədinin formalaşdırılması.

v) iqtisadiyyatın dövlət tənzimlənməsinin forma və metodlarının, istiqamətinin müəyyən edilməsi.

ABŞ prezidenti Ruzvelt 1933-cü ildə Keynsə yazdığı məktubda göstərirdi ki, «ortodoksal iqtisadi siyasətindən ümumi qəti tədbirlərə keçmək lazımdır. Hansı ki, belə tədbirlərə əlahiddə hallarda əl atmaq olardı. Nəticədə belə məlum oldu ki, doktirina nəinki böhrandan çıxmaq üçün təməl daşı olmuşdur, habelə kapitalist sisteminin gələcək inkişaf təmayülünü müəyyən etmişdir. Bu haqda Keyns özü yazmışdır. «Mən misal gətirə bilərəm ki, klassik (mövqe) nəzəriyyə ümumi hal üçün qəbul edilə bilməz, çünki o baxdığı iqtisadi situasiya xüsusi hal üçün yaradılır. Bu xüsusi vəziyyət cəmiyyətin iqtisadi



downloaded from KitabYurdu.az

mənafeləri ilə çox vaxt üst-üstə düşmür və ciddi əyintilərə gətirib çıxardır.»

Çox vaxt Keyns təlimini qıtlıq maliyyələşdirilməsi adlandırırlar. Belə ki, dövlət xərclərinin artırılması qiymətli kağızlarla qapanır və bu sonda iqtisadiyyata pozitiv təsir göstərərək ümumi tələbat və məşğulluğun artmasına səbəb olur.

Neoklassiklər kimi bu istiqamətin iqtisadçıları da bazar iqtisadiyyatının tərəfdarı olub, göstərirdilər ki, tələb təklif münasibətlərini, mənfəət və sərbəst qiymətləri bazar təşkil edir, xətləndirir. Lakin keynsçilərdə bazar mexanizminin qiymətləndirilməsi fərqlidir. Buna görə də iqtisadiyyatda dövlətin iştirakının rolu və funksiyaları da fərqli xüsusiyyətə malikdir.

Keyn və onun ardıcılları dövlət və bazarla tənzimlənən iqtisadi sistemin nizamlı konsepsiyasını «oyun qaydalarını» yaratmışlar. Bu sistemi bəzi hallarda keynsin qarışıq iqtisadiyyatı adlandırırlar.

Kenys konsepsiyaları aşağıdakı müddəalara əsaslanır:

a) Kor-təbii bazar mexzanizminin qiymətləndirilməsi və iqtisadiyyata dövlətin müdaxiləsinin səbəbləri.

b) müdaxilənin məqsədinin formalaşması.

v) iqtisadiyyatın dövlət tənzimlənməsinin forma və metodlarının istiqamətinin müəyyən edilməsi.

Bazar sisteminin müsbət cəhətlərini qeyd edərəkkeynsçilər göstərirdilər ki, bazar – cəmiyyətin iqtisad inkişaf tarixinin yaratdığı qəribəliklərə malik olan ictimai institutdur. Bazar sistemi fövqəladə dinamiklikdir, yenilikləri qəbul edərək onlar üçün geniş meydan açır,



downloaded from KitabYurdu.az

tələbin elastikliyinə tez uyğunlaşır. Lakin keynsilər onu da qeyd edirdilər ki, bazar mexanizmi həmişə hər şeyi həll etmək iqtidarında deyil və onun mənfi tərəfləri də vardır.

Birincisi, bazar daxilən dəyanətli deyildir. Ona tsiklik təkrar istehsal xasdır. Çünki bəzən yüksək tərəqqidən sonra tənəzzül baş verir.

İkinci, bazar sistemi sosial nəticəyə biganədir. Çünki bazarda sərvət və gəlir hökmrandır. Ancaq bunların mövcudluğu əmtəə və xidmətlərin əldə edilməsinə imkan verir.

Bu və digər səbəbdən sərvəti olmayanlar istehsal edə bilmədikləri üçün bazar mexanizmi vasitəsilə mənfəət də ala bilmirlər. Lakin sərvəti olanlar və istehsal edənlər də müəyyən problemlərlə rastlaşırlar. Onlar bütün sərvətə malik olub, gəlir əldə etsələr də, özləri heç nə istehsal etmirlər. Onların gəlirləri çox zaman əməksevərliyi və ixtisasından asılı olmayaraq bazar mexanizminin səmərəli fəaliyyəti ilə müşayiət olunur. Buna görə də keynsçilər qeyd edirlər ki, bu da o deməkdir ki, gəlirlərin bölgüsü cəmiyyətin təqdim sosial ədalətə deyil, bazar qüvvələrinin fəaliyyəti ilə şərtlənir. Bu isə sosial ədalət prinsipinə biganəliyə gətirib çıxardır.

Üçüncüsü, bütün nemət və xidmətlər bazar sistemini ilə qiymətləndirilə bilmirlər. Bu sıraya ictimai nemətlər adlanan əmtəələr daxildir. Məsələn, milli müdafiə sistemi, ictimai əsayişin qorunması, hava proqnozu, milli təhlükəsizlik, küçələrin işıqlandırılması, fundamental elmi tədqiqat işlərinin nəticələri, ətraf mühitin çirkləndirilməsi tədbirləri və s. bu sahələrdə bazar sistemi



downloaded from KitabYurdu.az

effektli fəaliyyət göstərə bilmir. «Bazar iflası»nı dəf etmək üçün dövlətin aktiv müdaxiləsi zəruridir ki, bu zaman o, hər «tərəfli stabilləşdirici» funksiyasını yerinə yetirir. Dövlət iqtisadi və sosial dəyanətsizliyi ləğv edir və ya hamarlaşdırır. O, bazarın həll edilməz məsələlərini araşdırır, boşluqları doldurur. Məşhur amerika iqtisadçısı Nobel mükafatı laureatı P.Samuelson göstərir ki, nəticədə qarışıq iqtisadiyyat formalaşır və ictimai təhlükəsizliyin nəhəng sistemi yaranmış olur.

Beləliklə, ümumi konsepsiyalar əsasında keynsçilər qarışıq iqtisadiyyatın dövlət tənzimlənməsinin forma və metodlarını işləyib hazırlamışlar. İqtisadiyyatın dövlət tənzimlənməsi təcrübəsində daha çox qəbul edilən antiinhisar (çox vaxt onu iqtisadi konyuktura adlandırırlar) və iqtisadi artım nəzəriyyəsi sayılır.

Keyns təlimini dərindən dərk etmək üçün klassik nəzəriyyənin ümumi müddəasını izah etmək lazımdır. Bu baxışları şərti olaraq iki istiqamətə ayırmaq mümkündür.

Birincisi klassik istiqamətdir ki, bazar sisteminin avtomatik özünü tənzimlənmə xüsusiyyətinin olduğuna əsaslanır.

İkinci istiqamət Keyns nəzəriyyəsidir ki, yüksək işsizlik səviyyəsində bazar sisteminin uzun müddətə durğunluq halında ola bilməsinə əsaslanır.

Bu istiqamətlərə ayrı - ayrılıqda nəzər salaq.

Klassik istiqamət uzun müddət 1929 – 1933-cü illər böhranına qədər iqtisadi inkişafda hakim olmuşdur. «Sey qanunu»na əsaslanaraq göstərilirdi ki, bazar rəqabəti sistemi tələb və təklifin



downloaded from KitabYurdu.az

tarazlığını avtomatik tənzim edir və bu halda dərin iqtisadi böhranlar ola bilməz.

Klassiklər qiymət, əmək haqqı, faiz stavkasının çevikliyini qeyd edərək göstərirdilər ki, məcmu təklif şaquli xəttdə yerləşib. Ümumi milli məhsulun (ÜMM) mötəməl həcmini əks etdirir. Daha doğrusu qiymət və əmək haqqı yuxarı – aşağı hərəkət edərək tələblə təklif arasında balanslılığı ifadə edə bilər. Qiymətin aşağı salınması əmək haqqının azalmasına səbəb olduğu halda belə, tam məşğuliyyəti təmin etmək olar. Tələbin azalmasına görə qiymət səviyyəsinin aşağı düşməsi ümumi milli məhsulun azalması demək deyildir. Yəni istehsal olunan bütün məhsul başqa qiymətlə olsa da satılacaqdır. Beləliklə məcmu tələbin azalması, məşğuliyyətin və ÜMM azalmasına yox, ancaq və ancaq qiymətin aşağı düşməsinə səbəb ola bilər. Makroiqtisadi sahədə dövlətin iqtisadi siyasətini klassik istiqamət belə şərh edir ki, makroiqtisadi inkişaf ancaq qiymət səviyyəsinə təsir göstərə bilər.

Məcmu tələb və təklifin klassik konsepsiyası qrafiki şəkildə belə göstərilə bilər.

Şəkil 1.






downloaded from KitabYurdu.az

$P_1$

0 ÜMM P

$SP_1$ –məcmu təklif

SS – məcmu tələb

$S_1S_1$- yeni məcmu tələb

Əgər klassik məktəb tərəfdarları qiymət, əmək haqqı və faiz stavkasının qısa müddətə çevikliyini qeyd edirdilərsə, keynsçilər onun qısa müddətdə, hətta orta müddətdə də dəyişməzliyini göstərirdilər.

Klassik istiqamətinin əsas çatışmazlığını qeyd edərək Keyns göstərirdi ki, onlar işsizliyin hansı yolla azaldılmasını şərh edə bilmirdilər. Keyns makroiqtisadi tənzimlənmənin mahiyyətini qiymət və əmək haqqına nisbətən çevik olan gəlirlərin dəyişilməsi şəraitində xərclərin idarə edilməsinin dövlət tənzimlənməsində görürdü. Qiymət və əmək haqqının qeyri çevikliyini Keyns belə izah edir. Həmkarların inkişafı 3 illik kollektiv müqavilələrin bağlanmasına gətirib çıxarmışdır. Həmin müqavilələrdə həyat səviyyəsinin yüksəlməsi ilə əlaqədar əmək haqqı stavkasının dəyişilməsi razılaşdırılır. Bu prosesə dövlət müdaxilə edərək yaşayış minimumunu müəyyən edir, gəlirlərin indeksləşdirilməsini aparır. Bəzi qiymət növlərinin dövlət tərəfindən tənzimlənməsi də onların çevikliyini azaldır. Müəssisələr də bir – biri ilə uzun müddətli müqavilələrlə bağlıdırlar və bazar situasiyasının dəyişilməsi ilə qiymət səviyyəsinin çevikliyi üst – ystə düşmür. Bəzi firmalar dövlət güzəştlərinə malik olduqları üçün bazar situasiyasının dəyişilməsi



downloaded from KitabYurdu.az

onlarda da qiymətin çevikliyinə səbəb olmur. Bütün bunların hamısı qiymətlərin çevikliyini gecikdirirlər.

Məcmu tələb və təklifin Keyns konsepsiyasını belə göstərmək olar.

Şəkil 2.




$K_1K_1$-qısa dövrə məcmu tələb

$BB_1$-uzun dövrə məcmu tələb

SS – məcmu tələb

$S_1S_1$-yeni məcmu tələb

Q-qiymət

Klassik istiqamətlərdən fərqli olaraq Keyns göstərirdi ki, dövlət məcmu tələbə təsir edərək iqtisadiyyatı tənzim edə bilər. Keyns modelində məcmu təklif X oxuna paralel götürülür ki, bu da qiymət və əmək haqqının qısa müddətə çeviksizliyini və işsizliyin mövcudluğunu əks etdirir. SS xətti D nöqtəsində $KK_1$ xəttini kəsir ki, ÜMM həcmi OA bərabərdir. Əgər tələb $S_1S_1$ qədər artsa bu



downloaded from KitabYurdu.az

qiymətin yüksəlməsinə yox ümumi milli məhsulun $AA_1$ qədər artmasına səbəb olacaqdır.

Keynsçilər bazarın tənzimlənməsinə məcmu tələb vasitəsilə təsir etmək mümkün olduğunu söyləyərək bazarda böhran vəziyyətinin yaranmasının səbəbini «effektli» tələbin çatışmazlığında görürdülər. Belə ki, əgər SS xətti $KK_1$-ni Y oxuna yaxın vəziyyətdə kəsərdisə, bu zaman müəyyən qədər işsizliyin uzun müddət saxlanılacağı gözlənilir. Keyns qeyd edirdi ki, ÜMM artımına avtomatik təsir göstərən iqtisadi alət yoxdur. Buna görə də o, yazmışdır ki, son nəticədə biz elə dəyişənlər seçə bilərik ki, yaşadığımız cəmiyyəti idarə edən mərkəzi hakimiyyətin nəzarətinə yatımlıdır.

Buna görə də Keynsçilər iqtisadiyyatın dövlət tərəfindən tənzim olunmasını qəbul edirdilər. Onlar dövlət xərclərinin artırılması nəticəsində tələbin $S_1S_1$ xəttindən keçdiyini ÜMM-un $AA_1$ qədər artdığını göstərirdilər. ÜMM-un artımı isə məşğuliyyətin qismən təmin olunmasıdır.

Bu istiqamətlərin hansının düzgün olduğunu qəti söyləmək mümkün deyildir. Çünki hər ikisinin müsbət və mənfi cəhətləri vardır. Məsələn, bazarın öz – özünü avtomatik tənzimləmə mexanizminin olması hələ də mübahisəlidir.

Onun mərkəzləşdirilmiş idarə edilməsi də mümkün deyildir. Dövlətin iqtisadiyyatı tənzimlənməsi sərhəddi haradan başlayıb, harada qurtarmışdır və s. Keyns göstərmişdir ki, dövlət bazar iqtisadiyyatına təsir göstərə bilər, bunun üçün onun əlində kifayət qədər iqtisadi alət vardır.



downloaded from KitabYurdu.az

Lakin XX əsrin sonlarında inhisarçı kapitalın meydana gəlməsi və onun təbii proseslərə təsiri klassiklərin nəzərdə tutduqları makroiqtisadi tarazlığın pozulması, dövlətin qiymət əmələ gəlməsinə tez-tez müdaxiləsini zəruriləşdirdi.

Belə məlum oldu ki, tələbin təklifə uyğun gəlməsi (klassik yanaşma) ümumiyyətlə mifdir, cəfəngiyatdır. Çünki cəmiyyət həmişə iqtisadi artıma can atır, deməli onun yığımı olmalıdır. Keyns bunu belə izah edir. Cəmiyyət həmişə əmanətə meyllidir. Bu baxımdan o, istehsal etdiyi dəyərin müəyyən hissəsini əmanət kimi saxlayır, deməli istehlak dövriyyəsindən pulu çıxardır. İstehlak dövriyyəsindən pulun çıxarılması tələbi azaldır. Tələbin azalması ödənilməmiş təklif (satılmamış məhsul) formasında qalır ki, bu da ifrat istehsalıdır. İfrat istehsal isə böhrandır. Buna görə də Keyns ümumi tələbin tənzimlənməsi tezisini irəli sürür və bunu iqtisadiyyatın dövlət tənzimlənməsinin başlanğıc nöqtəsi kimi qəbul edir.

Keyns təlimi əmanətlə investisiyanın və faiz normasının qarşılıqlı əlaqəsini, qiymətin rolunu əks etdirir. Tələb təkliflə üst-üstə düşmədiyi halda, qiymət aşağı və yuxarı ola bilər. Belə halda alıcı da gözləmə mövqeyi tutacaq (səmərəli gözləmə konsepsiyası) bu halda pulunu əmanətə qoyacaq, investisiya resursunu artıraraq faiz normasını azaldır və yaxud əksinə. Təklifi artırmağı çalışan istehsalçılar investisiyaya müraciət edəcəklər, istehsalı genişləndirərək təklifi artıracaqlar, qiymətlər aşağı düşəcək, alıcılar əmanəti geri alaraq bazara üz tutacaqlar. Bu proses tsiklik olaraq



downloaded from KitabYurdu.az

davam edəcəkdir. Deməli prosesin nizamlı olması üçün dövlət tənzimlənməsi zəruridir.

Bu məsələyə digər tərəfdən də yanaşıla bilər. Belə ki, bazarda təklif artır, lakin tələblə örtülmür. Bu isə neqativ haldır. Çünki, ancaq bazarın qəbul etdiyi, reallaşdırılmış məhsul maddi nemət kimi qəbul edilir. Deməli, bazarı tənzimləmək üçün dövlət «təshihedici» (korrektirovka) funksiyasını yerinə yetirməlidir.

Keynsin nəzəriyyəsi belə bir psixoloji prinsipə də əsaslanır. Əhalinin gəlirinin artması adekvat olaraq istehlakının artması demək deyildir. Belə halda əhalinin müəyyən hissəsi əmanətə meylli olur. Yəni investisiya resursunu artırır. Belə halda dövlətin funksiyası istehlakla əlavə istehlakın və ya istehsalın genişləndirilməsini tənzim etməkdir. Elə buradan da ümumi parametrlərin dərk edilməsi-investisiyanın həcmi, əmanətlər, bütünlükdə makrotarazlığın saxlanılması meydana gəlir.

Keyns maddi nemətlər istehsal edən sahələrdə digər sektoru dəqiq ayırd edərək göstərir ki, bunlar arasında daimi qarşılıqlı əlaqə mövcud olsa da, birinci sahəyə qoyulan investisiyanın ikinci sahəyə təsiri müəyyən dövrdən sonra baş verir. Deməli, müəyyən dövrlər arasında multiplikator əmsalı fəaliyyət göstərir. Yəni müəyyən dövrdə məcmu tələb investisiya həcminin artımının multiplikator əmsalına münəcər olunması ilə müəyyən olunur.

Keyns istehlaka obyektiv, subyektiv tərəflərdən yanaşaraq psixoloji-subyektiv faktorlardan istifadə edərək hər bir fərdin bu və ya digər situasiyada hərəkətinin obyektiv reallığa yaxınlaşdığını qeyd



downloaded from KitabYurdu.az

edir. Bununla da obyektiv və subyektiv qanunauyğunluqların vahid nəzəriyyənin tərkib hissələri olduğunu göstərir.

Keyns öz təlimində pul üçün bir oqədər yer ayırmır. O, sadəcə olaraq göstərir ki, cəmiyyət öz gündəlik tələbatını ödəmək üçün pula ehtiyac duyurlar, pul isə bankdan başqa yerdə istehsal olunmur. Ona görə də cəmiyyəti başa salmaq lazımdır ki, pul problemi dövlət nəzarətində olmalıdır.

Öz nəzəri müddəalarında Keyns əsasən makro təhlilə; - milli gəlir, məşğulluq, tələb və təklif, investisiya kateqoriyalarına əsaslanır. Keyns «görünməz əl» anlayışına da tənqidi yanaşır və göstərir ki, ayrı-ayrı tək adamların varlanması, hələ cəmiyyətin varlanması demək deyildir. ( A.Smit fərdlərin varlanmasını, cəmiyyətin varlı olması olduğunu israr edirdi.) . Əksinə onların arasında ziddiyyətlər meydana gələ bilər ki, bu da böhran yarada da bilər.

Bazar iqtisadiyyatının üstünlüyünü qeyd edən keynsçilər, onun dinamiki və özünü tənzimləmə mexanizminə malik olmasını göstərirdilər. İnzibati iqtisadiyyatda irəliləyişlərə nail olmaq olar, lakin bu daha böyük xərc tələb edir. Keynsçilər israrlıdırlar ki, bazar heç də hər şeyi həll etməyə qadir deyildir, belə ki:

1. Bazar iqtisadiyatı daxilən dəyanətli deyildir, o, tsiklik xüsusiyyətə malikdir.
2. Bazar iqtisadiyyatında bütün xidmət və sərvətlər qiymətləndirilə bilmir.( ictimai sərvət, milli təhlükəsizlik, hava proqnozu).



downloaded from KitabYurdu.az

3. Bazar iqtisadiyyatı bütün xarici effektləri nəzərə ala bilmir. (atmosferin çirklənməsi)
4. Bazar iqtisadiyyatı sosial nəticəyə biganədir. Çünki onda sərvət və gəlir hökmrandıq edir. Kimin gəliri və sərvəti varsa o, xidmət və əmtəələrə sahib ola bilər. Kimin yoxdursa, onlardan məhrumdurlar.

## 5. *MONETARİZM*.

Monetar sistem erkən merkantilizmə aid olub, sərvətin çoxalmasını pul dövriyysinin artmasında görürdülər.

Monetarizmin bir təlim kimi yaradıcısı amerika alimi Milton Fridmen olmuşdur. M.Fridmen (1912) amerika iqtisadçısı « Çikaqo iqtisadi məktəbinin» yaradıcısı olub, monetarizm cərəyanının banilərindən sayılır. Onun fikrincə « monetarist» pulun kəmiyyət nəzəriyyəsinə inanan adamdır. M.Fridmen öz təlimini əsasən D.Keynsinin nəzəri tənqidi üzrə quraraq müəyyən qədər klassik nəzəriyyəyə qayıdış etmişdir. Yəni dövlət iqtisadiyyata mydaxilə etməməlidir, real iqtisadi təbii proseslərlə maneçilik törətməməlidir. Bazar özünü təbii proseslərlə avtomatik olaraq tənzim edəndir. Lakin onun fikrincə iqtisadiyyata dövlətin müdaxilə etməməsini tamamilə inkar etmək də olmaz. Çünki bu sahədə müəyyən təcrübə toplanmış, inkişaf etmiş ölkələr müəyyən tənzimləmə konsepsiyalarından istifadə etmişlər və s. buna görə də M.Fridmen təklif edirdi ki, dövlət müəyyən hallarda iqtisadiyyata müdaxilə edə bilər və bu müdaxilə ancaq pul parametrləri vasitəsilə olmalıdır.



downloaded from KitabYurdu.az

Əgər keynsçilər məcmu tələbin genişləndirilməsi vasitəsilə iqtisadiyyatən dövlət tənzimlənməsinə və makroiqtisadi stabilləşməyə irəliləyirdilərsə, Fridmen tələbatın təkrar istehsal prosesinin fazalarının ilkin momenti olduğu konsepsiyasını irəli sürürdü. Fridmenə görə məcmu gəlirin artımı real tələbata bir o qədər də təsir göstərmir. Onun fikrincə istehlakçı daimi səviyyəli tələbata malikdir və fərdin gəlirinin çoxalması ona təsir göstərməməlidir.

Monetaristlər keynsçilərin qiymət artımı ilə istehsalın həcminin artımı arasında birbaşa korelyasiya əlaqəsi olması və bunun nəticəsində istehsalın canlandırılması haqqındakı tezislə razılaşmırlar. Fridmenə görə qi ymətlərin aşağı salınması yolu ilə də tələbə təsir göstərib istehsalı canlandırmaq olar. Çünki, qiymət mütənasiblikləri ilə daima müdaxilə edilməsi iqtisadiyyatın stabil inkişafına ziyan gətirə bilər. Halbuki, azad sahibkara stabil qiymət lazımdır ki, perspktivə öz işini qura bilsin. Buna görə də Fridmen iqtisadiyyatın inkişafını fərdi-təsərrüfatçıda görürdü.

Monetarist cərəyanın mərkəzində pul durur. Mərkəzi ox ətrafında bütün iqtisadiyyat hərəkət edir. Monetaristlərin doktirinası belə səslənir – ümumi milli məhsulun həcmi təsərrüfat aktivliyinin səviyyəsini əks etdirir. Onun artıb-azalması pul kütləsinin artıb-azalması ilə müşayiət olunur.

Monetaristlər pula sadəcə iqtisadi amil kimi baxmırlar, pulun təsərürfat sisteminin mərkəzi elementi olduğunu qeyd edərək bütövlükdə təkrar istehsal prosesində konyukturanı müəyyən edən



downloaded from KitabYurdu.az

amil olduğunu göstərirlər. Yəni pul təklifi son nəticədə istehsalın səviyyəsinin yüksəldilməsi üçün impuls rolunu oynayaraq qiymət və məşğulluğu müəyyən edir.

Hiperinflyasiya şəraitində iqtisadi böhrandan çıxmaq üçün monetaristlər dövlətə aşağıdakı proramı təklif edirdilər:

1. Tədavüldə pulun kəmiyyət dövriyyəsinin tsiklik rədd olunması. Mərkəzi dövlət tərəfindən pul kütləsinin dövlət tərəfindən pul kütləsinin həcminə ciddi nəzarət edilməsi və onun il ərzində 3-5% artımından çox olmaması.
2. Yüksək bank faizinin tətbiq olunması.
3. Əmək haqqı artımının qarşısının alınması. Əmək haqqının aşağı düşməsi halında belə məşğulluğun yüksək səviyyəsinin saxlanılmasına səy göstərmək.
4. Dövlət büdcəsinin xərclərini azaltmaq.

M.Fredmenin bu təklifi bir çox ölkələr tərəfindən yüksək qiymətləndirilmişdir. Məsələn, İngiltərədə Mühafizəkar Partiya (Tetçer) 1979-cu ildə hakimiyyətə gəldikdən sonra monetarist konsepsiyasını əsas götürərək öz maliyyə-pul sistemini qaydaya sala bildilər. Onlar vergilərin azaldılması, dövlət müdaxiləsinin məhdudlaşdırılması, investisiyanın stimullaşdırılması proqramını qəbul etmişdilər. Dövlətin əsas vəzifəsi inflyasiyanı dəf etmək üçün pul artımını məhdudlaşdırmaq olmuşdur.

Monetarist konsepsiyanın daha geniş tətbiqi Reyqanın dövründə olmuşdur. İlk əvvəl monetarist proqramda xüsusi bölməyə dövlətin müdaxiləsinin sərt məhdudlaşdırılması oldu.



downloaded from KitabYurdu.az

Korporosiyalardan tutulan vergilər azaldıldı, kompaniyaların fəaliyyətinin reqlamentləşdirilməsinə dövlət nəzarəti sıxışdırıldı. Sosial xərclər azaldılaraq büdcənin məxaric hissəsi azaldıldı. Nəticədə müəyyən nailiyyətlər əldə olunaraq işgüzar dairənin Reyqanın dövlət aparatına inamı artdı. Həmin dövr üçün istehsal həcminin artması işsizliyin minimuma enməsi monetarist konsepsiyasının həyatilik imicini yüksəltdi. Monetarizm aparıcı elmi tədqi qat, tədris, dövlət strukturlarını, beynəlxalq maliyyə institutuna və beynəlxalq valyuta fonduna nüfuz etdi. Beynəlxal Maliyyə İnstitutu və Beynəlxalq valyuta Fondu dövriyyəyə buraxılası pulun həcmini diktə etməyə başladı. Xüsusilə Beynəlxalq Valyuta Fondu ilə əməkdaşlıq edən ölkələr onun təqdimatlarına əməl etməli idilər. Artıq 1960-1970-ci illərdən monetarizm Keyns nəzəriyyəsini sıxışdırıb aradan çıxardaraq inkişaf etmiş ölkələrdə öz şərtlərini məcbur etməyə başladı. Belə ki, monetaristlərin sərt formada irəli sürdükləri dövriyyədəki pul məhdudiyyətlərinə bəzi ölkələr əməl etmədilər. Məsələn, Teççer kabineti 70-ci illərdə 9-13 faiz pul aqreqatının əvəzində 14,5 faizdən istifadə etmişdir.

Pul aqreqatı $M_3$= dövriyyədəki nəğd pul+ bankda depozit qalıqları.

Nəticədə bu bəzi ölkələr üçün ağır nəticələr verdi. Məsələn, Cənubi-Şərqi Asiya ölkələrinin yüksək inkişaf tempi super iri maliyyə resursları tələb edirdi. Onlar bu tələbatın müəyyən hissəsini Beynəlxalq Valyuta Fondunun hesabına ödəsələr də, problem tam həll olunmamış qalırdı. Beynəlxalq Valyuta Fondundan külli



downloaded from KitabYurdu.az

miqdarda borc götürən ölkələr onun girovuna çevrilirdilər. Bu isə ölkələri çıxılmaz vəziyyətlərə salırdı.

Keyns iqtisadiyyatın dövlət tənzimlənməsi nəzəriyyəsini irəli sürürdüsə, monetarizmin banisi olan Çikaqo Universitetinin professoru Fridman bunun əksinə qeyd edirdi ki, dövlət iqtisadiyyata müdaxilə etməməlidir. Fridmanın fikrincə dövlətin tələbi stimullaşdırması iqtisadi böhranı daha da dərinləşdirir və rəqabətin təbii «nizamlayıcı» rolunu azaldır.

Fridmanın ideyası 70-ci illərdə kapitalist dövlət aparatı tərəfindən staqfilyasiyaya qarşı effektli tədbir kimi qəbul edilmişdir.

Staqfilyasiya eyni vaxtda istehsalın aşağı düşməsi, qiymət inflasiyasının yüksəlməsi deməkdir.

Monetarizm fundamental elm deyildir. Onun tərəfdarları müxtəlif variantlar irəli sürürdülər. Monetarizm aşağıdakı əsas elementləri əhatə edir:

1. Dövriyyədə olan pulun məbləği ilə əmtəə dəyərləri səviyyəsinin səbəb əlaqəsi.
2. İqtisadi tsiklin monetar nəzəriyyəsi. Yəni bütün irimiqyaslı təsərrüfat konyukturasının artıb-azalması, pul kütləsinin dəyişməsi ilə əlaqədardır.
3. Dövlət tədbirlərinin iqtisadi tənzimləməyə zəif təsiri.

İqtisadiyyatın inkişafı və bazar münasibətlərinin təşəkkülü şəraitində iqtisadiyyatın dövlət tənzimlənməsində irəli sürülmüş ideyaların qısa məğzini belə ifadə etmək olar.

Cədvəl 1.



downloaded from KitabYurdu.az

| Klassiklər | Keynsçilər |
|---|---|
| 1. Bazar öz-özünü avtomatik tənzimləmə mexanizminə malikdir kənar müdaxilə inkar edilir. | 2. Bazar iqtisadiyyatı daxilən dəyanətli deyildir. O, tsiklik xarakterə malikdir. Bəzi qlobal məsələlərin həllinə dövlətin müdaxiləsi zəruridir. Lakin dövlət həddi ötməməlidir. |
| 2. Bazar münasibətləri tələb-təklif əsasında tənzim olunur. | 2. Bazar münasibətləri tənzimlənərkən tələbin tənzimlənməsi əsas götürülməlidir. Çünki resurslar məhduddur. |
| 3. İnflyasiya bazar iqtisadiyyatının əlamətidir (atributudur). | 3. İnflyasiyanın normal həddi olmalıdır. İnflyasiyasız bazar mümkün deyildir. |
| 4. Qiymətlər sərbəstdir. | 4. Qiymət artımı müəyyən hallarda istehsalın həcminə təsir göstərir. Bütün xidmət və sərvətlər bazar iqtisadiyyatında tam qiymətləndirilə bilməz. Məsələn, ictimai sərvət, hava proqnozu. Buna görə də dövlət müəyyən qiymətlərin tənzimlənməsində iştirak etməlidir. |
| 5. İşsizlik mövcuddur. | 5. İşsizliyin normal səviyyəsi, hədd olmalıdır. |
| 6. Azad rəqabət, iqtisadi inkişafın hərəkət verici qüvvəsidir. | 6. Rəqabəti nizamlamaq üçün antiinhisar qanunlarının tələblərin əməl olunmalıdır. |

Sonda belə nəticə çıxarmaq olar ki, iqtisadiyyatın inkişafında, müxtəlif dövrlərdə iqtisadiyyatın dövlət tənzimlənməsi konsepsiyası əsas götürülməklə bu və ya digər adekvat iqtisadi konsepsiyalardan istifadə etmək olar. Bu şərtlə ki, iqtisadi inkişafın hansı modelinin seçilməsinə dəqiq diqqət verilsin.



downloaded from KitabYurdu.az

Bununla yanaşı iqtisadiyyatın dövlət tənzimlənməsinin 90-cı illərdən başlayan yeni mərhələsini nəzərə alaraq qeyd etmək lazımdır ki, azad bazar iqtisadiyatının inkişafı nə qədər özünü tənzimləmə mexanizminə malik olsada, ona dövlətin müdaxiləsi zəruridir. Lakin dövlət öz funksiyasının sərhəddinin keçməməli, iqtisadiyyatda öz iştirakını minimuma endirməlidir.

## *6. MİLLİ İQTİSADİYYATIN İNKİŞAFI TARİXİ*.

Milli iqtisadiyyatın inkişafının tədqiqinə XIX əsrin ortalarından alman alimi F.List (1789-1846) diqqət yetirmişdir. Onun 1891-ci ildə Rusiyada nəşr edilmiş «Siyasi iqtisadın milli sistemi» əsəri klassik nəzəriyyənin tənqidi üçün emprik material rolunu oynamışdır. F.List göstərirdi ki, hər bir millət özünün iqtisadi inkişaf yoluna malikdir. Buna görə də heç bir universal iqtisadi nəzəriyyə ola bilməz. Əgər ingilis klassik məktəbi mövcud kapitalist təsərrüfatını normal və təbii hesab edirdilərsə, List iqtisadiyyata tarixi yanaşmanın zəruriliyini elan edirdi. List və onun ardıcılları iqtisadi liberalizm doktorinasını inkar edirdilər və ölkə istehsalçılarına dövlətin himayədarlıq etməsini tələb edirdilər.

Milli iqtisadiyyatın tədqiq edilməsi sonrakı inkişafını Q.Şmollerin (1838-1917) «Milli iqtisadiyyat haqqında ümumi təlimin



downloaded from KitabYurdu.az

əsasları» əsərində tapmışdır. Öz tədqiqatında Şmoller milli iqtisadiyyatın strukturuna və fəaliyyət mexanizminə genetik yanaşmağa çalışmışdır. O, bu fikirlə milli iqtisadiyyatın inkişaf etdirilməsində coğrafi, etik, milli adət-ənənə, psixoloji bioloji amillərin nəzərə alınmasını əsas götürmüşdür.

Milli iqtisadiyyatın tədqiqi ilə V.Zombart da (1863-1941) məşğul olmuşdur. V.Zombart marksizm təliminin davamçısı kimi, uzun müddət sosialist sisteminin elmi əsaslarını təbliğ etmişdir. Sonrakı dövrlərdə o, bu doktorinadan uzaqlaşmış, mili psixologiyaya və millətçiliyə daha çox diqqət verməyə başlamışdır. V.Zombartın 1915-ci ildə çap olunmuş «Qəhrəmanlar və ticarətçilər» adlı kitabçası Avropa cəmiyyətində böyük hay-küyə səbəb olmuşdur. Belə ki, həmin kitabçada o, qəhrəmanlar kimi almanları, ticarətçi kimi ingilisləri göstərmişdir.

İqtisadi inkişafın idarə edilməsi və nizamlandırılması Şərqdə yaşamış mütəfəkkirlərin də fikirlərində öz əksini tapmışdır.

Keçmişdə yaşamış dahilərdən biri olan İbn Xəldun \ (1332-1406) Ərəbistanda, Tunisdə dünyaya gəlmişdir\ ilk dəfə olaraq tarixi tərəqqinin dövrləşməsini qeyd etmişdir. O, qeyd etmişdir ki, tarixi təkamül yolu «bəsitdən» - «sivilizasiyaya» doğru inkişaf edir. O, dövlət idarəetmə sistemi ilə iqtisadiyyat arsında əlaqə olduğunu qeyd edərək göstərmişdir ki, ağıllı siyasətə malik olan dövlət kişiləri, dövlətin dağılma səbəblərini iqtisadi məsələlərin həllində görməlidirlər. İbn Xəldun dünyanı qaydalaşdırılmış və



downloaded from KitabYurdu.az

təkmilləşdirilmiş şəkildə görürdü. \ Yəqin bu da tələb – təklif münasibətlərinə işarə0000dir.\

Azərbaycanda yazıb yaratmış digər mütəfəkkirlərin də iqtisadi baxışları mövcud olmuşdur.

Hələ İbn Xəldundan əvvəl Azərbaycanın dahi şairi Nizami Gəncəvinin (1141-1209) iqtisadi fikirləri var idi. Onun «Sirlər xəzinəsi», «Xosrov və Şirin», «Leyli və Məcnun», «Yeddi gözəl», «İsgəndərnamə» və s. əsərlərində iqtisadi fikir və ideyalar mövcud olmuşdur. Məsələn, Nizami istehlaka təbii bir proses kimi baxırdı. Bununla yanaşı o, istehlakın normal həddə olmasını tövsiyyə edirdi, yəni ifrat istehlakın əleyhinə idi. O yazmışdır:

Bir dürr saflığı varsa da suda
Çox içəndə dərd verir o da.

Və yaxud yazmışdır ki, biz bu dünyaya ancaq yemək və yatmaq üçün gəlməmişik, yəni;

Yatmağı, yeməyi bu aləmdə sən
Eşşəkdə, öküzdə görə bilərsən.

Nizami Gəncəvinin əmək bölgüsü və sərvət haqqında da fikirləri olmuşdur. O, «İsgəndərnamə»də yazmışdır:

Harada hünərə verilmiş qiymət
O yerdə gün-gündən ucalmış dövlət.

Nizami mübadilə haqqında yazmışdır ki, məhsulun mübadiləsində az-çoxluq nəzərdə tutulmamalıdır., çəkilən zəhmətlə ona verilən haqq ədalətlə olmalıdır.



downloaded from KitabYurdu.az

Azərbaycanın görkəmli mütəfəkkirlərindən olan Nəsrəddin T usi (1201-1274) «Əxlaqi-Nasiri» və «Maliyyə haqqında» əsərlərində iqtisadi fikirlər söyləmişdir. O, iqtisadiyyat elmi anlayışını «İctimaiyyət» kimi qəbul edərək yazmışdır – «Bu elm hamının xeyrinə olan birgə əməyin həqiqi və ümumi inkişafı haqqında nəzəriyyədir. Bu elmin obyekti ictimai əməklə birləşən və beləliklə istehsalı ən kamil təşkil edən insanların münasibəti sistemidir. Deməli, hamı bu elmi öyrənməyə səy etməlidir.» \ «Əxlaqi-nəsiri». Bakı, 1980, səh.177\

Nəsrəddin Tusini «Maliyyə haqqında» əsərində gəlirlərin mənbəyi və onun xərclənməsi istiqamətləri maraqlandırır. O mal-sərvət toplamağın qanuni və qeyri-qanuni yollarını araşdırır.

Azərbaycanda XIX əsrdə iqtisadi fikir söyləmiş mütəfəkkirlərdən M.F.Axundov (1812-1878), H.Zərdabi (1842-1907) adlarını çəkmək mümkündür. M.F.Axundovun «Hacı Qara» (Mərəndi xəsis), «Aldanmış kəvakib» əsərlərində ictimai-iqtisadi fikirlər əks olunmuşdur. Məsələn, o, hacı Qaranın dili ilə söyləyir ki, bu zəmanədə çox qocaldıqda adamın cibi pulla dolu olsa yaxşıdır. Bu onu göstərir ki, insan öz cavanlığından istifadə edərək qocalığını təmin etməlidir.

Həsənbəy Zərdabi 1865-ci ildə Moskva Universitetinin fizika-riyaziyyat fakultəsini bitirmişdir. Onun iqtisadi fikirləri «Əkinçi» qəzetində öz əksini tapmışdır. Onun iqtisadifikirlərindən biri xalqın sərvətinin ona məxsus olmasıdır. O, yazırdı ki, qonşular tərəqqi edərək bizim mal dövlətimizə sahib olurlar. Belə getsə biz onların



downloaded from KitabYurdu.az

rəncbərlərinə çevriləcəyik. O, ölkənin iqtisadiyyatının inkişaf etdirilməsi üçün əkinçilikdə texnikanın tətbiqini, susuz torpaqların suvarılması üçün kanalların çəkilməsini məsləhət görürdü.

Azərbaycanda iqtisadi fikrin formalaşmasında yaxın ölkə amillərinin rolu da az olmamışdır. Bu baxımdan Rusiyada N.Q.Çernişevskinin (1828-1889) iqtisadi fikirləri maraq doğurur. Onun ən mühüm əməyi 1861-ci ildə Rusiyada təhkimçiliyin tənqidi olmuşdur. Çernişevski istismarı qəbul etməyərək təhkimçiliyin ləğk edilməsini zəruri hesab etmişdir.

Ölkənin iqtisadi inkişafında real durumdan asılı olaraq, müxtəlif situasiyalar meydana çıxır ki, onların həllində aksioma və isbatlardan istifadə olunur. Buna görə də iqtisadiyyat elmini milli iqtisadiyyat kimi göstərmək səhv olardı. Bu ona bənzəyir ki, amerika fizikası, alman riyaziyyatı deyirik, halbuki alman riyaziyyatçısı və amerikan fiziki anlayışları istifadə olunur. Buna görə də iqtisadiyyat elminin bəşəri xüsusiyyət daşıdığı məlum olur. Milli iqtisadiyyat isə iqtisadi proseslərin milli zəmində fəaliyyətini əks etdirir.

Göründüyü kimi zaman ötdükcə milli iqtisadiyyat qarşılıqlı əlaqədə olan mürəkkəb sistemə çevrilir və vaxtarışıı iqtisadi böhranların olması adi hal alır. Bu zaman ənənəvi metodlarla həll olunmayan problemlər meydana çıxır ki, bu da iqtisadçı alimlərin makro təhlilə müraciət etmələrinə zəmin yaradır.

Bütün bunlarla yanaşı iqtisad elminin diqqət elmlərdən və təbiət elmlərindən prinsipial fərqləri vardır. Belə ki, iqtisadiyyat təcrid olunmuş bir fərddən söhbət açmır, o bütünlükdə cəmiyyət



downloaded from KitabYurdu.az

üzvlərinin münasibətlərini əks etdirir. Bu zaman cəmiyyətin, mentaliteti, adət-ənənəsi, onun siyasi əqidəsi, psixologiyası, sosioloji vəziyyəti nəzərə alınır.

Nəhayət, insanın sosial və şəxsi psixologiyası, marağı iqtisadiyyatla üst-üstə düşür. İnsan ruhunun səyahət etməsi haqqında poetik nağılların meydana gəlməsi, dünyada harmoniyanın axtarılması və s. psixologiyanın, insanın təfəkkür elmini yaratmasına səbəb olmuşdur.

Hadisələrə psixoloji cəhətdən yanaşılması iqtisadiyyatın damarlarına hopmağa başlamışdır. İqtisadiyyatla bu elmlərin qarşılıqlı əlaqəsindən marzianilizm mövqeyi formalaşmışdır. Hazırda müasir iqtisadi təhlillərin aparılması özünün hərəkət reaksiyası, səmərəli gözləmə konsepsiyası hay-küyly tələb, pul illüziyası olmadan mümkün deyildir. Bununla əlaqədar olaraq yeni elmi istiqamət «iqtisadi psixologiya» meydana çıjxmışdır ki, insan və bir qrupun davranış motivini, fərdin psixikasındakı idarəolunmaz hərəkəti, qorxu, hay-küy, siyasi dəyişiklikləri öyrənir.

Bəzi alimlər iqtisadi siyasəti–iqtisadi proseslərin korrektləşdirilməsi, situasiyanın düzəldilməsi üçün fəaliyyət sistemi kimi qələmə verirlər.

Lakin nəzərə almaq lazımdır ki, siyasət də iqtisadiyyat kimi iqtisadi məkanda insanların davranışını öyrənir. Bu zaman dövlətin fəaliyyəti rəqabətin stimullaşdırılmasına, istehsalın səmərəliliyinin yüksəldilməsinə, onun resurs təminatına mikroiqtisadi problemlərin həllinə istiqamətlənməlidir.



downloaded from KitabYurdu.az

İqtisadi siyasət böyük sistemdə fəaliyyət göstərdiyi üçün o iqtisadiyyatın bütünlükdə stabilləşdirilməsinin məqsədinin əsasını təşkil edir.

Məlumdur ki, dünya ölkələrinin hər birinin özünə məxsus tarixi-iqtisadi inkişafı, təbii sərvətləri, iqlim şəraiti, əhalinin tərkib müxtəlifliyi, milli adət-ənənəsi, psixoloji-sosial xüsusiyyətləri və s. vardır. Buna görə də onlarda milli iqtisadiyyatın inkişaf istiqamətləri haqqında vahid qayda, metodika vermək mürəkkəbdir. Lakin bununla belə milli iqtisadiyyatın tərkibini təşkil edən halların təxmini də olsa təsnifatını vermək olar:

- Milli iqtisadiyyat iqtisadi məkanca milli zəmində özünəməxsus t əşkili formasıdır;
- Milli iqtisadiyyat nəzəriyyəsi ölkənin iqtisadi potensialını, məhsuldar qüvvələrəin yerləşdirilməsini, milli bazarı və ölkənin dünya iqtisadiyyatındakı mövqeyini tədqiq edir.
- Dövlətin iqtisadiyyata müdaxiləsi forması və dərəcəsini, milli iqtisadi qaydanın yaranmasını əks etdirir.
- Milli psixologiya və ənənəvi davranışda cəmiyyət üzvlərinin məsuliyyətini müəyyənləşdirir.
- Özünəməxsus mili xüsusiyyətlərin toplandığı birinci dərəcəli sosial problemlərin həlli istiqamətlərini əks etdirir.

Bu yuxarıda qeyd olunanlar, demək olar ki, milli iqtisadiyyatın yaradılmasının özəyini təşkil edirlər.



downloaded from KitabYurdu.az

Məlumdur ki, iqtisadiyyat elmi-pozitiv və normativ komponentləri özündə əks etdirir. Bu zaman pozitiv komponentin vəzifəsi «nə baş verdiyini» aydınlaşdırmaqdan, mövcud situasiyanı aşkar etməkdən ibarət olub, elmi proqnozlaşdırmanın əsasını yaratmaqdır. İkinci normativ komponent isə «necə olmalıdır» problemi ilə məşğul olaraq situasiyanın düzəldilməsi qaydasını işləyib hazırlayır. Bunu o çox vaxt inzibati-hüquqi qaydalar zəminində həyata keçirir. Bu iki komponentin qarşılıqlı əlaqəsinə konseptual yanaşma bazar münasibətlərinin təşəkkül tapması ilə iqtisadiyyata dövlət müdaxiləsinin sərhədlərini müəyyən etməyə imkan verir.

İqtisadi nəzəriyyə və siyasətdə keçid iqtisadiyyatı anlayışından da istifadə olunur. Beynəlxalq Valyuta fondunun təsnifatına görə (1907) bu qrupa 27 ölkə daxil edilmişdir.

Nəzəri cəhətdən keçid iqtisadiyyatı – mərkəzləşdirilmiş planlaşdırmadan bazar münasibətlərinə keçid dövründə öz iqtisadiyyatını transformasiya edən milli iqtisadi sistemdir. Bu zaman milli iqtisadiyyat əvvəlki qayda-qanun və metodikanın bəzilərinin saxlanılması və bəzilərinin isə dəyişdirilərək yeniləşdirilməsini yolunu seçərək «yeni yolun qaydaları» müəyyən edərək sərbəst fəaliyyət imkanına malik olur.

Azərbaycan Respublikası 18 oktyabr 1991-ci ildə öz suverenliyini bərpa edərək bazar münasibətləri yolunu iqtisadi inkişafında əsas götürmüşdür. Respublika keçid iqtisadiyyatı dövrünü yaşayır, onun iqtisadi inkişafında pozitiv və normativ



downloaded from KitabYurdu.az

komponentlərin müxtəlif formalarda uyğunlaşmasından istifadə olunur.

Bütün bu deyilənlərə nəzərən yekunda çağdaş dövrdə milli iqtisadiyyatda baş verən yenilikləri belə əks etdirmək olar:

- iqtisadi inkişafa siyasətin təsirinin əsas sayılması;
- monetar tənzimləmənin iqtisadiyyatda dövlətin iştirakının əsas elementinə çevrilməsi;
- dövlətin iqtisadi siyasətinin birinci dərəcəli hesab edilməsi;
- iqtisadiyyat, sosiologiya, psixologiya, etika və hüquq münasibətlərinin uyğunlaşdırılması.

Beləiklə, iqtisad elminin tərkib hissələri aşağıdakı sxemdə göstərilə bilər:




ŞƏKİL 3.



downloaded from KitabYurdu.az

Uzun bir zaman kəsiyində Azərbaycan Respublikası iqtisadi-siyasi tabelilik sistemində yaşamışdır. Dünyada baş vermiş siyasi iqtisadi hadisələrin nəticəsində sabiq İttifaqın tərkibində olan respublikalar siyasi-iqtisadi suverenlik əldə etmişlər. Bu ölkələr artıq iqtisadi inkişafın bazar istiqamətini seçmişlər. Bu inkişaf istiqamətində onlar keçmiş dövrün təcrübəsinə istinad etmək zorunda qalmışlar. Çünki XX əsrin inkişaf təcrübəsi qanunauyğun zəmanətli təmayüllərin aşkarlanmasında və müxtəlif ölkələrin iqtisadiyyatında dövlətin rolunun müəyyən edilməsinə imkan vermişdir. Bu təmayülləri aşağıdakı kimi şərh etmək olar.

Birincisi, bazar iqtisadiyyatı resurslarının bölgüsü və onun effektivliyinin qiymətləndirilməsində cəmiyyətin inkişafındakı hakim mövqeni təsdiq etmişdir. Bu mövqe onunla müəyyən edilir ki, iqtisadi xətləndirilmənin hakmi forması, istehsalla istehlak arasındakı əlaqənin (xarakt erini) xüsusiyyətini aşkarlaşdırır. Bununla əlaqədar olaraq bəzi ölkələrdə, o cümlədəndə keçmiş Sovetlər İttifaqında əmtəə-pul münasibətlərindən imtina edilməsi və onun rolunun aşağı  salınması müvəffəqiyyətlə nəticələnmədi. Bu təsərrüfatçılıq sistemində bazarın nadir rola malik olmasına əyani sübutdur. Lakin XX əsrdə bazar sistemində əsaslı dəyişikliklər baş versə də, onun müəyyən elementləri və xüsusiyyətləri müstəqillik, bazar subyektlərinin fərdiliyi, bazar sisteminin biri-birini tamamlaması, bazar fəaliyyətinin hüquqi bazası və müasir şəraitdə də qalmaqdadır. Bu elementlərin hər birinin qiymətləndirilməməsi, bazar potensialından tam istifadə olunmamasına gətirib çıxardır.



downloaded from KitabYurdu.az

Buradan da keçid iqtisadiyyatı qarşısında duran, - bazar sisteminin yaradılması iqtisadiyyatın əsasıdır – vəzifəsi meydana çıxır.

İkincisi, bazar şəraitində inkişaf edən bütün ölkələrdə bütün xalq təsərrüfatının şüurlu tənzimlənməsinə obyektiv tələbatın olması faktının mövcudluğudur. İqtisadiyyatın dövlət tənzimlənməsi təcrübəsi və cəmiyyətdə sosial-iqtisadi stabilliyin yaradılması göstərir ki, söhbət təkrar istehsalın gedişinin tənzimlənməsindən deyil, ictimai istehsalın hər tərəfli, şüurlu, ardıcıl, iqtisadi təfəkkürə əsaslanaraq tənzim olunmasından gedir.

Bəli, tənzimlənmənin zəruriliyi haqqında prinsipial nəticə hələ tən əsrin əvvələrindən çıxarılmışdırsada, inkişaf etmiş ölkələrin iqtisadiyyatında tənzimləmə XX əsrin ikinci yarısından həyata keçirilməyə başlanılmışdır. Lakin onu da, görməmək olmaz ki, bu formada tənzim olunma tənzimlənərək bazar iqtisadiyyatı formasındadır. Tənzimlənən bazar iqtisadiyyatı sisteminin hakim olması, azad bazar iqtisadiyyatının sıxışdırılıb aradan çıxarılması kimi başa düşülməməlidir. İqtisadi inkişafın da, bu sistemin də dövlətlə bahəm digər strukturlarda o cümlədən beynəlxalq strukturların da iştirak etməsi vacibdir.

Üçüncüsü, müasir cəmiyyətin bütün üzvlərinin yaşaması üçün sosial şəraitin yaxşılaşdırılması məqsədilə sosial-stabil mühit formalaşmağa başlamışdır. Bü təmayül bütün inkişaf etmiş ölkələrin iqtisadiyyatında artıq təzahür etməyə başlamışdır ki, bazar təkamülünə gətirilməyən özünə məxsus inkişaf məntiqinə malikdir.



downloaded from KitabYurdu.az

Cəmiyyətin sosial-iqtisadi inkişafı iqtisadi sistemin inkişafı həmişə onun bütün üzvlərinin həyati fəaliyyətinin təmin olunmasının daxili-immanent (ona məxsus) momentlərini əhatə edir. Cəmiyyət sinif, təbəqə, milli mənsubiyytdən asılı olmayaraq, istehsalın insan amilinin təkrar istehsalı olmadan yaşaya bilməz. Fərqinə varmadan cəmiyyətin bütün üzvləri təhsilə, mədəniyyətə, elmi potensiala malik olmalıdır. Bunların təmin olunması dövlətin qayğısındadır. İqtisadi sistemin inkişafı tarixi təsdiq edir ki, iqtisadiyyatda sabitlik cəmiyyətdə sosial stabillik yaradır. İqtisadi sistemin də inkişafında sosial amilin nəzərə alınması, iqtisadi tərəqqiyə və iqtisadi artıma nail olunmasına şərait yaradır. Bu istehsala texnokrat (əsasən maşın və mexanizmlərə əsaslanma) yanaşmanın əleyhinə olub, insan amilinin daxili imkanlarının çıxmasına geniş üfüqlər açır. Şəxsiyyət olan hər bir istehsalçı, mülkiyyətin qəyyumluğundan azad olaraq öz potensialını daha geniş reallaşdırmaq imkanına malik olur. Sosial problemlərin bu və ya digər formada qismən həllinə keçmiş ittifaq ölkəlrind nail olunmağı çalışılmışdır. İndinin özündə də bu problem bütün ölkələrin iqtisadi inkişafında prioritet mövqe tutmağa başlamışdır. Bütün ölkələr dəyanətli sosial yönümlü bazar iqtisadiyyatı qurmağa doğru istiqamət götürmüşlər. Müasir iqtisadi sistemin təcrübəsi göstərir ki, bütün ölkələr milli iqtisadiyyatın dəyanətli inkişafını formalaşdırmağa çalışırlar. Bu deyilənlərdən belə qənaətə gəlmək olar ki, Azərbaycanın da milli iqtisadiyyatı sivil dəyərlərə əsaslanaraq ədalətli sosial cəmiyyətin yaradılmasına istiqamətləndirilməlidir.



downloaded from KitabYurdu.az

Dördünçüsü, müasir dövlətlərin iqtisadiyyatı – açıq iqtisadiyyat olmalıdır. Bu təmayül bütün inkişaf etmiş ölkələrin iqtisadiyyatında özünü göstərsə də XX əsrdə xarici iqtisadi əlaqələrdə daha bariz şəkildə hakim mövqeyini əks etdirmişdir..

İqtisadiyyatın açıq olma səbəbi bazarın əsasından meydana gəlir. Belə ki, dünya bazarında nəinki ayrı-ayrı dövlətlər rəqabət münasibətində olurlar, bu münasibətlər habelə bütün iqtisadi subyektləridə əhatə edir. Açıq iqtisadiyyat inteqrasiya prosesi ilə müşayiət olunur. Bu isə müxtəlif dövlətlərə öz aralarında istehsal resurslarını sərbəst hərəkət etdirmək imkanını verir.

Sosialist dövlətlərinin inkişafı təcrübəsi göstərir ki, bu təmayül pozulduğu halda istehsalda effektivlik aşağı düşür, rəqabət stimulu pozulur. Bununla yanaşı məlumdur ki, bu və ya digər ölkənin iqtisadiyyatı milli sərhədlər daxilində inkişaf edir. Çünki təkrar istehsal həmişə milli təkrar istehsal kimi həyata keçirilir. Bu isə bütünlükdə mövcud olan mülkiyyət formalarını əhatə edir. Deməli, iqtisadi sistemin modeli, qarışıq iqtisadiyyatın milli modeli kimi formalaşmalıdır.



downloaded from KitabYurdu.az

# *FƏSİL 2. MİLLİ İQTİSADİYYATIN TRANSFORMASİYASI VƏ ONUN TƏNZİMLƏNMƏSİ.*

## *1. İQTİSADİYYATIN TƏNZİMLƏNMƏSİ STRATEGİYASININ FORMALAŞMASI.*

Bazar iqtisadiyyatı şəraitində iqtisadiyyata vahid sistem kimi baxılmışdır. Bu sistemə dövlət iqtisadi siyasətinə uyğun olaraq qanunçuluq, icraçılıq, nəzarətedici səlahiyyətləri, dövlət müəssisələrini, ictimai təşkilatları dəyişilən şəraitə uyğunlaşdırmaq və sosial-iqtisadi stabilləşdirmək vəzifəsi daxildir.

Bazar iqtisadiyyatının inkişafı prosesində elə problemlər vardır ki, onların həlli xüsusi mülkiyyət əsasında qeyri mümkün olur: məsələn, aşağı rentabelli müəssisələrə investisiya verilməsi, sahə və ümumi təsərrüfat böhranlarının ləğv edilməsi, kütləvi işsizlik, pul dövriyyəsinin pozulması, dünya bazarında rəqabətin güclənməsi və s. bütün bunların hamısı dövlət tərəfindən həll edilə bilər.

Nəzəri cəhətdən «dövlətin iqtisadi siyasəti» və «iqtisadiyyatın dövlət tənzimlənməsidən» genişdir. Belə ki, dövlətin iqtisadi siyasətində təsərrüfat həyatına dövlətin müdaxilə etmə prinsipi durur. Lakin müasir şəraitdə iqtisadi inkişafa dövlətin müdaxilə etməməsini təsəvvür etmək mümkün deyildir. Qeyd etmək lazımdır ki, hazırda mübahisə iqtisadiyyatın dövlət tənzimlənməsinin vacibliyindən yox, onun müdaxilə formasından, intensivliyindən və müdaxilə dairəsindən gedir. Buna görə də «iqtisadiyyatın tənzimlənməsi» və «dövlətin iqtisadi siyasəti» anlayışını eyni qüvvədə qəbul etmək olar.



downloaded from KitabYurdu.az

İqtisadiyyatın dövlət tənzimlənməsinin obyektiv mümkünlüyü, iqtisadi inkişafın, istehsalın təmərküzləşməsinin və kapitalın müəyyən səviyyəsində meydana çıxır. Bu mümkünlüyün həqiqətə çevrilməsi iqtisadiyyatın dövlət tənzimlənməsinin qarşıya çıxardığı problemləri həl etmək imkanı ilə bağlanmalıdır.

Müasir şəraitdə iqtisadiyyatın dövlət tənzimlənməsi təkrar istehsal prosesinin tərkib hissəsidir. O, müxtəlif vəzifələri yerinə yetirir.

a) iqtisadi artımı stimullaşdırmaq;

b) məşğulluğu tənzimləmək;

v) sahə və regional struktur irəliləyişlərini maraqlandırmaq;

q) ixracı dəstəkləmək;

d) prioritet sahələri müəyyənləşdirmək.

İqtisadiyyatın dövlət tənzimlənməsinin konkret istiqaməti hər hansı bir ölkədə müəyyən dövrdə iqtisadi və sosial prioritetlərin mürəkkəbliyi və xarakteri ilə müəyyən olunur.

Məsələn, müəyyən əlamətlərdən asılı olaraq iqtisadiyyatın dövlət tənzimlənməsi mexanizmi Qərbi Avropa ölkələrindən, Fransada, Almaniyada, Niderlandda, Skandinaviya ölkələrində, Avstriyada, İspaniyada geniş inkişaf etmişdir. İnkişaf etmiş Asiya və Latın Amerikasında da müəyyən qədər iqtisadiyyatın dövlət tənzimlənməsindən istifadə olunur. Amerika, Kanada və Avstraliyada iqtisadiyyatın dövlət tənzimlənməsi mexanizmindən məhdud çərçivədə istifadə olunur. Bu onunla əlaqədardır ki, həmin ölkələrdə müharibə olmamış, ölkənin sosializm qütbləşməsi



downloaded from KitabYurdu.az

getməmiş, xüsusi mülkiyyət və azad sahibkarlıq geniş inkişaf etmişdir. Bununla yanaşı iqtisadi konyukturanın pisləşdiyi, işsizlik və inflyasiyanın artdığı halda həmin ölkələrdə iqtisadiyyatın dövlət tənzimlənməsi zərurəti yaranmışdır.

İnkişaf etməkdə olan bazar yönümlü ölkələrdə iqtisadiyyatın dövlət tənzimlənməsi xüsusilə əhəmiyyətli rola malikdir.

İqtisadi inkişafın ən səmərəli yolu sayılan bazar münasibətlərinin təşəkkülü tarixi çox qədimdir və o, təkmilləşərək müasir dünyanın iqtisadiyyatının idarə edilməsində mühüm rola malikdir. Keçmiş İttifaq məkanında və o cümlədən Azərbaycanda baş verən siyasi iqtisadi dəyişmələr nəticəsində respublika iqtisadiyyatının inkişafı bazar münasibətlərinin formalaşması istiqamətini seçmişdir. Belə bir şəraitdə ölkədəki iqtisadi sistemin transformasiya edilməsinin mahiyyəti və bu transformasiyanın nəticələrinin nə ilə başa çatacağı aydınlaşdırılmalıdır. Bunun üçün isə ilk əvvəl ölkə iqtisadiyyatının inkişaf strategiyası formalaşdırılmalı, onun istiqaməti müəyyənləşdirilməlidir. Ölkənin iqtisadi strategiyası onun uzun müddətli siyasətində iqtisadi inkişafın məqsəd və vasitələrinin birləşməsini, birgə əlaqəli fəaliyyətini əks etdirir.

Bu öz iqtisadiyyatında əsaslı dəyişiklik etmək zərurətində olan bütün ölkələr üçün vacib məsələdir.

İqtisadi strategiyanın müəyyən edilməsində birinci yerdə iqtisadi inkişafın məqsədinin müəyyən edilməsi durur. Məqsəd müəyyən edildikdən sonra hansı vasitələrlə yerinə yetirilməsi



downloaded from KitabYurdu.az

müəyyənləşdirilir. Bu zaman məqsədin reallaşdırılması üçün zəruri olan vaxt amili də nəzərə alınmalıdır. Çünki iqtisadi strategiya müəyyənləşdirilərkən və yeni iqtisadi sistemə transformasiya olunarkən çox hallarda uzun müddət tələb olunur ki, bu da köhnə iqtisadi sistemdən yeni iqtisadi sistemə keçid dövrü adlanır.

İqtisadi strategiyanın əsas elementləri olan məqsəd və vasitələr müəyyən funksiyaları daşıyırlarsada, onlar fəaliyyətləri ilə əlaqəli formada həyata keçirilir. Lakin bu zaman iqtisadi strategiyanın məqsədinin müəyyən edilməsi həlledici rol oynayır. Qeyd etmək lazımdır ki, bu məqsəd ixtiyari ola bilməz, o, konkret bir vaxt kəsiyində ölkənin, cəmiyyətin tələbatına uyğun olmalı, onu əks etdirməlidir.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərmişdir ki, dövlət iqtisadi strategiyanın məqsədi üçün müxtəlif istiqamətlər və göstəricilər seçə bilər. Lakin bütün hallarda məqsədin formalaşmasında iştirak edən məsələlər bu və ya digər səviyyədə bir-biri ilə əlaqədardırlar.

Bu məsələlərə aiddir:

İqtisadi artım. Dünya standartları səviyyəsinə uyğun gələn keyfiyyətli məhsul istehsalının artırılması arzusudur. Daha dəqiq desək ölkədə maddi həyat səviyyəsinin yüksəldilməsi arzusudur.

Tam məşğuliyyət. İşləmək qabiliyyətli və işləmək arzusunda olan hər bir kəsin ona uyğun gələn işlə təmin olunmasıdır.

İqtisadi effektivlik. Mövcud istehsal resurslarından səmərəli istifadə etməklə minimum xərc əsasında maksimum mənfəət əldə etmək.



downloaded from KitabYurdu.az

Qiymətlərin stabil səviyyəsi. İqtisadiyyatda qiymətin ümumi səviyyəsinin əsaslı surətdə yüksəlməsinə və aşağı düşməsinə nəzarət etmək. Yəni inflyasiya və deflyasiyaya yol verməmək.

İqtisadi azadlıq. Müəssisələri idarə edənlər, fəhlələr, istehlakçılar öz iqtisadi fəaliyyətlərində yüksək dərəcədə azad olmalıdırlar.

Gəlirlərin ədalətli bölgüsü. Ölkənin maddi nemətləri elə bölünməlidir ki, cəmiyyətdə yüksək varlılar və dilənçi vəziyyətində yaşayan yoxsullar qrupları yaranmasın.

İqtisadi təminat. Ölkədə olan əlillər, qocalar, iş qabiliyyəti olmayanlarvə s. yaşamaları üçün madi təminatı olmalıdır.

Ticarət balansı. Beynəlxalq ticarətdə və maliyyə sövdələşmələrində rasional balans tarazlığı yaradılmalıdır.

Bu qeyd edilənlər iqtisadi strategiyanın məqsədinin müxtəlif istiqamətləridir. İqtisadi strategiyanın formalaşması və yerinə yetirilməsi zamanı bunlar əlaqəli şəkildə fəaliyyət göstərirlər.

Qeyd etmək lazımdır ki, dövlətin iqtisadi strategiyası formalaşaraq yerinə yetirildiyi zaman məqsəd və vasitələr öz yerlərini dəyişə də bilərlər. Yəni vasitələr birinci, məqsəd isə ikinci yerdə ola bilər və əksinə. Məsələn, ölkədə iqtisadi artıma malik olmaq üçün dünya təcrübəsinə əsaslanaraq bazar strukturları yaradılmalıdır. Deməli, iqtisadi strategiyada bazar münasibətlərinin formalaşması vasitəsi kimi birinci dərəcəli rol oynayır və s.

İqtisadi strategiyanın məqsədi və vasitələri dövlətin uzunmüddətli siyasətinə uyğun olmalıdır. Belə ki, iqtisadi stratiegiya



downloaded from KitabYurdu.az

iqtisadi siyasətin tərkib hissəsi kimi çıxış edir. Bununla əlaqədar olaraq dövlətin iqtisadi siyasətinin formalaşmasına nəzər salınması vacib məsələdir.

Dövlətin iqtisadi siyasəti iqtisadiyyatın tənzimlənməsinə nisbətən daha geni ş mənalıdır. Belə ki, dövlətin iqtisadi siyasəti təsərrüfat fəaliyyətində dövlətin iştirakının mümkünlüyünü qeyd edirsə, iqtisadiyyatın dövlət tənzimlənməsi iqtisadiyyatda dövlətin iştirakının maksimum-minimum sərhədlərdə olmasını zəruri hesab edir.

Buna görə də dövlətin iqtisadi siyasəti formalaşdırılması məqsədi müəyyən edilməli, yəni strategiya aydınlaşmalı və onun yerinə yetirilməsi vasitələri müəyyən edilməlidir.

Bu prosesdə müxtəlif təsir vasitələri özünə məxsus formada iştirak edirlər. Həmin təsir vasitələrini şərti olaraq iki hissəyə bölmək olar:

a) institusional – hüquqi (xarici və daxili)

b) sistemdaxili – o cümlədən, bazar vasitələri (qeyri müstəqim) və inzibati (müstəqim)

İnstitusional – hüquqi vasitələr cəmiyyətin ictimai-siyasi quruluşunu, onun siyasətinin predmetini əks etdirir.

Bazar və inzibati vasitələr isə cəmiyyətin strukturunu, onun dövlət siyasətinin predmetini əks etdirir.

Müasir qarışıq iqtisadiyyatda dövlət mərkəzi rol oynayır. Çünki, resurslar bazar tərəfindən bölüşdürüldüyü kimi, siyasi proseslər vasitəsilə də bölüşdürülür.



downloaded from KitabYurdu.az

Adətən, bu zaman dövlətin nəzəri fəaliyyəti ictimai əmtəə istehsalı, iqtisadi-sosial tənzimləmə və habelə rəqabət mühitinin formalaşması, gəlirlərin yenidən bölüşdürülməsi ilə əhatələnmiş olur.

Dövlətin iqtisadi siyasəti dedikdə, iqtisadi subyektin hərəkətinə dolayı və müstəqim təsir edən dövlət tədbirləri sistemi başa düşülür.

Müstəqim (inzibati) metodların iqtisadi proseslərə təsiri birmənalı deyildir.

Məsələn, dövlət kommunal xidmətlərə qiymət qoyursa, kimə nəyin nə qədər satılmağını müəyyəq edirsə, bu zaman biz inzibati təsirin iqtisadi tənzimləmə yolu ilə rastlaşırıq.

Əgər dövlət iqtisadi informasiyaları yayındıran fikir amilləri izləyərək və onların reklamını qadağan edirsə, ətraf mühiti çirkləndirən istehsalçılara təsir edirsə, işçiləri istehsal risklərindən müdafiə qaydaları tətbiq edirsə, istehlakçıların istehlak məhsullarından təhlükəsizlik normalarını hazırlayırsa, bu zaman biz inzibati təsirin iqtisadi tənzimləmə növü ilə deyil, təsərrüfat fəaliyyətinin sosial tənzimləmə növü ilə rastlaşırıq.

Cəmiyyətin inkişafı ilə əlaqədar olaraq dövlətin iqtisadi siyasəti dövlət tənzimlənməsinin forma və metodları təkrar istehsal prosesinin tərkib hissəsi xüsusiyyətinə malik olur və onların effektiliyinin əsas amilinə çevrilir.

Məlumdur ki, iqtisadi məhdud resurslar hüdudunda cəmiyyətin tələbatının maksimum ödənilməsinin təmin edilməsi haqqında elmdir. Bu zaman həmin resurslardan səmərəli istifadə olunması nəzərdə tutulur.



downloaded from KitabYurdu.az

Bununla əlaqədar olaraq iqtisadi siyasət ictimai istehsalın cari dövr və gələcək üçün maksimum effektivliyinin təmin olunması məqsədini güdür. Makrosəviyyədə nəzərdə tutulmuş bu məqsəd bazar münasibətlərinin təmin olunmasını, bazarın dəstəklənməsini, sosial inkişafı və sosial təhlükəsizliyi əhatə edir. Sosial təhlükəsizliyin təkmilləşdirilməsi bazar münasibətlərinin inkişafının nəticəsində yaranır. Buna görə də düzgün iqtisadi siyasətin hazırlanmasında və həyata keçirilməsində məsuliyyət daşıyanlar dəqiq bilməlidirlər ki, onlar nə istəyirlər və hansı məqsədə çatmaq niyyətindədirlər. Bunun üçün kifayət qədər siyasi vasitələrin olması ilə yanaşı onların effektivliyi haqqında təsəvvür olmalıdır. Fərz edək ki, dövlət inflyasiyanı cilovlamaq, qiymətin artımını aşağı salmaq və sabitləşdirmək istəyirsə, bu zaman bizə məlum olan pul siyasətinin vasitələrindən istifadəni nəzərdə tutursa bilinməlidir ki, planlaşdırma mərhələsində bu vasitələr nə vaxt fəaliyyətə başlayacaqdır.

Məqsədlər çoxluğunun müəyyən edilməsi mürəkkəb prosesdir, çünki, o, dövlətin strateji kursunda uyğun siyasi qərarların qəbul edilməsi ilə əlaqədardır. Bu ayrıca tədqiqat obyektidir.

Hələlik fərz edək ki, məqsəd aydındır, ölçüləndir və arzu olunan səviyyəsi məlumdur. Bu o deməkdir ki, dövlət qanunverici orqanların razılığını alaraq öz qarşısında məqsəd qoyur. Məsələn, üç il ərzində istehlak qiymətlərinin artımı 3-5% arasında tərəddüd etməlidir.

Məlum olan siyasi vasitələrdən heç biri bu məqsədlə birbaşa əlaqədar olmur. Onlar arasında bazar qanunları əsasında fəaliyyət



downloaded from KitabYurdu.az

göstərən iqtisadi sistem durur. Məsələn, qiymət tələb-təklifin tərəddüdündən, istehsal xərclərindən, rəqabət rejimindən və s. çoxlu amillərdən asılıdır ki, bunların içərisində qiymət siyasəti aparıcı rola malik olmaya bilər. Çünki, qiymət siyasəti məcmu tələbə və faiz stavkasına təsir etmək iqtidarındadır. Bazar iqtisadiyyatının dövlət tənzimlənməsinin forma və metodlarına ciddi təsir göstərdiyini də nəzərə alsaq, bu zaman məqsədə nəzarət və onun müəyyən edilməsinə dövlətin gücünün çatmadığı məlum olur. Burada dövlətin maksimum görə bildiyi iş əvvəlcədən məlum olan vəziyyətlərlə prosesə təsir göstərə bilər. Buna isə o zaman arxalanmaq olar ki, məqsəd və siyasi vasitələr arasında olan kəmiyyət bağlılıqları tam aydın olmuş olsun.

Y.Temberqin göstərmişdir ki, iqtisadi siyasətin məntiqi bütünlükdə onun dəyişənlərini səciyyələndirən müxtəlif növlər arasındakı mütənasibliyin həcm və məzmunu ilə müəyyən edilir.

Pul bazarının təhlilində, antiinflyasiya tənzimlənməsi ndə iqtisadi artımda, vergi stimullaşdırılmasında, məşğulluq siyasətində habelə mexanizmlər məlumdur. Lakin onlar arasında kəmiyyət münasibətləri də vardır və onun şərhi zəruridir.

Fərz edək ki, məqsəd funksiyası r - elementlərdən ibarətdir. Məqsədə təsir edən n - bazar amilləri və s – iqtisadi siyasət vasitələri vardır.

Tutaq ki, məqsəd y(i=1,2….r), vasitələr $x_i \dots x_s$ və bazar dəyişənləri $r_1, \dots r_n$ çoxluğunun funksiyası kimi çıxış edir.



downloaded from KitabYurdu.az

$$Y_i = f(x_i \ldots x_{s;}\, r_1, \ldots r_n) \qquad 1.$$

Bu zaman siyasi vasitənin tətbiqi effekti $x_j(j=1\ldots.s)$ həmin funksiyasının hissələrlə törəməsi kimi ifadə etmək olar:

$$\bigcup_{IY} = \frac{\partial_{yI}}{\partial_{\chi Y}} \qquad 2.$$

Antiinflyasiya tənzimlənməsini nəzərdə tutarıqsa, onda $y_1$- qiymətin artım sürətini, xj- pul təklifini əks etdirir.

Birbaşa dövlət nəzarəti sahəsindən kənarda yerləşən tələb, təklif, xərclər və s. bazar elementləri n- çoxluğuna daxildir.

$U_{ij}$ – pul siyasəti vasitələrinin inflyasiya səviyyəsinə təsir dərəcəsini qeydə alır.

Bu göstərici multiplikator adlanır və o, iqtisadi məzmununa görə istehsal funksiyasının multiplikasiya formasından daha genişdir. İstehsal funksiyasının multiplikasiya forması investisiya ilə gəlirlər arasındakı əlaqəni göstərirsə, $U_{ij}$ – multiplikatoru iqtisadiyyatın tənzimlənməsində bütövlükdə dövlət aparatının məhsuldarlığını əks etdirir. Öz yeni keyfiyyətində bu multiplikator təsərrüfat mexanizminin girişinə daxil olan siyasi siqnalların, çıxışında siyasi məqsədlərin dəyişməsini əks etdirir.

Yuxarıda göstərilən 1. bərabərliyi elə qurulmalıdır ki, multiplikatorun mahiyyəti statistik müəyyən oluna bilən olsun və kəmiyyətə (miqdar formasında) çevrilsin.

Şərtləndiyi kimi qiymətin səviyyəsi $Y_j$- siyasətlərin arzusuna uyğundursa, onda $X_j$ – vasitənin dəyişməsinin müəyyənləşdirilməsi



downloaded from KitabYurdu.az

tələb olunur. Bu əməliyyatların S çoxluğuna daxil olan bütün vasitələr üzrə həyata keçirib, pul təklifinin, vergi stavkasının, dövlət xərclərinin və s. hansı istiqamətlərə dəyişdirilməsinin dövlət siyasətini müəyyənləşdirmək mümkündür. Bu vəzifənin həlli üçün Tinberqen bərabərsizliyini s---- r şərti ödənilməlidir. Bu bərabərsizliyin iqtisadi mənası belədir: dövlət öz öhdəsinə bacarmadığı işi götürməməlidir, bunun üçün isə məqsədlərin sayı iqtisadi siyasətin vasitələrindən çox olmalıdır.

Həqiqətdə 1. funksiyasını hesablamaq mümkündür. Buna misal olaraq makrotarazlıq səviyyəsində milli gəlirin bölüşdürülməsi bərabərliyinə diqqət yetirək.

Y- milli gəlir;

T – milli gəlirdən vergilər vasitəsilə dövlətin aldığı hissə 1---t---0 sonradan bu büdcə xərcinə çevrilir;

Ç – büdcə xərci;

Y-tY- vergi ödədikdən sonra subyektə qalan gəlir. Bu sonra da istehlaka və əmanətə istiqamətlənir.

C – istehlak;

S-əmanət;

İ – investisiya (əmanətin investisiyaya çevrilməsi nəzərdə tutulur.)

Vergini ödədikdən sonra subyekt gəlirinin bir hissəsini qeyri istehsal istehlakına yönəldərsə (c\- qeyri istehsal istehlakının hissəsi) bu zaman milli gəlirin bölüşdürülməsi bərabərliyi belə alınacaq:

$$Y=a+c^{\backslash}(1-t)y+j+Ç \qquad 3.$$



downloaded from KitabYurdu.az

Bu bərabərlikdə (3.) Y-məqsədli dəyişən kimi çıxış edir. İstehlaka meyllilik ($c^{/}$) və xüsusi investisiyanın həcmi bazar mexanizmi ilə tənzim olunur, orta vergi stavkası dəyişməz hesab edilir. Büdcə xərci (C) siyasi vasitə kimi çıxış edir. Yəni dövlət büdcə xərclərinin dəyişməsini öz üzərinə götürür ki, milli gəlirin dəyanətli artımına nail olsun. Belə halda vasitənin məqsədə təsir dərəcəsini ölçmək olar:

$$\text{Y}\left[1 - c^{\backslash}(1 - t)\right] = a + j + C \qquad 4.$$

$$\text{M}_{цс} = \frac{\partial_{ц}}{\partial_{c}} = \frac{1}{1 - c^{\backslash}(1 - t)}$$

5.

Fərz edək ki, dövlət büdcə vasitəsilə milli gəlirin 50% yenidən bölüşdürür (t=0,5) orta istehlakçı öz manatını belə bölüşdürür; 0,8 manat cari istehlaka 0,2 manat əmanətə ($c^{/}$ =0,8). Belə halda:

$$\text{M}_{yc} = \frac{1}{1 - 0{,}8(1 - 0{,}5)} = \frac{1}{1 - 0{,}8 * 0{,}5} = \frac{1}{1 - 0{,}4} = \frac{1}{0{,}6} = 1{,}66 \approx 1{,}67$$

6.

Bu o deməkdir ki, dövlət büdcəsi tərəfindən xərclənən hər 1 manata 0,67 manat artımı ilə milli gəlir geri qayıdacaq.

Hadisənin belə inkişafına multiplikasiya effektinin klassik forması şərait yaradır. Bu isə (avtonom) dövlət investisiyası ilə



downloaded from KitabYurdu.az

şərtlənir. Bu zaman büdcə mexanizminin başqa formaları da fəaliyyət göstərirlər.

3.bərabərliyini təkmilləşdirmək də mümkündür. Bu zaman investisiyanı gəlir və faizin funksiyası kimi göstərmək lazımdır. Həqiqətən də əmtəə bazarının makroiqtisadi tarazlığının təhlili göstərir ki, əmanətlərin təklifi cari və keçmiş gəlirlərdən asılıdır. Eyni zamanda investisiya tələbatı faiz stavkasının hərəkətinə qarşı hissiyatlıdır. Belə ki, stavka yüksəldikcə investisiyaya tələbat aşağı düşür və daha az əmanət kapital qoyuluşuna çevrilir.

Buna görə də investisiya funksiyasını belə ifadə etmək olar:

$$İ=eY-hr \quad 7.$$

Burada, e-cari və keçmiş gəlirdə əmanətlərin xüsusi çəkisidir, buna görə də eY kəmiyyəti həmişə böyükdür.

h- sabitdir.

Mənfi işarəsi o deməkdir ki, kredit bahalaşdıqca, maliyyə mənbəyi axtaran sahibkarlar daha az əmanət cəlb edirlər. Beləliklə 7. ifadəsini 3. bərabərliyində yerinə yazaraq almaq olar:

$$Y=a+c'(1-t)+eY-hr+Ç \quad 8.$$

Belə hesab edək ki, dövlət faiz stavkasının hərəkəti üzərində etibarlı nəzarət vasitələrinə malikdir və yaxud da ona təsir edən banklararsı kredit, pul siyasətinin sair vasitələrini dəqiq bilir. Əgər bu belədirsə, 8. ifadəsini r-ə görə differensiallaşdıraraq faiz multiplikatoru formulasını alarıq:



downloaded from KitabYurdu.az

$$Y\left[1 - c^{\backslash}(1-t) - e\right] = a - hr + C \qquad 9.$$

$$M_{ur} = \frac{dy}{dr} = \frac{-h}{1 - c^{\backslash}(1-t)} - e$$

10.

Bu tənliyin sağ tərəfi statistik qiymətləndiyi üçün $M_{yr}$ kəmiyyəti dövlətin faiz stavkası səviyyəsini tənzimlənməsi nəticəsində milli gəlirin necə dəyişməsini əks etdirəcəkdir. Onun iqtisadi mexanizmi belədir: faiz stavkasının aşağı düşməsi investisiya prosesinin qısa müddətə yüksəlməsini stimullaşdırır, bununla da milli gəlirin və istehsalın genişləndirilməsinə təhrik edir.

Multiplikatorların göstərilən növü onların müxtəlifliyini inkar etmir. Çünki, iqtisadiyyatda məqsəd, vasitə, multiplikator üçlüyünün iştirakı olmadan heç bir iqtisadi siyasət həyata keçirmək mümkün deyüldir. Məqsəd, vasitə və multiplikatorlar çoxluğu iqtisadi siyasətin formalaşmasının ilkin platforması sayılır. Bu platforma iqtisadi siyasətin ümumi təsəvvürünü yaradır, demək olar ki, dövlət tənzimlənməsinin eskizini təşkil edir. Dövlət iqtisadi siyasətin real həyata keçirmək məqamında daha konkret problemlərlə rastlaşır.

Onu da qeyd etmək lazımdır ki, iqtisadi siyasətin bütün vasitələri eyni effektə malik deyildir. Onlardan biri qiymətin dinamikasını və səviyyəsini tənzimləmək üçün yararlıdırsa, digəri iqtisadi artımın stimullaşdırılmasında istifadə olunur və s.



downloaded from KitabYurdu.az

Xüsusilə inflyasiya tempi götürülərsə onun pul multiplikatorundan böyük olduğu görünür. İqtisadi artımın tənzimlənməsində isə onlar yerlərini dəyişirlər:

$$M_{Yc} \rangle M_{YM}$$

$$M_{RC} \langle M_{RM}$$

Burada: $M_{yc}$- mili gəlirə görə büdcə multiplikatoru;

$M_{ym}$-qiymət səviyyəsinə görə pul multiplikatoru;

$M_{RC}$ – qiymət səviyyəsinə görə büdcə multiplikatoru;

$M_{RM}$ – qiymət səviyyəsinə görə pul multiplikatorunu əks etdirir.

Belə olduğu halda siyasətçilərin planlaşdırdıqları məqsədə nail olmaq üçün həmin multiplikatorlardan istifadənin növbəliyini təmin edirlər. Yəni bir halda biri digər halda isə ikinci multiplikator işə salınır. Bunun hamısı real iqtisadi situasiyadan, qiymətlərin cari səviyyəsinin arzu olunandan nə dərəcədə kənarlaşmasından asılıdır. Tutaq ki, qiymət səviyyəsində elə bir dəyişiklik yoxdursa, bk zaman büdcə siyasəti birinci yerə çıxır. Və yaxud inflyasiya tempi yüksəkdirsə, bu zaman pul siyasəti irəli çıxır. Aşağıdakı qrafikə diqqət yetirək:



downloaded from KitabYurdu.az

ŞƏKİL 4




y-milli gəlir; - İqtisadi siyasət vasitələri

P-qiymət səviyyəsi;

y⁻ - siyasətçiləri qane edən kəmiyyət - məqsəd

p⁻ qiymətin qaneedici səviyyəsi

y=y⁻ və p=p⁻ düz xətlərinin hər bir nöqtəsində siyasətçiləri qane edən elə nöqtə vardır ki, bu vasitələr kompleksini əks etdirir. Lakin bir nöqtə Q daha maraqlıdır. Q nöqtəsindəki mövqe siyasi vasitələr kombinasiyasının daha optimal olduğunu əks etdirir. Belə ki, həmin nöqtə (Ç⁻ və M⁻ kəsişməsində) eyni vaxtda y və p mahiyyətlərinin daha optimal olduqlarını əks etdirir.

Fərz edək ki, tənzimlənmənin başlanğıcı A nöqtəsindədir. Göründüyü kimi hər iki məqsəd (milli gəlir və qiymət səviyyəsi) nəzərdə tutulmuş səviyyədən çox uzaqdadırlar. Dövlət tənzimlənməni həyata keçirmək üçün (məqsədə nail olmaq üçün) büdcə mexanizmini işə salaraq iqtisadi inkişafa nail olmağa çalışır. Nəticədə iqtisadiyyatda dəyişikliklər baş verir. Bu vəziyyətə B



downloaded from KitabYurdu.az

nöqtəsi uyğun gəlir. Lakin burada məqsəd tam həll olunmur. Çünki, $Y=Y^-$ şərti ödənilsə də, Pbərabər deyildir p şərti ödənilmir. Büdcə eksponsiyasının davam etdirilməsi artıq məqsədə uyğun olmur. Çünki inflyasiya digər pul vasitələrinə hissiyatlıdır. Dövlət ondan istifadə edərək iqtisadi inkişafın istiqamətini C nöqtəsinə doğru yönəldir. Bu halda P=p şərti ödənilir. Y bərabər deyildir $y^-$ şərti isə ödənilmir. Son nəticədə dövlət pul və büdcə mexanizmini növbələşdirərək arzu olunan mövqeyə nail olur. Yəni $Y=y^-$ və $P=p^-$ şərtləri ödənilmiş olur.

Bazar iqtisadiyyatı dövlət tənzimlənməsinin obyekti olmaqla bərabər inkişafında müəyyən ətalətə malikdir. Belə ki, iqtisadi proseslər ani bir vaxtda baş vermir, o resurs xərcləri ilə yanaşı müəyyən vaxt müddəti tələb edir. Bununla əlaqədar olaraq, iqtisadi siyasət reallaşarkən gecikmə effekti, dövlətin nəzərdə tutduğu tədbirlərin həyata keçirilməsi ilə real nəticənin alınması arasında arzuolunmaz vəziyyətlərin meydana çıxması halları baş verir ki, bu da vasitədən məqsədin kənarlaşmasına səbəb olur. Siyasətdə bu hala laq deyilir ki, bu da səbəb və nəticə arasında olan vaxt – müddət kimi çıxış edir. Buna görə də belə halların qiymətləndirilməsi dövlət tənzimlənməsinin mühüm probleminə çevrilir. Dövlət bu və ya digər tədbirin nəticəsini nəinki ehtimalını, onun nə vaxt baş verəcəyini gözlənildiyini bilməlidir. Qeyd etmək lazımdır ki, öz daxili quruluşuna görə gecikmə eefkti eynicinsli deyildir və onun beş elementini fərqləndirmək lazımdır.



downloaded from KitabYurdu.az

Bunlardan biri iqtisadi siyasət tədbirinin gecikməsinin etiraf edilməsidir. Burada tənzimləmə probleminin mövcudluğunun və onun dəyərliliyinin qiymətləndirilməsinin siyasətçilər tərəfindən dərk edilməsi üçün zəruri olan vaxt nəzərdə tutulur. Bu vaxtın davamlılığı, uzunluğu iqtisadiyyatın vəziyyətindən, onun siyasi qərarlarının qəbul edilməsindəki rolundan və habelə həmin qərarları qəbul edənlərin səriştəliyindən və s. asılıdır.

İkincisi, qərarların qəbul edilməsi vaxtıdır. Bu problemin dərk edilməsi ilə bu və ya digər tənzimedici mexanizmin fəaliyyətə başlaması qərarının qəbul edilməsi arasındakı vaxtdır. Bu zaman iqtisadi siyasətin ayrı-ayrı vasitələri arasındakı fərq nüfuzedicidir. Məsələn, pul siyasətinin qəbul edilməsi ilə onun həyata keçirilməsi arasındakı vaxt azdır, belə ki, burada dövlətin mövqeyi ilə Mrəkəzi Bankın razılığı lazımdır. Büdcə siyasətinin həyata keçirilməsində isə uzun müddət tələb olunur. Belə ki, vergi və dövlət xərcləri haqqında siyasət, qanunverici orqanlarla razılaşdırılmalı, Milli Məclisin komissiyalarından keçirilməlidir. Bu isə müəyyən qədər vaxt tələb edir.

Üçüncü qərarların qəbul edilməsi ilə konkret fəaliyyətin başlanılması momenti arasında olan vaxtdır. Məsələn, pul təklifinin artırılması haqqında qərar qəbul edilmişdirsə, bunu həyata keçirmək üçün Mərkəzi Bank ehtiyatların normasını azaltmalı, banklararası kredit stavkasını aşağı salmalı, qiymətli kağızlar bazarından dövlət istiqrazlarının alınmasını artırmalıdır. Bunun üçün isə vaxt lazımdır.



downloaded from KitabYurdu.az

Dördüncüsü, aralıq vaxtdır ki, iqtisadi siyasət elementlərinin daxili strukturu ilə müəyyən olunur. Məsələn, pul təklifi. İqtisadi siyasətin ümumi konteksində o, antiinflyasiya vasitəsi kimi görünür. Ona pul dövriyyəsini təşkil edən mərkəzi bankın nöqteyi nəzərindən baxdıqda isə onun vasitə yox, məqsəd olduğunu seçmək olar. Pul təklifinə nəzarət etməyərək Mərkəzi Bank belə hesab edə bilər ki, pul təklifini istənilən istiqamətə yönəltmək üçün pul siyasətini müxtəlif metodlarından istifadə oluna bilər. Lakin məlumdur ki, pul təklifinin tənzimlənməsi metodları arasında müəyyən müddətlərdə fəaliyyət göstərən iqtisadi mexanizmlər vardır və onlar birdən birə yox, ayrı-ayrı vaxtlarda hərəkətə başlayırlar. Məsələn, banklararası kredit stavkası aşağı düşürsə, bu zaman ilk əvvəl komersiya bankları yeni situasiyanın təhlili ilə kifayətlənirlər. Bu situasiyanın xoş niyyətli olduğunu bildikdən sonra onlar Mərkəzi Bankla müqaviləyə girişirlər və bazara əlavə kredit kütləsi buraxırlar. Buna görə də aralıq vaxt həmin proseslərin müddətliliyinin əsas ölçüsü kimi çıxış edir.

Beşincisi təsir vaxt adlanır. Bu dövrdə makroiqtisadi siyasətin məqsədi vasitənin real dəyişdirilməsini hiss edir. Təsir vaxtının kəmiyyəti məqsəd və vasitəni birləşdirən iqtisadi mexanizmin konstruksiyası ilə onun ətalət dərəcəsi ilə müəyyən olunur. Xüsusi ilə bu vaxt pul siyasətinin həyata keçirilməsindən büdcə siyasətinin həyata keçirilməsi vaxtı qısadır. Vaxt amilinin dəfələrlə təhqiqi göstərmişdir ki, iqtisadi siyasətin həyata keçirilməsi xarakter və kəmiyyətcə eyni deyildir. Elə hal ola bilər ki, multiplikator qısa bir



downloaded from KitabYurdu.az

müddətdə siyasətçilərin məqsədinə uyğun olaraq öz resurssunu büruzə verir. Bəzən də əksinə olur. Yəni məqsədə nail olunması prosesi ləng gedir – vaxt lazım olur. Başqa sözlə desək, multiplikatorun gücünün bölgüsü müxtəlif variantları meydana çıxır. Bu variantlardan biri aşağıdakı qrafikdə göstərilmişidr.

Şəkil 5




Şəkil 5-də üfüqi xətdə illərlə vaxt, şaquli xətdə isə multiplikatorun faizlə gücü göstərilmişdir. Təsir vaxtının məcmu mahiyyəti 4 illə ölçülür.

Qeyd olunmalıdır ki, vaxt strukturunun qalan elementləri koordinatın əvvəlində «gizlənmişdir».

Şəkildən görünür ki, X tənzimləyicisi fəaliyyətə başlayandan 0,5 il sonra $M_{yx}$ multiplikatoru öz layihə gücünün 75%-nə çatmışdır. Daha mükəmməl desək bu müddətdə X vasitəsinin y məqsədinə təsiri az olmuş olur. Həmin mulitiplikatorun gücünün maksimum



downloaded from KitabYurdu.az

olması üçün heç olmasa 1 il lazımdır. Sonradan tənzimləmənin effekti yavaş-yavaş azalmağa başlayır. Ötən 3 il müddətində isə ilkin siyasi impulsun məqsədə təsiri tamamilə azalmış olur. Lakin iş bununla qurtarmır və vaxt amili əksinə işləməyə başlayır. Multiplikatorun mahiyyəti mənfilənir, bu isə o deməkdir ki, məqsədin arzu olunan və cari səviyyələri arasındakı kəsik artmağa başlayır. Belə hal həqiqətdə də mümkündür.

Fərz edək ki, iqtisadi inkişafı dövlət büdcə xərcləri vasitəsilə stimullaşdırmaq niyyətindədir. Bu zaman ilk əvvəl hər şey plan üzrə hərəkət edir. Lakin sonradan bu inflyasiya effektinin yaranmanı gətirib çıxardır. İnflyasiya isə eyni zamanda iqtisadiyyatı əngəlləyən bir neçə mexanizmin yaranmasına səbəb olur ki, bu da iqtisadi artımı ləngidir.

Tənzimləmə prosesinin uzun müddət nəticəsinə diqqət verilərsə siyasi tədbirin 5 və 10 formaları əsasında effektivliyinin qiymətləndirilməsi həmin tədbiri qəbul edənləri əsas məqsəddən yayındıra bilər. Bu zaman Y.Tinberqenin prinsiplərinə cavab verən multiplikatorun müəyyən edilməsi kifayət etmir və iqtisadi siyasətin həyata keçirilməsi üçün yeni bir şərtin olması da zərurilənir.

$$\Delta \rangle 0 \qquad 13.$$

haradakı



downloaded from KitabYurdu.az

$$\Delta = \int_0^3 \mathrm{M}_{YX}\, yx(t)dt - \int_0^4 \mathrm{M}_{yx}\, yx(t)dt$$

14.

Bu ifadənin mahiyyəti ondadır ki, X tənzimləyicisi fəaliyyətə başlayandan sonra vaxt üzrə bölüşdürülmüş müsbət effektlər, bütün mənfi nəticələrin cəmindən böyük olmalıdır. Onu da qeyd etmək lazımdır ki, müasir iqtisadiyyatda külli sayda dinamiki multiplikatorlar vardır ki, belə təxmini hesablamaları dəqiqliklə müəyyən etməyə imkan verirlər.

Siyasi məsələlərin həlləində və həyata keçirilməsində vaxt amilinin rolunun qiymətləndirilməsi iqtisadi nəzəriyyənin mürəkkəb problemlərindəndir. Bu xüsusilə təsir vaxtına daha çox aiddir. Çünki, o müxtəlif iqtisadi subyektlərin qarşılıqlı əlaqələrinin davam etməsi vaxtı haqqında ümumi məlumat verilir. Məsələn, dövlətin təhrikinə baxmayaraq kapitalına risk etməyən sahibkarın qətiətsizliyi ilə əlaqədar itirilən vaxtı və yaxud istehlakçının məhsul alması üçün daha müvafiq vaxt gözləməsini necə ölçmək olar. Məqsəd və vasitələri əks etdirən makroiqtisadi göstəriciləri planlaşdıran siyasətçiləri də bura əlavə etmək olar.

Məsələnin belə qoyuluşu çox vaxt aldadıcı olur. Məsələn, büdcə xərcləri eyni istiqamətli deyildir. Belə ki, elm və texnologiyanın inkişafına ayrılmış büdcə xərcləri milli gəlirin artmasına 5-7 ildən sonra təsir göstərir. Bu məcmu dövlət xərclərinə xas olan orta vaxt ölçüsündən bir neçə dəfə yüksəkdir. Buna görə də praktiki olaraq



downloaded from KitabYurdu.az

vaxt strukturunun mahiyyətini qiymətləndirmək mürəkkəbdir. Bu məqsədlə dövlət vasitələrin effektivlik və tez təsir etmə amilləri üzrə təsnifləşdirilməsini həyata keçirir. Nəticədə hansı vasitənin tətbiqinin tez effekt verdiyini, hansının isə bir müddətdən sonra özünü göstərdiyini aşkar etmək imkanı yaranır.

Beləliklə, vaxt strukturunun müəyyən qədər dəqiq qiymətdirə bilən dövlət siyasətçiləri iqtisadi inkişafı istiqamətləndirə bilirlər. Əks halda konkret bir təklif irəli sürə bilməyən dövlət əhalinin etimadından məhrum olmuş olur.

Keçmiş İttifaq məkanında məlum hadisələrdən sonra Azərbaycan Respublikası suverenlik əldə edərək iqtisadiyyatını sərbəst şəkildə inkişaf etdirməyə başladı. Keçid dövrünü yaşayan bütün ölkələr kimi Azərbaycanın iqtisadiyyatı da neqativ hadisələrlə üzləşdi. Lakiq respublikada olan mövcud resurslar, keçid dövrünün bir qədər ağırsız inkişafına şərait yaratdı.

Belə ki, respublika ilk əvvəl iqtisadi siyasətini müəyyənləşdirdi. Bunun üçün ölkədə sabitlik, iqtisadi inkişafın hüquqi bazasının formalaşması və hüquqi dövlətin qurulması, Mili Valyutanın dönərliyinin artması və maliyyə sabitliyinin yaranması kimi məsələlər ön plana çəkildi.

İqtisadi siyasətin əsas  istiqaməti müəyyən edildikdən sonra, ölkədə iqtisadi inkişaf strategiyası formalaşdırıldı. Bu strategiyanın əsasında neft sektorunun inkişafı durur. Ölkə rəhbərləri neft sektorunun inkişafına ölkə iqtisadiyyatının digər sahələrinin



downloaded from KitabYurdu.az

inkişafının açarı kimi baxır və bu sahənin inkişafında əsaslı irəliləyişlər əldə olunmuşdur.

Bakı-Ceyhan neft kəmərinin çəkilməsi, qədim İpək Yolunun bərpası bu strategciyanın reallaşmasının əsas aparıcı sahələridir.

Dövlətin iqtisadi siyasəti və iqtisadi strategiyası bir-birilə əlaqədar olur, biri digərini tamamlayır. Bu mənada müəyyən fikirlər də vardır.

Bəzi amillər iqtisadi siyasəti – iqtisadi proseslərin korrektləşdirilməsi, situasiyasının düzəldilməsi üçün fəaliyyət sistemi kimi qələmə verirlir.

Lakin nəzərə almaq lazımdır ki, siyasət də iqtisadiyyat kimi iqtisadi məkanda insanların davranışını öyrənir. Bu zaman dövlətin fəaliyyəti rəqabətin stimullaşdırılmasına, istehsalın səmərəliliyinin yüksəldilməsinə, onun resurs təminatına mikroiqtisadi problemlərin həllinə istiqamətlənməlidir.

İqtisadi siyasət böyük sistemdə fəaliyyət göstərdiyi üçün o iqtisadiyyatın bütünlükdə stabilləşdirilməsinin məqsədinin əsasını təşkil edir.

Məlumdur ki, dünya ölkələrinin hər birinin özünə məxsus tarixi-iqtisadi inkişafı, təbii sərvətləri, iqlim şəraiti, əhalinin tərkib müxtəlifliyi, milli adət-ənənəsi, psixoloji-sosial xüsusiyyətləri və s. vardır. Buna görə də onlarda Mili iqtisadiyyatın inkişaf istiqamətləri haqqında vahid qayda, metodika vermək mürəkkəbdir. Lakin bununla belə Milli iqtisadiyyatın tərkibini təşkil edən halların təxmini də olsa təsnifatını vermək olar:



downloaded from KitabYurdu.az

- Milli iqtisadiyyat iqtisadi həyatın məkanca milli zəmində özünəməxsus təşkili formasıdır;

- Milli iqtisadiyyat nəzəriyyəsi ölkənin iqtisadi potensialını, məhsuldar qüvvələrin yerləşdirilməsini, Milli bazarı və ölkənin dünya iqtisadiyyatındakı mövqeyini tədqiq edir;

- Milli psixologiya və ənənəvi davranışda cəmiyyət üzvlərinin məsuliyyətini müəyyənləşdirir;

- Özünəməxsus Milli xüsusiyyətlərin toplandığı birinci dərəcəli sosial problemlərin həlli istiqamətlərini əks etdirir.

Bu yuxarıda qeyd olunanlar, demək olar ki, Milli iqtisadiyyatın yaradılmasının özəyini təşkil edirlər.

Məlumdur ki, iqtisadiyyat elmi pozitiv və normativ komponentləri özündə əks etdirir. Bu zaman pozitiv komponentin vəzifəsi «nə baş verdiyini» aydınlaşdırmaqdan, mövcud situasiyanı aşkar etməkdən ibarət olub, elmi proqnozlaşdırmanın əsasını yaratmaqdır.

İkinci normativ komponent isə «necə olmalıdır» problemi ilə məşğul olaraq situasiyanın düzəldilməsi qaydasını işləyib hazırlayır. Bunu o, çox vaxt inzibati-hüquqi qaydalar zəminində həyata keçirir. Bu iki komponentin qarşılıqlı əlaqəsinə konseptual yanaşma bazar münasibətlərinin təşəkkül tapması ilə iqtisadiyyata dövlət müdaxiləsinin sərhədlərini müəyyən etməyə imkan verir.



downloaded from KitabYurdu.az

İqtisadi nəzəriyyə və siyasətdə keçid iqtisadiyyatı anlayışından da istifadə olunur. Beynəlxalq Valyuta Fondunun təsnifatına görə (1907) bu qrupa 27 ölkə daxil edilmişdir.

Nəzəri cəhətdən keçid iqtisadiyyatı-mərkəzləşdirilmiş planlaşmadan bazar münasibətlərinə keçid dövründə öz iqtisadiyyatını transformasiya edən Mili iqtisadi sistemdir. Bu zaman Milli iqtisadiyyatda əvvəlki qayda qanun və metodikanın bəzilərinin saxlanılması və bəzilərinin isə dəyişdirilərək yeniləşdirilməsi yolunu seçərək «yeni oyun qaydaları» müəyyən edərək sərbəst fəaliyyət imkanına malik olur.

Azərbaycan Respublikası 18 oktyabr 1991-ci ildə öz suverenliyini bərpa edərək bazar münasibətləri yolunun iqtisadi inkişafında əsas götürülmüşdür. Respublika keçid iqtisadiyyata dövrünü yaşayır. Onun iqtisadi inkişafında pozitiv və normativ komponentlərin müxtəlif formalarda uyğunlaşdırılmasından istifadə olunur.

Bütün bu deyilənlərə nəzərən yekunda çağdaş dövrdə Mili iqtisadiyyatda baş verən yenilikləri belə əks etdirmək olar:

- iqtisadi inkişafa siyasətin təsirinin əsas sayılması;
- monetar tənzimlənmənin iqtisadiyyatda dövlətin iştirakının əsas elementinə çevrilməsi;
- dövlətin iqtisadi siyasətinin birinci dərəcəli hesab edilməsi;



downloaded from KitabYurdu.az

- iqtisadiyyat, sosiologiya, psixologiya, etika və hüquq münasibətlərinin uyğunlaşdırılması.

## *2. İQTİSADİ SİSTEMİN TRANSFORMASİYA OLUNMASI STRATEGİYASI.*

XX əsrin 80-ci illərindən başlayaraq, dünyanın ikinci nəhəng ölkəsi olan Sovetlər İttifaqı və ona daxil olan müttəfiq respublikaların iqtisadi inkişafındakı ziddiyyətlər özünü büruzə verməyə başladı. Bunun əsasında başqa amillərlə yanaşı duran mühüm bir amil vardır ki, bu da ölkədə məhsul istehsal edənlərlə – məhsulu bölüşdürənlər arasında barışmaz ziddiyyətin mövcudluğu idi. Yəni məhsulu istehsal edən müəssisə və təşkilatlar onun sonrakı hərəkətini izləyə bilmirdilər. Çünki məhsulun yeganə bir sahibi vardır ki, bu da dövlət idi. Belə halda məhsulun keyfiyyəti və onun rəqabət qabiliyyətliliyi müəssisə və təşkilatları az düşündürürdü və 70 il davam edən bu proses özünün ziddiyyətliliyi ilə 80-ci illərdən ən yüksək səviyyəsinə çatdı. Bununla əlaqədar olaraq keçmiş İttifaq və ona daxil olan respublikalar iqtisadi sistemin yeniləşdirilməsi və yenidən qurulması məsələsini irəli sürdülər. Təbiidir ki, bu fikir ölkənin öz daxilindən daha çox xarici amillərin təsiri ilə formalaşmışdır. Çünki dünyada mövcud olan iki sistem- kapitalizm və sosializm sistemləri daima bir-biri ilə mübarizə aparırdılar.



downloaded from KitabYurdu.az

Ölkədə mövcud olan ziddiyyətlərin təhlili nəticəsində xarici kapitalizm ideoloqları belə qənaətə gəldilər ki, SSRİ kimi bir nəhəng ölkəni dağıtmaq üçün onun daxili ziddiyyətlərindən istifadə olunmalıdır. Buna görə də onlar yenidənqurma məsələsini ortalığa atdılar. Lakin onlar bilirdilər ki, iqtisadi sistemin transformasiyasının strategiyası hazırlanmadan yenidənqurmaya başlanılması effektli nəticə verə bilməz. Çünki kapitalizm sistemində inkişaf edən həmin ölkələr müasir bazar iqtisadiyyatına gəlib çıxana qədər müəyyən tarixi mərhələdən keçmişdir.

İqtisadiyyatın dövlət tənzimlənməsinin mövcud sistemi də birdən-birə yaranmamışdır. Onun da inkişafı prosesində bir neçə mərhələdən keçmişdir.

Bu mərhələlərə nəzər salaq:

1. Bazar iqtisadiyyatının yaranması dövründə dövlət onun inkişafı üçün əlverişli şərait yaradır;

a) daxili qanun-naydanı qoruyur, sərhədləri müdafiə edir;

b) kömrük haqlarını müəyyən edir;

v) təsərrüfat fəaliyyətini tənzim edən qanunlar qəbul edir, onları pozanları cəzalandırır.

q) yarana bilən fəhlə hərəkatına qarşı mübarizə aparır (daha müfəssəl desək polis funksiyasını yerinə yetirir)

2. Sosial ziddiyyətlərin yaranması iqtisadi böhranların baş verməsi göstərir ki, bazar mexanizmi heç də həmişə sosial-iqtisadi inkişafın bütün problemlərini həll etmir. Bu zaman dövlət



downloaded from KitabYurdu.az

təsərrüfat məsələlərinin həllində daha yaxından iştirak etməyə başlayır;

a) hərbi-siyasi və iqtsadi məqsədlər üçün infrastruktur sahələrinin inkişafını aktivləşdirir;

b) dəniz və çay limanları tikir.

v) rabitə xətləri yaradır;

q) dəmir yollarının çəkilməsində, hərbir zavodların tikilməsində, hərbi sifarişlərin yerləşdirilməsində xüsusi kapitalı maraqlandırır və ya özü iştirak edir.

3. Dövlət xüsusi kapitalın təkrar istehsalı üçün yeni güzəştlər tətbiq edir, sosial, vergi, ticarət, əmək qanunlarını tərtib edir. Dövlət mülkiyyətinə xammal, infrastruktur sahələri alır. Təsərrüfatın tənzimlənməsi üçün pul-kredit, büdcə vasitələrindən istifadə olunması eksperimentlərini aparır. Mərkəzi Bank uçot stavkalarının dəyişdirilməsi yolu ilə antitsiklik siyasət aparır. Dövlət daxildə kapitalın iri alıcısı kimi çıxış edir. Məhsul ixracı və kapitalın çıxarılması mükafatlandırılır.

4. Antiinhisar və struktur dəyişikliyi istiqamətində tədbirlər görür, qiymət və məşğulluğa təsir göstərməyə çalışır. Kapitalın mərkəzləşməsini mükafatlandırır. İnhisar sahibkarlarla bir başa əlaqədə ölkənin daxili siyasətinə daha güclü təsir göstərir. Onlar müharibə dövrü üçün xarakterik olan hərbi sifarişləri zənginləşdirirlər. (Birinci Dünya müharibəsi ərəfəsində)

5. Avropada inqilab Rusiyada inqilabın qalib gəlməsi, 1923-1933-cü illərin «Böyük Depressiya»sı iqtisadiyyatın dövlət



downloaded from KitabYurdu.az

tənzimlənməsinin makrosəviyyədə nəzəri formalaşmasını zəruriləşdirir. İnhisar bazar üçün təhlükəli olduğu dərk edilir və onun inkişafı məhdudlaşdırılmağa başlanılır.

6. Almaniyada, Yaponiyada, İtaliyada, Finlyandiyada müharibəyə hazırlıq üçün iqtisadiyyatın dövlət tənzimlənməsi modeli yaradılır. Həmin ölkələrdə ümumimilli kartellər yaradılır. Tənzimləyici orqanlar sahibkarlar ittifaqı və həmkarlarla birləşirlər, demokratik parlament ləğv edilir.

7. Keçmiş Rusiya imperiyasının ərazisində SSRİ-də yaradılmış Dövlət mülkiyyəti əsasında mərkəzləşdirilmiş planlaşdırma sistemi fəaliyyətə başlamışdır.

8. İkinci dünya müharibəsindən sonra çoxlu ölkələrdə sənayenin mühüm sahələri dövlət mülkiyyətinə keçir. Bunun hesabına dağılmış təsərrüfatların bərpası, rekonstruksiya edilməsi və s. dövlət bölməsində toplanır. Dövlətin iqtisadi siyasəti əsas kapitalın genişlənməsinə, yığım və yenidən qurmanın stimullaşdırılmasına istiqamətlənir, ixrac mükafatlandırılır. İqtisadiyyatın dövlət tənzimlənməsinin alətləri hazırlanır. Bunlarla yanaşı dövlət amortizasiya hesabına əsas kapitalın özünü maliyyələşdirməsi siyasətini həyata keçirir.

9. «Soyuq müharibə» şəraitində, hərbi sursat və ləvazimat istehsalı genişlənir, hərbi-sənaye kompleksləri yaranır. Bu zaman dövlət idarəedici orqanları hərbi idarələrlə birləşir (daha doğrusu sıx əlaqədə olurlar). İkili təyinatlı məhsullar istehsal edilir.



downloaded from KitabYurdu.az

10. Bir sıra ölkələrdə, Şərqi Avropada, Asiya və Kubada sosialist qrupları yaranır. Dövlətlərarası inteqrasiya yaranır. Qarşılıqlı İqtisadi Yardım Şurasında əmək bölgüsü mərkəzləşdirilmiş direktiv-planlaşdırılması əsasında həyata keçirilir. Qərbi Avropa inteqrasiyasına doğru addımlar atılır.

11. Müharibədən və uzun müddətli bərpa dövründən sonra ölkələr qarşısına yeni problem çıxır. İqtisadiyyatın dövlət tənzimlənməsinin nəzəriyyəçiləri orta müddətli sahə və regional proqramların həlli yollarını axtarmağa başlayırlar. Bəzi inkişaf etmiş ölkələrdə dövlət mülkiyyətinin «xalq səhmləri» formasında özəlləşdirilməsi dalğası başlayır.

12. Sosialist dövlətlərinin, planlı təsərrüfat sisteminə bazar mexanizminin elementlərinin daxil edilməsi heç bir nəticə vermədi. Əksinə təsərrüfat subyektlərinin marağı olmadığı üçün inteqrasiya prosesində çətinliklər yaranmış oldu. Buna görə də bazar iqtisadiyyatına qədəm qoymuş ölkələr öz mili modellərini qurmaq məcburiyyətində qalmış oldular.

13. Nəzəri və praktiki olaraq iqtisadiyyatın dövlət tənzimlənməsində müəyyən nailiyyətlər əldə edilmişdir. Belə ki, inkişaf etmiş ölkələrdə uzun müddətə istiqamətlənmiş orta müddətli dövlət proqramları həyata keçirilir. Tənzimləmənin alətləri kompleksli olub ünvanlı xarakter daşımağa başlamışdır. Lakin məşğulluğun təmin olunması və artımında arzu olunan nəticələr alınmamışdır.



downloaded from KitabYurdu.az

14. Beynəlxalq iqtisadi inteqrasiyanın inkişaf etməsi və dərinləşməsi iqtisadiyyatın dövlət tənzimlənməsinin bəzi funksiyalarının Beynəlxalq Dünya Bankına, Beynəlxalq Valyuta Fonduna və s. beynəlxalq təşkilatlara verilməsi ilə nəticələnir.

15. Qarşılıqlı İqtisadi Yardım Şurası və SSRİ dağılır. Sosialist ölkələri bazar elementlərini daxil etməklə özəlləşdirmə və dövlətsizləşdirmənin aparılmasının iqtisadiyyatın dövlət tənzimlənməsinin fəaliyyətinin öz modellərini axtarırlar. Onların əksəriyyəti ABŞ-nın iqtisadi inkişaf modelini əsas götürsələr də, onun effektli olmadığını görürlər. Çünki, onların iqtisadiyyatı dərin böhran keçirir, inflyasiya və işsizlik baş alıb gedir, əhalinin yaşayış səviyyəsi aşağı düşür. Dövlət iqtisadi çətinlikdən çıxmaq üçün öz rolunu gücləndirməyə çalışır.

16. Yenə də dövlətin üzərinə klassik funksiyanı yerinə yetirmək vəzifəsi düşür;

a) mülkiyyət hüququnun qorunması;

b) sahibkarlıq müstəqilliyinin təmin olunması;

v) rəqabətin təmin olunması

q) iqtisadi sferalarda qanun və qaydalara əməl olunması;

e) xarici-iqtisadi əlaqələrin tənzim olunması;

c) pul tədavülünün tənzimlənməsi;

z) ölkənin təhlükəsizliyinin qorunması;

Bu mərhələdə həmçinin iqtisadiyyatın dövlət tənzimlənməsinin yeni funksiyaları, sosial ədalət prinsipinin qorunması, təhsil və kadr hazırlığının gücləndirilməsi, ətraf mühitin təhlükəsizliyinin təmin



downloaded from KitabYurdu.az

olunması, ölkələrarası inteqrasiyanın güclənməsi və bu kimi funksiyalar fəaliyyətə başlayır. Keçilmiş mərhələlərin həmçinin aşağıdakı qruplar üzrə təsnifləşdirmək olar.

I. Azad rəqabət mərhələsi. Bu mərhələnin nə vaxt başlandığını və onun xalis kapitalizm mərhələsini keçdiyi haqda dəqiq fikir söyləmək çətindir. Çünki, azad rəqabətə əsaslanan «xalis» kapitalizmin formalaşması uzun dövrü əhatə etmişdir. Bu qənaətə gəlmək üçün klassik burcua siyasi iqtisadının banilərinin yaşadıqları dövrə nəzər salmaq kifayətdir. Belə ki, U.Petti 1623-1687-ci, A.Smit 1723-1790-cı, D.Rikardo 1772-1823-cü illərdə yaşamışlar. Göründüyü kimi onların yaşadıqları dövrlər arasındakı fərq 150 il təşkil edir. Deməli «xalis» kapitalizm, belə söyləmək mümkünsə 150 il müddətində formalaşmışdır. İqtisadiyyatın azad rəqabət şəraitində inkişafı həmişə müəyyən məhdudiyyətlərlə müşayiət olunmuşdur. Bunun haqqında P.Samuelson (1915) qeyd etmişdir ki, azad rəqabət hamı üçün yaxşıdır, lakin o heç vaxt sınaqdan keçirilməmişdir. Onu həmişə nə isə bir şey məhdudlaşdırmışdır; ya feodalizmin qalıqları və ya müxtəlif formalı dmktatura, müharibələr və ya sosial təsirlər.

II. Kütləvi istehsal mərhələsi. Bu elə bir dövr idi ki, bütün iqtisadi münasibətlər sisteminə istehsal fazası təkan verirdi. Bu elə bir dövr idi ki, hər bir yeni istehsal olunan məhsullar öz daxili parametrlərinə görə əvvəlkilərdən az fərqlənirdilər və konstruksiyalar ilə, keyfiyyətləri ilə istehlak tələbini uzun müddətə ödəyə bilirdilər. Rəqabətə qarşı əsas silah kimi istehsal xərclərinin azaldılması çıxış edirdi. Bu dövrün ən ilkin nümayəndələrindən biri.



downloaded from KitabYurdu.az

N.Ford idi. Onun ən mühüm nailiyyəti konveyer üsulu ilə buraxılan və hamının almağa imkanı çatan avtomobil istehsalı idi. Onun belə bir ifadəsi vardır ki, keyfiyyəti, növü və rəngi müxtəlif olan avtomobillər istehsal etmək lazımdır, lakin onlar ancaq qara rəngdə olmalıdırlar.

ABŞ-da kütləvi istehsal öz başlanğıcını XIX əsrin 20-ci illərindən götürmüşdür. Onun formalaşmasına təkan verən ilk amil su kanallarının çəkilməsi və sonradan ümumimilli dəmir yollarının salınması oldu. Hesab edilir ki, 80-90-cı illərdə ABŞ-da kütləvi istehsal üçün infrastruktur sahələri formalaşmışdır ki, burada firma və korporasiyaların yaranmasına səbəb olmuşdur.

III. Satış mərhələsi. XX əsrin 30-cu illərindən başlayaraq kütləvi istehsal mərhələsi satış mərhələsi ilə əvəzlənməyə başladı. İstehlakçı uğrunda mübarizəyə ilkin diqqət yetirən «Ceneral Motorz» korporasiyası oldu. İstehlak bazarının axtarılması istehsal olunan malın yeridilməsi ön plana çəkildi. Həmin dövrdən də biznesin yeni funksiyası meydana gəldi ki, bu da bazar marketinqi adlandırıldı.

IV. İndustrial mərhələ. Bu mərhələ XX əsrin 50-ci illərindən başlayaraq inkişaf etmiş ölkələrdə iqtisadi-sosial prosesləri əhatə edir. Transformasiyaya uğrayan sistemdə başlıca amil elmi-texniki inqilab oldu. Bu istehsalda mövcud texnologiyaların dəyişilməsinə səbəb oldu ki, bu da iqtisadi sistemlərin yeniləşdirilməsi, dəyişdirilməsi zərurətini yaratdı.



downloaded from KitabYurdu.az

Göründüyü kimi, ölkədə iqtisadi sistemin transformasiyasının məqsədi iqtisadi institutların yeniləşdirilməsi ilə kifayətlənə bilməz. Təsərrüfatın idarə edilməsinin eyni qrumu bir halda effektli, digər iqtisadi şəraitdə isə tamamilə yararsız ola bilər. Buna görə də iqtisadi islahatlar keçirilərkən, bu və ya digər ölkədə mövcud olan modelin eyni nüsxəsindən istifadə etmək olmaz. Buna görə də iqtisadi transformasiyanın məqsədi və effektivliyi cəmiyyətin tələbatına uyğun olmalıdır. Çünki iqtisadiyyatın transformasiyası meyarı, ölkənin sosial-iqtisadi meyarı ilə üst-üstə düşməlidir. Buna görə də inkişaf etmiş ölkələrdə hökumət özünün iqtisadi siyasətində aşağıdakı məqsədlər toplusunun bu və ya digər formada uyğunluğunun təmin olunmasına çalışır:

a) iqtisadi artım

b) tam məşğulluq

v) iqtisadi effektivlik

q) qiymətlərin stabil səviyyəsi

d) iqtisadi azadlıq

c) iqtisadi təminat

z) ticarət balansı

İqtisadiyyatın transformasiyasının məqsədinin, onun həyata keçirilməsi aləti ilə və yaxud qeyri şuar xarakterli meyarlarla dəyişdirilməsindən qaçmaq üçün geniş təkrar istehsal qanununun tələblərinə əməl olunmalıdır. Qeyd etmək lazımdır ki, XX əsrin ortalarından başlayaraq inkişaf etmiş ölkələrdə geniş təkrar istehsal prosesi, iqtisadi inkişafın innovasiyalı tipi ilə çulğalaşmağa



downloaded from KitabYurdu.az

başlamışdır, təkrar istehsalın özü isə inovasiyalı adlandırılmışdır. Belə təkrar istehsalın hər tsikli istehsalın effektivliyini artıran yeni elmi texniki tərəqqinin tətbiqi ilə müşayiət olunur. Faktiki olaraq iqtisadi inkişafın innovasiyalı tipində təkrar istehsal prosesi, istehsal fazasından yox təkrar istehsala elmi hazırlıq fazasından başlanır. Deməli, tsiklin bir dövrü belə olur:




Təkrar istehsala elmi hazırlıq; - geniş milli axtarışları, uyğun marketinq, layihə-texnoloji tərtibatı, təcrübə işlərini və s. əhatə edir. Bu sahibkarlara istehsalın texniki səviyyəsinin daima yüksəkdə saxlamasına imkan verir ki, bu da rəqabət qabiliyyətli məhsul istehsalı imkanlarını genişləndirir.

İqtisadi sistemdə gedən bütün dəyişikliklər və ümumiyyətlə cəmiyyətin sosial-iqtisadi transformasiyası təbiidir ki, dövlətin iştirakı olmadan mümkün deyildir. Çünki, hansı ölkə olmağından asılı olmayaraq milli iqtisadiyyatın inkişafında dövlətin tənzimləmə sisteminin mövcudluğu zəruridir. Buna görə də dövlətin iqtisadi siyasətində mühüm başlıca istiqamət iqtisadiyyatın tənzimlənməsi və onun transformasiya olunması strategiyasının seçilməsidir. Hazırda iqtisadi sistemin transformasiyası strategiyasının seçilməsində iki istiqamət tövsiyyə edilir.



downloaded from KitabYurdu.az

Birincisi- dövlət funksiyasının onun potensialına, imkanına uyğunlaşdırılmasıdır. Söhbət arzu olunanın imkanla üst-üstə düşməsindən gedir. Bəzən dövlətlər məhdud resursa malik olduqlarını bilsələr də, daha çox iş görməyə çalışırlar ki, bu da xeyirdən daha çox ziyan verir. Buna görə də əgər dövlət az resursa malikdirsə, o zaman onun iqtisadiyyata müdaxiləsinin forma və istiqaməti dəqiq müəyyən edilməli, əsaslandırılmalıdır.

Bu mənada inkişaf etmiş ölkələrlə inkişaf etməkdə olan ölkələr arasında dövlət xərclərinə istiqamətlənən vəsaitlər də fərqlər mövcuddur. Sənaye cəhətdən inkişaf etmiş ölkələrdə dövlət xərcləri YDM-un 50%-ə qədərinə çatır, inkişfa etməkdə olan ölkələrdə isə bu 25% həcmindədir.

Strategiyanın mkmnci elementi dövlətin potensialının ictimai institutların aktivliyinin artırılması ilə möhkəmləndirilməsidir. Bu zaman korrupsiyanı və hökumət orqanlarının özbaşınalığını məhdudlaşdıran effektli norma və hədlərin müəyyənləşdirilməsi zəruridir. Mühüm məsələlərdən biri də dövlət və bələdiyyə orqanlarının, sahibkarlığın fəaliyyətinə ictimai nəzarətin gücləndirilməsidir.

Bu iki strategiya elementləri, onların arzu olunana yaxın yerinə yetirilməsi iqtisadiyyatın dövlət tənzimlənməsində mühüm rola malikdir.



downloaded from KitabYurdu.az

### *3. MÜASİR DÖVRDƏ İQTİSADİYYATIN TƏNZİMLƏNMƏSİNDƏ DÖVLƏTİN ROLU VƏ FUNKSİYALARI.*

Cəmiyyətdə müxtəlif maraqların bir-biri ilə əlaqələndirilməsi dövlət tərəfindən bir sıra mühüm funksiyaların həyata keçirilməsini tələb edir. Bu funksiyalar, dövlətin mahiyyətini bu və ya digər formada özündə əks etdirərək cəmiyyətin müəyyən inkişaf mərhələsində dövlətin qarşıya qoyduğu əsas vəzifələrdən asılı olaraq müəyyən edilir və bu vəzifələrin reallaşdırılması vasitəsi kimi çıxış edir. Dövlətin həyata keçirilməli olduğu vəzifələrin məzmununu isə müxtəlif daxili və xarici amillər müəyyənləşdirir.

Dövlətin funksional fəaliyyəti hər şeydən əvvəl, əsas məqsədə nail olmağa – imkanların maddi rifah halının yüksəldilməsinə, onların hüquq və sosial müdafiəsinin təmin edilməsinə yönəldilməlidir. Dövlət müəyyən bir qrupun və ya sinfin deyil, hər bir şəxsin hüquqlarının və qanuni maraqlarının ən amil təminatçısı və müdafiəçisi kimi çıxış etməlidir. Çünki dövlət bu yolla cəmiyyət üzvlərinə təsir göstərməklə, ictimai tərəqqiyə şərait yaradır, ictimai münasibətlər sistemini təkmilləşdirir və onu daha da zənginləşdirir.

Dövlətin tənzimləyici funksiyaları onun fəaliyyətinin əsas istiqamətlərinin ictimai həyatın hansı sahələrində tətbiq olunmasından asılı olmayaraq, ilk növbədə daxili və xarici funksiyalara bölünür. Fəaliyyət müddətinə görə isə dövlətin funksiyaları daimi və müvəqqəti ola bilər. Daimi funksiyalar dövlətin bütün inkişaf mərhələlərində, iüvəqqəti funksiyalara isə



downloaded from KitabYurdu.az

qarşıya qoyulan müəyyən vəzifələrin yerinə yetirilməsi anınadək həyata keçirilir.

Daxili funksiyalar cəmiyyətin daxili həyatının idarə edilməsi üzrə dövlətin fəaliyyət istiqamətlərini özündə əks etdirir. Bununla yanaşı dövlətin daxili fəaliyyəti də öz növbəsində iqtisadi, sosial, maliyə nəzarəti, qanunçuluğun qorunması və ekologiya sahəsində mühüm funksiyaları əhatə edir ki, onları qısaca olaraq aşağıdakı kimi səciyyələndirmək olar:

- dövlətin iqtisadi funksiyası dövlətin büdcəsinin formalaşdırılmasını və onun xərclənməsinə nəzarəti, ölkənin ümuvmi iqtisadi inkişaf proqramının müəyyən edilməsini, iqtisadiyyatın prioritet sahələrinin inkişafının stimullaşdırılmasını, sahibkarlıq fəaliyyəti üçün əlverişli şəraitin yaradılmasını və s. nəzərdə tutur.
- Sosial funksiya isə dövlət yardımına ehtiyacı olan cəmiyyət üzvlərinin sosial müdafiəsi, səhiyyə, təhsil, mənzil tikintisi, nəqliyyat və rabitənin inkişafı üçün maliyyə vəsaitlərinin ayrılmasını və s. büu kimi istiqamətlərlə bağlı məsələləri əhatə edir.
- Maliyyə sistemi vasitəsilə reallaşdırılan nəzarət funksiyası hüquqi və fiziki şəxslərin dövlət büdcəsinə ayırmalı olduqları gəlirlərin aşkar edilməsi və onların uçotunun aparılması ilə məhdudlaşır.



downloaded from KitabYurdu.az

- Dövlətin qanunçuluğun qorunması ilə bağlı funksiyası qəbul edilmiş qanunvericilik aktlarının cəmiyyət üzvləri tərəfindən dəqiq və tam icrasını təmin etməkdən ibarətdir.

- Ekologiya sahəsində dövlətin funksiyası ətraf mühitin mühafizəsinə yönəldilmiş tədbirlər sistemini özündə birləşdi rir.

- Dövlətin xarici funksiyaları isə onun beynəlxalq aləmdə fəaliyyətinin əsas istiqamətlərini əhatə etməklə, digər dövlətlərlə normal münasibətlərin qurulmasını və ölkənin mümkün ola biləcək xarici təcavüzdən qorunmasını təmin edir.

Dövlətin fəaliyyət xüsusiyyətlərini və ümumi funksiyalarını nəzərdən keçirdikdən sonra onun iqtisadiyyatla qarşılıqlı münasibətlərinə, iqtisadi tənzimləmədə roluna dair daha aydın fikir və mülahizələr yürütmək mümkündür.

Müasir iqtisadi ədəbiyyatlarda (Bax. K.Makkonnell, S.Vryu «Ekonomiks», M. 1992) dövlətin iqtisadi funksiyalarının müxtəlif tərkibdə qruplaşdırılmaasına baxmayaraq, mahiyyətcə onlar arasında elə kəskin fərqlər müşahidə olunmur. Belə ki, həmin iqtisadi funksiyalara aşağıdakılar aiddir:

- bazar sisteminin səmərəli fəaliyyətinə şərait yaradan ictimai mühitin və hüquqi bazanın təmin edilməsi;
- rəqabətin qorunub saxlanması;
- gəlir və sərvətlərin yenidən bölgüsü;
- milli məhsulun strukturunu dəyişmək məqsədi ilə resursların yenidən bölgüsü;



downloaded from KitabYurdu.az

- iqtisadiyyatın sabitləşməsi, başqa sözlə desək, iqtisadi şəraitin dəyişməsindən yaranan inflyasiya və məşğulluğun səviyyəsinə nəzarət etmək və iqtisadi artımı stimullaşdırmaq.

Göründüyü kimi bu funksiyaların dövlət tərəfindən həyata keçirilməsində başlıca amil ilk növbədə üç başlıca problemin: səmərəliliyin, sosial ədalətin və sabitliyin təmin edilməsinə yönəldilir. Başqa sözlə bu funksiyalar bazar mexanizminin çatışmazlıqlarının aradan qaldırılmasına və onun tamamlanmasına xidmət etmiş olur.

Bazar münasibətləri şəraitində dövlətin həyata keçirdiyi yuxarıda sadaladığımız iqtisadi funksiyaları qısaca olaraq aşağıdakı kimi səciyyələndirmək olar:

Bazar sisteminin səmərəli fəaliyyətinə şərait yaradan ictimai mühit və hüquqi bazanın təmin edilməsi funksiyası əslində dövlətin iqtisadi funksiyalarından daha çox qanunvericilik fəaliyyəti ilə bağlıdır. İqtisadi qərarlar qəbul olunmasının hüquqi əsaslarını yaratmaq məqsədilə dövlət müvafiq qanunlar işləyib hazırlayır və qəbul edir. Dövlət sahibkarlıq fəaliyyətini, müəssisə və şirkətlər arasında, həmçinin onların dövlətlə iqtisadi münasibətlərini tənzimləmək üçün «iqtisadi oyun» qaydalarını müəyyənləşdirir və əhalinin bazar sisteminə inamını təmin etmək məqsədilə onların məhsulların keyfiyyəti, qiyməti və ya təhrif olunmuş reklamlar vasitəsilə aldadılmasının qarşısını almaq üçün tədbirlər sistemi həyata keçirir. Belə ki, dövlət qəbul edilmiş qanunların, normativ aktların və standartların yerinə yetirilməsinə nəzarət edilməsi məqsədilə xüsusi orqanlar yaradır və s.



downloaded from KitabYurdu.az

Rəqabətin qorunub saxlanması funksiyası dövlətin bu sahədə həyata keçirdiyi tədbirlərin birbaşa və ya dolayı yolla iqtisadiyyatda zəruri olan sağlam rəqabət mühitinin qorunmasına yönəldilmişdir. Dövlətin bir başa təsiri əsasən inzibati tədbirlər yolu ilə həyata keçirilir. Buraya müəssisə və firmalar üçün gəlirlilik səviyyəsinin maksimum və minimum hədlərinin müəyyən edilməsi, müvafiq nəzarət orqanlarının yaradılması və s. daxildir. Dolayı metodlar isə əsasən inhisarçılığa qarşı yönəldilmiş qanunvericilik və normativ aktları əhatə edir.

Gəlirlərin və sərvətlərin yenidən bölgüsü funksiyası əslində daha çox dövlət siyasətinin makroiqtisadi səviyyəsini əhatə edir. Burada başlıca məqsəd cəmiyyətdə resursların səmərəli bölgüsünə kömək etməkdən ibarətdir. Artıq bizə məlumdur ki, azad rəqabət şəraitində resurs və gəlirlərin ədalətli bölgüsünə təminat yaradan bir mexanizm yoxdur. Dövlət cəmiyyət qarşısında duran başlıca məqsəddən asılı olaraq müxtəlif təsir vasitələrindən istifadə edərək sənaye, kənd təsərrüfatı məhsulları və investisiya resurslarının yenidən bölüşdürülməsinə nail olur. Dövlət cəmiyyətdə gəlirlərin yenidən bölgüsü yolu ilə sosial mühafizə və sosial təminat fondu formalaşdırır. Bu yolla dövlət minimum əmək haqqını, qocalığa görə təqaüd, işsizliyə görə müavinət, az təminatlı ailələrə müxtəlif yardımlar və s. verilməsinin maliyyə əsasını yaratmaqla sosial proqramları müvafiq qanun və ya normativ aktlar vasitəsilə reallaşdırır.



downloaded from KitabYurdu.az

Milli məhsulun strukturunu dəyişmək məqsədilə resursların bölgüsünü təkmilləşdirmək funksiyası vasitəsilə dövlət cəmiyyətdə istehlak xassələri fərdi tələbatı ödəmədiyindən və sahibkarlar üçün heç bir gəlir gətirmədiyinə görə bir qayda olaraq, bazar sistemində həmin əmtəələrin istehsalına marağı olmadığından, lakin bununla yanaşı olaraq həmin məhsul və ya xidmətlərsiz cəmiyyətin normal fəaliyyətinin mümkün olmadığı üçün vəziyyətə nəzarət edir.

Bəzi ədəbiyyatlarda ictimai sərvət adlandırılan bu əmtəə və xidmətlərə milli müdafiə, təbii fəlakətlərin aradan qaldırılması, ziyanvericilərə qarşı mübarizə aparmaq üçün tələb olunan ehtiyatlar, vasitələr və s. daxildirlər. Cəmiyyət əmtəə və xidmətlərin bəhrəsini görmək üçün müvafiq dövlət bölməsini yaratmalıdır. Onların maliyyələşdirilməsi isə vergi formasında tutulan rüsumlar hesabına formalaşdırılır. Məsələn, istehlak malları istehsalından tutulan vergilər hesabına dövlət hərbi üçün lazım olan vasitələri, ictimai yol çəkilişlərinə, yeni məktəblərin tikilməsini və s. maliyyələşdirir. Beləliklə, dövlət şüurlu surətdə resursların yenidən bölgüsü vasitəsilə milli məhsulun strukturunun dəyişilməsinə nail olur.

İqtisadiyyatın sabitləşdirilməsi funksiyası bazar iqtisadiyyatı şəraitində dövlətin mühüm tənzimləmə funksiyalarından biri olub iqtisadi sabitləşdirmə tədbirləri ilə bağlıdır. Dövlət büdcə-vergi, pul-kredit siyasətində iqtisadi artımın təmin edilməsinə çalışır. Bu problemləri həll etmək üçün dövlət, hökumət xərclərini tənzimləmək və vergi siyasətindən, başqa sözlə fiskal siyasətdən istifadə edir.



downloaded from KitabYurdu.az

Keçid şəraitində dövlətin tənzimləyici funksiyalarının spesifikliyi yeni iqtisadi sistemin əsaslarının yaradılması prosesi ilə birlikdə iqtisadiyyatın sabit inkişafına nail olmaq baxımından tənzimlənməsi prosesinin paralel getməsi ilə müəyyən olunur. Belə ki, dövlət bir tərəfdən yeni sistemin dayaqlarını yaradır, digər tərəfdən isə ümumilikdə iqtisadi prosesləri tənzimləyir.

Yuxarıda qeyd edilən əsas funksiyaları həyata keçirməkdən ötəri dövlət makroiqtisadi səviyyədə iqtisadiyyatı tənzimləmək məqsədilə aşağıdakı iki mühüm alət və vasitələrdən istifadə edir:

a) inzibati vasitələr – alətlər;

b) iqtisadi vasitələr-alətlər

İqtisadiyyatın dövlət tənzimlənməsinin inzibati vasitə və amilləri əlavə maddi stimulla, maliyyə təhlükəsizliyi ilə əlaqədar deyildir. Onlar dövlət hakimiyyətinin gücünə əsaslanırlar-qabağagetmə, icazəvermə, məcburetmə səlahiyyətlərini əhatə edirlər.

Məsələn, dövlət şəhər dairəsində yeni istehsal müəssisələrinin yaradılmasına icazə vermir. Bunun üçün vergilər arta bilər, cərimə edə bilər. Lakin dövlət bu yolu seçməyərək, sadəcə olaraq yeni müəssisələrin tikilməsinə lisenziya verilməsini qadağan edir.

Dövlət müəssisələri məcbur edə bilər ki, ətraf mühitinqorunması üçün özlərində tənzimləyici qurğular yaratsın və s.

İqtisadiyyatın dövlət tənzimlənməsinin vasitə və alətləri müəyyən əlahiddə hadisələr vaxtı (müharibə, təbii hadisə və s.) daha güclü olur.



downloaded from KitabYurdu.az

İqtisadiyyatın dövlət tənzimlənməsinin sərbəst kompleks aləti kimi iqtisadiyyatın dövlət bölməsi sayılır. İqtisadiyyatın dövlət tənzimlənməsinin ən ali forması – iqtisadiyyatın dövlət proqramlaşdırılması sayılır ki, çoxlu sayda məqsədləri və alətlər toplusunu əhatə edir.

Əsas iqtisadi vasitələr bunlardır:

a) uçot stavkasının tənzim olunması (mərkəzi bank vasitəsilə həyata keçirilən diskont siyasət)

b) mərkəzi bankda, maliyyə institutlarının məcburi saxladıqları ehtiyatların minimal həddinin qoyulması;

v) dövlət müəssisələrinin köməyi ilə dövlət maliyyə bazarında tələb-təklif münasibətlərini dəyişməyə çalışır.

İqtisadiyyatın birbaşa dövlət tənzimlənməsi büdcə siyasəti vasitəsilə həyata keçirilir. Dövlət büdcəsi hökumət və yerli hakimiyyətin gəlir və çıxarlarını əhatə edir. Dövlət kəsirlərinin ötürülməsi üçün səfərbərliyi alınan gəlir mənbəyi vergilərdir.

İqtisadiyyatın dövlət tənzimlənməsində vergilər iki rola malikdir. Bir tərəfdən vergilər dövlət xərclərinin maliyyələşdrilməsi mənbəyi və büdcənin maddi əsası kimi, digər tərəfdən vergilər tənzimləmə aləti kimi çıxış edirlər.

Kapital qoyuluşu əsasən dövlət (sektorunda) bölməsində həyata keçirilir. Bu eyni zamanda xüsusi bölməyə təsir etmək üçün həm obyekt, həm də alət rolunu oynayır.

Dövlət bölməsi təsərrüfat obyektləri kompleksi olub, mərkəzi və yerli dövlət orqanlarına məxsusdurlar. Dövlət bölməsi



downloaded from KitabYurdu.az

kapitalizmin inkişafına qədər də mövcud olmuşdur-poçt, rabitə, nəqliyyat xidməti, silah hazırlanması və s. İqtisadiyyatın dövlət tənzimlənməsi inkişaf etdikcə dövlət özü obyekt tikirdi, xüsusi bölmədən satın alırdı, infrastruktura obyektləri əldə edirdi və s. Bu proses elə qaydada aparılırdı ki, milli mənafeyinə uyğun olsun.

Dövlət obyektlərinin yaranması ölkələrdə müxtəlif formada həyata keçirilirdi. Bəzilərində milliləşdirmə vasitəsilə, digərlərində isə müflis olmuş müəssisələrin alınması yolu ilə və s.

Dövlət bölməsi obyektlərinin çox hissəsini infrastruktura obyektləri təşkil edir ki, bu obyektlər əsasən rentabelsiz işləyəndilər. Dövlət bölməsi obyektlərinin digər hissəsi isə elə xammal, enerji müəssisələridir ki, çoxlu investisiya tələb edir. Dövlət bölməsi obyektlərinin başqa hissəsi isə xüsusi dövlət qarışığından ibarət səhmlər paketindən ibarətdir.

Dövlət bölməsi iqtisadiyyatın dövlət tənzimlənməsinin mühüm aləti kimi istifadə olunur. Dövlət bölməsi vasitəsilə xüsusi sektorun inkişaf tarazlığı saxlanılır.

Məsələn, durğunluq və böhran dövründə iqtisadi konyuktura pisləşdiyi vaxtlarda dövlət bölməsi istehsalın tənəzzülünün əksi kimi çıxış edir. Dövlət yeni obyektlər açır, struktur siyasəti həyata keçirir, istehsalın modernləşdirilməsini, rekonstruksiyasını aparır və s.



downloaded from KitabYurdu.az

## *4 İQTİSADİYYATIN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN OBYEKTLƏRİ VƏ SUBYEKTLƏRİ.*

Bazar iqtisadiyyatı şəraitində qanunvericilik, icraedici və nəzarətedici tədbirlər sistemini əhatə edən dövlətin iqtisadi funksiyaları geniş olmaqla yanaşı, eyni zamanda müxtəlif təyinatlıdır. Bu iqtisadi funksiyaları daha aydın başa düşmək üçün ilk növbədə iqtisadiyyatın dövlət tənzimlənməsinin subyekt və obyektlərinin müəyyənləşdirilməsi məqsədəuyğundur. Belə ki, iqtisadiyyatın dövlət tənzimlənməsinin subyektləri hər şeydən əvvəl öz gəlirlərinə, əmlaklarının səviyyəsinə, mülkiyyət münasibətlərinə görə fərqlənən dövlət, həm də bazar sisteminə daxil olan sosial qrupları əhatə edir. İqtisadi mənafelər baxımından isə dövlət tənzimlənməsi fərdi və əmək fəaliyyəti ilə məhğul olan şəxslərdən tutmuş, müxtəlif sahibkar birliklərini, şirkətləri və s. əhatə edir.

İqtisadiyyatın dövlət tənzimlənməsi obyektlərinə-müxtəlif sferalar, sahələr, regionlar, situasiyalar, hadisələr, ölkənin sosial-iqtisadi şəraiti, ümumiyyətlə avtomatik həll oluna bilməyən problemlər aiddir. Bu əlamətlərinə görə iqtisadiyyatın dövlət tənzimlənməsi obyektlərini belə təsnifləşdirmək olar:

1. İqtisadi tsikliklər.
2. İqtisadiyyatın strukturu
3. Kapitalın yığım şəraiti
4. Məşğulluq
5. Pul dövriyyəsi
6. Tədiyyə balansı



downloaded from KitabYurdu.az

7. Qiymətlər
8. Elmi-tədqiqat təcrübə layihə işləri (ETTLİ)
9. Rəqabət şəraiti
10. Sosial münasibətlər (iş verənlərlə iş götürənlər, sosial təminat və s.)
11. Kadrların hazırlanması və yenidən hazırlanması
12. Ətraf mühit
13. Xarici iqtisadi əlaqələr.

Qeyd etdiyimiz obyektlər özünəməxsus spesifik xüsusiyyətlərə malikdir və onlar makroiqtisadi proseslərin əhatəsidirlər. Bunların bəzilərinə nəzər yetirək.

Dövlətin antitsiklik siyasəti və ya iqtisadiyyatın konyuktura tənzimlənməsinin mahiyyəti ondan ibarətdir ki, iqtisadiyyatın böhranlı və durğunluq (depressiya) vəziyyətində əmtəə və xidmətlərə tələbatı stimullaşdırmaq mümkün olsun. Bunun üçün xüsusi kapitala əlavə maliyyə güzəştləri verilir, investisiya və dövlət xərcləri artırılır.

Ölkə iqtisadiyyatında uzun müddətli yüksəliş şəraitində belə hal ola bilər ki, mal ehtiyatları azalsın. Nəticədə ölkəyə xarici mal axını baş verir ki, bu da tədiyyə balansını pisləşdirir. Belə vəziyyətdə iqtisadiyyatın dövlət tənzimlənməsinin əsas funksiyasə tələbatın artımını ləngitmək, kapital qoyuluşu və istehsalı məhdudlaşdırmaqdır ki, ifrat istehsala yol verilməsin.

Sahə ərazi strukturunda iqtisadiyyatın dövlət tənzimlənməsinin vəzifəsi-maliyyə stimullaşdırılması vasitəsilə dövlət kapital qoyulşu



downloaded from KitabYurdu.az

ilə üstünlük təşkil edən sahə və regional strukturları təkmilləşdirməkdir. Bir halda elə sahələr və ərazi vahidləri dəstəklənir ki, onlar uzun müddətli böhrandadırlar, digər halda isə yeni istehsal sahələrinin inkişafına üstünlük verilir. Eyni zamanda istehsalın təmərküzləşməsinə də diqqət yetirilir.

İqtisadiyyatın dövlət tənzimlənməsinin obyektlərindən biri kapital yığımıdır. Bazar iqtisadiyyatı şəraitində istehsal və mənfəətin mənimsənilməsi əsas məqsədlərdən biridir. Buna görə də dövlətin iqtisadi siyasəti kapital yığımının tənzimlənməsi istiqamətinə yönəldilməlidir. Eyni zamanda yığımın tənzimlənməsi müəyyən dövrlərdə investisiya həyata keçirməyə imkan venrir.

Məşğulluğun tənzimlənməsi sahəsində iqtisadiyyatın dövlət tənzimlənməsinin vəzifəsi – bazar iqtisadiyyatı tələblərinə uyğun olaraq iş qüvvəsinə tələb və təklifi tənzimləməkdir. Bu münasibət iqtisadiyyatın ixtisaslı mütəxəssisə tələbatını ödəmək səviyyəsində, işçilərin əsək haqqına marağı səviyyəsində qurulmalıdır. Lakin əməyə münasibət əmək haqqının həddən artıq yüksəlməsi əsasında qurulmamalıdır. Məşğulluğun da kəskin surətdə azaldılmasına çalışmamalıdır. Beoə hal işsizliyi artıra bilər ki, bunun da sosial nəticəsi məlumdur.

İqtisadiyyatın dövlət tənzimlənməsinin daima diqqətində olan obyektlərdən biri də pul dövriyyəsidir. Pul dövriyyəsinin tənzim olunmasının əsas istiqaməti inflyasiya ilə mübarizədir, çünki inflyasiya iqtisadiyyat üçün ciddi təhlükədir. Pul dövriyyəsinin



downloaded from KitabYurdu.az

tənzim olunması digər obyektlərə –kapital yığımı, qiymət və s. güclü təsir göstərir.

Tədiyyə balansının vəziyyəti özgə iqtisadiyyatın sağlamlığının obyektiv göstəricisidir. Bazar iqtisadi şəraitində inkişaf edən bütün ölkələrdə dövlət tədiyyə balansını strateji cəhətdən idxal və ixrac vasitəsilə tənzim edir. Həmçinin dövlət valyuta kursunu, kapital hərəkətini, beynəlxalq iqtisadi inteqrasiyanı tənzimləyir.

Mühüm tənzim edilən obyektlərdən biri də qiymətdir. Eyni zamanda qiymət özü də istehsalın quruluşuna güclü, kapital qoyuluşu şəraitinə, milli valyutanın dəyanətliliyinə, sosial mühitə güclü təsir göstərir.

İqtisadiyyatın dövlət tənzimlənməsi digər obyektlərin tənzim olunmasına da çalışır. Məsələn, elmi-texniki tərəqqinin inkişafında xüsusi firmaları maraqlandırır, nəticələrinin istehsalda tətbiqini genişləndirir.

İqtisadiyyatın dövlət tənzi mlənməsi obyektləri qoyulmuş məsələlərin həlli səviyyəsi ilə fərqlənirlər. Burada iearxiya sistemi fəaliyyət göstərir-firma, region, sahə, bölmə səviyyəsi: xalq təsərrüfatı bütövlükdə, qlobal milli səviyyədə.

İqtisadiyyatın dövlət tənzimlənməsinin baş xətti ölkənin iqtisadi və sosial stabilləşdirilməsi, ölkə daxilində mövcud quruluşu möhkəmləndirmək və onun dəyişən şəraitə uyğunlaşdırılmasıdır.

Bu baş xəttdən-məqsəddən, iqtisadiyyatın dövlət tənzimlənməsinin digər məqsədləri meydana çıxır. Daha doğrusu baş məqsəd, aşağıya doğru da konkretləşir. Bu konkret məqsədlər



downloaded from KitabYurdu.az

iqtisadiyyatın dövlət tənzimlənməsi obyektləri üzrə reallaşır. Məsələn, iqtisadi tsiklin (hamarlaşdırılması) tənzimlənməsi məqsədi-obyektlər üzrə istiqamətlənərək, sahə və regional strukturu təkmilləşməsini, ətraf mühitin qorunmasını və s. göstərir.

Göründüyü kimi məqsədlərin qoyuluşu bir-birindən təcrid oluna bilməz, onların qarşılıqlı əlaqəsi tədqiq edilməlidir. Məsələn, Elmi Texniki təcrübə layihə işləri (ETTLİ) stimullaşdırılarkən, kapital yığımından, konyukturanın tənzim olunmasından, sahə və regional strukturun təkmilləşdirilməsindən yan keçmək olmaz.

Konkret, xüsusi məqsədlər, digər məqsədlərə nail olunmasına yardımçı ola bilər. Məsələn, xalq təsərrüfatının bir sahəsində istehsalın modernləşdirilməsi üçün kapital qoyuluşu nəzərdə tutularsa, bu zaman həmin sahənin inkişafına təsir göstərən amillər diqqətə alınmalıdır (istehsal xərci, məşğulluq, enerji sərfi, idxal-ixrac və s.)

Bütün bu məqsədlərin bəziləri müvəqqəti xarakter daşıya bilərlər, biri digərini şərtləndirə bilər, bir-birini təkzib edə bilər.

Daha doğrusu məqsədlər ağacının məqsədlər toplusu iearxiya asılılıq ilə bir-birinə bağlıdır.

Ayrı-ayrı məqsədlərin səviyyələri iearxiya strukturunda müxtəlif ola bilər, daha düzgünü stabil olmaya bilər. Onlar dövlətin iqtisadi məqsədindən və iqtisadi şəraitdən asılı olaraq dəyişilə bilər, biri arxa plana, digəri ön plana və əksinə ola bilər. Milli iqtisadiyyatın makroiqtisadi təhlilində 4 iqtisadi subyekt nəzərə alınır:



downloaded from KitabYurdu.az

Ev təsərrüfatı bölməsi. Ölkə daxilində fəaliyyət göstərən ev təsərrüfatlarının bütün mülkiyyətini əhatə edir. Onların fəaliyyəti öz tələbatlarının ödənilməsinə istiqamətlənir.

1. Sahibkarlıq bölməsi. Ölkə daxilində fəaliyyət göstərən firmaların məcmunu əks etdirir.
2. Dövlət bölməsi. Bütünlükdə dövlət institutları və müəssisələrindən ibarətdir. Dövlət bölməsi ictimai əmtəə istehsal edir.
3. Qalan dünya. Ölkə xaricində olan iqtisadi subyektlər və dövlət institutlarının fəaliyyətlərini əhatə edir.

İqtisadi siyasətin subyektləri isə iqtisadi marağın daşıyıcılarından, ifadə edənlərdən və icraçılardan ibarətdir.

İqtisadi marağın daşıyıcısı dedikdə sosial qruplar nəzərdə tutulur. Bu qruplar müxtəlif əlamətlərinə görə bir-birindən fərqlənirlər. Məsələn, mülkiyyətinə görə, gəlirinə görə, sahə və regional marağına görə və s. bunlar müəssisələrin sahibləri və fəhlələri, fermer və torpaq sahibləri, xırda və iri sahibkarlar, idarəçi və səhmdarlar, sərbəst ixtisas sahibləri, dövlət məmurları, hərbi sənaye işçiləri, fabrik toxucuları, neft-qaz hasilatı işçiləri və fəhlələri, kəndlilər və s. ibarətdir. Bu qrupların hamısının özünə məxsus marağı vardır. Onlar öz maraqlarını kütləvi informasiya vasitələri ilə bildirirlər, mitinqlərdə çıxış edirlər, onlar dövlət orqanları qarşısında iqtisadi vəziyyətin yaxşılaşdırılması haqqında məsələ qaldırırlar.

Bu iqtisadiyyatı tənzimləyən dövlət orqanları ilə təsərrüfat maraqların birinci əlaqə xəttidir.



downloaded from KitabYurdu.az

İqtisadiyatın dövlət tənzimlənməsi orqanları iqtisadi marağın daşıyıcılarının təşəbbüsünə diqqəti müxtəlifdir. Məsələn, hər hansı bir fermerin xaricdən gətirilən məhsullara qiymət manitorinqinin qoyulması haqqıda iqtisadiyyatın dövlət tənzimlənməsi orqanlarına yazdığı məktuba iqtisadiyyatın dövlət tənzimlənməsi orqanı nəzarət etməyə bilməz. Çünki, ölkə iqtisadiyatının əsas hissəsi «Azərneft şirkəti»ndən asılıdır.

Lakin onu da qeyd etmək lazımdır ki, iqtisadiyyatın dövlət tənzimlənməsi orqanları bu qəbildən olan məktublara, tələblərə həmişə müsbət cavab verməlidir. Elə hal ola bilər ki, «Azərneft şirkəti»nin tələbi, başqa firmaların mənafeyinə ziddir. Deməli, iqtisadiyyatın dövlət tənzimlənməsi orqanları məsələyə milli iqtisadiyyat nöqteyi-nəzərindən yanaşmalıdır.

İqtisadi marağın ifadəçiləri-iqtisadi marağın daşıyıcıları çoxlu sayda müxtəlif ittifaqlarda birləşmələr – həmkarlar, sahibkarlar ittifaqı, tələbələr cəmiyyəti, ticarət bitkiləri, həmin cəmiyyətlərin milyonlarla üzvləri vardır.

Müəyyən xırda, kiçik birləşmələr də vardır ki, onlar fiziki və hüquqi şəxsləri müəyyən maraq ətrafında birləşdirir. Belə birləşmələr iqtisadi marağın ifadəçisidir.

İqtisadi marağın ifadəçilərindən-sahibkarlar ittifaqı və həmkarlar təşkilatları daha güclü subyektlərdir. Onlar iqtisadi-sosial inkişaf üzrə öz konsepsiyalarını hazırlayaraq, dövlət iqtisadi siyasətinə təsir göstərirlər. İqtisadi marağın bu ifadəçilərinin



downloaded from KitabYurdu.az

mətbuatları var, güclü maliyyə resurslarına malikdirlər, kadr hazırlığı mərkəzləri var və cəmiyyətlə sıx əlaqəyə girmişlər.

Sahibkarlar və həmkarlar ittifaqı sahə və razi əlamətləri üzrə yaradılaraq, iearxiya sistemində aşağıdan yuxarıya qədər tabeçilikdədirlər. Bununla da onlar beynəlxalq və dünya birliklərinə daxil olurlar.

Təkliflər, məsləhətlər, memorandum və s. kanallarda onlar iqtisadiyyatın dövlət tənzimlənməsi orqanlarına təsir göstərirlər. Bu iqtisadi marağın ifadəçilərinin iqtisadiyyatın dövlət tənzimlənməsi ilə ikinci əlaqə xəttidir.

Sosial-iqtisadi, siyasi, dini, mədəni-ekoloji, xüsusi region maraqların ifadəçiləri siyasi partiyalardır.

İqtisadi marağın ifadəçiləri müəyyən bir qrupun adından çıxış edirlərsə; siyasi partiyalar ümumi milli maraqdan çıxgış etməlidirlər. Bu partiyalar iqtisadi marağın daşıyıcıları və ifadəçiləri ilə əlaqədədirlər. Məsələn, Həmkarlar sosial-demokratik partiyası ilə, sahibkarlar ittifaqı mühafizəkar partiya ilə əlaqədədir və s. ola bilər.

İqtisadi marağın icraçıları – dövlətin iq8tisadi siyasətinin proqrammasını həyata keçirən subyektlərdir. Bunlar xüsusi iqtisadi marağın dövlət iqtisadi siyasətinə transformasiya edən üçüncü xətti təşkil edir. İqtisadi marağın icraçıları iearxiya prinsipi əsasında qurulmuş hakimiyyətin üç qolunu əhatə edir. Buna Mərkəzi Milli Bank da aiddir. Federativ quruluşa malik olan ölkələrdə (AĞŞ, Kanada, Hindistan, Almaniya, Braziliya, Malaziya) ümumdövlət və yerli iqtisadi marağı müdafiə edən federal və yerli parlamentlər



downloaded from KitabYurdu.az

fəaliyyət göstərir. Buna görə də iqtisadiyyatın dövlət tənzimlənməsi qanunvericilik orqanlarından daha çox icraçı orqanlara söykənməlidir.

İqtisadiyyatın dövlət tənzimlənməsinin mexanizminin öyrənilməsi nöqteyi-nəzərdən dövlət subyektləri ilə xüsusi iqtisadi siyasətin çulğulaşması maraq doğurur. Belə ki, nəticədə yeni tənzimedici orqan yaranır ki, nə nəzəri, nə də klassik, nə parlament, nə də prezident respublikası sxeminə sığışmır. Məsələn, sahibkarlar və həmkarlar ittifaqının nümayəndələri ilə icraçı orqanın nümayəndələrindən ibarət orqan yaranır ki, sahibkarlıqla əməkçilər arasında iqtisadi münasibətləri tənzim etsinlər.

İqtisadi inkişaf nazirliyinin, sahə Həmkarlar ittifaqının nümayəndələrindən ibarət komitələri yaradılır ki, onlar ayrı-ayrı sahələrinin inkişafını dəstəkləyərək tənzim edirlər. İqtisadi və sosial tənzimlənməni həyata keçirirlər.

İqtisadiyyatın tənzimlənməsinin dövlət və xüsusi orqanlarının digər qrup sferalar üzrə fəaliyyət göstərən şuralar hesab edilmir. Məsələn, elmi-texniki, hərbi-texniki, regional siyasət, daxili su nəqliyyat əlaqələri və s. üzrə fəaliyyət göstərən şuralar.

Sahə şuralarından fərqli olaraq fəaliyyət sferası üzrə şuraların fərqi ondadır ki, onlara hakimiyyət orqanlarının nümayəndələri, ekspertlər, müxtəlif sahələrin nümayəndələri daxil olurlar.

İqtisadiyyatın dövlət tənzimlənməsi ilə təsərrüfat marağının daşıyıcıları arasında olan bu əks əlaqə daha ciddidir.



downloaded from KitabYurdu.az

1. İqtisadiyyatın dövlət tənzimlənməsinin nailiyyəti, artım tempində, təsərrüfat strukturunun yaxşılaşdırılmasında, məşğulluğun təmin olunmasında sağlam tədiyyə balansında, inflyasiya tempinin aşağı düşməsində, həyat səviyyəsinin yüksəldilməsində ifadə olunur.

2. İqtisadiyyatın dövlət tənzimlənməsinin nailiyyəti çox vaxt dəqiq kəmiyyət ölçüsünə sığışmayan göstəricilərdə ifadə olunur. Məsələn, sosial gərginliyin artması (tətil, nümayişlər, həmkarların çıxışı və s.)

3. Təsərrüfat marağının daşıyıcıları öz orqanları vasitəsilə müraciət edərək öz maraqlarının təmin olunmasına çalışırlar.

4. Nəhayət, iqtisadi marağın ifadəçiləri olan ayrı-ayrı fiziki və hüquqi şəxslər bu və ya digər partiyanın proqramlarını maliyyələşdirə bilərlər və deməli seçkidə onlara səs verəcəklərini vəd etmiş olurlar. Seçicilərin etibarını itirən partiya və ya birlik hakim partiya ilə müxalifətdə olur. Bu dövlətin iqtisadi siyasəti ilə iqtisadi marağın daşıyıcıları arasında əsas əks əlaqədir.

Bu, əks əlaqə mexanizmini müəyyən etmək üçün anket sorğusu formasından istifadə olunur. Anket sorğusu, ixtisaslaşmış, elmi-tədqiqat mərkəzləri tərəfindən aparılır. Mərkəzlər müəyyən qrup kompaniyaları əhatə edir. Həmin kompaniyalar mərkəzdən aldıqları informasiya əsasında öz fəaliyyətlərini nizamlayırlar. Firmalarla uzun müddət əlaqədə olan elmi mərkəzlər, onların iqtisadi fəaliyyətlərinin real istiqamətlərini aşkar edə bilərlər.



downloaded from KitabYurdu.az

İqtisadiyyatın dövlət tənzimlənməsinin effektivliyinin anket metodu ilə tədqiqi, təkliflərin hazırlanmasında qeyri-müəyyənliyi tam aradan qaldıra bilmir. Bununla belə, anket metodu iqtisadiyyatın dövlət tənzimlənməsinin vasitəsi kimi dövlət aparatında xüsusi əhəmiyyət kəsb etmişdir. Bu metod idarəedici orqanlarla iqtisadi marağın daşıyıcıları arasında əks əlaqənin tənzimlənmə alətinə çevrilmişdir.

Bu yuxarıda qeyd olunanlar iqtisadiyyatın tənzimlənməsinin iqtisadi maraqlarından asılı olaraq yaranmış əlaqələrin ideal vəziyyətini əks etdirir. Real həyatda isə bu modeldən çoxlu kənarlaşmalar mövcuddur. Məsələn, iqtisadi maraqlar uğrunda qruplar lobbislər arasında gedən mübarizə, iqtisadiyyatın dövlət tənzimlənməsi orqanlarında korrupsiyaların yaranması və s.

Lakin iqtisadiyyatın dövlət tənzimlənməsi mexanizmi kənarlaşmalar əsasında deyil, bilavasitə dövlət nəzarəti vasitəsilə həyata keçirilir.



downloaded from KitabYurdu.az

## *FƏSİL 3. KEÇİD İQTİSADİYYATI VƏ BAZARIN FORMALAŞMASI MEXANİZMLƏRİ.*

### *1. BAZAR İQTİSADİYYATINA KEÇİD KONSEPSİYASI*.

Azərbaycan və s. sosial yönümlü ölkələr iqtisadi islahat zamanı inzibati-amirlik sistemindən bazar iqtisadiyyatına keçirilər. Belə bir fikir vardır ki, bu keçid bir neçə ilə başa çatacaq. İndi məlum olmuşdur ki, həmin proses üçün onilliklər lazımdır.

İnzibati-amirlik sistemi ilə təsərrüfatın idarə edilməsi əsasən iki çatışmaz cəhətə malik idi:

a) İqtisadiyyatın elastik olmaması, gec adaptasiya qabiliyyətsizliyi;

b) Ən aşağı məhsuldarlığa malik olması.

Bu iki cəhətin nəticəsində təsərrüfat təşəbbüsü, total formada qapanmışdır. Elə buna görə də sosial yönümlü ölkələr islahat keçirmək məcburiyyətində qalmışdırlar.

İnzibati-amirlik sisteminin böhranı və onun dəf edilməsi bir neçə mərhələni keçmişdir.

Birinci mərhələ 50-ci illərdən başlamışdır. Həmin mərhələnin mahiyyəti ondan ibarət olmuşdur ki, təsərrüfat mexanizmi dəyişilmədən resursların xalq istehlakı məhsulları istehsalı üzrə yenidən bölüşdürülməsi aparılmışdır. (Təkcə Polşada kolxoz sistemi dağıdımış və iri xüsusi bölməyə çox yer verilmişdir.)

İkinci mərhələ-80-ci illəri əhatə edir. Bu mərhələ daxili ziddiyyətlərə malik olmaqla və bazar dəyişmələrinin qurtarmaması ilə səciyyələnir. Bu mərhələdə islahat əmtəə bazarının yaradılması



downloaded from KitabYurdu.az

cəhdi ilə qurtardı. Əmək bazarının, kapital bazarının, əmlak bazarının yaradılması cəhdi göstərilmədi. Həmçinin bu mərhələ əmr sisteminin saxlanılması əsasında bazar münasibətlərinin genişləndirilməsi cəhdi ilə başa çatdı. Nəticədə iqtisadiyyata müntəzəmlik pozulmuş oldu. İqtisadi böhranın kəskinləşməsi direktiv planlaşdırma modelindən bazar münasibətlərinə keçid anlayışını zəruriləşdirdi.

Bazar iqtisadiyyatına keçidin qarşısında duran əsas vəzifələr bunlardır:

1. Dövlətsizləşdirmə və özəlləşdirmə
2. Bazar infrastrukturasının formalaşması.
3. İqtisadiyyatın inhisarsızlaşdırılması.
4. Qiymətin sərbəstləşdirilməsi.
5. Maliyyənin stabilləşdirilməsi.
6. Bazar iqtisadiyyatına uyğunlaşmaq üçün əhalinin sosial dəstəklənməsi.
7. İqtisadiyyatın sosial-arentasiyasının aparılması bazar iqtisadiyyatına keçən dövlətlərdə, inzibati amiranəlik sisteminin transformasiyası iki variantdan birinin seçilməsi üzərində dayanır:

1. Təkamül yolu-ardıcıl: tədricən bazar elementlərinin yaradılması (ÇXR)

2. Şok terapeyası-islahatların intensi, az vaxta həyata keçirilməsi (klassik forması, Polşa)

3. İqtisadi islahatın təkamül yolu kompleks siyasi iqtisadi, sosial, tarixi amillərdən və şəraitdən asılıdır.



downloaded from KitabYurdu.az

Təkamül yolunda ilk mərhələ kənd təsərrüfatında islahatların aparılmasından başlanır. Kənd təsərrüfatında keçmiş adət-ənənə, kustar, fərdi islahat mövcuddur ki, bu sahələrin inkişafı digər sahələrin inkişafını sürətləndirir.

Şok terapiyası variantının seçilməsi məcburi haldır. Bu çox ağır maliyyə çətinliyinin, mal qıtlığının aradanqaldırılması tədbirlərini əhatə edir.

## *2. KEÇİD DÖVRÜNÜN XÜSUSİYYƏTLƏRİ VƏ MAHİYYƏTİ.*

Müasir iqtisadi ədəbiyyatlarda iqtisadi subyektlərin təsərrüfat fəaliyyətində dövlətin rolu və təsiri müxtəlif tərəflərdən şərh edilir. Bizə elə gəlir ki, bu məsələnin daha anlaqlı etmək üçün «iqtisadiyyatın dövlət tənzimlənməsi», «iqtisadiyyata dövlətin müdaxiləsi», «iqtisadiyyatda dövlətin iştirakı», «dövlətin bölməsi», «dövlətin iqtisadi funksiyası» məvhumlarını şərh etmək vacibdir.

Ümumi prinsipcə bu anlayışların hamısı bir mövqeyi şərh edir. Yeni dövlətin iqtisadiyyata münasibəti necə olmalıdır? Lakin bununla belə həmin mövhumların bir-birindən fərqləndirilməsi vacib məsələlərdəndir.

Tarixi və ginesoloji cəhətdən iqtisadiyyatda dövlətin münasibəti ilk dəfə «iqtisadiyyatda dövlətin müdaxiləsi» anlayışı ilə başlanmışdır, yeni iqtisadiyyat özünü tamamilə tənzim etmə



downloaded from KitabYurdu.az

mexanizminə malikdir və dövlət «ümdə hallarda» iqtisadiyyatın ayrı-ayrı sahələrinə qarışa bilər.

Məlumdur ki, 1930-cu illərə qədər klassik bazar iqtisadiyyatı, iqtisadiyyatda hər hansı kənar müdaxini tamamilə inkar edir. Çünki, mövcud iqtisadi qanunların fəaliyyəti real iqtisadi durumla o qədər üst-üstə düşürdü ki, ona hər hansı kənar müdaxiləyə yer qalmırdır.

Lakin kapitalist istehsalının təkamül inkişafı kapitalın təmərküzləşməsi və mərkəzləşməsi müəyyən «təşkiledici qüvvənin» olmasını zəruriləşdirirdi, çünki özünün tənzimləmə mexanizminin gücü artıq bazarın bütün problemlərini həll etmə qüvvəsini itirməyə başlamışdır. Bununla da bazarın idarə edilməsinə müdaxilə prosesibaşlanmış oldu. İqtisadiyyatda dövlət müdaxiləsinin ilk dəfə ABŞ-da 1890-cı ildə «Şeyrmanın trest əleyhinə qanunu» ilə başlanmışdır. Bu qanun ilkin olaraq ticarətin inhisarlaşmasına yönəldilmişdir. Belə ki, həmin dövrlərdə ticarətdə gizli sövdələşmələr var idi və onların məhdudlaşdırılması vacibliyi yaranmışdır.

İkinci qanun 1914-cü ildə «Kleyton qanunu» oldu. Bu qanun əsasında «Şeyrmanın trest əleyhinə qanun»undan əmək sferasının fəaliyyətinin çıxarılması oldu və həm də həmin qanundan irəli gələn qayda və üsulların dəqiqləşdirilməsi aparıldı. Nəhayət həmin qanuna əsasən rəqabətin müdafiə edilməsində dövlətin hüquqları müəyyən qədər genişləndirilmiş oldu.



downloaded from KitabYurdu.az

Qeyd etmək lazımdır ki, bu qanunların qəbul edilməsi ilə iqtisadiyyatda dövlətin müdaxiləsi sistem halına düşmüş oldu. Bu zaman müdaxiləni iki formada başa düşmək lazımdır:

a) cəmiyyətdə bazarın inkişafı və onun çatışmazlıqlarının aradan qaldırılması;

b) dövlət strukturlarının təkmilləşdirilməsi və inkişafı.

Nəticədə «İqtisadiyyatın dövlət tənzimlənməsinin» məntiqi davamı «iqtisadiyyatda dövlətin iştirakı» oldu.

Çünki əvvəlki qanunlarda dövlətin funksiyası trest əleyhinə və rəqabətin müdafiəsinə yönəldilmişdir və digər məsələlərə müdaxilə olunmurdu.

Lakin bazarın inkişafı, dövlət strukturların təkmilləşməsi və ümumiyyətlə bazarın fəaliyyət məkanının genişlənməsi, ona təsir edən amillərin artması dövlətin funksiyasının da genişlənməsini zəruri edirdi. Bu funksiya özünü ictimai məhsulun yaranmasında və onun ədalətli bölgüsünün aparılmasında göstərməyə başladı. Dövlətin iqtisadiyyatda iştirakı dövlət büdcəsi vasitəsilə həyata keçirilir, çünki büdcənin gəlir hissəsi ictimai məhsulda dövlətin xüsusi çəkisini əks etdirir. Eynilə də onun xərc hissəsi dövlətin iqtisadiyyatda iştirakını əks etdirir.

Müasir dünya iqtisadiyyatında dövlətin iqtisadiyyatda iştirakı təxminən üç səviyyədə qruplaşdırılır:

I qrup – Büdcənin xərc hissəsi 20-25% olan ölkələrdir ki, burada xüsusi bölmənin fəaliyyəti daha genişdir. Məsələn, Honkonq, Sinqapur, Tayvan, Cənubi Koreya.



downloaded from KitabYurdu.az

« qrup-sənaye cəhətdən inkişaf etmiş ölkələr nəzərdə tutulur. Belə ölkələrdə qarışıq iqtisadiyyat da mövcuddur. Tipik misal kimi ABŞ göstərmək olar ki, burada dövlətin büdcə xərcləri 35%-ə qədərdir.

3 qrup-O ölkələr sayılır ki, onlarda dövlətin xərcləri yüksəkdir-60%-ə qədərdir. Məsələn, İsveç, İsveçrə, Norveç. Bu ölkələrdə yaşayış səviyyəsi daha yüksəkdir.

İqtisadiyyatda dövlətin iştirakının yüksək olduğu ölkələrdə yaşayış səviyyəsinin yüksək olması haqqında pozitiv və neqativ fikirlər mövcuddur. Pozitiv fikir ondan ibarətdir ki, bu ölkələrdə bazarın tənzimlənməsi hamar gedir. İctimai şüur yüksəkdir, hamı çalışır ki, varlı ədalətli dövlət yaransın. Həmin ölkələrdə sosial demokratik təmayül fəaliyyət göstərir.

Neqativ fikir belədir ki, dövlətin əsas mənbəyi xüsusi bölmədən alınan vergilərdir. Bir halda ki, dövlətin iqtisadiyyatda iştirakı yüksəlir və deməli bu xüsusi bölmədə vergilərin azalmasına səbəbdir, nəticədə büdcə gəlirlərinin azalmasıdır, yəni dövlətin iqtisadi fəaliyyəti effektsizdir.

Bütün bunlar iqtisadiyyatda dövlətin iştirakını maksimum-minimum həddlərinin müəyyən edilməsini tələb edir.

Londonda nəşr olunan «Ekonomist» jurnalında ÜDM-da (Ümumi Daxili Məhsul) dövlətin iştirakının təxminən 50% hüdudunda olması tövsiyyə edilir.



downloaded from KitabYurdu.az

Keçid dövrünü yaşayan postsovet ölkələrində dövlətin iqtisadiyyatda iştirakı, onların iqtisadi islahatların seçməsi konsepsiyası ilə əlaqədardır.

Məsələn, Rusiya Federasiyası 80-ci illərdə istehsalın səviyyəsinin aşağı düşməsi ilə əlaqədar, vergilərin yığıla bilməməsi nəticəsində böhran dövrünü yaşadı. Böhrandan çıxmaq üçün qiymətli kağızların emissiyasına başladı (monetarist konsepsiya), bu isə öz növbəsində böhranı daha da dərinləşdirdi. Qeyd edək ki, nəticədə 1996-cı ildə RF-nin ÜDM-də iştirakı 37%, 1997-ci ildə isə 43 faiz olmuşdur.

Belə bir vəziyyət Azərbaycan Respublikasında da müşahidə olunmuşdur. 1996-cı ildə ÜDM-də dövlətin payı 17,8 faiz, 1997-ci ilə 19 faiz olmuşdur. İqtisadi böhranı aradan qaldırmaq üçün ölkələrdə iri miqyaslı özəlləşdirmənin aparılması planlaşdırıldı ki, bunun da nəticəsi bir o qədər effektli olmadı. Bütün istehsal müəssisələri dağıldı, yenilərinin qurulması üçün isə vəsait çatmadı. Nəticədə ölkə dərin iqtisadi böhrana düçar oldu.

Son dövrlərdə ölkənin hökumət və dövlət strukturlarında aparılan dəyişikliklər ölkənin tədricən böhrandan çıxması imkanlarını artırmışdır.

Müasir iqtisadi ədəbiyyatlar dövlətin iqtisadi münasibətlərində «iqtisadiyatın dövlət tənzimlənməsi» anlayışından daha geniş istifadə olunmağa başlanmışdır. İqtisadiyyatın dövlət tənzimlənməsi elə bir təsərrüfat sistemidir ki, dövlət bazarın ayrılmaz tərkib hissəsi olub kompleks hüquqi və sosial-iqtisadi



downloaded from KitabYurdu.az

vasitələrlə iqtisadi inkişafın effektivliyinə şərait yaradır. Bu vasitələrə standart parametrlər:-pul kütləsi, uçot stavkası, vergilər, subsidiyalar, güzəştlər və s. aiddirlər.

Dövlətlə iqtisadiyyatın qarşılıqlı əlaqəsində «dövlət bölməsi» anlayışı da mühüm yer tutur. Bütünlükdə «dövlət bölməsi» infrastruktura sahələrini əhatə edir. Bu sahələr əksər halda rentabelli olmayan sahələrdir. Məsələn, xammal, energetika sahələridir ki, onlar külli miqdarda investisiya tələb edirlər. Belə investisiyalara xüsusi bölmənin gücü çatmır. Bu zaman həmin sahələrin inkişaf etdirilməsi dövlətin öhdəsinə düşür. Dövlət həmin sahələri inkişaf etdirmək üçün investisiyalardan istifadə edir ki, bu da dövlətin iqtisadi siyasətinin tərkib hissəsidir.

Məlumdur ki, ölkəmizin iqtisadi inkişafında neft faktoru mühüm rol oynayır. Hazırda bu sahənin inkişafında xarici sərmayədarların fəaliyyəti genişlənməkdədir. Bu baxımdan 1944-cü ildə 20 sentyabrda imzalanmış «Əsrin müqaviləsi» xüsusi əhəmiyyət kəsb edir. Ölkədə neft strategiyasının əsasını qoyan bu müqavilə nəticəsində beynəlxalq konsorsium yaradılaraq ölkədə 20-dən çox neft müqaviləsi bağlamış 14 xarici ölkədən 33 iri məşhur şirkətlərin iştirakı təmin edilmişdir. Artıq əsrin müqaviləsi ilə əlaqədar olaraq neft və qaz hasilatına 5 mlrd. ABŞ dollarından çox sərf edilmişdir.

Ümumiyyətlə iqtisadiyyatda dövlətin müdaxiləsinin təkamülünü aşağıdakı sxemdə göstərmək olar:



downloaded from KitabYurdu.az

Şəkil 6.



1. İqtisadiyyata dövlət müdaxiləsi: başlanır 1890-cı il il antiinhisar qanunu və ticarət haqqında qanun.

2. İqtisadiyyatda dövlətin iştirakı: ictimai məhsulun yaranması ilə ədalətli bölgünün aparılması ilə ÜMD-da dövlətin payı ilə.

3. İqtisadiyyatın dövlət tənzimlənməsi: pul kütləsi ilə, uçot stavkası ilə, vergilərlə, subsidiya və güzəştlərlə.

## *3. BAZAR İQTİSADİYYATINA KEÇİDİN TƏKAMÜL YOLU.*

Bazar iqtisadiyyatına keçidin təkamül yolunun əsas əlamətləri əsasən aşağıdakılardan ibarətdir:

1. İstehsal istehlak bazarında dinamiki tarazlığın yaradılmasından başlanır. Buna qiymətin elastikliyinin yaradılmasından başlanır. Buna qiymətin elastikliyi hesabına yox,



downloaded from KitabYurdu.az

xüsusi sektorda istehlak məhsulları istehsalının genişləndirilməsi ilə nail olunur.

2. bazar münasibətləri əvvəlcə istehsal və istehlak sferasını əhatə edir və sonradan investisiya qoyuluşları, sənaye istehsalı və emalına təkan verir. Kənd təsərrüfatı məhsulları istehsalı bazar mexanizminin hərəkətverici kimi çıxış edir, istehlak məhsullarının artırılması bazar münasibətlərini dəyişdirir.

Azərbaycan Respublikasının bazar iqtisadiyyatına keçidində təkamül yolu əvvəlcədən mümkün olardı. Haradasa 1990-cı illərdə respublikanın kənd təsərrüfatı istehsalı müəyyən inkişafa malik idi. Məsələn, 1985-1990-cı illərdə respublikada kənd təsərrüfatının orta hesabla illik məhsul istehsalı 379,4 mln. manat təşkil etmişdirsə, 1994-cü ildə 201,0 min manat olmuşdur. Başqa göstəricilər də azalmağa meylli olmuşdur. Uyğun oalraq sənayedə məhsul istehsalı 1990-cı ildə 1985-ci ilə nisbətən 54 faiz az olmuşdur.

Hazırda kənd təsərrüfatında bütün keçmiş sistem dağıdılmış, aqrar islahatlar tam başa çatdırılmışdır.

## *4 ŞOK TERAPEYASININ ƏSAS ELEMENTLƏRİ*.

Şok terapeyası əsasən iki istiqaməti əhatə edir:

a) stabil antiinflyasiya proqramının hazırlanması;

b) geniş institusional islahatın aparılması.



downloaded from KitabYurdu.az

Şok terapeyasının strategiyası göstərir ki, ilk əvvəl maliyyə stabilliyi yaradılmalıdır. Bu tarazlığın balanslaşdırılması kimi çıxış edir. Stabilləşdirmə tədbirləri inflyasiya potensialının ləğv edilməsinə doğru yönəldilməlidir.

Qiymət üzərində dövlət nəzarətinin götürülməsi, qiymətlə əmək haqqı artımı arasında kəskin uyğunsuzluğun yaranması o səviyyəyə çatır ki, artıq qiymətlərin qalxması qeyri mümkün olur. Deməli, inflyasiya heç olmasa bir müddətə dayanmalı olur. İnflyasiyanın aşağı düşməsi və bazarın tarazlaşdırılması, dövlət büdcəsinin kəsirinin aşağı düşməsinə və ya ləğv edilməsinə imkan verir, bu isə ssuda stavkasını yüksəldərək istehsalın azalmasına səbəb olur.

Bütün bu tədbirlərin nəticəsində ayrı-ayrı məhsulların səmərəli qiymət mütənasibliklərinin yaradılmasına imkan yaranır.

Qeyd etmək lazımdır ki, şok terapeyasının bu pozitiv tədbirləri ağır nəticələr də verir. Belə ki, əhalinin həyat səviyyəsi kəskin aşağı düşür, inflyasiya tələbi, sənaye sahələrində istehsalın həcmi azalır, işsizlik artır və s.

Belə kəskin stabilləşdirmə siyasətinin aparılması-iqtisadi böhranın qarşısının alınmasının başqa yolu olmadığı halda məqbul hesab edilir.

Çünki məsələ ondadır ki, özəlləşdirmə və inhisarsızlaşdırma qiymətin liberallaşdırmasından əvvəl gəlməlidir, yoxsa sonra? Belə ki, özəlləşdirmə və inhisarsızlaşma uzun müddətli prosesdir. Qiymətin liberallaşması onlar üçün şərait yaratmalıdır. Çünki,



downloaded from KitabYurdu.az

əmlakı satmaq üçün onun qiyməti bəlli olmalıdır. Qiyməti müəyyən etmək üçün isə normal maliyyə mühiti yaranmalıdır.

Buna görə özəlləşdirmə və inhisarsızlaşdırma qiymət mexanizminin təkmilləşməsi ilə yanaşı həyata keçirilməlidir.

Azərbaycan Respublikasında maliyyə sabitliyinin qısa zamanda yaradılması əlçatmaz olmuşdur, çünki, gizli (qapalı) inflyasiyadan açıq inflyasiyaya keçid dövründə maliyyənin monetar tərəfi yox, institusional xarakteri aşkar olmuşdur. Keçmiş Rusiyada və həmçinin Respublikamızda mövcud olmuş təsərrüfatçılıq streotipi parlayışını doğururdu.

Şok terapiyasının ikinci istiqaməti iqtisadi sistemdə institusional dəyişikliyin yaradılmasıdır və bu zaman aşağıdakı tədbirlər həyata keçirilir:

1. qiymətin liberallaşdırılması (Polşada 90% qiymətlər liberallaşdırıldı. 5% dövlət tərəfindən tənzimlənir. 5% dəyişdiriləndə dövlətin razılığı alınır).

2. müxtəlif sahələr üzrə vahid vergi prinsipi hazırlanır və tətbiq edilir, birbaşa vergilərin funksiyası aparılır.-Antiinhisar qanunçuluğu qəbul edilir, bir sıra dövlət sahələrində differensiya aparılır.

3. Dövlət müəssisələri tam kommersiya hesabına keçirilir, müəssisə və dövlət maliyyəsi bir-birindən ayrılır.

4. ən-ənəvi mərkəzləşdirilmiş planlaşdırma ləğv edilir.

5. ticarət və ictimai iaşə sahələrində özəlləşdirmə daha da genişləndirilir.



downloaded from KitabYurdu.az

6. özəlləşdirmənin hüquqi əsası hazırlanır və tətbiq edilir.

- xalq təsərrüfatının bütün sahələrində xüsusi bölmənin dinamiki inkişafı təmin edilir.

7. milli valyutanın daxili dönərliyi təmin edilir. Vahid stabil kurs üzrə onun konvertasiyası təmin olunur.

8. sosial müdafiə sisteminin əsası yaradılır: - işə düzəltmə və imkansızlara kömək tədbirləri yaradılır.

Bütün bu dəyişikliklərin əsas məqsədi iqtisadiyyata dövlət müdaxiləsinin minimuma endirilməsi, iqtisadiyyatın sərbəst inkişafını genişləndirməkdir. Belə vəziyyətdə dövlət sifarişini saxlamaq mümkündür, lakin qiymətlər bazar səviyyəsində uyğunlaşdırılır, dövlət isə bunlar üzərində nəzarət aparır.

Sosial iqtisadi yönümlü ölkələrdə iqtisadiyyatın transformasiyası üçün xüsusi sektorda «kritik kütlənin» yəni Ümumi Daxili Məhsulda (ÜDM) xüsusi bölmənin payının çoxalmasına əlverişli şərait yaradıldı. Məsələn, 1992-ci ildə Polşada ÜDM-da xüsusi bölmənin payı 50%, Çexoslovakiya və Rumıniyada 22-26 faizə qədər təşkil etmişdir.

Azərbaycan Respublikasında 1998-ci ildə 19063 kiçik müəssisə qeydiyyatdan keçmiş, onlardan 16504-ü –si fəaliyyətdədir, istehsalın həcmi 3017,0 mlrd. manat təşkil etmişdir.



downloaded from KitabYurdu.az

## *5. BAZAR İQTİSADİYYATININ FORMALAŞMASININ ƏSAS PRİNSİPLƏRİ.*

İnsan fəaliyyətinin bütün sahələrində olduğu kimi, iqtisadi həyatda da ümumi qəbul edilmiş qaydalara əməl olunması vacibdir. Bu baxımdan iqtisadiyyatın dövlət tənzimlənməsi müəyyən prinsiplərə əsaslanır ki, bunlardan da əsasları aşağıdakılardır:

1. İctimai-iqtisadi quruluşla dövlətin fəaliyyət məqsədinin uyğunluğu.
2. Məqsədin yerinə yetirilməsi zəruriliyi və onun elmi əsaslandırılması.
3. Digər iqtisadi subyektlərə ziyan vurmadan məqsədin qoyulması və həyata keçirilməsi.
4. İqtisadiyyatın dövlət tənzimlənməsinin hüquqi-normativ əsaslandırılması.
5. Təşkilatı, kadr və maliyyə resurslarının kifayətliliyi.
6. Məqsədin aydın və dəqiq olması.

Bu prinsiplərin hər birinin özünə məxsusluluğu vardır və iqtisadiyyatın dövlət tənzimlənməsi ndə onlar qarşılıqlı əlaqədə, bir-birini tamamlayaraq fəaliyyət göstərirlər. Bu prinsiplərə bazar münasibətləri şəraitində inkişaf edən Azərbaycan iqtisadiyyatında öz əksini göstərməkdədir.

Azərbaycan Respublikasının iqtisadiyyatında aparılan islahatın birinci mərhələsi onunla qurtardı ki, ənənəvi mərkəzləşdirilmiş planlaşdırmaya son qoyularaq bazar iqtisadiyatına



downloaded from KitabYurdu.az

keçid başlandı. Yəni bazar iqtisadiyyatına keçidin əsasları formalaşmağa başladı.

İqtisadiyyatın ilk struktur dəyişiklikləri aparılmağa başlandı. Lakin bu proses ləng getməyə başladı ki, bu da ölkənin vəsaitinin olmaması ilə əlaqədar idi. Belə vəziyyətdən çıxmaq üçün ölkə rəhbərliyi xarici investisiyaların cəlb edilməsi prosesini genişləndirmək yolunu tutdu. Lakin ölkədə ilk dövrlərdən olan qeyri sabitlik, investorların geniş fəaliyyətini müəyyən qədər məhdudlaşdırmışdır.

Bizim fikrimizcə respublikada effektli bazar iqtisadiyyatı yaratmaq üçün iki istiqamət əsas götürülməlidir:

Birincisi-institusional dəyişiklik. Yəni özəlləşdirmə, inhisarsızlaşdırma, sahibkarlığın və xüsusiyyətçiliyin maraqlandırılm ası, kapital bazarının yaradılması, uyğun maliyyə-kredit sisteminin formalaşması, aqrar islahatın həyata keçirilməsi mexanizminin fəaliyyətə başlanması.

İkinci-iqtisadiyyatın liberallaşdırılması-topdan satış və pərakəndə satış da daxil olmaqla.

Bu istiqamətlər uzun müddət tələb edir və onların həyata keçirilməsi nəticəsində Respublikada bazar iqtisadiyyatının institutları yaradılacaqdır.

Makroiqtisadiyyatala yüz illərlə məşğul olunmuşdur. Lakin XX əsrin 30-cu illərindən Keyns elan etdi ki, təsərrüfat fəaliyyətinin ümumi qanununu kəşf etmişdir. Keyns və onun tərəfdarları təklif



downloaded from KitabYurdu.az

edirdilər ki, kapitalist sistemini dağıda bilən təsərrüfat mexanizmi texniki xarakter daşıyır.

Bu nəticə faktlarla sübut olunmuşdur. Keynsin tənzimləmə tədbirlərini həyata keçirən kapitalist dünyası müəyyən qədər irəliləyişə nail olmuşdur. Bununla belə Keyns nəzəriyyəsi azad bazarı qəbul edir, lakin göstərmir ki, azad bazarın əsaslandığı siyasət ancaq mərkəzləşdirilmiş planlaşdırılmış iqtisadiyyatda fəaliyyət göstərə bilər.

Azərbaycan Respublikasında uzun müddət inzibati idarəetmə metodları hökm sürmüşdür. Bu metodları dağıdıb birdən-birə makroiqtisadi planlaşdırmaya keçilməsi (Keyns yolu) mürəkkəb olardı. Buna görə də keçid iqtisadiyyatı şəraitində makroiqtisadiyyatı doğma kimi qəbul etmək olmaz. Respublika bazar iqtisadiyyatına keçidin spesifik yolunu seçməlidir.

Keyns nəzəriyyələrindən biri tələb nəzəriyyəsidir. Ona görə kütləvi işsizliyin əsas səbəbi tələb effektliyinin XXXXXX

Respublikada istehsal üçün dövlət xərclərinin artırılmasına isə vəsait yoxdur. Azərbaycan Respublikasının iqtisadi sistemi Keyns nəzəriyyəsinin tətbiqinə imkan verə bilməz. Çünki, respublikanın birdən birə bazar iqtisadiyyatına keçmək cəhdi, durğunluq vəziyyətini yaratdı. Sosial üönümlü ölkələrin iqtisadiyyatı Keyns nəzəriyyəsini təhrif olunmuş şəkildə qəbul etdilər ki, bu Azərbaycan Respublikasına da aiddir.



downloaded from KitabYurdu.az

Bütün kapitalist ölkələrində durğunluq və Hiper inflyasiya mövcud ola bilər. Lakin onun ikisi birlikdə olmur. Bizim Respublikada bunun hər ikisi mövcud olmuşdur.

Buna görə də respublikada hökumətinin keçid dövrünün xarakterinə uyğun iqtisadi tədbirlər sistemini həyata keçirməsi məqsədəuyğundur.

1. Bazar iqtisadiyyatına keçid proqramı hazırlamaqla daxili ehtiyatlarla əsaslandırılmalıdır.

2. Bazar iqtisadiyyatına keçid proqramının əsasını mülkiyyətçiliyin getdikcə artırılması təşkil etməlidir.

3. Dövlət iqtisadi böhrandan çıxış yolunun, sifarişlərin artırılması istiqamətini seçməlidir.

4. Respublikada müəssisə rəhbərləri bazar iqtisadiyyatı qanunlarına və tələblərinə düzgün əməl etməlidirlər.

5. Respublika iqtisadiyyatında dərin struktur dəyişiklikləri həyata keçirməlidir.



downloaded from KitabYurdu.az

## *FƏSİL 4. MİLLİ İQTİSADİYYATIN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN FORMA VƏ METODLARI.*

### *1. İQTİSADİYYATIN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN FORMALARI.*

Bazar iqtisadiyyatının müxtəlif modelləri və ona uyğun olan dövlət tənzimlənməsi konsepsiyaları, mahiyyətcə deyil, həm də tənzimdəmənin formaları ilə, metodları ilə fərqlənirlər. İqtisadi ədəbiyyatlarda onlar haqqında kifayət qədər mülahizələr olmasına baxmayaraq, onların dəqiq təsnifatı yoxdur. Belə ki, iqtisadiyyatın tənzimlənməsi formalarında da dəqiqlik aydın deyildir, çox vaxt onu tənzimləmə metodları ilə eyniləşdirirlər. Bizim fikrimizcə, tənzimləmə formaları, hökumət sənədlərinin məzmunu və strukturu ölkənin real inkişafı və sosial-iqtisadi sistemin xüsusiyyətlərindən asılıdır.

İqtisadiyyatın dövlət tənzimlənməsinin forma və metodların aydınlaşdırmadan əvvəl bazar anlayışına müxtəlif müxtəlif mənbələrdə rast gəlinən izahlara nəzər salaq.

Bazar – məhsulların alqı-satqısı üzrə iqtisadi münasibətlər sistemi olub, qiymətlərin tələb-təklif əsasında formalaşmasını əks etdirən məkandır.

Bazar- Alıcı və satıcı arasında əlaqəni əks etdirən mexanizm və üsulların fəaliyyət göstərdiyi yerdir.



downloaded from KitabYurdu.az

Bazar – Alıcı və satıcıların əlaqəyə girmələri üçün zəruri olan şərtlərin məcmuyudur. Beləliklə, bazar məvhumuna ümumiləşdirilmiş belə izah verməK olar.

Bazar əmtəələrin istehsalı və reallaşması sferası, şərtləri və yeri ilə bağlı iqtisadi forma və mexanizmlərin üzvi məcmusu, sistemidir. Bəşəriyyətə bazar iqtisadiyyatından səmərəli iqtisadiyyat məlum deyildir. Bazar iqtisadiyyatı insanın özünü reallaşdırılmasına güclü stimul yaradır, əmək və təsərrüfat fəallığının yüksəlməsi imkanını artırır, ETT-ni sürətləndirir. Onun özünəməxsus özünü tənzimləmə mexanizmləri, bütün iqtisadi subyektlərin fəaliyyətinin daha yaxşı əlaqələndirilməsini, əmək, material və maliyə ehtiyatlarından səmərəli istifadəni, iqtisadiyyatın tarazlığını təmin edir.

Bazar iqtisadiyyatı iqtisadi sistemlərin təsiri altında formalaşır. İqtisadi nəzəriyyə elmi iqtisadi sistemin tiplərini belə təsnifləşdirmişdir:

1. Bazar sistemi:

a) azad bazar iqtisadiyyatı (xalis kapitalizm) XVIII-XIX əsr, xüsusi mülkiyyət, makroiqtisadi fəaliyyətin tənzimlənməsi, çoxlu sayda istehsalçı və istehlakçının olması;

b) müasir bazar iqtisadiyyatı (müasir iqtisadiyyat) elastik olub, dəyişən daxili və xarici şəraitə tez uyğunlaşmaq.

2. Qeyri bazar sistemi.

a) ənənəvi-geri qalmış texnika və əl əməyinə əsaslanır, iqtisadiyyatın çox ukladlı olması;



downloaded from KitabYurdu.az

b) inzibati-amiranəlik, bütün resurslara ictimai mülkiyyətin hakim olması.

Ümumiyyətlə, bazar dedikdə təkcə əmtəə yox, həm də pul bazarı, kredit bazarı, iş qüvvəsi bazarı və s. nəzərdə tutulur. Lakin bazarı zəruri edən ilk növbədə əmtəə istehsalıdır. Bazar mexanizminə qiymətlər, pul, kömrük haqqı, kredit və digər dəyər kateqoriyaları daxildir. Bura həmçinin əmtəələrin tələb və təklifi, qiymətlər miqyası, pul kütləsinin əmtəə ilə təmin edilməsi, valyuta məzənnəsi və s.də daxildir. Bazar mexanizmi əmtəə mübadiləsinə xidmət edir və istehsalçılara təsir göstərmək üçün istifadə olunur. Bazarın mahiyyətini dərk etmək üçün tələb, təklif və bazar tarazlığı anlayışlarını aydınlaşdırmaq lazımdır.

Tələb-bazarda mövcud olan və müvafiq pul vəsaiti ilə təmin olunmuş tələbatın ifadə formasıdır. Başqa sözlə tələb tədiyyə qabiliyyətli tələbatdır.

Təklif isə bazarda olan və ya ora gətirilməyə qabil olan əmtəələr məcmusudur. Təklif istehsalla müəyyən olunur, lakin onun eyni deyildir. Bunlar əsasında fərq heç olmasa ona görə mövcuddur ki, istehsalın həcmi dəyişilmədikdə qiymətlərin hərəkəti təklifin ölçülərini dəyişdirir. Buradan aydın olur ki, tələb və təklifin bərabərliyi, heç də həmişə istehsal və tələbatın bərabərliyi demək deyildir.

Həm ayrı-ayrı əmtəələr və onların qrupları üzrə, həm də əmtəə kütləsi üzrə tələb və təklifin müəyyən nisbəti bütövlükdə bazar konyukturasını əks etdirir. Bu isə çox saly amillərin, o cümlədən



downloaded from KitabYurdu.az

istehsalın miqyası, ehtiyatların ölçüsü, qiymətlərin pul və gəlirlərinin dinamikası, ticarətin və reklamın təşkilinin təsiri altında yaranır və dəyişir. İqtisadi qanunlara uyğun normal əmtəələrə və xidmətlərə tələbin həcmi və strukturu ilə onların təklifinin həcmi və strukturu uyğun olmalıdır. Bu tarazlığın pozulması iqtisadiyyatda disproporsiyalara gətirib çıxarır. Təklifin tələbdən geri qalmasının nəticəsi ilk növbədə qiymətlərin artmasıdır. Tarazlığın pozulması nəticəsində bazarın deformasiyası, istehsalçının diktə etməsinə şərait yaradır, məhsulun təzələnməsi prosesi yavaşıyır, ETT-ni gecikdirir, maliyyə tarazlığını artırır, keyfiyyətin yaxşılaşmasına mane olur.

Dövlət, müəssisə, firma, sahibkar, istehsalçı və istehlakçılar ixtiyarı ölkənin iqtisadiyyatının əsas həlqələridir. Tapşırıqların qəbul edilməsi ardıcıllığı və hər bir həlqə üçün bu tapşırıqlara görə məsuliyyət dərəcəsi planlı iqtisadiyyatla bazar iqtisadiyyatı arasındakı əsas fərqi təşkil edir.

Təbiidir ki, bazarda əmtəə və xidmətlər reallaşır. Lakin əmtəə dedikdə yalnız məhsul və xidmətlər nəzərdə tutulmamalıdır. Çünki, bazarda əmtəə kimi pul və iş qüvvəsi də çıxış edə bilər. Qiymətlər mexanizmini bu sahələrə də tətbiq etsək bazar iqtisadiyyatının əsas mənfi cəhəti aydın olar. Belə ki, əhalinin bəzi qrupları və ya bəzi fəaliyyət növləri sadəcə sıxışdırılıb aradan çıxarılır. Kifayət qədər mənfəət gətirməyən fəaliyyət tədricən dayanır. Odur ki, belə sosial sahələr, xüsusilə təhsil və səhiyyə əsasən dövlət büdcəsindən maliyyələşdirilir. Bundan başqa, qiymətlər mexanizmi elə bir alətdir ki, kifayət qədər uzunmüddətli olsa da, yalnız müəyyən dövr ərzində



downloaded from KitabYurdu.az

mənfi təsir göstərir. İstehsalçı məhsulunu son dərəcə aşağı qiymətlərlə sataraq və müvəqqəti olaraq itgilərlə barışaraq (dempint qiymət ilə) rəqibini bazardan sıxışdırmağa cəhd edə bilər. Rəqiblər çox vaxt mübarizəni davam etdirmir və öz məhsulunu bazara çıxarmağa son qoyur. Son olaraq yalnız bir istehsalçı-inhisarçı qala bilər ki, o da müəyyən dövrdə bazarı öz əlinə alır.

Ümumiyyətlə, bazar iqtisadiyyatı aşağıdakı funksiyaları yerinə yetirir:

1. Bazar qismən mərkəzləşmiş qaydada işlənib hazırlanmış, iqtisadi siyasətin vasitələrindəndir;
2. Bazar istehsalçıya iqtisadi təsir göstərir;
3. Dövlət idarəetmə orqanlarına mövcud istehsal proporsiyalarının dəyişilməsinin bu və ya digər istehsal proporsiyalarının dəyişilməsinin bu və ya digər istehsalın inkişafının zəruriliyini aydınlaşdırır;
4. Tələbatın natural-əşya göstəricilərinin konkretliyini müəyyən edir.

Bazar iqtisadiyyatının özünəməxsus sahələri isə aşağıdakılardır:

1. İqtisadi subyektlərin (sahibkarlığın, firma və müəssisələrin) maksimal sərbəstliyi.
2. İqtisadi subyektlərin Mülkiyyətin bütün növlərinin hüquq bərabərliyinə saslanaraq, təsərrüfat fəaliyyətinin nəticələrinə görə tam məsuliyyət daşıması;



downloaded from KitabYurdu.az

3. Təsərrüfat fəallığının stimullaşmasının, istehlakçıların tələblərinə uyğun olaraq məhsulun rəngarəngliyinin artırılması və keyfiyyətinin yüksəldilməsinin, xərclərin azaldılması və qiymətlərin sabitləşməsinin mühüm amili kimi istehsalçılar arasında azad rəqabətin mövcudluğu;

4. Qiymətlərin əksəriyyətinin tələb və təklifin tarazlığından yaranması;

5. Bazar münasibətlərinin, dövlət tənzimlənməsi və digər tənzimləmə formaları ilə müqayisə də daha çox səmərəliliyə malik ola biləcək sferalarda fəaliyyət göstərməsi. Bununla digər iqtisadiyyatda mühüm qeyri-bazar bölməsi qalır ki, buna da müstəsna olaraq kommersiya meyarlarına cəlb etdirilə bilməyən fəaliyyət növləri daxildir. (müdafiə, səhiyyənin, təhsilin, elm və mədəniyyətin müəyyən hissəsi).

6. İqtisadiyyatın açıq olması, onun ardıcıl olaraq dünya təsərrüfat əlaqələri sisteminə inteqrasiyası. İxtiyari iqtisadi subyekt xarici-iqtisadi əməliyyatlar həyata keçirmə hüququna malikdir. Deməli, xarici, hüquqi və fiziki şəxslər bazarda mövcud qanunauyğunluq və ümumi beynəlxalq normalara uyğun olaraq bütün istehsalçılarla bərabər şəraitdə fəaliyyət göstərir;

7. Vətəndaşların yüksək dərəcədə sosial müdafiəsinin təmin olunması. Bu bir tərəfdən bütün vətəndaşlara öz əməyi müqabilində layiqli həyat təmin etmək üçün geniş imkanlar verilməsi kimi, digər tərəfdən isə cəmiyyətin əmək qabiliyyəti olmayan və sosial cəhətdən



downloaded from KitabYurdu.az

zəif üzvlərinə dövlət tərəfindən qayğı (təqaüdçülər, tələbələr və s.) göstərilməsinin zəruriliyi kimi başa düşülür;

8. Bütün dövlət hakimiyyət orqanlarının təsərrüfat fəaliyyətində bir başa iştirak etməsi minimuma endirilir. Eyni zamanda bazar iqtisadiyyatının yüksək iqtisadi səmərəliliyini təmin etməklə birgə, iqtisadiyyatın yüksək qeyri-sabitliyi, həddən artıq mülkiyyət və sosial diferensasiyası, ayrı-ayrı regionların inkişafının nizamsızlığı kimi neqativ nəticələrin aradan qaldırılması məqsədi ilə bazar iqtisadiyyatının dövlət tənzimlənməsinə və ictimai tənzimlənməyə ehtiyac vardır. Dövlət ilk növbədə ictimai mənafelərə uyğun istiqamətlərdə təsərrüfat fəaliyyəti üçün əlverişli mühitin formalaşmasına kömək etməlidir.

Bazarın ümumi funksiyaları və özünəməxsus xüsusiyyətlərinin yerinə yetirilməsi, nizamlı fəaliyyəti üçün dövlət tənzimlənməsinin müxtəlif formaları tətbiq oluna bilər. Planlı təsərrüfat sistemində iqtisadiyyatın tənzimlənməsinin bir forması kimi direktiv planlaşdırma tətbiq olunurdu. Bu sistem sabiq SSRİ və onun tərkibindəki bütün müttəfiq respublikalarda fəaliyyət göstərirdi.

Planlı iqtisadiyyatda dövlət strateji planlar tərtib edir ki, sonra da bu planlar onun icraçıları-müəssisələrə çatdırılır. Onlar da öz növbəsində işçilər qarşısında tapşırıqlar qoyur. Əməyin son nəticəsi istehlakçılara təklif olunur. Müəssisə üçün əsas sifarişçi kimi dövlət çıxış edir və bütün iqtisadi risk onun üzərinə düşsədə, qoyulmuş plan tapşırıqlarının yerinə yetirilməsində ayrı-ayrı iqtisadi subyektlər məsuliyyət daşıyırlar. Çünki, ölkənin sosial-iqtisadiinkişaf planı



downloaded from KitabYurdu.az

təsdiq edildikdən sonra qanuni qüvvəyə minir və onun həyata keçirilməsində hər bir müəssisə məsuldur.

Bazar iqtisadiyyatında isə hər şey bazar ətrafında dövran edir. İstehlakçı hansı məhsulu və hansı qiymətə almağa hazır olduğunu özü həll edir. Müəssisə öz iqtisadi siyasətini ilk növbədə istehlakçıya tərəf istiqamətləndirir. Müəssisə bir neçə bazardan asılılıqda mövcuddur: pul bazarı (müəssisənin maliyyələşdirilməsi), iş qüvvəsi bazarı (müvafiq mütəxəssislərin və işçilərin cəlb edilməsi) və istehlak bazarı (öz məhsulunun istehlakı). Buna görə də iqtisadi subyektlər, öz fəaliyyətlərində tənzimləməni şərtləndirən amilləri nəzərə almalıdırlar. Bu amilləri belə təsnifləşdirmək olar:

Cədvəl

| Amillər | Amillərin məzmunu |
|---|---|
| 1. İqtisadiyyatın bazar sektorunun problemlərinin həlli ilə əlaqədar amillər. Bazar mexanizminin mənfi effektinin yumşaldılması. | 1. Bazarda geniş proseslərin məhdudlaşdırılması.<br>2. Bazar konyukturunda məcmu tələbin effektivliyinin təmin edilməsi.<br>3. İctimai əmtəə və tələbatın təmin olunması.<br>4. Bazar rəqabətinin dəstəklənməsi.<br>5. Beynəlxalq bazarda rəqabətin gücləndirilməsi. |
| 2. Geniş təkrar istehsalın iqtisadi stabilliyinin təmin olunması. | 1. Təsərrüfat subyektlərinin «oyun qaydası»nın müəyyən edilməsi, məcmu kapitalın effektivliyinin təmin olunması üçün ümumi şəraitin yaradılması.<br>2. İqtisadiyyatın antitsiklik |



downloaded from KitabYurdu.az

| | |
|---|---|
| | inkişafının təmin olunması.<br>3. Uzun müddətli iqtisadi artımın stimullaşdırılması.<br>4. Xalq təsərrüfatının optimal strukturunun formalaşdırılması.<br>5. Makroiqtisadi tarazlığın dəstəklənməsi.<br>6. İqtisadiyyatın dövlət bölməsinin effektivliyinin idarə edilməsi.<br>7. Pul tədavülünün tənzimlənməsi.<br>8. ETT-nin inkişafına yardım edilməsi. |
| 3. Sosial problemlərin həlli ilə əlaqədar amillər. | 1. Gəlirin səmərəli bölgüsünün təmin edilməsi.<br>2. Sosial gərginliyin azaldılması.<br>3. Tam məşğulluğun təmin olunması.<br>4. İş qüvvəsinin geniş təkrar istehsalına şərait yaradılması, insanların intellektual bacarığının qabiliyyətini aşkar edilməsi. |

Yuxarıda göstərilən xüsusiyyətlər, bazarın mövcudluğunu şərtləndirən amillər, iqtisadiyyatın tənzimlənməsinin formalarında nəzərə alınmalıdır. Bazar iqtisadiyyatı şəraitində tənzimlənmənin aşağıdakı formalarından istifadə olunur.

1. Dövlət sifarişləri.
2. İndeqativ planlaşdırma.



downloaded from KitabYurdu.az

3. Strateji planlaşdırma.
4. Proqramlaşdırma.
5. Proqnozlaşdırma.

Tənzimlənmənin indeqativ, proqnozlaşdırma və proqramlaşdırma formaları haqqında dərsliyin sonrakı fəsillərində izahlar verilməsini nəzərə alaraq, dövlət sifarişləri və strateji planlaşdırma formalarını şərh edik.

Dövlət sifarişləri.

Bazar münasibətlərinə keçid dövrü üçün dövlət tənzimlənməsinin mühüm formalarından biri dövlət sifarişidir.

Dövlət sifarişi məhsul və xidmətlərə ən mühüm tələbatları, kompleks proqram tapşırıqlarını əks etdirir. Dövlət sifarişini İqtisadi İnkişaf Nazirliyi müəyyən edir və ona nəzarət edir. Hazırda keçid dövrü üçün dövlət müəssisələrinə müəyyənləşdirilmiş məhsullar üzrə, müəyyən qoyulmuş kəmiyyətdən çox olmamaqla yerinə yetirilməsi məcburi qaydada, lakin yalnız müqavilə əsasında çatdırılır. Müəssisə müəyyən olunmuş həcmdən yuxarı dövlət sifarişini yalnız könüllü müqavilə əsasında qəbul edə bilər.

Müəssisələrə çatdırılan dövlət sifarişinin yekun həcmi mərkəzi orqanlarda müəssisə planını əsaslandırmalı, regional xalq təsərrüfatı proporsiyalarının yaradılmasını təmin etməlidir. Yuxarı orqanlar dövlət sifarişi üzrə buraxılan məhsulun satışını və onun istehsalını mühüm material ehtiyatları ilə təmin etməlidir. Dövlət sifarişi adətən iki qrup göstərici üzrə verilir. İstehsal güclərinin işə salınması və məhsulun ayrı-ayrı növlərinin istehsalı. Dövlət mərkəzləşdirilmiş



downloaded from KitabYurdu.az

əsaslı vəsait qoyuluşları hesabına istehsal güclərinin işə salınması üzrə dövlət sifarişi, fəaliyyətdə olan müəssisələrin texniki bazasının vəziyyətini və potensialını nəzərə almaqla, həmin məhsula ictimai tələbatdan asılı olaraq adətən yeni müəssisələrin tikilməsi üçün müəyyən olunur. Sənaye məhsulunun tədarükü üzrə dövlət sifarişi bir sıra xüsusiyyətləri nəzərə alaraq onların ümumi həcmini reqlamentləşdirir. Bu zaman müəssisə dövlət sifarişi alaraq adətən yuxarı orqanlar tərəfindən müəyyən olunan və müəssisə ilə bir başa uzunmüddətli əlaqələri olan istehlakçılara müstəqil müqavilələr bağlayır. Yalnız bundan sonra digər marağı olan sifarişçilər də müqaviləyə girirlər. Hər hansı universal məhsula dövlət sifarişi təyin olunduqda müəssisəyə orta güc, məhsuldarlıq, məhsulun kəmiyyət və dəyəri kimi ümumi göstəricilər çatdırılır. Belə sifarişlərin konkretləşdirilməsi istehsalçı müəssisələrlə istehlakçı müəssisələr arasında müqavilələr bağlanması, ya da topdansatış ticarətinin təşkili yolu ilə həyata keçirilir. Xalq istehlakı mallarının istehsalı və tədarükünə də məhz bu şərtlə dövlət sifarişi verilir.

Dövlət sifarişi zəruri maddi və maliyyə ehtiyacları ilə, tikinti təşkilatlarının istehsal gücləri ilə təmin olunmalıdır. Lakin, bu o demək deyil ki, belə təminat bütün xırda vəsaitlərin tədarükünü əhatə etməlidir. İstehlakçıların istehsal vasitələrinin topdansatış ticarət ilə təmin olunduğu ehtiyatların alınması ilə mərkəzi orqanlar məşğul olmurlar. Onların vəzifəsinə dövlət sifarişinin limitlər üzrə bölüşdürülən maddi-texniki ehtiyatlarla təmin edilməsi daxildir. Bu zaman elə bir vəziyyət yarana bilər ki, müəssisə dövlət sifarişinin



downloaded from KitabYurdu.az

yerinə yetirilməsi üçün maddi resursların təchizatı üzrə müqavilələr bağlayarkən çətinliklərlə qarşılansın. Bu halda müəssisə bu çətinliklər barədə dövlət sifarişini verən orqanı xəbərdar etməlidir. Bu orqan tərəfindən müəssisəyə yardım göstərilərkən dövlət sifarişi plana daxil edilməlidir, bu məsələni birgə həll etmək mümkün olmadıqda isə müəssisənin belə sifarişindən azad olunmaq üçün müraciət etmək hüququ vardır. Ümumi halda yerinə yetirilməsi məcburi olan dövlət sifarişinin verilməsi bir tərəfdən müəssisənin təşəbbüskarlığını, müstəqilliyini azaldır, digər tərəfdən isə müəssisənin zəruri avadanlıq, ehtiyat hissələri, xammal və digər maddiresurslarla təchizatında, həm də hazır məhsulun reallaşdırılmasında qeyri-müəyyən vəziyyətdən çıxarır.

Beləliklə, dövlət sifarişi əvvəla ehtiyatların çoxunun qıt olduğu şəraitdə ixtiyari müəssisə üçün, ikincisi müasir tələblərə cavab verməyən texniki bazaya, texnologiyaya malik olan, öz məhsulunu reallaşdırarkən çətinliklərlə qarşılaşan müəssisələr üçün sərfəli olur.

Dövlət sifarişinin müəssisə üçün əlverişli olmamasının səbəblərini mkm qrupa bölmək olar: birincisi, güclərin daha gəlirli məhsul buraxılmasından az əlverişli olan dövlət sifarişi tapşırıqları ilə yükləndikdə, ikincisi dövlət sifarişi elə istehlak gücləri üçün verilir ki, müəssisə bu gücləri qarşıdakı plan dövründə modernləşdirmək və ya dəyişmək istəyir, lakin bunu edə bilmir və digər müəssisələrdən texniki cəhətdən geri qalır.

Əgər müəssisə bu iki göstərilən haldan biri ilə qarşılaşarsa, onun rəhbərliyi dövlət sifarişi verən orqana müraciət edərək



downloaded from KitabYurdu.az

gözlənilən itkilərin konsepsiyası məsələsini, əlavə mal vəsaitlərinin ayrılmasının məcburi dövlət sifarişinin şərtlərinə daxil edilməsi yolu ilə həllinə nail ola bilsin. Dövlət sifarişi müəssisələr arasında müqavilələr yolu ilə razılaşdırılarkən, məhsulun qiymətinə dövlət müdaxilə edir ki, məhsul qıtlığı şəraitində qiymət həddi yüksək olmasın. Aydındır ki, müqavilə qiymətinin formalaşmasında dövlətin təsirini normal hesab etmək olmaz, lakin keçid dövrü üçün bu müvəqqəti olaraq zəruridir. Hazırda müəssisələrin müstəqilliyinin genişləndirilməsi, müxtəlif mütərəqqi müəssisələrin və onların qruplarının yaradılması ilə əlaqədar olaraq müqavilə əsasında könüllü dövlət sifarişinə, yəni belə sifarişi yalnız müəssisə üçün əlverişli olduqda onu öz planına daxil etməsi nəticəsində verilən dövlət sifarişinin formalaşmasına böyük diqqət yetirilir. Məcburi dövlət sifarişi yalnız ictimai və strateji dövlət əhəmiyyətli məhsullara müəyyən edilməlidir. Dövlət sifarişi elə əlverişli şərtlər daxilində olmalıdır ki, müəssisələr arasında bu sifarişlərin qəbul edilməsi üzrə rəqabət olsun.

İndiqativ planlaşdırma.

Makrosəviyyədə indiqativ planlaşdırma müharibədən sonrakı (1941-1945) dövrlərdə sənaye cəhətdən inkişaf etmiş ölkələrin təcrübəsində (Fransa, Böyük Britaniya, Almaniya, Yaponiya) iqtisadiyyatın dövlət tənzimlənməsinin mühüm bir aləti kimi daha geniş vüsət almışdır.

İndiqativ planlaşdırma milli iqtisadiyyatın inkişafının əsas proqnoz konturlarını özündə əks etdirir. O, inkişafın arzu olunan



downloaded from KitabYurdu.az

yönümünü müəyyən edərək dövlət xərclərini, investisiyaları qeydə alır.

İndiqativ planlaşdırma, mərkəzləşdirilmiş planlaşdırmanın əksi olub, iqtisadi inkişafın tənzim olunması üçün dövlət tədbirləri sistemidir.

İndiqativ planlaşdırma bazar iqtisadiyyatına qədəm qoymuş dövlətlərdə milli iqtisadiyyatın inkişaf etdirilməsinin əsas formalarından biridir.

İndiqativ planlaşdırma şəxsi, fərdi təsərrüfatların inkişafı üçün tövsiyyə edilmiş dövlət proqramıdır ki, burada dövlətin «planlaşdırıcı» funksiyası azalmış olur.

Bazar iqtisadiyyatlı ölkələrdə indiqativ planlaşdırma proqramlaşdırma prosesinin alternativi kimi şərh olunur. Həm də indinativ planlaşdırma «liberal», «demokratik» mövhumlarına uyğun qəbul edilir.

İndiqativ planlaşdırmanın əsas məqsədini belə ifadə etmək olar. İndiqativ planlaşdırmanın başlıca vəzifəsi ilk əvvəl dövlət resurslarının istifadəsini nəzərdə tutur. O, milli iqtisadiyyatın xüsusi bölməsinin inkişafının tənzim olunmasına birbaşa iddia etmir, bununla belə proqnoz göstəriciləri və inkişaf parametrləri xüsusi bölmənin fəaliyyətinin stimullaşdırılması üçün əlverişli mühit yaradır.

Konkret olaraq indiqativ planlaşdırmanın məqsədlərini belə göstərmək olar:



downloaded from KitabYurdu.az

1. Dövlət investisiyası, büdcə vasitəsilə sahibkarların həyata keçirmək istədikləri tədbirləri və konyuktur məlumatların sistemləşdirilməsini yaxşılaşdırmaq.

2. İqtisadi göstəricilər sistemini hazırlamaq.

Bu sistemlər bir tərəfdən dövlətin məqsədini i fadə etməli, digər tərəfdən isə sahibkara tam fəaliyyət azadlığı verməlidir.

İndiqativ planlaşdırma sahibkarlara iqtisadiyyatın inkişaf təmayülləri, texniki tərəqqinin, texnologiyanın inkişafı, dünya bazarındakı rəqabət, məhsuldar qüvvələrin inkişafı haqqında istiqamətverici rolu ifadə edir.

İndiqativ planlaşdırma arzu olunan məqsədi ifadə edərək göstəricilərin daha dərin detallaşdırmasını inkar etməklə ölkədə qlobal, strateji problemləri əhatə edir. O, ən çox makroiqtisadi kəmiyyətləri əhatə edir, bəzi hallarda isə iqtisadiyyatın bəzi sahələrini də əhatə edə bilər.

İndiqativ planlaşdırmanın vadaredici (sövqedici) qüvvəsi dövlət tərəfindən müxtəlif stimulların tətbiq edilməsidir.məsələn, müstəqim və qeyri-müstəqim subsidiyaların tətbiqi, güzəştli amortizasiya silinmələri, büdcəyə vergilər, məqsədli kreditlər və s. sahibkarların diqqətini cəlb edə bilər ki, nəticədə onlar da indiqativ planlaşdırmada iştirak edə bilərlər.

İndiqativ planlaşdırmanın həyata keçirilməsi mərhələlərlə aparılır və bu mərhələlərin hər birində altı bölmə vardır. Həmin mərhələlərin ardıcıllığını belə göstərmək olar:



downloaded from KitabYurdu.az

I-mərhələ. Planın məqsədinin müəyyən edilməsi və proqnozların verilməsi;

1. İstehsalın inkişafı proqnozu verilir.
2. Milli təhlükəsizliyin təmin olunması proqnozu müəyyən edilir.

II-mərhələ. Məqsəd və proqnozların differensasiyası aparılır:

1. Məcmu göstəricilərin makrosəviyyəli proqnozları tərtib edilir.
2. «Təmiz» sahələr müəyyən edilir.
3. Makro göstəricilər regionlar üzrə differensiallaşdırılır – xırdalanır.

III – mərhələ. Planın göstəricilərinin uyğunlaşdırılması, balanslaşdırılması aparılır:

1. İqtisadi İnkişaf Nazirliyinin şöbələri plan göstəricilərini təshih edirlər.
2. Həmin göstəricilər arasında qarşılıqlı əlaqə yaradılır və onların balanslaşdırılması aparılır.

İndiqativ planlar adətən 5 il müddətinə tərtib olunurlar. Həmin planın aşağıdakı bölmələri olur:

1. İqtisadi artımın müəyyən edilməsi.
2. İnvestisiya qoyuluşları.
3. Maliyyə axını.
4. İqtisadi balanslaşdırma bölməsi.
5. İnflyasiya və rəqabətin müəyyən edilməsi.

Bu bölmələrdə indiqativ planlaşdırma da gedən proseslərin hamısının razılaşdırılması nəzərdə tutulur;



downloaded from KitabYurdu.az

1. Makroplanlaşdırma
2. Ərazi planlaşdırılması.
3. Mezoplanlaşdırma.
4. Mikroplanlaşdırma

Strateji planlaşdırma.

Strategiya anlayışı yunan mənşəli söz olub, ilk əvvəl hərbi məna daşımışdır. Yəni qələbənin əldə edilməsinin düzgün yolunun seçilməsində «generalın məharəti» mənasını ifadə edirdi. XX əsrin ikinci yarısından başlayaraq strategiya iqtisadi məna kəsb etməyə başladı. Yeni real iqtisadi inkişaf strategiyasının müəyyən edilməsi və s.

Strateji planlaşdırmanın bir qolu taktikanın seçilməsidir. «Taktika» sözü də yunan mənşəlidir. O, hərbi strategiyanın keçirilməsi üçün yararlı olan qüvvələrin manevrə etməsi mənasını verir.

Strateji və taktiki planlaşdırma arasındakı fərqi belə izah etmək olar.

Strateji planlaşdırma iqtisadi inkişafda nəyə nail olmalıdır, taktiki planlaşdırma isə necə nail olmalıdır sualına cavab verir. Yəni strateji və taktiki planlaşdırma arasındakı fərq məqsədlər və vəsaitlər arasındakı fərqdir.

İqtisadiyyatın dövlət tənzimlənməsinin bir forması kimi strateji planlaşdırmanın fəaliyyəti üç struktur elementinə əsaslanır.

1. Fəlsəfə, sosiologiya və iqtisadiyyatın nəzəri metodologiyası.
2. Ümumi elmi metodologiya.



downloaded from KitabYurdu.az

3. Yerli metodoloji sistem.

Strateji planlaşdırmanın birinci struktur elementinin əsasında nəzəri dərk etmə, dialektika – inkişaf və bazar iqtisadiyyatının fəaliyyət nəzəriyyəsi durur.

Strateji planlaşdırmanın ikinci struktur elementinin əsasında müşahidə, təhlil və sintez, induksiya və deduksiya, ənənə-analogiya, tarixi-məntiqi əlaqə, sosial-iqtisadi problemlərin modelləşdirilməsi, mücərrəddən konkretliyə yüksəliş durur.gstrateji planlaşdırmanın üçüncü struktur elementinin əsasında isə layihə və planların tərtibində istifadə olunan prinsip və üsullar durur. Strateji planlaşdırma elminin bu struktur elementlərində ümumi elmi metodologiya, təfəkkür nəzəriyyəsi də öz əksini tapır. Bunlara əsaslanaraq strateji planlaşdırmanın metodologiyasını belə izah etmək olar: Strateji plan, layihə, proqram və proqnozların tərtibi, spesifik metodların istifadə olunan göstəricilər sisteminin və s. məntiqi və onların üzvi vahidliyidir.

Strateji planlaşdırmada makrosəviyyədə həll olunan problemlər, iqtisadi partiyanın proqrammasının sosial-iqtisadi inkişaf konsepsiyasında təmərküzləşməsidir. Bu konsepsiyanın tərtibi prosesində proqnoz materiallarından geniş istifadə olunur.

Strateji planlaşdırma, plan və proqnozların tərtibi prosesindəki metodoloji sistemdə – strateji planlaşdırmanın məntiqi, prinsipləri, metodları vahid halda əhatələnmiş olur. Belə metodoloji yanaşma sistemi müasir strateji planlaşdırmanın təcrübəsində istifadə olunur və onun aşağdakı modifikasiyaları vardır:



downloaded from KitabYurdu.az

I – Sistemə kompleksli yanaşma.

II – Sistemə proqramlı yanaşma

III – Sistemə multiplikasiyalı (müxtəlif üsullar - xırdalama) yanaşma

IV – Sistemə normativ yanaşma

V – Sistemə iqtisadi qənaət üsulu kimi yanaşma.

VI – Sistemə dinamiki yanaşma

Strateji planlaşdırma və onun məntiqi müəyyən qanunauyğunluqlara əsaslanır ki, bu da planlaşdırmanın prinsipləri kimi çıxış edir.

Strateji planlaşdırma idarəetmənin özəyi olduğu üçün idarəetmənin dörd prinsipini də ona aid etmək mümkündür:

1. Siyasətin üstünlüyü nəzərdə tutulmaqla iqtisadiyyatla siyasətin vəhdəti.
2. Müstəqillik və mərkəziyyətin vəhdətliyi.
3. İdarəetmə həllərinin elmi əsaslandırılması.
4. Ümumi və yerli (lokal) maraqların uzlaşdırılması.

İdarəetmədə strateji planlaşdırmanın qeyd olunan ümumi prinsiplərindən başqa, strateji planlaşdırma aşağıdakı üç özünə məxsus prinsipə əsaslanır:

1. Aparıcı həlqənin müəyyən edilməsi əsasında optimal mütənasibliklərin təmin olunması.
2. Strateji planlaşdırma və planların kompleks proqnozlarının vahidliyi.



downloaded from KitabYurdu.az

3. Plan və proqramların tərtibi prosesinin yerinə yetirilməsi imkanlarının və ona nəzarət edilməsinin vahidliyi.

Ölkənin sosial-iqtisadi inkişafının strateji planlaşdırılmasının və tənzimlənməsinin effektivliyinin əsas şərti onların fəaliyyətini həyata keçirən dəqiq orqanlar sisteminin olmasıdır. Bazar iqtisadiyyatına keçmiş Azərbaycan Respublikasında həmin orqanlar Fəaliyyət göstərirlər. Respublikanın qanunverici orqanı Milli Məclisdir və ölkənin iqtisadi inkişafının tənzimlənməsinin iqtisadi-hüquqi əsasını yaradır. Ölkənin icraedici orqanı Respublika hökumətidir. (Nazirlər Kabineti). Hökumətin işçi orqanları iqtisadi inkişafı tənzim edir və proqnozlaşdırır, bunlar aşağıdakılardır:

a) Respublika nazirlikləri – iqtisadi inkişaf, maliyyə, təbiətdən istifadə, kənd təsərrüfatı, yanacaq, enerji, əmək və sosial inkişaf, ümumi təhsil, nəqliyyat və s.

b) Dövlət komitələri – rabitə və informatika, mənzil – kommunal təsərrüfatı, dövlət ehtiyatları, ətraf mühitin qorunması, dövlət standartları, metodologiya və sertifikatlaşdırma.

Bu orqanlar içərisində aparıcı mövqeyi İqtisadi İnkişaf Nazirliyi tutur. İqtisadi İnkişaf Nazirliyi dövlətin vahid sosial-iqtisadi siyasətini həyata keçirən icraedici orqan statusuna malikdir. Onun əsas vəzifəsi sosial-iqtisadi tərəqqinitəmin edən yollar axtarmaq və metodlar tərtib etməkdir. Bu vəzifəni həyata keçirmək üçün İqtisadi İnkişaf Nazirliyi əsasən aşağıdakı funksiyaları yerinə yetirir:

1. Analitik.



downloaded from KitabYurdu.az

2. İnformativ.
3. Ekspert.
4. Məsləhətçi.
5. Dövlətin daxili iqtisadi siyasətinin müxtəlif aspektlərini əsaslandırmaq.
6. Dövlət büdcəsini proqnozlaşdırmaq və reallaşdırmaq.
7. Bələdiyyə strateji plan layihələrini hazırlamaq və proqnozlar tərtib etmək.
8. Plan və proqnozların təşkilati-metodiki işinə rəhbərlik etmək.
9. Müvafiq sərəncamlar vermək.
10. Nəzarət etmək.
11. Yaxın və uzaq ölkələrdə strateji planlaşdırma və tənzimetmə məsələləri üzrə beynəlxalq iqtisadi əlaqələri həyata keçirmək.

İqtisadi İnkişaf Nazirliyinin analitik funksiyasının məzmunu ölkədə iqtisadi vəziyyəti təhlil etmək, sosial-iqtisadi inkişaf təmayülünü müəyyən etmək, regionlarda sosial-iqtisadi situasiyanı təhlil etmək, iqtisadi islahatlarda baş verə biləcək disproporsiyaları aradan qaldırmaq.

İnformatik funksiya – ölkənin iqtisadi inkişafının aylıq, rüblük, illik plan sənədlərinin hazırlanması və dünya bazarında konyukturanı öyrənmək.

İqtisadi İnkişaf Nazirliyinin ekspert funksiyası ölkə hökumətinə aşağıdakılar üzrə əsaslandırılmış rəy təqdim etməkdir:



downloaded from KitabYurdu.az

- ölkədə və onun regionlarında ayrı-ayrı sahələrin inkişafı ilə əhalinin maddi rifahı halının yüksəldilməsi.
- Xarici-iqtisadi əlaqələr üzrə qarşılıqlı idxal-ixrac müqavilə və razılaşma əməliyyatlarının layihələrini.
- Mərkəzləşdirilmiş valyuta resurslarından səmərəli istifadə, hökumət zəmanəti əsasında alınan kreditlərin əmtəə təminatı və xarici borclarının qaytarılması;
- Pul dövriyyəsini təmin etmək, qiymətli kağızlar bazarını formalaşdırmaq, səhmdar cəmiyyətlərin kapitalının hərəkəti;
- Özəlləşdirmə metodologiyası, inhisarsızlaşdırma və rəqabətin inkişafı;
- Dövlət əmlakının idarə olunmasının təkmilləşdirilməsi;
- İqtisadi islahatların hüquqi-normativ təminatını təkmilləşdirmək;
- Bazar infrastrukturunun inkişafını və bazar iqtisadiyyatının təşkilinin yeni formaları;
- Sahələrarası, regionlararası problemlərin həlli üçün dövlət və idarəçilik komissiyalarının yaradılması.

İqtisadi İnkişaf Nazirliyinin məsləhətverici funksiyası – prezidentin Milli Məclisə iqtisadi inkişaf proqnozları haqqında təkliflərini hazırlamaq. Bura maliyyə, pul, kredit, büdcə, qiymət, bazar infrastrukturunun inkişafı, xarici-iqtisadi əlaqələr, beynəlxalq iqtisadi əlaqələr, təbii resurslardan istifadə və s. daxildir.



downloaded from KitabYurdu.az

Daxili iqtisadi siyasətin əsaslandırılması zamanı İqtisadi İnkişaf Nazirliyi, sosial-iqtisadi siyasətin, iqtisadiyyatın aparıcı sahələrinin müəyyən edilməsinin, dövlətin struktur siyasətinin, investisiya aktivliyinin, xarici və daxili investisiyaların yerləşdirilməsinin, regional iqtisadi siyasətin məhsuldar qüvvələrin yerləşdirilməsinin, əhalinin maddi rifahın yaxşılaşdırılması siyasətinin, ekoloji təhlükəsizliyin təmin olunmasının əsaslandırılmasında və formalaşdırılmasında bilavasitə iştirak edir.

Daxili iqtisadi siyasətin reallaşdırılmasında İqtisadi İnkişaf Nazirliyi, dövlətin sosial, iqtisadi, investisiya, struktur, ekoloji siyasətinin həyata keçirilməsini təmin edir.

Strateji planlaşdırma plan və proqnozların tərtibi prosesində İqtisadi İnkişaf Nazirliyi digər işçi orqanlarla birlikdə kompleks sosial-iqtisadi proqnozları, milli hesablar sistemini, dövlətin maliyyə balansını, büdcənin gəlir və çıxarını, bələdiyyə məqsədli proqramları hazırlayır.

Metodoloji təşkilati rəhbərlik zamanı İqtisadi İnkişaf Nazirliyi plan işi üzrə metodiki göstəricilər hazırlayır, məqsədli proqramları xətləndirir, onların maliyyə mənbələrini təşkil edir.

Ölkənin hökuməti İqtisadi İnkişaf Nazirliyinə aşağıdakı sərəncam verici hüquqları verir:

- mövcud qanunlara uyğun olaraq iş və xidmətlərə tarifləri, qiymətləri qeydə almaq və təsdiq etmək (müəyyənlərini);



downloaded from KitabYurdu.az

- dövlət ehtiyacı, maddi-texniki ehtiyaclar, dövlət ehtiyacları, bələdiyyə tələbatı, ölkənin təhlükəsizliyi üçün istehsalın strukturunu və həcmini formalaşdırmaq;
- lizinq kompaniyalarının işinə lisenziyalar vermək;
- İqtisadi İnkişaf Nazirliyi onun ayrılmış vəsait çərçivəsində iqtisadiyyata aid ETİ-nin siyahısını müəyyən etmək, bunun üçün müvafiq mütəxəssisləri cəlb etmək və maliyyə resurslarını bölüşdürmək hüququna malikdir.

İqtisadi İnkişaf Nazirliyi həmçinin nəzarətedici funksiyasını malikdir. Ölkə hökumətinin prezidentin qərarlarının və təkliflərinin yerinə yetirilməsinə nəzarəti həyata keçirir.

Öz vəzifəsini yerinə yetirmək üçün İqtisadi İnkişaf Nazirliyi müvafiq departamentlərə malikdir.

İqtisadi İnkişaf Naziri hökumətin təqdimatı ilə Prezidentin tərəfindən təyin olunur və ya işdən azad edilir.

İqtisadi İnkişaf Naziri nazirlik üzrə qoyulmuş tapşırıqların yerinə yetirilməsində birbaşa məsuliyyət daşıyır. İqtisadi İnkişaf Nazirlyinin təqdimatı əsasında onun müavinləri ölkənin hökuməti tərəfindən təsdiq olunur və ya işdən çıxarılır. Ölkənin iqtisadi inkişafının mühüm problemləri İqtisadi İnkişaf Nazirliyinin kollegiyasında müzakirə edilir. Kollegiyanın tərkibində vəzifəsinə görə rəhbər işçilər, sair bələdiyyə icra orqanlarının işçiləri daxil olurlar. Bu tərkib hökumət tərəfindən təsdiq olunur.



downloaded from KitabYurdu.az

İqtisadi İnkişaf Nazirliyi özünə tabe olan, elmi-tədqiqat, tədris və təsərrüfat təşkilatlarına malikdir. İqtisadi İnkişaf Nazirliyinin fəaliyyəti üçün daha əhəmiyyətli olan təşkilatlar hesab olunurlar: makroiqtisadi və mikroiqtisadi institutlar, məhsuldar qüvvələrin yerləşdirilməsi üzrə Şura, Elmi tədqiqat institutları (qiymət, resurs, xarici-iqtisadi əlaqələr və s.).

Strateji planlaşdırma üzrə İqtisadi İnkişaf Nazirliyinin fəaliyyəti Milli Məclisin qəbul etdiyi qərarlar əsasında qurulur. Həmin qərarlarda plan fəaliyyətinin dəqiq məqsədi və vəzifələri, icra orqanlarının tərtib etdikləri plan sənədləri göstərilir. Plan sənədlərində nəzərə alınması vacib sayılır.

1. Bazar iqtisadiyyatı qanunlarına əsaslanaraq cəmiyyətin sosial-iqtisadi inkişafının elmi əsaslandırılmış istiqamətləri;
2. Dövlətin paritet sahələrinin strateji inkişafının istiqamətləri və onların həyata keçirilməsi yolları;
3. Ölkə iqtisadiyyatının, kompleks inkişafı sistemi, onun məqsədli istiqaməti;

Bu qeyd olunan problemlər aşağıdakı proseslərin icrasında həll olunur:

a) ölkənin iqtisadi-sosial inkişafının dövlət proqnozunda;

b) orta müddətli perspektiv üçün ölkənin iqtisadi-sosial inkişaf konsepsiyasında;

v) bələdiyyələr üzrə müəyyən iqtisadi-sosial inkişafın proqnozlarında.



downloaded from KitabYurdu.az

Dövlətin ölkənin iqtisadi-sosial inkişafı üzrə proqnozu bir tərəfdən demoqrafik situasiyanın kompleks təhlilini, elmi-texniki və mənəvi potensialını, milli sərvəti və təbii resurslarını, ölkənin dünya iqtisadiyyatında mövqeyi və bunların perspektivə inkişafını göstərirsə, digər tərəfdən həmin göstəricilərdə öz əksini tapan informasiyalardan istifadəni əks etdirir.

İqtisadi-sosial inkişafın kompleks proqnozu bir neçə istiqamətə malikdir:

a) ümumi milli iqtisadiyyatın inkişafının perspektiv xarakteristikasını geniş əks etdirmək;

b) xalq təsərrüfatı kompleksində iqtisadi sahələri düzgün əhatə etdirmək;

v) regionların kompleks inkişafını təmin etmək;

q) iqtisadiyyatın dövlət bölməsini tənzimləmək.

Onların daha effektli istifadə olunması üçün bir neçə variantdan istifadə olunur ki, xarici və daxili amillərin təsirini müəyyən etmək mümkün olsun.

İqtisadi və sosial proseslərin dövlət tənzimlənməsində sosial-iqtisadi inkişaf konsepsiyası mühüm yer tutur. Dövlət tənzimlənməsi prosesində hökumət tərəfindən istifadə olunan sənəd, orta müddətli perspektiv üçün 9 bölmədən ibarət iqtisadi-sosial inkişaf proqrammasıdır. Həmin bölmələr aşağıdakılardır:

1. Əvvəlki dövrlərdə ölkənin iqtisadi-sosial inkişafının nəticələri.
2. Orta müddətə ölkənin iqtisadi-sosial inkişaf konsepsiyası.
3. Makroiqtisadi siyasət.



downloaded from KitabYurdu.az

4. İnstitusional dəyişikliklər.
5. İnvestisiya və struktur siyasəti.
6. Aqrar siyasət.
7. Ekoloji siyasət.
8. Regional iqtisadi siyasət.
9. Xarici iqtisadi siyasət.

Strateji xarakterli, vaxtı çatmış problemlərin həlli üçün İqtisadi İnkişaf Nazirliyi maraqlı təşkilatlarla birlikdə bələdiyyə məqsədli proqramlar hazırlayır. Hər bir belə proqram özünə məxsus pasporta malikdir və aşağıdakı göstəriciləri əks etdirir:

1. Proqramın adı.
2. Proqramın qəbul edilməsi vaxtı.
3. Dövlət sifarişçisi.
4. Proqramın əsas tərtibatçısı.
5. Proqramın məqsəd və vəzifəsi.
6. Proqramın yerinə yetirilmə vaxtı.
7. Proqramın və digər tədbirlərin siyahısı.
8. Proqramın və digər tədbirlərin icraçıları.
9. Maliyyə həcmi və mənbələri.
10. Proqramın reallaşdırılmasından alınan nəticə.
11. Proqramın icrasına nəzarət

Hökumətin hazırladığı plan sənədləri Dövlət büdcəsi ilə birlikdə Milli Məclisə təqdim edilir. Bütün bunlarla bərabər Milli Məclisə həmçinin aşağıdakılar da təqdim olunur:

- əvvəlki illərdə iqtisadi və sosial inkişafın yekunları.



downloaded from KitabYurdu.az

- Plan ili üçün iqtisadi-sosial inkişafın proqnozları.
- İcmal maliyyə balansının layihəsi.
- Əsas sosial-iqtisadi problemlərin siyahısı.
- Məqsədli proqramların siyahısı.
- Dövlət sektorunun inkişafı layihəsi.
- Dövlət ehtiyacı üçün məhsulun həcmi.

Hökumətin təqdim etdiyi sənədlər əsasında Milli Məclis qərarlar qəbul edir ki, onun icrası İqtisadi İnkişaf Nazirliyi tərəfindən həyata keçirilir.

## *2. İQTİSADİYYATIN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN METODLARI.*

İqtisadiyyatın dövlət tənzimlənməsinin metodlarını izah etməzdən əvvəl, metodologiya, metod, metodika anlayışlarını şərh edək.

Metodologiya – ictimai təkrar istehsalın mütəşəkkil dəyişilməsi və dərk edilməsi metodlarının məcmuudur. Bunun əsasında dialektik təfəkkür nəzəriyyəsi durur.

Metod – metodologiyanın tərkib hissəsi olub iqtisadi inkişaf planlarının işlənib hazırlanması üsullarından biridir. Məsələn. Balans metodu, normativ metodu.



downloaded from KitabYurdu.az

Metodika – iqtisadi inkişaf planlarının işlənib hazırlanmasında istifadə olunan, fərdi qaydaları, fəndləri əhatə edir.

Ölkənin milli iqtisadiyyatının inkişafının keçid dövründəki şəraitinə nəzərən iqtisadiyyatın dövlət tənzimlənməsinə iki istiqamətdə baxmaq olar ki, onlarda istifadə olunan metodlarla bir-birindən fərqlənirlir.

Bu istiqamətlər aşağıdakılardır:

Birinci istiqamət – bu istiqamətdə dövlətin iqtisadiyyata müdaxiləsi maliyyə

a) ümumi metodlara təfəkkür metodları, sistem metodları, ictimai təkrar istehsal nəzəriyyəsi aiddir. Bu metodlar metodoloji xüsusiyyətə malikdirlər. Makroiqtisadiyyat iqtisadiyyatı bütün qarşılıqlı əlaqələrlə və müəyyən dövrlərdə tədqiq edir. Makroiqtisadi proseslərin tədqiqi metodologiyası bu və ya digər sosial-iqtisadi hadisələrin inkişafını qabaqcadan görməyə əsaslanır. Onun əsasında kəmiyyət və keyfiyyət təhlili aparılır, hadisəyə kompleks sistem kimi baxılır. Metodologiyanın tətbiqindən çıxan nəticələrin elmi əsaslanıdırlması nəinki obyektiv iqtisadi qanunların fəaliyyətinin dərindən dərk edilməsindən ibarətdir, habelə onun təcrübədə yoxlanılması da zəruridir.

b) sosial iqtisadi inkişafın dövlət tənzimlənməsində təsadüfi, qeyri tipik istisna təşkil edən metodlardan da geniş istifadə olunur. Bunlar statistik və iqtisadi-riyazi metodlardan ibarətdir.



downloaded from KitabYurdu.az

İqtisadi təhlildə çoxlu sayda statistik metodlardan istifadə olunsa da, tənzimləməyə daha çox uyğun gələnlər aşağıdakılar sayılır:

- ekstropolyasiya metodu.
- İqtisadi qruplaşdırma metodu.
- İndeks metodu.
- Büdcə metodu.
- Kredit metodları vasitəsilə məhdudlaşır.

Maliyyə-kredit metodlarının standart yığımı mövcuddur; - uçot stavkası, ehtiyatların minimal həcminin dəyişdirilməsi, tədavüldəki pulun həcmi, valyuta məzənnəsinin dəyişdirilməsi, vergi stavkası və s. bu konsepsiyanın əsasını iqtisadiyyatda dövlətin iştirakının minimum olması, iqtisadi sərbəstliyin indeksinin yüksək olması təşkil edir.

İkinci sitiqamət – iqtisadiyyatda dövlətin aktiv iştirakıdır. Dövlət məqsəd yönlü struktur dəyişikliyi aparır, investisiya, sosial siyasət həyata keçirir, yanacaq-enerji resurslarına və zəruri istehlak məhsullarına qiymətləri tənzimləyir.

İkinci konsepsiya iqtisadiyyatda dövlətin funksiyasının gücləndirilməsinə istiqamətlənmişdir. Maliyyə – kredit metodları bu konsepsiyanın bir hissəsidir.

İqtisadiyyatın dövlət tənzimlənməsində istifadə olunan metodların təsnifləşdirilməsi mürəkkəb prosesdir.

Birinci təsnifləşdirməyə uyğun olaraq metodları ayırmaq olar:



downloaded from KitabYurdu.az

a) ümumi metodlar;

b) təsadüfi, qeyri-tipik, istisna təşkil edən metodlar.

v) xüsusi metodlar.

q) iqtisadiyyatın dövlət tənzimlənməsində istifadə olunan xüsusi metodlara aiddir.

- balans metodu
- məqsədli proqram metodu
- normativ metod.

Bazar münasibətləri şəraitində iqtisadiyyatın bütün sahələrinin bir-birilə balanslaşdırılması onların tarazlı inkişafının zəruri şərtlərindəndir. Balans metodu makrosəviyyədə ümumi tarazlığın yaradılmasına imkan verir.

Məqsədli-proqram metodu konkret məsələnin həllinə imkan verir. Məqsədli-proqram metodunun həyata keçirilməsi üçün ilkin olaraq problem seçilməlidir. Yəni hansı sahədə konkret olaraq hansı məsələ problemdir və onun həlli hansı yolla aparılmalıdır.

Normativ metodu sərbəst və digər metodlarla ümumilikdə fəaliyyət göstərə bilər. O, iqtisadi-sosial məsələnin kəmiyyət və keyfiyyət tərəfini əks etdirir. İqtisadiyyatın tənzimlənməsində çoxlu sayda müxtəlif norma və normativlərdən istifadə olunur. Həmin normativlərə aiddir:

- texniki-iqtisadi normativlər (xammal, material, yanacaq sərfi);



downloaded from KitabYurdu.az

- iqtisadi normativlər (vergilər, maliyyə normativləri, büdcəyə ödəmələr, transferentlər, bank normativləri-uçot stavkası, məcburi ehtiyatların həcmi)

- sosial normativlər (yaşayış minimumu, istehlak büdcəsi, rasional istehlak)

- ekoloji normativlər (atmosferə atılan zəhərləyici maddələrin həcmi, torpaqların, havanın, suyun çirklənməsi və s.)

iqtisadiyyatın tənzimlənməsində istifadə olunan metodların ikinci təsnifləşdirilməsi onların sosial-iqtisadi proseslərə təsir səviyyəsi və dərəcəsi ilə əlaqədar aparılır. Bu təsnifləşdirmə ayrılır:

1. Dolayı met odlar-bunlar iqtisadi tənzimləmə metodları olub vəhdət halında tətbiqi başa düşülür. (qeyri-müstəqim)
2. Birbaşa (müstəqim) tənzimləmə metodları-bunlar inzibati amirlik qaydasında tənzimləmə metodudur.

Dolayı iqtisadi tənzimləmə metodları fəaliyət sərbəstliyi imkanlarını genişləndirir. Bunlar dövlətin iqtisadi siyasətinin əsasını ifadə edir. Bu metodlar silsiləsinə aiddir:

1. Dövlətin maliyyə-kredit və pul siyasəti.
2. Dövlətin büdcə və vergi siyasəti.
3. Dövlət büdcə xərcləri və gəlirləri siyasəti.
4. Dövlətin idxal-ixrac siyasəti.
5. Dövlətin valyuta siyasəti.
6. Kapitalın hərəkəti balansı.



downloaded from KitabYurdu.az

Qeyd edilən iqtisadi metodların əməli tətbiqi bütövlükdə ölkənin iqtisadi inkişaf potensialından birbaşa asılı olsada bazar mexanizminin fəaliyyətsizliyi şəraitində az təsirli ola bilər.

Birbaşa (müstəqim) metodlar əsasən dövlət büdcəsindən maliyyələşən müəssisə və təşkilatları əhatə edir. Onlar inzibati metodları da əhatə edir.

İnzibati metodlar fəaliyyət sərbəstliyinin dairəsini kiçildir. Lakin onlar dövlətin iqtisadiyyata birbaşa təsiri ilə səciyyələnir və bunlar aşağıdakılardır:

1. İnhisar bazarın tənzim olunması.
2. Bazar prosesinin dolayı effekti-ətraf mühitin qorunub saxlanması problemləri.
3. Standartların hazırlanması və onlar üzərində nəzarət.
4. Əhalinin yaşayışının minimum parametrlərinin qorunub saxlanılması. Zəmanətli minimum əmək haqqı, ya orta əmək haqqını müəyyən faizinə görə, ya da istehlak zənbilinin müəyyən faizinə görə hesablanır.
5. İxracın lisenziyalaşdırılması və xarici investisiyaların üzərində dövlət nəzarəti.



downloaded from KitabYurdu.az

### *3. İQTİSADİYYATIN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN MODELLƏRİ.*

Bazar iqtisadiyyatı bir mənalı mövhum deyildir. Ümumiyyətlə, o mücərrəd xarakter daşıyır. Sırf bazar iqtisadiyyatı hətta klassik inkişaf etmiş kapitalist ölkələrində belə öz tam xüsusiyyətlərinə nail olmamışdır.

K.Marksın göstərdiyi formada ənənəvi klassik bazar iqtisadiyyatı çoxdan öz əhəmiyyətini itirmişdir.

Müasir bazar təsərrüfatı rəqabət münasibətləri ilə dövlət tənzimləmə formaların özündə müştərək birləşdirərək inkişaf edir.

Dünya təsərrüfatı sistemində bazar iqtisadiyyatının inkişafının bir neçə modeli özünə geniş yol açmışdır.

Bunlardan biri iqtisadiyyatın inkişafının Yapon modelidir. Bu modelin əsas mahiyyəti əhalinin həyat səviyyəsinin o cümlədən əmək haqqının əmək məhsuldarlığından daha az sürətlə inkişaf etdirilməsidir.

Yaponiyanın iqtisadi inkişaf modelinin tərkibində alt sistemlər vardır. Məsələn, «Keyfiyyətin idarə edilməsi», «İstehsalın idarə edilməsi», «Heyətin idarə edilməsi», «Yaponiya sənaye sistemi» və s. modellər vardır.

Yaponiya iqtisadiyyatında keyfiyyət birinci dərəcəli məsələ sayılır. Belə ki, keyfiyyət hər bir layihənin əsasını təşkil edir. Onun əsasında səhvlərin təkrar olunmaması durur. Məsələn, «Kamban» sistemi. Qeyri standart məlumatları geri qaytarılaraq, birinci fəhlə ilə



downloaded from KitabYurdu.az

aradan qaldırılır. Üçüncü fəhlə tapılan defekti ikinci ilə yox edir və s. məhsuldakı zaylılığı ikinci və üçüncü fəhlənin köməkliyi ilə dəf edilir.

Fəhlələr

Xammal 1 2 3 4 5 6 7 8 hazır məhsul

-----------------------------------------

axın xətti

«Toyota» firması gündə bir işləyənə görə 9 mühərrik buraxır. İki mühərrikdən birində cüzi defekt tapılır.

«Ford» firması 1 işləyənə görə 2 mühərrik buraxır. Hər mühərrikdə 10-dan yuxarı defekt tapılır.

Aparılmış sorğu nəticəsində 10 istehlakçıdan 6-sı Yapon avtomobilini, 3-ü alman, biri İsveç avtomobilini xoşladığını bildirmişdir.

Yaponiya iqtisadiyyatına kadr hazırlığı kiçik yaşlarında başlayaraq»ata» müəssisələrdə aparılır. Məsələn, ata kompyuter istehsalı zavodunda çalışırsa, onun uşağının hətta oyuncağı da o sahəyə görə seçilməlidir. Uşaq orta təhsili əla və yaxşı qiymətlərlə oxumalıdır. Gələcəyi olan nüfuzlu universitetlərdə təhsil almalıdır. Qurtarana kimi müəssisə ilə əlaqədə olmalıdır. Müəssisədə ona hamilik göstərilməlidir. Mənzillə, yataqxana ilə təmin olunmalıdır.

Təqaüdçülərin əməyindən geniş istifadə olunur. Onlar evlərindəki komyuter vasitəsilə müəssisə ilə əlaqə saxlayırlar və müvafiq tapşırıqları yerinə yetirirlər. Beləliklə, yaponiyada məhsulların keyfiyyətinin standartlara uyğun olması aşağıdakı ardıcıllığa əsaslanır.



downloaded from KitabYurdu.az

1. Nəzarət əsasında keyfiyyətin təmin olunması.
2. İstehsal heyətinin idarə edilməsi vasitəsilə.
3. Yeni növ məhsullar istehsalı vasitəsilə keyfiyyətin təmin olunması.
4. Əmək haqqına görə əmək məhsuldarlığının yüksək inkişafı nəticəsində məhsulun maya dəyərinin aşağı salınması.
5. İqtisadiyyatın inkişafında sahibkarlığın aktivliyini mükafatlandırmaqla onların mülkiyyətləri üzərində sərt nəzarət qoyulmaması. Belə modelin fəaliyyəti üçün əhalinin yüksək özünü dərk etmə səviyyəsi olmalıdır. Hər bir yapon millətin mənafeyini, ölkənin mənafeyini öz fərdi mənafeyindən yüksək tutur.

Elə buna görə də Yaponiya 50-ci illərə qədər iqtisadi cəhətdən geri qalan bir ölkə, hazırda dünya bazarında aparıcı yerlərdən birini tutur. (avtomobil, dəqiq cihazlar, radio cihazları, elektron cihazı, robotlaşdırma, kompyüterləşdirmə və s.)

İsveç modeli Yapon modelindən güclü sosial siyasəti ilə fərqlənir. Belə ki, bu modeldə əhalinin gəlirlərini bir növbərabərləşdirməyə çalışırlar. Bu milli gəlir yenidən bölüşdürülməsi yolu ilə həyata keçirilir.

Bu maddi və qeyri istehsal sahələrində yüksək ixtisaslı və keyfiyyətli kadrların təkrar istehsalını yüksəldir.

Dünya bazarında rəqabətə dözmək üçün ölkədə yüksək keyfiyyətli məhsul istehsal edilir.



downloaded from KitabYurdu.az

İsveçdə belə modelin fəaliyyət göstərməsinin əsasını ölkənin iqtisadi potensialı təşkil edir. Hazırda İsveçdə bu modelin fəaliyyəti müəyyən qədər zəifləməyə başlamışdır. Belə ki, milli gəlirin az təminatlılar üzrə yenidən bölüşdürülməsi, müəyyən qədər əhalinin bir qrupunda arxayınçılıq yaratmağa başlamışdır. Nəticədə məhsuldarlığın aşağı düşməsi, ölkənin iqtisadi vəziyyətinin pisləşməsi baş verməyə başlamışdır.

İqtisadiyyatın inkişafının «Amerika modeli»-sahibkarlığın gücləndirilməsinə onların daha da həvəsləndirilməsinə əsaslanır. Onlara geniş imkanlar verilməklə, sahibkarlığın aktivliyi artırılır.

Aztəminatlı əhalinin sosial gərginliyinin azaldılması üçün milli gəlirin müəyyən hissəsinin yenidən bölüşdürülməsi formasından istifadə olunur. Yəni sosial ayırmalar vasitəsilə, həmkarlar təşkilatları tədbirləri ilə əhalinin aztəminatlı hissəsinin güzəranı yaxşılaşdırılır.

Amerika modelində əhalinin «sosial ədalət» «sosial bərabərlik» - prinsipi ümumiyyətlə nəzərdə tutulmur.

Bu model millətin sosial-mədəni xüsusiyyətinə əsaslanır, əhalini kütləvi şəkildə «şəxsi iş» açmasına ruhlandırır. Bu isə ümumi formada ölkənin iqtisadi yüksəlişinə səbəb olur.

İqtisadi inkişafın tənzimlənməsinin Türkiyə variantı sərt bazar qanunlarına əsaslanaraq sahibkarlığa geniş yol verilməsini üstün tutur.



downloaded from KitabYurdu.az

T.Ozalın iqtisadi modeli «sosial ədalət» prinsipini rədd edir. Məhz buna görə də müxalifət həmin modeli «qeyri humanistlikdə» təqsirləndirir.

T.Ozalın iqtisadi modelinin əsas şərtləri bunlardır:

1. Azad bazar iqtisadiyyatının genişləndirilməsi.
2. Dövlətin iqtisadiyyatı müdaxiləsinin minimumlaşdırılması.
3. Modelin nəzəri əsasını monetarizm təşkil edir.
4. Dövlət mülkiyyətində əsas strateji sahələr saxlanılır və inkişaf etdirilir.
5. Geri qalmış rayonlarda yeni istehsal sahələri yaradılır.
6. Xüsusi bölmənin inkişafı genişləndirilir.
7. Planlaşdırma sistemi qəbul edilir.
8. «Qapalı iqtisadiyyatı» açıq iqtisadiyyatla əvəz edir, idxal-ixrac əməliyyatlarını genişləndirir.
9. Mzafi xərclərin azaldılmasını nəzərdə tutur.

Almaniyanın sosial-bazar iqtisadiyyatı modeli-Hitler dövrünün konsernlərinin ləğv edilməsinə əsaslanır. Kiçik, orta müəssisələrin və fermer təsərrüfatının inkişafı genişləndirilir.

Cənubi Koreya modeli-Yapon modelinə yaxındır. O, ölkə əhalisinin psixoloji həyat tərzinə, yüksək əməksevərliyə əsaslanır. Hər bir şəxs əməksevərliyi ilə fəxr edir. Koreya modelində dövləin iqtisadiyyatda iştirakına xüsusi yer verilir. Bu modellərin bir-birindən prinsipial fərqi vardır. Onların hər biri ictimai istehsalın inkişafının spesifik yolunu əks etdirir.



downloaded from KitabYurdu.az

İqtisadiyyatın dövlət tənzimlənməsində Çin xalq respublikasında aparılan islahatların təkamül yolu daha maraqlıdır. İqtisadi islahat keçirmək üçün ÇXR təkamül yolunu seçmişdir. ÇXR-da keçirilən iqtisadi islahatın əsasında planla-bazarın əlaqələndirilməsi ideyası durmuşdur. Belə əlaqələndirmə məhsuldarlığın yüksəldilməsini stimullaşdırmalı və xalq təsərrüfatının yüksək inkişafına səbəb olmalı idi. Bununla belə hələ ÇXR-da bu iki amilin plan-bazar birliyinin səmərəli əlaqələndirilməsi tapılmamışdır.

ÇXR-da 1992-ci ildən başlayaraq dövlət tənzimlənməsinin rolu indiqativ planlaşdırma səviyyəsinə endirilmişdir. ÇXR-da iqtisadi islahatın cərrahiyyə yolu ilə yox, mövcud idarəetmə mexanizminin təkmilləşdirilməsi istiqaməti seçilmişdir. Halbuki Rusiya və Şərqi Avropa ölkələrində bu prosesə daha ciddi yanaşılmışqdır. ÇXR-da əmtəə bazarının genişlənmiş və bununla da ilkin kapital yığımı başlamışdır. 1990-cı ildən təxminən istehsal və reallaşdırmanın 50 faizi qeyri dövlət müəssisələri tərəfindən həyata keçirilmişdir.

Əmtəə axınının əsasən əmtəə birjaların tərəfindən aparılması genişlənmişdir. Bütün bunların hamısı ilə yanaşı, istər dövlətdən, istərsə də bələdiyyə orqanlarından daxil olan direktivlər xalq təsərrüfatının inkişafının əsas istiqamətlərini müəyyən edirdi. Bu onunla əlaqədar idi ki, Çin islahatçılarının fikrincə istehsal vasitələri üzərində əsasən dövlət mülkiyyəti hakim olmalıdır. Xüsusi mülkiyyət bazar iqtisadiyyatı şəraitində dövlət mülkiyyətini tamamlamalıdır. 1992-ci ildən qarışıq mülkiyyət forması yaradılması



downloaded from KitabYurdu.az

nəzərdə tutuldu ki, yenə də dövlət mülkiyyətinin üstünlüyü qeyd olunurdu. Belə bir məqsədlə özəlləşdirmə nəzərdə tutulsa da siyasi hakimiyyət bu imkanın genişləndirilməsindən çəkinirdi. Çünki dövlət müəssisələrinin özəlləşdirilməsi, onların hakimiyyət rolunu azaldır. Özəlləşdirmə yalnız kiçik müəssisələri əhatə edir. Bunlara baxmayaraq ÇXR-da dövlət mülkiyyətinin xüsusi çəkisi azalmağa meyllidir. Əgər 1980-ci ildə ÇXR-da dövlət mülkiyyətinin xüsusi çəkisi 76 faiz idisə, 1991-ci ildə bu 55 faiz olmuşdur. 1991-ci ildə ümumi ticarət dövriyyəsinin 60 faizi xüsusi bölmənin, 30 faizi kollektivlərin, 10 faizi isə xarici kapitalın payına düşmüşdür.

Çin iqtisadiyyatının hazırda əsas problemi dövlət sektorunun effektivliyinin aşağı olmasıdır, müəssisələrin 30 faizi xroniki olaraq rentabelsizdir ki, onlar da dövlət subsidiyaları əsasında saxlanılır. Halbuki Çində antiinhisar qanunları mövcuddur. Lakin dövlət rentabelsiz müəssisələri ləğv etməyə tələsmir. Halbuki rentabelsiz müəssisələrin səhmləşdirilməsi bu yolun çıxış nöqtəsi ola bilər.

ÇXR-da kənd təsərrüfatında iqtisadi islahat torpağın ailə icarəsinə verilməsi ilə bağlanmışdır. Kolxoz sistemi saxlanılmaq şərti ilə. Torpaq uzun müddətə icarəyə verilir, dövlət ancaq müəyyən məhsullar üzrə məcburi tapşırıqların həyata keçirilməsini tələb edir. Qalan kənd təsərrüfatı məhsulları sərbəst bazarda reallaşdırılır.

ÇXR-da islahatın aparılması aşağıdakı qaydada həyata keçirilmişdir.

Dövlət üç səviyyəli qiymət sistemindən istifadə edir:

1. Qeyd olunmuş dövlət qiyməti.



downloaded from KitabYurdu.az

2. Sürüşkən qiymət.
3. Bazar qiyməti.

Qiymət islahatının strategiyası belə nəzərdə tutulmuşdur ki, qeyd olunmuş qiymətlər get-gedə azalmalı, bazar qiymətləri çoxalmalıdır. Məsələn, 1979-1987-ci illərdə qiymətlərin 50 faizi, 1987-1992-ci illərdə isə 30 faizi liberallaşmışdır.

1993-cü ildən taxıl üçün pərakəndə qiymətlər buraxılmış, qida məhsullarına kartoçka sistemi ləğv edilmişdir. Gələcəkdə dövlətin qiymət tənzimlənməsindən tamamilə əl çəkməsi nəzərdə tutulur.

Bunlarla yanaşı ÇXR-da islahatın ziddiyyətləri də vardır. Bu ziddiyyətlərdən biri mövcud olan iki sistemdir. Planlı sistem və bazar sistemidir ki, bir-birlərini inkar edirlər. Gedən planlı idarəetmə və onun yerinə gələn azad rəqabətli bazar, bir-birlərini tamamlayaraq, bir-birinə maneçilik törədirlər. Köhnə idarəetmə forması öz hakim mövqeyini saxlamağa çalışaraq bazar iqtisadiyyatının genişlənməsinə imkan vermir.

İqtisadiyyatın keçid xarakteri özündə direktiv planlaşdırma və bazar iqtisadiyyatı elementlərini əks etdirir. Onların arasında olan konflikt sahələrarası disproporsiyalara gətirib çaxardır, inflyasiyanın güclənməsinə səbəb olur.

ÇXR-da 1979-cu ildən keçirilən islahat nəticəsində iqtisadiyyatın iki sektoru modeli yaranmışdır. İstehlak məhsulları bazarının tənzimlənməsi əsasında bazar mexanizmi durmağa başladı. Hər iki bazarda bazar mexanizmi ilə inzibati idarəetmə mexanizmi fəaliyyət göstərməyə başladı.



downloaded from KitabYurdu.az

ÇXR-da təkamül yolu ilə islahatların aparılması belə nəticəyə gətirib çıxardı ki, dövlət o islahatları aparmağa başlasın və dövlət nomenklaturası (vəzifəli şəxslər) həmin islahatlara uyğunlaşa bilsinlər. Bu isə islahatın effektivliyini artırmaq üçün sosial sabitliyin qurban verilməsini tələb edir. Bununla belə ÇXR-da 1986, 1989, 1992-ci illərdə keçirilən islahatlar onu sübut etdi ki, geriyə yol yoxdur. İslahat özü üçün müəyyən sosial baza yaratdı və onun tərəfdarları get-gedə çoxalmaqdadır.

Bazar iqtisadiyyatı yolunu seçmiş Azərbaycan Respublikası iqtisadi inkişafın hansı modelini seçməsi mübahisəli, ziddiyyətlidir. Buna görə də respublikanın bazar iqtisadiyyatına keçid ərəfəsində, iqtisadi inkişafın hansı yolunun seçilməsinin mühüm rolu vardır.

İqtisadi inkişafın «Yapon» modelinin seçilməsi məqsədəuyğun ola bilər. Lakin, həmin modelin fəaliyyəti üçün milli təfəkkür inkişaf etməli, iqtisadi dərketmə güclənməlidir. Buna isə bir il ərzində nail olmaq olmaz. Birdən-birə inzibati, indiqativ üsullarla idarə olunan ölkəni, sərt bazar iqtisadiyyatı qanunları pəncəsinə atmaq olmaz.

Buna görə də keçid dövrü üçün İsveç modelinin seçilməsi müəyyən qədər maraqlıdır.

Çünki, birdən-birə «sosial ədaləti» atıb vərdişsiz əhalini bazar pəncəsinə salmaq olmaz. Burada kompromis variant seçib həm bazar münasibətlərinə keçid xüsusiyyətlərinə, həm də sosial ədalətin qorunmasına çalışmalıdır. Bu baxımdan ÇXR-nin iqtisadi inkişaf yolu respublikamız üçün daha münasib ola bilər. Bazar münasibətlərinin bərqərar olması üçün əsas məsələlərdən biri



downloaded from KitabYurdu.az

mülkiyyətin dövlətsizləşdirilməsidir və dövlət inhisarının ləğv edilməsidir.

İkinci bir məsələ qiymətlərin liberallaşdırılmasıdır. Lakin qiymət üzərində nəzarət saxlanmalıqla yanaşı bir sıra mühüm məhsullara dövlət tərəfindən qiymət müəyyən edilməlidir.

Üçüncü bir tərəfdən dövlət sifarişi saxlanmalıdır, çünki cəmiyyətin xalis məhsulu hesablanarkən o iştirak edir.

$$XMM=İ_k+D_s+İ+X \text{ (xalis ixrac)}$$

Burada:

$İ_k$-istehlakı

$D_s$-dövlət sifarişini

İ- investisiyanı

X-xalis ixracatı göstərir.

Dövlət sifarişlərinin yerləşdirilməsi müəssisələr üçün müxtəlif səviyyələrdə olur. Sahibkarlıqla məşğul olanlar üçün, dövlət sifarişi zəmanət (qarant) təşkil edir. Dövlət sifarişi vasitəsilə dövlət qiymət üzərində nəzarət aparır.

Dördüncü bir məsələ dünya miqyasında qəbul olunmuş formada planlaşdırma sistemi və balanslaşdırma sistemi qurulmalıdır. Lakin onlar direktiv xarakter yox, informatik xarakter daşımalı məcburi olmamalıdır. Bu zaman dövlət planlaşdırması onun aktiv struktur siyasətində əsaslanmalı (prioritet) müəyyənedici sahələri müəyyən etməlidir.



downloaded from KitabYurdu.az

Bütün bu qeyd edilənlərə əsaslanaraq növbəti fəsillərdə bazar iqtisadiyyatına keçid problemlərinin daha geniş şərhinə nəzər salınacaqdır.



downloaded from KitabYurdu.az

## *FƏSİL V. BAZAR ŞƏRAİTİNDƏ MÜLKİYYƏT MÜNASİBƏTLƏRİNİN TƏNZİMLƏNMƏSİ.*

### *1. MÜLKİYYƏTİN İQTİSADİ VƏ HÜQUQİ MƏZMUNU*.

Mülkiyyət subyektiv-obyektiv (insan-əşya-nemət), habelə subyektiv (insan-insan) münasibətləridir. Bu münasibətlərin nəticəsində iqtisadi resursların, həyati nemətlərin və əşyaların mənimsənilməsi, zəbt edilməsi prosesi baş verir. Mənimsənilmə-bu və ya digər iqtisadi resursların, əşyaların, maddi nemətlərin, ictimai münasibətlərin obyektinə çevrilməsi imkanıdır. Zəbt etmə-həmin iqtisadi resursların ictimai münasibətlərin subyektinə çevrilməsi imkansızlığıdır. İqtisadi resursların həyati fəaliyyət mülkiyyətinə çevrilməsi faktiki olaraq onların xüsusi təkrar istehsal məqsədi üçün istifadə olunmasıdır. Bu zaman həmin iqtisadi münasibətlərin subyekti ictimaiyyətdə və ictimaiyyətdə yerinə yetirdikləri funksiyaya uyğun fəaliyyəti sayılır. Bu o, deməkdir ki, muzdlu fəhlələr, sahibkarlar, sənətkarlar, dövlət qulluqçuları, baknirlər və s. mülkiyyətin formasından asılı olmayaraq, gündəlik həyatda yerinə yetirdikləri fəaliyyətlərini davam etdirirlər.

Adətən mülkiyyət münasibətlərinin məzmununu hüquqi və iqtisadi hissələrə ayırırlar. Hüquqi münasibətlər öz əksini mülki hüquq anlayışında ifadə edir.

Cəmiyyətin inkişaf tarixində mülki hüquq anlayışı ilk dəfə Roma hüququnda öz əksini tapmış Yustiana Kodeksində (VI əsr) sistemləşdirilmişdir. Bu Kodeks əsasında sahib olmaq, istifadə etmək, sərəncam vermək hüquqları müəyyən olunmuşdur.



downloaded from KitabYurdu.az

XIX əsrin əvvəllərində Roma hüquq normaları Napoleon Kodeksinin əsasını (Fransa mülki hüququ 1804-cü il) təşkil etmişdir. Həmin kodeks müasir mülki hüququn metodoloji əsasında durur. Beləliklə, müasir sivilizasiyanın başlanmasının ilk dövrlərində mülkiyyət münasibətlərini reqlamentləşdirən hüquqi normalar hazırda da cəmiyyətə xidmət etməkdədirlər. Təbiidir ki, bu müddət ərzində hüquqi normalar və aktlar transformasiyaya uğramışlar və detallaşdırılmışlar. Nəticədə müxtəlif sayda səlahiyyətlər toplusu yaranmışdır və onların qruplaşdırılması zərurəti meydana çıxmışdır. Tədqiqatçı hüquqşünaslar belə qruplaşmanı məsləhət görmüşlər:

1. Sahib olmaq hüququ
2. İstifadə hüququ
3. İdarəetmə hüququ (mülki obyekt necə istifadə olunmalıdır)
4. Mənfəət hüququ (mülkiyyətçinin əmlakından özü və yaxud başqasının istifadəsi nəticəsində yaranan gəlirin alınması)
5. Kapital, əşya və ya müəyyən dəyərin üzərində müstəsna hüquq (zəbt edilmə, istehlak etmə, məhv etmə)
6. Təhlükəsizlik hüququ-müsadirəyə qarşı immunitent.
7. Vəsiyyət və vərəsəlik hüququ.
8. Müddətsizlik hüququ.
9. Zərərli istifadənin qadağan edilməsi hüququ.
10. Cərimə məsuliyyəti hüququ.
11. Müddət qurtardıqdan sonra sahiblik hüququnun başqasına verilməsi.



downloaded from KitabYurdu.az

Beləliklə, mülkiyyət finoniminin hüquqi interpretasiyasının ümumi əlamətləri yuxarıda qeyd olunanlarla izah edilir.

Qeyd etmək lazımdır ki, mülkiyyət hüququ, mülkiyyətin iqtisadi məzmununun tam əksi deyildir. Təbiidir ki, mülkiyyət hüququ real iqtisadi münasibət və prosesləri müəyyən qədər əks etdirir. Lakin am yox. Buna görə də mülkiyyətin hüquqi və iqtisadi məzmunlarındakı fərqlərə varmaq lazımdır. Çünki, mülkiyyətin iqtisadi məzmunu özünəməxsus qanunauyğunluqlarla hərəkət edir.

Mülkiyyət hüququnun subyektləri hüquqi və fiziki şəxslərdir. Onlar qanuna əsaslanaraq öz üzərlərinə hüquqi məsuliyyət götürürlər. İqtisadi münasibətlərdə mülkiyyətin subyekti ilə yanaşı mülkiyyət hüquqi subyekti bütün digər subyektlərlə birlikdə çıxış edir. (iqtisadi, sosial, siyasi subyektlər). Məsələn konkret sahənin işçiləri hüquqi şəxs olmadan mülkiyyət hüquqi subyekti kimi, iş gününün azaldılması, əmək haqqının artırılması tələblərini irəli sürə bilərlər, bununla da onlar iqtisadi münasibətlərin subyekti kimi çıxış etmiş olurlar. Bununla da onlar cəmiyyətin istehsal etdiyi mili gəlirdən daha çox pay almaq üçün mövcud əldə etmək-zəbt etmək münasibətlərinə yenidən baxılmasını tələb etmiş olurlar. Başqa sözlə demiş olsaq, onlar digər iqtisadi münasibətlərin subyektlərinin (sahibkarların, səhmdar cəmiyyətlərinin, müəllim və həkimlərin və s.) paylarından müəyyən hissənin öz xeyirlərinə zəbt olunmasına nail olmaq istəyirlər. Analoji olaraq güzəştli vergiya cəlb olunma, kreditləşmə və s. öz mahiyyəti etibarı ilə birinin hesabına digərinin xeyri üçün iqtisadi münasibətlərinin dəyişdirilməsindən başqa bir şey



downloaded from KitabYurdu.az

deyildir. Yəni ixtisas (müəllim, həkim, elektrik, tikintiçi və s.) , demoqrafik (kişilər, qadınlar, təqaüdçülər, işsizlər, tələbələr, şagirdlər), ərazi (bu və ya digər regionun əhalisi) və s. bu kimi ictimai təşkilatlar, mülkiyyət hüququnun subyekti-hüquqi şəxs olmadan, mənimsəmə və zəbt etmənin real iqtisadi münasibətlərində iştirak edir və mülkiyyət münasibətlərinin tam hüquqlu subyektləri sayılırlar.

Əvvəldə qeyd etdiyimiz kimi, mülkiyyət hüququ hər şeydən əvvəl subyektiv-obyektiv münasibətlərdir. Yəni subyektin hər hansı obyektə (əşya, informasiya, kapital, maddi nemət və s.) münasibətidir. Bunların hamısı bazarın obyektləri olub, bu və ya digər dərəcədə subyektin onlar üzərində mülkiyyət hüququnu etibar edir. Mülkiyyətin iqtisadi məzmunu subyekt-subyekt (insan-insan) münasibətləri ilə ifadə olunur. Bu istehsal, bölgü, mübadilə, istehlak münasibətlərini əks etdirir və subyektin ictimai resursların mənimsənilmə-zəbt etmə prosesini əhatə edir. Mülkiyyət çox tərəfli hadisə olub, özündə iqtisadi və hüquqi tərəflərlə yanaşı tarixi, ekoloji, siyasi, sosial, mənəvi, psixoloji və s. tərəfləri də əks etdirir.

Mülkiyyət münasibətlərinin tarixi məzmunu, müəyyən vaxt kəsiyində və məkanda yaşayan nəsillər arasındakı iqtisadi münasibətləri əks etdirir. Məsələn, yaşadığımız 70 illik vaxt kəsiyində mülkiyyətə münasibət ictimai xarakterə malik idi. Müasir bazar iqtisadiyyatı şəraitində mülkiyyətə münasibətləri ictimai xarakter çərçivəsindən çıxıb, xüsusi mülkiyyət münasibətlərinin formalaşmasında zərurətə çesvrilmişdir.



downloaded from KitabYurdu.az

## *2. MÜLKİYYƏT FORMALARI VƏ ONLARIN QARŞILIQLI ƏLAQƏLƏRİ.*

Hazırda mülkiyyət münasibətlərində, onun formalarında ciddi yeniləşmə prosesi baş verir. Bu prosesdə mülkiyyət formalarını başa düşmək və bunlara əsaslanan təsərrüfatçılığın mahiyyətini araşdırmaq nəzəri və praktiki əhəmiyyətə malikdir.

Azərbaycan Elmlər Akademiyasının müxbir üzvi, professor Teymur Vəliyevin fikri belədir ki, hər bir mülkiyyət formasında iki cəhətə xüsusi fikir verilməlidir. Birincisi, mülkiyyətin əsasını təşkil edən obyektin, istehlak dəyərinin, əmək və təbiət məhsullarının, ümumiyyətlə, sərvətin kimlər tərəfindən mənimsənilməsidir, yəni onun real sahibi, yaxud sahibləri kimlərdir. Bu mülkiyyət formalarını fərqləndirməyin çox mühüm meyardır. İkincisi, hər bir mülkiyyət formasının kimin və kimlərin iqtisadi mənafeyinə xidmət etməsi məsələsidir.

Azərbaycan Respublikasında mülkiyyət haqqında qanunda mülkiyyətin əsas formaları və mülkiyyət hüququnun müdafiəsi problemləri aydınlaşdırılmışdır.

Azərbaycan Respublikasının iqtisadi müstəqilliyinin əsasları haqqında Azərbaycan Respublikasının Konstitusiyası Qanununun ikinci bölməsinin üçüncü maddəsində yazılır6 «Azərbaycan Respublikasında mülkiyətin aşağıdakı formaları bərabərhüquqlu hesab edilir və qanunla qorunur.»



downloaded from KitabYurdu.az

Müasir dövrdə Azərbaycan Respublikasında mülkiyyətin formalarını professor T. Vəliyev belə təsnifləşdirilməsini məqsədəuyğun hesab etmişdir.

1. ***Xırda əmtəə istehsalı ilə səciyyələnən mülkiyyət forması***. Bu mülkiyyət formasında muzdlu əməkdən əsasən istifadə edilmir. Buraya həyatyanı təsərrüfatlar, sənətkarların obyektləri, xırda xidmət müəssisələri və başqaları daxildir. Bu mülkiyyət formasına aid olan təsərrüfat subyektləri hüquqi şəxs deyil, fiziki şəxs kimi fəaliyyət göstərilər.

2. ***Xüsusi mülkiyyət forması***. Bu mülkiyyət formasının əsas cəhəti ondan ibarətdir ki, fərdi sahibkar əsaslı vəsait sərf etməklə kiçik. Orta, iri tipli müəssisə təşkil edir.

Muzdlu əmək tətbiq edilir və kütləvi surətdə məhsul buraxılır.

Əldə edilən gəlir, mənfəət fərdi sahibkara məxsusdur. Onun iqtisadi mənafeyi, istehsalın nəticəsinin mənimsənilməsi hakim mövqe tutur.

3. ***Dövlət mülkiyyət forması***. Burada söhbət keçmiş Sovetlər birliyində ümumxalq mülkiyyəti altında iflasa uğramış dövlət mülkiyyətindən getmir, azad iqtisadiyyat şəraitində formalaşan dövlət mülkiyyətindən gedir.

Adətən dövlət mülkiyyətində xüsusi aparıcı müəsisələr, sahələr saxlanılır. Bunlar hər bir ölkənin öz mənafeyi baxımı ilə müəyyən edilir. Habelə xarici ölkələrin təcrübəsinə əsaslanıb bunu da qeyd etmək lazımdır ki, elə istehsal sahələri və müəssisələr vardır ki, ölkə üçün o vacibdir. Lakin onların fəaliyyəti üçün çoxlu miqdarda



downloaded from KitabYurdu.az

kapital lazımdır. Xüsusi sahibkarlar isə əsasən elə müəssisələri təşkil etmək istəmirlər. Dövlət belə sahə və müəssisələrin təşkilini öz üzərinə götürməyə məcbur olur.

Dövlət müəssisələrindən əldə edilən gəlir dövlət büdcəsinə daxil olur. İstehsal vasitələri dövlət mülkiyyəti olur, buna görə də istehsalın nəticəsində, onun iqtisadi mənafeləri güdülür. İnkişaf etmiş ölkələrin müasir nümunəsi göstərir ki, dövlət mülkiyyətində əsas istehsal fondlarının xüsusi çəkisi orta hesabla 5-30% arasındadır. Dövlət mülkiyyətinə aid istehsal müəssisələri hüquqi şəxslərdir.

4. ***Kooperativ mülkiyyət forması.*** Buraya həm maddi, həm də qeyri-maddi dairələrə aid hər cür kooperativlər daxildir. Kooperativlər könüllü birləşmiş üzvlərin material və pul vasitələri hesabına təşkil olunur.

Kooperativlərdə istehsal vasitələrindən irqə istifadə olunması və mənimsənilməsi həyata keçirilir. Onlar hüquqi şəxslərdir, öz nizamnamələri əsasında fəaliyyət göstərirlər.

5.***Səhmdar cəmiyyətin mülkiyyət forması***. Bu mülkiyyətə səhmlər yolu ilə təşkil olunmuş müəssisələr daxildir. Səhmlərin satılması açıq, həm də qapalı aparıla bilər. Səhmlər hamıya satılırsa bu açıq, yalnız onları yaradanlara satılırsa qapalı qayda kimi qiymətləndirilir.

6. ***Bələdiyyə mülkiyyət forması***. Burada əsas səciyyəvi hal odur ki, mülkiyyətin obyektləri şəhərin, rayonun, kəndin bələdiyyə idarəçiliyi tabeliyində olur.



downloaded from KitabYurdu.az

Bələdiyyə mülkiyyəti bir sıra dünya ölkələrində mövcuddur. Onlarda bu mülkiyyət təbii-tarixi inkişaf prosesində yaranıb. Həmin ölkələrdə bələdiyyə mülkiyyəti əsasən kommunal-mənzil, xidmət-məişət müəssisələrini və təşkilatlarını əhatə edir, bilavasitə istehsal xarakterli obyektlərə malik deyillər. İndi yeni Azərbaycan şəraitində belə bir mülkiyyət formasının yaranması zərurəti meydana çıxmışdır. Məhz ona görə də Azərbaycanın yeni kosntitusiyasında bələdiyyə mülkiyyətinin yaradılması nəzərdə tutulub. Bələdiyyə mülkiyyəti hüquqi şəxsdir.

7. ***Şəxsi və ya fərdi mülkiyyət forması.*** Buraya şəxsi yaşayış evləri, ev əşyaları və əmlakları, adamların pul vəsaitləri və qiymətli kağızları daxildir. Bu formaya eyni zamanda şəxsi istehlak üçün, bilavasitə ailənin tələbatı üçün istifadə edilən məhsullar da daxil edilə bilər.

8. ***Qarışıq mülkiyyət forması.*** Bu mülkiyyət forması onu yaradanların əmlaklarını könüllü birləşdirilməsi əsasında formalaşır. Burada xarici hüquqi şəxslər də iştirak edə bilərlər. İdarəetmə və qərarların qəbulu kollegial qaydada həyata keçirilir. Digər vəzifələr də könüllü mərkəzləşmişüsulla həll edilir. Bu cür mülkiyyət formasının obyektləri konsern, təsərrüfat cəmiyyətləri, konsorsium kimi birləşmələr adı ilə fəaliyyət göstərirlər. Bu mülkiyyət formaları yeni Azərbaycan gerçəkliyində fəaliyyət göstərir və ya göstərməli olacaqdır.

Yuxarıda göstərilən mylkiyyət formalarının ölkələrin hamısında olması vacib deyil. Bəzi ölkələrdə dövlətin özünəməxsus



downloaded from KitabYurdu.az

xüsusiyyətlərindən asılı olaraq müxtəlif mülkiyyət formaları fəaliyyət göstərə bilər.

Məlumdur ki, Azərbacyn Respublikası siyasi-iqtisadi müstəqillik əldə etdikdən sonra, iqtisadi inkişafın bazar istiqamətini seçmişdir. Uzun müddət inzibati amiranəlik sistemində, fəaliyyət göstərən iqtisadiyyatın birdən-birə bazar iqtisadiyyatına keçməsi qeyri-mümkündür. Bu proses uzunmüddətlidir və vaxt tələb edir. Bu vaxt keçid dövrüdür. Keçid dövrünün başlanmasının ilkin momenti iqtisadi ialahatların aparılmasıdır və ilk növbədə mülkiyyətmünasibətləri yenidən formalaşmalıdır. Bu bazar iqtisadiyyatının tələbidir.

Məlumdur ki, bazar fəaliyyətinin mövcudluğu bir tərəfdən istehsalçı və istehlakçının iqtisadi sərbəstliyi, digər tərəfdən qiymət rəqabətinin qarşılıqlı münasibəti əsasında mümkündür. Bu şərtlər istehsa vasitələri üzərində dövlət mülkiyyətinin mövcudluğu şəraitində real yerinə yetirilə bilməz. Buna görə də bazar iqtisadiyyatına keçid obyektiv konkret tələb irəli sürür.

**Mülkiyyətin dövlətsizləşdirilməsi və özəlləşdirilməsi.**

Mülkiyyətin dövlətsizləşdirilməsi başqa səbəblərlə də əlaqədardır. Çünki, cəmiyyətin 4 əsas həyat fəaliyyəti, mənəvi, istehsal-təsərrüfat, sosial-siyasi, ictimai-idarəetmə onlara məxsus olan daxili funksiyaları yerinə yetirməlidirlər. Mənəvi sfera-əxlaqi, etnik dəyərlərin keyfiyyətcə təkrarını formalaşdırır.

İstehsal-təsərrüfat fəaliyyətinin əsas funksiyası cəmiyyətin və onun ayrılıqda hər bir üzvünün maddi tələbatını təmin etməkdir.



downloaded from KitabYurdu.az

Sosial-siyasi sferanın əsas funksiyası isə cəmiyyət üzvlərinin birləşməsini, möhkəmlənməsini, lobbilərin yaradılmasını təmin etməkdir.

İctimai-idarəetmə, istehsal-təsərrüfat, sosial-siyasi və ictimai-idarəetmə fəaliyyətlərinin hər birinin maraqlarının balanslaşdırılmasının zəmanətçisi kimi çıxış edir.

Bir sözlə cəmiyyətin həyati fəaliyyətinin bu sferaları arasında əmək bölgüsü mövcuddur.

Əvvəldə qeyd etdiyimiz kimi bazar iqt isadiyyatı mülkiyyət münasibətlərinin yeni mərhələdə formalaşmasını tələb edir və bu sahədə ilk addım dövlət mülkiyyətinin bir hissəsinin xüsusi mülkiyyətə çevrilməsidir ki, bu da özəlləşdirmə vasitəsilə həyata keçirilir.

Azərbaycan Respublikasında 07.1993-cü ildə «Dövlət mülkiyyətinin ögəlləşdirilməsi haqqında Azərbaycan Respublikasının qanunu» qəbul edilmişdir.

Həmin qanuna müvafiq olaraq dövlət mülkiyyətinin müəyyən hissəsinin özəlləşdirilməsi və özəlləşdirmədən alınan vəsaitin büdcəyə daxil olması nəzərdə tutulmuşdur.



downloaded from KitabYurdu.az

[1]Cədvəl 3.

| | 1995 | 2000 | 2001 | 2002 |
|---|---|---|---|---|
| Özəlləşdirmədən əldə edilən vəsait, onlardan | 436,5 | 38181 | 93621 | 100362 |
| Birjada əmək kollektivlərinə satış forması ilə | 436,5 | 17411 | 21139 | 29466 |
| İcarəyə götürülmüş əmlakın satış forması ilə | | 8020 | 19858 | 29688 |
| Açıq səhmdar cəmiyyətlərinin səhmlərinin satışı ilə | | 8752 | 39300 | 32679 |
| Digər formalar | | 1364 | 517 | 737 |

Göründüyü kimi, özəlləşdirmənin birinci mərhələsində dövlət büdcəsinə 436,5 mln. manat vəsait daxil olmuşdursa, 2002-ci ildə bu vəsait 100362 mln. manat təşkil etmişdir. Başqa bir tərəfdən isə özəlləşdirmə digər sahələri də əhatə etmişdir. Yəni əmək kollektivlərinə satış, icarəyə götürülmüş əmlakın satışı, açıq səhmdar cəmiyyətlərinin səhmlərinin satışını da əhatə etmişdir.

Qeyd etdiyimiz kimi cəmiyyətin həyati sahələri arasında ictimai əmək bölgüsü mövcuddur və onlar fərqli-fərqli funksiyaları yerinə yetirirlər. Onlar arasındakı bu əmək bölgüsü pozulduğu halda bir sıra ziddiyyətli hallar meydana çıxır. Yəni onlar arasında mənafe toqquşmaları başlanır. Belə halda ümumiyyətlə həmin həyatı

[1] Az.st. rəqəm. 2003 səh. 105



downloaded from KitabYurdu.az

fəaliyyətlərin bütünlükdə dövlətsizləşdirilməsi baş verə bilər. Hətta onların siyasiləşməsi imkanları da genişlənə bilər ki, bu da son nəticədə totalitarizmə gətirib çıxarda bilər. Və yaxud mənəvi, sosial, siyasi, milli dəyərlərin itkisi hesabına «iqtisadiyyatlaşdırma» prosesi də baş verə bilər. Lakin nəzərdən qaçırmaq lazım deyil ki, cəmiyyətin inkişafı təkcə iqtisadiyyatdan ibarət deyildir. Onun sivil qaydada inkişaf etməsi qeyd olunan sferaların fəaliyyətindən bir başa asılıdır. Beləliklə, cəmiyyətin həyati fəaliyyətinin hər bir sferası onu məxsus öz funksiyasını yerinə yetirməlidir.

Yəni hər bir ixtisas sahibi öz yerində olmalı və öz işini görməlidir. Dövlət isə öz idarəçilik funksiyasını həyata keçirməlidir.

Çünki cəmiyyətin maddi tələbatını istehsal-təsərrüfat funksiyasından yaxşı yerinə yetirən ikinci bir sfera ola bilməz. Məhz buna görə də mülkiyyət müxtəlifliyi mövcud olmalıdır. Buna əsasən də mülkiyyətin dövlətsizləşdirilməsi və özəlləşdirilməsi bazar fəaliyyətinin zəruri tələbindən irəli gəlir.

Bununla belə dövlət mülkiyyətçi mövqeyini elə səviyyədə saxlamalıdır ki, ona məxsus hüquqi və iqtisadi vəzifələri effektli reallaşdıra bilsin.



downloaded from KitabYurdu.az

## *3. MÜLKİYYƏT MÜNASİBƏTLƏRİNİN DÖVLƏT TƏNZİMLƏNMƏSİ.*

Mülkiyyət münasibətlərinin iqtisadi və hüquqi istiqamətinin dəyişilməsinin təhlilində üç əsas mühüm məsələyə diqqət yetirmək lazımdır. Birincisi, xüsusi mülkiyyət yarandığı dövrdən indiki dövrə qədər və indinin özündə də mütləq xarakter daşıya bilməz. İkincisi, mülkiyyət münasibətləri ümumi, bütövlükdə o, cümlədən xüsusi mülkiyyət formasında da dəyişkəndir. Öz xüsusiyyəti ilə dinamik xarakterdədir. Üçüncüsü, dövlətsizləşdirmənin əsası olan özəlləşdirmə ilə bahəm, xüsusi mülkiyyətin ictimailəşməsi təmayülündə nəzərə çarpır. Bu təmayül isə mülkiyyət münasibətlərinin demokratikləşməsi gətirib çıxardır.

Qeyd edək ki, hələ Roma hüququ dövründə, mülkiyyət hüququnun yeni formalaşması zamanı servitut institutu mövcud idi. (Servitut-antik feodal və kapitalist cəmiyyətində başqasının mal və mülkiyyətindən müəyyən dərəcədə istifadə etmək hüququ). Məsələn, hər hansı bir ərazidən keçmək hüququ, başqasının torpaq sahəsinə toxuna bilən tikintinin inşa edilməsi hüququ, bu və ya digər hüquqi aktların məhdudlaşdırılması, xüsusi mülkiyyətə mənsub olan ərazilərdə infrastruktur obyektlərinin yaradılmasına dövlətin hüququ və s.

ABŞ prezidenti T.Ruzvelt 1910-cu ildə yazmışdır ki, hər bir insanın şəxsi mülkiyyəti kollektiv hüquqa tabe olub, ictimai tələbatın tələb etdiyi dərəcədə tənzimlənir. Bu o deməkdir ki, mülkiyyət



downloaded from KitabYurdu.az

münasibətləri nəinki hüquqi məzmunca münasibətdir o, habelə mülkiyyətçinin vəzifəsidir.

N.A.Bordyayev yazmışdır ki, mülkiyyət öz təbiəti ilə mənəvi başlanğıcdır. O, maddi nemətlərin istehlakı ilə yanaşı, nəsildə, ailədə mənəvi həyatın varisliyini təmin edir. Mülkiyyətin başlanğıcı şəxsiyyətin metafizik təbiəti, zaman axınında müəyyən hadisəni yaratmaq, həyata keçirmək üçün daxili hüququ ilə əlaqədardır. Mülkiyyət insan şəxsiyyətinin təbii qüvvələrlə mübarizəsi şəraitində inkişaf edir. Azad insan təbii qüvvələrə qalib gələrək, onun üzərinə öz iradəsini qoyur və buradanda onun hüququ və məsuliyyəti doğur, zühur edir.

İctimai nemətin birinciliyi baxımından, bu obyektiv şərtə uyğun olaraq dövlət daima mülkiyyət münasibətlərini həyata keçirməlidir. Buna isə mülkiyyət hüququnun qanunauyğun aktları vasitəsilə nail olunur. Yuxarıda qeyd olunduğu kimi müasir sosial yönümlü bazar iqtisadiyyatında dövlət və bələdiyyə (obyektlərinin) mülkiyyətinin özəlləşdirilməsi obyekti şərtdir. O, ölkənin normativ-hüquqi aktları vasitəsilə təsbit edilir.

Bununla yanaşı, nə qədər ziddiyyətli səslənsə də, özəlləşdirmə təmayülünün hüquqi təsbit olunması, mülkiyyət münasibətlərinin milliləşdirilməsi ilə üzvi surətdə əksiklik təşkil edir. Bu qarşı durmanı məntiqi belə izah etmək olar.

Birincisi, özəlləşdirməni həyata keçirən dövlət və bələdiyyə strukturları səhərəsi günün ictimai tələbatının və iqtisadi halların bütün incəliklərini obyektiv olaraq nəzərə ala bilmirlər. İkincisi,



downloaded from KitabYurdu.az

özəlləşdirmənin gediş prosesində elə tələm-tələsik səhv qərarlar çıxardıla bilər ki, ölkənin milli maraqlarının ziddinə olusn.

Üçüncüsü, hər bir ixtiyari investor müəssisənin milliləşdirilməsi ehtimalı ilə bağlı öz kapitalını itirəcəyi riskini də nəzərə almalıdır.

Özəlləşdirmə prosesini reqlamentləşdirən aydın qanunçuluğun olmaması, daxili bazarda investorların fəaliyyət stimulunu azaldır. İlk baxışda milliləşdirməyə dövlətin suverenliyinin yaranması ilə bağlı hüquqi akt kimi baxmaq olar. Bu əsasda xüsusi mülkiyyət dövlət mülkiyyətinə çevrilir ki, müəyyən müddətə təmin olunmuş olsun. Lakin bu zaman milliləşdirmənin müəyyən prinsiplərə əməl olunmalıdır. Bu prinsiplər aşağıdakılardır:

a) ictimai marağın səviyyəsi necədir;

b) milliləşdirmənin müddətsizlik xarakteri;

v) prosesual zəmanətə əməl olunması;

q) mülkiyyət və digər zərərin ödənilməsi öhdəliyi.

Dövlət konpensasiyanın həcmin verilmə vaxtını və qaydasını müəyyən edir. Onun xaricə çıxarılması və vergiyə cəlb olunması imkanları müəyyənləşdirilir. Bir sıra Qərb ölkələrində bir qayda olaraq kompensasiya qiymətli kağızlar formasında 50 ilə ödənilmək şərtilə verilir.

Hüquqi hadisə kimi yox, iqtisadi mahiyyətcə milliləşdirmə xüsusi mülkiyyətin cəmiyyətin resurslarına çevrilməsi ilə məhdudlaşmır. Onun iqtisadi mahiyyətinə dövlət sektorunu genişləndirmək üçün həyata keçirilən bütün fəaliyyət növləri daxildir. Bu təcrid etməklə nəzarət paketinin bir hissəsinin və yaxud



downloaded from KitabYurdu.az

tam alınması (mərhələli milliləşdirmə), maliyyə, istehsal, təsərrüfat fəaliyyəti üzrə dövlət müəssisələrinin yaradılması və s. ola bilər.

Mülkiyyətin hüquqi tənzimlənməsinin dövlət tərəfindən həyata keçirilməsinin əsasları bunlardan ibarət olsada, onun sosial məzmunu da nəzərdən qaçırılmamalıdır. Belə ki, dövlət xüsusi mülkiyyətin üzərində müəyyən məhdudiyyətlər də qoya bilər. Məsələn, iş gününün həddinin müəyyən edilməsi, iş şəraiti, texniki təhlükəsizlik, ekoloji normalara riayət olunması, dünya standartları tələbinə uyğun keyfiyyətli məhsul istehsal edilməsi və s. istehlak istiqamətlərinin müəyyənləşdirilməsi. Bu qeyd olunanlar müxtəlif hüquqi normativ aktlarda təsbit olunurlar.



downloaded from KitabYurdu.az

## *FƏSİL VI. SAHİBKARLIQ FƏALİYYƏTİNİN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN ƏSASLARI.*

### *1. SAHİBKARLIQ ANLAYIŞI VƏ MAHİYYƏTİ.*

Ölkədə əhalinin həyatı təminatının normal səviyyəsinə nail olmaq üçün svil qanunlara əsaslanan sahibkarlıq fəaliyyəti formalaşdırılmalıdır. Çünki, sahibkar və sahibkarlıq bazar prosesinin hərəkətverici qüvvəsidir. Sahibkar-istehsalçı, istehsal prosesini sahibkarlıq gəlirinin alınmasına tabe edir, bu isə istehsalın inkişafı üçün yığımın mənbəyidir. Bunun üçün istehlakçı tələbinin bütün ölçülərini təmin edən məhsul istehsal edir. Xərcin hər manatı məhsulun müvəffəqiyyətlə satışına istiqamətlənir. Yəni xərc səviyyəsi ilə müəyyənləşdirilir ki, məhsulun qiyməti aşağı olsun bu isə öz növbəsində istehlakı tələbi yaratmağa xidmət etmiş olsun. Çünki, qiymətin aşağı səviyyəsi, məhsulun satışını artırır. Sahibkar məhsulunun xərcini digər yanakı əlavə xərclərdən təmizləyərək eyni zamanda keyfiyyətə diqqət yetirir ki, daha ucuz və çox məhsul sata bilsin. Başqa sözlə desək, sahibkar, bazar prosesinin və təkrar istehsalın effektivliyinin aparıcı qüvvəsidir. O, təklifin həcm və keyfiyyətini formalaşdırmaqla bahəm istehlak tələbi yaradır.

Bazar subyektlərinin əsas kütləsi alıcı və satıcılarda, nəyin haradan nreçəyə alınması və satılmaq haqqında məlumat olmur. Bu zaman sahibkar bazar mexanizminin aləti kimi çıxış edir. İrəlini görmə və əzmkarlığı sayəsində sahibkar bazarı təşkil edir və nəticədə gəlir götürür. O, kütlənin istehlak tələbini istiqamətləndirir və buna müqabil olaraq istehsalı təşkil edir. Mahiyyətcə sahibkar bazarın



downloaded from KitabYurdu.az

sektor və seqmentləri arasında o özünə əlverişli əlaqələr yaradır. Sahibkarın səyi nəticəsində alınmış informasiyalardan istifadə edərək, istehsalı və istehlakı təyinatı üzrə istiqamətləndirir. Bazar münasibətləri şəbəkəsinin qarşılıqlı əlaqələrinin vaxt sırası baxımından daima dəyişilməsi konkret bazar proseini təşkil edir.

Sahibkar rəqabətin hərəkətverici qüvvəsi kimi, bazarda yarışın gedişinə aktiv təsir göstərir, mövcud olanla yeniistehsal olunmuş məhsulu müqayisə etməyə imkan verir. Rəqabət bazarında sahibkarın rolu da elə bundan ibarətdir.

Rəqabət-rəqiblərin yarışma prosesdir. O, passiv tərəflər arasında yox, bazar iştirakçılarından məsələnin mahiyyətini «havada tutanlar» arasında gedir. Onlar dəyişən mühitdə və məkanda nəyin mənfəətli olduğunu tez duyurlar və ona adekvat hərəkət edirlər. Bazarın rəqabət xarakteri təkcə onda deyildir ki, bazar iştirakçısı olan subyekt gedən prosesləri tez dərk edir, onun əsas işi rəqibindən daha tez fəaliyyət göstərərək bazara zəruri məhsulu çıxarmağı bacarmaqdır.

Sahibkar innovasiya və risklərin hərəkətverici qüvvəsidir. O, digərlərindən daha tez və yaxşı görür ki, hansı sahələrə innovasiya resurslarını istiqamətləndirmək lazımdır və onun riskinin dərəcəsi nə səviyyədədir. Göstərdi ki, risk onu sahibkarlıq mənfəəti ilə təmin edəcək və ya etməyəcək. Azərbaycan Respublikası sabiq ittifaqdan ayrılan ölkələr içərisində öz təbii və intellektual resurslarına görə birincilər sırasındadır. Ölkədə daş kömür və torfdan başqa demək olar ki, bütün təbii resurslar mövcuddur. Ölkənin geosiyasi məkanda



downloaded from KitabYurdu.az

yerləşməsi də müqayisə edilməzdir. Lakin bunların hamısı dünya və milli bazrada rəqabət qabiliyyətlilik üçün kifayət deyildir. Ölkənin milli istehsal məsrəfinin dünya səviyyəsindən aşağı olması üçün təbii resurslardan səmərəli istifadə olunmalıdır. Bunun üçün istehsalın bütün tsikli yeni texnoloji əsasda qurulmalıdır. Beynəlxalq səviyyədə rəqabət aparmaq üçün intellektual resurslardan geniş istifadə olunmalıdır. Hazırda (2003-cü il)  respublikada elmi tədqiqat və işləmələri yerinə yetirən işçilərin sayı 17190 nəfər təşkil edir ki, onlardan 656 nəfəri elmlər doktoru, 3295 nəfəri elmlər namizədləridir. Ali məktəblərdə isə 819 elmlər doktoru, 5165 elmlər namizədi  çalışır. Bu elmi potensialdan səmərəli istifadənin təşkili, milli iqtisadiyyatın inkişafına təkanverici qüvvə kimi çıxış edə bilər.

Azərbaycanda Sahibkarlıq fəaliyyətinin inkişafı 1918-ci ilə qədər müxtəlif səpkilərdə inkişaf etmiş və bu dövrdən onun fəaliyyəti 1990-cı ilə qədər dayandırılmışdır. Məlum hadisələrdən sonra respublikada sahibkarlıq fəaliyyəti yenidən başlamışdır. Keçmiş dövrə rekurs etsək Azərbaycanda sahibkarlıq fəaliyyətinin çox qədim tarixi olduğunu görərik. Demək olar ki, sahibkarlıq azərbaycanlıların genetik hissəsidir. Çünki Azərbaycanda qədimdən sahibkarlıq və ticarətçilik ən-ənələri mövcud olmuşdur. Ötən əsrin əvvəllərində Azərbaycanda H.Z.Tağıyev, M.Nağıyev, M.Rəsulov və bu kimi milli burjuaziyanın nümayəndələri sahibkarlıq fəaliyyəti ilə məşğul olmuşlar.

Azərbaycan yenidən müstəqillik əldə etdikdən sonra, Respublmkada Sahibkarlıq fəaliyyəti haqqında qanun qəbul



downloaded from KitabYurdu.az

olunmuşdur. (15 dekabr 1992-ci il) M.K.Bunkinin Moskva «Loqos» nəşriyyatı tərəfindən çap olunmuş « Milli iqtisadiyyat» dərsliyində göstərilir ki, istehsal amilləri, torpaq, kapital, əmək və sahibkarlıq qabiliyyətindən ibarətdir. Bununla əlaqədar sahibkarlıq fəaliyyətinin makroiqtisadi amil olduğunu qeyd etmək olar. Azərbaycan Respublikasının iqtisadiyyatında sahibkarlığın aşağıdakı formaları fəaliyyət göstərir:

Fərdi sahibkarlaq.

Kollektiv sahibkarlıq.

Dövlət sahibkarlığı

Sahibkarlığın bu növlərinin fəaliyyəti yuxarıda qeyd olunmuş Respublika qanunçuluğu əsasında tənzim olunur. Sahibkarlıq nəzəriyyəsinin dərindən təhlili üçün iki fundamental əsas mövcuddur. Bunlardan biri iqtisadi təlimlər tarixi ilə məşğul olmuş alimlərin nəzəri mülahizələrinin öyrənilməsidir. Onlar lap əvvəldən sah ibkarlığın nəzəri problemləri ilə məşğul olmuşlar və bu sahədə öz əməli fikirlərini söyləmişlər. İkincisi, keçmişlə müasir dövrün elmi ümumiləşdirmələrinin aparılmasıdır. Bunlar sahibkarlıq fəaliyyətinin formalaşdırılması prosesini aşkarlamağa imkan verirlər.

Sahibkarlıq nəzəriyyəsi bir neçə istiqamətdə inkişaf etmişdir. Birinci istiqamətin əsasında sahibkarlıq riski durur. Bu istiqamətin ilki fransız iqtisadçısı R.Kantilion (1680-1734) tərəfindən qoyulmuşdur. Onun fikrinə görə sahibkar ayrıca fərd olub, öz bacarığına və əzmkarlığına əsaslanaraq əlavə mənfəət almaq məqsədilə imkanlarını reallaşdıran şəxsdir. Həqiqi sahibkar özünün



downloaded from KitabYurdu.az

təkrar istehsalın bütün mərhələsində büruzə verir. O, başqalarından fərqli olaraq öz riski hesabına daha çox gəlir götürməyə çalışır. Sonradan bu fikirlər İ.Tyumen və F.Nayt tərəfindən inkişaf etdirilmişdir. Onlar «sahibkar» və «sahibkarlıq» anlayışlarını gözlənilməyən risklərlə möhkəm bağlamışlar.

Sahibkarlıq nəzəriyəsinin inkişafında ikinci istiqaməti J.B.Sey və Marşalın baxışları ilə əlaqələndirmək olar. Onlar hesab edirdilər ki, sahibkarların funksiyası istehsal amillərinin ( əmək, kapital,torpaq) elə səmərəli kombinasiyasını yaratmaqdır ki, nəticədə normal mənfəət əldə etmək mümkün olsun.

Üçüncü istiqamət sahibkarlıq nəzəriyyəsinin inkişafının məntiqi davamı Y.Şumpeter tərəfindən aparılmışdır. Onun fikrincə iqtisadi sistem o, zaman öz-özünə inkişafa qadirdir ki, onda istehsal amillərinin səmərəli kombinasiyası ilə yanaşı amillərin yeni uzlaşması aransın, məhsul satışı üçün yeni bazar seqmentləri tapılsın, xammal mənbələri aşkar edilsin, əməyin elmi təşkili yaradılsın və s. Təkrar istehsal prosesində müxtəlif yeni kombinasiyalardan aktik istifadə edən iqtisadi subyekti Y.Şumpeter sahibkar adlandırmışdır. Daha sonra Y.Şumpeter qeyd edir « sahibkar» ixtiyri ictimai formasiya şəraitində nadir funksiyaya və qabiliyyətə malik olan fərddir. Bu sahədə L.Mizez, Y. Kritşner və F.Xayekin mühüm nəzəri fikirləri olmuşdur. Onlar bazar prosesinin innovasiya funksyasını açıqlamışlır. Belə ki, sahibkar daima axtarışdı olmalı, istehlakçıya məlum olmayan məhsul istehsal edərək onun üçün yeni tələb mənbəyi yaratmalıdır. Bununla onlar sübut edə



downloaded from KitabYurdu.az

bilərlər ki, bazar prosesi təkcə konyuktura və rəqabət situasiyalarından ibarət deyildər. Bazar həm də çoxlu sayda məhsulları olan mürəkkəb bir sistemdir.

Dördüncü istiqamət. Sahibkarlıq nəzəriyyəsinin inkişafına P.Druker, B.Karlof, B.Sanqo və başqaları da öz tövhələrini vermişlər. Onlar sahibkarlığa menecmentin əlahiddə növü kimi baxmışlar. Onların yeni paradiqmi (paradiqma müvafiq qismən mənasını verir). Elmi ensiklopediyalarda paradiqmatika anlamına iki tərəfdən baxılır:

a) gercəkliyin mühüm cəhətlərini dərk edən elmi nəzəriyyə:

b) müəyyən tarixi dövrdə elm aləmində konseptual məsələlərinin təqdiqat yolu ilə həlli: Paradiqma hərfi mənadə xüsusi dərketmə kimi təsəvvür olunur. Müasir dövrdə sahibkarlıqla menecmentin birləşdirilməsinə əsaslanır. Sahibkarlıqla menecment bir-birini əvəz edir, bir-birinin daxilinə nifuz edirlər. Menecment sahibkarlığa xidmət edilməsinə istiqamətlənir, idarəetmədə sahibkarlıq tərzini möhkəmləndirir.

Sahibkarlıq nəzəriyyəsinin inkişafı tarixinə nəzər saldıqdan sonra sahibkarlığın iqtisadi mahiyyətini və məzmununu açıqlamaq olar. Bu deilənlərə əsasən sahibkarlığın iqtisadi mahiyyətinə belə tərif vermək olar.

Sahibkarlıq- yüksək gəlir əldə etmək məqsədilə, daxili və xarici amilləri nəzərə almaqla, strateci uzuqgörənliklə gələcək propnozların transformasiyasını həyata keçirməyi bacaran sahibkarın fəaliyyətidir.



downloaded from KitabYurdu.az

Sahibkar bacarığı hər adamda olmur, bu şəxslər xüsusi müşahidə və seçmə qabiliyyətinə malikdirllər. Sahibkar yüksək intelektual, intiutsiya və evristik marağa malik şəxşlərdir. Bu xüsusiyyətlər ona çoxlu sayda mürəkkəb amillərin kombinasiyasından baş çıxarmağa, onların gələcək fəaliyyətini proqnozlaşdırmağa imkan verir. Bütün bu fəaliyyətinin son nəticəsi ona sahibkar gəliri götürmək üçün şərait yaradır.

Sahibkar gəliri üç mənbəydən formalaşır.

1. Sahibkar öz imkanlarını təftiş edərək və gələcək istiqamətin proqnozunu dərk edərək zəruri istehsal vasitələrini alır. Öz bacarığını və innovasiya strategiyasını tətbiq edərək sahibkar elə bazarlar axtarıb tapır ki, aldığı istehsal vasitələri ona daha ucuz başa gəlsin, keyfiyyətli olsun. Beləliklə, sahibkar istehsal prosesində iştirak etmədən öz gəlirin müəyyən hissəsini əldə etmiş olur. Onun gəlirinin bu hissəsini $K_1$- kimi qeyd edək.

2. İstehsal prosesində sahibkar istehlakçının tələbini ödəmək üçün yeni məhsul istehsal edir. Müəyyən innovasiya, texnoloji, idarəetmə fəaliyyətlərini yerinə yetirir. Bununla da o, gəlirinin bir hissəsini də qazanmış olur. ($K_2$)

3. İstehsal olunmuş məhsulun reallaşdırılması prosesində sahibkar qiymət strategiyasından istifadə edir. Belə ki, sahibkar tələb və təklif münasibətindən istifadə edərək, qiymətə nəzarət edir, dəllal funksiyasını icra edir. Bununla da o, gəlirinin üçüncü hissəsini yaratmış olur. ($K_3$)

Beləliklə, sahibkar gəlirinin ümumi məbləi:



downloaded from KitabYurdu.az

$$K_0=K_1+K_2+K_3$$

## *2. SAHİBKARLIĞIN İNKİŞAFININ TƏNZİMLƏNMƏSİ*.

Müasir sahibkarlığın əsas problemi onun təşkilatı-təsərrüfat mexanizminin yaradılmasıdır. Sahibkarlıq fəaliyyətinin təşkilatı-təsərrüfat mexanizmi dedikdə, təsərrüfatın sahibkarlıq üsulu ilə aparılması, elmi əsaslandırılmış iqtisadi metod və vasitələr sistemi ilə təsərrüfatın təkrar istehsalının təşkili nəzərdə tutulur.

Sahibkarlığın təşkilatı-təsərrüfat mexanizmi, üzvi surətdə bir-biri ilə qarşılıqlı əlaqədə olan iki blokdan ibarətdir.

Bunlardan biri bazar-rəqabət sistemidir. Bu makrl-mezo-mikro səviyyələrdə sahibkarlıq tipində təkrar istehsalın özünü təşkiletmə və özünüidarəetmə sistemidir. İkincisi, isə iqtisadi qanunlara o cümlədən sahibkarlıq və bazar qanunlarına adekvat olan dövlət tənzimlənməsi sistemidir.

Sahibkarlığın bütün formaları, xüsusilə də onun formalaşması prosesi təşkilati-təsərrüfat mexanizminin hər iki blokda effektli fəaliyyəti vacibdir. Bu zaman sahibkarlığın dövlət tənzimlənməsi sisteminin rasional formalaşmasının konseptual əsaslarının aşkarlanması mühümdür. İnkişaf etmiş sahibkarlıq dünyasında ümumi formada qəbul edilmişdir ki, bu və ya digər formada, səviyyədə dövlət tənzimlənməsi sosial bazar iqtisadiyyatının qanununauyğunluğudur.



downloaded from KitabYurdu.az

Sahibkarlığın dövlət tənzimlənməsi özündə iqtisadi, sosial, təşkilatı, hüquqi və siyasi təminatlar sistemini ehtiva edir ki, bunlar müasir sahibkarlıq mühitinin formalaşmasına, onların dəyanətli inkişafına şərait yaradırlar. Bu zaman dövlət sahibkarlığın formalaşması prosesində aşağıdakı funksiyaları yerinə yetirir.

Birincisi – dövlət iqtisadiyyatın bütün sahələrində fəaliyyət göstərə bilən, innovasiya riski ilə bağlı olan imkanları reallaşdıran bacarıqlı müasir sahibkarlıq subyektini formalaşdırmalıdır. Bunun üçün dövlət kifayət qədər müxtəlif imkana və vasitələrə malikdir. Dövlət sahibkarlığı iqtisadi azadlıqla təmin edir, iqtisadi məkanda hamı üçün eyni «oyun qaydalarını» tətbiq edir, sahibkarlığın stimullaşdırılması mexanizmini formalaşdırır, habelə vergiqoyma, kredit, sığorta və s. elmi əsaslandırılmış tənzimləmə sistemindən, istifadə edir. Sahibkarlıq təhsilinin formalaşması, onların hazırlığı və yenidən ixtisaslaşmasının təşkili də dövlətə məxsusdur.

İkincisi – dövlət rəqabət mühitini formalaşdırmalıdır. Bu mühit həqiqi iqtisadi yarışmanı əks etdirməli, elm və texnikanın nailiyyətlərinə əsaslanan texnologiyaların, innovasiyaların tətbiqi ilə sahibkarların birinin digərinə nisbətən üstünlüyünü göstərməlidir. Həmin mühitdə sahibkarlıq riski, səmərəli özəlləşdirmə, antiinhisar siyasətinin effektiv mexanizmi, yerli sahibkarların xarici iş adamlarının rəqabətinə dözmək, tab gətirmək üçün proteksionizm qanunundan istifadə olunması öz əksini tapmalıdır.

Üçüncüsü – innovasiya əsasında yüksək keyfiyyətli məhsul istehsal edilməsinə, təklifin dəyanətli artımı üçün şəraitin



downloaded from KitabYurdu.az

yaranmasına nail olunmasıdır. Bu şəraitə sahibkarlığın dəstəklənməsi və stimullaşdırıcı yardımların köməkliyi vasitəsilə nail olunur. Yeni məhsul və xidmətlərin təklifi dövlətin uyğun innovasiya siyasətinin olmasını tələb edir. Bu bütövlükdə innovasiya tsikli çərçivəsində sahibkarlıq strukturunun və sahibkarlıq strategiyasının istiqamətləri ilə əlaqələndirilməlidir. Burada söhbət təkrar istehsal sferalarının makrl-mezo-mikro səviyyələrində fundamental və tətbiqi elmlərin istiqamətindən gedir.

Rəqabət qabiliyyətli yeni məhsul təklifinin formalaşması dövlət tərəfindən vergi, maliyyə-kredit, sığorta, amortizasiya siyasəti və s. vasitəsilə stimullaşdırılır. Dövlət iqtisadi siyasəti ilə hər bir regionu rəqabət qabiliyyətli məhsul istehsalında, sahibkarlıq strukturunun istiqamətinin dəyişilməsində mükafatlandırıla bilər. Bütün bunların hamısı sahibkarlığın inkişafına təkan verir, onların fəaliyyət dairəsini genişləndirir.

Dördüncüsü – innovasiyalı məhsula bir başa tələbatın formalaşması və stimullaşdırılması. İlk əvvəl elm tutumlu məhsula dövlət sifarişləri sisteminin hazırlanması zəruridir. Bu zaman dövlət sifarişlərinin cəmiyyətin tələbatı üçün zəruri olan elm tutumlu məhsulların istehsalı proqramı çərçivəsindən formalaşdırılması nəzərə alınmalıdır. Dövlət sifarişinə daxil olan elm tutumlu məhsullara aid edilir; ölkənin müdafiəsi və təhlükəsizliyi üçün nəzərdə tutulan məhsullar, xaricdən gətirilən məhsulların rəqabətinə davam gətirmək və qiyməti aşağı salmaq məqsədi ilə dövlət müəssisələri üçün elmi-texniki nailiyyətlər əsasında hazırlanmış



downloaded from KitabYurdu.az

avadanlıqlar istehsalı, bəzi nəzərdə tutulmamış hadisələr üçün ehtiyat məhsul istehsalı.

Beşincisi – sahibkarlığın təşkili və bazar infrastrukturunun formalaşdırılması funksiyası. Hazırda dövlət kiçik biznesin infrastrukturunun yaradılması problemini müəyyən qədər dəstəkləyir və həll edir. Lakin nəzərə almaq lazımdır ki, kiçik biznesin infrastrukturu, bütünlükdə sahibkarlıq sahibkarlıq fəaliyyətinin (kiçik, ortə və iri həcmdən asılı olmayaraq) infrastrukturunun tərkib hissəsi olmalıdır.

Bu funksiyanı yerinə yetirmək üçün uyğun bazarlar sisteminin yaradılması tələb olunur6- milli, regional, yerli və MDB çərçivəsində. Eyni zamanda dövlət, idarə sisteminin, firmaların, strukturların yaradılmasını dəstəkləməlidir. (informasiya-konsaltinq mərkəzləri elmi təminat, sahibkarlıq kadrlarının hazırlanması və təhsilinin yüksəldilməsi, lizinq və marketinq xidməti, innovasiya mərkəzləri, sahibkarlar ittifaqı).

Altıncı funksiya – mövcud prosesin sosial istiqamətinin təmin edilməsi. Bu funksiyanın yerinə yetirilməsi üçün sahibkarlıq strukturlarının diqqətinin nəinki iqtisadi effektini, habelə sosial effektin alınmasına istiqamətlənməsi tələb olunur. Çünki, sosial effektin sahibkarlar tərəfindən təmin olunması, birbaşa əhalinin yaşayış səviyyəsinin əsasını təşkil edir. Sahibkarlığın mahiyyətinin və rolunun düzgün qiymətləndirilməsi üçün dövlətdən təkrar istehsalın stimullaşdırılmasının, rəqabətin inkişaf etdirilməsinin, innovasiya prosesinin tənzimlənməsi tələb olunur. Bu milli iqtisadiyyatın



downloaded from KitabYurdu.az

dinamiki və dəyanətli inkişaf səviyyəsinin yüksəldilməsi imkanlarını artırır. Burada əsas istiqamət milli sərvətin artırılması və hamının rifahının yüksəldilməsi imkanlarının genişləndirilməsi olmalıdır.

Dövlət tərəfindən bu və ya digər funksiyaların səmərəli yerinə yetirilməsi üçün müəyyən prinsiplərə əməl edilməlidir ki, bunlar da aşağıdakılar hesab olunur:

- sahibkarlığın cəmiyyətin inkişafında rolu və mahiyyətinin elmi əsaslandırılması və dərk edilməsi;
- müasir sahibkarlıqda səmərəli, rasional proteksionizm.
- İqtisadi və sosial məqsədlərin üzvi uyğunlaşmasının təmin olunması.
- Proqram-məqsədli tənzimləmə.
- Elastiki differensial yanaşma.
- Dövlət dəstəyinin motivləşdirilmiş ist qaməti.
- Sahibkarlığın çoxlu formalarının mövcudluğu.
- Dövlət, regional, bələdiyyə xidmətləri arasında əyin bölgüsü və kooperasiyası.

## *3.SAHİBKARLIQ FƏALİYYƏTİNİN İQTİSADİ VƏ HÜQUQİ ƏSASLARI.*

Sahibkarlığın dövlət tənzimlənməsi strukturunun yaradılması bir neçə istiqamətləri əhatə edir. Onlardan əsas sayılan bəzilərinə diqqət yetirək.



downloaded from KitabYurdu.az

İlk əvvəl sahibkarlığın inkişafı və fəaliyyətinin hüquqi təminat sisteminin formalaşmasıdır.

Azərbaycan Respublikası siyasi iqtisadi müstəqillik qazandıqdan sonra, iqtisadiyyatın inkişafının bazar istiqamətinin seçmişdir ki, bunlardan biri də ölkədə sahibkarlığın inkişaf etdirilməsidir.

Ölkədə 15.XII.1992-ci ildə «Sahibkarlıq fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu» qəbul edilmişdir. Bu qanunla sahibkarlıq fəaliyyətinin prinsipləri, iştirakı subyektlərin hüquq və vəzifələri, onların dövlət tərəfindən dəstəklənməsi və təqdir olunması, sahibkarların dövlət və qeyri-dövlət orqanları ilə qarşılıqlı münasibətləri şərh olunmuşdur.

Bu qanunda qeyd edilir ki, sazibkar sərbəst, müstəqil olaraq fəaliyyət növü seçə bilər və sahibkarlıq fəaliyyətində mülkiyyətin bütün formalarının iştirakı azaddır. Hamin sonda sahibkarlıq anlayışı dəqiq öz əksini tapmışdır. Qeyd edilmişdir ki, sahibkarlıq fəaliyyəti fiziki şəxslərin, onların birliklərinin, habelə hüquqi şəxslərin mənfəət və ya şəxsi gəlir əldə edilməsi məqsədilə özlərinin cavabdehliyi və əmlak məsuliyyəti ilə, yaxud digər hüquqi və ya fiziki şəxslərin adından qanunvericiliklə qadağan edilməyən təsərrüfat fəaliyyətinin bütün növləri, o cümlədən məhsul istehsalı, satışı və xidmətlər göstərməsi formasında həyata keçirdikləri müstəqil təşəbbüskarlıq fəaliyyətidir.

Sahibkarlığın inkişafının təmin olunmasının hüquqi sisteminin formalaşması zamanı, hüquqi aktların keyfiyyətinin yüksək olması



downloaded from KitabYurdu.az

zəruridir. Onlar bir – birini təkzib etməməli, imkan daxilində müstəqim təsir mexanizminə malik olmalıdırlar. Bu mexanizmin reallaşmasında sahibkarlıq hüququ qorunmalı, iqtisadi məsuliyyət hissi təqdir edilməlidir.

Respublikda sahibkarlığın inkişafını dəstəkləmək üçün, elmi əsaslandırılmış qanunlar qəbul edilmişdir.

1. Azərbaycan Respublikasının iqtisadi müstəqilliyinin əsasları haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu. 25.V.1991.

2. Mülkiyyət haqqında Azərbaycan Respublikasının Qanunu. 09.XI.1991.

3. Kəndli (fermer) təsərrüfatı haqqında Azərbaycan Respublikasının Qanunu. 08.IV-1992

4. Dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında Azərbaycan Respublikasının Qanunu. 07.I.1993

5. İcarə haqqında Azərbaycan Respublikasının Qanunu. 30.IV.1992, 11.VIII.1992

6. Müəssisələr haqqında Azərbaycan Respublikasının Qanunu. 01.VII.1994

7. Səhmdar cəmiyyəti haqqında Azərbaycan Respublikasının Qanunu. 12.VII.1994, 25.VIII.1995

8. Lizinq xidməti haqqında Azərbaycan Respublikasının Qanunu. 29.XI.1994

9. Aqrar islahatların əsasları haqqında Azərbaycan Respublikasının Qanunu. 18.II.1995



downloaded from KitabYurdu.az

10. İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu. 13.I.1995

11. Haqsız rəqabət haqqında Azərbaycan Respublikasının Qanunu. 02.VI.1995.

12. Büdcə sistemi haqqında Azərbaycan Respublikasının Qanunu. 01.XII.1992.

Bu qanunların birlikdə fəaliyyəti sahibkarlığın inkişafının dövlət tənzimlənməsinin imkanlarının genişlənməsinə xidmət edirlər. Sahibkarlığın inkişafında iqtisadi mexanizmlərin fəaliyyətlərinin təkmilləşdirilməsi vacib məsələlərdəndir. Bunun üçün aşağıdakıların diqqət mərkəzində olması məqnsədəuyğundur:

1. Güzəştlər vasitəsilə sahibkarlıq fəaliyyətinin vergiyə cəlb olunması sistemində əsaslı dəyişikliklər edilməsi.

2. Sahibkarlığın kreditləşdirilməsində yeniləşdirmənin aparılması. Bu məqsədə Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyəti üçün mini kreditlərin verilməsi təşkil olunmuşdur. Artıq respublikada fəaliyyət göstərən Kommersiya bankları da kredit verilməsini həyata keçirirlər.

3. Sahibkarlığın sığortalanmasının dövlət tənzimlənməsi sistemi də dəyişilməlidir. Bunun üçün innovasiya prosesinin sığortalanmasının dövlət və bazar formalarının səmərəli uyğunlaşması təmin edilməlidir. Sahibkarların sığortalanması üçün innovasiya və investisiya fondları, sığorta cəmiyyətləri və vençur firmaları yaradılmalıdır.



downloaded from KitabYurdu.az

4. Bütünlükdə sahibkarlıq fəaliyyətini təmin etmək məqsədilə təşkilati infrastruktur sistemi formalaşdırılmalıdır.

5. Sahibkarlığın uzun müddət (15 il) inkişafının konsepsiyası hazırlanmalı, onun tənzimlənmə strategiyası müəyyən edilməlidir. Bu strategiya əsas aparıcı sahibkarlıq firmalarının fəaliyyətini əhatə etməlidir. Sahibkarlığın inkişafı konsepsiyası dəqiq strukturlaşmış olmalıdır. İlk əvvəl makrosəviyyədə dövlət tənzimlənməsi, sonra isə fundamental elmi tədqiqat işlərinin tətbiqi nəzərdə tutulmalıdır.



downloaded from KitabYurdu.az

## *FƏSİL VII. DÖVLƏTİN ANTİİNHİSAR SİYASƏTİ.*

### *1. BAZAR SİSTEMİNDƏ AZAD RƏQABƏT VƏ ONUN FORMALARI.*

Rəqabət cəmiyyətin iqtisadi problemlərinin həllinə yardımçı olan mexanizmlərdən biridir.

Rəqabət latın sözü olub «qarşılaşmaq, üz-üzə gəlmək» mənasını daşıyır. Rəqabət yaxşı mənada tərəflərin yarışmasıdır.

Rəqabət bazarı təkmil və qeyri-təkmil rəqabətdən ibarətdir. Təkmil rəqabətə – «polipoliya»da-deyilir. Onun əsas əlamətləri bunla hesab edilir:

- istehsal vasitələri üzərində xüsusi mülkiyyətin mövcudluğu;
- inkişaf etmiş əmtəə münasibətləri, alıcı və satıcıların çoxluğu;
- ümumi bazar sövdələşməsində alıcı və satıcıların xüsusi çəkisinin az olması;
- müxtəlif istehsalçıların məhsullarının keyfiyyətinin eyni olması.

Qeyri-təkmil rəqabət özlüyündə azad və inhisar rəqabətinə ayrılır.

Dünya iqtisad elmləri azad bazar fenomenin mahiyyətini şərh edən əlamətlər sistemi formalaşdırmışdır. Həmin əlamətlərdən birincisi rəqabət iştirakçıların sayının qeyri məhdudluğudur. Onların bazara daxil ola bilməsi və ondan sərbəst çıxması imkanıdır. Bu o deməkdir ki, hər bir adam istədiyi vaxt sahibkarlıqla məşğul ola bilər və onu dayandıra bilər. O, bunu müxtəlif yollarla həyata keçirir. (Öz



downloaded from KitabYurdu.az

işini açmaq, həmin işdə öz əməyi ilə və ya muzdlu əməklə iştirak edə bilər, səhm ala bilər, dövlət istiqrazı ala bilər, əmanət bankına pul qoya bilər, torpaq ala bilər, mülk alar və s.) Qeyd etmək lazımdır ki, azad bazar dövlət mülkiyyətindən başqa bütün mülkiyyət formalarının müxtəlif növləri xasdır və hər bir kəs onun istədiyi formasından istifadə edə bilər. Çünki, azad rəqabət sistemi inhisarçısının sıxışdırılması hallarına yol vermir. Yəni pul gəliri olan hər bir şəxs öz istehlakını istədiyi məhsulda təcəssüm etdirməkdə azaddır.

İkincisi, material, əmək, maliyyə və s. resursların mütləq səfərbərliyidir. Çünki, pul qoyan şəxs onu elə elə-belə boş yerə sərf etmək yox, gəlir götürmək məqsədilə həyata keçirir. Məsələn, o, səhm alıbsa onu ancaq gəlir götürmək xatirinə alıb. O, buna o vaxt nail ola bilər ki, onun kapitalının yerləşdirməsi nəticəsində istehsal genişlənir. Bu isə o vaxt baş verə bilər ki, əlavə resurslar dövriyyəyə cəlb olunsun və onların müxtəlif birləşdirmələrindən səmərəli istifadə olunsun, dondurulmuş fondlar fəaliyyətə başlasın, yeni qabaqcıl texnologiya mənimsənilsin.

Üçüncüsü, qiymət, tələbat, gəlir norması və s. haqqında rəqabət iştirakçısının tam məlumatlılığıdır. Çünki, rəqabət iştirakçısı belə məlumata malik olmazsa, öz fəaliyyətinin düzgün variantını seçməkdə çətinlik çəkə bilər. Məsələn, o, ayırd edə bilməz ki, ev və ya səhm alsın, yaxud kapitalını hansı istiqamətə sərf etsin və s. tam informasiyaya malik olan rəqabət iştirakçısı öz vəsaitini daha sərfəli sitiqamətə yönəldə bilər.



downloaded from KitabYurdu.az

Dördüncüsü, sərbəst rəqabətin iştirakçılarının heç biri, digərinin qəbul etdiyi qərara maneçilik törədə bilməz. Çünki, rəqabətin iştirakçıları sayı çoxdur. (Birinci əlamət) və onların hər birinin istehsalda və təklifdə xüsusi çəkisi azdır və onların öz məhsullarını satmaq istədikləri qiymət, bazar qiymətində ifadə oluna bilməz. Belə çıxır ki, bazar qiyməti ayrı-ayrı subyektin istədiyindən asılı olmayaraq bazar mexanizmi ilə (görünməyən əl) müəyyən olunur.

Göründüyü kimi azad bazar sistemində hər hansı formadiki inhisara yer qalmır. İnflyasiya aradan qalxır, məcburi işsizlik və ifrat istehsal yoxdur. Hər hansı ixtiyari bazarın əsas parametrləri-tələb, təklif və qiymət sayılır. Onların qarşılıqlı əlaqəsi aşağıdakı qrafikdə verilmişdir.

Tələb qiyməti və məhsulun miqdarı arasında qarşılıqlı əlaqə mövcuddur.




Şəkil 7.

P- qiymət



downloaded from KitabYurdu.az

Q-məhsulun miqdarı

Fərz edək ki, hər hansı əmtəə bazarında azad rəqabət rejimi fəaliyyət göstərir. Bu o deməkdir ki, həmin bazrad çoxlu istehlakçılar var və müəyyən məhsul almaq üçün vəsait toplamışdır.

Burada alıcının marağı ondadır ki, məhsul alaraq öz ehtiyacını ödəsin və bu ona daha ucuz başa gəlsiş olsun, alıcıya qarşı istehsalçı satıcının məqsədi məhsulunu daha gəlirli satmaqdır.

Alıcı müəyyən məbləğlə bazara gəlir ki, məhsul alsın, özü də ucuz qiymətə. Lakin o burada dərk dir ki, satıcının qayğısı başqadır; yəni məhsulu baha satmaqdır. Buna görə uyğun qiymət o qiymətdir ki, alıcı hələ məhsulu almaq iqtidarındadır. Ondan yuxarı qiymət qoyularsa alıcı onu almayacaq. Çünki onun pulu yoxdur.

Bir tərəfdən məhsulun miqdarı az olduqca alıcı onun faydalılığının yüksək olduğunu qiymətləndirir və qiymətinin yüksək olmasına baxmayaraq onu almağa hazırdır. Əksinə məhmulun miqdarı çoxaldıqca onun qiyməti aşağı düşür. Digər tərəfdən tələb qiyməti yüksək olduqca alıcısı da azalmış olur. Bununla belə müəyyən qədər alıcı qrupu qalır ki, onların hesabına satış həcmini saxlamaq mümkün olur. Tələb qiyməti aşağı düşdükcə alıcının sayı çoxalır və satılan məhsulun miqdarı artır. Deməli. Bu məsələyə hansı tərəfdən yanaşılarsa yanaşılsın, qiymətlə miqdarın qarşılıqlı əlaqəsi əks etdirən R-əyrisi alınır. Bu əyri istehsalçının bazara münasibətini göstərir. Tələb qiymət əyrisi və ya sadəcə olaraq tələb əyrisi adlanır.

İndi isə istehsalçı satıcıy diqqət yetirək. Onlar məhsulu daha baha qiymətə satmaq istəyirlər, halbuki, bilirlər ki, alıcının məqsədi



downloaded from KitabYurdu.az

daha ucuz almaqdır. Nəticədə təklif qiyməti yaranmış olur. Bu o deməkdir ki, təklif qiymətinin minimum səviyyəsi o qədərdir ki, istehsalçı onu satmaq istəyir və ya sata bilər. Çünki, bazar qiyməti ondan aşağı ola bilməz. Əgər belə olarsa, onda istehsalçı uduzar, istehsal rentabelliyini itirmiş olar. Deməli, təklif qiyməti aşağı düşdükdə alıcı azalır və bazara daha az məhsul daxil olur. Çünki bəzi istehsalçılar üçün təklif qiyməti onun istehsal xərclərindən aşağı olur və onlar istehsalı dayandırırlar. Təklif qiyməti yüksəldikcə, məhsul istehsalı da artır və bazara daxil olma çoxalır. Beləliklə, satıcıların fəaliyyətini əks etdirən təklif qiyməti əyrisi R yaranır.

T nöqtəsi istehsalçı ilə istehlakçının marağının üst-üstə düşdüyü nöqtədir və bazarın tarazlığını göstərir.

Deməli, istehsalın müqabil həcmi ($q_1$) və alışın optimal həcmi tapılmışdır və məhsulun bazar qiyməti tarazlıq qiymətinə ($R_1$) uyğundur. Doğrudan da istehsalçı qiyməti T nöqtəsi istehsalçı ilə istehlakçının marağının üst-üstə düşdüyü nöqtədir və bazarın tarazlığını göstərir. Deməli, istehsalın müqabil həcmi ($q_1$) və alışın optimal həcmi tapılmışdır və məhsulun bazar qiyməti tarazlıq qiymətinə ($P_1$) uyğundur. Doğrudan da istehsalçı qiyməti qaldırmaq fikrində olmamalıdır. Əgər o tarazlıq qiymətinə məhəl qoymadan istehsalı artırarsa deməli müflisləşəcəkdir.

Uyğun olaraq istehlakçı da daha çox məhsul almağa və onun qiymətinin aşağı düşməsinə güvənə bilməz. Bu isə istehsalçının marağına ziddir.



downloaded from KitabYurdu.az

Əgər təklifin həcmini S, tələbin həcmini d ilə işarə etsək bu zaman tarazlıq şərti aşağıdakı mütənasibliyə uyğun olacaqdır.

$$S_t=d_t=R_tq_t$$

Sərbəst bazar mexanizmində bir bazarda yox, eyni vaxtda bir neçə bazarda qiymətlərin yüksəldilməsi və düşməsi təmayülündə özündə əks etdirən bir element də vardır. Tutaq ki, bazar mütənasibliyi pozulmuşdur və bu özünü qiymətin yüksəldilməsində göstərmişdir. İnflyasiya və deformasiyaların olmadığı bazar şəraiti sistemində fəaliyyət göstərən hər bir subyekt belə fikirləşir ki, qiymətlərin qalxması müvəqqətidir və o tezliklə aşağı düşəcəkdir.

Buna görə də subyekt tam müəyyən hərəkət modeli seçir, daha doğrusu pul gəlirinin nəğd hissəsini artırır (kassa qalığı) və bununla da öz əmanətinin qiymətdən düşməsinin qarşısını almağa və ya heç olmasa onun real dəyərinin dəyişməməsinə çalışır. Uyğun olaraq deməli pul gəlirinin istehlak üçün ayrılan hissəsini azaldır. Bununla da cari tələbat sıxılır, bu da qiymətin aşağı düşməsinə təsir göstərir. Başqa sözlə desək iqtisadiyyatı bazar tarazlığına qaytara bilər pul gəlirlərindən istifadə mexanizmi fəaliyyət göstərir. Buna Piqu effekti deyirlər. (PİQU-Kembridj məktəbinin nümayəndəsidir, ingilis iqtisadçısıdır.) piqu effektini çox vaxt real kassa qalığının effekti adlandırırlar.

Əgər dövlət rəqabət bazarına qayğı göstərərsə, onun effektli işini təmir edərsə, bazar mexanizmini dövlətə inflyasiyadan yaxa qurtarmaq imkanı verər. Çünki, inflyasiyanın sabitləşdirilməsi



downloaded from KitabYurdu.az

dövlətin əsas vəzifəsidir. Sərbəst bazar mücərrəddir, ideal obrazdır, deyək ki, mücərrəd boşluq kimi bir şeydir. Bununla belə real fəaliyyət göstərən hər bir bazar (onu çoxv axt rəqabətli, iş qabiliyyətli, əməli bazar adlandırırlar) özündə sərbəstlik elementi daşıyır. Onda iqtisadiyyat üçün zərərli inhisarçı xasiyyət fəaliyyət göstərə bilər ki, bu da yüksək qiymət səviyyəsi saxlamaqla resursların sahələrarası axınına maneçilik törədir və bazara daxil olmanı məhdudlaşdırır.

Bazar iqtisadiyyatı nəyi ilə yaxşıdır və o hansı funksiyanı yerinə yetirir? Bunu qısa şərh etsək deyə bilərik ki, bazar mexanizmi iqtisadiyyatın üzünü insanlara yönəldir, onları rəqabətin iştirakçısına çevirir, onların tələbatının ödənilməsində maddi marağını artırır. Təcrübə göstərir ki, bu zaman o, kapital qoyuluşu tətbiqi üçün işarə verir, ETT-stimullaşdırır, xərcləri aşağı salır, keyfiyyəti yüksəldir, məhsul çeşidini artırır, xidmət səviyyəsini yüksəldir. Etiraf etmək lazımdır ki, bazar hər şeyi həll etməsə də, o mühüm problemin həlli imkanını artırır:-yəni iqtisadi problemləri digər təsərrüfat sistemlərinə nisbətən daha tez həll edir. Bazar mexanizmi nəinki  inkişaf etmiş ölkələrdə, o hətta inkişaf etməkdə olan ölkələrdə də müvəffəqiyyətlə fəaliyyət göstərir.

Əlbəttə ən yüksək səviyyədə inkişaf etmiş bazar şəraitində də istehlak və onun ödənilməsi arasında kənarlaşma mümkündür. Lakin mövcud resurslar, elmi-texnoloji potensial şəraitində bu kənarlaşma təbii olub çox uzun çəkmir. Müasir marketinq şəraitində həmin kənarlaşma yox dərəcəsinə enir.



downloaded from KitabYurdu.az

## *2. DÖVLƏTİN ANTİİNHİSAR TƏDBİRLƏR SİSTEMİ.*

İnhisar bazar iqtisadiyyatının mahiyyətindən meydana gəlir. İnhisar rəqabət mübarizəsinin ən yüksək formasıdır. Bazarın inhisarlaşması iqtisadi qanunlardan ibarətdir. Biznes inkişafı ilə əlaqədar onun mahiyyəti də artır. İnhisarın mahiyyətində iqtisadiyyatın çoxlu sayda immanent qanunlarının qarşılıqlı əlaqəsi durur. Onlar bazarın inhisarlaşmasını doğurmuşlur:

Əmək → təsərrüfat → iqtisadiyyat → bazar → kapital → Yığım → təmərküzləşmə → mərkəzləşmə → → inhisarlaşma

Onun mahiyyətinin dərk edilməsi, hadisələrin təkamülünün ardıcıllığı ilə əlaqədardır.

Üstünlük → İmtiyaz → Müstəsna hüquq → Rəqabət → İnhisar

Üstünlük təbii mənşəyə, doğma xüsusiyyətə malik olub, digərlərinə nisbətən daha müvəffəqiyyət qazanmaq imkanıdır. (Məsələn, daha ağıllı, qüvvəli, yaraşıqlı gözəl insan, istehsalın yerləşdiyi sərfəli məkan və s.). Bunlar güclü iqtisadi mahiyyətə malikdir. Bununla əlaqədar amerikan söz məsəli də vardır «əgər sən belə gözəlsənsə, onda nə üçün varlı deyilsən»

İmtiyaz rəsmi sosial hüquqla əlaqədardır. İmtiyaz müəyyən dövrə dövlət tərəfindən də verilə bilər. Məsələn, müəyyən bir müddətə şəxsə verilən mülkiyyət hüququ. Müstəsna hüquq insanların, müxtəlif sosial funksiyaları ilə əlaqədardır. Onun hökmranlığı, liderlik xüsusiyyəti və hüququ və s. iqtisadi subyekt



downloaded from KitabYurdu.az

belə müstəsna hüquqları müəyyən metodlarla əldə edir ki, bunlardan biri də güc tətbiq edilməsi, zorakılıq hesab edilir.

Rəqabət bazar şəraitində üstünlük əldə etmək uğranda mübarizədir. Bu mübarizə heyvanlar və insanlar aləmində daima mövcud olmuş və olacaqdır.

İnhisar rəqabətin ən yüksək forması kimi, bazar subyektlərinin hamısına yox, seçilmişlərə «rəqabətdə qalib gələnlərə» məxsusdur.

İlkin olaraq inhisar yerli mahiyyətə, sonralar milli hadisəyə, hazırda isə dünya fenomeninə çevrilmişdir. İnhisar konkret səbəblərlə əlaqədar yarana bildiyi üçün onun aşağıdakı formaları mövcuddur.






downloaded from KitabYurdu.az

İnhisar birdən-birə, qəflətən yaranmır. O, müəyyən ardıcıl prosesin nəticəsi kimi meydana çıxır.

Polipoliya ⟶ Oliqapoliya ⟶ Duopoliya ⟶ Monopoliya

Polipoliya təkmil rəqabətdir. Onda çoxlu sayda satıcılar vardır ki, qiymətə təsir göstərə bilmirlər. Oliqapoliyada isə bir neçə firma bazarın əsas hissəsinə nəzarət edir. Bu zaman məhsul nomenklaturası (çeşidi) çox olmaya da bilər. Məsələn, neft, qaz və s.

Oliqopoliyanın vahid nəzəriyyəsi yoxdur. Lakin onu əks etdirən bir neçə model tərtib olunmuşdur. Bunlardan biri Kurno modeli adlanır. (Fransız 1838 il). Kurno modelinin əsasını təşkil edir:

a) bazarda ancaq iki firma iştirak edir;

b) hər bir firma qərar qəbul edərkən rəqibinin istehsalını və qiymətini sabit hesab edir.

Fərz edək ki, bazarda iki X və Y firmaları vardır. X-firması öz məhsulunun qiymətini necə müəyyən edəcək? Çünki məhsulun qiyməti ona çəkilən xərcdən əlavə tələbdən də asılıdır, yəni Y firmasının nə qədər məhsul edəcəyi məlum deyildir. Buna görə də X və Y firmalarının nə edəcəkləri bəlli deyildir və onlar ancaq öz istehsallarını planlaşdırmaqla məşğuldurlar.

Bazar tələbatı verilmiş kəmiyyət olduğu üçün Y müəssisəsinin istehsalı genişləndirməsi X müəssisəsinin məhsuluna tələbatı azaldacaqdır. Bunu qrafiki olaraq belə göstərmək olar.



downloaded from KitabYurdu.az

Şəkil 8




Əgər məsələyə Y firmasının mövqeindən baxılarsa bu zaman onun qiymətinin dəyişilməsi X firmasının hərəkətindən asılı olaraq qrafik qurmaq olar.

Şəkil 9.

Qrafikdə X firması Y firmasının istehsalına reaksiyası və Y firmasının X firmasının istehsalına reaksiyası əks olunmuşdur. X və Y xətlərinin kəsişdiyi nöqtə hər iki firmanın nəzərdə tutduğu hal, real vəziyyət üst-üstə düşür.




Kuruno modelində belə bir hal



downloaded from KitabYurdu.az

Nəzərdə tutulmamışdır ki, rəqabətə girən X və Y firmaları, bir-birinə qalib gəlmək üçün qiymətləri aşağı sala bilərlər.

Böyük biznesin daxilində həmişə inhisarçı psixologiyası vardır. Hər bir müəssisə çalışır ki, daha çox mənafeyə malik olsun, bazarda hakim rolunu oynasın. Lakin müasir bazar sistemində bu həmişə reallığa çevrilə bilmir, çünki müasir bazar daha çox inteqrallaşmış dövlət tənzimlənməsi fəaliyyətini tələb edir.

Bazar və rəqabət həmişə inhisarın əksi olmuşdur. Uzun müddət onların qarşıdurmanıda bazar həmişə total inhisarçılığın əleyhinə olmuşdur.

Haradakı bazar mexanizmi fəaliyyət göstərir, orada inhisar çox da genişlənə bilmir. Bazarla inhisar arasında zəif tarazlıq yarandığı halda inhisar köhnə formalarını saxlamaqla yeni formalar doğurur. Belə ki, bazar mexanizmi zəifləməyə başlayır, bu zaman inhisar iqtisadiyyata dağıdıcı təsir göstərir.

Dövlət bazar fəaliyyətinin genişlənməsi funksiyasının məsuliyyətini öz üzərinə götürənə qədər, uzun müddət bazar şəraitində inkişaf etmiş ölkələrdə bazarla inhisar arasında dəyanətsiz tarazlıq qalır. Lakin bu çox davam edə bilməz və təmayülündən qorumağa səy göstərir. Lakin 80-ci illərdən başlayaraq dövlət inhisarın xırdalanmasını öz funksiyasına çevirmişdir. Hazırda müasir iqtisadi inkişafında inhisara qarşı geniş hücum başlanmışdır. Bu ən çox texnoloji tərəqqi sahəsində ardıcıldır. Dövlət həmişə çalışır ki, iqtisadiyyatın inkişafı fasiləsiz kəsilməz olsun.



downloaded from KitabYurdu.az

İnhisara qarşı mübarizə (demopolizasiya – bir məhsul istehsalını əlində saxlayan dövlət və ya başqa müəssisənin fəaliyyətinin məhdudlaşdırılması) antiinhisar qanunlarının (ilk antiinhisar qanunları 1890-Şerman, 1914 Kleyton) XIX əsrin sonlarında XX əsrin əvvəlində qəbul edilməsi ilə başlamışdır.

Dünya iqtisad elmi inhisarın 6 növünü səciyyələndirmişdir:

Birincisi – istehsal və kapitalın mərkəzləşdirilməsi və təmərküzləşməsi, istehsal və kapitalın bir sahədə bir əldə mərkəzləşdirilməsi həmin sahənin inhisarçılığına şərait yaradır. Dövlət həmin mərkəzləşmə və təmərküzləşmənin iri biznes kimi formalaşmasına yardım göstərməlidir. Lakin onun inhisarçıya çevrilməsinə imkan verməməlidir.

İkincisi – texnoloji oliqapoliya formasıdır. (Oliqapoliya – oliqos-azlıq, polie-satmaq, ticarət). Az miqdarda iri satıcılar xırda satıcılara qarşı dururlar. Həmin az miqdar satıcıya bazar tələbatının ödənilməsinin çox hissəsi düşür. Texnoloji oliqopoliya dedikdə, bir neçə iri korporasiyanınmüəyyən növ məhsulun istehsalı və satışı üzərində nəzarəti başa düşülür. Həmin korporasiyaların bazar üzərindəki hökmranlığı xüsusi xarakter daşıyır. Belə ki, bu hökmranlıq texnologiyanın səciyyəvi xüsusiyyətlərindən doğur. Məsələn, metallurgiya, elektroenergetika və dəmiryol sahələri. Bu sahələrdəki texnologiya, həmin sahələrin effektli olması üçün mərkəzləşmə və təmərküzləşməni tələb edir, xırda satıcıya qarşı dururlar. Həmin az miqdar satıcıya bazar tələbatının ödənilməsinin çox hissəsi düşür. Texnoloji oliqopoliya dedikdə, bir neçə iri



downloaded from KitabYurdu.az

korporasiyanın müəyyən növ məhsulun istehsalı və satışı üzərində nəzarəti başa düşülür. Həmin korporasiyaların bazar üzərindəki hökmranlığı xüsusi xarakter daşıyır. Belə ki, bu hökmranlıq texnologiyanın səciyyəvi xüsusiyyətlərindən doğur. Məsələn, metallurgiya. Elektroenergetika və dəmiryol sahələri. Bu sahələrdəki texnologiya, həmin sahələrin effektli olması üçün mərkəzləşmə və təmərküzləşməni tələb edir.

Burada texnoloji oliqopoliya bir tərəfdən birinci növ inhisarın müxtəlif variantı kimi çıxış edir, ikinci tərəfdən onda olan xüsusiyyət başqa inhisar formalarında yoxdur. Elə buna görə də texnoloji oliqopoliya təbii inhisar kimi başa düşülür, çünki burada iqtisadi şəraitdən çox istehsal texnologiyasının özünə məxsusluğu fəaliyyət göstərir. Buradan belə bir nəticə çıxarmaq mümkündür ki, iqtisadiyyatın texnoloji oliqopoliya bölmələri üzrə demonopolizasiya aparmaq mümkün deyildir.

Üçüncü – inhisar növü məhsulun differensasiyasıdır. Məsələn, müəssisə məhsulunu öz satış markası ilə nişanlayır, qeyri-adi qablamadan istifadə edir. Burada kommersiya nailiyyəti, çox vaxt məhsulun keyfiyyətindən və qiymətindən yox, satıcının özünü bazarda inhisarçı vəziyyətdə aparması bacarığından asılı olur. Bazar iqtisadiyyatının daha çox inkişaf etdiyi ölkələrdə inhisarın bu növü geniş yayılmışdır və onu tənzimləmək mürəkkəbdir. Onu da qeyd etmək lazımdır ki, təmərküzləşmə və mərkəzləşmə inhisarın bu növündə hiss olunmur. Belə inhisar növünə iri subyektlərlə yanaşı xırda firmalar da aid ola bilərlər.



downloaded from KitabYurdu.az

İnhisarın dördüncü növü müasir elmi-texniki tərəqqinin inkişafında aparıcı rol oynayan müəssisələrin birliyidir. İnhisarın bu növü mövsümi, ötücü xüsusiyyətə malikdir. ETT-nin tətbiqi genişləndikcə onun kommersiya nəticələri mənimsənildikcə inhisarın bu növü də öz təsirini itirməyə başlayır. Görünür ki, bu da inhisarın təbii formasına yaxındır. Buna görə də dövlətin müdaxiləsi minimum olmalıdır. Dövlət elə hüquqi normalar işləyib hazırlamalıdır ki, elmi-texniki tərəqqi informasiyalarının yayılması prosesi genişlənsin.

İnhisarın beşinci növü təbii dövlət inhisarıdır. İnhisarın bu növü pul təklifinin dövlətin əlində olmasıdır. Bu inhisar pul bazarına xüsusi istiqamət verir. Bir tərəfdə Dövlət inhisarı, yəni pul təklifi, digər tərəfdə isə pula tələbatı olan subyekt durur. Dövlət elastiki olmayan lakin istehlak tələbinin mühüm hissəsi olan məhsulların inhisarını əlində saxlayır. Başqa formada qiymətin inzibati qaydada tənzimlənməsini, aksizlərin saxlanılması və digər inhisar formalarına dövlət himayədarlıq edir.

İnhisarın altıncı növü dövlət inzibati amiranəlik idarəetmə sisteminin olmasıdır. İnhisarın bu növü bazar iqtisadiyyatı ilə bir araya sığmır, o neqativ hallarla boldur və ləğv edilməlidir. İnhisarın bu növü digərlərindən aşağıdakılarla fərqlənir:

a) inhisarın bu növü tez totalitarlaşır və bazarı tamamilə örtür. İstehsalı və istehlakı qapayır.

b) yüksək səviyyədə bazarı inhisarlaşdırır.

v) dövlət inhisarına xüsusi daxili struktur verir.



downloaded from KitabYurdu.az

İnzibati amiranəlik inhisarının bizim əvvəlki iqtisadiyyatımızdakı strukturuna fikir versək, bu zaman onun üç özül üzərində qurulduğunu görərik:

1. İqtisadiyyatda dövlət bölməsinin hökmranlığı.
2. Sadə nazirlikləri (iri nəhənglər)nin olması.
3. Məhsul istehsalını inhisarlaşdıran müəssisə və təşkilatların mövcudluğu.

Yüksək dövlət inhisarının yaranması qeyri adidir. Belə ki, onun yaranması inzibati amiranəlik idarəetmə sistemi ilə əlaqədardır və dövlət sosializmi ilə yanaşı inkişaf edərək bir-birinin fəaliyyətini gücləndirirlər. Bazar sisteminin dağıdılması nəticəsində iqtisadiyyatın dövlətləşdirilməsi meydana çıxaraq qeyri adi yüksək inhisarlaşmış sistem yaradır ki, bu da özünə məxsus idarəetmə forma və metodları tələb edir. İqtisadi tənzimləmə rıçaqları olan vergi stavkası. Kreditə görə faiz və s. yüksək inhisar sistemində yaramır. Belə ki, rəqabət hiss etməyən inhisarçı, köməksiz istehlakçıya istədiyi kimi təsir göstərir və iqtisadi tənzimləmə rəçaqları qəbul etmir. Belə iqtisadiyyat ancaq və ancaq əmr, güc fəndləri vasitəsilə idarə olunur. Çünki yüksək inhisar sistemi dərinləşdikcə inzibati amirlik idarəetməsi də şaxələnir və dərinləşir.

Əgər keçmiş ittifaqın 90-cı illərdən başlayaraq iqtisadiyyatına nəzər salsaq bu zaman iqtisadiyyatda inhisarsızlaşdırmaya nisbətən inzibati amirlik sisteminin dağıdılması sürətinin yüksək olduğunu görərik. Yəni inzibati amirlik sisteminin dağıdılması və inhisarın saxlanılması iqtisadi sabitsizlik yaradır, qıtlığı artırır. Yüksək dövlət



downloaded from KitabYurdu.az

inhisarı ilə inzibati idarəetmə arasında uçurum yaranır və bu da milli sərvətin çox hissəsini udur. Çünki belə kəskin uçurum vaxtı inhisar əl-qol açaraq özünəməxsus hərəkət edir. Yəni qiymətləri qaldırır. İstehsalın həcmini azaldır, keyfiyyəti aşağı salır.

Bunlar arasındakı kəskin təzad faktının özü, iqtisadi islahatın aparılması zamanı səhvlərin buraxılmasını aşkar edir. Bu vəziyyəti düzəltmək üçün müxtəlif tənzimləmə forma və metodlarından istifadə oluna bilər:

1. inzibati amiranəlik sisteminə qayıdılması.
2. inhisarsızlaşmanı sürətləndirmək. Yəni bir məhsul istehsalçısının fəaliyyətini məhdu4dlaşdırmaq. İqtisadi rıçaqlardan geniş istifadə etmək.
3. Heç nə dəyişmədən gücə qarşı güc tətbiq etmək. Yəni istehlak və tələb sahəsində yəni, qeyri-dövlət inhisar strukturları yaratmaq.

Birinci variant haqqında söz ola bilməz. Çünki, geriyə yol yoxdur.

İkinci variantda inhisar elementləri qalır və iqtisadi islahat baş vermədikdə inzibati-amiranəlik sisteminə qayıdılması imkanları artır.

Üçüncü variant isə istehlak assosiasiyalarının yaradılmasını nəzərdə tutur ki, onlara geniş imkanlar verilməli və dövlət tərəfindən dəstəklənməlidirlər.

Dövlət inhisarı ilə inzibati amiranəlik sistemi arasında əks əldə mövcuddur. İqtisadiyyatda öz yerini m.hkəmləndirən inzibati



downloaded from KitabYurdu.az

amiranəlik sistemi öz fəali yyətini genişləndirməyə çalışır. Bu isə o zaman mümkün olur ki, güc fəndləri iqtisadiyyatda hiss olunan effekti versinlər. Belə hakimiyyətin saxlanılması isə dövlət inhisarının möhkəmlənməsi ilə müşayiət olunur. Deməli, bunlar hər ikisi birləşərək bazar strukturlarını amansızcasına dağıdırlar. İnhisar növləri də özlüklərində eyni mahiyyətli deyildirlər. Əgər istehsalın mərkəzləşdirilməsi və təmərküzləşməsi (1-ci növ inhisar), inzibati amiranəlik sistemi (6-cı növ inhisar) iqtisadiyyata dağıdıcı zərbə vururlarsa, başqa inhisar növləri haqqında bunu demək olmaz.

Məsələn, texniki oliqopoliya, təbii inhisar daimi olmayıb, dəyişkəndirlər. ETT-nin inkişafı ilə əlaqədar olaraq bu inhisarlar bir əldən digərinə keçirlər, deməli onlar daimi deyildirlər. Məsələn, ilk sputniklərin buraxılması, sonradan onların bəşəri xarakter daşıması və s. Bazarın inhisar təsiri ilə dağıdılması iqtisadiyyat üçün yaxşılıq vəd etmir. Yüksək rəqabət ritmini saxlamaq əvəzinə, inhisar ETT-nin tormozlanması təmayülünü yaradır. Daha doğrusu effektli texnologiyanın mənimsəmək əvəzinə yüksək inhisar qiyməti tətbiq edərək onu istehlakçıya sırıyır.

Buna görə də inhisar təsirinə, (altına, mühitinə) düşən istehlakçının itkisini hesablamaq lazımdır. Bunun üçün aşağıdakı qrafikə diqqət yetirək.



downloaded from KitabYurdu.az

Şəkil 10.




Q – alınan və satılan məhsulun həcmi

P- həmin məhsulun vahidinin qiyməti

Alıcı istehlakçının hərəkəti $P_d$ istehsalçının hərəkəti isə $P_s$-lə ifadə olunur. Bazar qiyməti heç vaxt $P_d$-əyrisindən yüksəkdə ola bilməz, çünki əyrinin hər bir nöqtəsi qiymətin maksimal səviyyəsini göstərir ki, həmin qiymətə istehlakçı hələ məhsulu almaq iqtidarındadır. Eyni zamanda bazar qiyməti də $P_s$-əyrisindən aşağı ol bilməz, çünki, həmin əyrinin hər bir nöqtəsi satıcının minimal qiymətini əks etdirir. Bu əyrilərin vəziyyəti onunla izah olunur ki, alıcı və satıcı öz ziyanına hərəkət edə bilməz.

T –nöqtəsi bazar tarazlığı, yəni alıcı və satıcının mənafelərinin pozulmadığını göstərir. Nəzərə alsaq ki, istehlakçı və istehsalçı



downloaded from KitabYurdu.az

səmərəli hərəkət etmişlər, deməli $q_t$ qədər məhsul vahidi $P_t$ – qiymətinə satılmışdır. Bu zaman satılan məhsul $OP_tTq_t$ düzbucaqlısının sahəsi qədərdir, yəni $Oq_tOR_t(q_tP_t)$ qədərdir. Bu məsələyə istehsalçının gözü ilə baxaq. Onun üçün $P_tq_t$ sahəsi cəmi gəliri ifadə edir. Yəni satılan məhsuldan alınan cəmi gəliri ifadə edir. Bir halda ki, $P_s$ əyrisi altındakı sahə $q_t$ məhsuluna olan cəmi xərci əks etdirir.

Deməli cəmi xərc bu sahəyə malik olacaqdır.

$$S_{\mathrm{OAT}_{\textit{əm}}} = \int_0^{ş_t} \mathrm{P}_S(q) d_q$$

Qalan sahə $AP_tT$-isə istehsalçının gəlirini göstərir. Yəni

$$S_{\mathrm{AP}_t\mathrm{T}} = \mathrm{P}_t q_t - \int_0^{q_t} \mathrm{P}_S(q) d_q$$

Parabola əyrisi A nöqtəsindən keçir, yəni başlanğıc nöqtəsi sıfırdan götürsək bu zaman B=0 olur və buna görə də $y=ax^2+O+C$, $y= ax^2+S$ kimi götürülür.

İndi isə istehlakçıya diqqət verək. Onu nəinki $P_tq_t$ qədər məhsul almaq maraqlandırır. Həmçinin onu rəqabət bazarının fəaliyyəti ilə şərtlənən müqayisəli uduşu da maraqlandırır. Bu uduş $P_tBT$ sahəsinin yuxarı nöqtəsi ilə müəyyən olunur. Həqiqətdə $P_d$ əyrisinin T nöqtəsinin solunda yerləşən hissəsi istehlakçının məhsul almağa hazır olduğunu göstərir.

Qeyd edək ki, onlardan bəziləri hətta daha baha qiymətə $P_m$-ə bir az miqdarda məhsul, $q_m$ qədər məhsul almağa hazırdırlar. Lakin



downloaded from KitabYurdu.az

bazarda rəqabət elə fəaliyyət göstərir ki, hər bir nəfər özünə mütənasib məhsul ala bilir. Deməli. Daha çox məhsul daha ucuz $P_t \langle P_m$ qiymətə almaq imkanı yaranır. Belə çıxır ki, istehlakçılar qənaət edir. Bununla da həyat şəraitinin müqayisəli artması və yaxud istehlak rentası (C) yaranır ki, onun da ölçüsü belə hesablanır:

$$C = \int P_t BT = \int_0^{q_t} P_d(q)d_{\breve{g}} - P_t q_t$$

Ümumiyyətlə, inhisar, hazırda bazarda öz sərbəstliyini istəyir ki, qiymətləri özü sərbəst təyin edə bilsin. Bunun vasitəsi ilə inhisar öz xərclərini bütünlükdə istehlakçının üzərinə yıxır. Əvvəldə izah etdiyimiz kimi, inhisar əl-qol açdıqca daha da qüvvətlənir və heç nəyə baxmadan qabağına çıxan hər şeyi əzib keçir. Buna görə də ona dövlət nəzarətinin olması mütləq vacibdir. Özü də nəzarət ən çox inzibati qaydada olmalıdır çünki, ona iqtisadi tənzimləyicilərlə təsir göstərdikcə o buna əks təsir olaraq qiymətləri daha da yüksəltməklə istehsalı təmərküzləşdirməklə cavab verir. Məsələn, ABŞ-da bir firma bazarın 60%-ni əhatə edirsə, o dövlət tərəfindən nəzarətə götürülür. Onun əhatə dairəsi 90 faiz olduqda həmin firma qanuni şəkildə parçalanmağa məcbur edilir. Almaniyada hər bir firma bazarın 3-də birindən artıq istifadə edə bilməz. Fransada rəqabət üzrə Şura, antiinhisar qanununu pozan kartellər üçün 5 min-1 mln. frank cərimə nəzərdə tutur. İnhisarın marağı daha çox təsərrüfat azadlığındadır, istehlakçının marağı isə inhisardan maksimum azad olmaqla öz vəziyyətini yaxşılaşdırmaqdadır. Bir halda ki, dövlət



downloaded from KitabYurdu.az

istehlakçının tərəfini saxlamalıdır. O, inzibati nəzarəti ancaq demonopolizasiya üzərindən götürə bilər.

Qeyd etmək lazımdır ki, inhisarın inzibati yolla idarə olunması o vaxtı daha səmərəli olur ki, bütün təsərrüfat fəaliyyətlərinə nəzarət yayılmış olsun. Nəzarət və demonopolizasiya sinxron həyata keçirilməlidir. İnhisarçını saxlamaqla istehsalın aşağı düşməsi qarşısının planlaşdırma, dövlət sifarişi və s. ilə almaq cəhdi əbəsdir. Bu müəyyən müddətə mümkün olarsa da belə, yəni istehsal stabilləşsə də yenə də inhisar qiymətinin yüksəlməsi və keyfiyyətin pisləşməsi vasitəsi istehlakçıya təsir göstərəcəkdir.

Əgər təkcə qiymət üzərində inzibati nəzarət saxlanılarsa, bu zaman inhisar keyfiyyətin aşağı salınması ilə və istehsal həcminin azalması ilə cavab verəcəkdir. Deməli, bu nəzarətdə antisinxron yox, sinxron fəaliyyət götürmək lazımdır. İnhisarın tabeliyində mühüm əhəmiyyəti dövlətin mövqeyi təşkil edir. Çünki, iqtisadiyyatın yüksək inhisarlılığı və yaxud bazar şəraitində inkişafı dövlətin öz iqtisadi. Siyasi. Hüquqi gücünü hansı istiqamətdə yönəldilməsindən cox asılıdır. Buna görə də yuxarı dövlət eşelonunda iqtisadi təsirin seçilməsi, strateji planlaşdırmanın mühüm məsələsi kimi qalmaqdadır. İnhisar özü dövlətçilik elementi kimi çıxış edir. Sosializmdə o, lap ifrat formada çıxış etmişdir.

İndinin özündə də inhisar və dövlət mənafeləri çulğalaşır, lakin keçid dövrünə uyğun olaraq onun spesifik xarakteri zəifləmişdir. Məsələn, azad sahibkarlığa, xarici investorlara, beynəlxalq layihələrə və s. inadla maneçilik törədilməsi buna



downloaded from KitabYurdu.az

sübutdur. Dövlətin inhisar fəaliyyətinə göz yumması, inhisar tərəfindən məhsula elastiki tələbat siyahısının məhdudlaşdırılmasına və inhisar strategiyasını həyata keçirməyə imkan yaradır. Bu həqiqətən də belədir. Əgər məhsula tələbat elastikliyi saxlanılarsa inhisarın qiymət manipulyasiyası sərhədləri məhdudlaşdırılması olur. Yəni qiymətin inhisar tərəfindən qaldırılması halında, artıq istehlakçının imkanı olur ki, öz alıcılıq istiqamətini başqa məhsul üzərinə yönəltsin. Deməli, inhisar həmişə məhsul tələbatının elastikliyinin minimum olmasında maraqlıdır. Ancaq bu halda inhisar istehlakçını öz caynağında saxlamaq imkanına malikdir. Başqa sözlə desək belə vəziyyətdə, yəni inhisar vəziyyətində istehlakçı ancaq məhsulu almağa çalışır. Bu isə həqiqi inhisarın hökmünü göstərir. Belə hal sosializmə xas idi və bu dövlət inhisarı formasında çıxış edirdi.

Bura onu da qeyd etmək lazımdır ki, natural bölgü formasının yayılması da inhisarın xeyrindədir. Çünki talon sisteminin yaranması məhsulun elastikliyini aradan qaldırır, yəni istehlakçıya nəyi təklif edilərsə onu almağa məcbur olur. Bununla da inhisar bazarı əlində saxlayır, qiymətlərlə istədiyi kimi rəftar edir, öz şərtlərini istehlakçıya diktə edir.

Azərbaycan Respublikasının bazar münasibətlərinə keçid şəraitində yuxarıda qeyd olunan problemlərin qismən aradan qaldırılması üçün aşağıdakı tədbirlərdən həyata keçirilməsini məqsədə uyğundur:



downloaded from KitabYurdu.az

1. Azərbaycan Respublikası siyasi-iqtisadi müstəqillik əldə etdikdən sonra, keçmiş SSRİ-nin digər müttəfiq respublikaları ilə iqtisadi əlaqələri zəifləmişdir. Məlumdur ki, keçmiş müttəfiq respublikaların hamısının iqtisadiyyatı dərin inteqrasiyada idi. İqtisadi əlaqələrin zəifləməsi nəticəsində həmin respublikalar və həmçinin respublikamızın da iqtisadiyyatı böhranlı hala düşmüşdür. Xammal, material, texnika və s. çatışmazlığı istehsal sahələrinin ardıcıl olaraq fəaliyyətini dayandırmışdır ki, bu da işsizliyin artmasına səbəb olmuşdur. Məhz buna görə də siyasi münasibətlərdən asılı olmayaraq MDB məkanında fəaliyyətdə olan dövlətlərlə, xüsusilə Mərkəzi Rusiya ilə hər cür iqtisadi əlaqəni nəinki, bərpa etmək, hətta onu getdikcə daha da dərinləşdirmək lazımdır. Bu həmçinin hər iki tərəf üçün müqabil bazarın formalaşmasının və inkişafını sürətləndirə bilər.

2. Məlumdur ki, hazırda respublikada əmtəə inhisarçılığı mövcuddur. Daha dəqiq desək ərzaq məhsullarının bəzilərinin topdan satışı inhisarı bir qrupun, tikinti materialların digər sənaye məhsulları bir qrupun əlindədir. Deməli, dövlət inhisara qarşı tədbirlər hazırlamalıdır. Hərçənd respublikada antiinhisar qanunu fəaliyyət göstərir, lakin onun təsir dairəsi kifayət deyildir.

3. Dövlət demonopolizasiyası həyata keçirmək funksiyasını ifadə etməlidir. Yəni bir məhsul istehsalının bir əldə toplanmasını məhdudlaşdırmalıdır.



downloaded from KitabYurdu.az

4. Dövlət ümumiyyətlə inhisarı dağıtmağa, onun təbii formasını saxlamağa çalışmalıdır. Təbii formada inhisar qalmalıdır. Bunu yox etmək mümkün deyildir.

5. Təbii inhisarın sərhədləri müəyyən edilməsi və onun tənzimlənməsi aparılmalıdır.

6. Demonopolizasiya və idarəetmə islahatlarının sinxronluğu saxlanılmalıdır.

7. İnhisara inzibati-iqtisadi sanksiyalar, maliyyə, kredit nəzarəti gücləndirilməlidir.

8. Ümumiyyətlə götürdükdə inhisarı dövlət heç vaxt yox edə bilmir. İnhisar bazar iqtisadiyyatı şəraitində daima mümkündür, vardır, lakin dövlət ona daima nəzarət etməli və onu tənzimləməlidir.



downloaded from KitabYurdu.az

## *FƏSİL VIII. MİLLİ İQTİSADİYYATDA TƏKRAR İSTEHSALIN TƏNZİMLƏNMƏSİ.*

### 1. *TƏKRAR İSTEHSAL İQTİSADİ KATEQORİYA KİMİ*.

«Təkrar istehsal» kateqoriyası ölkənin sosial-iqtisadi inkişafının keyfiyyət və kəmiyyət dəyişməsini xarakterizə edir. Öz mahiyyəti etibarə ilə təkrar istehsal iqtisadi proseslərin fasiləsizliyinin bərpasını ifadə edir.

«Təkrar istehsal» anlayışı iqtisadi nəzəriyyədə geniş istifadə olunsa da, son dövrlərdə «iqtisadi artım» məvhumuna daha çox diqqət yetirilir. İqtisadi artım makrosəviyyədə istehsalın kəmiyyət tərəflərini səciyyələndirir. Məsələn, ümumi daxili məhsulun, xalis milli məhsulun, milli gəlirin müqayisəli dövrdə artımı.

Lakin qeyd etmək lazımdır ki, təkrar istehsala nəinki maddi nemətlərin istehsalı və istehlakı aiddir, o habelə əhalinin, əmək resurslarının, işçi qüvvəsinin, sosial-iqtisadi münasibətlərin də tskrar istehsalını əhatə edir. Buna görə də «təkrar istehsal» kateqoriyası «iqtisadi artım» - anlayışından daha geniş hesab olunur. Digər tərəfdən «təkrar istehsal» kateqoriyasının istifadə olunması makroiqtisadi səviyyədə baş verən sosial-iqtisadi dəyişikliklərin mürəkkəbliyi ilə də təsdiq olunmuşdur.

«Təkrar istehsal» anlayışından ilk dəfə istifadə edən mütəfəkkir, fransız fiziokratlar məktəbinin banisi həkim F.Gene olmuşdur. (F.Gene 1694-1774 Fransa, Versal). Fransa kralı XV Lyudovikin saray həkimi olan F.Gene 1758-ci ildə «İqtisadi



downloaded from KitabYurdu.az

cədvəl»in ilk mətbəə çapını hazırlamışdır. F.Gene müasiri olduğu cəmiyyətin sinfi strukturunun belə bir təsvirini vermişdir: «Millət vətəndaşların üç sinifdən: məhsuldar sinifdən, sahibkarlar sinfindən və bəhrə verməyən sinifdən ibarətdir.». o, göstərmişdir ki, bu siniflər arasında məhsul istehsalı, bölgüsü, mübadiləsi və istehlakı mövcuddur. Deməli məhsulun təkrar istehsalı prosesi vardır. F,Gene həkim olduğu üçün cəmiyyətdə məhsulun təkrar istehsalının insan bədənində qan dövranının analogiyasına uyğun olduğunu qeyd etmişdir.

Dəyişilmə miqyasından (adətən 1 il) və keyfiyyətindən asılı olaraq təkrar istehsal fərqləndirilir:

1. Sadə təkrar istehsal
2. Geniş təkrar istehsal
3. Məhdud (dar) təkrar istehsal (məsələn müharibə və ya digər təbii fəlakətlərlə əlaqədar olaraq əhalinin həyat səviyyəsinin aşağı düşməsi)

Sadə təkrar istehsal maddi nemətlər istehsalının və xidmətlərin, işçi qüvvəsinin sosial-iqtisadi münasibətlərin dəyişilməz səviyyəsi ilə səciyyələnir. Geniş təkrar istehsalda isə parametrlərin iqtisadi artımı və dəyişilməsi nəzərdə tutulur. Sadə təkrar istehsalda izafi dəyər sahibkarlar tərəfindən tam istehlak olunursa, geniş təkrar istehsalda onun bir hissəsi yığıma ayrılaraq, istehsalın miqyasının, masştabının genişləndirilməsinə sərf olunur.

K.Marks (1818-1883-cü il) sadə təkrar istehsal sxeminin birinci variantını müəyyənləşdirərək fundamental bərabərlik vermişdir.



downloaded from KitabYurdu.az

$$V_1+m_1=C_2$$

Yəni birinci bölmədə istehsalolunmuş istehsal vasitələrindən $V_1+m_1$-qədəri, ikinci bölmədə istehsal olunmuş istehlak vasitələrindən $C_2$-qədərinə dəyişdirilməlidir – mübadilə olunmalıdır.

Sonradan K. Marks geniş təkrar istehsal sxemini vermişdir və bunun üçün

$V_1+m_1 \rangle C_2$ bərabərliyini yazmışdır. Yəni birinci bölmənin istehsal vasitələrindən $V_1+m_1$ qədəri, ikinci bölmədə istehsal olmuş istehlak vasitələri ilə dəyişdirilərək N-qədər yığım əldə edilmişdir. Yəni $V_1+m_1 \rangle C_2$ və $V_1+ m_1- C_2= N$

N- burada yığım fondunu əks etdirir.

Təkrar istehsal istehsal dövriyyə olmadan həyata keçə bilməz. Deməli təkrar istehsal ancaq müəyyən prosesin gedişində təmin olununr. Müasir döbvrdə təkrar istehsalın qarşılıqlı əlaqədə olan mərhələləri daima yeniləşir. Belə ki, təkrar istehsal mərhələsinə yeni istehsalın elmi təşkili fazası da əlavə olunmuşdur. Təkrar istehsalın hər bir fazası (istehsalın elmi təşkili, istehsal, bölgü, mübadilə, istehlak) özünəməxsus funksiyanı yerinə yetirsələrdə, ümumilikdə bütünlükdə təkrar istehsalın məqsəd və vəzifələrini təmin edirlər.

Təkrar istehalın qlobal vəzifəsi və son məqsədi əhalinin rəngarəng tələbatının ödənilməsidir. Təkrar istehsalın bu son nəticəsi eyni zamanda onun zəmininə xidmət edir. Cəmiyyətin həyatının əsasını isə istehsalın fasiləsizliyi, kəsilməzliyi təşkil edir.



downloaded from KitabYurdu.az

Bu onunla şərtlənir ki, istehlak tələbini ödəyən məhsulların daima istehsalı son nəticədə iş qüvvəsinin təkrar istehsalına səbəb olur. İş qüvvəsi isə təkrar istehsalın müəyyən edici amilidir. Deməli, istehsal vasitələrinin bərpa olunması yeni təkrar istehsal tsiklinin ilkin maddi əsası kimi çıxış edir. Bu funksiyanı təkrar istehsalın mərhələsi olan istehsal fazası yerinə yetirir. İstehsal fazasının funksiyası təkcə istehlak olunmuş maddi nemətlərin bərpası deyildir o, həmçinin əhalinin müxtəlif məhsulları daima artan tələbatının ödənilməsinə xidmət etməlidir. İstehsal fazasının mühüm funksiyalarından biri də keyfiyyət və kəmiyyət göstəricilərinin effektivliyinin artırılmasıdır ki, bunun üçün də istehsalın elmi hazırlanması zəruridir.

Təkrar istehsalın bölgü fazasının funksiyası ictimai istehsalın nəticələrinin və gəlirlərin bölüşdürülməsidir. Bu təsərrüfat subyektlərinə əmtəə və xidmət bazarına alıcılıq qabiliyyətli tələb təqdim etmək üçün imkan verir. Bu zaman eyni zamanda istehsal amillərinin bazar mexanizminin köməkliyi ilə həyata keçirilən və mülkiyyət münasibətləri ilə şərtlənmiş bölgüsü baş verir.

Mübadilə fazası əmtəələrin istehlakçılara çatdırılması mülkiyyət münasibətlərinin dəyişdirilməsi funksiyasını yerinə yetirir. Beləliklə, bu fazada təkrar istehsal prosesi real olaraq ictimai məhsulun bölgüsündə həyata keçirilmiş olur. İstehlak fazasında müxtəlif funksiyaları yerinə yetirir. Bu zaman istehlak şəxsi istehlak və ictimai istehlak formasında çıxış edir. Maddi nemətlərin şəxsi istehlakı, cəmiyyət üzvləriresursların səviyyəçsi artmadan eyni



downloaded from KitabYurdu.az

həcmdə təkrarlanır. Sadə təkrar istehsalda istehsalın səviyyəsinin genişlənməsi və yığım prosesi getmir. Lakin bu fikir müəyyən qədər mücərrəd formadadır. Belə ki, sadə təkrar istehsalda, istehsalın genişlənməsi müəyyən obyektlərin, sahələrin inşası kimi baş verir və bu istehsalın genişlənməsi kimi qəbul edilir. Sadə təkrar istehsalda həmçinin yığım prosesi də getmir. Lakin bununla da razılaşmaq olmaz. Belə ki, istehsalçılara əmək haqqı formasında verilən vəsaitin bir hissəsi yığıma gedə bilər. Geniş təkrar istehsalda isə istehsalın genişlənməsi və bunun üçün yığım fondunun yaradılması imkanları vardır. İlk dəfə K.Marks sadə və geniş təkrar istehsalın şərti rəqəmlər əsasında strukturunu vermiş və onun bölmələri arasında reallaşdırma-tarazlıq şərtlərini göstərmişdir.

K. Marks məcmu ictimai məhsulun dəyər quruluşunu belə ifadə etmişdir.

$$C+V+m=P$$

C – sabit kapital

V-dəyişən kapital

M – izafi dəyər

O, ictimai istehsalın birinci və ikinci bölmələrinin strukturunu və onlar arasında proporsionallıqları belə müəyyən etmişdir.

I – $4000\ C_1 + 1000V_1 + 1000\ m_1 = 6000\ P_1$

II – $2000\ C_2 + 500\ V_2 + 500\ m_2 = 3000\ P_2$

I – bölmə istehsal vasitələri istehsalı

II – bölmə istehlak şeyləri istehsalı

$P_1$ – birinci bölmənin məhsulu



downloaded from KitabYurdu.az

$P_2$ – ikinci bölmənin məhsulu

Bu bölmələr arasında tarazlıq şərtləri aşağıdakı kimi ifadə olunmuşdur.

## *2. TƏKRAR İSTEHSALIN MAKROİQTİSADİ MÜTƏNASİBLİKLƏRİ.*

Makroiqtisadi təkrar istehsalın effektivliyi ictimai istehsalın fəaliyyətinin mərkəzi məsələlərindədir. Təkrar istehsal prosesinin kəmiyyət kriteriyası, iqtisadi artım və onun effektivliyi hesab edilir. Təkrar istehsalın belə inkişafı bir neçə şəraitlərin olmasını zəruriləşdirir ki, bu da təkrar istehsalın reallaşdırılmasının tarazlıq şərtləri kimi çıxış edir.

Bildiyimiz kimi təkrar istehsal sadə və geniş təkrar istehsal proseslərini əhatə edir. Sadə təkrar istehsal cəmiyyətdə istehsalın səviyyəsinin dəyişməz olduğunu əks etdirir. Yəni istehsal:

1. $C_1 + C_2 = P_1$
2. $V_1 + m_1 = C_2$
3. $(V_1 + m_1) + (V_2 + m_2) = P_2$

$C_1 + C_2 = P_1$ – şərti onu göstərir ki, birinci və ikinci bölmələrdə fəaliyyət göstərən istehsal vasitələrinin cəmi birinci bölmənin ümumi məhsuluna bərabər olmalıdır.



downloaded from KitabYurdu.az

$V_1 + m_1 = C_2$ şərtində isə cəmi istehlak məhsulları $P_2$, birinci və ikinci bölmədəki istehlak məhsullarının cəmi ilə tarazlıq təşkil etməlidir.

İkinci bölmədə istehsal olunan istehlak məhsullarının cəmi ($P_2$) hər iki bölmədəki istehlakı ödəməlidir, yəni $P_2=(V_1 + m_1) + (V_2 + m_2)$

Məlumdur ki, cəmiyyətin dinamiki inkişafı üçün geniş təkrar istehsalnı olması vacibdir. Geniş təkrar istehsalın fəaliyyəti üçün isə vəsait lazımdır. Bu vəsait yığım fondundan meydana gəlir. Yığım fondunun mənbəi isə istehsaldır.

Buna görə də K.Marks birinci bölmənin məhsulunun dəyər strukturunu dəyişməz saxlayaraq, ikinci bölməni n ümumi məhsulunun dəyər strukturunda dəyişikliklik aparmışdır.

I. $4000\ C_1 + 1000\ V_1 + 1000\ m_1 = 6000\ P_1$

II. $1500\ C_2 + 750\ V_1 + 750\ m_1 = 3000\ P_2$

Geniş təkrar istehsalda I və II bölmələr arasında tarazlıq şərtləri dəyişərək aşağıdakı ifadələr formasını almışdır.

1. $C_1 + C_2 \langle\ P_1$
2. $V_1 + m_1 \rangle\ C_2$

Birinci halda bərabərsizlik bütünlükdə istehlak vasitələrinin hər iki bölmədəki istehlak vasitələrinin cəmindən çox olması əks etdirilir. İkinci bərabərsizlikdə isə I bölmənin istehlak vasitələrinin cəminin ikinci bölmənin istehsal vasitələrindən çox olması şərti qəbul edilir ki, buradan da yığım fondu formalaşır.



downloaded from KitabYurdu.az

Belə ki, $V_1 + m_1 \rangle$ C2 bərabərsizliyinin sağ tərəfini hər hansı bir N – simvolunu əlavə etsək yığım fondunu tapa bilərik.

$V_1 + m_1 = C_2 + N$

$V_1 + m_1 – C_2 = N$

N – yığım fondudur.

Bu ifadələri rəqəmlərlə izah etsək aşağıdakıları müəyyən etmək olar.

1000 + 1000 = 1500 =N

2000 – 1500 = N

N= 500

Məlumdur ki, birinci bölmənin izafi məhsulu 2 hissəyə ayrılır. Onun birinci hissəsi kapital sahibinin istehlakına, ikinci hissəsi isə yığıma istiqamətlənir. İzafi məhsulun 2 hissəyə ayrılması $\frac{m_1}{2}$ – deməkdir. Yəni $\frac{1000}{2}$=500=N-dir. Burada $\frac{m_1}{2}$ = N düsturu meydana gəlir ki, bu da izafi məhsulun bölgü proporsionallığını əks etdirir.

Yığım fondunun yaranması və təkrar istehsalın proporsionallığını başqa formada da göstərmək olar. Belə ki, $C_1 + C_2 \langle P_1$ şərtini bərabərsizlikdən bərabərliyə çevirmək mümkündür.

$$C_1 + C_2 + N = P_1$$

Birinci bölmədə məhsul istehsalı üçün lazım olan istehsal vasitələri həmin bölmənin ümumi məhsulunun 2\3 hissəsi qədərdir.



downloaded from KitabYurdu.az

Yəni $C_1 = \frac{2}{3} P_1$ ($C_1 = \frac{4000}{6000} = \frac{2}{3}$)

Bu ifadəni eynilə ikinci bölmə haqqında da söyləmək mümkündür.

Yəni $C_2 = \frac{1}{2} P_2$ ($C_2 = \frac{1500}{3000} = \frac{1}{2}$)

$C_1$ və $C_2$ –nin bu qiymətlərini $C_1 + C_2 + N = P_1$ düsturunda yerinə yazaraq bərabərliyi $P_1$-ə görə həll etsək aşağıdakıları ala bilərik.

$P_1 = C_1 + C_2 + N$

$P_1 = \frac{2}{3} P_1 + \frac{1}{2} P_2 + N$

$6P_1 = 4 P_1 + 3 P_2 + 6 N$

$6 P_1 – 4 P_1 = 3 P_2 = 6 n$

$2 P_1 = 3 P_2 = 6 N$

$P_1 = 1{,}5 P_2 + 3 N$

Rəqəmlərlə ifadə etmiş olsaq onda təkrar istehsal mütənasibliyinin ödənilməsini görərik:

$6000 P_1 = 3000 x 1{,}5 P_2 + 3 x 500$

$6000 P_1 = 4500 P_2 + 1500$

$6000 = 6000$

Bu onu göstərir ki, təkrar istehsalın tarazlığı, onun bölmələri arasındakı mütənasiblik təmin olunmuşdur.



downloaded from KitabYurdu.az

## *3. GENİŞ TƏKRAR İSTEHSAL RESURSLARI VƏ AMİLLƏRİ.*

Təkrar istehsal prosesinin təmin olunması, iqtisadiyyatın resurs bazası və onu hərəkətə gətirən iqtisadi və qeyri iqtisadi amillərin fəaliyyəti ilə şərtlənir. İqtisadi istehsal resursları, istehsalın təminatının mənbəyi və vasitələri kimi çıxış edirlər. Bu iqtisadi amillər məcmuuna əmək resursları (insan kapitalı), təbii (xammal), kapital (fiziki kapital), dövriyyə vasitələri (materiallar), informasiya, maliyyə resursları (pul kapitalı) daxildirlər.

Amillər dedikdə iqtisadi prosesə və onu nəticələrinə təsir edən şərait, səbəb, parametrlər və fəaliyyətlər nəzərdə tutulur. Beləliklə, geniş təkrar istehsalın amilləri istehsal resurslarında reallaşdırılan amillər kimi başa düşülür. Bu hər şeydən əvvəl təklif amilləridir, daha doğrusu istifadə olunan resursların kəmiyyətinin artması və keyfiyyətinin yüksəldilməsidir. Axırıncısına işçilərin təhsilinin və ixtisasının artması, istehsal texnologiyasının təkmilləşdirilməsi, informasiyaların müxtəlifliyi, sahibkarlığın inkişafını aid etmək olar.

Sonra isə kredit münasibətlərinin inkişafı və əhalinin gəlirlərinin artması əsasında məcmu tələbin yüksəlməsi amillərinə nəzər salınır.

Son nəticədə resursların bölüşdürülməsi amilləri nəzərə alınır ki, bunlarda istifadə olunan resursların effektivliyinin yüksəlməsini



downloaded from KitabYurdu.az

təmin edirlər. İxtiyari istehsal prosesinin əsas iştirakçısı insanlardır. Çünki, ancaq onların ağıl və güclərinin hesabına cəmiyyət üçün zəruri olan məhsullar istehsal edilir. Dövlətin malik olduğu işçi qüvvəsi və onun ixtisas səviyyəsi, millətin mentaliteti və onların məhsuldar əməyə can atması iqtisadi inkişafın nəticələrini müəyyən edən əsas amillərdirlər. Müasir dövrdə insan kapitalına istinad edilməsi, geniş təkrar istehsalın nəticələri nöqteyi nəzərdən daha effektli qiymətləndirilir.

Əmək potensialının keyfiyyətini müxtəlif parametrlərdən qiymətləndirmək olar. Məsələn, əmək qabiliyyətli yaşında olan əhalinin sağlamlığı, onların sayı, bu gün istehsalda çalışa bilən insan kütləsi və s. Əmək potensialını həmçinin əhalinin yaş quruluşuna görə də qiymətləndirmək olar.

Cədvəl 4.

Respublika əhalisinin yaş qrupları üzrə sayı
(min nəfər)

| | 2001 | 2002 | 2003 |
|---|---|---|---|
| 15 – 19 yaş | 815,5 | 848,2 | 874,2 |
| 20 – 24 «--» | 684,8 | 703,0 | 728,4 |
| 25 – 29 «--» | 610,5 | 619,3 | 624,3 |
| 30 – 34 «--» | 666,0 | 650,2 | 645,4 |
| 35 – 39 «--» | 696,0 | 691,5 | 677,5 |
| 40 – 44 «--» | 622,0 | 652,8 | 678,6 |
| 45 – 49 «--» | 396,4 | 434,4 | 469,1 |
| 50 – 54 «--» | 268,2 | 293,8 | 318,7 |
| 55 – 59 «--» | 153,3 | 148,6 | 158,8 |
| 60 – 64 «--» | 280,0 | 258,9 | 235,9 |
| 65 – 69 «--» | 206,2 | 228,5 | 234,0 |
| 70 –dən yuxarı | 274,2 | 282.7 | 303,2 |



downloaded from KitabYurdu.az

Cədvəlin göstəricilərinə diqqətlə nəzər yetirilərsə aşağıdakıları müşahidə etmək olar:

1. İnsanın iş qüvvəsinin ən məhsuldar dövrü kimi 30 – 40 yaş hesab edilirsə, respublikada bu yaş qrupunda əhali sayı 2001-ci ilə nisbətən 2003-cü ildə azalmağa meyllidir. Bununla əlaqədar olaraq belə demək mümkükdürsə, respublika iqtisadiyyatında məcmu iş qüvvəsinin azaldığını göstərmək olar. Çünki, bu yaş qrupundakı əhali mütləq əmək resurslarının tərkibinə daxildirlər.

2. Əhalinin 40 – 55 yaş arasındakı sayı artıma malikdir. Təbiidir ki, bu yaş qrupundakı əhali, 30 – 40 yaşında olan əhaliyə nisbətən daha az məhsuldardır. ( iş qüvvəsi baxımından). Deməli bu yaşda olan əmək resursu artırsa, iqtisadiyyatda çalışanların qocalması (köhnəlməsi) prosesi gedir. Bu isə arzu olunmazdır.

3. Əhalinin 55 – 65 yaş qrupundakı sayı da artmağa doğrudur. Əvvəlki qeyd etdiklərimizi də bu yaş qrupunda olan əmək resurslarına şamil etmək olar.

Yuxarıda qeyd olunanlara nəzərən göstərmək olar ki, ölkə hansı əmək potensialına malikdir, yaxın gələcəkdə dövlət yaşlı əhaliyə köməklik göstərmək üçün hansı xərcləri çəkmək zorunda qalacaqdır.

Məşğulluğun səviyyəsi və mütəxəssis strukturasının müəyyən edilməsində mühüm amildir. Bu informasiya əsasında əmək resurslarından səmərəli istifadə olunmasını, istehsalın genişləndirilməsi imkanlarını müəyyən etmək mümkündür.



downloaded from KitabYurdu.az

İşçi qüvvəsinin ixtisas səviyyəsi, onun istehsal mədəniyyəti, ölkənin malik olduğu işçi qüvvəsinin keyfiyyətinin qiymətləndirilməsinin əsas amillərindəndir. Çünki, işçilərin ixtisas səviyyəsi, onların mütəxəssis hazırlığı və onların cəmiyyət üçün zəruri olan sahələrdə çalışması ölkədə əmək potensialını qiymətləndirməyə imkan verir.

İstehsalın inkişafının müasir səviyyəsi, təhsilin mahiyyətinin artırılmasını müəyyən edir. Respublikada bu sahədə müəyyən problemlər vardır. Məsələn, ali təhsilin başa çatması müddəti uzundur. Belə ki, bakalavr pilləsi (4 il), magistr pilləsi (2 il), aspirantura (3 il), doktorantura (3 il) 10 il vaxt tələb edir. İnstituta qəbul olunan şəxs 17 yaşındadırsa o, təhsilini 27 yaşında başa vurmalıdır. Digər bir tərəfdən Respublikanın bu qədər ali təhsilli mütəxəssisə ehtiyacı vardırmı? Bu məsələnin özüdə araşdırılmalıdır.

Aşağıdakı cədvəlin məlumatlarına nəzər salaq:

Cədvəl 5.

Respublikada ali məktəblərin sayı.

| | 2000\2001 | 2001\200 | 2002\2003 |
|---|---|---|---|
| Dövlət ali məktəblərinin sayı | 25 | 25 | 26 |
| Tələbələrin sayı, min nəfər | 91,0 | 99,0 | 101,7 |
| Buraxılış min nəfər | 19,6 | 19,9 | 23,0 |
| Qəbul, min nəfər | 20,5 | 23,5 | 18,1 |
| Qeyri-dövlət ali məktəblərinin sayı | 18 | 15 | 15 |



downloaded from KitabYurdu.az

| | | | |
|---|---|---|---|
| Tələbələrin sayı, min nəfər | 28,7 | 21,5 | 18,3 |
| Buraxılış, min nəfər | 4,9 | 4,0 | 4,8 |
| Qəbul, min nəfər | 5,9 | 3,4 | 1,6 |

Göründüyü kimi respublikada 41 ali təhsil müəssisəsi fəaliyyət göstərir. Peşə təhsil haqqında məlumat «Azərbaycan Statistik göstəriciləri» məcmusun (2003-cü il) də yoxdur. Bu məlumatların hansı səbəbdən olmaması da məlum deyildir. Ümumiyyətlə, həmin statistik məcmuə tədqiqat üçün çox yoxsul göstəricilərə malikdir.

Müasir bazar iqtisadiyyatı şəraitində əmək resurslarından istifadənin effektivliyinin artırılmasına bazarın müxtəlif alətlərinin köməyi ilə nail olmaq mümkündür. Məsələn, İqtisadiyyatın müxtəlif sahələri arasında əmək resurslarının axınının və mobilliyinin stimullaşdırılması vasitəsilə, işsizlərə sosial yardımların diferensasiya edilməsinin genişləndirilməsi yolu ilə və s.

Təkrar istehsal prosesinin təmin olunmasında istehsal avadanlıqlarından səmərəli istifadə olunması da mühüm amil kimi qiymətləndirilməlidir. Sənayedə fəaliyyətdə asan mövcud istehsal güclərinin tam istifadə olunması, onların vaxtında çıxdaş edilməsi ETT-nin tələblərə cavab verməsi əsas məsələ kimi qarşıya qoyulmalıdır.

Azərbaycan Respublikasında iqtisadi inkişafın artımına nail olunması üçün əsas istehsal fondlarının daima artırılması və yeniləşdirilməsi prosesi getməlidir. Lakin bu məsələ bir o qədər də



downloaded from KitabYurdu.az

qənaətbəxş deyildir. Bunu aşağıdakı cədvəldən də görmək mümkündür:

[2]Cədvəl 6.

Əsas istehsal fondlarının dinamikası

| | 2000 | 2001 | 2002 |
|---|---|---|---|
| Sənaye istehsal fondlarının mövcudluğu mlrd. man. | 36309 | 40794 | 46991 |
| Fondların yeniləşməsi | 4,8 | 3,6 | 1,7 |
| Əsas fondların istifadəyə verilməsi mlrd. man. | 3334 | 3280 | 5812 |
| O cümlədən, dövlət | 2111 | 1568 | 919 |
| Qeyri-dövlət | 1222 | 1699 | 4993 |

Göründüyü kimi əsas fondların istifadəyə verilməsi ildən ilə artmaqdadır. Lakin bu prosesdə struktur dəyişikliyi baş vermişdir. Belə ki, dövlət bölməsində fondların fəaliyyətə başlaması azalmış, qeyri-dövlət bölməsində isə artmışdır. Digər bir tərəfdən isə fondların yeniləşdirilməsi əmsalı isə 4,8 %-dən 1,7%-ə enmişdir.

Əsas fondların yeniləşdirilməsi prosesi istehsalın genişləndirilməsi və dəstəklənməsi məqsədi ilə uzun müddətli kapital

[2] Az. Stat.rəq. 2003 səh 480-557



downloaded from KitabYurdu.az

qoyuluşu, investisiya vasitəsilə həyata keçirilir. Onun mənbəyi isə yığım və amortizasiya fondlarından ibarətdir. Azərbaycan Respublikasının iqtisadiyyatında ümumi gəlirdə yığımın xüsusi çəkisi 2000-ci ildə 27,5 %, 2001-ci ildə isə 29,9% olmuşdur.

Geniş təkrar istehsalın təmin olunmasının mühüm bir amili də elə bazar mexanizmi sayılır ki, elmi əsaslandırılmış dövlət tənzimlənməsi ilə rəqabət optimal ahəngdarlıq təşkil etmiş olsun. Bazar mexanizminin effektli fəaliyyətinin təmin olunması vasitələrindən biri rəqabət sayılır. Rəqabət məhsul istehsalçılarını onun istehsalına çəkilən xərcləri daima azaltmağa vadar edir. Belə olduğu halda onun məhsulunun qiyməti aşağı düşmüş olur ki, bu da daha çox məhsul satılması ilə nəticələnir.

İstehsal infrastrukturası da bu istiqamətdə hərəkət edir. Məsələn, qanunçuluq fəaliyyətinin mükəmməl olması, yeni firmaların yaranması prosesini tezləşdirir. Bununla da xərclərin azalmasına imkanları artırmış olur.

İnfrastruktura sahələrinin, rəqabətin və hüquqi əsasların mövcudluğu ölkədə istehsal prosesinin fəaliyyəti mühitini formalaşdırır. Beynəlxalq norma və normativlərə uyğun gələn bazar mühiti ölkənin milli iqtisadiyyatının dünya bazarında rolunu, iqtisadi münasibətlərini müəyyənləşdirir. Dünya bazarında yaranmış təmayül nəinki beynəlxalq əmək bölgüsündə ölkənin ixtisaslaşmasını habelə onun daxili məhsulunun artmasını, struktur dəyişikliklərinin aparılması imkanını genişləndirir. Müasir iqtisadi ədəbiyyatlarda makroiqtisadi amillərin dövlət tənzimlənməsi mexanizminin



downloaded from KitabYurdu.az

fəaliyyəti haqqında problem mübahisələr vardır. Bunlardan bir istiqamət neoklassik məktəbin doktorinasıdır. Neoklassiklər iqtisadiyyatın ümumiyyətlə dövlətin müdaxiləsini inkar edirlər. Lakin ayrı-ayrı amillərin nizamlanmasına dövlətin təsirini qəbul edirlər. Dövlətin vəzifə və funksiyasının ayrı-ayrı firmaların fəaliyyəti üçün əlverişli mühitin yaradılmasında görürlər.

Digər məktəbin nümayəndələri isə iqtisadiyyatda daima baş verə bilən tərəddüdlü inkişafın mövcud olduğunu qeyd edərək göstərirdilər ki, bununla əlaqədar iqtisadiyyat daima tənzim olunmalıdır.

Bizim fikrimizcə və iqtisadi inkişaf təcrübəsi göstərir ki, bütün dövlətlər iqtisadiyyatın inkişafına müdaxilə edirlər və makrosəviyyədə təkrar istehsalın resurslarının yaranmasına, bölgüsünə nəzarət edirlər. Lakin burada onu da qeyd etmək lazımdır ki, bu müdaxilənin sərhəddi real siyasi-iqtisadi durumla paralel getməli, ona uyğun olmalıdır.

## *4. MAKROİQTİSADİ TƏHLİLİN XÜSUSİYYƏTLƏRİ*.

***Birləşdirmə***. Makroiqtisadiyyatda parametrlərin birləşdirilməsindən istifadə olunur. Milli iqtisadiyyatın təhlilində dörd iqtisadi subyektlər bir-birindən fərqləndirilir.



downloaded from KitabYurdu.az

1. Ev təsərrüfatı bölməsi.
2. Sahibkarlıq bölməsi.
3. Dövlət bölməsi.
4. Qalan dünya.

Ev təsərrüfatı bölməsi, ölkənin daxili tələbatını ödəmək üçün məhsul istehsal edən bütün həlqələri özündə əks etdirir. Bütün istehsal amilləri ev təsərrüfatının mülkiyyətində olur. Onların satılması və icarəyə verilməsi ev təsərrüfatına gəlir götürməyə imkan verir ki, sonradan bu gəlir cari istehlaka və yığıma yönəldilir. Beləliklə, ev təsərrüfa üç növ iqtisadi fəallıq göstərmiş olur: 1. istehsal amilləri təqdim edir; 2. alınmış gəlirin bir hissəsini istehlak edir; 3. maddi nemətləri alır və onun bir hissəsini qiymətli kağızlar, daşınmaz əmlak alaraq yığıma yönəldir.

Sahibkarlıq bölməsi – ölkə daxilində fəaliyyət göstərən bütün firmaları birləşdirir. Onların fəaliyyəti istehsal amillərini almaqdan, istehsal olunmuş məhsul və xidmətləri satmaqdan, istehsalın əsasını dəstəkləməkdən ibarətdir. Başqa sözlə desək onlar iqtisadi aktiv meyl üç növdə özünü əks etdirir: 1. istehsal amillərinə tələbat, 2. maddi nemətlərin təklifi; 3. əsaslı vəsait qoyuluşu həyata keçirmək.

Dövlət bölməsi – bütün dövlət institutlarını və müəssisələrini birləşdirir. Dövlət ictimai əmtəə istehsal edir. Bu əmtəələr, sahibkarlıq və digər müəssisələrdə istehsal olunan əmtəələrdən onunla fərqlənirlər ki, onlar cəmiyyətin bütün üzvlərinə pulsuz verilir. Belə əmtəələrə daxildir; milli təhlükəsizlik, fundamental elmin inkişafı, sosial və istehsal infrastruktura xidmətləri. Dövlətin ictimai



downloaded from KitabYurdu.az

nemətlər istehsalçısı kimi fəaliyyəti özünü sahibkarlıq bölməsində məhsuldarlığın yüksəldilməsində, ev təsərrüfatında xərclərin azaldılmasında əks etdirir. Belə ki, əgər dövlət yol inşası ilə məşğul olmazsa bu zaman sahibkarləğən xərcləri artmış olur və ya dövlət təhsili olmazsa ev təsərrüfatı təhsil üçün pul verməli olar və s.

Dövlətin təsərrüfat fəaliyyətinin sahibkarlıq fəaliyyətindən fərqi ondadır ki, dövlət mənfəətin maksimumlaşdırılması iddiasını güdmür, onun məqsədi ümumi iqtisadi stabilləşdirməni həyata keçirməkdir.

Dövlət maddi nemətləri istehsal etmək üçün sahibkarlıq bölməsində yaradılmış istehsal vasitələrini satın alır. Maddi nemətləri alınması xərci ilə dövlət xidmətçilərinin əmək haqqı xərci birlikdə dövlət xərclərini təşkil edir. Həmin xərclərin örtülməsi mənbələri isə ev təsərrüfatından və sahibkarlardan alınan vergilər təşkil edir. Dövlət büdcəsinin xərclərində əhəmiyyətli hissəli ev təsərrüfatına (təqaüd və yardımlar) və sahibkarlara (dotasiya və subvensiya) verilən ödəmələr tutur. Dövlət cari xərclərdən əlavə ictimai məhsulun istehsalı üçün real kapitala investisiya həyata keçirir.

İqtisadi konyukturaya təsirinə görə dövlətin real kapital qoyuluşu, onun silah almağa və məmurların saxlanılmasına çəkilən xərcləri fərqlidir. Sadə olmaq üçün belə nəzərə almaq olar ki, bütün investisiyaları xüsusi bölmə həyata keçir, dövlət büdcəsi isə ancaq ictimai məhsul istehsalına sərf olunur. Dövlətin mühüm iqtisadi funksiyalarından biri mərkəzi bank tərəfindən milli iqtisadiyyatın



downloaded from KitabYurdu.az

normal fəaliyyətinin təmin olunması, pul təklifini həyata keçirmək və onu tənzimləməkdir. Beləliklə, makroiqtisadi subyekt kimi dövlətin iqtisadi aktivliyi büdcənin xərclənməsində, vergilərin yığılmasında və pul təklifində büruzə çıxmış olur.

Qalan dünya ölkə xaricində mövcud olan müəssisə, təşkilat və dövlət institutlarını əhatə edir. Xarici iqtisadi subyektlərin ölkəyə təsiri qarşılıqlı məhsul və xidmətlər mübadiləsi, investisiya qoyuluşu və milli valyutanın dəyişdirilməsi vasitəsilə həyata keçirilir.

İqtisadi aktivliyin bu xüsusi növlərindən başqa qeyd olunan iqtisadi subyektlər kredit və borcların alınıb verilməsi vasitəsilə də qarşılıqlı əlaqədə olurlar.

***Makroiqtisadi qarşılıqlı əlaqə***. Makroiqtisadi birləşdirmə nəticəsində milli iqtisadiyyatın fəaliyyəti dörd birləşdirilmiş bazarda dörd iqtisadi subyektlərin qarşılıqlı fəaliyyətində təsvir olunur. Yuxarıda qeyd edildiyi kimi milli iqtisadiyyatın dövlət və xüsusi bölməsində dövlətin iştirakı bazar və qeyri bazar əlaqələri ilə də həyata keçirilir. Əyani olaraq bu əlaqəni aşağıdakı sxemdə vermək olar.



downloaded from KitabYurdu.az




1. Maddi nemətlər təklifi.
2. Ev təsərrüfatının maddi nemətlərə tələbi.
3. İnvestisiyaya tələbat.
4. Dövlətin maddi nemətlərə tələbatı.
5. İxrac.



downloaded from KitabYurdu.az

6. İdxal.
7. Əmək təklifi.
8. Əməyə tələbat.
9. Pula tələbat.
10. Pul təklifi.
11. Qiymətli kağızlar təklifi.
12. Qiymətli kağızlara tələbat.
13. Vergilər.

Bu əlaqələr makroiqtisadi təhlilin əsaslarını təşkil edir. Hansı əlaqənin əsas olduğunu təhlilin məqsədindən asılıdır. Məsələn, inflyasiyanın mahiyyəti izah edilərkən dövriyyədə olan pul kütləsi, istehsal xərcləri və milli valyutanın məzənnəsi diqqət mərkəzində saxlanılır və ya iqtisadi artım mexanizmi təhlil edilirsə investisiya, əhalinin artım sürəti və texniki tərəqqi əsas götürülür. Modelləşdirilən qarşılıqlı əlaqələr və proseslər riyazi bərabərliklər formasında yazılır. Tədqiq edilən obyektin modeli özündə iki qrup elementləri əks etdirir: modelin qurulması momentinə mövcud olan məlum parametrləri və modelin təhlili nəticəsində müəyyən edilməli olan məchul kəmiyyətlər.

Makroiqtisadi model qurularkən adətən dörd tip funksional bərabərliklərdən istifadə olunur.

1. Cəmiyyətdə üstünlüyü ifadə edən hərəkət funksiyası. Ev təsərrüfatının gəlirlərinin istehlaka (C) və əmanətə yığıma (S) bölgüsü qanununa uüğunluğunu ifadə edən funksiya:



downloaded from KitabYurdu.az

C= C(y)  S= S(y)

C – ev təsərrüfatının istehlakının real həcmi.

S- əmanətə yığımın həcmi

y – milli gəlirin real kəmiyyəti həcmi.

Beləliklə, milli gəlirin həcmi (y) arqument kimi artıb-azalarsa bu ev təsərrüfatının istehlakının həcminin dəyişilməsinə səbəb olur. Yəni funksiyanın kəmiyyəti dəyişir.

2. İstehsalın texnoloji şərtlərini səciyyələndirən funksiya daha müfəssəl desək məhsul istehsalının buraxılışının istehsal amillərindən istifadədən asılılığı funksiyası.

Y= y (N.К)

Y- milli gəlirin real kəmiyyət həcmi

N – əməyin miqdarı (işçi vaxtı, işləyənlərin sayı)

К –kapitalın real həcmi

3. İnstitusional funksiya. Modelin parametrləri arasında institusional asılılıq. Məsələn vergi daxil olmalarının cəmi (T) gəlirin kəmiyyəti və vergi stavkasından asılılıq funksiyası

$$\frac{T_y}{T} = T_y y$$

T- vergi məbləği

$T_y$ – gəlir vergisi stavkası

Y – milli gəlirin real həcmi



downloaded from KitabYurdu.az

İqtisadi hadisənin şifahi () verbalnı müəyyənliyinə uyğun gələn əlaqəni göstərən şərh (definisionnı) funksiyası

Məsələn, bazarda məcmu tələbi əks etdirən funksiya ($y^D$) ifadə edir, ev təsərrüfatının istehlak tələbatı (c), sahibkarlıq bölməsinin investisiya tələbatı (İ), dövlət tələbatı (Ç) və xarici tələbat (E). Bu müəyyənlikləri aşağıdakı eynilik şəklində göstərmək olar:

$y^D$= C + İ + Ç + E

Makroiqtisadi modellərdə endogen (qohum) ekzogen (qohum olmayan, yad) parametrlərin müəyyənliyindən istifadə olunur.

Endogen parametrlərə, göstəricilərə modelin təhlili nəticəsində alınan milli gəlirin həcmi, məşğulluq səviyyəsi, əmək haqqı stavkası, faiz stavkası, qiymət səviyyəsi aiddirlər.

Ekzogen parametrlərə isə hərəkət funksiyası əsasında müəyyən edilən istehsal texnologiyası aiddir ki, bu da bazarda tələb və təklifdən asılı olaraq müəyyən edilir.

***Ümumi iqtisadi tarazlıq***.

Bu iqtisadiyyatın elə vəziyyətidir ki, istehsalın həcmi və mübadilə mütənasibliklərində bütün bazarlarda eyni vaxtda tələb və təklif arasında tarazlığa nail olunmuşdur və eyni zamanda bazar iştirakçılarının heç biri alqı-satqı mövqelərini, imkanlarını dəyişdirmək fikrində deyildirlər. İqtisadi tarazlıq təhlilin «ex -ante» kateqoriyasına aiddir. (keçmişin əleyhinə) yəni ötən dövrdə tələb və təklif həmişə bir-birinə bərabərdir, keçən dövrdə istehsal olduğu qədər məhsul satılmışdır. Ümumi iqtisadi tarazlığın vəziyyətinin müəyyən edilməsi, bazar münasibətlərinin bütün iştirakçılarının



downloaded from KitabYurdu.az

hansı şəraitdə nəzərdə tutulmuş məqsədlərinin reallaşdırılmasının aydınlaşdırılması deməkdir. Buna görə də iqtisadi tarazlıq nəinki, təklif olunan maddi nemətlərin həcmi və strukturunun habelə bazarın hər bir iştirakçısının nəzərdə tutulmuş planını yerinə yetirilməsinə uyğun gəlməlidir. Məsələn, 2002-ci ildə Azərbaycan Respublikasında satışın bütün növləri üzrə pərakəndə əmtəə dövriyyəsi 13442,3 mlrd. manat olmuşdur. Lakin bu heç də o demək deyildir ki, istehlak bazarında ümumi tarazlığa nail olunmuşdur. Bununla yanaşı məlum olmalıdır ki, istehsalçılar məlum xərclərlə həmin qədər məhusl satmaq arzusunda idilər və istehlakçılarda həmin miqdarda məhsul almaq istəyirdilər. Başqa sözlə desək istehsalçılarda tələbə uyğun olmayan məhsul ehtiyatı və istehlakçıların isə ödənilməmiş tələbatı qalıb yoxsa yox.

Ümumi iqtisadi tarazlığa nail olunması heç də o demək deyildir ki, bazarın hər bir iştirakçısı öz vəziyyəti ilə tam razıdır. Tarazlılıq sadəcə olaraq mövcud şəraitdə bazar iştirakçılarının hər birinin vəziyyətinin digərinin vəziyyətinə ziyan vermədən yaxşılaşdırmaq imkanının olmaması faktını təsdiq edir. Çünki parato qanununa əsasən bir iqtisadi subyektin vəziyyətinin yaxşılaşdırılması digər iqtisadi subyektin vəziyyətinin pisləşməsi hesabına aparıla bilməz. Belə ki, əgər bir iqtisadi subyektin iqtisadi vəziyyətinin yaxşılaşdırılması imkanı vardırsa, ümumi qanunauyğunluğa əsasən digər iqtisadi subyektlərin də vəziyyətinin keçmiş dövrə nisbətən müqayisəli artımı olmalıdır. Yəni ümumi



downloaded from KitabYurdu.az

iqtisadi tarazlılıq optimallığa uyğun olmalıdır ki, bazar iştirakçılarının hər birinin iqtisadi marağına ziyan dəyməsin.

Ümumi iqtisadi tarazlılıq bazar iqtisadiyyatının tipik vəziyyəti deyildir. Çünki ayrı-ayrı suveren iqtisadi subyektlərin tərtib etdikləri plan təsadüfi halda bir-birinə uyğun gələ bilər. Tələbatın və texnologiyaların daima dəyişkənliyi iqtisadiyyatı bir tarazlıq vəziyyətindən digər tarazlıq vəziyyətinə keçməsinə vadar edir. Bununla əlaqədar demək olar ki, iqtisadiyyat nəinki, tarazlıq vəziyyətində daha çox qeyri tarazlıq vəziyyətində olur. Lakin bazar iştirakçılarının hərəkəti iqtisadiyyatı daima tarazlılıq vəziyyətinə doğru itələyir. Bu hal o vaxta qədər davam edir ki, bazar subyektlərinin planları konyuktura nəzərə alınmaqla tələb-təklif tarazlığına uyğunlaşmış olsun. İqtisadi siyasət və cari konyukturanın spesifikliyini dərk etmək üçün tarazlığın dəyanətli və dəyanətsiz olduğunu müəyyən edilməsi vacibdir. Əgər tarazlılığı pozan ekzogen impulslar sistemin daxili güclərinin təsiri nəticəsində tarazlıq vəziyyətinə sərbəst gəlməyə imkan verirsə, bu zaman iqtisadiyyatın tarazlılığı dəyanətli sayılır, əgər tarazlıq sərbəst bərpa olunmursa, bu zaman iqtisadi tarazlıq dəyanətsiz hesab edilir. Buna görə də ümumi iqtisadi tarazlıq şəraitinin müəyyən edilməsi ilə yanaşı, tarazlığın stabil olub olmadığı tədqiq edilməlidir.

İqtisadi hadisələrin tədqiq edilməsi vaxtına nəzərən, təhlilin üç növü fərqləndirilir: statistiki, müqayisəli statistik və dinamiki.

Statistik təhlil zamanı endogen parametrlərin hansı mahiyyətində tarazlığın təmin olunması imkanları müəyyən edilir.



downloaded from KitabYurdu.az

Bu zaman statistiki model tətbiq edilir. Yəni bütün parametrlər eyni dövrü əhatə edirlər. Belə modellər də nəzərə alınır ki, endogen parametrlə ani bir vaxta ekzogen parametrlərin dəyişilməsinə səbəb olur. Əgər statistik modeldə bir dövrdə ekzogen parametrlərin mahiyyəti digər mahiyyətlərlə dəyişdirilərsə bu zaman modelin tədqiqi endoksin parametrlərin yeni kəmiyyətini vermiş olar ki, təhlilin bu üsulu müqayisəli statistki təhlil adlanır. Bu müxtəlif vaxtlarda endogen parametrlərin mahiyyətini müəyyən etməyə imkan versə də bir tarazlıq vəziyyətindən digərinə keçilməsi prosesini açıqlamır. Müqayisəli statistik təhlilin əsas məqsədi ekzogen parametrlərin endogen parametrlərin dəyişilməsinə bu və ya digər formada təsirinin qiymətləndirilməsidir. (məsələn, dövlət xərclərinin artması investisiyanın həcminə necə təsir göstərir.). İqtisadi tarazlığın bir vəziyyətindən digərinə keçməsi prosesi dinamiki təhlil vasitəsilə tədqiq edilir və dinamiki modeldə əks olunur. Bu zaman müxtəlif dövrlərdə mövcud olan dəyişənlərin bir vəziyyətdən digərinə keçməsi tədqiq edilir. Yəni əvvəlki dövrün göstəricilərinin sonrakı dövr göstəricilərinə çevrilməsi prosesi tədqiq edilir. Bu dinamiki sıraların qurulması vasitəsilə həyata keçirilir.

Beləliklə, makroiqtisadi təhlilin ümumi məntiqi, əvvəlcə bazarların hər birində tarazlığın şərtlərinin müəyyən edilməsindən sonra bütövlükdə bazar sisteminin tarazlığının yaradılmasından ibarətdir. Bu zaman mikroiqtisadi təhlildən məlum olan Valras qanunundan istifadə olunur. Əgər qarşılıqlı əlaqədə olan n qədər



downloaded from KitabYurdu.az

bazardan (n - 1) –n də tarazlıq vardırsa, onda sonuncu bazarda da tarazlıq olacaqdır.

## *FƏSİL IX – İQTİSADİ ARTIMIN DÖVLƏT TƏNZİMLƏNMƏSİ.*

### *1. SOSİAL-İQTİSADİ İNKİŞAFIN ƏSAS ŞƏRTLƏRİ.*

Milli istehsaln iqtisadiyyat artımı dedikdə elə inkişaf səviyyəsi nəzərdə tutulur ki, məhdud resurslar və məlum məkan sərhəddində iqtisadi fəaliyyətin nəticəsində ölkənin milli gəliri artmış olsun. İqtisadi artım nəzəriyyəsi, məşğulluq nəzəriyyəsi ilə əlaqədardır. Lakin onları funksional vəzifələri müəyyən qədər fərqlənir. Belə ki, məşğulluq nəzəriyyəsi belə bir suala «Nə etmək lazımdır ki, mövcud istehsal fondlarından tam istifadə olunsun» cavab verirsə, iqtisadi artım nəzəriyyəsi sualı belə qoyur: «Tam məşğuliyyət şəraitində negə etmək olar ki, istehsal güclərinin və ya ÜDM-un həcmi artmış olsun.»

Nə üçün iqtisadi artıma mühüm iqtisadi məqsəd kimi baxılır? Bu sualın cavabını belə izah etmək olar ki, əhalinin hər nəfərinə düşən ümumi məhsulun artması, həyat səviyyəsinin yüksəlməsidir. Məhsulun real həcminin artması, xərclərin minimumlaşdırılması prinsipinə cavab verərək maddi bolluq yaradır. Bununla da artımla inkişaf edən iqtisadiyyat beynəlxalq miqyasda və ölkə daxilində sosial iqtisadi problemlərin həllinə və yeni istehlak tələblərinin ödənilməsinə imkan verir. Artımla inkişaf edən iqtisadiyyat, illik real məhsulun artımı ilə müşayiət olunur. Bu isə öz növbəsində mövcud



downloaded from KitabYurdu.az

istehlak tələbinin ödənilməsinə və yeni proqramların tərtibinə şərait yaradır. Əhalinin əmək haqqının yüksəlməsi, onların firavan həyat tərzini genişləndirir.

İqtisadi artım yeni proqramların həyata keçirilməsinə, yoxsulluğun aradan qaldırılmasına, ətraf mühitin çirklənməsinin qarşısının alınmasına və s. imkan verir. İqtisadi artım mövcud resurslardan səmərəli istifadə olunması imkanlarını artırır. İqtisadi artım cəmiyyətin qarşıya qoyduğu problemlərin həlinə yardım edir. Bu iqtisadi artımın mahiyyətindən irəli gələn məsələlərdir.

Müasir dövrdə iqtisadi artımın fasiləsizliyi və dinamikliyi dövlətin sosial-iqtisadi siyasətinin fundamental strateji məqsədidir. Adətən iqtisadi inkişafın əsas iki tipi bir-birindən fərqləndirilir.

İnkişafın ekstensiv tipi istehsal amillərindən istifadənin geni şləndirilməsi yolu ilə iqtisadi artıma nail olunmasıdır. Məsələn, istehsalın texniki bazasının saxlanılması halında məhsul istehsalı üçün daha çox resursların cəlb edilməsi.

İqtisadi artımın ekstensiv tipinin əsas amilləri bunlardır:

- işçilərin sayının artırılması;
- iş vaxtının artırılması;
- əsas və dövriyyə fondlarının artırılması;
- texnologiyanın stabil vəziyyətin investisiyaların artırılması;
- əməyin təşkili.



downloaded from KitabYurdu.az

Ekstensiv tipli inkişafda bəzi hallarda təsərrüfatçılıq effekti arta bilər. Buna «miqyas effekti» deyilir. «Miqyas effekti» müəssisə çərçivəsində məhsul istehsalında daimi xərclərin azaldılması yolu ilə qənaət əldə edilmsidir. Bu istehsalın ixtisaslaşmasının dərinləşməsi imkanlarını artırır, əmək məhsuldarlığını artıran təkmil istehsal güclərinin tətbiqini təmin edir.

İnkişafın intensiv tipi-iqtisadi artımın istehsal prosesində daha təkmil istehsal amillərinin tətbiqinə və mövcud güclərdən daha məhsuldar istifadə olunmasına əsaslanır. İqtisadi inkişafın intensiv tipinə aşağıdakı amillər təsir göstərir:

- yeni texnika və texnologiyaların hazırlanması və tətbiqi;
- işçilərin ixtisasının artırılması;
- istehsal tsiklinin qısaldılması;
- mövcud fondların dövriyyəsinin artırılması;
- iqtisadiyyatda struktur dəyişikliklərin aparılması;
- istehsalın təşkilinin yaxşılaşdırılması;
- məhsulun resurs tutumunun aşağı salınması.

İntensiv inkişafın son nəticəsi dövriyyə cəlb olunan istehsal resurslarının hər vahidinə son məhsul çıxımının yüksəldilməsidir.

İqtisadi artımın ekstensiv və intensiv tipləri qarşılıqlı əlaqədədirlər. Onlardan birinin digərindən üstünlüyü istehsalın ekstensiv tipində inkişafı və ya intensiv inkişaf etdiyini müəyyənləşdirməyə imkan veri r.



downloaded from KitabYurdu.az

Son dövrlərdə iqtisadi inkişafın innovasiya tipi də geniş yayılmağa başlamışdır. İqtisadi artımın bu tipi digərlərindən öz məqsədyönlülüyü ilə fərqlənir. Bu zaman yeni texinkanın yaradılması və daima yeniləşən məhsul istehsalı nəzərdə tutulur. Yeni texnikanın tətbiqi əməyin elmi təşkili və motivləşdirilməsi də bu tipə aiddir. Nəhayət innovasiya tipində istehsal daxili yeniliklərin nəzərə alınması diqqət mərkəzində durur. Onun xüsusiyyəti iqtisadi artımın effektivliyini təmin edir.

Professor Meybulluyev M. İqtisadi artım nəzəriyyəsi haqqında «Bazar sistemi və iqtisadi artım» (Bakı - 1996) kitabında ətraflı izah verərək göstərmişdir ki, iqtisadi artım nəzəriyyəsi təsərrüfatçılığın inkişafının uzun və qısa müddətli meylini, eləcə də dalğavari hərəkətini təhlil etməyə imkan verir. Başqa sözlə, təsərrüfatçılıqda mövcud olan artım və azalma, sabit və durğunluq meyllərinin iqtisadi artımın hərəkətini təhlil etməklə müəyyənləşdirmək olar. İqtisadi tsikl üçün xarakterik olan iqtisadi həyatdakı tərəddüdlərin, iqtisadi göstəricilərin hərəkətindəki böhranların baş verməsi və enməsi artım nəzəriyyəsi üçün də xarakterik hal alır.

Bir cəhəti xüsusi qeyd etmək lazımdır ki, artım nəzəriyyəsi əgər ümumi müvazinətin yaranmasını və qorunmasını təsvir edirsə, iqtisadi dinamikanı əks etdirən uzunmüddətli və dalğavari tsiklin nəzəriyyəsi isə ümumi müvazinətdən kənarlaşmanı əks etdirir. Məhz bunun nəticəsidir ki, ümumi müvazinətin təsvir olunması üçün



downloaded from KitabYurdu.az

iqtisadi artımın uzunmüddətli və dalğavari hərəkətinin inkişaf şəraitindəki kəsb etdiyi xüsusiyyətləri aydınlaşdırmaq zəruriləşir.

İqtisadi inkişafın iki mühüm tərəfi olan iqtisadi artım və iqtisadi tsikl ümumi müvazinətin əks olunmasında qarşılıqlı əlaqədə olur və iqtisadi dinamikanın əks etdirilməsində vəhdət halını alır. İqtisadi artımın bu və ya digər şəraitdə iqtisadi tsikl ilə birləşməsi iqtisadi aktivliyi əks etdirir. Aydın olduğu kimi iqtisadi aktiv birdən-birə heç cür baş verə bilməz. Çünki aktivlik üçün iqtisadi şəraitin yaradılması ümumi müvazinətin gedişatından asılıdır. Daha doğrusu, müvazinətin yaranması müəyyən tərəddüdlü proseslərin gedişatı ilə əlaqədar olduğundan iqtisadi artımın uzun, qısa müddətlərdə və ya dalğavari olaraq baş verməsinə səbəb olur. Məsələnin mahiyyətinə bir qədər dərindən vardıqda aydın olur ki, iqtisadiyyatdakı tərəddüdlü proseslərin gedişatı bir qayda olaraq təbii və əmək resurslarından, kapital və texniki-tərəqqi amillərindən asılı olsalar da lakin burada istehsalın mövsümü xarakteri, demoqrafik vəziyyət, əsas kapitalın yeniləşməsi prosesində ciddi rol oynayır. Belə ki, istehsalın tərəddüd halına düşməsində başqa sözlə il ərzindəki iqtisadi aktivliyi təsir göstərən mühüm amillərdən biri mövsümlükdür.

Ümumi formada götürdükdə isə iqtisadi inkişafın tərəddüdlü hərəkətini aşağıdakı qrafik formasında göstərmək olar:



downloaded from KitabYurdu.az

İqtisadi artım təmayülü Şəkil 12.




Göründüyü kimi iqtisadi aktivlik müəyyən dövrlərdə tərəddüdlü hərəkət edir. Bu dövr tərəqqi (zirvə) və tənəzzül (aşağı nöqtə) arasında tərəddüd edir. Müəyyən dövrə ərzində iqtisadi artımın tərəddüdlü hərəkətinə diqqət yetirilərsə bu prosesin sənaye, kənd təsərrüfatı, tikinti və s. sahələr üzrə fərqli olduğunu görmək mümkündür. Bunu Azərbaycanın iqtisadiyyatının inkişafında görmək olar.



downloaded from KitabYurdu.az

Şəkil 13.






downloaded from KitabYurdu.az

Cədvəldən göründüyü kimi respublika iqtisadiyyatının sahələrində inkişafın tərəddüdlü vəziyyəti mövcud olmuşdur. Sıçrayışlı inkişaf 1998-2000-ci illər sənayedə müşahidə olunur. Kənd təsərrüfatı, rabitə, nəqliyyat sahələrində sıçrayışlı inkişaf yox, ardıcıl inkişaf müşahidə olunur. Tikinti sahəsində isə inkişaf aşağıya doğru meyllidir. Bu tikinti sahəsində dövlət bölməsinə nisbətən özəl bölmənin xüsusi çəkisinin yüksək olması ilə əlaqələndirilə bilər.

İqtisadi artımın tərəddüdlü vəziyyətə düşməsi və ya kəsikli hərəkəti demoqrafik sahədə baş verən dəyişikliklərdən asılıdır. Buna misal olaraq aclıq, yoluxucu xəstəlikləri və ya müharibənin baş verdiyi şəraitdə ölüm və doğum sahəsində kəskin dəyişiklikləri göstərmək olar. Belə hallarda ölənlərin sayı durmadan artır. Lakin doğum səviyyəsi həddindən artıq aşağı düşür. Bu isə öz növbəsində uzun müddət həm əhalinin sayına, həm dəməşğul olanların sayına ciddi təsir göstərir ki, bu da iqtisadi inkişafın dinamikasını ləngidir.

İqtisadi artımın tsiklik hərəkəti müxtəlif səbəblərdən asılı olaraq baş verir. Bunların bəzilərinə diqqət yetirək.

1. Bazarın özünün tənzimlənməsinin təşkil olmaması. Yüksək iqtisadi konyuktura, istehsala əlavə resurslar cəlb edərək gəliri və tələbi artırır. İstehlak tam təmin olunma nöqtəsinə çatdığı vəziyyətinə istehsal tez davab verə bilmir. Bu informasiya istehsalçılara müəyyən zəncirvari hərəkət əsasında çatır. İnformasiyanın istehsalçıya çatdığı müddət ərzində isə məhsul istehsalı öz əlamətinə görə davam edir və müəyyən dövrdən sonra artıq məhsul yaranmış olur ki, bu da böhran tsiklinin yaranmasına



downloaded from KitabYurdu.az

səbəb olur. İqtisadiyyatda böhranlı tsiklin yaranmasının özüdə müxtəlif hallarla əlaqədardır. Məsələn, bir sahənin təbii köhnəlməsi digər sahənin inkişafına səbəb olur. Bu isə məhsuldar qüvvələrin yerləşdirilməsində disproporsiya yaradır. Nəticədə istehsalda tənəzzül baş verir. Başqa bir səbəb ETT-nin inkişafı ilə əlaqədardır. Belə ki, yeni texnika və texnologiyanın yaranması fiziki və mənəvi köhnəlmiş fondların dəyişdirilməsinin zəruriləşdirir. İstehsal vasitələri istehsal edən sahələrdə istehsalın tsiklik vəziyyəti yaranır ki, bu da digər sahələrə təsir göstərir. Digər bir səbəb əmək məhsuldarlığının yüksəlməsi ilə əlaqədardır. Belə ki, ETT-nin inkişafı müəyyən sahədə əmək məhsuldarlığının yüksəldərək, istehsal xərclərinin azalmasına səbəb olur. Nəticədə eyni tipli avadanlıqla təmin olunmuş istehsal sahələri arasında qeyri mütənasiblik yaranır. Nəticədə yenə də böhran vəziyyəti yaranır.

İqtisadi tsiklin hərəkəti müəyyən mərhələlərlə müşayiət olunur ki, bunu aşağıdakı qrafikdən görmək mümkündür.

Şəkil 14.






downloaded from KitabYurdu.az

iqtisadi tsikl

**Böhran** – artan qeyri mütənasibliklərin artması nəticəsində mövcud tarazlığın qəflətən pozulmasıdır. Tələb azalır. Təklif artıqları baş verir.

Əhalinin alıcılıq qabiliyyətinin aşağı düşməsi satışın həcminə təsir göstərir. Bütün iqtisadi göstəricilər aşağıya doğru meyllərin. Əmək haqqı aşağı düşür, qiymətlər yüksəlir, inflyasiyaya başlayır, müəssisələrin gəliri azalır.

**Durğunluq** – bu mərhələdə müəyyən stabilləşmə gedir. Makroiqtisadi göstəricilərin və ÜDM –un aşağı düşməsi dayanır. Müəyyən səviyyədə ssuda faizi azalır, əmək haqqı və işsizlik stabilləşir.

**Canlanma** – bu mərhələdə yavaş-yavaş istehsalın artımı başlayır. Bu mərhələdə bütün iqtisadi göstəricilər artıma doğru meyllidir.

**Yüksəliş** – bütün iqtisadi göstəricilər doğrudur. İstehsalın inkişafı maksimum səviyyəyə çatdıqdan sonra yenidən iqtisadi tsiklik mərhələləri təkrar olunur.

İqtisadi artımın effektliyi, istehsal və qeyri istehsal sferasının, ümumiyyətlə cəmiyyətin maddi rifahının yaxşılaşmasında mühüm rola malikdir. Çünki, iqtisadi artıma nail olunması öz əksini əhalinin əmək haqqının artmasında, iş, istirahət, məişətinin yaxşılaşmasında büruzə verir.



downloaded from KitabYurdu.az

## *2. İQTİSADİ ARTIMIN GÖSTƏRİCİLƏRİ*.

İqtisadi inkişaf dinamikasını qiymətləndirmək üçün, məcmu məhsulun istehsalı istehlakını səciyyələndirən, göstəricilərdən istifadə olunur. Bu məhsul təsərrüfat subyektləri tərəfindən istehsal olunur və həmin subyektləri iki tipə; rezident və qeyri rezidentə ayırırlar.

Hər hansı bir ərazidə, bir ildən az yaşamayan, milli mənsubiyyəti və vətəndaşlığından asılı olmayaraq öz marağını ölkənin marağına uyğunlaşdıraraq fəaliyyət göstərən subyekt iqtisadi rezident sayılır. (müəssisə, təşkilat, ev təsərrüfatı və s.)

Qeyri rezidentlər isə elə təsərrüfat vahidləri hesab olunur ki, onlar xarici ölkələrin ərazisində fəaliyyət göstərirlər.

Rezident və qeyri rezidentlərin istehsal etdikləri məhsul və xidmətləri hesablamaq üçün iqtisadi artımın ümumiləşdirici göstəricilərindən istifadə olunur. Bu məqsədlə dünya təcrübəsində daha çox yayılmış və istifadə olunan aşağıdakı sintetik göstəricilərdən istifadə olunur:

1. Ümumi daxili məhsul.
2. Ümumi milli məhsul.

İqtisadiyyatın makrosəviyyədə təhlilində mərkəzi göstərici Ümumi Daxili Məhsul (ÜDM) sayılır. İkinci mühüm göstərici Ümumi Milli Məhsul (ÜMM) hesab edilir.



downloaded from KitabYurdu.az

Onların hər ikisi iqtisadiyyatın istehsal və xidmət sahələrinin fəaliyyətinin nəticəsini əks etdirirlər. Hər ikisi bir ildə əmtəə və xidmətlərin son dəyər ifadəsini əks etdirir. Onlar cari və sabit (dəyişməz) qiymətlərlə hesablanırlar.

Ümumi Milli Məhsul ilə Ümumi Daxili Məhsulu fərqləndirmək lazımdır.

Ümumi Daxili Məhsul ərazi əlaməti üzrə hesablanır. Yəni Ümumi Daxili Məhsul milli mənsubiyyətindən asılı olmayaraq ölkə ərazisində yerləşən müəssisələrin (maddi və xidmət sahələrinin) məhsullarının məcmu dəyəri kimi müəyyən olunur. Ümumi Milli Məhsul isə milli müəssisələrin yerləşdiyi yerdən asılı olmayaraq (öz ölkəsində və xaricdə) milli iqtisadiyyatn məhsulları məcmuu dəyəri kimi hesablanır.

[3]Cədvəl 7.

Respublikanın ÜDM dinamikası.

| İllər | Cəmi mlrd. manat | ABŞ Dollar | Adam başına m manatla |
|---|---|---|---|
| 1995 | 10669,0 | 2415,2 | 1420,4 |
| 1996 | 13663,2 | 3180,8 | 1808,2 |
| 1997 | 15791,4 | 3960,9 | 2045,9 |
| 1998 | 17203,1 | 4446,6 | 2207,5 |
| 1999 | 18576,2 | 4511,0 | 2362,5 |
| 2000 | 21939,8 | 4903,6 | 2767,7 |

[3] Az.st.rəq. 2004 səh 368.



downloaded from KitabYurdu.az

| | | | |
|---|---|---|---|
| 2003 | 35053 | 7138 | 4320,0 |

Ölkənin ümumi daxili məhsulunun artımı 1995-ci ilə nisbətən 2003-cü ildə 3 dəfədən çox artmışdır.

Beləliklə, ümumi milli məhsul (ÜMM) ümumi daxili məhsuldan (ÜDM) amillər gəliri kəmiyyəti qədər fərqlənir.

Amillər gəliri =bu ölkənin resurslarından xaricdə istifadə zamanı yaradılan gəlir  çıxılır digər ölkənin resursunun bu ölkədəki yaratdığı gəlir əlavə edilir. Bu bir növ xalq təsərrüfatı balansı hesablanarkən idxal ixracı qalığına bənzəyir. Lakin eyni deyildir. Çünki amillər gəliri daha dəqiq hesablanıla bilər.

Adətən ümumi milli məhsul hesablanarkən ümumi daxili məhsula bu ölkənin xaricdəki firma və fiziki şəxslərinin mənfəət-gəlir fərqini əlavə edərək xarici ölkələrin analoji göstəriciləri çıxılır. Bu fərq bir o qədər də böyük deyildir. Qərb ölkələrində bu göstərici ÜDM lun 1 faizə qədərini təşkil edir.

Respublikamızda Ümumi Daxili Məhsul və Ümumi Milli Məhsul göstəricisi 1988-ci ildən başlayaraq hesablanılır. Ymümi Mcəmu Məhsul və Milli gəlir əsasında maddi istehsal sahələri üzrə aparılır. Müasir dövrdə bu göstəricinin hesablanması təxmini xarakterikdir. Çünki milli hesablamalar sistemində adları çəkilən göstəricilərin hesablanması metodikası, ümumi məcmu məhsulun və milli gəlirin hesablanması metodikasından fərqlidir. Ümumi Daxili Məhsulun və Ümumi Milli Məhsulun hesablanması zamanı ən



downloaded from KitabYurdu.az

mühüm şərt ondan ibarətdir ki, məhsul bir dəfə son məhsul formasında hesablansın. Aralıq məhsul (məhsulun təkrar alınıb satılması, bir şöbədən digər şöbəyə ötürülməsi və s.) nəzərə alınmasın.

Son məhsul o məhsuldur ki, ancaq son istifadə üçün alınır.

Aralıq məhsul o məhsuldur ki, son istifadəyə çatana qədər, alınıb satıla bilər, təkrar emala gedə bilər.

Əgər bir il ərzində ölkədə istehsal olunan əmtəə və xidmətlərin hamısı toplanılırsa bu zaman təkrar hesablaşmaya yol verilə bilər. Məsələn, taxıl məhsulunun son nəticəsi çörək məmulatlarının alınmasıdır. Lakin o son istehlak vəziyyətinə çörək halına düşənə qədər əkilməli, biçilməli, döyülməli, üyüdülməli və sonra bişirilməlidir. Bütün bu hallarda ilkin əkilən toxumun dəyəri istehsal xərci kimi son məhsula qədər olan mərhələlərin hamısında iştirakı və s. deməli, təkrar hesablamaya yol verilir.

Lakin hər mərhələdə yaradılan məhsul əmək haqqının, amortizasiyanın və müəssisə gəlirinin dəyərindən başqa bir şey deyildir. Buradan da əlavə olunan dəyər anlayışı meydana çıxır.

Əlavə olunan dəyər-müəssisədə istehsal prosesində onun məhsul istehsalına qoyduğu və məhsulun qiymətinə daxil olan əmək haqqı, fondların köhnəlməsi və müəssisənin aldığı gəlir formasında olan dəyərdən ibarətdir.

Məhsulun yaranması üçün ilkin sərf olunan xammal, materialların dəyəri məhsul istehsalının birinci mərhələsini təşkil edən müəssisənin ümumi məhsulu kimi qiymətləndirilir. Daha qısa



downloaded from KitabYurdu.az

qeyd etsək əlavə olunan dəyəri belə hesablamaq olar. Əsas qiymətlərdə məhsul vəxidmətləri dəyəri çıxılsın aralıq məhsulun dəyəri bərabərdir əlavə olunan dəyər.

Ümumi məhsul göstəricisinin köməkliyi ilə əmtəə və xidmətlərin illik həcmini müəyyən etməyə səy göstərilir. Ümumi məhsul göstəricisinin hesablanması ona görə lazımdır ki, onun nədən ibarət odğuğu müəyyənləşsin və habelə nəyə xərcləndiyi aydınlaşsın.

Beləliklə, ümumi daxili məhsul və ümumi milli məhsul aşağıdakı 3 metoddan biri ilə hesablanıla bilər:

1. Milli iqtisadiyyatın bütün sahələri üzrə əlavə olunan dəyərlərin cəmi kimi.

2. Bir ildə istehsal olunacaq məhsulun alınmasına çəkilən xərclərin cəmi kimi.

3. Bir ildə ölkənin istehsal etdiyi məhsuldan alınan gəlirlərin cəmi kimi.

Ümumi Daxili Məhsulun xərclər üzrə hesablanması isə aşağıdakı maddələrə əhatə edir:

1. Son istehlak xərclərini bu xərclər gündəlik tələbat, uzun müddətli əşyaların alınması və xidmət xərclərini əhatə edir.

2. Dövlət idarəedici orqanlarının son xərcləri. Bu xərclər dövlət müəssisələrinin məhsul istehsalına sərf olunan xərcləri, dövlət ehtiyacı xərclərini, resursların alınması xərclərini əhatə edir. Həmin xərclər dövlət məmurlarının əmək haqqı formasında və dövlətin əmtəə-xidmət xərcləri formasında ifadə olunur.



downloaded from KitabYurdu.az

3. Ümumi kapital qoyuluşu; ümumi yığım, material dövriyyə və vəsaitləri ehtiyatlarının dəyişilməsi;

a) əsas fondlara kapital qoyuluşu;

b) material ehtiyatlarının dəyişilməsi;

Ümumi Daxili Məhsul və ümumi milli məhsul gəlirlər üzrə hesablanarkən aşağıdakılar nəzərdə tutulur:

1. Muzdlu fəhlələrin əmək haqqı.
2. Firma və korporasiyaların gəlirləri.
3. Qeyri korporasiya müəssisələrinin gəlirləri: fərdi və ya ailə mülkiyyətində olan mülkiyyətdən gəlirlər; sərbəst işçilərin gəlirləri (rəssam, yazıçı, və kil və s.)
4. Renta ödənişli – torpaq və ya hərəkətsiz mülkiyyətdən gəlirlər.
5. Ssuda kapitalına görə faizlər.
6. Amortizasiya ayırmaları.

Bazar iqtisadiyyatı şəraitində Ümumi Daxili Məhsulun hesablanmasına əlavə vergilər də daxil edilir: əlavə dəyər vergisi, gömrük vergisi, aksizlərin satılması üzrə vergilər. Bunlar dövlətin aldığı gəlirlərdir ki, təşkilatın saxlanması üçün qiymətlərin artmasına səbəb olur.

Yuxarıda qeyd olunanlara əsasən aşağıdakı göstərilən şərti rəqəmlər əsasında:

a) gəlirə görə ümumi milli məhsul (ÜMM)

b) xərcə görə ümumi milli məhsul.

v) xalis milli məhsul (XMM)



downloaded from KitabYurdu.az

q) milli gəlir (MG) göstəricilərinin hesablanmasını nəzərdən keçirək.

Cədvəl 8.

| Hesab maddələri | Mlrd. dollar |
|---|---|
| Kreditə görə faiz | 12 |
| Ümumi investisiya | 55 |
| Əmək haqqı | 218 |
| Korporasiyaların gəlirləri | 113 |
| Fərdi sahibkarlara verilən transferent ödənişlər | 22 |
| İcarə mülkiyyət sahiblərinin renat tədiyyələri | 20 |
| Korporasiyaların gəlirlərindən vergilər | 50 |
| Əmtəə və xidmətlərin xalis ixracı | 9,0 |
| Əmtəə və xidmətlərin dövlət alışı | 90 |
| Fərdi investisiyalar | 45 |
| Mülkiyyətdən gəlirlər | 21 |
| Dövlət müəssisələrin xalis subsidiyaları | 2,0 |
| Əhaliyə transferent ödənişlər | 23 |
| İstehlak xərcləri | 260 |

Gəlirlərə görə ümumi milli məhsul hesablanarkən onun tərkibinə aşağıdakı maddələr daxil edilir:



downloaded from KitabYurdu.az

| | |
|---|---|
| Əmək haqqı | 218 |
| Mülkiyyətdən gəlirlər | 21 |
| Renta ödənişləri | 20 |
| Korporasiyaların gəlirləri | 113 |
| Kreditə görə faiz | 12 |
| Fərdi sahibkarlara verilən transferent ödənişlər | 22 |

Kapitaldan istifadə haqqı, (Ümumi investisiya 55, fərdi investisiya 45).

55-45=10

| | |
|---|---|
| Dövlət müəssisələrinin subsidiyaları | 416<br>- 2 |

ÜMM = 414

Xərclərə görə ümumi milli məhsul hesablanarkən onun tərkibinə aşağıdakı maddələr daxil edilir:

| | |
|---|---|
| İstehlak xərcləri | 260 |
| Ümumi investisiya | 55 |
| Əmtəə və xidmətlər dövlət alışı | 90 |
| Əmtəə və xidmətlərin ixracı | 9,0 |
| ÜMM | = 414 |

Xalis milli məhsul hesablanarkən (XMM) Ümumi milli məhsulun dəyərindən (ÜMM) kapitaldan istifadə haqqı (KİH) çıxılır. Yəni:

XMM =ÜMM – KİH = 414 – 10 =404



downloaded from KitabYurdu.az

Milli gəlir göstəricisi (MG) hesablanarkən isə xalis milli məhsuldan (XMM) fərdi sahibkarlara verilən ödənişlər, vergi tədiyyələri, qeyri-müstəqim vergilər (22) çıxılaraq, dövlət müəssisələrinə subsidiyalar (2) əlavə edilir. Yəni:

MG = XMM (404) – 22+ 2= 384

MG =384

Ümumiyyətlə, milli gəlir məcmu ictimai məhsulun dəyəri ilə material məsrəflərinin xərcinin fərqindən ibarətdir. Ölkənin iqtisadi inkişafını səciyyələndirən əsas makrogöstəricilər milli hesablar sisteminin (MHS) metodikasına əsasən hesablanılır.

Məlum olduğu kimi keçmiş ittifaqın sərt planlı təsərrüfat sistemi dağıldıqdan sonra azad bazar iqtisadiyyatının formalaşdırılması və inkişafı ilə əlaqədar olaraq bütün dünya ölkələrində vahid statistika və milli hesablar sisteminə keçilməsi zəruriyyəti meydana gəlmişdir. Bununla əlaqədar beynəlxalq iqtisadi əlaqələrin getdikcə daha geniş vüsət alması ölkələrarası iqtisadi münasibətlərin inteqrasiyası milli hesablar sisteminin əhəmiyyətini bir daha artırmış olur. Belə ki, makrosəviyyələrdə dövlətlərarası iqtisadi mənafeylərin səmərəli əlaqələndirilməsində vahid göstəricilər sisteminə keçilməsi və ölkələrin sosial-iqtisadi inkişafının dinamikasının müqayisə edilməsi, perspektivdə ölkələrin mövcud resurslardan tam istifadə edilməsi imkanını səfərbər etmiş olur.

Bununla əlaqədar bazar iqtisadiyyatı şəraitində milli hesablar sisteminin mahiyyəti ondan ibarətdir ki, ölkələrin balanslaşdırılmış



downloaded from KitabYurdu.az

tarazlığının təmin olunmasını əks etdirsin. O, həmçinin makroiqtisadi tənzimlənmənin mühüm alətlərindən biridir.

Bazar iqtisadiyyatı şəraitində milli hesablar sistemi makrosəviyyədə iqtisadi proseslərin şərti və təhlili üçün iqtisadi informasiyanın mühüm mənbəyidir. Bu məqsədlə MHS-dən 150-dən çox ölkə istifadə edir. Milli hesablar sisteminin mahiyyəti bir də ondadır ki, o, iqtisadi inkişafın sintetik göstəricilərinin hesablanması və təhlilini, istehsalı, gəlirləri, xərcləri və həmçinin onlar arasındakı qarşılıqlı əlaqələri xarakterizə edir. MHS-nin köməyi ilə əlavə dəyər və əmtəə xidmətlərin istehsaldan son istehlaka qədər olan hərəkətlərini izləmək olur. Əlavə olaraq qeyd etmək lazımdır ki, bu hərəkət xüsusi hesaba və ya hesab qrupuna uyğun olur.

MHS-nin mühüm xarakteristikası – ikili yazılış prinsipidir. Bu onu göstərir ki, hər bir əməliyyatın tədiyyəçisi və alıcısı olur. Buna görə də yazılış bir dəfə «resurslar» kimi, 2-ci dəfə «istifadə» kimi qeyd olunur.

Milli hesablar sistemi əsasında təkrar istehsal nəzəriyyəsi durur və bu «təsərrüfat» dövriyyəsi konsepsiyası kimi iqtisadi dövriyyə adlanır. Bu dövriyyənin əsas elementləri – obyektlər, subyektlər və əməliyyatlardır. Obyektin tərkibinə məhsullar, xidmətlər, pul vəsaitləri və digər dəyər daşıyıcıları daxildir. Subyektlərə isə – təsərrüfat vahidləri aid edilir. Əmtəə və xidmətlərlə əməliyyatlar həyata keçirildiyi şəraitində iqtisadi fəaliyyətlərin bir subyektdən digərinə hərəkəti mümkündür. MHS-nin köməyi ilə maddi nemətlər istehsalı və xidmət göstərilməsi fəaliyyətləri arasındakı prinsipial



downloaded from KitabYurdu.az

fərqlər nəzərə alınmadan iqtisadiyyat vahid bütöv halında götürülür. MHS əsasən beynəlxalq təşkilatların (BMT, BVF, Avro Statistika) tövsiyyələri nəzərə alınmaqla 1987-ci ildən keçmiş SSRİ məkanında tətbiq olunmuşdur. O, artıq bazar iqtisadiyyatının tənzimlənməsi üçün lazımi tədbirləriq qəbul edilməsi, iqtisadi siyasətin işlənib hazırlanması məqsədilə, dövlət idarəetmə orqanlarının statistik informasiyalara olan ehtiyaclarını təmin edir.

Bununla əlaqədar MHS-nin meydana gəlməsi tarixinə qısa da olsa diqqət yetirmək yerinə düşərdi.

Məcsu gəlirlər, iqtisadi inkişaf səviyyəsinin dəyişməsi problemləri hələ 17-18-ci əsrlərdən iqtisadçıların tədqiqat obyekti olmuşdur. İngilis iqtisadçısı V.Petti ilk dəfə İngiltərənin milli gəlirini qiymətləndirmişdir ki, vergiyə cəlb olunma sisteminin təkmilləşdirilməsi tədbirlərinin, milli gəlirin, iqtisadiyyata və gəlirlərin bölgüsünə təsirini aşkara çıxarsın. Fransız fiziokrat məktəbinin yaradıcısı F.Gene «İqtisadi cədvəl» tərtib edərək bütövlükdə iqtisadiyyatın əsas bölmələri üzrə əmtəə və xidmət dövriyyəsinin ümumi təsvirini ifadə etmək təşəbbüsündə olmuşdur. Daha sonra K.Marks iqtisadi cədvələ istinad edərək sadə və geniş təkrar istehsal quruluşunun modelini yaratmışdır.

A.Marşall 1925-ci ildə yazdığı «İqtisadiyyatın prinsipləri» əsərində milli gəlirlərin hesablanması prinsipini formalaşdırmışdır.

İngilis iqtisadçısı C.M. Keyns dövlət tənzimlənməsi ideyasını və metodunu əsaslandırmışdır. O «Ümumi məşğulluq nəzəriyyəsi, faiz və pul» əsərində gələcək MHS-nin bir sıra mühüm prinsiplərini



downloaded from KitabYurdu.az

formalaşdıraraq (istehsal, gəlir, istehlak, investisiya, yığım) göstərmişdir ki, dövlət bir sıra makroiqtisadi dəyişənlərə təsir edərək bütünlükdə iqtisadiyyatı tənzim edə bilər və multiplikator əmsalı əsasında onun sahələri arasındakı qarşılıqlı əlaqələri üzə çıxarda bilər.

Müasir milli hesabların baniləri D.Klark, M.Cilbert, S.Kuznets hesab olunur. Məsələn, Klark statistikanın əlaqələndirilməsi zəruriliyini göstərmişdir. S.kuznets milli sərvət və milli gəlir arasındakı əlaqə haqqında bir sıra fikirləri konkretləşdirmişdir, son və aralıq istehlak konsepsiyasının irəli sürmüşdür və ABŞ-nın milli gəlirinin xarakteristikasını verərək milli gəlirin hesablanması metodunun məqsədlərindən asılılığını müəyyən etmişdir.

Amerika statistiki M.Cilbert 1941-ci ildə yazdığı «Müharibə ilə əlaqədar olaraq milli gəlirin dəyişməsi» əsərində amil dəyərinə görə milli gəlirin qiymətləri və milli məhsulda müdafiə xərclərinin yerini müəyyən edən bazar qiymətləri arasındakı fərqlərə dair bir sıra fikirlər söyləmişdir.

MHS-nin 1-ci inkişaf mərhələsi ikinci dünya müharibəsinə qədər olmuşdur və əksər dünya ölkələrinin iqtisadiyyatında baş vermiş depressiyalardan çıxmasına təkan vermişdir. Dövlət idarəetməsinin yaxşılaşdırılması zəruriliyi qeyd olunaraq işsizlik, inflyasiya kimi böhran hadisələrindən çıxmaq üçün tənzimləmə alətlərindən istifadə olunması məqbul sayılmışdır.

İkinci dünya müharibəsindən sonra daha çox inkişaf etmiş kapitalist ölkələrində makroiqtisadi statsitikaya daha böyük maraq



downloaded from KitabYurdu.az

yaranmışdır. Bu mərhələdə msilli sərvət, xarici iqtisadi münasibətlər və s. haqqında bir sıra qrup göstəricilər MHS-də əlaqələndirimlişdir. Bu dövrdə beynəlxalq təşkilatlar milli hesabların və beynəlxalq standartların hazırlanması metodologiyası və praktikasının inkişafında fəal iştirak etmişlir. Milli hesabların və sahələrarası balansın inkişafında rus iqtisadçısı V.Leontyev böyük tədqiqat aparmış və bu işinə görə Nobel mükafatına layiq görülmüşdür. Onun, BMT-nin məlumatlarında 1947-ci ildə dərc edilən məruzəsi milli hesablar sahəsində beynəlxalq standartların inkişafına təkan vermişdir. Müəlliflərdən biri də Keynsin tələbəsi R.Stoun olmuşdur. O, 1951-ci ildə Avropa iqtisadi Əməkdaşlıq təşkilatında «Sadələşdirilmiş milli hesablar sistemi» mövzusunda məruzə etmişdir və onun rəhbərliyi ilə «Köməkçi hesablar və milli hesablar sistemi» əsəri dərc edilmişdir və bu da Avropa ölkələrində milli hesabların ilk standartı kimi qəbul olunmuşdur.

MHS-nin ikinci standartı 1968-ci ildə R.Stounla amerikan iqtisadçısı N.Aydinov birlikdə hazırlamışlar və bu BMT-nin statistika komissiyası tərəfindən bəyənilmişdir. MHS-nə əlavə makroiqtisadi inflyasiya blokları sahələrarası balans, milli sərvət balansı, maliyyə ehtiyatlarının hərəkəti balansı və s. göstəriciləri daxil edilmişdir. İnkişaf edən ölkələr üçün, onların iqtisadiyyatını nəzərə almaqla, milli hesabların tərkibi üzrə tövsiyyələr təqdim edilmişdir. Bütün bunlar həm milli, həm də beynəlxalq səviyyədə milli hesabların inkişafı üçün təkan olmuşdur.



downloaded from KitabYurdu.az

1993-cü ildən fəaliyyət göstərən MHS-i BMT-nin Statistika komissiyasında bəyənilmiş və o iqtisadi statistikanın müvafiq bölmələri ilə uyğunlaşdırılmışdır, həmçinin ayrıca gəlir və xərclərin, ÜDM-nin strukturunun izahı dəqiqləşdirilmişdir. Rusiyada MHS ilə bağlı B.T.Rubaşkin, T.A.Xomenko, Y.N.İvanov, A.N. Ponomorenko, V.P.Safonov və başqaları məşğul olmuşlar.

MHS-nin hazırlanması ayrı-ayrı ölkələrdə ümumi hesablar statistikasının yaradılması və təkmilləşdəirilməsində, makroiqtisadi göstəricilərin müqayisəsinin təmin edilməsində mühüm rol oynamışdır. Burada xalq təsərrüfatı balansı (XTB) üzərində dayanmaq lazımdır. Çünki XTB-nın funksiya və vəzifələrinin MHS ilə çoxlu ümumilikləri vardır. XTV təkrar istehsal prosesini bütövlükdə xarakterizə edən qarşılıqlı əlaqəli göstəricilər sistemidir. Bütünlükdə iki hissənin bərabərliyi prinsipinə əsaslanaraq mühüm xalq təsərrüfatı mütənasibliklərini aşkara çıxarmağa imkan verir.

Xalq təsərrüfatı balansının nəzəri əsası təkrar istehsal təşkil edir. Məcmu ictimai məhsul, MG və onun strukturu, xalq təsərrüfatındakı fəaliyyət növləri və istehsal prosesişərtləri haqqında məlumat verir. Lakin bazar iqtisadiyyatı şəraitində də XT Balans modeli iqtisadi inkişaf təmayülünə uyğun gəlmir, buna görə də onu MHS-i əvəz edir.

MHS iqtisadi dövriyyəni dolğun əks etdirən modeldir. Belə ki, o dövriyyəni istehsalı gəlirlərin yaranmasından son maliyyə nəticələrinin əldə edilməsinə qədər izləməyə imkan verir. Yəni dövriyyəni aktiv və passiv dəyişməsinin tərkib hissəsi kimi göstərir.



downloaded from KitabYurdu.az

MHS müxtəlif əməliyyatların makrosəviyyələrdə təhlili üçün inflyasiyanın nizama salınması prinsiplərini və sxemini qurmağa imkan verir.

Bununla əlaqədar MHS-də bölmələr üzrə iqtisadiyyatın səciyyələndirən əməliyyatlara diqqət yetirək.

Cədvəl 9.

İqtisadiyyatın bölmələri və iqtisadi əməliyyatlar

| İqtisadi əməliyyatr qrupları | Təsərrüfat obyektləri qrupları | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Qeyri maliyyə müəssisə və kororasiaları | Maliyə korpoasiyalı | Dövt idarətmə orqaarı | Ev Təsərrüfatı | Ev Təsərüfatın xidmə edən komnrsiya təşk | Milli bölmədə yekun | Qalan dünya | Cəmi (yekun) |
| | RU | RU | RU | RU | RU | RU | RU | RU |
| Əmtəə və xidmətlər | | | | | | | | |
| İlkin gəlirlər | | | | | | | | |
| Yenidən bölgü | | | | | | | | |
| Maliyyə alətləri | | | | | | | | |
| Yekunu (cəmi) | | | | | | | | |



downloaded from KitabYurdu.az

Bü cədvəl MHS özünü iqtisadi əməliyyatlar və bu əməliyyatları həyata keçirən təsərrüfat subyektləri haqqında məlumatların nizama salınmasının xüsusi forması kimi göstərir. MHS-nin göstəriciləri təsərrüfat subyektlərinin hər qrupunun vəziyyətini və iqtisadi proseslər arasındakı qarşılıqlı əlaqələrini əks etdirir.

MHS iqtisadiyyatın strukturunu, iqtisadi proseslərin əsas nəticələrinin və ümumi təsvirinin üzə çıxarılması üçün informasiyaların nizama salınmasını qabaqcadan nəzərə alır. Əlavə olaraq, iqtisadiyyatın bölmələri, sahələri, əməliyyatlar üzrə institusion vahidləri, həmçinin aktiv və passivlər, əmtəə və xidmətlər, təyinatı üzrə dövlət idarəetmə orqanları xərclərini, vergilər və subsidiyaları və s. təsnifat sistemlərindən istifadə edilir. Qeəd etmək lazımdır ki, institusion vahidlər və təsərrüfat subyektləri hüquqi şəxslərdən, ev təsərrüfatından ibarətdir.

İqtisadi proseslərdə həyata keçirdikləri funksiyalar və xərclərin maliyyələşdirilməsi nöqteyi-nəzərdən oxşar olan institusion vahidlər iqtisadiyyatın bölmələrindən ibarət olaraq təşkil edilir. (Qeri-maliyyə korporasiyaları, maliyyə korporasiyaları, dövlət idarəetmə orqanları, ev təsərrüfatı, ev təsərrüfatına xidmət edən qeyri kommersiya təşkilatları). Bölmələr üzrə təsnifat isə bazar iqtisadiyyatının təşkilati strukturunu xarakterizə edir.

Qeyri maliyyə korporasiyaları bölməsinə daxil olan vahidlər əmtəə və xidmətlərin satışından gələn mədaxil hesabına öz xərclərini ödəyir. Onlar mənfəəti təmin edən qiymətlərlə bazarda satmaq üçün qeyri-maliyyə əmtəə və xidmətləri istehsal edirlər.



downloaded from KitabYurdu.az

Maliyyə korporasiyaları və kvazikorporasiya (Kvazi-yalançı sözlərin qabağında işlədilir, yalançı, saxta, qeyri həqiqi mənasını verir) bölməsi banklardan, sığorta komponiyalarından. İnvestisiya fondlarından və s. ibarətdir. Bunlar əsasən maliyyə bazarında sərbəst pul vəsaitlərinin tapılması və yenidən istifadəsi funksiyasını həyata keçirirlər. Maliyyə korporasiyaları öz gəlirlərini faizlər arasındakı fərqlər hesabına təmin edirlər.

Dövlət idarəetmə bölməsi – bu büdcə təşkilatları olub, gəlir və sərvətləri yenidən bölüşdürür, ayrı-ayrı şəxslərə və ya cəmiyyət üçün qeyri-bazar xidmətləri göstərirlər. Dövlət idarəetmə orqanları xərclərinin maliyyələşdirilməsinin əsasını vergilər və qismən də mülkiyyətdən gələn gəlirlər təşkil edir. Dövlət idarəetmə orqanları əhalinin ayrı-ayrı sosial qruplarına yardım göstərilməsini nəzərdə tutan vəzifələri həyata keçirir.

Ev təsərrüfatı bölməsi əsasən istehlak xarakterli vahidlərdən ibarətdir: bura kiçik qeyri-normativ müəssisələri (kiçik firmalar, böyük olmayan mağazalar, emalatxanalar və s.) sərbəst ixtisas sahibləri, mənzil sahibləri və s. daxildir. Bu bölmələrin xərcləri əmək haqqı, mülkiyyətdən gələn gəlirlər, pensiya yardımları, müəssisənin məhsullarının satışından əldə olunan mədaxil hesabına maliyyələşdirilir.

Ev təsərrüfatına xidmət göstərən qeyri kommersiya təşkilatları bölməsinə, ictimai, siyasi, həmkarlar ittifaqı. Dini təşkilatlar daxildir. Bu bölməyə daxil olan vahidlər öz xərclərini haqlar (pay), mülkiyyətdən gəlirlər və ianələr hesabına maliyyələşdirirlər.



downloaded from KitabYurdu.az

MŞS-nin bölmələrində qruplaşan bütün institusional vahidlər ölkənin rezidentləri olur və onlar öz ərazisinin iqtisadi maraqlarını dəstəkləyirlər. Ölkə ərazisində sərbəst fəaliyyət göstərən bütün müəssisələr, təşkilatlar, idarələr rezidentlər kimi çıxış edirlər. Bu anlayışa xaricdə yaşayan diplomatlar, müvəqqəti ezamiyyətdə olan şəxslər, turistlər, təhsil alan tələbələr aid edilir.

MHS-nin sahəvi təsnifatı vahidlərinə isə yeni yaradılan məhsullar, tətbiq olunan texnologiyalar, xərclərin struktur nöqteyi nəzərindən nisbətən oxşar (eyni) olan müəssisələr daxildir ki, bu zaman müəssisə ayrıca bölmə hesab edilir.

MHS-nin makroiqtisadi göstəricilərinin hesablanmasının müəyyən metodologiyası vardır. Həmin göstəricilər makrosəviyyədə beynəlxalq statistikada istifadə olunurlar:

- ümumi daxili məhsul.
- Ümumi milli məhsul (milli gəlir);
- Ümumi iqtisadi mənfəət;
- İqtisadiyyatdan xalis mənfəət;
- Xalis daxili gəlir;
- Əldə olan milli gəlir;
- Ümumi milli yığım;
- Xalis milli yığım;
- Milli sərvət.



downloaded from KitabYurdu.az

Qeyd etmək lazımdır ki, MHS-nin əsas makroiqtisadi göstəricilərinin hər biri, iqtisadiyyatın ayrı-ayrı bölmələrinə və ya ayrıca təsərrüfat subyektinə, fəaliyyətinə uyğun gəlir.

Bunlar isə aşağıdakılardır:

- ümumi məhsul buraxılışı;
- ümumi əlavə dəyər;
- xalis əlavə dəyər;
- ümumi mənfəət;
- reallaşdırılmış məhsul;
- xalis qarışıq gəlir;
- sahibkarların gəlirləri;
- əsas və dövriyyə fondları ehtiyatları.

Beləliklə, MHS iqtisadiyyatda tarazlılığı müəyyən edən əməliyyatları, funksiyaları, qarşılıqlı iqtisadi hesabların müxtəlif əlaqələrinin kombinasiyalarını, əks etdirməklə, həm də onların proqnozlarını hazırlanmasına imkan verir. Onun əhəmiyyəti həyata keçirdiyi vəzifələrlə şərtlənir.

MHS –nin vəzifələri iki qrupa ayrılır; ümumi (iqtisadi siyasət, iqtisadi proqnozlaşdırma) və konkret (əhalinin müxtəlif qruplarının həyat səviyyəsinin qiymətləndirilməsi və onların dicər ölkənin həyat səviyyəsi ilə müqayisəsi, iqtisadi nəzəriyyənin təcrübə ilə əlaqələri) vəzifələr. Bu vəzifələrin yerinə yetirilməsi dövlətin iqtisadi inkişpfı imkanlarını genişləndirir.



downloaded from KitabYurdu.az

Bununla əlaqədar MHS –nin vəzifələri aşağıdakılardır: ölkənin iqtisadi siyasətinin işlənib hazırlanması və tətbiq edilməsi üçün düzgün informasiya təminatı və həyata keçirilməsinə nəzarət etmək, müxtəlif ölkələrin iqtisadiyyatlarının müqayisəsi və proqnozlaşdırılması üçün informasiya vermək; metodoloji və elmi tədqiqatların aparılmasını təmin etmək.

Müasir MHS – nin mühüm bölmələrindən biri sahələr arası balansıdır. (SAB). SAB – məhsulların istehsalı və onun sahələr üzrə bölgüsü balansıdır. Ondan iqtisadi inkişaf proqnozlarının hazırlanması, ayrı-ayrı amillərin ölkə iqtisadiyyatına təsirinin təhlili üçün istifadə edilir. O, şahmat cədvəli formasında tərtib olunur. SAB həmçinin xalq təsərrüfatı balansının davamı kimi çıxış edir. Buna görə də xalq təsərrüfatı balansının və MŞH –i göstəricilərini SAB – da birləşdirir. Riyazi dildə ifadə edərək onu aşağıdakı formada göstərmək olar:

Cədvəl 20

Sahələrarası balansın iqtisadi-riyazi quruluşu

| istehlak sahələ / istehsal sahələri | Sahələr arası məhsul axını | | | | Son məhsul | Ümum Məhsu |
|---|---|---|---|---|---|---|
| | 1 | 2 | | n | | |
| 1 | $X_{11}$ | $X_{12}$ | . | $x_n$ | $y_1$ | $X_1$ |
| 2 | $X_{21}$ | $X_{22}$ | . | $X_{2n}$ | $y_2$ | $X_2$ |



downloaded from KitabYurdu.az

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | . | . | . | . | . | . |
| N | $X_{n1}$ | $X_{n2}$ | . | $X_{nn}$ | $y_n$ | $X_n$ |
| Əmək haqqı | $V_1$ | $V_2$ | . | $V_n$ | $V_{son}$ | |
| Xalis məhsul | $m_1$ | $m_2$ | . | $m_n$ | $m_{son}$ | |
| Ümumi məhsul | $X_1$ | $X_2$ | . | $X_n$ | | X |

Burada: X – ümumi məhsulu

y – son məhsulu əks etdirir.

Sahələrarası balansda hər bir sahə iki dəfə istehsalçı və istehlakçı kimi çıxış edir.

Sahələrarası balansın əsas bərabərlikləri belə yazılır:

İstehsalçı sahələrin məhsulu:

$X_1 = x_{11} + x_{12} + \ldots\ldots + x_{1n} + y_1$ və ya ümumi formada

$$X_I = \sum_{j=1}^{h} X_{Ij} + y_I \qquad i = \overline{1n}$$

İstehlakçı sahələrin məhsulu:

$X_1 = x_{11} + x_{21} + \ldots\ldots + x_{n1} + v_1 + m_1$

Və ya ümumi formada

$$X_j = \sum_{i=1}^{n} X_{ij} + V_i + m_{ij} \qquad y=1n^{-}$$

i=1

SAB-da istehlakçı və istehsalçılar arasında qarşılıqlı əlaqə müstəqim xərc əmsalı kimi hesablanır. Müstəqim xərc əmsalı (a), sahələrarası axın elementlərinin (x), istehlakçı sahənin ümumi məhsuluna (x-ə) olan nisbətəndən tapılır:



downloaded from KitabYurdu.az

Yəni $a_{ij} = \frac{x_{ij}}{X_j}$

Bu formuladan sahələrarası axın elementinin taparaq, istehsalçı sahənin məhsulunun cəmini əks etdirən düsturda yerinə yazsaq, dəyər ifadəsində SAB-bərabərliyini almış olarıq.

$$X_i = \sum_{j=1}^{h} a_{ij} X_j + U_j \qquad i=1n^{-}$$

Sahələrarası balans 4 – kvadratdan ibarət olub 1-də sahələrarası axını, 2-də son məhsulu, 3-də milli gəlirin ilk bölgüsünü, 4-də milli gəlirin son istehlakını, yəni yenidən bölgünü əks etdirir.

Makrosəviyyədə iqtisadi əməliyyağların təhlili MHS-də müxtəlif hesablar formasında göstərilir. Hazırda hər bir əməliyyat iki dəfə – ehtiyatlar və istifadə formasında əks olunur və hər iki tərəfindəki əməliyyatların yekunları balanslaşdırılır.

MHS-də ayrı-ayrı qruplar üzrə hesablar aşağıdakı kimi təsnifatlaşdırılır:

a) iqtisadiyyatın sektorlar üzrə

b) iqtisadiyyatın sahələri üzrə;

v) ayrı-ayrı iqtisadi əməliyyatlar üzrə;

q) bütövlükdə iqtisadiyyat üzrə;

Bu təsnifat 3-cü cədvəldə bölmələrin tərkibində əks olunmuşdur və onların mahiyyətini aşağıdakı kimi şərh etmək olar:

İstehsal hesabı istehsalın nəticələrini əks etdirir.



downloaded from KitabYurdu.az

Ümumi məhsul buraxılışı bu istehsal olunmuş bütün əmtəə və xidmətlərin dəyəridir. O, dəyərlərin təkrar hesablanmasını əks etdirmir, yəni istehsal prosesində sərf olunmuş əmtəə və xidmətlərin dəyəri kənar edilir.

İstehsaldakı xərclər kimi çıxış edən digər əmtəə və xidmətlərdən də istifadə olunur ki, bu la aralıq istehlak adlanır. Əmtəə xidmət buraxılışı və aralıq istehlak arasındakı fərq, əlavə dəyər adlanır.

Cədvəl 21.

| Cari hesablar | Yığım hesabı | Aktiv və passivlər balansı |
|---|---|---|
| İstehsal | Kapital sərfi üzrə əməliyyatlar | Dövrün başlanğıcında aktiv və passivlər balansı |
| Gəlirlərin yaranması | Aktiv və passivlərdək digər dəyişikliklərin maliyyə hesabı | Dövrün sonunda aktiv və passivlər balansı |
| Gəlirlərin ilkin bölgüs | a) aktiv və passivlərin həcmindəki liklər | |
| Gəlirlərin yenidən bölgüsü | b) Aktiv və passivləri yenidən qiymətləndirilməsi | |
| Əldə olan gəlirin istifadəsi | | |
| Natural formada gəlirlərin yenidən bölgüsü | | |
| Dəqiqləşdirilmiş gəlir istifadəsi | | |

Cədvəl 22.



downloaded from KitabYurdu.az

İstehsal hesabı

| İstifadə | Ehtiyatlar |
|---|---|
| Aralıq istehlak o cümlədən | Əsas qiymətlərlə əmtəə və xidmətlərin-ümumi buraxılışı, o cümlədən |
| Maddi istehsal sferasında | Məhsullar və qeyri-maddi xidmətlər |
| Qeyri-maddi xidmət sferasında | Qeyri-maddi xidmət |
| Bazar qiymətlərilə ÜDM | Məhsulda xalis vergilər |
| Cəmi | Cəmi |

Aralıq istehlak – hesabat dövründə istehlak prosesində tam istehlak olunan əmtəə və xidmətləri dəyəridir. Ümumi əlavə dəyər aralıq istehlak və əmtəə xidmət buraxılışı arasındakı fərq kimi iqtisadiyyatın sahələri səviyyəsində hesablanır və bu göstəriciyə istehsal prosesində sərf edilmiş əsas kapitalın dəyəri daxil edilir.

MHS – nin əsas göstəricisi ymümi daxili məhsuldur. (ÜDM), bu ölkədə iqtisadiyyatın bütün sahələrində istehsal olunmuş və son istehlak, yığım və ixrac üçün ayrılmış əmtəə xidmətlərin dəyərini xarakterizə edir. ÜDM üç üsulla müəyyən olunur: istehsal, gəlirlərin istifadəsi və gəlir mənbələri üzrə.

Birinci üsulla ÜDM ölkə üzrə bütövlükdə əmtəə və xidmətlərin buraxılışı və aralıq istehlak arasındakı fərq kimi və yaxud iqtisadiyyatın sahələrində yaradılmış əlavə dəyərin məbləği kimi



downloaded from KitabYurdu.az

müəyyən edilir. Sahələr üzrə əlavə dəyər bazis qiymətlərdə müəyyənləşdirilir.

İkinci üsulda iqtisadi bölmələrin son istehlakı ümumi yığım və xalis ixrac xərcləri cəmləşdirilir.

Üçüncü üsula görə ÜDM-da bilavasitə istehsalda iştirak edən vahidlərin, həmçinin ev təsərrüfatına xidmət göstərn qeyri-kommersiya təşkilatlarının və dövlət idarələrinin əldə etdikləri ilkin gəli rlər əks olunur. Əlavə balanslaşan maddə kimi ümumi mənfəət çıxış edir ki, bu bazar qiymətlərində ki ÜDM, muzdlu işçilərin əmək haqqı və istehsal və idxala xalis vergilər arasındakı fərqdən ibarətdir.

Cədvəl 23.

ÜDM-nin istehsalı (şərti rəqəmlərlə)

| Əmtəə v xidmətlə vergilər ÜDM | 2000-ci il | | | 2003-cü il | | |
|---|---|---|---|---|---|---|
| | Buraxılış | Aralıq istehlak | Ümumi əlavə dəyər | Buraxılış | Aralıq istehlak | Ümumi əlavə dəyər |
| | 39083,7 | 20412,9 | 18760,8 | 280544,2 | 1312358,1 | 1493086,1 |
| | 24383,3 | 14969,7 | 9413,6 | 1562726, | 812269,0 | 750457,7 |
| | 14700,4 | 4680,2 | 10020,2 | 1242717, | 478913,3 | 763804,2 |
| | 11693,1 | 3244,4 | 8448,7 | 903873,8 | 321179,5 | 582694,3 |
| | 3007,3 | 1435,8 | 1571,5 | 338843,7 | 157733,8 | 181109,9 |
| | | 763,0 | -763,0 | | 21175,8 | -21175,8 |
| | | | 334,7 | | | 136992,8 |
| | | | 19005,5 | | | 1630078,9 |



downloaded from KitabYurdu.az

Cədvəl 24.

## ÜDM gəlirlərin mənbəyi üzrə

| | 2000-ci il | | | | | 2001-ci il | | |
|---|---|---|---|---|---|---|---|---|
| Əmtəə və xidmətlər, vergilər, ÜDM | Ymümi əlavə dəyər | Muzdlu işçilərin əmək haqq | İstehsala digər xalis vergilər | Ümumi mənfəət və ümumi qarışıq gəlir | Ümumi əlavə dəyər | Muzdlu işin əmək haqqı | İstehsala digər xalis gəlirlər | Ümumi mənfəət və ümumi qarışıq gəlir |
| Cəmi (sabit qiymətlə) o cümlədən | | | | | | | | |
| Məhsul istehsalı | | | | | | | | |
| Xidmət istehsalı | | | | | | | | |
| Ondan: | | | | | | | | |
| Bazar xidmətləri | | | | | | | | |
| Qeyri baza xidmətləri | | | | | | | | |
| Maliyyə vəsaitləri | | | | | | | | |
| Məhsul və idxala xalis vergilər | | | | | | | | |
| | | | | | | | | |



downloaded from KitabYurdu.az

İstehsal hesabında sahələrin səviyyəsini təhlil etmək üçün gəlirlərin formalaşması hesabından istifadə edilir.

Cədvəl 25.

| Ehtiyatlar | İstifadə |
|---|---|
| Əmək haqqı | Ümumi əlavə dəyər |
| İstehsala vergilər | |
| Əsas kapitalın istehlakı | |
| Ümumi mənfəət | |

Bazar qiymətlərində ÜDM-da gəlirlərin yaranması hesabı subsidiyaların formalaşması mənbələridir və ehtiyat hissəsində əks etdirilir.

Ümumi mənfəət gəlirlərin formalaşması hesabının tarazlaşan maddəsi olub ÜDM-dan əmək haqqının istehsala və idxala xalis vergiləri çıxmaqla müəyyən edilir.

İstehsal hesabında sahələrin səviyyəsini təhlil etmək üçün gəlirlərin formalaşması hesabından istifadə edilir.

Gəlirlərin ilkin bölgüsü hesabı, digər ölkələrlə əlaqələrəi nəzərə almaqla makrosəviyyədə gəlirlərin bölgüsü və yenidən bölgüsünü əks etdirir. Bunu aşağıdakı cədvəldən görmək olar.

Cədvəl 26.



downloaded from KitabYurdu.az

| İSTİFADƏ | EHTİYATLAR |
|---|---|
| Mülkiyyətdən gələn gəlirlər | Mənfəət |
| İlkin gəlir qalığı | Mülkiyyətdən gəlirlər |
| | İstehsala və idxala vergilər |

İlkin gəlir qalığı iqtisadiyyatın bütün bölmələri üzrə milli gəlirə bərabər qəbul edilir.

Mənfəət maliyyə və qeyri-maliyyə korporasiyalarının, həcminin kiçik müəssisələrin ilkin gəlirləridir.

Mülkiyyətdən gələn gəlirlərə: faizlər, dividendlər, rentalar, birbaşa xarici investisiyalardan əldə edilən gəlirlər daxildir.

Gəlirlərin yenidən bölgüsü hesabı, pul formasında yenidən bölgüsünü əks etdirən göstəricilərdən ibarətdir.

Cədvəl 27.

| İSTİFADƏ | EHTİYATLAR |
|---|---|
| Cari transfertlər | İlkin gəlirlər qalığı |
| Əldə olan gəlir | Cari transfertlər |

Əldə edilmiş gəlir resurslardan cari transfertləri çıxdıqdan sonra qalan məbləğdir. Transfertlər müxtəlif ödəmələrin vasitəsilə gəlirlərin yenidən bölgüsüdür. Onlar özünü iqtisadi əməliyyatlar kimi göstərir və bir investisiya vahidinə digər əmtəələrin,



downloaded from KitabYurdu.az

xidmətlərin, aktivlərin mülkiyyət hüququnu verir. Əldə edilmiş gəlirin pul formasında istifadə aşağıdakı hesabda göstərilir.

Cədvəl 28.

| İSTİFADƏ | EHTİYATLAR |
|---|---|
| Son istehlak xərcləri | Əldə olunmuş gəlir |
| Yığım | |

Əmatəə və xidmətlərin son istehlakı ev təsərrüfatının, bütövlükdə cəmiyyətin fərdi və kollektiv tələbatlarını ödəyən dövlət idarələrini, ev təsərrüfatlarına xidmət edən qeyri-kommersiya təşkilatlarının son istehlak xərclərindən yaranır.

Bu hesabda balanslaşan maddə – yığımdır. İqtisadiyyatın bütün sektorlarının yığımları cəmi (məbləği) milli yığım hesabını təşkil edir.

Həmçinin natural formada yenidən bölgü hesabından da istifadə olunur.

MHS-nin mühüm göstəricisi ev təsərrüfatlarının və dövlət idarəetmə orqanlarının təshih olunmuş gəlirləridir.

Qeyd etmək lazımdır ki, natural formada sosial transfertlərin alıcıları və öciləri iqtisadiyyatın bütün bölmələri deyil. Alıcılar (sosial transfareti olanlar) kimi ev təsərrüfatı bölməsi, ödəyicilər



downloaded from KitabYurdu.az

kimi isə – dövlət idarələri bölməsi və ev təsərrüfatlarına xidmət edən qeyri-kommersiya təşkilatları çıxış edirlər.

Dövlət idarələrinin təshih edilmiş əldə olan gəlir hesabı, əldə olunmuş pul gəlirlərindən ev təsərrüfatına verilmiş natural formadakı sosial transfertləri çıxılmasından alınır.

Cədvəl 29.

| İSTİFADƏ | EHTİYATLAR |
|---|---|
| Faktiki son istehlak | Təshih edilmiş əldə olan gəlir |
| Yığım | |

Ev təsərrüfatlarının aldıqları natural formadakı sosial transfertlər əldə olunmuş gəlirlə cəmləşdirilir – MHS-nin bu göstəricisi ev təsərrüfatının təshih edilmiş gəliri adlanır. Əldə olunan təshih edilmiş gəlirdən ölkə əhalisinin həyat səviyyəsindəki dəyişikliklərini təhlil etmək üçün istifadə edirlər.

Kapital ilə əməliyyatlar hesabı kapital xərclərinin maliyyələşmə mənbələrinin və onların müxtəlif növ kapital xərclərinə istifadə olunmasını göstərir.

Cədvəl 30.

| EHTİYATLAR | İSTİFADƏ |
|---|---|
| Əsas kapitalın ümuı yığımı (ton) | Yığım |
| Maddi (material) dövriyyə vəsaitlərinin artımı | Kapital transfertləri |



downloaded from KitabYurdu.az

| | |
|---|---|
| Xalis qazanılmış (əldə edilmiş) dəyərlər | Kapital transfertləri (ödənilmiş) |
| Torpağın və digər yaradılmamış (istifadə edilməmiş aktivlərin alınması | Xalis kreditləşmə |

Hesabın sağ tərəfindən kapital xərclçrinin maliyyələşmə mənbələri verilir; yığım və kapital transfertləri.

Hesabın sol tərəfində isə özünə, binaları və qurğuları alınmış maşın və avadanlıqları və digər növ əsas fondları daxil edən əsas kapitalın ümumi yığımı verilmişdir.

Maddi dövriyyə vəsaitlərinin artımı özünü xammal, material, yanacaq, alətlər, natamam istehsal, hazır lakin satılmamış məhsullar ehtiyatlarının dəyərinin artımı kimi göstərir.

Xalis əldə edilmiş dəyərlər – bu qızıl məmulatlarının, qüzülün, qiymətli materialların, incəsənət əsərlərinin satışını çıxmaqla alınır. Hansı ki, uzun müddət ərzində dəyəri saxlamaq qabiliyyətinə malikdir.

Hesabın sonrakı tərkibi – bu torpaq və digər yaradılmamış aktivləri (patent, lisenziya, müəlliflik hüququ və s.) alınmamışdır.

Maliyyə hesabı –maliyyə intizamının yaradılması və maliyyə aktivlərinin əldə edilməsi ilə əlaqədar əməliyyatları əks etdirir. Aktiv və passivlərin sair dəyişmə hesabı fövqəladə hallarda (müharibələr, yanğınlar, fəlakətlər) onların dəyərinin dəyişməsini xarakterizə edir.

Cədvəl 31.



downloaded from KitabYurdu.az

| İSTİFADƏ (bölüşdürmə) | EHTİYATLAR |
|---|---|
| Sikkə qızıl və xüsusi alma (götürmə) hüququ | Xalis kreditləşmə (xalis götürmələr) |
| Depozitlər və nəğd pullar | Depozitlər və nəğd pullar |
| Qiymətli kağızlar (səhmlər istisna olmaqla) | Qiymətli kağızlar (səhmlər istisna olmaqla) |
| Səhmlər | Səhmlər |
| İstiqraz və kreditlər | İstiqraz və kreditlər |
| Sığorta kompaniyalarının texniki ehtiyatları | Sığorta kompaniyalarının texniki ehtiyatları |
| Digər kreditor (debitor) borcu | Sair (digər) kreditor (debitor) borcu |

Bu hesabın balanlaşan maddəsi «Xalis kreditləşmədir». Bu maddə kapital xərclərini maliyyələşdirmək üçün iki formada dotasiya və qaytarılan formada bir bölmədən digər bölməyə ötürülən maliyyə ehtiyatlarının həcmini göstərir. Hesab həmçinin kapital xərclərini maliyyələşdirmək üçün mövcud bölmədən iqtisadiyyatın digər bölməsində havayı əsasda müvəqqəti götürülən maliyyə ehtiyatlarının həcmini də əks etdirir.

Maliyyə v qeyri-maliyyə aktivlərindən maliyyə öhdəliklərini çıxdıqdan sonra xüsuvsi kapitalın xalis dəyəri yaranır. Bu göstəricilərin iqtisadiyyatın bütün bölmələri üzrə cəmləşdirdikdə MHS-nin digər aqreqatı – Milli Sərvət alınır. Balansın tərtibi



downloaded from KitabYurdu.az

balansın aktiv və passivlərinin strukturunn dəyişəsini üzə aşkar edilməsinə imkan verir.

İqtisadiyyatın sahələri üçün hesablar – istehsal hesabı və gəlirlərin formalaşması (yaranması) hesabı – sektorial hesab üçün nəzərdə tutulan analoji sxem kimi düzülür.

MHS – də həmçinin müxtəlif hesablar olur, belə ki, qalan dünya hesabı əmtəə və xidmət hesabı və s.

Cədvəl 32.

| EHTİYATLAR | İSTİFADƏ |
|---|---|
| Ümumi buraxılış | Aralıq istehlak |
| İdxal | Son istehlak |
| Xalis vergilər | Ümumi yığım |
| Məhsullar | İxrac |
| Ehtiyatların yekunu | Cəmi istifadə olunmuş |

Aralıq istehlak hesabat dövründə istehsal prosesində dəyişdirilən və ya tamamilə istehlak edilən əmtəə və xidmətlərin dəyəridir, son istehlak isə – ev təsərrüfatı və bütövlükdə cəmiyyətin fərdi və kollektiv tələbatlarını ödəyən dövlət idarələrinin son istehlak xərclərindən, həmçinin, ev təsərrüfatlarına xidmət edən qeyri-kommersiya təşkilatlarının son istehlak xərclərindən ibarətdir.

Ev təsərrüfatlarının son istehlak xərclərinə daxildir:

Birincisi, istehlak, əmtəə və xidmətlərin alınmasına sərf olunan ev təsərrüfatı xərcləri, ikincisi, natural formada əmtəə və xidmətlər



downloaded from KitabYurdu.az

istehlakı – özü üçün hazırlanmış və əmək haqqı kimi alınmış vəsaitlər.

Ev təsərrüfatına xidmət edən dövlət idarələrinin son istehlak xərcləri isə fərdi istehlak üçün təyin edilmiş istehlak, əmtəə və xidmətlərinə dövlət idarələri sektorunun və xərcləri daxildir. Onlar büdcə və büdcədən kənar fondlar hesabına maliyyələşdirilir. Bu xərclərə təhsil, səhiyyə, mədəniyyət sahələrində pulsuz xidmətlər göstərən müəssisə və təşkilatların xərcləri daxildir.

İctimai tələbatları təmin edən dövlət idarələrinin son istehlak xərcləri yuxarıda göstərilən göstəricilərdən fərqlənir. Belə ki, ondan dövlət büdcəsi hesabına xidmətlər göstərən müəssisə və təşkilatlar iştirak etmir, yalnız bütövlükdə cəmiyyətin və ya ayrı-ayrı əhali qruplarının tələbatlarını ödəyən müəssisə və təşkilatlar iştirak edir.

MHS ölkədə baş verən sosial –iqtisadi proseslərin kompleks təhlilini aparmağa imkan verir. MHS göstəricilərinin təhlili ayrı-ayrı hesab göstəricilərinin və onların bir-biri ilə qarşılıqlı əlaqələrinin, onların dinamikasının və digər ölkələrin uyğun göstəriciləri ilə müqayisə edilməsinin təhlilidir.

Göstəricilərin təhlili MHS –də əks olunan ayrı-ayrı proseslərin iqtisadi əfəaliyyətləri nəticələrinin, gəlirlərin bölgüsü və yenidən bölcüsünün, müxtəlif nöqteyi nəzərdən və maddi nemətlərin və xidmətlərin son istehlakını, sahəvi nöqteyi nəzərdən iqtisadiyyatın sektorlarının inkişafının xarakteristikasının əks etdirir.

MHS ölkədə baş verən bütün əsas iqtisadiprosesləri praktik təhlil etməyə imkan verir.



downloaded from KitabYurdu.az

Beləliklə, MHS özünə təkrar istehsal prosesinin bütün mərhələlərini ardıcıllıqla əks etdirən hesabları daxil edir.

Nəticə etibarə ilə milli hesablar sisteminin tətbiq edilməsi hər bir koknret ölkədə dövlətin sosial-iqtisadi siyasətinin səmərəliliyini əks etdirir.

### *3. İQTİSADİ ARTIMIN EFFEKTİVLİK AMİLLƏRİ*.

İqtisadi artımın qiymətləndirilməsində istehsalın artımını əks etdirən ümumi milli məhsul (ÜMM), ümumi daxili məhsul (ÜDM) və milli gəlir (MG) göstəriciləri ilə yanaşı, onlardan törəmə göstərici olan bir işçiyə görə məhsul istehsalı göstəricisinə də diqqət vermək lazımdır.

Məsələn, ümumi daxili məhsulun (ÜDM) işləyənlərin sayına olan nisbəti əmək məhsuldarlığını, əhalinin sayına olan nisbəti isə əhalinin həyat səviyyəsinin dinamikasını əks etdirir.

[4]Cədvəl 23.

Respublikada ÜDM-un dinamikası.

| | Ümumi dax məhsul mlrd man. | Maddi istehsal. İşləyən. Sayı. Min nəfər | Əhalinin sayı. Min nəfər. | 1 işləyənə ÜDM min man. | 1 nəfərə ÜDM min man. |
|---|---|---|---|---|---|
| 2001 | 26578 | 3715,0 | 8141,4 | 7154,2 | 3325,9 |

[4] Az. St. rəq. 2004 səh 368



downloaded from KitabYurdu.az

| | | | | | |
|---|---|---|---|---|---|
| 2002 | 30312 | 3726,5 | 8202,5 | 8135,2 | 3764,4 |
| 2003 | 35053 | 3747,0 | 8265,7 | 9354,9 | 4320,0 |

Cədvəlin göstəricilərinin təhlilindən göründüyü kimi 2001-ci ilə nisbətən 2003-cü ildə respublika iqtisadiyyatında ictimai əmək məhsuldarlığı 30,7%, əhalinin həyat səviyyəsi isə 29,9% yüksəlmişdir.

Lakin bu göstəricilər bütün təsərrüfat fəliyyətinin keyfiyyətini və eefktivliyini yüksəlməsi haqqında tam məlumat vermir. Onlar bu məqsəd üçün sərf edilmiş iqtisadi amillərdən və resurslardan səmərəli istifadəni əks etdirmirlir. Əslində cəmiyyət üçün məhsulun hansı keyfiyyətdə və kəmiyyətdə neçəyə başa gəldiyi məlum olmalıdır.

Buna görə də keyfiyyət və effektivlik göstəricilərindən istifadə olunması zəruridir.

Keyfiyyət və effektivlik (nəticənin müqayisəsi və xərclər) ixtiyari sosial-iqtisadi və ya elmi-texnoloji tədbirin fəaliyyətinin qiymətləndirilməsi göstəricisidir. Çünki, əsas və dövriyyə fondlarından, əmək resurslarından, işçi qüvvəsindən istifadənin elmi-texniki nəaliyyətlərin tətbiqindən alınan nəticələri müqayisə etmək və bunalırn əsasında istehsalın artımını vahid universal göstərici ilə ölçmək qeyri-mümkündür. Buna görə də keyfiyyət və effektivlik səviyyəsini kompleks qiymətləndirmək üçün geniş miqyaslı göstəricilər sistemindən istifadə olunmalıdır.



downloaded from KitabYurdu.az

Məsələn, mütləq, müqayisəli, dəyər natural, əmək göstəriciləri tətbiq olunur. Bu göstəricilər təsərrüfatçılığın müxtəlif səviyyələrinə mütabiq olaraq (makro-mezo-mikro səviyyələrdə) diferensiallaşdırılırlar. Məhsul istehsalının natural ifadədə həcmini müəyyən etmək üçün isə fiziki vahidlərdən; kq, $m^2$, $m^3$, ədəd, litr və s. istifadə olunur.

Bu göstəricilərlə bahəm xüsusi çəki göstəricilərindən də istifadə olunur. Məsələn, məhsul vahidində məsrəflərin, canlı əməyin, xammal, material, enerji, yanacıq və s. sərfinin xüsusi çəkisi.

İqtisadi problemlərin həlli və səviyyəsindən asılı olaraq bu göstəricilər normativ və indiqativ (hesablama) formada ola bilər.

Məhsulun marketinq xarakterinin, layihənin səmərəliliyinin, kommersiya faydalılığının müəyyən edilməsində bu göstəricilərin müxtəlif uyğunluğundan istifadə oluna bilər.

İstehsal resurslarından istifadədə təşkilati-texniki təkmilləşdirmələrin təhlilində, keyfiyyət və faydalılığın ölçülməsində müxtəlif səpkili detallaşdırılmış və fərdi göstəricilərdən də istifadə olunur. Bunun üçün məhsulun maya dəyəri, keyfiyyəti, heyətin ixtisaslaşdırılması, xammal, material, enerji, yanacaq və s. istifadə keyfiyyəti, əsas və dövriyyə fondlarından istifadənin effektivliyi, kapital qoyuluşu və maliyyə resurslarından istifadənin maya dəyəri, təsərrüfat fəaliyyətinin və tədbirlərin tətbiqinin sosial effektivliyi, ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunması səviyyəsi, iqtisadi fəaliyyətin ekologiyalaşdırılması, ətraf mühitin qorunması səviyyəsi və s. bu kimi göstəricilərdən istifadə olunur.



downloaded from KitabYurdu.az

Bu qəbildən olan göstəricilər qrupu öz rol və mahiyyətlərinə görə ilkin sayılırlar. Onlar ekspert qiymətləndirilməsi və təhlilin aparılması üçün əsas sayılırlar və keyfiyyət, effektivlik səviyyəsinin ölçülməsi üçün dayaq nöqtəsi rolunu oynayırlar. Onlar həmçinin son ümumiləşdirilmiş nəticə göstəricilərinin hesablanması üçün şərait yaradırlar.

Effektivliyin ümumiləşdirilmiş nəticə göstəricisi məhsulun rentabelliyinin hesablanması vasitəsilə müəyyən edilir və aşağıdakı formada ifadə olunur:

$$P_M = \frac{Б_м}{M_{мд}} X100$$

Haradakı,

$P_m$-məhsulun rentabelliyini

$B_m$- balans mənfəətini

$M_{md}$ –məhsulun maya dəyərini göstərir.

Son ümumiləşdirilmiş nəticəni əks etdirən digər göstərici istehsalın rentabelliyinin müəyyən edilməsidir. Bu göstərici isə aşağıdakı kimi hesablanır:

$$P_n = \frac{Б_м}{Э_{иф} + Д_н} \bullet 100$$

Haradaki,

$P_n$ – istehsalın rentabelliyini

$Ə_{if}$-əsas istehsal fondlarının dəyərini

$D_n$-normallaşdırılmış dövriyyə vəsaitlərini əks etdirir.



downloaded from KitabYurdu.az

Xərclərin hər manatına xalis məhsulun həcminin müəyyən edilməsi də xüsusi əhəmiyyətli göstəricidir. Bu xərc məcmunun effektivliyinin qiymətləndirilməsinin ümumiləşdirilmiş göstəricisidir.

Respublika iqtisadiyyatında bu göstəricini təxmini olaraq aşağıdakı kimi hesablamaq mümkündür:

[5]Cədvəl 34.

Aralıq istehlakın bir manatına milli gəlir göstəricisi.

| | 2000 | 2001 | 2002 |
|---|---|---|---|
| Xalis milli gəlir, mlrd.manat. | 19364,2 | 21735,9 | 24602,2 |
| Aralıq istehlak mlrd.man | 17356,4 | 21881,9 | 26974,7 |
| Aralıq istehlakın hər manatına xalis milli gəlir man. | 1,11 | 0,99 | 0,91 |

Məlumatlardan 2000-ci ilə nisbətən 2002-ci ildə aralıq istehlakın bir manatına xalis milli gəlirin azalmağa doğru meylliyi görünür ki, bu da qənaət edici göstərici deyildir.

---

[5] Az.st. rəq.2004 səh.369,377. AR-sı Statistika Komitəsinin nəşr etdirdiyi «Statistik » məcmuədə xalis milli məhusl və material xərcləri göstəriciləri olmadığı üçün hesablama təxmini aparılmışdır.



downloaded from KitabYurdu.az

## *BÖLMƏ II. MİLLİ İQTİSDİYYATIN TƏNZİMLƏNMƏSİ MEXANİZMLƏRİ.*

### *FƏSİL X – DÖVLƏTİN STRUKTUR SİYASƏTİ.*

### *1. DÖVLƏTİN STRUKTUR SİYASƏTİ VƏ ONUN MAHİYYƏTİ.*

İctimai əmək bölgüsünə mütabiq olan, ixtiyari ölkənin iqtisadiyyatını sahələrin, bölmələrin, müəssisələrin, təşkilatların qarşılıqlı əlaqələrinin məcmusu kimi başa düşmək olar. Bütün bu sahələrin iqtisadiyyatını sadə qarşılıqlı əlaqədə qəbul etmək olmaz. Onların hər biri üst və alt sistemdə olub iearxik asılılıqdadırlar. Bu xalq təsərrüfatına strukturuna çoxsəviyyəli olan sistemi kimi baxmağa imkan verir. Bu sistemin aşağı qatında müəssisələrin iqtisadiyyatı, sonrakı səviyyəsində təsərrüfat korporasiyaları, orta pillədə regionların iqtisadiyyatı, üst qatında isə makrosəviyyədə durur. Bütün bu çoxsəviyyəli sistem müxtəlif infrastrukturlarla vahid, bütöv, real iqtisadiyyatda təşəkkülləşir. İqtisadiyyatın belə çox səviyyəliliyi və sahəliliyi onun müxtəlif növ strukturunun metodoloji əsasını müəyyən etməyə imkan verir. Həmin



downloaded from KitabYurdu.az

strukturların müəyyənliyi iqtisadiyyat elmində belə təsnifləşdirilmişdir.

İqtisadiyyatın siyasi iqtisadi strukturu. İqtisadiyyatın bu strukturu mülkiyyət növləri ilə birlikdə müxtəlif məhsuldar qüvvələrin sahələr və ərazilər üzrə mütənasib bölüşdürülməsinin vahid məcmu kimi ifadə olunur. Siyasi iqtisadi struktur, istehsal amillərinin region subyektləri üzrə yerləşdirilməsinin strategiyası və taktikasının əsasında durur.

Bu strukturanın dəyişilməsi meylini respublika iqtisadiyyatında mövcud olan əsas istehsal fondlarının dinamikasında görmək mümkündür.

[6]Cədvəl 35.

Respublika iqtisadiyyatında fəaliyyət növləri üzrə əsas fondlar.

| | 2001 | 2002 | 2003 |
|---|---|---|---|
| Balans dəyərində iqtisadiyyatda əsas istehsal fondları, tlr.man. | 104798,3 | 116127,3 | 129462,5 |
| 1. sənayedə | 40794,5 | 46991,0 | 59720,0 |
| 2. k-t-da. Ovçuluq, meşəçilik | 13361,3 | 13668,5 | 14220,1 |
| 3. Tikintidə | 4654,3 | 5343,4 | 5246,8 |
| 4. Nəqliyyat, anbar təsərrüfatı və rabitə | 13322,1 | 15890,5 | 17630,6 |

[6] Az.st.rəq. 2004 səh 35, 387 əsasında hesablanmışdır



downloaded from KitabYurdu.az

| | | | |
|---|---|---|---|
| 5. Dövlət idarəetmə və müdafiə, məcburi sığorta | 2821,3 | 2958,6 | 4586,4 |
| 6. Təhsil | 2389,8 | 2464,0 | 1751,1 |
| 7. Səhiyyə və sosial sığorta | 5707,9 | 5775,0 | 5846,8 |
| Fondların strukturu %-lə | | | |
| 1 | 38,9 | 40,4 | 46,1 |
| 2 | 12,7 | 11,8 | 11,0 |
| 3 | 4,4 | 4,6 | 4,1 |
| 4 | 12,7 | 13,7 | 13,7 |
| 5 | 2,7 | 2,5 | 3,5 |
| 6 | 2,3 | 2,1 | 1,3 |
| 7 | 5,4 | 4,9 | 4,4 |

Göründüyü kimi əsas istehsal fondlarının strukturunda, sənaye istehsal fondlarının artımı müşayiət olunur.

İqtisadiyyatın təşkilatı-funksional strukturu. Bu struktur milli iqtisadiyyatı təşkilatlar, idarələr və habelə maraqlar səviyyəsində ifadə edir. Təşkilatı funksional struktur iearxiya əsasında iqtisadi fəaliyyətin strukturunun əsasını qurmağa imkan verir.

İqtisadiyyatın təkrar istehsal strukturu. İqtisadiyyatın strukturuna belə yanaşma xalq təsərrüfatının struktur elementlərini müəyyən etməyə imkan verir. Belə struktura özündə istehsal və bazar, şəxsi və ictimai istehslak, elmi və mühəndis hazırlığı,



downloaded from KitabYurdu.az

sahibkarlıq və marketinq, investisiya və intellektual hazırlığı və s. birləşdirir.

İqtisadiyyatın texnoloji strukturu. Texnoloji struktura istehsalın əsasını təşkil edən texnoloji zəncirin vahid məcmunuəks etdirir.

İqtisadiyyatın resurs strukturu. Resurslardan səmərəli istifadə və onların istehsalını nəzərdə tutur.

Dövlətin struktur siyasətinin əsasında iqtisadiyyatın prioritet sahələrinin seçilməsi və onların inkişaf etdirilməsi durur.

[7]Cədvəl 36.

İqtisadi struktura göstəriciləri.

| | 2000 | 2002 | 2003 |
|---|---|---|---|
| ÜDM-n strukturu<br>Sənaye %-lə | 32,0 | 34,9 | 37,8 |
| Kənd təsərrüfatı | 18,1 | 14,2 | 13,1 |
| Tikinti | 4,4 | 10,8 | 12,1 |
| Nəqliyyat və rabitə | 14,5 | 9,8 | 9,5 |
| Ticarət və ictimai iaşə | 6,1 | 7,9 | 7,9 |
| Sosial və qeyri formal xidmət | 21,0 | 14,7 | 12,6 |
| Xalis vergilər | 3,9 | 7,2 | 7,0 |
| Məcmu kapitalın strukturu | | | 87,8 |
| Nizamnamə kapitalı | 52,5 | 87,0 | 2,0 |
| Ehtiyat kapitalı | 40,5 | 3,0 | 10,2 |

[7] Az.st.rəq.2000-2004 əlavələr



downloaded from KitabYurdu.az

| | | | |
|---|---|---|---|
| Əlavə kapital | 7,0 | 10 | |
| Xarici investisiyaların struktur | | | |
| Neft sənayesi | 58,9 | 75,8 | 85,9 |
| Birgə və xarici firmalar | 12,7 | 14,2 | 7,7 |
| Maliyyə kreditləri | 28,4 | 10,0 | 6,5 |

Respublika iqtisadiyyatında sənayenin neft sektoru prioritet sahədir. Buna görə də 2000-2003-cü illərdə sənayenin ümumi məhsulu (Ümumi Daxili Məhsulda) artmağa meyllənmişdir. Buna isə neft sektoruna istiqamətlənmiş investisiya axınının xüsusi çəkisinin artması səbəb olmuşdur.

Məlumdur ki, mülkiyyət formalarına əsaslanan bazar iqtisadiyyatı şəraitində dövlətin struktur siyasətinin sosial-iqtisadi məzsunu, istiqamətləri, forma və metodlarında keyfiyyət dəyişiklikləri baş verir. Bazar iqtisadiyyatının özünü tənzimləmə və özü inkişaf mexanizmi bazar konyukturasında dəyişikliklərin təsiri altında iqtisadiyyatda struktur irəliləyişlərini istiqamətləndirir və bu irəliləyişlərin effektliyini təmin edir. Lakin hətta klassik bazar iqtisadiyyatı şəraitində də dövlətin struktur siyasətini yeritməsi zərurəti aradan qalxmır. Bu zaman iqtisadiyyatda struktur irəliləyişlərinin stimullaşdırılması zəruriyyətə çevrilir və aşağıdakı amillərlə şərtlənir:

- elmin ən qabaqcıl nailiyyətləri əsasında formalaşmış yeni sahələrə dövlət tərəfindən maliyyə myardımının göstərilməsi ilə;



downloaded from KitabYurdu.az

-təsərrüfat əlaqələrinin, xüsusilə sahələrarası əlaqələrin son dərəcə mürəkkəbləşdiyi bir şəraitdə elmi-texniki tərəqqinin daşıyıcısı olan sahələrin inkişafının dövlət tərəfindən stimullaşdırılması vasitəsilə iqtisadiyyatın sahələrarası strukturunu təkmilləşdirilməsi zərurəti ilə.

-- Fiziki və mənəvi cəhətdən çox tez aşınan istehsal avadanlığının vaxtında təzələnməsini stimullaşdırmaq məqsədi ilə;

- İqtisadi infrastruktur sahələrinin inkişafı məqsədi ilə;

- Ərazi problemlərinin həlli üçün iqtisadiyyatın ərazi strukturunun inkişafının tənzimlənməsi yolu ilə.

Uzun illərin təcrübəsi göstərmişdir ki, bazar iqtisadiyyatı şəraitində dövlət əgər göstərilən istiqamətlərdə düzgün struktur siyasəti yeritməzsə, iqtisadiyyatın strukturunda elə zəif həlqələr yaranar ki, bütövlükdə iqtisadi-sosial inkişafı ləngidə bilər.

İqtisadi strukturun həyata keçirilməsi üçün vəsait lazımdır. Bu vəsaitin əsas mənbəyi vergi və amortizasiyalardır. Buna görə də iqtisadiyyatın strukturunun tənzimlənməsinin mühüm alətlərini vergi və amortizasiya siyasəti təşkil edir.

Məsələn, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin əksəriyyətində istehsal təyinatlı avadanlığın alınmasına yönəldilən əsaslı vəsait qoyuluşunun müəyyən hissəsi üçün xüsusi korporasiyalara vergi güzəştləri müəyyən edilir. Bu güzəştin mahiyyəti ondan ibarətdir ki, kompaniyalara həmin məqsədə yönəldilmiş vəsaitin müəyyən hissəsindən (7-12 faizə qədər) büdcəyə ödənilən verginin azaldılması hüququ verilir.



downloaded from KitabYurdu.az

Bu tədbir iqtisadiyyatın müəyyən sahələrinin xüsusən ağır maşınqayırma, cihazqayırma, NHM –nin istehsalı sahələrinin məhsulları üçün iqtisadi konyukturanın genişlənməsinə və nəticədə onların sürətlə inkişafı üçün şərait yaradır ki, bu da iqtisadiyyatda dövlətin nəzərdə tutduğu istiqamətlərdə struktur irəliləyişlərinin şərtləndirir.

İqtisadiyyatda struktur irəliləyişlərinin stimullaşdırılmasında dövlətin amortizasiya siyasəti böyük rol oynayır. Bu siyasətin əsas elementlərindən biri müntəzəm olaraq, təxminən hər 10 ildən birə əsas kapitalın xüsusi ilə onun aktiv hissəsini n işləmə müddətinin azaldılmasıdır.

Avadanlığın işləmə müddətini qısaltmaq yolu ilə bir tərəfdən avadanlıq istehsal edən sahələr üçün konyukturanı yaxşılaşdırır, digər tərəfdən isə avadanlığın işləmə müddətinin sahələr üzrə diferensasiya etmək yolu ilə ayrı-ayrı sahələrin daha sürətlə inkişaf etməsi üçün əlverişli şərait yaradır.

Dövrü olaraq avadanlığın işləmə müddətinin azaldılması ilə yanaşı dövlətin amortizasiya siyasətində bu azaldılmış müddətlər çərçivəsində sürətləndirilmiş amortizasiya metodlarından da geniş istifadə olunur. Bu əsasən iki metoddan ibarətdir:

a) «azalan qalıq» metodu-

b) «rəqəmlər cəmi» metodu

«Azalan qalıq» metodunun mahiyyəti ondan ibarətdir ki, ondan istifadə edilərkən birincisi bir qayda olaraq amortizasiyalaşma metodundan olduğundan 1,5- 2,0 dəfə yüksək



downloaded from KitabYurdu.az

amortizasiya norması müəyyən olunur, ikincisi isə, amortizasiya ayırmaları əsasən kapital qalıq dəyərindən sabit faizlərlə müəyyən olunur.

Bu metodun mahiyyətini şərti rəqəmlərlə izah edik.

«Azalan qalıq» metodu ilə əsas kapitalın sürətli amortizasiyalaşması

Cədvəl 37.

| Bərabər amortizasiyalaşma | | | Azalan qalıqla amortizasiyalaşma | |
|---|---|---|---|---|
| Sıra | Əsas kapitalın dəyə | Amortizasiya ayırmalar 10% | Əsas kapital dəyəri | Amortizasiya ayırmalar 20% |
| 1. | 20000 | 2000 | 20000 | 4000 |
| 2. | 20000 | 2000 | 16000 | 3200 |
| 3. | 20000 | 2000 | 12900 | 2560 |
| 4. | 20000 | 2000 | 16240 | 2048 |
| 5. | 20000 | 2000 | 8192 | 1638 |
| 6. | 20000 | 2000 | 6554 | 1310 |
| 7. | 20000 | 2000 | 5244 | 1048 |
| 8. | 20000 | 2000 | 4196 | 840 |
| 9. | 20000 | 2000 | 3356 | 672 |
| 10. | 20000 | 2000 | 2684 | 536 |
| 11. | 20000 | 2000 | 2148 | 17852 |



downloaded from KitabYurdu.az

Cədvəldən göründüyü kimi, hər il 2,0 min manat bərabər ayırmalar aparan ənənəvi metoddan fərqli olaraq sürətlənmiş «azalan qalıq» metodu ilə əsas kapitalın daha sürətlə amortizasiya olunması təmin olunur. Məsələn, əgər birinci 3 il ərzində bərabər metodla əsas kapitalın cəmin 30%-i (6000 man.) amortizasiyalaşırsa, sürətli metodla onunla təxminən yarısı (48,8 %-i 9760 man.) amortizasiyalaşır. Bu isə iqtisadiyyatın aparıcı, üstün sahələrində imkan verir ki, avans olunmuş kapital daha sürətlə dövr etsin, bazar riski azaldılsın və bu yolla bura başqa sahələrdən kapital axını təmin olunsun.

Sürətli amortizasiyalaşmanın digər metodu «rəqəmlər cəmi» metodudur. Bu metodun mahiyyəti ondan ibarətdir ki, ondan istifadə olunan zaman amortizamiya norması əks ardıcıllıqla əsas kapitalın işləmə müddətinin rəqəmlər cəminə bölməklə müəyyənləşdirilir. Kifayət qədər mürəkkəb mexanizmə malik olan bu metodun mahiyyətini də şərti rəqəmlərlə izah edək.

Cədvəl 36.

«Rəqəmlər cəmi» metodu ilə amortizasiya normasının müəyyən edilməsi qaydası.

| Əsas kapitalın işləmə müddəti | Əks ardıcıllıq yazılmış illər sırası | Amortizasiya norması 2: 1. 100 | % |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| 1 | 10 | 10\55 | 18,2 |



downloaded from KitabYurdu.az

| | | | |
|---|---|---|---|
| 2 | 9 | 9\55 | 16,4 |
| 3 | 8 | 8\55 | 14,5 |
| 4 | 7 | 7\55 | 12,7 |
| 5 | 6 | 6\5 | 10,9 |
| 6 | 5 | 5\55 | 9,1 |
| 7 | 4 | 4\55 | 7,3 |
| 8 | 3 | 3\55 | 5,5 |
| 9 | 2 | 2\55 | 3,6 |
| 15 | 1 | 1\55 | 1,8 |
| 55 | 55 | 55\55 | 100,0 |

Cədvəldən göründüyü kimi bu metoddan istifadə edilən zaman birinci il üçün bərabər metodla müqayisəyə görə (80 %) təxminən 1,8 dəfə yüksək amortizasiya norması (18,2 %) formalaşır. Digər tərəfdən isə birinci ilin amortizasiya norması son ilin amortizasiya normasından (1,8 %) 10 dəfə yüksək olur.

Dövlətin struktur siyasətində kredit-pul siyasətindən də geniş istifadə olunur. Bu siyasət vasitəsilə dövlət tərəfindən elə makro-iqtisadi şərait yaradılır ki, iqtisadiyyatda üstünlün verilən sahələrin xeyrinə struktur dəyişiklikləri baş versin.

Pul-kredit mexanizmi vasitəsilə iqtisadiyyatda struktur irəliləyişlərinin tənzimlənməsi xüsusilə ABŞ-da geniş yayılmışdır. Bu mexanizmin əsası ölkənin mərkəzi bankı rolunu oynayan Federal ehtiyatlar sistemi vasitəsilə bank uçot dərəcələrinin, bu sistemə daxil



downloaded from KitabYurdu.az

olan banklar üçün məcburi ehtiyatı normalarının tənzimlənməsi durur.

Məsələn, bank uçot dərəcələrini və məcburi ehtiyat tələblərini aşağı salmaq yolu ilə Federal ehtiyat sistemi, ona daxil olan bankların kredit resurslarını artırır və bu yolla sənaye kompaniyalarının nisbətən ucuz kredit almaq imkalarını genişləndirir. Əgər nəzərə alınsa ki, iqtisadiyyatın yeni mütərəqqi sahələrinin kreditə daha çox ehtiyacı olur, onda belə siyasət onların inkişafı və son nəticədə iqtisadiyyatda mütərəqqi struktur dəyişiklikləri üçün lazımi şəraiti yaradır.

Xüsusi biznesə yardım edilməsinin və bunun vasitəsi ilə iqtisadiyyatda nəzərdə tutulan struktur irəliləyişlərinin stimullaşdırılmasının mühüm formalarından biri, uzun müddətə istehlak olunan əmtəələrə əhalinin tələbatının stimullaşdırılmasıdır.

Bu məqsədlə dövlət banklar və digər maliyyə orqanları tərəfindən əhaliyə uzun müddət işlənən malların alınmasına verilən kreditin sığorta edilməsi siyasətini həyata keçirir. Bu isə öz növbəsində cəmiyyət miqyasında istehlak kreditinin geniş yayılmasına və uyğun olaraq uzun müddət istehlak olunan əmtəələr istehsal edən sahələrin inkişafına səbəb olur.

İqtisadiyyatda struktur irəliləyişlərinin dolayı stimullaşdırılması metodlarından əlavə dövlət tərəfindən iqtisadiyyatın tənzimlənməsində bir başa metodlardan da geniş istifadə olunur. Struktur siyasətinin bir başa metodlara aşağıdakılar daxildir:



downloaded from KitabYurdu.az

a) dövlət tərəfindən əmtəə və xidmətlərin alınması;

b) elmi-tədqiqat, təcrübə, konstruktor və layihə işlərinin dövlət bıdcəsindən maliyyələşdirilməsi;

v) iqtisadiyyatın ayrı-ayrı sahələrinin subsidiyalaşması və kreditləşməsi.

Dövlət əmtəə və xidmətlərin çox böyük istehlakçısı kimi hökumət sifarişini yerləşdirmək mexanizmi vasitəsilə həm bazar konyukturasının həcminə, həm də onun sahə və ərazi strukturuna əhəmiyyətli təsir göstərir.

Elmi-texniki inqilab inqilab şəraitində iqtisadiyyatın strukturunda mütərəqqi irəliləyişlərin dövlət stimullaşdırılmasının çox mühüm vasitələrindən biri də dövlət tərəfindən qabaqcıl sahələrdə elmi-tədqiqat və təcrübə – konstruktor işlərinin təşkili və maliyyələşdirilməsidir. Xüsusi kompaniyalara belə formada yardım vasitəsilə yeni sahələrin formalaşması zamanı çox əhəmiyyətli maliyyə riskinin bir hissəsini dövlət öz üzərinə götürür və beləliklə, bu sahələrə kapital axınını stimullaşdırır.

Dövlətin struktur siyasətində ayrı-ayrı sahələrə büdcədən birbaşa subsidiya və kreditlərin verilməsi də əhəmiyyətli rol oynayır. Belə sahələr içərisində kənd təsərrüfatı, mənzil-tikinti, istehsal infrastrukturası mühüm rol oynayır.

Amerika fermerlərinə dövlət krediti bir qayda olaraq dövlət-kooperativ maliyyə idarəsi tərəfindən verilir. Bu kreditin əsas məqsədi kənd təsərrüfatının strukturunu bazarın konyukturasından qorumaq, onu dövlətin ali mənafelərinə tabe etdirməkdir.



downloaded from KitabYurdu.az

Dövlət fermerlərin maliyyə asılılığından istifadə edərək həm kənd təsərrüfatı istehsalının həcmini, həm də onun aparıcı sahələrinin inkişafını stimullaşdırmaq yolu ilə onun strukturuna fəal təsir göstərir.

## *2. KONSERVATİV UYĞUNLAŞMA VƏ İNNOVASİYA SİYASƏTİ.*

Konservativ iqtisadiyyat elə iqtisadi-siyasi nəzəriyyələr kompleksidir ki, dövləti təsərrüfat funksiyasının məhdudlaşdırılmasına, bazarın özünü idarə funksiyasının genişlənməsinə, sosial qeyri-bərabərliyinin artmasına istiqamətlənmişdir.

Konservativ iqtisadiyyata neoklassik və neoliberal iqtisadi nəzəriyyələr – monetarizm konsepsiyaları daxildir. Bu konsepsiyalara aiddir:

1. Səmərəli gözləmə konsepsiyası.
2. İqtisadi təklif nəzəriyyəis.
3. Mülkiyyət hüququ nəzəriyyəsi.
4. Tənzimləmə nəzəriyyəsi (sahibkarlığa qarşı dövlət tərəfindən qoyulan bütün inzibati amiranəlik normalarının ləğv edilməsi)
5. Dövlət seçkisi nəzəriyyəsi.



downloaded from KitabYurdu.az

Bütün bu konsepsiyaların ana xəttini, təsərrüfat vahidlərinin hərəkətlərinin maksimumlaşdırılması, bazarın özünün idarə bacarığına inanılma və dövlətin makrosəviyyədə həll etmək istədiyi problemlərə tənqidi yanaşma təşkil edir.

Həmin konsepsiyaların hamısı bütün maddələr üzrə, iqtisadi böhrandan çıxışın dövlət tənzimlənməsi üolunu, bazarın imkanlarının məhdudluğunu göstərən keynsçilik və neokeynsçilik nəzəriyyəsi ilə tam əksiklik təşkil edirlər. Məlumdur ki, keynsçilik məcburi işsizliyi qəbul edərək əmək bazarı vasitəsilə böhrandan çıxmaq imkanını mümkün hesab edirdilər.

Konservativ iqtisadi uyğunlaşma tərəfdarları qeyd edirdilər ki, dövlətin iqtisadi siyasətinin məhdudlaşdırılması əsasən aşağıdakı istiqamətlərdə olmalıdır:

1. Tələbatın tənzimlənməsinin, təklifin tənzimlənməsinə aparılmasının məhdudlaşması.
2. Makroiqtisadi tədbirlərin həyata keçirilməsinin məhdudlaşması.
3. Bazarın uyğunlaşma imkanının məhdudlaşması.
4. Qısa müddətli dövlət təcavüzünün uzunmüddətli təcavüzə keçməsini məhdudlaşdması;
5. Sərt sosial siyasətin aparılmasının məhdudlaşması.

Konservativ uyğunlaşma nümayəndələri, dövlət tənzimlənməsini müəyyən qaydaya və normalara tabe etdirilməsini təklif edirdilər. Onlar dövlət seçkilərinə inzibati amirlik prizmasından baxılmasını istəyirdilər.



downloaded from KitabYurdu.az

Konservativ uyğunlaşma nəzəriyyəçiləri tələbin qısa və uzun müddətli dövlət tənziminin, tklifin tənzimlənməsi üzərində keçirilməsini istəyirdilər ki, bu dövlət xərclərinin azaldılması, dövlət büdcəsi qalığının balanslaşdırılmasını nəzərdə tuturdu.

Konservati uyğunlaşmia tərəfdarları vergi sisteminin mütərəqqiliyini azaldalaraq onun strukturunun dəyişilməsini, dolayı vergiləri qəbul edirdilər.

Lakin qeyd etmək lazımdır ki, konservativ uyğunlaşma nəzəriyyəsi bazar iqtisadiyyatına tam ifadə etmir. Bazar özünü idarə xassəsinə malik olsa da o, müəyyən dərəcədə dövlət tərəfindən idarə edilməli və tənzimlənməlidir. Bu tənzimlənmə əsasən tələb və təklif üzrə aparılır. İlk növbədə burada əsas məsələ tələbə uyğun təklif yaratmaqdır, yəni tələbə uyğun məhsul yaratmaq vacibdir. Yeni məhsul istehsalı yeni texnologiya tələb edir ki, bu texnoloji proses də dövlətin innovasiya siyasətində özünü göstərir.

## *3. ÖLKƏNİN İNNOVASİYA POTENSİALI VƏ ONDAN İSTİFADƏNİN TƏNZİMLƏNMƏSİ.*

İnnovasiya potensialına iqtisadi potensialın artması və onun törəməsi kimi baxmaq olar. İnnovasiya cəmiyyətin öz qarşısına qoyduğu imkanını genişləndirir. Cəmiyyət üçün əmək və kapital resursunun qoruyub saxlayır. ETT- nin imkanları genişləndikcə,



downloaded from KitabYurdu.az

cəmiyyətin iqtisadi potensialı artır, deməli innovasiya prosesi genişlənir.

İnnovasiya prosesi təşkilati – texniki və struktur yeniləşdirilməsi ilə əlaqədardır. Onun kəmiyyəti təbii istehsal, elmi-texniki intellektual potensialının səviyyəsindən asılı olaraq müəyyən edilir.

İnnovasiya potensialı məhsuldar qüvvələrlə istehsal münasibətlərinin mürəkkəb qarşılıqlı əlaqələri ilə təyin edilir. İqtisadi sistemin inkişafı imkanını səciyyələndirən innovasiya eyni zamanda onun istehsal münasibətlərini formalaşdıran potensialını da müəyyən edir. Bu isə elmi-texniki potensialla innovasiya potensialının qarşılıqlı münasibətni aşkar edir.

Ölkə inkişaf etmiş elmi-texniki potensiala malik olp bilər. (mühəndis kadrlar, müxtəlif formalı yenilikləri və s.) . Lakin innovasiya potensialına olmaya bilər ki, nəticədə yeniliklər tətbiq edilməz və ölkə iqtisadi inkişafda geriləyə bilər.

Əksinə ölkə əhəmiyyətsiz elmi-texniki potensiala malik ola bilər. Lakin yeniliklərin tətbiqinin istiqamətlənmiş forması ola bilər ki, bu da ölkənin iqtisadi inkişafının əsasını təşkil edir.

Bir çox ölkələrdə sosial-iqtisadi yeniliklərin tətbiqi təcrübəsi göstərmişdir ki, məhsuldar qüvvələrin innovasiya potensialı arxalik iqtisadi münasibətlər şəraitində fəaliyyət göstərə bilmədiyi kimi, bazar münasibətləri şəraitində də ənənəvi istehsal münasibətləri fəaliyyət göstərə bilməz.



downloaded from KitabYurdu.az

İnnovasiya potensialından istifadə imkanı sosial-iqtisadi institutların bazası ilə müəyyən edilir. Bu strukturlar yeniliklərin tətbiqi imkanını genişləndirir ki, bu da bazar iqtisadiyyatının tələblərinə uyğundur.

Bununla yanaşı innovasiya potensialının bazar mexanizmi daxili ziddiyyətlərə malikdir. Məsələn:

a) fərdi və ictimai maraq arasındakı ziddiyyət;

b) müəssisələr və ətraf mühitin qorunması arasındakı ziddiyyət.

Bu ziddiyyətlər bazar mexanizminin tənzimlənməsinin daima yeniləşdirilməsi fonunda həll edilməlidir və yeni strukturlar yaradılmalıdır. Bunlar aşağıdakılar olar bilər:

1. Ümumi Milli elmi-texniki proqramların tərtibi.
2. Dövlət sifarişləri və kontraktlar sistemi.
3. Müəlliflik hüququnun və intellektual mülkiyyətin qorunması;
4. Kredit-vergi alətləri siyasəti;
5. Təhsil proqramı, ixtisasdəyişmə və əhalinin məşğulluğu;
6. Elmi-tədqiqat konsersiumları və yeni riskli istehsalın maliyyələşdirilməsi;
7. Gəlirsiz elmi-tədqiqat və layihə təşkilatlarının (dövlət bölməsi üçün) maliyyələşdirilməsi.

Belə strukturların yaradılması innovasiya potensialından səmərəli istifadə olunmasına imkan verir.

İnnovasiya aktivliyinin iki növü bir-birindən fərqləndirilir:

a) Novatorluq



downloaded from KitabYurdu.az

b) İmmitasiya

Birincisinin əsas məqsədi yeniliklər axtarmaqdır.

İkincisi isə əvvəlki təcrübələr əsasında yeniliklərin tətbiqidir. Müxtəlif sosial-iqtisadi sistemlərdə bu növlərin müxtəlif uzlaşması həyata keçirilir. Bazar iqtisadiyyatı şəraitində inkişaf etmiş ölkələrdə innovasiya aktivliyinin birinci növünə daha çox üstünlük verilirsə, direktiv əsaslarla inkişaf edən ölkələrdə isə ikinci tip üstünlüyə malik olur.

İnnovasiya aktivliyinin yaradılması onun stimullaşdırılmasıdır. Bazar iqtisadiyyatı şəraitində bu rəqabət formasında çıxış edir. Biznes daima rəqabət, mübarizə aparmasa yaşaya bilmir.

Keçmiş SSRİ-də elmi-texniki potensialın 70 faizə qədəri, ABŞ-da isə 80 faizə qədəri hərbi-sənaye kompleksində yerləşmişdir. Lakin ABŞ-da sənaye hərbir inkişaf etdirməklə yanaşı, xalq istehlakı məhsulları da istehsal edilir.

İqtisadi potensial və milli sərvətin artması məhsuldar qüvvələrin təkrar istehsalı qanunauyğunluğu ilə müəyyən olunur. Məhsuldar qüvvələrin inkişafında qeyri-müntəzimlik vəziyyəti xasdır. Bu texnoloji cəhətdən əlaqədar olan sahələrin, komplekslərin vahidliyinin dövrülülüyü ilə şərtlənir. Bu isə cəmiyyətin inkişafının texnoloji ukladıdır – inkişaf tərzidir.

Texniki-iqtisadi inkişaf texnoloji ukladın (tərzin) dəyişməsi ilə də müşayiət oluna bilər və ya varislik; yeniliiyə ardıcıl keçilməsi yolu ilə də inkişaf edə bilər. Nəticədə birinin inkişafı digəri üçün maddi baza yaratmış olur.



downloaded from KitabYurdu.az

Texniki ukladın (tərzin) həyati tsikli 4 mərhələni əhatə edir: - yaranma, artma, yetişmə, sönmə.

Bu mərhələlər iki formada təkan verən mexanizmə malikdirlər:

1. Kçik pulsasiya (döyünmə). Bu texnoloji ukladın yaranma mərhələsinə uyğun gəlir. Belə ki, texnoloji ukladın tərkibi olan istehsal sahələri əlverişli olmayan iqtisadi mühitdə inkişaf edirlər. Bu mərhələdə yeni texnologiyanın inkişafı məhduddur, ona əvvəlki texnoloji uklad maneçilik törədir.

2. Böyük pulsasiya (döyünmə). Təkrar istehsalın vahid konturu yaranır. Yeni texnoloji uklad yaranır ki, bu da onun tərkib hissəsi olan istehsalın tələbinə uyğun gəlir.

Vahid təkrar istehsal prosesinin yaranması yeni texnologiyanın yaranması və tətbiqi vasitəsilə tədricən köhnə texnologiyanı sıxışdırıb aradan çıxardır, struktur dəyişikliklərini həyata keçirməyə və radikal formada yeni texnoloji kompleksin tətbiqinə imkan verir.

Bazar iqtisadiyyatı şəraitində texnoloji ukladın yaranması, yeni texnikanın tətbiqi istehsal sürətini artırır. O, maksimuma çataraq öz imkanlarını tamamilə bürukzə çıxardıqdan sonra yetişmə dövrünə qədəm qoyur və sonrakı mərhələ, sönmə mərhələsi başlayır.

Sönmə mərhələsi yeni texnoloji ukladın əsasını qoyur. Beləliklə də texnoloji ukladın dalğavari inkişafı təkrar olunur və iqtisadi konyukturanın fəaliyyəti güclənir.

Bu zaman bazar özünü təşkiletmə ətalətinə uyğun olaraq yeni struktur dəyişikliyi-maşınqayırma, konstruktiv materiallar istehsalı,



downloaded from KitabYurdu.az

enerjidaşıyıcı sahələrin fəaliyyətlərini sinxronlaşdırır. Onlar bir-birini tamamlayır və stimullaşdırırlar.

Yəni bir sahə üzrə edilmiş kəşflər, digər sahələrdə onun tətbiqinə imkan verən texnologiya yaranana qədər gözləməli olur. Həmin prosesi tezləşdirmək üçün sahələrin qarşılıqlı inkişafı zəruriləşir.

Texnoloji ukladın yeniləşdirilməsi müəyyən qədər ictimai sərvətin təkrar olunan hissəsini qiymətsizləşdirir. Yəni köhnə texnologiya ilə istehsal olunan məhsula tələb aşağı düşür, yeni texnologiyalı məhsula tələb artır. Nəticədə köhnə avadanlıqlı müəssisələrin rentabelliyi aşağı düşür.

Beləliklə, bir texnikanın yenisi ilə əvəz edilməsi nəticəsində fondların bir hissəsi öz dəyərini itirmiş olur.

Bu prosesin aradan qaldırılmasının hərəkət verici motivi-təsərrüfat subyektlərinin rəqabətidir. Rəqabət onları məcbur edir ki, resurslar tətbiqinin daha effektli yollarını axtarsınlar. Belə imkan inzibati-amirlik sistemində inkişaf edən ölkələrdə çox çətinliklə mümkün olur. Bunu tarixi təcrübə də sübut etmişdir. Belə ki, son dövrlərə qədər keçmiş SSRİ-də resursların bölcüsü təsərrüfat mexanizminin ciddi təsiri ilə aparılırdı. Bu resursların rəqabətdən irəli gələn tələbi əsasında yox, istehsalın artırılması xatirinə bölüşdürülməsi əsasında aparılırdı.

Bu vəziyyət texnoloji ukladın inkişafına yox, onun ləngiməsinə səbəb olurdu. Yəni yeni texnoloji ukladla, köhnə texnoloji uklad arasındakı əlaqə pozulurdu. Bu bir də onunla əlaqədar idi ki, köhnə



downloaded from KitabYurdu.az

uklad ilə yəni uklad arasındak resurs bölgüsü düzgün aparılmırdı. Belə halın aradan qaldırılması üçün dövlət düzgün texniki siyasət yürütməlidir.

Ölkəmizdə iqtisadi inkişafın ləngiməsi iqtisadiyyatda qeyri müntəzəmliklərin əmələ gəlməsi, texnoloji strukturun köhnəlməsi və idarəetmədəki çatışmazlıqlarla əlaqədardır. Ölkədə uzun illər istehsaln inkişafı ekstensiv amillər əsasında fəaliyyət göstərmişdir.

Məsələn, Azərbaycan Respublikası sənayesində 1985-ci ilə nisbətən 1993-cü illərdə orta əmək məhsuldarlığı 18,8 faiz aşağı düşmüşdür. Həmin dövrdə illik iş vaxtı itkisi adam başına 0,61 adam-günündən 9,8 adam gününə çatmışdır. Fond verimi göstəricisi 55 faiz azalmışdır. Fondla təchiz olunma isə 182 faiz təşkil etmişdir. Bu göstəricilərin nə qədər ziddiyyətli olduğu görünür. Təbiidir ki, bu ziddiyyətlər ölkənin texniki inkişafının da ləngiməsinə səbəb olacaqdır. Köhnə texnologiya istehsalın artımına heç vaxt imkan verə bilməz. İndiyə qədər istehsalın artımı resurslar hesabına aparılmışdır ki, bu da resurslardan qeyri – səmərəli istifadəyə gətirib çıxarmışdır. Belə halların aradan qaldırılması üçün yeni texnologiyanın yaradılması həyata keçirilməlidir.

Respublikada sənaye istehsal fondlarının yeniləşdirilməsi 2001-ci ildə 3,6 %, 2003-cü ildə 4,3 % təşkil etmişdir. Fondların sıradan çıxması isə 0,6 %-dən 0,4 %-ə enmişdir. İlk baxışda bu göstəricilər müsbət haldır. Lakin bununla belə sənayedə fond verimi və fond tutumu göstəriciləri qənaətbəxş olmamışdır. Belə ki, respublika sənayesində 2001-2003-cü illərdə fond verimi göstəricisi 100%-dən



downloaded from KitabYurdu.az

87%-ə enmiş, fondla silahlanma isə 109,6 %-dən 122,7 %-ə yüksəlmişdir. Əsaslı nəticə əldə etmək üçün əsas fondlardan istifadənin səmərəliliyi artırılmalıdır.

Hazırda respublikanın iqtisadiyyatında texnoloji çox ukladlılıq mövcuddur. Onlardan birincisi, ölkənin elektrikləşdirilməsi ilə əlaqədardır. Bu hələ ölkə iqtisadiyyatının industriallaşdırılması dövründə başlamışdır. İndinin özündə də həmin sahə artıq köhnəlmiş texnoloji struktura malikdir.

İkinci texnoloji uklad istehsalın kimyalaşdırılması ilə əlaqədardır, 50-ci illərdən başlamışdır və orta mərhələlidir.

Üçüncü, istehsalın avtomatlaşdırılması ilə əlaqədardır ki, bu texnoloji ukladın yeniləşdirilməsini tələb edir. Yəni texnoloji ukladın bərqərar olması xalq təsərrüfatının rekonstruksiya edilməsinə gətirib çıxarmalıdır.

Elmi-texniki potensialın və innovasiya potensialının təkrar istehsal qanunauyğunluqları onun idarəedilməsinə problemini irəli çıxardır.

Vaxtı ilə keçmiş SSRİ-nin texnoloji cəhətdən inkişaf etmiş kapitalist ölkələrindən geri qalması, texniki tərəqqinin inkişafına diqqətin artırılmasını zəruriləşdirmişdir.

Hazırda texnoloji strukturun bazar münasibətlərinə uyğun inkişaf etdirilməsi məsələsi qarşıda durur. Bunun üçün yeni strukturların yaradılması vacibdir. Belə strukturların ilk növbədə elmi və texniki tərəqinin (ETT) inkişafına dövlətin birbaşa



downloaded from KitabYurdu.az

müdaxiləsinə əsaslanır. Dövlət bu müdaxilənin funksional formada aşağıdakılarda həyata keçir:

1. Dövlət öz hesabına elmi-tədqiqat işlərinin və elmi – tədqiqat layihə konstruktor işlərinin bir hissəsini maliyyələşdirir (təxminən 50 %).

2. Dövlət tənzimedici strukturları elmi-texniki tərəqqi sahəsində qeyri-müəyyənlikləri aradan qaldıraraq onları müəyyən istiqamətverici axına yönəldir. Prioritet inkişaf sahələrini seçərək onları maliyyələşdirir.

3. Dövlət hesabına əhalinin texniki səviyyəsinin artırılması həyata keçirilir.

4. Dövlət məhsul istehsalının standartlaşmasını həyata keçirir.

5. ETT-nin inkişafının hüququ əsaslarını yaradır.

6. Dövlət innovasiya istiqamətini məqsədyönlü halda inkişaf etdirir.

Bu funksiyaların hamısı heç də dövlətin müdaxiləsinin bütün tərəflərini əhatə etmir. Dövlət innovasiya prosesini mərkəzləşdirilmiş qaydada məqsədyönlü formada idarə etməlidir.

Xalq təsərrüfatının rasional strukturunu yaratmaq üçün ilk əvvəl dövlət ETT-nin bazis mexanizminə diqqət yetirməlidir. Belə mexanizmin əsasında sahibkarlıq hüququ durur. Çünki rəqabət şəraiti sahibkarları innovasiya prosesini həyata keçirməyə təhrik edir.



downloaded from KitabYurdu.az

Bazar iqtisadiyyatı şəraitində elmi-texniki potensialı iki bölməyə ayırmaq olar:

1. Kommersiya bölməsi.
2. İctimai bölmə.

Bunlardan birincisi, firma və müəssisələrdir ki, həmin firm alar öz maraqlarını güdürlər. Həmin bölmənin özü elə ictimai bölmənin dərinliyində oturur. Çünki, hər bir firma, təşkilat və müəssisələr öz elmi-tədqiqat və layihə işlərini inkişaf etdirməklə ictimai bölməyə xidmət etmiş olurlar. Buna görə də Elmlər Akademiyası, Elm və texnika komitəsi qarşılıqlı fəaliyyət göstərməlidirlər.

## *4. İQTİSADİYYATIN STRUKTURUNUN TƏNZİMLƏNMƏSİ.*

İqtisadi inkişafda dövlətin struktur siyasəti onun aparıcı sahələrinin müəyyən edilməsidir. Struktur siyasətinə həmçinin, istehsalın intensivləşdirmə səviyyəsinin seçilməsi, sahə strukturunun formalaşması, əsaslı vəsait qoyuluşundakı siyasət və təbii resurslardan səmərəli istifadə edilməsi daxildir.

Struktur siyasəti iqtisadi inkişafın artım amillərinin bölüşdürülməsi və istifadə istiqamətlərinin müəyyən edilməsi ilə həyata keçirilir.

İqtisadiyyatın inkişafının struktur siyasəti dəyişkəndir. Belə ki, cəmiyyətin inkişafının reallığından asılı olaraq o, dəyişilə bilər.



downloaded from KitabYurdu.az

Struktur anlayışı – eyni cinsli məhsul istehsal edən, bir-biri ilə daxili əlaqəyə malik olan, eyni və ya oxşar funksiyaları yerinə yetirən sahələrin məcmusunu əks etdirir. Məsələn, sənaye, kənd təsərrüfatı, nəqliyyat və s.

Xalq təsərrüfatının strukturunun müəyyənləşdirilməsi qayğısı əsasən dövlətin üzərinə düşür. Çünki, bazar iqtisadiyyatı şəraitində özəl müəssisələrlə yanaşı dövlət mülkiyyəti də fəaliyyət göstərir. Özəlləşdirilmiş müəssisələr tələb və təklifdən asılı olaraq öz işlərini planlaşdırır və daha çox mənfəət almağa çalışırlar.

İqtisadi strukturun dəyişilməsinin müsbət nəticələrinin alınması üçün struktur effektliyi müəyyən edilir. Bu struktur dəyişikliyi indeksi ilə xalq təsərrüfatının əsas göstəricilərinin dinamikası arasındakı əlaqəni göstərir.

Struktur dəyişikliyi indeksi belə hesablanır:

$$C = \frac{a_1 + a_2 + ....... + a_i + ....a_h}{h}$$

a-struktur elementinin dəyişilməsinin mütləq mahiyyətini,

n- elementlərin sayını göstərir.

Dövlətin struktur siyasəti elə olmalıdır ki, istehsalın inkişafına struktur dəyişikliyi aparmaq yolu ilə təsir göstərə bilsin.

Bu hər şeydən əvvəl istehsal vasitələri I bölmə və istehlak şeyləri II bölmə arasındakı nisbəti tənzimləmək üçün istehsalın strukturunun yaradılmasıdır. Çünki, cəmiyyətin ilkin tələbi istehlakdır və buna nail olmaq üçün o yollar axtarmalıdır. Bu isə



downloaded from KitabYurdu.az

istər-istəməz istehsalın səmərəli strukturunun yaradılmasına gətirib çıxarmalıdır.

İstehsalın son nəticəsi keyfiyyətli məhsul istehsalıdır.

Bu baxımdan istehsalda struktur struktur siyasəti elə olmalıdır ki, istehsal olunan məhsulun tələbata uyğun, rəqabət qabiliyyətli olmasına şərait yaransın.

Dövlət tərəfindən iqtisadi strukturanın tənzim olunmasına diqqətin artırılması istehsalda struktur böhranının baş verməsi təsiri nəticəsində daha da sürətlənir.

İstehsalın struktur böhranı klassik xarakter daşımayan egniş yayılmış böhran hadisəsidir. Belə böhranlar təxminən 70-80-ci illərdə dünya iqtisadiyyatın6da baş vermişdir ki, onlara da aiddir:

1. Dünya enerji böhranı.
2. Xammal böhranı.
3. Ərzaq böhranı.
4. Valyuta-maliyyə böhranı.
5. Ekoloji böhran.

Bu böhranlar siyasi partlayışların hər hansı birisinin iqtidarda olmasından asılı olmayaraq iqtisadi inkişafda uzun müddət baş verən qeyri mütənasibliklər nəticəsində meydana çıxır. Məsələn, istehsalla istehlak arasındakı mütənasibliyin pozulmasını ifrat istehsal yaradır – bu böhrandır. Və ya xalq istehlakına yaramayan məhsul istehsalı qıtlıq yaradır ki, bu da böhrandır.

Deməli, hər iki halda tarazlıq pozulmuşdur və bu da böhrana gətirmişdir.



downloaded from KitabYurdu.az

Məsələn, enerji böhranı. Bu böhran (1970-1985) neft istehalçıları ilə onları istismar edənlər arasında qiymətlə əlaqədar olaraq meydana çıxmışdır. Belə ki, 1972-ci ildə beynəlxalq neft karteli neft hasilatının 90 faizinə nəzarət edərək, onu çox aşağı qiymətdə istehsalçılardan alırdılar. (1 barel 1,9 dollar). Neft hasilatını azaldan istehsalır onun fiziki çatışmamazlığı kimi qələmə verirdilər. Haradansa 60-cı illərdə neft istehsalçıları neft kompaniyalarını milliləşdirərək neftin qiymətini qaldırdılar. (1 barel 35-40 dollar). Bu Qərbi Avropa ölkələrində və Yaponiyada enerji böhranları yaratdı.

Struktur böhranına 1974-1975-ci illərin metal emalı sahələrini də aid etmək olar. Texniki tərəqqinin inkişafı ilə əlaqədar olaraq bəzi metal konstruksiyalar kiyəvi xammalla (plastik kütlə) əvəz edildi. Nəticədə Cənubi Koreya və Braziliyada böhran yaratdı. Və yaxud Almaniyada ekoloji tədbirlərə 6 faiz milli məhsulunun sərfi əvəzinə 1,2 faiz verilməsi ölkədə ekoloji böhran yaratmışdır.

Bizim keçmiş ölkəmiz SSRİ-dəki böhranların əsas kökü inzibati-amiranəlik metodundan doğurmuşdur. Belə ki, həmin metod bütün iqtisadi qanunları kor-koranə pozmaq yolu ilə ölkənin və o cümlədən respublikamızı hazırki böhranlı vəziyyətə salmışdır.

Məsələn, respublikamzı 70 ildən çox SSRİ ittifaqının xammal bazası olmuşdur. Respublikanın nefti, pambığı, baraması, yunu, şərab xammalı, faraş tərəvəzi, meyvəsi və s. uucuz qiymətə alınıb emal edilib hazır məhsul formasında özümüzə yüksək qiymətlə satılmışdır.



downloaded from KitabYurdu.az

Respublikanı bürüyən ərzaq böhranını aradan qaldırılması üçün may 1982-ci ildə «Ərzaq proqramması»na uyğun proqram qəbul edilmişdir. Lakin həmin proqramın həyata keçirilməsinin maddi əsası olmadığı üçün 1990-cı ilə qədən nəzərdə tutulmuşdursa da, bu sahədə əsaslı bir irəliləyiş olmamışdır.

Hazırda qiymətlərin fantastik sürətlə yüksəlişi respublikada valyuta-maliyyə vəziyyətini çətinləşdirmişdir. Qiymətlərin istehsalçılar tərəfindən əsaslandırılmadan yüksəldilməsi, əmək haqqının müəyyən qədər yüksəlməsinə, bu isə ona verilməli pul vəsaitinin çatışmazlığına, öz növbəsində bu da əlavə pul çapına səbəb olur. Nəticədə, məhsul qıtlığı, pul çatışmazlığı, büdcə kəsiri və böhran doğuran səbəblər xərçəng kimi şaxələnir və bütün respublika iqtisadiyyatını bürüyür və iqtisadi inkişafı ləngidir.

Ekoloji böhran haqqında isə respublikanın vəziyyəti daha faciəlidir. Təkcə onu qeyd etmək kifayətdir ki, respublika ərazisində müharibə gedir, yandırılan evlər, atılan top mərmiləri, raket və s. respublikanın fauna və florasını pis vəziyyətə salmışdır. Təkcə onu qeyd etmək kifayətdir ki, 1993-cü ildə Bakı şəhərində atmosferə 1 mln. tondan çox zəhərli maddə atılmışdır, bu göstərici 1995-ci ildə 623,9 min ton, 2003-cü ildə 331,4 min ton olmuşdur. Bu problemin həllində müəyyən irəliləyiş olsa da, hələ kifayət edəcək dərəcədə deyildir.

Belə böhranlardan çıxmasının yeganə yolu Respublikada iqtisadiyyatın strukturunun dövlət tənzimlənməsinin həyata keçirilməsi ola bilər.



downloaded from KitabYurdu.az

Struktur siyasəti – elmdə, texnikada və texnologiyada baş verən mütərəqqi dəyişikliklərə uyğun olaraq ictimai və fərdi tələbatları nəzərə alaraq ictimai istehsalın planauyğun surətdə yenidən qurulmasına yönəldilmiş tədbirlər sistemidir. Dövlət tərəfindən struktur siyasətinin tənzim olunmasına daxil edilə bilər:

1. Elmi-texniki tərəqqinin inkişafında qlobal problemlərin həlli.
2. Əsaslı vəsait qoyuluşunda investisiya siyasəti.
3. Məhsuldar qüvvələrin yerləşdirilməsi qanunauyğunluğunun təmin olunması.
4. Yeni məhsul istehsalı üçün texnologiyanın yaradılması.
5. Xarici investorların təkliflərindən istifadə edilməsi.



downloaded from KitabYurdu.az

## *FƏSİL XI. DÖVLƏTİN İNVESTSİYA SİYASƏTİ*

### *1. DÖVLƏTİN İNVESTİSİYA SİYASƏTİNİN MAHİYYƏTİ.*

İnvestisiyanın iqtisadi inkişafdakı rolu və mahiyyətini müəyyən etmək üçün aşağıdakı anlayışlara diqqət yetirmək vacibdir.

İnvestisiya-iqtisadiyyatın inkişafına istiqamətlənmiş ehtiyat kapital qoyuluşudur.

Kapital – sahibkarlıq fəaliyyəti üçün istifadə oluna bilən iqtisadi resursdur (maddi, dəyər, intellektual)

Kapital qoyuluşu – əsas kapitalın təkrar istehsalına yönəldilmiş investisiyadır.

Ümumən kapital qoyuluşu mövcud fondların rekonstruksiyasına, modernləşdirilməsinəvə yeni fondların yaradılmasına yönəldilmiş vəsaitdir – investisiyadır. İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikası qanununda (13.0195) investisiya fəaliyyəti ilə aşağıdakı subyektlərin məşğul ola bilməsi göstərilmişdir.

6. Azərbaycan Respublikası vətəndaşları, qeyri dövlət müəssisələri, idarə və təşkilatları.
7. Xarici vətəndaşlar.



downloaded from KitabYurdu.az

Həmin qanunda dövlətin investisiya siyasətinin strateji məqsədi şərh edilərək, onun həyata keçirilməsi üçün aşağıdakı istiqamtəlrə tövsiyyə edilmişdir.

1. İstehsalın texniki səviyyəsinin yüksəldilməsi.
2. İqtisadi artıma nail olunması.
3. Yeni struktur dəyişikliklərinin aparılması.
4. Rəqabət qabiliyyətli məhsul istehsalı.
5. Yüksək keyfiyyətli investisiya komplekslərinin yaradılması.

İnvestisiya siyasi - əsaslı vəsait qoyuluşun əsas istiqamətlərinin həlledici sahələrdə cəmləşdirilməsi üzrə tədbirləri müəyyən edən təsərrüfat qərarlarının məcmusudur. İnvestisiya vasitəsilə ictimai istehsalın planlı inkişaf sürətinə nail olunur, iqtisadiyyatın tarazlığı və səmərəliliyi təmin olunur, məsrəfin hər manatına görə daha çox məhsul və milli gəlir artımına şərait yaradılır.

İnvestisiya siyasətinin birinci dərəcəli vəzifəsi resurs hasil edən emal və i stehlak edən sahələrlə əsaslı vəsait qoyuluşları arasındakı nisbəti yaxşılaşdırmaqdan, vəsaiti elmi-texniki tərəqqinin sürətləndirilməsini təmin edən sahələrin xeyrinə yenidən bölüşdürməkdən ibarətdir.

Müasir mərhələdə investisiya siyasətinin səciyyəvi xüsusiyyəti, ağırlıq mərkəzini yeni tikintilərdən mövcud müəssisələrin texnika ilə təchizinə və yenidən qurulmasına keçirməkdən, istehsal məqsədli əsaslı vəsait qoyuluşunun ümumi həcmində bu məqsədlərə yönəldilən vəsaitin payını artırmaqdan, avadanlıq və maşınlar üçün məsrəfin xüsusi çəkisini yüksəltməkdən ibarətdir.



downloaded from KitabYurdu.az

İstehsal təyinatlı tikintiyə yönəldilən bütün əsaslı vəsait qoyuluşlarında mövcud istehsalın texnika ilə təchizinə və qurulmasına çəkilən xərclərin artırılması, istehsal əsas fondlarını yeniləşdirir, fiziki və mənəvi köhnəlməsini aradan qaldırır.

Əvvəldə qeyd edildiyi kimi dövlətin investisiya siyasətinin strateji məqsədlərindən biri investisiya kolleklərinin yaradılmasıdır.

İnvestisiya kompleksi qarşılıqlı əlaqədə olan sahələrdir ki, xalq təsərrüfatında əsas istehsal fondlarının təkrar istehsalına şərait yaradır. İctimai əmək bölgüsü sistemində investisiya kompleksi fondlardan səmərəli istifadə funksiyasını həyata keçirir və iqtisadi sistemin fəaliyyətinə şərait yaradaraq onların maddi texniki bazasını təmin edir.

Respublikanın xalq təsərrüfatı səviyyəsində investisiya kompleksi əhatə edir:

1. Maddi istehsal sahələri üçün əsas fondların yaradılması.
2. Əsas istehsal fondlarının əsaslı təmirinin həyata keçirilməsi.

Elmi-texniki hesablamalar göstərir ki, investisiya kompleksinin payına ümumi məhsulun 40 faizi, işçi qüvvəsinin 38 faizi, əsas istehsal fondlarının 29 faizi düşür.

[8]Cədvəl 39.

Azərbaycan Respublikasının ÜDM və investisiyalar

[8] Az. St. rəqəm. 2004 il səh 368, 396



downloaded from KitabYurdu.az

| Göstəricilər | 1999 | 2000 | 2003 |
|---|---|---|---|
| Bazar qiymətində ümumi daxili məhsul, mlrd. man | 18875,4 | 23590,5 | 35053,4 |
| Bütün maliyyə mənbələrindən əsas kapita yönəldilən investisiyanın həcmi, mlrd.man. | 6469,1 | 6448,9 | 20462,0 |
| ÜDM-a görə xüsusi çəki, faizlə | 34,2 | 27,3 | 58,4 |

Cədvəlin məlumatları göstərir ki, 1999-cu ilə nisbətən 2003-cü ildə ümumi daxili məhsulun həcmi 48,5 faiz, investisiyaların həcmi 3.1 dəfə artmışdır. ÜDM-da investisiyaların xüsusi çəkisi 24,2 % artmışdır.

Yerinə yetirildiyi funksiyalardan asılı olaraq investsiya kompleksləri aşağıdakı sahələr üzrə birləşdirilir:

1. Xalq təsərrüfatının sahələrarası kompleksi
2. Tikinti kompleksi
3. Konstruksiya materialları kompleksi.
4. Maşınqayırma kompleksi.

Dövlət investisiya siyasətini həyata keçirmək üçün vəsaitə malik olmalıdır. Bu vəsait (kapital qoyuluşu, əsaslı vəsait qoyuluşu) müəyyən mənbələrdən formalaşır ki, bu mənbələrə aiddir:

1. Vergilər
2. Amortizasiya fondu.



downloaded from KitabYurdu.az

Vergilər – müəssisə və təşkilatlardan əhalidən onların gəlir və mənfəətlərindən büdcəyə ödənilən vəsaitin məcmusudur.

Vergilər iki funksiyanı yerinə yetirir:

1. Dövlətin müəssisə və təşkilatlar, əhali və xarici subyektlərlə qarşılıqlı əlaqələrini tənzimləyən iqtisadi rıçaq rolunu;
2. Büdcənin gəlir hissəsinin formalaşdırılması üçn əsas mənbə rolunu.

Vergilər dövlətin qanunçuluq aktları əsasında müəyyən edilərək tənzimlənir və onun aşağıdakı formaları vardır:

a) mənfəətə görə vergi. Bu vergi sərbəst balansı olan təsərrüfat hesablı bütün müəssisə, təşkilat və kooperativlərə aiddir. Bazar iqtisadiyyatı şəraitində vergiyə cəlb olunan müəssisələrə fərq qoyulmur. Lakin müəssisələrin fəaliyyətini stimullaşdırmaq üçün müəyyən vergi güzəştləri tətbiq edilir.

b) vəsaitin tənzimlənməsi üçün vergilər. Bu vergi müəssisələrdə mənfəətin artırılması və yeni texnikanın tətbiqini stimullaşdırmaq üçün tətbiq olunur.

s) müəssisələrin malik olduğu istiqraz, qiymətli kağız, müştərək iştirak hissəsinə görə tutulan vergilər.

d) gəlir verigisi – əhali gəlirindən tutulur.

Yuxarıda göstərilən vergi formalarından yaranmış büdcə vəsaitinin bir hissəsi investisiya siyasətini həyata keçirmək üçün istifadə olunur. Deməli, vergi prosesinin qanunauyğun təşkili, onun vəsaitinin investisiya siyasətini təmin etmək üçün yönəldilməsinə zəmanət verir.



downloaded from KitabYurdu.az

Dövlət investisiya siyasətini həyata keçirmək üçün amortizasiya fondundan da istifadə edir. Bu məqsədlə amortizasiya ayırmaları dəqiq real əsaslara malik olaraq hesablanmalıdır. Belə ki, amortizasiya ayırmaları, amortizasiya normaları elə olmalıdır ki, onun həcmi əsas fondun vaxtında yeniləşdirilməsinə və təmirinə imkan versin.

Yeni iqtisadi şəraitlə əlaqədar olaraq öz dəyərini məhsulun üzərinə keçirən və normativ vaxtını başa vuran fondlardan amortizasiya ayırmaları tutulmur.

Bazar iqtisadiyyatı ilə əlaqədar olaraq 1 yanvar 1991-ci ildən başlayaraq normativ üzrə xidmət müddətini başa vurmuş maşın, avadanlıq və nəqliyyat vasitələri üzrə amortizasiya ayırmalarının hesablanması dayandırılmışdır. (əvvəllər maşın və avadanlıqlar fəaliyyətləri dayandırıldıqdan sonra amortizasiya hesablanırdı).

Amortizasiya ayırmaları dayandırılmış maşın, avadanlıq və nəqliyyat vasitələri, qoyulmuş qaydada silinənə qədər müəssisənin balansında ilk balans dəyəri ilə saxlanır.

İcarə müəssisələri amortizasiya ayırmalarını istehsal və tədavül xərcləri tərkibində tam bərpa dəyər üzrə əks etdirirlər. Maşın, avadanlıq və nəqliyyat vasitələrindən başqa qalan əsas fondlar üzrə amortizasiya ayırmalarının hesablanması qaydası dəyişilməmiş qalır.

Məhsulun maya dəyərinə. İş və xidmətlərə görə mənfəət müəyyən edilərkən amortizasiya ayırmaları tam bərpa ilə xərclərə isə ancaq əsas fondların təmiri daxil edilir.



downloaded from KitabYurdu.az

Qeyri istehsal fondları üzrə amortizasiya hesablanmır, onların alınması və təmiri müəssisənin öz vəsaiti hesabına aparılır.

Son dövrlərdə maşın, avadanlıq və nəqliyyat vasitələri üzrə amortizasiya ayırmaları 1,4 və 1,5 dəfə artırılmışdır ki, bu da fondların dövr etmə sürətinin artmasına səbəb olur.

Əsas istehsal fondlarının təmirinə vəsaitlər xərclənərkən müəssisə aşağıdakılardan birini maya dəyərinə faktiki xərcləri daxil etmək və ya bu məqsəd üçün sərbəst formada normativ üzrə fond yaratmaq hüquqlarını seçə bilər.

Birinci halda faktiki xərclərin aşağı düşməsi stimullaşdırılmalıdır. Lakin nəzərə almaq lazımdır ki, fondların qeyri bərabər təmiri maya dəyərinə daxil edilən xərclər maya dəyərindən ayırmalar qədər olmalıdır.

Təmir fondu yaradılarkən maya dəyərinə həmin fondun vəsaiti bərabər daxil edilir. Bu əvvəlki qaydadan fərqli olaraq maya dəyərinin il ərzində orta göstəricidən kənarlaşmasını azaldır.

## *2. MULTİPLİKATOR NƏZƏRİYYƏSİ VƏ ANLAYIŞI.*

Makroiqtisadiyyatın fəaliyyəti haqqında Keynsçi anlayış «multiplikasiya» effektində öz əksini tapmışdır. «Multiplikator» anlayışı iqtisadi nəzəriyyəyə 1931-ci ildə ingilis iqtisadçısı R.F.Kan tərəfindən daxil edilmişdir.

İqtisadi böhran və işsizliyə qarşı görülən tədbir kimi ictimai işlərə dövlət xərcləri məşğuliyyətin çoxaldığı effekti kimi çıxış edir.



downloaded from KitabYurdu.az

İctimai işlərin təşkili nəticəsində işsizliyin ləğvinin ilk addımı başlayır. Sonra ondan ikinci törəmə iş yerləri yaranır. Daha müfəssəl desək. İlk iş yerlərinin yaranması alıcılıq qabiliyyətini artırır, bu da tələbə təsir göstərərək təklifin artırılmasını zəruri edir.

Keyns nəzəriyyəsinə görə multiplikator – investisiyasının dəyişilməsindən asılı olaraq gəlirin dəyişilməsini göstərən əmsaldır.

Multiplikator nəzəriyyəsində milli istehsala təsir edən amillər müəyyən edilir və habelə məcmu tələb dəyişənlərinin məşğuliyyət və gəlirə təsiri göstərilir.

Fərz edək ki, investisiyanın artımı 10 mlrd. manat olmuşdur və nəticədə ümumi milli məhsul 20 mlrd. manat artmışdır. Deməli, multiplikator 2-dir. Əgər ÜMM 30 mlrd. manat artsa onda multiplikator 3 olardı.

$$\text{Multipikator (M)} = \frac{\Delta\ \text{ÜMM}}{\Delta\text{İnvestisiya}} = \frac{\Delta\text{ÜMM}}{\text{İ}}$$

Deməli , ÜMM = M $\Delta$ İ

Multiplikator əmsalə sahələr arası balansın dinamik modelində kapital qoyuluşunun bölüşdürülməsi proporsionallığı əmsalına $b_{ij} = \frac{\Delta \Phi_{Ij}}{\Delta X_j}$ uyğün gəlir. Bu əmsala əsasən məhsul istehsalını artırmaq üçün nə qədər vəsait lazım olduğunu hesablamaq mümkündür.



downloaded from KitabYurdu.az

Əvvəllərdə qeyd etdiyiniz kimi məlum tələbin tərkib hissəsini istehlak və investisiya təşkil edir ki, buradada əmanətlər mühüm rola malikdir.

Fərz edək ki, illik investisiya həcmi 20 mlrd. manatdır və o, ÜMM-in həcindən asılı deyildir. Qrafiki olaraq bunu belə göstərmək olar.

İnsestisiyanın ümumi milli məhsulun həcminə təsiri.

Şəkil 15.




OX – oxu üzrə ÜMM

OU – oxu investisiya yerləşdirilmişdir.

İnvestisiyanın həcmi dəyişməz olduğu üçün oUU xətti formasından OX oxuna paralel yerləşmişdir.SS-əmanət xəttini qrafika yerləşdirək. Görürükki əmanət xətti SS investisiya xəttini UU-ni S –nöqtəsində kəsir. Bu nöqtədə ÜMM-un həcmi OM-ə OM-ə bərabərdir. Deməli E-nöqtəsində əmanətin həcmi ilə investisiyanın



downloaded from KitabYurdu.az

həcmi bir-birinə uyğundur.Yəni ÜMM məhsulu bu həcmində makroiqtisadiyyat tarazlıq səviyyəsindədir.

Hansı səbəbdən tarazlıq nöqtəsi məhz E nöqtəsinə düşdüyünü izah edək. Bu o, deməkdir ki, əhali EM qədər vəsaiti əmanətə verir və müəssisələr də EM- qədər investisiyadan istifadə edə bilərlər.

Əgər əhali öz əlamətlərini K nöqtəinə qədər yüksəldərsə bu zaman ÜMM= OM, qədər olacaqdır. Bu zaman əhalinin əmanətləri investisiyalardan yüksək olacaq. Deməli, əhali daha az vəsaiti istehlaka yönəldəcək, istehsalçının bazarda istehlakçı taprması çətinləşəcək və onlar məcburən istehsalın genişləndirilməsini dayandıracaqlar. Bu vəziyyət E nöqtəsinə qədər davam edəcəkdir.

Əgər əhalinin əmanəti A nöqtəsinə enərsə, onda $ÜMM=OM_2$ olar ki,bu da əmanətlərin investisiyalardan az olması deməkdir. Deməli, istehsalçı bazarda daha çox istehlakçı tapacaq. Əhali öz gəlirinin çox hissəsini istehlaka yönəldərək tələbi artıracaq bu da təklifin artmasına səbəb olacaqdır.

Təklifin artması üçün vəsatin olması vacibdir. Əhali gəlir artırdıqda onun əmanəti də artacaq və bu da investisiya vəsaitini yaradacaq və s. bu hal ümumi tarazlıq (E nöqtəsinə) alınana qədər davam edəcəkdir.

Deməli, ancaq E nöqtəsi məqsədə uyğun tarazlıq nöqtəsidir. Bu o deməkdir ki, nə ifrat istehsal olacaq, nə də çatışmamazlıq. Bu nöqtə ÜMM-un optimal həcmi edməkdir. Həmin nöqtədən SS xətti boyunca hər hansı kənarlaşma, makroiqtisadiyyatda dəyişiklik baş



downloaded from KitabYurdu.az

verməsidir ki, bu da müxtəlif amillərin təsiri ilə E nöqtəsinə doğru istiqamətlənməsini zəruri edir.

### *3. BÜDCƏ VƏ BORC VƏSAİTLƏRİ, SUBVENSİYA VƏ DOTASİYALAR.*

Büdcə dövlətin pul vəsaitinin toplandığı və istifadəsini təşkil edən planlaşdırıcı, icraedici orqandır. Büdcənin əsas vəsaiti bunlardır:

1. Qanun daxilində təsdiq edilmiş formada dövlətin pul gəliləri və çıxarlarının müəyyən müddət üzrə siyahısını çıxarmaq (haradan, nə vaxt, kim tərəfindən).
2. Müəssisə, təşkilat, vətəndaşların il ərzində təxmini olaraq pul gəliri və çıxarının həcmini hesablamaq.

Dövlət büdcəsinin əsas mənbəyi müəssisə və təşkilatlardan, xarici-iqtisadi əlaqələrdən daxil olmalardır.

Büdcə vəsaitinin əsas hissəsi dövlət tərəfindən müxtəlif istiqaəmtələr üzrə istifadə olunur. Bunlarda bir istiqaməti də investisiya prosesini həyata keçirilməsidir. Bu ən çox büdcə vəsaiti hesabına maliyyələşən müəssisələrə aiddir.

İnvestisiya prosesinin tənzim olunması üçün borc vəsaitindəndə istifadə olunur.



downloaded from KitabYurdu.az

Borc vəsaiti müəssisənin, yaxud xalq təsərrüfatının digər ilkin pilləsinin, dövlət Bankı və yaxud ixtisaslaşmış banklarda müəyyən müddətdə istifadə üçün aldığı vəsaitdir.

Mövcud qaydaya uyğun olaraq borc vəsaiti konkret məqsəd və müddət üçün verilir.

İnvestisiya prosesinin həyata keçirilməsi üçün istifadə olunan borc vəsaiti qısa müddətə və uzun müddətə verilə bilər.

Borc alan müəssisə, təşkilat və ya (vətəndaş) sahibkar bank borcunu nəzərdə tutulmuş vaxtda qaytarmalıdır. Əks təqdirdə ona əlavə cərimələr qoyula bilər.

İnvestisiya siyasətinin həyata keçirilməsi və tənzim olunması üçün subvensiya və dotasiyalardan istifadə olunur.

Subvensiya – dövlət tərəfindən yerli orqanlara verilən vəsaitdir. Bu vəsait yerli orqanlara, müəssisə və təşkilatlara ona görə verilir ki, onlar texniki yenidənqurmanı həyata keçirə bilsinlər. Subvensiyalar müəssisə və təşkilatlara konkret olaraq müəyyən tədbirləri həyata keçirmək üçün verilir. Əgər müəssisə və təşkilat alınan vəsaiti öz təyinatına istifadə etməzsə, o dövlət tərəfindən geri alınır.

Dotasiya – müəssisə və təşkilatlara əvəzsiz verilir. O gəliri, plan məsrəflərini ödəyə bilməyən müəssisələrə, təşkilatlara, idarələrə dövlət tərəfindən ayrılan təxsisatdır.

Dotasiyaların yerli büdcələrin tarazlığını təmin etmək üçün nəzərdə tutulan başqa növü də vardır. Onlar respublika büdcəsindən yerli büdcələrə verilir. Zərərlə işləyən müəssisələrin sayının azalması, müəssisələrin özəlləşdirilməsi, onların maliyyə vəziyyətlərinin



downloaded from KitabYurdu.az

möhkəmləndirilməsi, qiymətlərin sabitləşdirilməsi və təkmilləşdirilməsi dotasiyaların azalmasına səbəb ola bilər.

Dotasiya dövlət müəssisələrinə o vaxt verilir ki, onlar yeni texnikanın tətbiqi nəticəsində müəyyən müddət zərərlə işləməyə məcbur olurlar.

Dotasiyaların ən çox tətbiq edildiyi sahələr, hasilat sənayesi, kənd təsərrüfatı sahələri sayılır.

Bəzi ərzaq məhsullarının istehsal xərcləri onun qiymətindən aşağı olur. Lakin onları istehsal etmək vacidbir. Bu zaman dövlət həmin məhsulların xərclərinin və qiyəmtəlrinin arasındakı fərqi dəf etmək üçün cdotasiyadan istifadə edir.

Dotasiyalar həmçinin qeyri – istehsal sahələrinə də verilir.

Özəlləşdirilmiş müəssisələrə dotasiya yox, kredit verilir.

Qiymətli kağız mülkiyyət hüququ verən sənəddir. Qiymətli kağız (səhm) səhmdar cəmiyyətinin kapitalının formalaşmasında iştirak şəhadətnaməsi olub gəlir (divident) götürmək hüququ verir.

İnvestisiya prosesinin həyata keçirilməsində qiymətli kağızların (səhmlərin) rolu böyükdür. Azərbaycan Respublikası Prezidentinin 30.12.98-ci il fərmanı ilə qiymətli kağızlar üzrə dövlət komitəsi yaradılmışdır. Belə ki, müəssisə və təşkilatların özəlləşdirilməsi və ya xalq müəssisələrinin çevrilməsi müəyyən vəsait tələb edir. Özəlləşdirilmiş müəssisələr çox vaxt investisiya prosesini həyata keçirmək üçün vəsaitə malik olmurlar. Bununla əlaqədar olaraq müəssisəyə əsaslı vəsait qoyuluşu tətbiq etmək üçün səhmdar cəmiyyəti yaradılır. Yəni özəlləşdirmdə iştirak edənlərdən vəsait



downloaded from KitabYurdu.az

toplanır. Həmin vəsaitin ümumi məbləği müəyyən edilir. İştirakçıların hər birinə səhm ( qiymətli kağız) satılır.

Həmin qiymətli kağız müəssisədə investisiya prosesinin həyata keçirməkdə iştirak edən hər bir nəfərin payını göstərir.

Məsələn, fərz edək ki, özəlləşdirilmiş müəssisələrdə vəsaitə olan tələbat 100 min manatdır və 5 nəfər bura 20 min manat sərf etmişdir. Deməli hər dir nəfərin investisiya prosesinin həyata keçirilməsindəki payı 20 faiz təşkil edir.

Həmin 20 faiz mülkiyyət hüququ verən sənəddir və müəssisənin gəlirinin 20 faizi ona çatmalıdır. Daha döğrusu investisiya prosesi həyata keçirildikdən sonra əldə olunan divident, payçılar arasında sazışləndirilmiş bölgü qaydasında bölüşdürülməlidir.

Qiymətli kaqızların bir neçə növü vardır: adlı qiymətli kağızlar, təqdim edənə qiymətli kağızlar və s. onlar əksər halda birjalarda riallaşdırılır.

## *4. XARİCİ İNVESTİSİYA VƏ ONUN İQTİSADİYYATIN İNKİŞAFINDA ROLU.*

Cəmiyyət üzvlərinin artmaqda olan sosial-iqtisadi tələbatının ödənilməsi mövcud istehsal potensialından tam və səmərəli istifadə edilməsini bir vəzifə kimi qarşıya qoyur. Bu baxımdan xarici investisiya qoyuluşlarının rolu və əhəmiyyət son dərəcə yüksəlmiş olur. Ölkədə makroiqtisadi göstəricilərin yüksəlməsi – milli daxili



downloaded from KitabYurdu.az

məhsulun strukturunda aparıcı sahələrin xüsusilə, strateji məhsulların rol və əhəmiyətini getdikcə artırılmasını tələb edir. Bu cəhətdən respublikaya xarici investisiya qoyuluşlarının artırılması və onun dövlət tərəfindən tənzimlənməsi xalq təsərrüfatı sahələrinin inkişafında lazımi proporsiyaların təmin edilməsi böyük elmi və praktiki əhəmiyyət kəsb edir. Belə ki, ümumi daxili məhsulun strukturunda əsnaye istehsalı 1998-ci ildə 22,7 faiz, kənd ətəsrrüfatı istehsalı 19 faizə, tikinti 19,9 faizə, 20,9 faiz tədarük, kommunal təsərrüfatı, səhiyyə, əlavə dəyər vergisi, aksiz və s. xidmət sferasının payına düşür. Göründüyü kimi, ümumi daxili milli məhsulun strukturunda sənaye və kənd təsərrüfatı sahələrinin xüsusi çəkisi hələlmk aşağı səviyyədə qalır. Ənənəvi bazar iqtisadiyyatlı Avropa ölkələrinin çox illik təcrübəsi göstərir ki, ümumi milli daxili məhsulun strukturunda sənaye və kənd təsərrüfatı istehsalının payı 60 – 65 faizdən az deyildir. Məhz buna görə də neft –qaz sənaye sahələrinə investisiya qoyuluşlarından əldə edilən gəlirlərdən birinci növbədə aqrar istehsalın sürətli inkişafını təmin etmək məqsədi ilə bunu həyati səviyyədə lazımi investisiya qoyuluşları nəzərdə tutulmalıdır. Ümumi milli daxili məhsulun dinamik və proporsional inkişafını təmin etməkdən ötrü ölkəmiz son dərəcə zəngin yeraltı və yerüstü sərvətlərə malik olmaqla bərabər, aqrar istehsalında hərtərəfli inkişafını təmin etmək üçün son dərəcə əlverişli təbii-iqlim şəraitinə də malikdir. Bütün bunlarla belə respublikada makroiqtisadi inkişafımızda neft-kimya və onunla bağlı digər sənaye sahələrinin qarşılıqlı kompleks qayda da inkişafını təmin edilməsi ən



downloaded from KitabYurdu.az

mühüm zəruri şərtlərdən biri hesab edilir. Respublikada neft-kimya sənayesinin genişləndirilməsi, xüsusilə Xəzər dənizinin Azərbaycana aid sektorunda «Çıraq», «Azəri», «Günəşli», «Şahdəniz» və s. neft yataqlarının səmərəli fəaliyyətini təmin etməklə, ölkənin sosial-iqtisadi inkişafını təmin etmək məqsədilə xarici investisiyaların ölkəmizə axını getdikcə genişlənir. Bu baxımdan hələ 1994-cü il 20 sentyabrında imzalanmış «Əsrin müqaviləsi»nin sosial-iqtisadi əhəmiyyəti əvəz edilməzdir. Belə ki, 1999-cu ilin 19 avqustunda «Əsrin müqaviləsi»nin 5-ci il dönümünün keçirilməsi haqqında prezidentin imzaladığı xüsusi sərəncam tarixi əhəmiyyət kəsb edir. Həmin sərəncamda göstərilir ki, beynəlxalq aləmdə «Əsrin müqaviləsi» adını almış bu sazişin başlanması müstəqil Azərbaycan Respublikasının həyatında tarixi hadisə kimi qiymətləndirilir. «Əsrin müqaviləsinin» imzalanması, Azərbaycanın müstəqil dövlət olaraq öz milli sərvətinə tam sahib olduğunu dünyaya bir daha göstərdi. Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyası üçün tam əsas yaratdı. Beləliklə, beynəlxalq konsersium yaradılaraq, indiyədək respublikada 19 neft müqaviləsi bvağlanmış və bu mühüm problemdə 14 xarici ölkələrdən 33 iri məşhur şirkətlərin iştirakçıları təyin edilmişdir. Hesablaşmalara görə bu mühüm sazişlər respublikada korbohidrogen ehtiyatlarından istifadə sahəsində ölkənin Xəzər regionunda aparıcı mövqeyə malik olacaqdır. Bu məqsədlə indiyədək «Əsrin müqaviləsi»nin həyata keçirilməsi ilə bağlı 2,4 milyard ABŞ dolları məbləğində investisiya qoyulmuşdur.



downloaded from KitabYurdu.az

Bu barədə geniş təsəvvürə malik olmaq üçün aşağıdakı cədvələ nəzər salmaq kifayətdir.

Cədvəl 40.

Respublikada neft yataqlarının layihə istismarına nəzərdə tutulmuş xarici investisiyaların həcmi.

| № | Neft yataqları | İstehsal həcmi (milyon ton) | İnvestisiya (mlrd.ABŞ dolları hesabı ilə) | Azərbaycanın payı, faizlə |
|---|---|---|---|---|
| 1. | «Azəri», «Çıraq» | 630,0 | 12-14 | 10,0 |
| 2. | «Günəşli» | 80-150 | 1,7-2,0 | 7,5 |
| 3. | «Qarabağ» | 100,0 | 4,0 | 10,0 |
| 4. | «Şahdəniz» | 100-150,0 | 1,5-2,0 | 20,0 |
| 5. | «Dan-ulduzu-əşrəfi» | 100,0 | 1,5-2,0 | 25,0 |
| 6. | «Lənkəran-Talış-dəniz» | 100,0 | 1,5-2,0 | 40,0 |
| 7. | «Yalama»(D-22) | 150-300 | 3-3,5 | 50,0 |
| 8. | «Apşeron» | 75-100 | 5,0 | 50,0 |
| 9. | «Naxçıvan» (keçmiş D-3) | 75,0 | 2,0 | 50,0 |
| 10. | «Oğuz» | 90-120 | 2,0 | 50,0 |



downloaded from KitabYurdu.az

| | | | | |
|---|---|---|---|---|
| 11. | «Şahdəniz» | 30-60 | 0,3-0,5 | 20,0 |
| 12. | «Güney-Qərbi-Qobustan» | 150-250 | 3-4 | 50,0 |
| 13. | «İnam» | 50-80 | 1-1,5 | 50,0 |
| 14. | «Muradxanlı» | 150-300 | 9,0 | 40,0 |
| 15. | «Alov», «Araz», «Şərq» | 60-90 | 0,5-0,8 | 50,0 |
| 16. | «Gürşənki», «Qarabağlı» | 100,0 | 2,0 | 50,0 |
| 17. | «Atəşgah» | 120-150 | 2,0 | 50,0 |
| 18. | «zəfər», «Məşəl» | 100-120 | 2,0 | 50,0 |
| 19. | «Lerik-dəniz», «Savalan», «Padar» | 50-100 | 0,8-1,0 | 20,0 |

Cədvəlin rəqəmlərindən məlum olduğu kimi azərbaycanın müqavilələrində iştirak payı 7,5 faizdən 50 faizədəkdir. Qeyd etmək lazımdır ki,müqavilələrdə iştirak edən hər bir şirkətin payı müəyyənləşdirilmişdir. Nəzərdə tutulan milyardlarla xarici investisiya qoyuluşları ümumilikdə iqtisadiyyatın, xüsusilə neft sənayesinin elmi, istehsal-texniki bazasının keyfiyyətcə yeniləşməsini təmin edəcəkdir ki, bu da ölkənin makroiqtisadi göstəricələrin artımı ilə yanaşı, kadr potensialının daha da möhkəmləndirilməsinə real şərait yaratmaqla, yeni peşə və iş yerlərinin açılmasına şərait yaradılacaqdır. Beləliklə, dənizin dərin qatlarından karbohidrogen yataqlarının müştərək istifadəsi yolu ilə qabalcıl xarici təcrübəyə yiyələnməklə belə, gələcəkdə neft-qaz yataqlarından sərbəst istifadəyə nail olacaqdır. İnvestisiya fəaliyyətinin dövlət tərəfindən



downloaded from KitabYurdu.az

tənzimlənməsi nəticəsində faktiki olaraq 1994-cü ildən başlanmış indiyədək ardığıl sürətdə hər bir neft yataqları üzrə sazislərin milli məclis tərəfindən ratifikasiya edilməsi ilə əlaqədar olaraq geniş və intensiv işlər həyata keçirilir. Belə ki, imzalanmış 19 sazişdən II-nin həyata keçirilməsindən az vaxt keçməsinə baxmayaraq yeni sazişlər üzrə birbaşa sərmayələrin məbləği 700 milyon ABŞ dollarından çox olmuşdur. Digər tərəfdən yeni sazişlər üzrə müvafiq hazırlıq, kəşfiyyat işləri davam etdirilərək neft, qaz hasilatı olmadığı halda, həmin sazişlərin iştirakçıları olan xarici neft şirkətlərindən bonuslar, vergilər, icarə haqqları və müxtəlif dövlət fondlarına ödənişlər formasında respublika artıq 400 milyon ABŞ dollarından çox məbləğ əldə etmişdir. Respublikada geniş miqyas almış xarici ölkələrin investisiya fəaliyyəti Azərbaycan Respublikasının 1995-ci ildə qəbul edilmiş « İnvestisiya fəaliyyəti haqqında» qanun əsasında tənzimlənir. Həmin qanunda qeyd edilir ki, mülkiyyət formasından asılı olmayaraq bütün investorların hüquqlarının bərabər müdafiəçisi dövlətdir. Bununla belə, dövlət orqanlarının və vəzifəli şəxslərin mövcud qanunvericilik aktları ilə müəyyənləşdirilmiş həddən artıq investisiya fəaliyyəti subyektlərinin müqavilə münasibətlərinə müdaxilə etməsinə yol verilmir. Məlum olduğu kimi investisiya fəaliyyəti investorların müəyyən məqsədlər üçün investisiya qoyuluşları ilə bağlı həyata keçirilməsi nəzərdə tutulan bütün fəaliyyətin məcmusu hesab edilir və dövlət tərəfindən tənzimlənir. Beləliklə, mülkiyyət və təsərrüfatçılıq fəaliyyətindən asılı olmayaraq investisiya qoyuluşları ölkədə mövcud olan



downloaded from KitabYurdu.az

qanunvericilik aktlarına tam uyğun formada tənzimlənir. Odur ki, dövlət ölkədə sosial iqtisadi inkişafı tənzimləmək, xalq təsərrüfatında lazımi proporsiyaların yaradılmasını təmin etməkdə investisiya qoyuluşlarından istifadənin və habelə investisiya fəaliyyətindən əldə edilən gəlirdən tam və səmərəli istifadəni ciddi surətdə tənzimləməlidir. Şübhəsiz ki, hər hansı istehsal və sosial sahələrin yaradılması, yenidən qurulması, genişləndirilməsi və habelə məşğulluğun təmin edilməsi, müvafiq investisiya qoyuluşlarından və xüsusilə də ondan əldə edilmiş gəlirlərdən səmərəli istifadə olunmasını tələb edir. Bu baxımdan investisiya fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi birinci dərəcəli əhəmiyyətə malikdir. İnvestisiya fəaliyyətinin dövlət tənzimlənməsi dedikdə ölkədə vahid sosial-iqtisadi, elmi-texniki siyasətin həyata keçirilməsi üçün kompleks tədbirlər sistemi başa düşülür. Bunun üçün ölkədə lazımi maliyyə-material resurslarına malik olmalıdır. Əks halda milli iqtisadiyyatın formalaşdırılmasını və inkişafını tənzimləmək məqsədilə ölkəyə xarici investorların cəlb edilməsi zərurətə çevrilir. Odur ki, müasir müstəqillik və bazar iqtisadiyyatı şəraitində xarici ölkələrin marağına və milli iqtisadiyyatın inkişafına tam uyğun olaraq investisiya fəaliyyətini daha da dərinləşdirmək tələb edilir. Belə bir real şəraitdə, investisiya fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi və idarə edilməsi müasir reallıqdan irəli gəlir. Azərbaycan beynəlxalq iqtisadi əlaqələri çox şaxəli olmaqla bərabər, onun əsas istiqamətlərindən biri respublikaya investisiya axınının getdikcə güclənməsidir. Təhlil göstərir ki, son illərdə neft-qaz



downloaded from KitabYurdu.az

hasilatı sahəsində sazişlərin çoxalması ilə bağlı xarici investisiya fəaliyyəti ildən-ilə genişlənməkdədir. Bu barədə ətraflə təsəvvürə malik olmaq üçün, aşağıdakı cədvəlin məlumatlarına nəzər salmaq kifayətdir.

[9]Cədvəl 41.

Azərbaycan Respublikasının xarici investisiya əlaqələrinin inkişaf dinamikası

(milyon ABŞ dolları hesabı ilə)

| | 1995 | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 |
|---|---|---|---|---|---|---|---|
| Cəmi xarici investisiya | 375.1 | 1472,( | 1091,1 | 927,0 | 1091,8 | 2234,9 | 3273,3 |
| Ondan Maliyyə kreditləri | 220,4 | 120,0 | 336,2 | 262,9 | 192,0 | 223,0 | 213,0 |
| Neft sənayesinə | 139,8 | 891,8 | 544,5 | 546,1 | 820,5 | 1693,0 | 2810,2 |
| Birgə müəssisələr və xarici firmalar, Ondan | 14,9 | 460,2 | 210,4 | 118 | 79,3 | 318,9 | 250,1 |
| Türkiyə | 6,8 | 160,3 | 67,8 | 31,6 | 11,8 | 55,6 | 30,4 |
| ABŞ | 2,1 | 56,7 | 29,8 | 11.2 | 16,9 | 41,4 | 42,8 |
| İran | 0,9 | 40,7 | 9,2 | 2,9 | - | 2,7 | 0,5 |
| Almaniya | 1,2 | 2,1 | 6,2 | 1,7 | 1,2 | 1,7 | 0,5 |
| Rusiya | 0,7 | 10,3 | - | - | 1,4 | 0,7 | 1.6 |
| Böyük Britaniya | 0,7 | 47,4 | 45,8 | 6,8 | 15,1 | 108,1 | 97,5 |
| Birləşmiş Əı | 0,7 | 16.6 | 7,6 | 2,8 | 0,7 | 0,2 | 1,0 |

[9] Az.St.rəq. 2004 səh 396



downloaded from KitabYurdu.az

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Əmirlikləri | | | | | | | |
| İsveçrə | 1.2 | - | - | - | 8,3 | - | - |
| İtaliya | 0,1 | - | - | - | - | - | 14,7 |
| Fransa | - | - | 25,4 | 39,3 | 7,6 | 25,7 | 14,7 |
| Norveç | - | - | - | - | - | 31,6 | 25,6 |
| Yaponiya | - | - | - | 16,4 | 4 | 23,7 | 17,4 |
| Sair ölkələr | 0,5 | 126,1 | 18,6 | 5,3 | 12,5 | 27.5 | 3,8 |

Cədvəlin materiallarından aydın göründüyü kimi xarici investisiya qoyuluşlarında dmnamik sürətli artım tempi mövcuddur. Belə ki, 2003-cü ildə investisiya qoyuluşlarının ümumi həcmi 8,7 dəfə artmışdır. İnvestisiya qoyuluşlarının 8,5 faizindən çoxu neft sənayesinin payına düşür.

Bununla yanaşı, respublikada birgə müəssisələr və xarici firmalar tərəfindən investisiya qoyuluşları da yüksək templə artmaqdadır. Bununla əlaqədar xarici ölkələrin firmaları tərəfindən sərf edilən investisiyaların da miqyası genişlənməklə, onların məbləği daha da artır. Xarici firmalar arasında Türkiyə, ABŞ, Böyük Britaniya və İranın firmaları investisiya qoyuluşlarında əsas rol oynayırlar. Xarici investisiya fəaliyyətini stimullaşdırmaq məqsədi ilə normativ-hüquqi aktların beynəlxalq dünya standartlarına uyğun olaraq təkmilləşdirmək lazımdır. Məlum olduğu kimi, bu istiqamətdlə respublika hökuməti lazımi tədbirlər həyata keçirmişdir. Belə ki, xarici-iqtisadi əlaqələrin inkişafına və tənzimlənməsinə dair qiymətlərin, xarici ticarətin



downloaded from KitabYurdu.az

sərbəstləşdirilməsinə və respublikaya xarici investisiyaların cəlb edilməsi, ölkələr arası sərbəst mal mübadiləsi həyata keçirilməsinə dair bir sıra tədbirlər həyata keçirilmişdir ki, bunun da nəticəsində respublikaya xarici ölkələrin marağı daha da artmışdır. Lakin, xarici investorların normal fəaliyyətini tənzimləməkdən ötəri daha geniş tədbirlər həyata keçirilməlidir. Daha doğrusu xarici investisiya fəaliyyətinin stimullaşdırılması sahəsində dövlət iqtisadi mexanizmdən xüsusilə, güzəştli vergi sisteminin sürətli amortizasiya, qiymətqoyma siyasətinin həyata keçirilməsi və s. iqtisadi vasitələrindən daha fəal və çevik istifadə edilməsini təmin etməlidir.

Beləliklə, xarici investisiya resurslarının artırılması və xüsusilə mnvestisiya fəaliyyətindən əldə edilən gəlirlərdən istifadə istiqamətlərinin tənzhimlənməsi rolu ilə milli iqtisadiyyatın strukturunda səmərəli proporsiyaların yaradılması və habelə güclü istehsal potensialına uyğun sosial infrastrukturun normallaşdırılması və inkişafı dövlətin tənzimləyici rol və funksiyalarının bir daha artırılmasını təkidlə tələb edir. Bu barədə bir mənalı düşünənlər də az deyildir. Belə ki, bazar iqtisadiyyatı hər şeyə qadirdir və o, hər şeyi öz yerinə qoyacaqdır deyənlər bir mənalı fikirləşənlər, keçid iqtisadiyyatı şəraitində dövlətin iqtisadiyyata bir tərəfli müdaxilə etməsi zəruriliyini ənənəvi bazar iqtisadiyyatlı qərb ölkələrindən dövlətin iqtisadiyyata müdaxilə xətti ilə eyniləşdirirlər. Şübhə ola bilməz ki, formallaşdırılmış və sabit bazar iqtisadiyyatı şəraitində dövlətin iqtisadiyyata müdaxiləsinin müəyyən həddi olmalıdır. Lakin müasir keçid şəraitində dövlətin güclü tənzimləyici siyasəti



downloaded from KitabYurdu.az

olmadan real bazar münasibətlərini formalaşdırmaq qeyri mümkündür.

Məhz buna görə də geniş xarici investisiya fəaliyyətinin bərqərar olduğu şəraitdə dövlətin tənzimləyici funksiyası bir daha artımş olur. Bu istiqamətdə ən başlıca problemlərdən biri investisiya fəaliyyətində sosial yönümlü sahələrin daha doğrusu, sosial infrastrukturun kompleks inkişafına nail olmasıdır. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, respublikamızda bir sıra sərmayə qoyuluşlarından sosial istiqamətə 15 milyon Abş dolları həcmində məbləğ sərf edilmişdir ki, onun da 9,5 milyon dolları respublikada işçi heyətinin təhsilinə və ixtisaslarının artırılmasına sərf edilmişdir. İndi investisiya fəaliyyətinin ölkəmizdə getdikcə genişləndirilməsi ilə əlaqədar olaraq güclü xidmət servis komplekslərinin yaradılmasına və inkişafına yüksək dövlət qayğısı lazımdır. Araşdırmalar göstərir ki, xarici şirkətlərin böyük əksəriyyəti özləri ilə xidmət servisi də gətirirlər. Belə ki, indi Azərbaycanda Böyük Britaniyadan 130-dan çox, ABŞ-dan isə 110 xidmət şirkətləri, Almaniya, Fransa, Yaponiya, Türkiyə, İsveçrə, italiya və İran dövlətləri tərəfindən də təşkil edilmişdir. Şübhə yoxdur ki, xari ci ölkələrin servis xidmətlərinin rolu və əhəmiyyəti inkar edilməzdir. Bu baxımdan həmin zəngin təcrübədən bəhrələnərək gələcəkdə qiymən də olmuş olsa da servis xidmətləri respublika tərəfindən həyata keçirilərsə, onda məşğulluq probleminin həllinə müsbət təsir etməklə, bərabər, ölkədə valyuta gəlirlərinin artmasına da şərait yaradılmış olardı. Buna görə də neft-qaz istehsalının intensivləşdirilməsi və müvafiq



downloaded from KitabYurdu.az

sənaye sahələrinin inkişafına, respublikamızda xüsusi neft fondunun təşkil edilməsini zərurətə çevirmişdir.

## *5. AZAD İQTİSADİ ZONALAR, ONLARIN FORMALAŞDIRILMASININ PRİNSİPLƏRİ.*

Azad iqtisadi zonalar – gömrük sərhəddi daxilindən sərbəst ayrılan sahə olub, bütün təsərrüfat proseslərinin həllində müstəqil hüquqlara malikdir.

Azad iqtisadi zonalara xüsusi idarəçilik hüquqları verilir, güzəstli şərait yaradılır. Onlar xarici investorların iştirakı ilə müştərək müəssisələr yarada bilərlər.

Azad iqtiadi zonaların yaradılmasının əsas məqsədi xarici və daxili kapitalın cəlb edərək istehsalı təşkil etmək, investisiya şəraiti yaratmaq, xarici bazar üçün rəqabət qabiliyyətli məhsul istehsal etməkdir.

Statistik məlumatlara görə hazırda bütün dünyada 400-ə yaxın azad iqtisadi zona mövcuddur. Onların bəziləri öz funksional xasiyyətlərinə görə sərbəst kömrük zonalarına yaxındırlar.

Sərbəst (azad) iqtisadi zonaların əsasən 3 forması vardır.

A.Sənaye zonası.

B. İqtisadi və ET – zona

V. Sərbəst işgüzar zona.

Sənaye zonasının ərazisi ölkə daxilindədir.



downloaded from KitabYurdu.az

İqtisadi və ET zona müxtəlif mərhələlərdə yaradıla bilər. Bunlar əsasən texnoloji parkları, Elmi-Texniki tərtibatları əhatə edir. Məsələn, Kembric elmi mərkəzi, Novosibirski elmi mərkəzi.

Sərbəst işkizar zona girişi və çıxışı azad olan iqtisadi zonadır.

Bu qeyd olunan zonalar iki istiqamətdə fəaliyyət göstərə bilərlər.

1. Ticarət xarakterli ( fəaliyyətli).
2. İstehsal fəaliyyətli.

Azad iqtisadi zonaların əksəriyyəti istehsal fəaliyyətinə istiqamətlənmişdir.

Keçmiş SSRİ ərazisində Naxodka, Saxalin, Arxangelsk, Odessa kimi bölgələrdə azad iqtisadi zonaların yaradılması nəzərdə tutulmuşdur. Lakin bu məlum səbəblərdən mümkün olmadı.

Respublikamız iqtisadi-siyasi suverenlik şəraitində ləngdə olsa irəliləyir. Ona görə də azad iqtisadi zonaların yaradılmasına lazımi zəmini vardır.

Buna görə də Naxçıvan MR-da İran və Türkiyə ilə həmsərhəd olan bölgələrdə, Lənkəran-Astara zonasında, Güscüstan və Dağıstan sərhədlərində azad iqtisadi zonalar yaratmaq mümkündür.

Həmin zonalarda investisiya qoymaq yolu ilə yeni istehsal yerləri yaratmaq olar.

Dövlətin kömrük siyasəti qanun üzrə onun sərhəddində daxil olan və çıxan bütün iqtisadi fəaliyyətlər üzrə nəzarəti əhatə edir.

Bu nəzarət dövlətin gömrük idarəsi tərəfindən həyata keçirilir. Dövlətin gömrük sistemi əhatə edir:



downloaded from KitabYurdu.az

1.Gömrük deklarasiyası.

2. Gömrük ərazisi.

3. Azad gömrük ərazisi.

4. Gömrük gəliri.

Gömrük deklarasiyası, müəssisə, təşkilat və əhali tərəfindən mal göndərərkən ( qəbul edərkən) və xaricə gedərkən təqdim olunur.( nə aparır, nə gətirir, nə qədərdir, qadağan olmayan maldır, strateji əhəmiyyəti və s.) . Deklarasiyada göstərilməyən məhsul gömrük baxışı zamanı aşkar edilərsə o müsadirə edilir, satılır və dəyəri ödənilmir.

Gömrük ərazisi vahid iş rejiminə malik olan, məhsul aparılması, gətirilməsi üzərində nəzarət edən sahədir. Həmin ərazidə gömrük vergisi tutulur. Gömrük ərazisi dövlət sərhəddi ilə üst-üstə düşməyə bilər. Məsələn, azad gömrük ərazisi, dövlət ərazisinə daxil deyildir.

Azad gömrük ərazisi elə sahədir ki, məhsullara gömrük vergisi tətbiq edilmədən buraxılır. Həmin məhsul azad kömrük ərazisindən başqa ölkəyə aparılarkən gömrük vergisinə cəlb edilir.

Azad gömrük ərazisi,məşsulların üçüncü ölkəyə daşınması üçün saxlanma məntəqəsi kimi də çıxış edir.Daha döğrusu azad gömrük zonası iki ölkəsində əlaqələndirici rola malikdir.

Gömrük haqqı ( vergisi) , gömrük rüsumu ilə birlikdə kömrük gəlirini təşkil edir.

Gömrük vergisi tranzit formada ərazidən aparılan məhsullara da, əmlaka, müxtəlif dəyərlərə tətbiq edilir. Gömrük vergisi



downloaded from KitabYurdu.az

müəyyən qaydada beynəlxalq miqyasda qəbuledilmiş tariflərə əsasən tutulur. Bununla belə ölkənin xüsusiyyətindən asılı olaraq gömrük tarifləri dəyişilə bilər.

Gömrük tarifi olmayan bəzi məhsullar üzrə gömrük rüsusi tədbiq edilir. Məsələn, məhsulun saxlanması, qorunması, qablaşdırılması, səhiyyə xidməti və s. Gömrük rüsumu məhsulun dəyərinin 1-2 faizi həcmində olur.

Ölkədə ( respublikada) aparılan innovasiya ( investisiya) prosesində gömrük idarələrinin rolu mühümdür.Çünki, sərhəddə gətirilən texniki vəsaitlərə, müştərək müəssisələrin məhsuluna gömrük vergisi, rüsumların toplanması stimullaşdırıcı rol oynamalıdır. Gömrük siyasəti respublikada (ölkədə) çərçivəsində istehsala təkan verə bilər, bu isə yığımın çoxalması vasitəsilə investisiya üçün ayrılan vəsaiti artırır.

Lizinq şəraiti dedikdə – elə firmalar başa düşülür ki, onlar maşın, avadanlıq, nəqliyyat vasitələrinin, qurğuların və s. uzun müddətə icarə verilirlər. Bu firmalar yuxarıda adı göstərilən fondları alaraq, onları müxtəlif icarədarların istifadəsinə verirlər. İcarədarlar isə onun dəyərini işlətdikcə ödəyirlər.

Lizinq firmalarının yaradılması investisiya siyasəti ilə əlaqədardır, belə ki, elmi-texniki tərəqqinin inkişafı üçün dövlətin vəsaiti kifayət etmədikdə o, lizinq firmalarının xidmətindən istifadə edir.

Lizinq firmaları köhnəlmə ilə əlaqədar xərclərdən çan qurtarmağa imkan verir.



downloaded from KitabYurdu.az

Lizinq firmaları özləri isə fondu alarkən öz vəsaitindən və borc vəsaitindən istifadə edirlər.

Lizinq kompaniyalarının fəaliyyət strukturunu belə göstərmək olar:

Şəkil 16.






downloaded from KitabYurdu.az

İqtisadiyyata xidmət edən infrastrukturlardan biri də injiniriq hesab edilir. İnjiniriq xidməti iki istiqamətdə fəaliyyət göstərir:

1. İstehsal proseslərinin hazırlanması ilə əlaqədar xidmətlərin həyata keçirilməsi. Yəni layihələrin texniki-iqtisadi sənədlərlə əsaslandırılması, müqavilələrin bağlanması, mühəndis-texniki heyətin hazırlanması.

2. İstehsalın və satışın normal həyata keçirilməsi xidmətləri. Yəni istismar prosesinin optimal variantının tapılması, müəssisənin idarəedilməsi, məhsul satışının təşkil edilməsi.

Ümumi formada injiniriq xidməti kommersiya fəaliyyətidir. Əsas vəzifəsi elmi-texniki problemlərin istehsalda tətbiqinə şərait yaratmaqdır.

Ölkədə aparılan investisiya fəaliyyətinin maliyyə mənbəyi mərkəzləşdirilmiş qaydada dövlət büdcəsindən və kənardan cəlb olunan vəsaitdən ibarətdir.

Cədvəl 42.

Azərbaycan Respublikasında maliyyə mənbələri üzrə kapital qoyuluşunun dinamikası (faizlə)

| İllər | O cümlədən | | | | |
|---|---|---|---|---|---|
| | Cəmi kapital qoyuluşu | Mərkəzləşdirilmiş | Təşkilatların vəsaitləri | Əhalinin vəsaiti | Xarici investisiyalar |
| 1993 | 100 | 33,0 | 61,0 | 6,0 | - |



downloaded from KitabYurdu.az

| | | | | | |
|---|---|---|---|---|---|
| 1994 | «» | 6,0 | 15,0 | 7,0 | 72,0 |
| 1995 | «» | 13, | 44,0 | 8,0 | 35,0 |
| 1996 | «» | 02.7 | 30,2 | 8,8 | 58,3 |
| 1997 | «» | 2.2 | 26,0 | 5,7 | 66,1 |
| 1998 | «» | 1,7 | 26,2 | 4,4 | 67,7 |

Cədvəldən göründüyü kimi 1994-cü ildən başlayaraq investisiyaların maliyyələşmə mənbələrinin strukturunda əsaslı dəyişiklik baş vermişdir. Belə ki, 1993-cü ildə investisiyanın ümumi həcmində 33 faiz mərkəzləşdirilmiş vəsait, 61 faiz təşkilatların vəsaiti vardısa, 1998-ci ildə mərkəzləşdirilmiş vəsait 1,7 faiz, təşkilatların vəsaiti 26,2 faiz, əhalinin vəsaiti 4,4 faiz, xarici investorların vəsaitləri isə 67,7 faiz təşkil etmişdir. Sonuncu 1994-cü ilə nisbətən 1998-ci ildə 4,3 faiz azalmışdır. Ölkədə iqtisadiyyatın inkişafında xarici investorların rolunu azaltmaq olmaz, lakin ona həddindən artıq güvənmək də lazım deyildir. Çünki, həmin investorların bəziləri ölkə iqtisadiyyatı üçün qoyduqları vəsaitə görə çox hallarda ağır şərtlər tələb edirlər. Ölkə marağıa yox, öz marağını həddindən çox yüksəkdə tuturlar. İnvestorları cəlb edən isə çıxılmaz vəziyyətini bərpa etmək üçün həmin şərtləri qəbul etmək məcburiyyətində qalır.

Buna görə də dövlət öz investisiya resursundan daha səmərəli istifadə etmək qaydasına qalmalıdır. Bunun üçün dövlət ilk növbədə büdcə prosesinin təşkilində dünya təcrübəsinə istinad edərək qanun əsasında cəlb olunan vəsaitin həcminin dövlət investisiyasından



downloaded from KitabYurdu.az

yüksək olmasını məhdudlaşdırmalıdır. İkinci bir tərəfdən, dövlət ölkəyə gətirilən investisiyaları öz prioritet sahələri üzrə yerləşdirməli və ondan istifadəyə nəzarət etməlidir. Üçüncü bir tərəfdən, dövlət investisiyaların yerləşdirilməsində müsabiqələri genişləndirməlidir.

İnkişaf etmiş dünya təcrübəsi göstərir ki, investisiya resurslarının aşağıdakı hüquqlarda yerləşdirilməsi məqsədə müvafiqdir.

- 50 faiz elə layihələr üzrə yerləşdirilməlidir ki, istehsal olunan məhsulun xarici analoqu olmasın;
- 40 faiz istehsal olunan məhsullar ixrac xarakterlidir;
- 30 fatz istehsal olunan məhsul idxal məhsulunun qiymətindən aşağıdır;
- 20 faiz – daxili bazar tələbatı olan məhsul istehsal edən sahələr;

İnvestisiya siyasətinin bu mexanizmi əsasında aparılması ölkə iqtisadiyyatının inkişafına səbəb ola bilər.



downloaded from KitabYurdu.az

## *FƏSİL XII. SOSİAL-İQTİSADİ İNKİŞAFIN PROQNOZLAŞDIRILMASI.*

### *1. SOSİAL-İQTİSADİ İNKİŞAFIN PROQNOZLAŞDIRILMASININ MODELLƏRİ VƏ METODLARI.*

İqtisadi və sosial proqnozlaşdırmada müxtəlif modellərdən geniş istitfadə olunur. Model sözü latın sözündən «Modulus» götürülüb, ölçü, nümunə anlayışını ifadə edir. Model iqtisadi proqnozlaşdırmanın mühüm alətidir. Onun ifadə formalarından biri iqtisadi-riyazi modellərdir. O, iqtisadi prosesləri riyazi dildə belə ifadə edir.

Ekonometrik tipli iqtisadi-riyazi modellər sistemi mürəkkəb xarakterli iqtisadi-sosial prosesləri ifadə etmək üçün istifadə olunur.

İqtisadi riyazi model belə qoyula bilər.

$Z = ax$

Tutuqa ki, müəyyən bir məhsul istehsalı üçün materiala tələbat planlaşdırılmalıdır. Bu zaman

Z- materiala olan tələbatı

a- məhsul vahidinə material məsrəflərini

x- məhsulun həcmini göstərir.

İqtisadi riyazi model bir materiala tələbatı yox, bir neçə materiala olan tələbatı hesablayərkən daha da mürəkkəbləşir və belə forma alır:



downloaded from KitabYurdu.az

$Z= a_1x_1+a_2x_2+a_3x_3+.......+a_nx_n$ və ya

$$Z_I = \sum_{i=1}^{h} a_i x_i$$

Belə model iki amildən, yəni materiala tələbat məsrəfi normasından və məhsulun həcmindən asılı olaraq hesablanır. Belə model destruktiv xarakter daşıyır. (destruktiv riyazi anlamda bölüşdürücü mənasını verir. Yəni 2+1=3; 1+2=3 toplananların yerinin dəyişməsi nəticəyə təsir göstərmir.)

Vaxt amilinə görə modellər statis və dinamik ola bilər. Əhatə səviyyəsinə görə modellər fərqlənir:

1. Makroiqtisadi modellər.
2. Sahələrarası modellər.
3. Rayonlararası modellər.
4. Regionlararası modellər.

Məhsul nomenklaturasına görə bu modellər birməhsullu, çoxməhsullu modellərə bölünürlər.

Xalq təsərrüfatı səviyyəsinə görə tərtib olunan proqnozlarda həmin makromodellərdən istifadə olunur.

İqtisadi inkişafın artım parametrləri proqnozlaşdırılarkən xalq təsərrüfatı balansının təkmilləşdirilmiş formasından istifadə olunur. Məsələn, xalq təsərrüfatının amil təyinatı üzrə balanslaşdırılması, məhsul istehsalı və məsrəf arasındakı qarşılıqlı əlayəqə əsaslanır. O, amillər arasında elə mütənasiblik yaradılmasını tələb edir ki, məhsul istehsalı maksimum olsun.



downloaded from KitabYurdu.az

İqtisadi və sosial proqnozlaşdırmanın modelləri ona sistemli yanaşmağı tələb edir. Sistem sözü yunan sözü olan «sistema» sözündən götürülmüşdür. Yəni ayrı-ayrı hadisələrin vahid birləşməsi, tam halında olması.

İqtisadi və sosial proqnozlaşdırma sistemi dedikdə, proqnozların işlənib hazırlanması metodologiyasının müəyyən vəhdətliyi başa düşülməlidir. Proqnozlaşdırma sistemi cəmiyyətin inkişaf tələbindən asılı olaraq daima inkişaf edir və təkmilləşir.

Bu sistem bütünlükdə məhsuldar qüvvələrin inkişafına daxil olan və onu təmin edən şərtləri əhatə edir:

1. Əmək resursları, onun məhsuldarlığı, demoqrafiyası.
2. İstehsal fondları, onların təkrar istehsalı.
3. Texniki tərəqqi.
4. Məhsul istehsalı (sahələr üzrə).
5. Təbii resurslar.
6. Sahələrarası əlaqələr və s.

Bir sözlə iqtisadi münasibətləri əks etdirən, iqtisadi təfəkkürü formalaşdıran bütün anlayışlar məcmu, iqtisadi proqnozlaşdırma sisteminə daxildir.

İqtisadi proqnozlaşdırma hər bir sahə üzrə və ümumilikdə iqtisadiyyatın inkişaf proqramması tərtib olunarkən, ilkin mənbəə rolunu oynayır. Buna görə də o müəyyən prinsipə əsaslanmalıdır. Həmin prinsiplər bunlardır:

1. Siyasətlə iqtisadiyyatın vəhdəti.
2. Proqnozlaşdırma sistemliyinin qorunub saxlanması.



downloaded from KitabYurdu.az

3. Proqnozların elmi əsaslandırılması.
4. Proqnozların adekvatlığı, yəni real iqtisadi prosesin analogiyasının yaradılması, onun bir növ imitasiya edilməsi.
5. Proqnozun alternativliyi.

Bütün bu prinsiplərə əməl olunması şərtləri daxilində iqtisadi proqnozlaşdırma müəyyən funksiyaların yerinə yetirilməsinə cavab verməlidir. Həmin funksiyalara aşağıdakıları aid etmək olar:

1. İqtisadi, sosial, texniki tərəqqi təmayüllərinin elmi təhlili.
2. Müəyyən dövrdə, konkret şəraitdə xalq təsərrüfatının inkişafındakı sosial iqtisadi hadisələri tədqiq etmək.
3. Proqnozlaşdırılan obyektin qiymətləndirilməsi.
4. Müəyyən həllərin həyata keçirilməsi üçün alternativ variantlarının seçilməsi.

Hazırda elmi tədqiqatlar nəticəsində alınmış 150-dən çox proqnozlaşdırma metodları mövcuddur. Lakin bunlardan 15-20-si əsas sayılır. Mövcud ədəbiyyatlarda proqnozlaşdırma metodlarının təsnifləşdirmə əlamətləri də verilmişdir.

Belə təsnifləşdirmə əlamətlərindən biri – formalaşdırma səviyyəsinə görə, ikincisi – ümumi fəaliyyət prinsipinə görə, üçüncüsü – proqnoz məlumatın alınması üsuluna görə sayılır.

Bu təsnifləşdirmə əlamətlərinin təhlilinə başlamazdan əvvəl iqtisadi və sosial proqnozlaşdırma metodları anlayışını izah etmək lazımdır.



downloaded from KitabYurdu.az

İqtisadi və sosial proqnozlaşdırma metodları altında, əvvəlki dövrün (retrospektiv) göstəricilərinə nəzərən obyektin xarici (ekzogen) daxili (endogen) əlaqələrini ifadə edən və onun haqqında gələcək dövr üçün müəyyən fikir yürütməyə imkan verən üsul və qaydalarını məcmusu başa düşülür.

Yuxarıda göstərilən təsnifləşdirmə əlamətlərindən ən geniş istifadə olunan formalaşdırma səviyyəsinə görə proqnoz metod aşağıdakı strukturda verilmişdir. Bu yuxarıda verilən ikinci və üçüncü əlamətləri də əhatələndirir.

Şəkil 17.

Formalaşdırma səviyyəsinə görə proqnozlaşdırma metodları

| İntuitiv ümumi fəaliyyət prinsiplərinə görə | Formalaşdırma prinsiplərinə görə |
|---|---|
| 1. Fərdi<br>2. İntervyu<br>3. Analitik.<br>4. Ssenari quruluşu.<br>5. İdeyaların psixoloji intellektual generasiyası<br>6. Kollektiv qiymətləndirmə<br>a) «Delfa» metodu<br>b) «Matris» metodu<br>v) komissiya | 1. Ekstropolyasiya<br>2. Ən kiçik kvadratlar üsulu<br>3. Eksponsial hamarlaşdırm<br>4. Sürüşkən orta.<br>5. Adaptiv hamarlaşdırma.<br>6. Quruluş şəbəkə metodları<br>7. Adaptasiya |



downloaded from KitabYurdu.az

| | |
|---|---|

Ayrılıqda bu metodların bəzilərinə diqqət yeti rək:

1. Fərdi-təkbətək danışığın aparılması.
2. intervyu – sual-cavab
3. Analitik – müəyyən hadisənin məntiqi təhlili
4. ssenari – prosesinin məntiqinə əsasən nəticələr çıxarılması.
5. Psixointellektual generasiyaya zehni hücuma daxildir.
6. Kollektiv ekspert qiymətləndirməyə daxil olan «Komissiya» metodu, kollektiv yaradıcılıq Delfa« və «Matris» modellərinin mahiyyəti ondadır ki, nəticə müəyyən qədər dəqiq olur.

İdeyaların kollektiv qiymətləndirilməsi (ekspert qiymətləndirmə) nəticə haqqında bir az dəqiq məlumat verdiyi üçün onu bir az geniş izah edək. Kollektiv ekspert qiymətləndirmə metodunun mahiyyəti ondadır ki, proqnozlaşdırılan obyekt əvvəllər kimlər tərəfindənsə təhlil edilmişdir, indi onların rəyləri birgə tutuşdurulmalı və bir nəticə çıxarılmalıdır. Kollektiv ekspert qiymətləndirmə metodunun məzsunu belədir:

Birincisi – işçi bir qrup yaradılır (10-15 nəfər) onlar məlumat toplayır, onları işləyir, sual-cavab aparır və s.



downloaded from KitabYurdu.az

İkincisi – ekspertlərin sorğusundan əvvəl proqnozlaşdırılan obyektin inkişaf istiqaməti və məqsədi müəyyən edilməlidir və sualların siyahısı tərtib olunur.

Üçüncüsü – qoyulan sualın dəqiq başa düşülməsi və mühakimələrinin müxtəlifliyi təmin olunmalıdır.

Dördüncüsü - ekspertlərin rəylərinin bir-biri ilə razılaşdırılması səviyyəsi müəyyən edilir və ümumi rəy çıxarılır.

Kollektiv Ekspert qiymətləndirmə metodu zamanı məlumatların qiymətləndirilməsi bal sistemi ilə aparılır.

Şəkil 18.

| Ekspertlər / Tədqiqat istiqaməti | 1 | 2 .. . . . . . . …. | n |
|---|---|---|---|
| 1 | | | |
| 2 | $c_{11}$ | $c_{12}$ | $c_{1n}$ |
| . | $c_{21}$ | $c_{22}$ | $c_{2n}$ |
| . | | | |
| . | | | |
| n | | | |
| | $c_{n1}$ | $c_{n2}$ | $c_{nn}$ |

S – verilən balları göstərir.



downloaded from KitabYurdu.az

İdeyaların kolektiv yaradılması «zehni hücumu» rəhbərlə əks əlaqənin olub-olmaması əlamətlərinə görə təsnifləşdirilə bilər. Əks əlaqənin mövcudluğu ekspertlərin əvvəlcədən nəzərdə tutulan variant ətrafında hüdudlandırır. Bu zaman ola bilsin ki, daha səmərəli variant nəzərdən qaçılırmış olsun. Əks əlaqənin olmaması isə fəaliyyət sərhəddinin genişləndirir. Küllü sayda variantlar söylənilməsi imkanını artırır. «Zehni hücumu» metodu potensial yaradıcılığı genişləndirir, problem situasiyaları işləyib hazırlamaq imkanını artırır. Bu aşağıdakı mərhələlərdə həyata keçirilir.

1 mərhələ «zehni hücum» iştirakçıları qrupunun formalaşdırılması, onların sayı 10-15 nəfər olub, bir-birilə tanış olan eyni səviyyəli mütəxəssislərdən və tanış olmayan müxtəlif səviyyəli mütəxəssislərdən təşkil oluna bilər.

II mərhələ – qrupun iştirakçıları üçün problem qeydiyyatların tərtib olunması – metodun mahiyyəti, prinsipi, qaydası səbəbi müəyyənləşdirilir.

III mərhələ – ideyanın yaradılması. Aparıcı problemi açır, onun məzmununu izah edir.

İştirakçılar:

1. Fikirlərin konkret ifadə edirlər.
2. Əvvəl söylənilmiş fikrin tənqidinə yol verilmi r.
3. İştirakçılar dəfələrlə, lakin ardıcıl olmadan çıxış edə bilərlər.
4. İdeyaların siyahısının ardıcıllıqla oxunmasına icazə verilmir.



downloaded from KitabYurdu.az

IV – mərhələ ideyaların sistemləşdirilməsi. Bu belə aparılır.

İdeyalar siyahısı tutulur. Bir-birinə oxşarlar, təkrar olunanlar birləşdirilir. Onlardan daha mükəmməli götürülür.

V – mərhələ sistemləşdirilmiş ideyaların tənqid edilməsi (dağıdılması). Həmin ideyalar hər bir iştirakçı tərəfindən, pis istiqamətdə tənqid edilir. (Yəni onu pis cəhətləri işıqlandırır.)

VI mərhələ – tənqidi mülahizədən çıxan ideya götürülür.

İdeyaların kollektiv yaradılması təcrübədən keçirilmişdir. Həmin metodlardan biri «Delfa» metodudur.

1. ekspertin anonim olması.
2. Əvvəlki sorğuların nəticəsindən istifadə olunması.
3. Cavabların statistik qruplaşdırılması.

Beləliklə, «Delfa» metodu ilə proqnozlaşdırmada iştirak edən mütəxəsislərin qoyulmuş problemə dair dəfələrlə söylədikləri sərbəst fikirləri ümumiləşdirilir. Hansı fikir daha çox xüsusi çəkiyə malikdirsə, o proqnozun əsasını təşkil edir.

Ekstropoloyasiya metodu – keçmiş dövrün statsitik məlumatlarına əsaslanır. Onların əsasında gələcək göstəricilər müəyyən edilir. Burada gələcək inkişaf təmayülünü əks etdirən sıra nömrələrindən istifadə edilə bilər. Buna çox vaxt trend deyilir. (Trend – dinamiki sıranın istiqamətinin müəyyən edilməsidir. Xətti, porabolik və s.) . Bu iqtisadi inkişafın uzun müddətə dəyişilməsini əks etdirir. Ekstropolyasiyanın sadə üsuluna nəzər salaq.

$Ü_i+L=f(Ü^k_i\ L)$

Haradakı



downloaded from KitabYurdu.az

$Ü_i$ +L –səviyyənin ekstropolyasiya mahiyyətini

L –qarşılanma dövrünü

$Ü^k_i$ – ekstropolyasiya bazasının götürülmüş səviyyəsini əks etdirir.

Eksponsial hamarlaşma.

$Y^- = ak^t$

К – artım-dəfələrlə-trend kosntant. Əgər k…1 bu eksponsial trendin, artımın sürətlə irəliləməsini əks etdirir. Məsələn, bütün dünyada 1960-1970-ci illərdə əhalinin orta illik artımı 2% təşkil etmişdir. Əgər bu artım indiyə qədər qalardısa 2050-ci ildə yer kürəsində əhalinin sayı 134 trillion 286 mlrd. nəfər olardı və 1 nəfərə 1m$^2$ ərazi düşərdi. Əgər k .. 1 olarsa eksponsial trendin artımı olmadığını və bunun getdikcə azalmağa doğru meylli olduğu görsənərdi.

## *2. İQTİSADİ SOSİAL İNKİŞAFIN PROQNOZLAŞDIRILMASI.*

Proqnozlaşdırma uzaq gələcək üçün iqtisadi-ictimai hadisələrin inkişaf istiqamətinin müəyyən edilməsi və həmin inkişafı səciyyələndirən sistemini, hadisəni bu və ya digər istiqamətdə inkişaf ehtimalını göstərir.

Beləliklə, proqnoşlaşdırma gələcək inkişafın alternativ istiqamətini müəyyən edən elmi fəaliyyətdir. Bu alternativ inkişaf trayektoriyası xarici əlamətlərin təsirini nəzərə almalıdır.



downloaded from KitabYurdu.az

Proqnozlaşdırma obyekti bütün hadisələr ola bilməz. Əgər hadisənin inkişafı bir cəhətlidirsə, burada proqnoz söyləmək ehtimalı azdır. Lakin əgər çoxlu sayda alternativ variantlar vardırsa, bu zaman proqnoz yeni informasiya verə bilər.

Deməli, proqnozlaşdırma elə prosesləri əhatə edir ki. Onların planlaşdırılması ya mümkün deyil, ya da ki, elə diapozonda mümkündür ki, onların proqnozlaşdırılmasına mövcud metodlar: balans və normativ metodlar təsir göstərmirlər.

Bir sıra qərb ədəbiyyatlarında proqnoz, qabaqcadan fikir söyləmək, qabaqcadan görmə mövhumları arasında fərq qoyulmayaraq onların plan və ya plan-proqnoz kimi qələmə verirlər.

BMT-də keçirilmiş konfransda bu məsələlərin hamısına layihələşdirmə kimi baxılmışdır. Yəni layihələşdirmə hər hansı bir işin inkişafından alınan nəticəni əks etdirməlidir. İctimai inkişafın proqnozlaşdırılması istiqamətlərindən biri iqtisadi proqnozlaşdırma iqtisadi dərketməyə əsaslanır.

Yəni iqtisadi proqnozlaşdırma ictimai hadisələrin iqtisadi dərk edilməsi yolu ilə proqnozlarının hazırlanması prosesidir.

Proqnozlaşdırma, o cümlədən iqtisadi proqnozlaşdırma təbiət, cəmiyyət və təfəkkür qanunlarına əsaslanır. Beləliklə, iqtisadi proqnozlaşdırma qabaqcadan görmənin üç formasına əsaslanmalıdır:

- Hipoteza, proqnoz, plan.

Hipoteza – ümumi nəzəriyyə səviyyəsində elmi uzaqgörənliyi səciyyələndirir. Bu o deməkdir ki, hipotezanın qurulması əsasında



downloaded from KitabYurdu.az

nəzəriyyə durur və həmin nəzəriyyə əsasında tədqiq olunan obyektin səbəb nəticə qanunauyğunluğu başa düşülür.

Proqnoz-Hipoteziya nisbətən daha geniş mənaya malikdir. Belə ki, proqnoz hadisənin keyfiyyət və kəmiyyət tərəflərini səciyyələndirir. Proqnoz konkret tətbiqi nəzəri əsasa malikdir.

Plan dəqiq ifadə olunmuş məqsəddir.

Öz məqsədinə görə iqtisadi proqnozlaşdırma ayrılır:

- Makroiqtisadi (xalq təsərrüfatı səviyyəsi)
- Struktur (sahələrarası, regionlararası) proqnozları;
- Xalq təsərrüfatı komplekslərinin proqnozlaşdırılması;
- Sahə və regional proqnozlaşdırma.

Əhatə etdiyi dövrə görə proqnozlar bölünür:

- cari, cəld, əməli (1 aya qədər)
- qısa müddətli proqnozlar (1 aydan 1 ilədək)
- orta müddətli proqnozlar (1 –5 il)
- daha uzun müddətli proqnozlar (15 ildən yuxarı)

Əhatə etdiyi dövrə görə proqnozlar fərqləndiyi kimi daxili məzmununa və funksiyalarına görə də fərqlənirlər.

Tədqiq olunan obyektin xarakterindən asılı olaraq proqnozların bölünməsi təkrar-istehsal prosesinin müxtəlif aspektlərindən asılıdır. Bu əlamətlərinə görə aşağıdakı proqnozlar məlumdur:

1. İstehsal münasibətlərinin inkişafı.
2. Sosial-iqtisadi və elmi-texniki tərəqqinin nəticələri.



downloaded from KitabYurdu.az

3. Xalq təsərrüfatı dinamikası.
4. Əmək resurslarının təkrar istehsalı və məşğuliyyət.
5. Təbii resurslardan səmərəli istifadə.
6. Əsas fondların və əsaslı vəsait qoyuluşlarının təkrar istehsalı.
7. Əhalinin həyat səviyyəsi.
8. Maliyyə münasibətləri, gəlir və qiymət.
9. Xarici-iqtisadi əlaqələr.

Yuxarıda qeyd olunan istiqamətlərdən hər birinin sərbəst fəaliyyəti mümkündür. Lakin onların hamısı arasında bir qarşılıqlı rabitə vardır. Məsələn, əhalinin həyat səviyyəsi proqnozlaşdırılarsa, o demoqrafik amillərlə, təbii mühitlə, istehsal prosesləri ilə əlaqədar aparılmalıdır.

Funksional əlamətlərinə görə proqnozlar iki tipə ayrılırlar:

- axtarış;
- normativ.

Axtarış proqnozları – tədqiq olunan obyektin keçmiş, indiki və gələcək dövr üçün inkişaf təmayülünü izah etməyə əsaslanır. Daha doğrusu onun vəzifəsi mövcud şərtlərin saxlanması çərçivəsində tədqiqat obyektinin gələcəkdə özünü necə aparmasını aşkarlamaqdır.

Normativ proqnozu isə əvvəlcədən hazırlanmış məqsəd əsasında tərtib olunur. Yəni məqsəd qoyulur, həmin səd əsasında



downloaded from KitabYurdu.az

tərtib olunur. Yəni məqsəd qoyulur, həmin məqsədə çatmaq üçün normativlər əsasında tədbirlər axtarılır.

Proqnozların tipləşdirilməsinə müvafiq olaraq proqnozlaşdırma üsulları haqqında informasiyaların toplanması, informasiya mənbəyinin müəyyən edilməsi əhəmiyyətlidir. Bu üç əsas mənbə hesabına həyata keçirilə bilər:

1. Təcrübənin toplanması.
2. Mövcud təmayülün ekstropoloyasiyası.
3. Modelin qurulması.

Təcrübənin toplanması hadisənin axarının qanunauyğunluğuna əsaslanır.

Hadisənin əvvəlki təmayülünə nəzərən gələcək inkişaf istiqamətinin müəyyən edilməsi.

Gözlənilən və ya əvvəlki təmayüllərə uyğun modellərin qurulması.

Proqnozlaşdırma obyektin informasiya mənbələrinə nəzərən onun üç üsulu vardır:

- Ekspert məlumatların qabaqcadan yığılması, anketləşdirmə;
- Ekstropolyasiya – əvvəlki dövrə görə gələcək dövr haqqında mühakimə yürütmək;
- Modernləşdirmə – axtarış və normativ modellərindən istifadə olunması və s.



downloaded from KitabYurdu.az

## *3. PROQNOZLAŞDIRMADA İSTİFADƏ OLUNAN İSTEHSAL FUNKSİYALARI.*

İqtisadi və sosial inkişafın proqnozlaşdırılmasında istehsal funksiyaları əsasında qurulmuş modellərdən də istifadə olunur. Həmin modellərin mahiyyəti müxtəlif amillərin istehsal prosesində iştirakı səviyyəsini müəyyən etməkdir. Belə modellərdən bir neçəsinin iqtisadi riyazi qoyuluşu belədir.

Kobba –Duqlas istehsal funksiyası.

İqtisadi proqnozlaşdırmada istifadə olunan ən sadə funksiyadır. Amerikan alimləri Ç.Kobbas və P. Duqlas tərəfindən C.B.Seyin ideyalarının praktiki tətbiqi bu funksiyada əks etdirilmişdir.

Bu funksiyada məhsulun buraxılan həcmi (U) istehsal amilləri ehtiyatının mövcudluğu və onlardan səmərəli istifadə üçün müəyyən olunur.

İstehsal amilləri kimi əmək ehtiyatları (L) və kapital (K) götürülür. Amillərdən effektli istifadə olunması üçün ($\mu$) kapitalı və əmək ehtiyatları mövcudluğunda əmək məhsuldarlığının son hədd göstəricisi nəzərdə tutulur.

$$U = \mathrm{A}\mathrm{K}^{\mu} L^{1-\mu}$$

A- istehsal miqyasının məhsul buraxılışını əks etdirən əmsaldır.



downloaded from KitabYurdu.az

Müqayisəli göstəricilərdə (artım sürəti) makroiqtisadi göstəricilər arasındakı əlaqə belə ifadə olunur.

$$U = k\mu + 1(1-\mu)$$

K – kapitalın orta illik artım sürəti

U-kapitala görə istehsal həcminin elastiklik əmsalı

I –əməyin ortaillik artım sürəti.

$(1-\mu)$--( -əməyə görə istehsal həcminin elastiklik əmsalı

<u>Tinberqenin istehsal funksiyası</u>.

Kobba-Duqlas istehsal funksiyasının modifikasiya edilmiş formalarından biridir.

Tinberqen istehsal amillərini vahidə bərabərliyinə nəzərən göstəricilərin qüvvət məcmuna məhdudiyyətləri aradan götürərək funksiyanı belə yazır:

$$U = \mathrm{AK}^{\alpha} L^{\beta}$$

Haradakı $\alpha + \beta = 1$ olduğu halda bu funksiya Kobba-Duqlas funksiyasına çevrilir.

Əgər $(\alpha + \beta) > 1$ olarsa funksiya adekvat olaraq iqtisadi tərəqqi şəraitində istehsal nəticələri və amillərinin artımını üstələməlidir.

Əgər $(\alpha + \beta) < 1$ əksinə istehsal amillərinin artımı istehsalın nəticə artımını üstələyir.

Müqayisəli formada (artım sürəti) yuxarıda qeyd olunan göstəricilər arasındakı əlaqə belə ifadə olunur.



downloaded from KitabYurdu.az

$$Ü = k\alpha + l\beta$$

$\alpha$ --- kapitala görə istehsal həcminin elastiklik əmaslı

$\beta$---- əməyə görə istehsal həcminin elastiklik əmsalı

R.Solonun istehsal funksiyası.

Kobbo-Duqlas funksiyasının modifikasiya edilmiş formalarından biridir. Solou iqtisadi artım üçün asılı olmayan dəyişən kimi elmi-texniki tərəqqini nəzərə alınmasını təklif etmişdir. Bu zaman natural loqarifmanın (e) əsasında (q) qüvvəsini əsas götürmüşdür. Belə olduğu halda istehsal funksiyası aşağıdakı şəkildə yazılır:

$$U = \mathrm{AK}^{\mu} + l^{(1-\mu)}e^{q}$$

q- əmsalı elmi-texniki tərəqqinin iqtisadi artıma təsir dərəcəsini əks etdirir.

Müqayisəli formada (artım sürəti) makroiqtisadi göstəricilər arasındakı əlaqə belə olacaq.

$$U = k\mu + l(1-\mu) + q$$

Haradakı q-əmsalı elmi-texniki tərəqqinin təsiri altında istehsal nəticələrinin artımını əks etdirir.

L.İ.Ançişkinin istehsal funksiyası.

Ançişkin tərəfindən təklif olunan istehsal funksiyası da Kobba-Duqlas funksiyasının modifikasiya edilmiş formalarından biridir. Ançişkin elmi-texniki tərəqqinin istehsal artımına təsirini iki



downloaded from KitabYurdu.az

hissəyə ayırmışdır: müstəqil elmi-texniki tərəqqi – və məhsulun bölgü xarakteri ilə əlaqədar elmi tərəqqi- g.

Bu zaman istehsal funksiyası belə olur.

$$U = AR^{\mu} L^{(1-\mu)} e^{\breve{g}}$$

(g+q) əmsallarının məcmu elmi-texniki tərəqqinin müxtəlif formalarının iqtisadi artıma təsir dərəcəsini göstərir. Makro səviyyədə bu formula belə olur:

$$u = k\mu + l(1-\mu) + (\breve{g} + q)$$

g- müstəqil elmi-texniki tərəqqinin istehsal nəticələri artımına təsiri əmsalı

q- asılı elmi-texniki tərəqqinin istehsal artımına təsiri əmsalı.

<u>İqtisadi artımın Xorroda-Domar modeli</u>.

İqtisadi artımın proqnozlaşdırılmasında geniş istifadə olunan alətlərdən biridir.

Model iqtisadiyyatdakı qarşılıqlı əlaqələri sistemli qaydada göstərir. Öz tərkibinə görə sadə tipli istehsal funksiyasını (istehsal artımının yeganə amil kimi investisiya çıxış edir) investisiyaya məhsulun bölüşdürülməsi bərabərliyini daxil edir:

1. Əmanət (S), milli gəlirin (Ü) qeydə alınmış hissəsidir.

S=SÜ

S- əmanət norması

2. İnvestisiya (Y) kapitalın (K) həcminin dəyişilməsidir.



downloaded from KitabYurdu.az

Y=K

3. Əsas kapitalın həcmi (K) milli kəşflə (Ü) kapital əmsalı (k) vasitəsilə əlaqədardır.

K=KY

4. Fərz edək ki, milli əmanət (S) ümumi investisiyaya (Y) bərabərdir.

S=Y

5. Əmanətlə investisiya arasındakı əlaqə belə ifadə olunur:

S=SJ=KJ=K=J sadə halda SJ=KJ

Sadə çevirmədən sonra bu bərabərlik belə yazıla bilər.

$Y = Y \backslash Y = S \backslash K$ yəni $Y = 1 = \dfrac{S}{K}$

Bu onu göstərir ki, ÜDM artım sürəti (Ü) əmanət norması (S) və kapital əmsalından (K) asılıdır.

Göstərmək lazımdır ki, yuxarıda qeyd olunan istehsal funksiyaları konkret şəraitdən asılı olaraq iqtisadi sosial proqnozlaşdırmadı nəzərə alınmalıdır.



downloaded from KitabYurdu.az

## *FƏSİL XIII. BAZAR İQTİSADİYYATI ŞƏRAİTİNDƏ QİYMƏTLƏRİN TƏNZİM OLUNMASI.*

### *1. İQTİSADİ XƏRCLƏR VƏ ONLARIN TƏSNİFATI.*

Keçmiş iqtisadi fikirlərdən fərqli olaraq bazar münasibətləri şəraitində iqtisadi xərclər (əvvəllər bu istehsal xərcləri adlanırdı) iki formada izah olunur.

1. Xarici xərclər; 2. Daxili xərclər.

Xarici xərclər firma tərəfindən əmək, material, yanacaq, nəqliyyat, enerji və s.üçün autsayderlələ (bu resursları verənlərə) ödənilən pulla ifadə olunur.

Daxili xərclər firmanın öz daxilində mövcud olan xərcləri ifadə edir. Məsələn, firma sahibi özü işləyir, sahibkar əməyi sərf edir və müqabilində normal mənfəət əldə edir. Bu normal mənfəət daxili xərcə aiddir və sahibkar istedadı üçün verilir, o əmək haqqından əlavədir.

Bazar iqtisadi şəraitində «mənfəət» anlayışına da fərqli baxılır;

İqtisadi mənfəət – ümumi satışdan əldə edilən puldan xarici və daxili xərclər, normal mənfəət çıxıldıqdan sonra tapılır.

Mühasibat mənfəəti ümumi satışdan əldə edilən pulun məbləğindən xarici zərclər çıxıldıqdan sonra qalan hissədir.

İqtisadi xərclər daimi və dəyişən hissələrə ayrılır. Daimi xərclər istehsalın həcmindən asılı deyildir. Məsələn. Avadanlığın işləməsindən asılı olmayaraq onun üçün haqq verilməli, bina və qurğular üçün ifadə edici heyyətin əmək haqqı, renta ödəniş və s. üçün verilən haqlar.



downloaded from KitabYurdu.az

Dəyişən xərclər istehsalın həcminin dəyişməsi ilə əlaqədardır. Məsələn, əmək, material, yanacaq, enerji və s. alınması xərcləri. Deməli ümumi xərclər = Daimi xərclər. Daimi və dəyişən xərclərin mahiyyəti hər bir biznesmen üçün fərqlidir. Belə ki, dəyişən xərclərə biznesmen nəzarət edə bilər, istehsalın həcmini dəyişmək yolu ilə.

Daimi xərclər isə bu nəzarətdən kənardır və o, məcburi xüsusiyyətə malikdir.

İstehsalçı üçün ümumi xərclərin həcminin müəyyən edilməsi əhəmiyyətlidir. Bundan əlavə məhsul vahidinə orta xərc göstəricisi də hesablanır ki, onunda əsasında qiymət müqayisəsi aparılır.

$$\text{(ODX)Orta daimi xərc} = \frac{\text{Daimi xərc (DX)}}{\text{Məhsulun həcmi M\textbackslash H}}$$

$$\text{(ODX)Orta dəyişən xərclər} = \frac{\text{Dəyişən xərc (DX)}}{\text{Məhsulun həcmi (MH)}}$$

$$\text{(OUM) Orta ümumi xərclər} = \frac{\text{Ümumi xərc (ÜX)}}{\text{Məhsulun həcmi (MH)}}$$

$$\text{Son hədd xərcləri (SHX)} = \frac{\text{Məhsul vahidinin artırılmasına çəkilən xərc}}{\text{Məhsulun həcmi (məhsuldarlıq)}}$$



downloaded from KitabYurdu.az

Son hədd xərcləri mühsulun artırılmasına çəkilən xərclərin həcminin məhsuldarlığa bölünməsi yolu ilə tapılır. Yeni məhsuldarlıq yüksək olduqca xərc az, məhsuldarlıq azaldıqca xərc çoxalır. Bunu aşağıdakı qrafikdə daha aydın görmək olar.

Şəkil 19.




Beləliklə, iqtisadi xərclərin ümumi orta kəmiyyətini müəyyən edilməsi qiymətin əmələ gəlməsinin əsas və ilkin bazası hesab edilir. Buna görə də azad bazar qiymətləri, bazar iqtisadiyyatının dəyişməz elementləri kimi çıxış edir.

Əvvəllər qiymət dəyərin təzahür forması kimi aşağıdakı strukturda xarakterizə olunurdu.

Tam maya dəyəri + müəssisənin minimum mənfəəti = müəssisənin topdansatış qiymətinə+dövriyyə vergisi= sənayenin topdan satış qiymətinə + ticarət güzəştləri və əlavəsi + nəqliyyat xərcləri = pərakəndə satış qiymətlərinə.



downloaded from KitabYurdu.az

Bu struktur keçmiş SSRi-nin və ona daxil olan bütün müttəfiq respublikaların xalq təsərrüfatında fəaliyyət göstərmişdir. Həmin prinsiplər əsasında müttəfiq respublikaların məhsulu alınmış və respublikalararası mübadilə edilmişdir.

Klassik formada qiymətin aşağıdakı növləri mövcud olmuşdur:

1. Dövlət pərakəndə satış qiymətləri.
2. Kooperativ-komission qiymətləri.
3. Kolxoz bazar qiymətləri

Bazar iqtisadiyyatı qiymət sisteminin bu formasını inkar edir. Belə ki, məhsulun istehsalına çəkilən ictimaizəruri əmək məsrəflərinin nə qədər olmasına baxmayaraq, «Qiymət tələb və təklif» əsasında formalaşır.

Qiymətin yaranma prosesi tələb və təklif arasında belə formalaşır. Qiymət aşağı düşdükcə tələb artır. O, nə qədər aşağı olarsa tələb çoxalır və əksinə qiymət yüksəldikcə tələb azalır.

İstehsalçı hansı məhsulun bazar tələbatına uyğun olduğunu görərək onun istehsalını çoxaldır. Yəni təklifi ödəmək üçün məhsul istehsalını artırır. Təklif çoxaldıqca onun qiyməti aşağı düşməyə doğru meyl edir.

Bazar iqtisadiyyatı şəraitində tələb əyrisi aşağıdakı formada olur:



downloaded from KitabYurdu.az

Şəkil 20.




Bazara təklif olunan məhsul çoxaldıqca onun qiyməti aşağı doğru hərəkət edir.

Şəkil 21.




Bazara çıxan istehsalçı yüksək qiymətə daha çox məhsul satmağa, istehlakçı isə daha ucuz qiymətə çox məhsul almağa çalışır. Onların alqı-satqı sövdası əsasında optial qiymət yaranır.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra bir sıra beynəlxalq qurumlara, o cümlədən 1992-ci ildən beynəlxalq valyuta fonduna, Dünya Bankına, Avropa Yenidən qurma və



downloaded from KitabYurdu.az

İnkişaf Bankına, İslam İnkişaf Bankına və nəhayət 1999-cu ildə Asiya inkişaf bankına üzə qəbul olunmuşdur. Dövlətimiz manatın məzənnəsini sabit saxlamaq və tədiyyə balansında lazımi tarazlığı təmin etmək məqsədilə 1995-1999-cu illərdə BVF-dan 440 milyon ABŞ dollarə məbləğində kredit almağa ondan səmərəli istifadə edərək, özünü etibarlı partnyor kimi təsdiqləmiş və bu vəsaitin 100 milyon məbləğini geri qaytara bilmişdir.

Şəkil 22.




Tələb əyrisi ilə təklif əyrisinin kəsişdiyi nöqtə «K» nöqtəsi tələb və təklif əsasında yaranmış optimal qiyməti göstərir.

Yaranmış orta qiyməft səviyyəsi makro səviyyədə tələblə və təklifin tarazlığını təmin edir.

Bazar iqtisadiyyatı şəraitində qiymətin aşağıdakı növləri fəaliyyət göstərir.



downloaded from KitabYurdu.az

1. Hərrac qiyməti-məhsulun satış qiymətidir. Onun əsasında bazar qiyməti durur. Lakin o, bazar qiymətindən fərqlənir, çünki rəqabət xarakteri daşıy1ır. Satılan məhsullar əsasən nadir və aztapılan olur. Hərrac qiymətinin səviyyəsi auksionu idarə edənin qabiliyyətindən çox asılıdır.

2. Biznes qiyməti – alqı-satqı aparıldığı vaxtda yaranır.

3. Birja əmtəəsi qiymət – birja dönərlisindən və əlavələrdən ibarətdir. Yükün daşınma məsafəsindən asılıdır.

4. Dövlət qiyməti – dövlət tərəfindən qoyulur və nəzarət edilir.

5. Müqavilə qiyməti – tərəflərin razılığı əsasında müəyyən edilir.

6. Kommersiya qiyməti-azad qiymətdir. Mövcud olan dövlət qiyməti şəraitində sərbəst satılan məhsullara tətbiq olunur. Habelə mərkəzləşdirilmiş bölüşdürülən məhsullara da şamil edilir.

7. Kontrakt qiyməti – qiymətli kağızlara kontrakta qeydə alınan; razılaşdırılmış formada tətbiq edilən qiymətdir.

Kontrakt- latınca əqd, saziş, müqavilə mənasını daşıyır. Lakin kontraktla müqavilə fərqli mahiyyətə malikdir:

a) Müqavilə müəyyən işin görülməsi üçün 3 il müddətinə, kontrakt ən azı 5 ilə bağlanır.

b) Müqavilə yazılı və şifahi ola bilər. Kontrakt isə yalnız yazılı şəkildə olur.

v) Müqavilə şərtləri qısa göstərilir. Kontraktda isə – fəaliyyət müddəti, tərəflərin hüquqları, vəzifə və məsuliyyəti, kontraktın



downloaded from KitabYurdu.az

dayandırılması və pozulması səbəbləri, sosial məişət şərtləri, istehsalın özünəməxsusluğu, maliyyə imkanları və s. göstərilir.

q) Müqavilədə tərəflərin biri onun dayandırılmasını tələb etdikdə, lakin proses davam edərsə müqavilə müddəti qeyri-müəyyən vaxta qədər uzadıla bilər. Kontraktda isə müddət qurtardıqdan sonra, tərəflərin razılığı ilə o, yeni müddət üçün bağlanıla bilər.

8.Dünya qiyməti – beynəlxalq qaydada məhsul satan-alan dövlətlər arasında müəyyən bir dövr üçün razılaşdırılmış kontraktlar əsasında müəyyən edilir.

9. Topdan satış qiyməti – topdansatış formasında alınan məhsullara qoyulur. Ona pərakəndə ticarət əlavəsi daxil deyildir.

10. Təklif qiyməti –istehsalçı tərəfindən qoyulan qiymətdir.

11. Preyskurant qiymətləri –dövoət preyskurantlarına əsasən müəyyən olunur.

12. Keçici-ötürücü qiymətlər-kütləvi məhsula qoyulan aşağı səviyyəli qiymət olub, bazarda tez zamanda tələb doğurmaq üçün tətbiq edilir.

13. Hesabat qiymət-hər bir mövqe üzrə bir gün üçün qoyulan qiymətdir.

14. Tənzimlənən qiymətlər – bazis qiymətdən kənarlaşa bilir, dövlət tərəfindən idarə olunur.

15. Pərakəndə qiymətlər – pərakəndə ticarət sistemində fəaliyyət göstərir.

16. Tələb qiyməti – Alıcı tərəfindən verilir.



downloaded from KitabYurdu.az

17. Transferent – bir kompaniya tərəfindən onun bölmələri arasında tətbiq olunan daxili qiymətdir. Firma daxilində fəaliyyət göstərir.

Bazar qiymətləri azaddır. Tələb və təklifin əsasında yaranır.

## *2. QİYMƏTLƏRİN DÖVLƏT TƏNZİMLƏNMƏSİ.*

Qiymətlərin dövlət tənzimlənməsi zərif, incə və mürəkkəb obyektdir. Belə ki, ölkədə gün ərzində milyonlarla alqı-satqı münasibətləri həyata keçirilir. Bu zaman qiymətlər istehsalçı-istehlakçı arasında münasibətləri tənzim edir, onların hər ikisi üçün sərfəli olan səviyyəni müəyyən etməyə imkan verir. Belə olduğu halda bütün qiymət sisteminə sahibkarların nəzarət etmək imkanları məhdudlaşır və ümumiyyətlə qiymət sisteminə nəzarət edə bilmirlər. Belə vəziyyət meydana çıxır ki, hər bir iqtisdi subyekt öz mənafeyi baxımından qiymətlərin inhisarçısına çevrilməyə çalışır. Nəticədə qiymət sistemində özbaşınalıq yaranır. Bazar sistemində belə bir konsepsiya irəli sürülür ki, qiymətlərin tənzimlənməsinə dövlət müdaxilə etməsin, tələb-təklifə əsaslanaraq iqtisadi subyektlər qiymətlərini müəyyən etsinlər, azad rəqabət şəraitində onların hansı qalib gələrsə, o da fəaliyyət hüququna malik olsun.

Məsələyə ciddi yanaşılarsa, bu konsepsiyanın səhv olduğunu söyləmək olar. Belə ki, cəmiyyətin marağı və bazar subyektlərinin



downloaded from KitabYurdu.az

maraqları çox vaxt üst-üstə düşmür. Nəticədə bazar subyektləri öz maraqlarını, ictimai maraqdan üstün tuturlar ki, bu konsepsiyada sivil qaydada inkişaf edən iqtisadiyyat üçün məqbul sayıla bilməz.

Məsələyə diqqətlə nüfuz etdikdə bazarın üç bölmədən ibarət olduğu görünür. Birincisi – bazar münasibətlərinin fəaliyyət göstərdiyi bölmə. Burada alıcı və satıcılar bir-birini qane edən, tarazlaşdırılmış qiymətlərlə sövdələşirlər. Bu zaman prosesə dövlətin müdaxiləsinin yeri yoxdur. Dövlət seyriçikimi, iqtisadi agentlərin qanunla bərqərar olan «oyun qaydalarının» pozulmasına nəzarət edir.

İkincisi – böyük əhəmiyyətə malik olan bazardan kənar münasibətlər bölməsidir. Bu bölmə cəmiyyətin inkişafının təməl daşı hesab edilir. Buraya fundamental elmi tədqiqatlar, məhsil mədəniyyət, səhiyyə, sosial təminat, ekologiya, hərbi fəaliyyət, asayişiqoruyan orqanlar daxildir. Bu orqanlar məhsul istehsal etmirlər, öz xidmətlərini istehlakçılara məcazi təqdim edirlər. Lakin onlar büdcədən maliyyələşirlər və özləri üçün zəruri olan məhsulların alınmasında qiymətdən istifadə edirlər. Buna görə də dövlət həmin müəssisələrin aldıqları məhsulların qiymətinə təsir göstərməlidir.

Üçüncüsü – strateji – innovasiya bölməsidir ki, dövlət iri miqyaslı innovasiya layihələrini dəstəkləməlidir. Çünki, bu layihələrin yerinə yetirilməsi perspektiv üçün ümumən cəmiyyətin rifahının yüksəldilməsinə xidmət edirlər. Belə layihələr iri xərclər tələb edir və həmin xərclərin ödənilməsini istehsalçıların üzərinə qoyulması qeyri mümkündür. Çünki, istehsalçı ona mənfəət



downloaded from KitabYurdu.az

gətirməyən məhsulu sadəcə olaraq istehsal etmir. Eyni zamanda istehlakçıda baha qiymət məhsul almaqdan imtina edir. Buna görə də dövlət innovasiya xərclərini öz üzərinə götürür ki, son nəticədə bu innovasiya layihələr xalqa xidmət edəcəkdir. Bazarda bütün iqtisadi subyektlərin bərabər hüquqlu olması mücərrəd anlayışdır. Çünki, onlara elə gəlir ki, bazarda sərbəstdirlər və özlərinə sərfəli qiyməti idarə edə bilərlər. Əslində təkmil rəqabət heç bir ölkədə tam mövcud deyildir və bütün bazarlarda bu və ya digər formada inhisar, gizli iqtisadiyyat vardır. Əgər bazar qiymətləri sərbəst buraxılarsa, inhisar daha da azğınlaşa və güclənə bilər. Buna görə də dövlət antiinhisar qanunları vasitəsilə qiymət səviyyəsinə təsir göstərmək zorunda qalır.

Başqa bir tərəfdən dövlət özü də mülkiyyət sahibidir və onun da unitar müəssisələri vardır, məhsul istehsal edir. Dövlət təbii resursları qorumalı, infrastruktur sahələriniinkişaf etdirməli, ölkənin təhlükəsizliyini təmin etməlidir və s. bütün bunlara rəğmən belə nəticəyə gəlmək olar ki, dövlət qiymətləri tənzimləməlidir, lakin onun müdaxiləsi məhdud sərhədlərdə olmalı, qanunla reqlamentləşdirilməlidir.

Azərbaycan Respublikası müstəqil inkişafla bazar münasibətlərinə keçid ərəfəsini yaşayır. Buna görə dəqiymət münasibətlərinə diqqətlə yanaşılması tələb olunur.

Azad bazar iqtisadiyyatına keçid ilk əvvəl qiymət sisteminin tarazlaşmasını tələb edir. Azad bazara keçidin təhlükəsizliyi üçün qiymətin mərhələlərlə liberallaşması məqsədə müvafiqdir.



downloaded from KitabYurdu.az

Belə ki, ilk əvvəl birinci mərhələdə o məhsullar üzrə qiymət üzərindən nəzarət götürülr ki, həmin məhsullara tələbat ikinci dərəcəlidir. Əhalinin sosial müdafiəsini təmin etmək üçün onun yaşayış minimumuna daxil olan məhsullara dövlət qiyməti saxlanılır. Bununla belə yerli şərait nəzərə alınaraq bəzi məhsulların qiyməti yüksələ bilər.

Sonrakı mərhələdə qiymət üzərində konkret olaraq bazardakı, vəziyyət nəzərə alınaraq məhsullar qrupları üzrə götürülür. Bütün bunlar qəti maliyyə-kredit siyasəti ilə müşayiət olunmalıdır. Yəni yüksək sürətlə dövlətsizləşdirmə, iqtisadi inhisarın dağıdılması, rəqabətinin inkişafı, sahibkarlıq və bazar infrastrukturunun inkişafı aparılmalıdır. Əvvəllər üzərində nəzarət götürülmüş məhsulların qiymətlərinin səviyyəsi sürətlə yüksələrsə bu zaman onların qiymət səviyyəsinin son həddə qədər yüksəldilməsi halı ola bilər.

Bazar iqtisadiyyatına keçid şəraitində müqavilə üzrə topdansatış qiymətlərindən də məhsul alqı-satqısında geniş istifadə edilir. Həmin müqavilələr bağlanarkən onlar preskuranta yaxınlaşdırılmış topdansatış qiymətlərinə əsaslanaraq müəyyənləşdirilir.

Qiymət səviyyəsinin yüksəldilməsi məhdudlaşdırılmaq məqsədilə rentabellik səviyyəsinin hüdudu müəyyən edilir. Həmin rentabellik səviyyəsini asan mənfəətin həcmi tutaraq, büdcəyə daxid edilir.



downloaded from KitabYurdu.az

Müxtəlif xammal konstruktiv material, istehsal texniki məhsullar üçün qeydə alınmış qiymətlər tətbiq edilir.

Hazırki dövrün qiymət siyasətin bu yuxarıda göstərilənlərin müəyyən qismini əhatə edir.

Belə ki, əvvəl müvafiq qanunlar – Antiinhisar qanunu, sahibkarlığın inkişafı və özəlləşdirmə haqqında qanunlar qəbul edilmədən qiymətlər liberallaşdırılmalıdır. Qiymətlərin liberallaşdırılması ilə əlaqədar olaraq qiymət səviyyəsinin yüksəlməsi, müəyyən məhsul növləri üzrə qiymətə nəzarət edilməsilüzumunu tələb edir. Məsələn, elə məhsul var ki, onun qiyməti yüksəldikcə tələbat artır (çörək və çörək məhsulları). Buna Qiffen effekti deyilir.

### *3. DÖVLƏTİN ANTİİNFLYASİYA SİYASƏTİ.*

Bazar iqtisadiyyatı ölkələri iqtisadiyyatın tənzimlənməsi siyasətində dövlətin antiinflyasiya siyasətinin düzgün və səmərəli qurulması və həyata keçirilməsi ən güclü vasitələrdən biridir. Keçid iqtisadiyyatı şəraitində inflyasiya bu prosesin mahiyyətindən irəli gəlir.

Belə ki, ölkədə ümumi pul kütləsi onun dövriyyəsi üçün zəruri olandan artıq olur, tələb və təklif uzlaşmır, nəticədə pulun



downloaded from KitabYurdu.az

alıcılıq qabiliyyəti aşağı düşür, qiymətlər isə yüksəlir, inflyasiya başlayır.

İnflyasiya qiymət indeksi vasitəsilə ölçülür. Məsələn: Respublikada cəmi mallar və xidmətlər üzrə qiymət indeksi 2002-ci ildə 102,8 faiz, 2003-cüilədə isə 102,2 faiz olmuşdur. Bu göstəricilərə əsasən respublikada inflyasiyanın artım sürəti belə hesablanıla bilər:

$$J = \frac{102{,}2 - 102{,}8}{102.2} \cdot 100 = -0{,}58$$

Aşağıdakı cədvələ diqqət yetirsək Respublikada inflyasiyanın hərəkətini müşayiət etmək olar.

[10]Cədvəl 43.

İstehlak qiymətləri indeksi (Əvvəlki ilə nisbətən %-lə)

| | 1999 | 2000 | 2001 | 2002 | 2003 |
|---|---|---|---|---|---|
| Cəmi mallar və xidmətlər | 91,5 | 101.8 | 101,5 | 102,8 | 102,2 |
| Ərzaq məhsulları | 89,0 | 102,3 | 102,7 | 103,7 | 103,3 |
| Qeyri-ərzaq məhsulları | 99,4 | 100,9 | 99,6 | 101,3 | 100,5 |
| Cəmi mallar və xidmətlər üzrə | - | 10,1 | -0,29 | 1,26 | -0,58 |

[10] Az.st.rəq.2004. səh 403



downloaded from KitabYurdu.az

| | | | | | |
|---|---|---|---|---|---|
| inflyasiya | | | | | |
| Ərzaq məhsulları qiymətləri inflyasiyası | - | 1,5 | 0,39 | 0,96 | -0,38 |
| Qeyri-ərzaq məhsulları qiymətləri inflyasiyası | - | 4,37 | -1,69 | 2,0 | -2,2 |

Göründüyü kimi Azərbaycan Respublikasının iqtisadiyyatında 2003-cü ildə cəmi mal və xidmətlərin inflyasiyası –0,58%, ərzaq məhsullarının qiymətləri inflyasiyası –0,38%, qeyri-ərzaq məhsulları qiymətlərinin inflyasiyası –2,2% təşkil etmişdir. Deməli, 2003-cü ildə inflyasiya səviyyəsi aşağı olmuşdur.

Bundan əlavə inflyasiya Paaşe indeksi vasitəsi ilə ölçülə bilər:

$$J = \frac{\sum \mathrm{P}_i^{t+1} q_i^t}{\sum \mathrm{P}^t q^{t+1}}$$

İnflyasiyanı doğuran səbəblər müxtəlifdir və onlardan bir neçəsinə diqqət verilməlidir.



downloaded from KitabYurdu.az

1. Tələbin artmasından doğan inflyasiya. İnflyasiyanı doğuran səbəblər müxtəlifdir və onlardan bir neçəsinə diqqət verilməlidir.

İstehsal real həcmə malikdir. Ölkə öz potensialından artıq istehsal edə bilməz. Lakin o, öz istehsalından artıq tələbə malik ola bilər. Deməli, tələb artdıqca təklif onu ödəyə bilmədiyi üçün qıtlıq yaranır. Bu da qiyməti yüksəldir, pulun dəyəri aşağı düşür, nəticədə inflyasiya yaranır.

Tələb və məhsulun real həcmi arasındakı asılılıq belə müəyyən edilə bilər:

Şəkil 23.




1) Keyns kəsiyi. Həcmi aşağı düşür, qiymət sabitdir, işsizlik var.

2) Aralıq kəsik. Canlanma, istehsal artır, işsizlik azalır, qiymət artır.



downloaded from KitabYurdu.az

3) Klassik kəsik. İstehsal maksimumdur, istehsal artır, qiymət sabitləşir.

2. İstehsal xərclərinin artması nəticəsində yaranan inflyasiya.
3. Əmək haqqının yüksəlməsi nəticəsində yaranan inflyasiya.
4. Təklif mexanizminin pozulması nəticəsində yaranan inflyasiya.

İnflyasiyanın müxtəlif tipləri vardır. Bunlardan biri sürünən inflyasiyadır ki, qiymətlərin illik artım sürəti 10% təşkil edir. Digər bir tipi çaparaq inflyasiyadır. Bu zaman qiymətlərin orta illik artımı 30%-500%-ədək təşkil edir.

İnflyasiyanın ən yüksək səviyyəsi hiperinflyasiyadır ki, bu da inflyasiyanın çox sürətlə artmasıdır. Bu istehsala dağıdıcı təsir göstərir. Hətta cəmiyyətdə dövlət çevrilişi də baş verə bilər.

İnflyasiya açıq və qapalı ola bilər.

Açıq inflyasiyanın ümumi təmayülü qiymətin yüksəlməsidir, bununla belə bəzi məhsulların qiyməti aşağı da düşə bilər. Deməli, açıq inflyasiya istehsalı deformasiyaya uğrasa da ona dağıdıcı təsir göstərmir.

İnflyasiyanın qapalı vəziyyətində, dövlət onu doğuran (korrupsiya - gizli əl) səbəbləri yox, onun nəticələrini aradan çıxarmağa çalışır. Daha doğrusu, artıq mövcud olan inflyasiya mexanizmini ləğv etməyə çalışır.

Hər iki inflyasiyaya qarşı yönəldilən tədbirlər sistemi dövlətin antiinflyasiya siyasətində əks olunur:

1. Qiymət və gəlirlərin müvəqqəti dondurulması;



downloaded from KitabYurdu.az

2. Qiymət və gəlirlərin artımının yuxarı həddinin müəyyən edilməsi;
3. Əmək məhsuldarlığı artımının, əmək haqqı artımının yüksək olması.
4. Qiymət və gəlir üzərində inzibati totalitar nəzarətin olması.

Bu tədbirlər sisteminin həyata keçirilməsi nəticəsində açıq inflyasiya qapalı inflyasiyaya keçir.

Dünya təcrübəsində inflyasiya üzrə iki proqram fəaliyyət göstərir:

1. Sabit və ardıcıl – ortodoksal.

Bu proqram bazar iqtisadiyyatına geniş yer verməklə, dövlətin müdaxiləsinin məhdudlaşdırılmasını nəzərdə tutur. Bunun üçün BVF nəzərdə tutur:

- daxili və xarici bazarda müəssisələrin fəaliyyət şəraitinin liberallaşdırılması
- sərbəst qiymətlər
- əmək haqqı artımının məhdudlaşdırılması
- milli valyuta məzənnəsinin dəyişkənliyi

II Keynsin nəzəriyyəsinin tərəfdarları «struktur siyasəti» və «təklif iqtisadiyyatı» nəzərdə tuturlar. Bunun üçün:

- dövlətin müdaxiləsinin genişlənməsi
- əmək haqqı və qiymətlərin müvəqqəti dondurulması
- sahibkarlığın vergilərlə stimullaşdırılması
- əhali əmanətlərindən istifadə



downloaded from KitabYurdu.az

- həyati istehsal sahələrinin dəstəklənməsi

Bütün dünya təcrübəsi göstərmişdir ki, inflyasiyanı doğuran səbəbləri prinsipcə aradan götürmək mümkündür, lakin bu zaman bazar iqtisadiyyatı haqqında söhbət ola bilməz. Deməli, inflyasiya bazar iqtisadiyyatının atributlarındandır. Lakin ona dövlət nəzarəti olmalı, o öz həddini ötməməlidir.

Dövlətin antiinflyasiya siyasəti iki istiqamətdə aparılır:

Strateji istiqamətlər:

1. Pul məhdudiyyətliliyi.
2. Budcə kəsirinin ləğv edilməsi.
3. Vergi sistemində islahatlar və onun səmərələşdirilməsi.
4. Hərbi sənayenin konversiyası
5. Tədiyyə balansının effektliyinin artırılması.

Taktiki istiqamətlər

1. Ehtiyatdan istifadə edərək təklifin qısa müddətdə artırılması
2. İqtisadiyyatın əmtəəliyinin artırılması
3. Özəlləşdirmə
4. Əmanətlərin artırılması tədbirləri.
5. Müsadirə tipli pul islahatının aparılması.

Qısa müddətli antiinflyasiya siyasəti inflyasiyanı doğuran səbəbləri ləğv etmir, onun əsas fəaliyyət mexanizmini dağıdır.

Ümumiyyətlə, bazar iqtisadiyyatı şəraitində inflyasiya normal səviyyədə mütləq mövcuddur.



downloaded from KitabYurdu.az

## *4. İNKİŞAF ETMİŞ ÖLKƏLƏRDƏ QİYMƏTLƏRİN TƏNZİMLƏNMƏSİ TƏCRÜBƏSİ.*

İnhisarçı dövlət kapitalizmində, mühüm məsələlərdən biri dövlətin iqtisadiyyata müdaxilə etməsidir. Müasir bazar iqtisadiyyatı istehsalın istehlakçıya uyğunlaşdırılması sistemidir. Eyni zamanda bu sistem rəqabət və sosial müdafiəyə prinsiplərinə riayət olunmasına dövlət nəzarətidir.

Dövlət tənzim olunması, xüsusi bölmənin aparıcı olduğu halda müxtəlif formalar alır:

Makrosəviyyədə – fiskal və maliyyə siyasətindən istifadə olunur.

Makrosəviyyədə – inhisar əleyhinə qanunlardır ki, sahələr üzrə qiymətlərin birbaşa tənzim olunması əks etdirir.

Bazar qanunlarının fəaliyyətinə baxmayaraq dövlət heç vaxt qiymətlərin tənzim olunmasından imtina edə bilməz.

Qərb iqtisadçıları belə hesab edirlər ki, bizim ölkənin indiki, vəziyyəti onların ikinci vəziyyəti onların ikinci dünya müharibəsindən sonrakı vəziyyətinə uyğundur.

Buna görə də inzibati sistemdən bazar iqtisadiyyatına keçid qəflətən ola bilməz. Müəyyən keçid dövrünün olması vacibdir. Qərb ölkələri qiymətlərin sərbəstləşməsi məsələsinə təxminən 1945-ci ildən başlamışlar. Böyük Britaniyada bu proses 40 il davam etmişdir. Fransada qiymətlərin tam liberallaşması 1986-cı ildə başa çatmışdır.



downloaded from KitabYurdu.az

Digər kapitalist ölkələrdə indinin özündə də xüsusi əhəmiyyətli məhsulların qiymətlərinə dövlət tərəifndən nəzarət edilir və tənzimlənir.

Avstraliyada qiymətin dövlət tənzimlənməsi mövcud deyildir. Lakin qiymətlər üzərində nəzarət vardır. Bu nəzarət çörək, süd, yumurta və s. bu kimi məhsulların qiymətləri üzərindədir. Mövcud ştat xəzinədarlığı mütəmadi olaraqbu məhsulların qiymətlərinin dəyihilmə hüdudunu təhlil edir.

Ölkədə 1983-cü ildə qiymət üzərində müşahidə haqqında qanun verilmişdir. Həmin qanuna əsasən istənilən məhsulun qiyməti üzərinə elbarqo qoyula bilər ki, Federal Xəzinədarlıq idarəsinin icazəsi olmadan onların qiyməti dəyişdirilə bilməz. Nəzərdə tutulmuş müddətdə qiymətlər kim tərəfindən icazəsiz dəyişdirilsə də 10 min avstraliya dollarında cərimə olunur. Eyni məhsulların müxtəlif regionlar üzrə qiymətlərin dəyişilməsi hüdudu 20% təşkil edir.

Avstriyada qiymətin dövlət tənzimlənməsi sisteminə paritetlik daxildir. Dövlətlə, sahibkarlıq arasında və sosial iqtisadi məsələlərin pariteti mövcuddur.

Ölkədə qiymətin sərbəstləşməsi 1997-ci  1977-ci il ərzində 30 ilə aparılmışdır. Hazırda qiymətlər 1976-cı ilin qanunçuluğu əsasında tənzimlənir. Bu qanuna görə iqtisadiyyat nazirinin hüququ vardır ki, qiymətlər üzərində mak. Və min. Hədi qoysun. Bundan əlavə onun hüququ vardır ki, istənilən məhsula 6 ay ərzində tənzimedici qiymətlər tətbiq etsin.



downloaded from KitabYurdu.az

Kənd təsərrüfatı məhsullarına qiymət tərtib edilərkən o, kənd təsərrüfatı nazirliyi ilə razılaşdırılır. Qoyulan qiymət rəsmi qaydada nəşr olunur.

Ölkədə bu məsələlərlə Paritet Komissiyası məşğul olur. 1964-cü ildən başlayaraq bu komissiya aşağıdakı funksiyaları yerinə yetirir:

1. Yeni məhsulların, yenilik əlamətləri yoxlanılır və ona yeni qiymətin qoyulması imkanı müəyyən edilir.

2. Ölkə daxilindəki məhsulla, idxal məhsullarının qiymətləri arasındakı fərqlənmə yoxlanılır və bu fərqin normal olmasına çalışılır.

3. Daxili ticarətdə məhsulların qiymət fərqinə nəzarət edilir ki, ticarət ədalətli olsun.

4. Tariflər, mehmanxana təsərrüfatı xidmətləri, ağ çörək, çörək məhsullarının, toxuculuq məhsullarının və s. məhsulların qiymətləri onlara aid qanunlara uyğun olması üzərində nəzarət edilir.

Venesuelada məhsula qiymət tələb təklif əsasında müəyyən olunur. Lakin bununla belə qiymətlərin sərbəst formalaşması dövlətin müstəqim və qeyri-müstəqim tənzimləmə metodları ilk tamamlanır. Digər tərəfdən, ölkədə dövlət bölməsi daha yüksək xüsusi çəkiyə malikdir və onlar öz inhisarlarını qiymət üzərində saxlayırlar.

Ölkədə istehlak zənbilinin təmin olunması üçün 17 adda məhsul üzərində dövlət nəzarəti saxlanılır. Həmin məhsulların



downloaded from KitabYurdu.az

qiyməti ticarətçilər tərəfindən yüksəldilə bilməz. Bununla yanaşı dövlət minimum əmək haqqı vasitəsilə də qiymətləri təsir göstərir.

Mərkəzi bank və qiymətə nəzarət İdarəsi inflyasiya artımı haqqında məlumat toplayaraq, iki ildən bir minimum əmək haqqına indeksləşdirir.

Ölkədə istehlak məhsullarının 20%-ə qədəri dövlət tərəfindən tənzim olunur. Qiymətin tənzimlənməsinin hüquqi əsasını ölkə prezidentinin fərmanı təşkil edir. Bu bazar tənzimlənməsi kodeksi adlanır. Həmin kodeksə görə tənzimlənən məhsullar 2 qrupa ayrılır.

Birinci qrup kənd təsərrüfatı məhsulları və müxtəlif istehlak məhsulları daxildir.

İkinci qrupa isə – qalan məhsullar aid edilir.

Danimarkada qiymət sistemi bazar iqtisadiyyatı və sərbəst rəqabət münasibətləri əsasında fəaliyyət göstərir. Dövlətin qiyməti tənzimləmə funksiyası məhduddur. Qiymətlər istehsalçılar tərəfindən xərclərə uyğun qoyulur. Lakin dövlət bütün vasitələrlə rəqabətin genişləndirilməsini həyata keçirir ki, istehsalçıların qiyməti bunun nəticəsində stabilləşsin və ya aşağı düşsün. Bundan başqa dövlət vergi sistemindən geniş istifadə edir.

Dövlət bölməsində qiymət və tariflər qanunlar əsasında müəyyən edilir. Dövlət tərəfindən müəyyənləşdirilən və təsdiq edilən qiymətlər ümumi qiymət sisteminin 6%-ni təşkil edir.

Almaniyada dövlət qiymətin tənzimolunmasını və nəzarəti həyata keçirir. Bu əsasən ilk tələbat və inhisarlaşdırılmış məhsullar



downloaded from KitabYurdu.az

üzrədir. Belə məhsulların siyahısı dövrü olaraq bülletenlərdə dərc olunur.

Dövlət tərəfindən tənzimlənən qiymətlərin xüsusi çəkisi 10 % təşkil edir.

Qiyməti tənzimləyən dövlət orqanı Kral dekreti ilə müəyyən olunmuş İqtisadiyyat Nazirliyinin Ali Şurasıdır.

Qiymətin tənzimlənməsinin dövlət mexanizmi aşağıdakı formalardadır:

İcazə verilən qiymətlər. Dövlət və xüsuçi kompaniyalar nəzərdə tutulan məhsulun qiymətinin yüksəldilməsi haqqında Ali Şuraya təqdimat verirlər. Dövlət komissiyasının icazə olındıqdan sonra məhsulun qiyməti yüksəldilə bilər.

Xəbərdar edici qiymətlər – Müəyyən məhsullara qiymət Ali Şuraya 1 ay əvvəl xəbərdarlıq ediləndən sonra yüksəldilir.

Yerli qiymətlər. Yerli orqanlar tərəfindən yüksəldilə bilər. Bu zaman yerli komissiyalar aşağıdakı elementləri nəzərə alırlar:

1. Qiyməti yüksəldiləsi məhsulun və xidmətin tam şərh olunması.
2. Məhsulun istehsal xərclərinin strukturu haqqında tam məlumat.
3. Məhsulun reallaşdırma qaydası.
4. Qiymət yüksəldildikdən sonra onların vəziyyəti.
5. İstehsal xərclərinin əsaslandırılması və bunun əsasında qiymətin yüksəlməsi.



downloaded from KitabYurdu.az

İtaliyada qiymət üzrə nəzarət sistemi 1944-cü ildən həyata keçirilir. İdarələrarası qiymət komitəsi Sənaye Nazirliyinə tabedir. Bu komitə istehsalın inkişafına şərait yaradan məhsulların qiymətlərini müəyyənləşdirir. Bununla yanaşı, ilk tələbat məhsulların qiymətlərini müəyyən edir.

Bu sistem zəruriliyi müharibədən sonrakı dövrdə ölkə iqtisadiyyatının ağır vaxtı ilə əlaqədar idi və həmin dövrdə çoxlu sayda məhsulların qıtlığı mövcud idi. Qiymətlərin belə tənzim olunması 1960-cı illərə qədər davam etmişdir. Artıq 60-cı illərdən sonra İtaliya iqtisadiyyatı yüksək inkişafa malik olmuşdur və bununla əlaqədar olaraq qiymətlərin liberallaşması başlamışdır.

Qiymət üzrə nəzarət praktiki olaraq inflyasiyanı saxlamaq məqsədi güdür.

Kanada da qiymətin tənzim olunmasının vahid sistemi yoxdur. Qiymətlər əsasən tələb və təklifdən asılı olaraq müəyyən olunur.

Kanadada qiymət siyasəti əsasən qiyməti dəstəkləmək siyasətidir. Bu əsasən kənd təsərrüfatı məhsulları üzrədir. Əsas məqsəd fermer təsərrüfatının gəlirliliyinin müəyyən etməkdir.

Kanadada ağır vəziyyətdə olan sahələr dövlət tərəfindən subsidiyalaşdırılır.

Ölkədə 1986-cı iləd Rəqabət aktı qəbul edilmişdir. Həmin akta əsasən ölkədə iki tipdə «dağıdıcı talanedici» qiymətdən istifadə edilir.



downloaded from KitabYurdu.az

Birincisi «qiymət coğrafi mövqedə əmələ gəlmə» formasıdır ki, ticarətçilərə bir regiona məhsulu digər rayondan nisbətən aşağı qiymətə satmağa icazə verilmir. Bu rəqabəti tam dəf etmək məqsədi güdür.

İkincisi isə «əsaslandırılmamış aşağı qiymətin» müəyyənləşdirilməsi bu da rəqabətin əhəmiyyətli dərəcədə aşağı salmağa xidmət edir.

Norveç dövlətin Qiymət və ticarət rəqabəti 1953-cü ildə təsdiq edilmiş qanunçuluq əsasında tənzimlənir.

Kral qərarına əsasən 1957-ci ildə istehsalçılarla satıcılar arasında fərdi qiymət razılığına icazə verilmir. Çünki, onların fərdi razılaşması qiyməti yüksəltmək vasitəsilə öz gəlirlərini çoxaltmaq məqsədi güdə bilər.

Qiymət və digər normativ aktların tənzimlənməsinin pozulması haqqında dövlət ciddi sanksiya tətbiq edir. Hətta cərimədən əlavə məsuliyyətə də cəlb oluna bilər. Qiymətin tənzim olunması əmək və inzibati nazirlik, qiymət üzrə Dövlət Təftiş Komitəsi və s. həyata keçirirlər.

Norveçdə daxili qiymətqoyma dünya bazar qiymətinə əsaslanır.

ABŞ dövlətinə qiymətin əsas hissəsi kompaniyalar tərəfindən rəqabət bazar mexanizmi əsasında qoyulur. Bununla yanaşı təbii inhisar sahələrində dövlət qiymətləri də saxlanılır. Dövlət qiymətlərin 5-10% ni tənzim edir. ABŞ ştatlarının bəzilərində elektroenerji, şəhərlərarası avtomobil və dəmir yol tarifləri ştat



downloaded from KitabYurdu.az

idarəsi tərəfindən qoyulması tərəfindən qoyulmasına icazə verilmişdir.

Kompaniyalar qiymət qoymanın müxtəlif formalarından istifadə edirlər. Onlardan bir hissəsi məhsulun bir hissəsini alıcıların ala biləcəyi səviyyədə qoymağa çalışırlar.

Digərləri isə qiyməti uzun müddətə gəlir verə biləcək, həddə qoymağa çalışırlar.

ABŞ-da faiz stavkası dövlət nəzarətindədir. Bu istehsal xərclərinin yüksəlməsinə imkan vermir.

ABŞ-da fermer məhsullarının qiymətinin tənzimlənməsi 1993-cü ildən həyata keçirilir və girov qiymətindən istifadə olunur. Girov qiyməti minimum zəmanətli qiymət funksiyasını yerinə yetirir. Onun məqsədi fermer təsərrüfatının qiymətinin bazar qiymətindən aşağı düşməsinə imkan verməməkdir ki, fermerlər ziyana düşməsinlər.

ABŞ-da 160 kənd təsərrüfatı məhsulu üçün paritet qiymətlər qoyulmuşdur.

Tanzaniyada qiymətlər iki qrupa ayrılır.

Birincisi müxtəlif idarələr tərəfindən tənzimlənən qiymətlərdir. Bura tarif və xidmətlər, icarə haqqı və s. aiddir.

İkinci qrupa isə bazar tələbatı ilə müəyyən olunan qiymətlər daxildir.

Bura əsasən istehlak məhsulları aiddir.

Ölkədə 1973-cü ildən Milli Qiymət Komissiyası yaradılmışdır. Həmi MQK-ı 400 adda məhsulun maksimum səviyyəsina baxmaq hüququna malikdir. Bu MQK qoyduğu qiymət heç bir hüququ



downloaded from KitabYurdu.az

orqan (möhkəm) tərəfindən dəyişdirilə bilməz. Həmin orqan yarımavtonom xarakterə malikdir, yəni bir tərəfdən dövlətə tabedir.

Ölkədə qiymətin tənzim olunması fabrik, topdansatış və pərakəndə satış qiymətlərini əhatə edir. Bu yerli və idxal xaricat məhsullarını aid olub ildə iki dəfə baxılır.

Fabrik qimətləri 30% netto-gəlir verən səviyyədə qeydə alınırlar. Ölkədə 12-22 adda məhsulun qiyməti dövlət tərəfindən tənzim olunur.

Başqa ölkələrdə olduğu kimi Fransa iqtisadiyyatı da xüsusi sərbəst sahibkarlığın əsasında inkişaf edir. Hazırda ölkədə iqtisayyatı bazar iqtisadiyyatı şəraitində inkişaf edir ki, bu da qiymətləri tamamilə tələb və təklif əsasında formalaşmasına imkan verir. Lakin qiymətlərin əsasında dəyər qanunu, tələb – təklif qanunu və pul tədavülü qanundur .

Fransa iqtisadiyyatında dövlət bölməsi bir o qədər xüsusi çəkiyə malik deyildir. Dövlətin əlində əsasən inhisarçı sahələr cəmlənmişdir(qaz, enerji, nəqliyyat) Bundan əlavə dövlət bazar rəqabəti şəraitində fəaliyyət göstərən sahələrə də (milli, kommersiya bankları – sığorta kompaniyaları ) nəzarət edir. Birinci halda dövlət bütün iqtisadi parametrləri inhisarçı sahələr üzrə qoyur. (investisiyaların həcmi, əmək haqqı, hazır məhsula qiymət).

İkinci halda dövlət iqtisadi parametrlərə minimum təsir göstərərək dövlət sahələrini xüsusi bölmə ilə rəqabətə hazırlayır.

Bu xüsusiyyəti nəzərə alınaraq ölkədə qiymətlərin 20%-i dövlət tərəfindən tənzim olunur.



downloaded from KitabYurdu.az

Fransada 40 il ərzində (1947 - 1986) qiymətlərin dövlət tənzimlənməsi sistemini əsaslandıran «disirijizm» onun siyasətinin əsasını təşkil etmişdir.

Fransa nazirlər Soveti 1986-cı ildən ölkədə qiymətlərin tam rəqabət əsasında formalaşmasını sərbəstləşdirirdi. Həmin dövrdən ölkədə 16 nəfərdən ibarət Rəqabət Şurası yaradılmışdır. Həmin Şura müəyyən səlahiyyətlərə malikdir. Məsələn, qiyməti pozan müəssisə və təşkilat şəxslər haqqında inzibati və hüquqi qaydada tədbir görə bilər. Hətta şəxslər 6 aydan 4 ilə qədər məsuliyyətə cəlb oluna bilərlər.

İsveçrədə, qiymətin tənzim olunması təcrübəsi maraqlıdır. Belə ki, ölkədə bir sıra normativ sənədlər qəbul edilmişdir ki, onların köməkliyi ilə dövlət qiymətqoyma prosesinə təsir göstərir.

Federal dövlət 1961-ci ildən qərar qəbul etmişdir ki, həmin qərara əsasən ölkədə kənd təsərrüfatı məhsullarına qiymətlərin 50%-i qədəri qeydə alınır.

Ölkədə bazar şəraitini təmin etmək üçün dövlət 30 %-ə qədər subsidiyalar verir ki, onun da 30 %-i nəqliyyatın, 27% kənd təsərrüfatının, 16% təhsilə, 13% səhiyyəyə yönəldilir.

İsveçrədə qiymət üzərində dövlət tənzimetmə nəzarətindən başqa ictimai orqanlarında fəaliyyətindən istifadə olunur. Bunun üçün istehlakçının mənafeyini qorumaq üçün Müdafiə Fondu yaradılmışdır.

Qiymətlərin tənzim olunan səviyyəsini pozan hər bir kəs, sahibkar və digərləri 100 min İsveçrə frankında cərimə olunurlar.



downloaded from KitabYurdu.az

Federal idarə hər həftə ölkə üzrə 80 adda məhsulun qiymətləri haqqında bülleten nəşr edir. Bu regionlar üzrə differensiallaşdırılır.

İsveçdə müharibə və müharibədən sonrakı (1941 – 1945) dövrlərdə qiymət üzərində nəzarət çox geniş idi. Həmin dövrlərdə daimi Qiymət Nəzarəti İdarəsi fəaliyyət göstərmişdir. 1956-cı ildə «Qiymətə daimi nəzarət» sistemi ləğv edildi.

Ölkədə qiymət səviyyəsinin yüksəlməsinin qarşısının alınması üçün qiymətlərin dondurulması sistemindən də istifadə olunur.

Qiymətlərin dondurulması iki halda mütləq həyata keçirilir.

1) müharibə vəziyyətində.

2) Qiymətlərin ümumi səviyyəsinin yüksəlməsi təhlükəsi yarandığı halda.

Dövlət selektiv (ayrı-ayrı məhsullara) qiymət sistemindən istifadə etmək hüququna da malikdir.

Qiymət məsələləri ilə ölkədə icraedici orqan Dövlət Qiymət İdarəsi sayılır.

Yaponiyada qiymətqoyma sahəsi, dövlətin ən minimum müdaxilə sahəsidir. Dövlət orqanları qiymət üzərində nəzarət etmirlər. Çünki, bunun əksi ölkədə mövcud olan Liberal – Demokratik partiyanın nizamnaməsinin əleyhinə olardı.

Ölkədə antiinhisar qanunu (1977) fəaliyyətdədir. Həmin antiinhisar qanunlarından «Ərzaq məhsulları bazarı tənzimlənməsi qanunu» heyvandarlıq məhsullarına qiymətin stabilləşməsi qanunu ölkədə hüququ sənədlər sayılırlar.



downloaded from KitabYurdu.az

Yaponiyada bu işlərlə «Ədalətli bağlaşma Komissiyası» məşğul olur. Həmin komissiya qanunu pozan subyektlər üzrə məsuliyyət kimi qaldırmaq hüququna malikdir. Lakin bu heç də o demək deyildir ki, dövlət qiymət tənzimlənməsindən tamamilə imtina etmişdir. Ölkədə istehlak məhsullarının 20%-i dövlət tərəfindən tənzim olunur.



downloaded from KitabYurdu.az

# *BÖLMƏ III. DÖVLƏTİN MALİYYƏ-KREDİT VƏ PUL SİYASƏTİ.*

## *FƏSİL XIV. DÖVLƏTİN MALİYYƏ SİYASƏTİ VƏ BÜDCƏNİN TƏNZİMLƏNMƏSİ.*

### *1.DÖVLƏTİN MALİYYƏ VƏ BÜDCƏ SİYASƏTİ.*

Maliyyə-pul vəsaitlərinin yaranması və istifadəsi prosesində mövcud olan iqtisadi münavsibətləri əks etdirən kateqoriyadır. Ölkədə mövcud olan maliyyə münasibətlərinin məcmunu dövlətin maliyyə sistemi adlanır. Yəni maliyyə-pul-kredit məvhumları «Maliyyə-kredit» kimi ifadə olunur. Bazar iqtisadiyyatı şəraitində inkişaf edən ölkələr də ümumi mili məhsulun çox hissəsi dövlət maliyyəsi tərəfindən bölüşdürülür və təxminən dövlətin pul resurslarının 1\3-ni əhatə edir.

Dövlətin büdcə siyasətində ən başlıca məqsədi onun gəlir hissəsinin getdikcə artırılması əsasında büdcə gəlirlərinin normal minimum həddə çatdırılmasıdır. Dövlət büdcəsi iki hissədən – gəlir və xərc hissələrindən ibarət olmaqla bərabər inzibati ərazi bögüsündün asılı olaraq Mərkəzi Büdcə, Vilayət Büdcəsi, Yerli Büdcələrdən ibarətdir. Yerli büdcələr Mərkəzi büdcədən fərqli olaraq ölkələrin bütün pul resurslarını əhatə etmir.

Çünki yerli büdcənin formalaşması həmin ərazidəki sosial-istehsal strukturları hesabına aparılır. Bundan əlavə, yerli büdcələr mərkəzi büdcədən də vəsait alırlar. Beləliklə, dövlət büdcəsi nəinki mərkəzi büdcənin əhatə edir. O, habelə inzibati ərazidə yerləşən büdcələləri də əhatə etmiş olur.



downloaded from KitabYurdu.az

Dövlət büdcəsinə büdcədən kənar fondlara da aid edilir. Büdcədən kənar fondlar dövlətin pul vəsaitinin məqsədli istifadəsidir. Bu vəsait mərkəzi və yerli büdcələrdə xüsusi formalarda toplanır və müəyyən ehtiyaclara sərf olunur. Qeyri büdcə formaları vergilər, istiqrazlar, subsidiyalar və s. maliyyə yaradılır.

Beləliklə, dövlət büdcəsi – dövlətin pul gəlirləri və xərclərinin illik proqramıdır. Büdcə layihəsi hər il dövlət qanunverici orqanlarından müzakirə olunur və təsdiq edilir. Yəni maliyyə ili başa çatdıqda icra aparatının nümayəndələri hesabat verir və dövlət büdcəsini n gəlirlərini səfərbərliyə alınması mənbələrini göstərir. Sonra yeni il büdcə üçün büdcə layihəsi tərtib edilir, icra aparatında müzakirə və təsdiq olunur. Dövlət büdcəsi həmişə ölkədə mövcud olan müxtəlif sosial iqtisadi qruplarla kompromisdə tərtib olunmalıdır. Məsələn, özəl müəssisələr və yaxud fərdi əməklə məşğul olan hər bir şəxs büdcənin onun haqqında çıxardığı qərarı tədbiri bilməlidir.

Dünya bazar iqtisadiyyatlı ölkələrdə dövlət büdcəsinin strukturu təxminən aşağıdakı kimidir:

Cədvəl 44.

| Gəlirlər | Xərclər |
|---|---|
| 1.Vergilər 75-85%<br>2. Dövlətin ticarəti və dövlət mülkiyyətindən daxil olmalar- 5-8% | 1. Sosial xidmətlərə xərclər 40-50%<br>2. Təsərrüfat xərcləri – 10-20% |



downloaded from KitabYurdu.az

| | |
|---|---|
| 3. Sosial sığorta, təqaüd və işsizlik üzrə dövlət fonduna ödənişləri – 10-12% | 3. Hərbi xərcləri, xarici siyasət və s. 10-20%<br>4. İnzibati idarəetmə xərclər 5-10%<br>5. Dövlət borcu üzrə tədiyyələr 7-8% |

Beləliklə, dövlət büdcəsində baş vermiş kəsirlə iqtisadiyyatın inkişafına və əhalinin rifah halının yaxşılaşdırılmasına mənfi təsir göstərir. Digər tərəfdən dövlət müəssisələrində də borcların artmasına səbəb olur.

Dövlət büdcəsinin xərcləri siyasəti, sosial və təsərrüfat tənzimləmə aləti kimi çıxış edir. Birinci yerdə sosial xərclər durur. Çünki, bu xərclərdən asılı olaraq ölkədə siyasi stabillik yaradıla bilər. Bu xərclər ölkədə mövcud olan sosial qrupların fəaliyyətini müəyyən qədər tənzimləməyə imkan verir. Tətillər, nümayişlər edilməsinin qarşısını alır. Təsərrüfat xərcləri ölkə iqtisadiyyatının inkişafını tənzim etməyə imkan verir. Məsələn, kənd təsərrüfatında fermerlərə verilən subsidiyalar hətta belə seçki prosesində həlledici rol oynayır.

Dövlət büdcəsinin balanslaşdırılması probleminin müsbət həlli gəlirlərin xərclərindən müəyyən qədər üstün olmasıdır.

Xərclərin gəliri üstələməsi dövlət büdcəsində kəsiri n əmələ gəlməsinə səbəb olur. Dövlət büdcəsinin kəsiri isə dövlət istiqrazları



downloaded from KitabYurdu.az

və pul emissiyası ilə ləğv edilə bilər. Bu iki yoldan daha münasibəti dövlət istiqrazlarıdır. Lakin nəzərdən qaçırmaq olmaz ki, bu günün dövlət istiqrazları gələcəyin vergiləridir. Bəzi ölkələrdə emissiyaya üz tutublar. Lakin bu özünü doğrultmur. İstər keçmiş SSRİ –də istərsə də Respublikamızda bazar iqtisadiyyatına keçid şəraitində pul emissiyasına yol verilmişdir ki, bu da inflyasiyanın güclənməsinə səbəb olmuşdur.

Dövlət istiqrazları isə müəyyən qədər təsirisz keçmişdir. Çünki, o, məcburi qaydada yerləşdirilərək dövlətin qiymətli kuağızlarını nizama salır, ikinci bir tərəfdən isə, əhali tərəfdən onun vəsaitinin nə vaxtsa geri qayıdacağına ümid yaradır.

Dövlət borcu ölkələrdə müxtəlif sürətlə arta bilər və yaxud normada ola bilər. Dövlət borcunun ümumi daxili məhsuldan 2,5 dəfə artıq olması həmin ölkənin iqtisadiyyatı üçün qorxulu sayılır. Dövlət borcu daxili və xarici borclardan ibarət olur. Qısa muddətli (1 il), orta müddətli (5 ilə qədər) və uzun müddətli (5 ildən yuxarı) dövrləri əhatə edir. Bunların içərisində qısa müddətli borclar daha təhlükəlidir. Dövlət borcunun digər hissəsi isə xarici borclardır.

Xarici borclar, onun ödənilməsi prosesi 20-30%-dən yüksək olarsa bu zaman borc verən dövlət onun əvəzində qızıl tələb edir. Adətən borc olan ölkələr həmin səviyyəyə qədər enmirlər və dövlətin xarici borcunu müəyyən tədbirlər vasitəsilə ödəməyə çalışırlar. Bu yolar aşağıdakılar hesab edilə bilər.

1. Ənənəvi yol. Dövlət xarici borcdunu qızıl ehtiyatı ilə ödəyir.



downloaded from KitabYurdu.az

2. Kredit alına bilən ölkələrin səfərbərliyə alınması.

Bunun üçün həmin ölkələrin kredit verə bilən təşkilatları birləşərək klub, maliyyə qurumu yaradırlar və onlar borclu ölkələrə yardım edirlər. (London klubu, Paris klubu).

3. Xarici borcların konversiya edilməsi. Yəni həmin borcun uzun müddətli investisiyaya çevrilməsi. Borclu olan ölkə kredit əvəzinə mülkiyyətin bir hissəsinin alınmasını təklif edir, özəlləşdirmədə iştirakını təmin edir. Bu isə milli iqtisadiyyatda xarici kapitalı artırır.

4. Borclu vəziyyətə düşmüş ölkələrin Bynəlxalq Valyuta Bankına müraciət etməsi. Beynəlxalq Valyuta Bankı güzəştli əsasda kredit verir. Lakin buna sərt tədbirlərlə möhkəmləndirir.

Bu baxımdan Azərbaycan Respublikasının dövlət büdcəsinin inkişaf dinamikasına nəzər salmaq kifayətdir.

[11]Cədvəl 45.

| | 2000 | 2001 | 2002 | 2003 |
|---|---|---|---|---|
| Gəlirlər (mlrd. man) | 3577 | 3924 | 4551 | 6104 |
| Xərclər (mlrd.man) | 3919 | 4037 | 4658 | 6172 |
| Əvvəlki ilə nisbətən % üzrə | 128 | 109 | 715 | 134 |
| Xərclər üzrə | 117 | 103 | 115 | 132 |
| Gəlirlər ilə xərclər arasında fərq (büdcə | -242 | -113 | -107 | -68 |

[11] Az. St.rəq. 2004 səh 393



downloaded from KitabYurdu.az

| | | | | |
|---|---|---|---|---|
| kəsiri) mlrd. man | | | | |
| Büdcə kəsirinin ümur daxili məhsulda çəkis % | 1,0 | 0,4 | 035 | 019 |

Cədvəlin statistik məlumatlarından göründüyü kimi dövlət büdcəsinin gəlirləri 1,34 dəfə, xərcləri isə 1,32 dəfə artmışdır. Bu dövrdə büdcə kəsirləri ümumi daxili məhsulda 1%-dən 0,19%-ə qədər azalmışdır ki, bu da ölkə iqtisadiyyatında normal hal sayıla bilər.

## *2. DÖVLƏTİN BÜDCƏ GƏLİRLƏRİNİN VƏ XƏRCLƏRİNİN TƏNZİMLƏNMƏSİ.*

Dövlət büdcəsinin kəsirləri və xərcləri arasında qarşılıqlı əlaqə vardır. Belə ki, büdcənin gəlir hissəsini daima artırmaq dövlətin əsas iqtisadi siyasəti hesab edilir.

Odur ki, ən başlıca amil xərclə daha çox gəlir əldə etmək iqtisadi inkişafın əsasını təşkil edir.

Deməli getdikcə büdcə gəlirlərinin artırılması istiqamətində bütün vasitələrdən tam və səmərəli istifadə edilməsi ən zəruri şərtlərdəndir. Büdcə gəlirlərinin formalaşmasında əsas düzgün və səmərəli vergi siyasətinin həyata keçirilməsidir.



downloaded from KitabYurdu.az

Çünki büdcə gəlirinin əsas maddəsi vergilərdir. Vergi, rüsumlar və digər yığımlar dedikdə qəbul olunmuş qanunçuluq əsasında müəssisələrin, fiziki şəxslərin öz gəlirlərindən büdcəyə verdikləri hissələr nəzərdə tutulur.

Dövlət büdcəsinə cəlb olunan vergilər, rüsumlar və digər tədiyyələr onun cəlbolunma forma və metodları dövlətin vergi sistemini təşkil edir. Vergiyə cəlb olunma obyektləri fiziki və hüquqi şəxslər, müxtəlif əmtəələr, təbii resurslardan istifadə haqqı, mülkiyyətin birindən o birinə verilməsinə görə haqq və s. ola bilər ki, bu da dövlət tərəfindən qanuni formada müəyyən edilir.

Dövlət büdcəsinə daxil olan vergilər iki qrupda təsnifləşdirilir:

1. Birbaşa vergilər – mülkiyyətə görə gəlir, korporasiyaların gəlirinə görə, sosial sığorta gəlirləri, əmək haqqına görə gəlir, torpaq və daşınmaz əmlaka görə , gəlirlərdən vəsaitin köçürülməsinə görə və s. Bu vergilər konkret olaraq fiziki və hüquqi şəxslərdən tutulur.

2. Dolayı vergilər – dövriyyədən vergi – (ölkələrin çoxunda o əlavə dəyər vergisi ilə əvəz olunur) aksizlər – (varislik vergiləri), qiymətli kağızlar və hərəkətsiz daşınmaz əmlakla əlaqədar vergilər.

Əsas vergi mənbəyləri bunlar hesab edilir.

1. Fərdi gəlir vergisi hesab edilir. O, fiziki şəxslərin gəlirlərindən büdcəyə daxil olan hissədir. Vergilər il ərzində tutulur və ilin axırında dəqiqləşdirilir. Bütün ölkələrin vergi forması



downloaded from KitabYurdu.az

təxminən bir-birinə uyğundur. Onun həddi 30-70% arasında tərəddüd edir. Ən yüksək vergi stavkası İsveçrədədir. Rusiyada 50 faizdir.

Son zamanlar vergi stavkasının azalması təmayülü vardır. İqtisadçıların çoxu vergiyə cəlbolunmanın ədalətli olması üçün, vergi sisteminin mütərəqqi olmasını zəruri sayırlar. Yəni, yüksək gəlirə yüksək faiz stavkasına və əksinə. Onların fikrincə, yüksək vergi stavkası ölkədə investisiyanın, kapitvl yığımının, yeni iş yerlərinin yaranmasını ləngidir.

2. Korporasiyaların gəlirlərinə görə vergilər – hüquqi şəxslərdən tuluru, lakin bəzi xırda müəssisələr nəzərə alınmayaraq onların vergiləri tabe olduğu müəssisələrin rəhbərlərinin gəlirlərindən tutulur. Belə ki, müəssisə və korporasiyaların ancaq xalis gəliri vergiyə cəlb olunur. Yəni onun ümumi gəlirlərindən xərc və itkilər çıxdıqdan sonra yerdə qalan hissəsi vergiyə cəlb olunur.

3. Sosial vergilər – əhalinin əmək haqqı və iş qüvvəsindən tutulan gəlirlərdir. Onlar büdcədən kənar fondlara – işsizliyə, təqaüd və yardıma yönəldilir.

Əmək haqqının bu formada vergiyə cəlb olunması ilə müəssisələrin vergiyə cəlb olunması qyadası arasında kəskin ziddiyyət vardır. Belə ki, müəssisə rəhbərlərindən vergilər mənfəətdən xərclər və itkilər çıxıldıqdan sonra hesablanırsa, büdcədən maliyyələşdirilən əmək haqqından vergilər bu xərclər nəzərə alınmadan hesablanır. (Həmin xərclər insanların fəziki və zehni əmək məsrəfidir.). Hansı ki, bu kateqoriyaya daxil olan



downloaded from KitabYurdu.az

işçilərin əmək haqqına ümumilikdə baxmaq düzgün hesab edilə bilməz. Çünki, onların nominal və real əmək haqları ancaq minimum istehlak tələbini ödəmək səviyyəsində olmaqla, əlavə mənfəət gətirmir.

4. Mülkiyyət vergiləri – mülkiyyətin bağışlanmasına və vərəsəliyə görə alınır.

5. Xidmət və əmtəələrə görə vergilər. Bu əsasən gömrük tariflərindən, aksizlərdən və əlavə dəyər vergisindən ibarətdir. Əlavə dəyər vergisi əmtəə dəyərinin 5-38 faizi qədərini təşkil edə bilər. Bu adətən standartlaşmış formada 15 faiz həcmində qəbul edilmişdir.

Vergilər yerli büdcələrə və mərkəzi büdcəyə daxil olur. Daxil olan vəsaitin bölgüsünün müəyyən qaydası vardır. Yerli büdcəyə aksizlər, daşınmaz əmlaka görə vergilər də daxil olur.

Fərdi vergilər və gəlirə görə vergilər yerli büdcə ilə mərkəzi büdcənin razılığı müəyyən mütənasibliklə bölüşdürülür. Zəruri halda yerli büdcələr mərkəzi büdcədən vəsait ala bilər. Maraqdan asılı olaraq yerli büdcə ilə mərkəzi büdcə arasında qarşılıqlı əlaqə vardır.

Verginin həcmi müəssisə və təşkilatların gəlirinin həcmindən asılıdr. Bununla əlaqədar olaraq ümumi gəlirə görə təxmini vergi stavkası müəyyən edilir.

Cəmiyyətin inkişafının bütün mərhələlərində elə bir dövlət olmayıb ki, o vergisiz keçinə bilsin. Vergiyə cəlbolunma təcrübəsi belə bir əsas prinsipi ortalığa çıxarmışdır ki, «Qızıl yumurta verən toyuğau kəsmək olmaz» - yəni dövlətin xərci, borcu nə qədər çox olmasından asılı olmayaraq vergi elə qoyulmalıdır ki, ona cəlb



downloaded from KitabYurdu.az

olunanların iqtisadi marağı sönməsin. Bu əsas prinsipə uyğun olaraq vergiyə cəlb olunmanın aşağıdakı prinsiplərini qeyd etmək olar:

1. Vergi stavkasının səviyyəsi sahibkarların və digərinin gəlirinə uyğun olmalıdır. Fiziki və hüquqi şəxslərin gəlir mənbələri və gəlirlərinin səviyyəsi müxtəlif olduğu üçün vergi stavkası da differensial olmuşdur. Yəni o mütərəqqi olmalıdır. Gəlir artarsa, ondan tutulan vergi də artmalıdır.

2. Vergiyə cəlb olunma birdəfəlik xarakter daşımalıdır. Yəni məhsula vergi qoyularkən o əlavə dəyər vergisi formasında öz ifadəsini tapmalıdır.

3. Vergiləri vaxtında ödənilməsi məcburidir. O mexanizm elə olmalıdır ki, (ictimai töhmət, cərimələr, müəyyən inzibati və hüquqi tənbehlər) verginin vaxtında ödənilməsindən alınan qazanc müəyyən edilmiş cərimədən çox olmasın.

4. Vergiyə cəlbolunma və vergi sistemi sadə olmalıdır. Yəni vergi ödəyən bilməlidir ki, nəyə görə vergi verir, vergi yığan təşkilat da bilməlidir ki, nəyə görə vergi alır.

5. Vergi sistemi elastiki olmalıdır. Yəni o, ölkədə dəyişən ictimai-siyasi tələbatlara uyğunlaşmalıdır.

6. Vergis sistemi ölkədə yaradılan ümumi daxili məhsulun bölüşdürülməsinin effektli aləti olmalıdır və dövlətin iqtisadi siyasətini əks etdirməlidir.

Ölkələrin çoxunda vergi tutulan məbləğ verginin bazası, əsası hesab olunur. Gəlirə görə vergi tutulması vergiyə cəlb olunan gəlir



downloaded from KitabYurdu.az

adlanır və ona differensial yanaşılmalıdır. Bu prinsip demək olar ki, bütün ölkələrin iqtisadi inkişafında tətbiq olunur.

Məsələn, ABŞ-ın keçmiş prezidenti Reyqanın rəhbərliyi dövründə, dövlət tənzimləmə islahatının başında duran M.Feldstalın yazdığı «Korporasiyaların əmanətini mükafatlandıran vergi siyasəti mütləq məcmu investisiyaların artmasına səbəb olur». Bu həqiqətən də belədir. Belə ki, qabaqcıl ölkələrdə ETT-nin inkişafında hiss olunacaq nəticələr əldə edildi ki, bu da iqtisadi artımın yeni keyfiyyətə keçməsinə imkanı artırdı.

Lakin burada bir incəlik də vardır. Verginin liberallaşması dövlət büdcəsinin gəlirinin azalmasına səbəb olsa da, qısa bir müddəti əhatə edə bilər.

Uzun müddət üçün bunun nəticəsi isə başqadır – büdcəyə daxil olmaların artması, defisit və inflyasiyanın azalmasına gətirib çıxarır. İqtisadiyyatda bu Laffer effekti adlanır.

Şəkil 24.






downloaded from KitabYurdu.az

t – vergi stavkasının orta səviyyəsi %-lə

G- dövlət gəlirinin uzun müddətə orta illik artımı

Laffer əyrisinin t oxuna toxunan nöqtəsi şərti iqtisadi situasiyanı əks etdirir. Fərz edək ki, dövlət vergi stavkasını sıfıra endirir. Bu zaman təbiidir ki, dövlət gəlirsiz qalır (Büdcəyə heç nə daxil olmur). Əgər dövlət gəlirlərdən t=100% vergi götürərsə (yəni müəssisənin gəlirinin hamısını alırsa) bu zaman iqtisadi proses dayanır. Yenə də büdcə gəlirsiz qalır G=0.

Tuttaq ki, real fəaliyyətdə olan vergi stavkası $t_B$-dədir, bu zaman büdcəyə daxil olmalar $G_B$ –qədər olacaqdır. Liberal vergi siyasətinin yaxın dövrdə nəticəsi $t_A \langle t_B$ müvəqqəti olaraq dövlət gəlirinin azalmasına səbəb olacaqdır, uzun müddətə isə bu korporasiyaların gəliri hesabına yaranan əmanətlərin artmasına səbəb olacaqdır. Əmanətlərin artması, istehsalın genişlənməsi üçün sərf olunan investisiyanı artıracaq və nəticədə gəlirlər çoxalaraq büdcəyə daxil olmalar da artacaqdır. Belə çıxır ki, mənfəətə vergi stavkasının azalması son nəticədə gəlir vergisinin həcmində özünü göstərəcəkdir. Bu mexanizm heç də həmişə fəaliyyət göstərə bilməz. Deməli Laffer effektinin real olması və dövlət gəliri dinamikasının $G_B$-dən $G_A$ hərəkəti üçün, bazar münasibətlərini inkişaf etdirmək əmanətləri fasiləsiz olaraq investisiyalara çevirmək, inflyasiya üzərində möhkəm nəzarət qoymaq, qiymətin aşağı hədd stabilliyi saxlanılmalıdır.



downloaded from KitabYurdu.az

Dünya təsərrüfatı təcrübəsində iqtisadi inkişafın stimullaşdırılması üçün vergi stavkasından düşünülmüş (manipulyasiyalardan) çoxlu fənlərdən istifadə olunur.

Məsələn, investisiyaya vergi güzəştinə nəzər salaq. Bu mexanizm belə qurulmuşdur – firma yeni texnologiyanın tətbiqinə və ya yeni avadanlığa investisiya həyata keçirirsə, dövlət vergiyə cəlb edərkən gəlirlərdən, vəsait qoyuluşunun müəyyən hissəsini çıxır. Bu çıxılan hissə yeni texnologiyanın tətbiqi sahələri üzrə diferensiallaşdırılır və həmin bölgüdə qabaqcıl texnologiyanın payı daha çox hissəsini təşkil edir. Belə çıxır ki, mütərəqqi sahələr üzrə investisiyalar çoxaldıqca büdcəyə verilən vergi azalmış olur.

Fərz edək ki, vergi tutulan mənfəət 100 min manatdır. Vergi stavkası 30%. Bu zaman büdcəyə daxil olma 30 min manat təşkil edir. Tutuqa ki, müəssisə mənfəətin 50 min manatını yeni texnologiyaya tətbiq edir və güzəştli vergi stavkası 20%- dir. Deməli 50-nin 20%-i 10 min manatdır. Bu zaman vergi üçün nəzərdə tutulan mənfəət 10 min manat azalmalıdır. Yəni (100-10)x30%=27. büdcəyə 27 min manat daxil olmalıdır.

Vergiyə cəlb olunma proseslərində vergi güzəştlərindən istifadə olunur. Bu güzəştlər dövlət qanunçuluğu əsasında müəyyən olunur və onlar aşağıdakılardır:

1. Vergi obyektinin vergiyə minimum cəlb olunması.
2. Vergiyə cəlb olunan məbləğdən bəzi elementlərin çıxılması (məsələn, elmə gedən xərclərin çıxılması)
3. Vergidən bəzi kateqoriya şəxslərin azad edilməsi.



downloaded from KitabYurdu.az

4. Aşağı vergi stavkasının qoyulması.
5. Verginin kreditləşməsi (vergi tutulması vaxtı uzadılır).

Beləliklə, vergi güzəştləri vergi kreditləri vergi öhdəliyi kimi ifadə olunmuş olur.

Vergilər üç əsas funksiyanı yerinə yetirir:

1. Dövlət xərclərinin maliyyələşdirilməsi ( fiskal siyasət)
2. Müxtəlif sosial qruplar arasındakı qeyri-bərabərsizliyi təmin etmək üçün sosial tarazlığı tənzimləmək.
3. İqtisadiyyatın dövlət tənzimlənməsini həyata keçirmək.

Bütün dövlətlərdə və bütün ictimai formasiyalarda vergilər dövlətin fiskal siyasətinə xidmət edir, yəni vergilər dövlət xərclərinə və ictimai xərclərə xidmət edirlər.

Son zamanlar vergi funksiyalarında onun sosial və tənzimedici funksiyası mühüm əhəmiyyət kəsb etməyə başlamışdır. Bu funksiyalara ayrı-ayrılıqda nəzər salaq.

Sosial funksiya. Sosial həyatad vergilər mühüm rol oynayır. Bunun haqqında çoxlu mübahisələr egdir. Belə ki, bir qrup hesab edir ki, onlardan alınan vergi çox yüksəkdir. Dövlət onlardan başqalarına verir və yaxud dövlət onların həyat tərzinin yaxşılaşması üçün az vəsait sərf edir və s.

Buna görə də vergi ödəyənlərin vəziyyətinədn asılı olaraq onun mütərəqqiliyi meydana gəlmişdir. Yəni çox gəliri olan çox, az gəliri olan az vergi ödəməlidir. Lakin burada proporsionallıq gözlənilməlidir. Yəni vergi bazası hamı üçün eyni olmalı, sonradan gəlir artdıqca, vergi faizi də artmalıdır.



downloaded from KitabYurdu.az

Bütün bunlarla yanaşı vergiyə cəlbolunmanın beynəlalq təcrübəsi maraq öoğurur. Belə ki, vergilərin müəyyənləşdirilməsi vergi sisteminin yaradılması, vergi güzəştlərinin verilməsi və s. ancaq və ancaq dövlət qanunçuluğu orqanlarının və icra orqanlarının səlahiyyətindədir. Bununla belə, müxtəlif ölkələrin dövlətləri öz aralarında əməkdaşlıq edirlər. Bu əməkdaşlıq təsərrüfat əlaqələrinin ikitərəfli intensivləşdirilməsi ilə əlaqədrdır. Beynəlxalq ticarət təşkilatları vergi güzəştləri vasitəsilə ixracı stimullaşdırırlar. Bu təşkilatın üzvi olan ölkələr ixrac məhsullarını vergidən azad edə bilmədikləri üçün alternativ yollar axtarırlar ki, ixracı subsidiyalaşdırsınlar. Bəzi ölkələr vergilərin bütün istehsalçlar üzrə yayılmasının tərəfdarıdırlar (idxal-ixrac istehsalından asılı olmayaraq).

Məsələn, ingiltərə bütün istehsalçılara güzəşt etməklə ixracı stimullaşdıraraq öz istehsalını inflyasiyadan qoruyur.

Başqa bir vergi forması əlavə dəyər vergisidir. Bu vergi ixracı stimullaşdıraraq idxalın qarşısını alır.

İnkişaf etmiş ölkələr öz ərazilərində istehsal olunmuş bütün məhsullara vergi qoyurlar. (ABŞ, Kanada, Yaponiya, Rusiya). Bundan əlavə həmin ölkələrin məhsullarına xaricdə vergi qoyulur. (Əlavə dəyər vergisi formasında). Nəticədə istehsalçı ikili vergi altına düşür.

Hazırda Avropa İqtisadi Birliyi vergi sisteminin tənzimlənməsinə dair tədbirlər sistemi hazırlanır.



downloaded from KitabYurdu.az

## *FƏSİL XV. DÖVLƏTİN PUL-KREDİT SİYASƏTİ.*

### *1. DÖVLƏTİN PUL-KREDİT SİYASƏTİNİN MAHİYYƏTİ.*

Pul və kredit sahəsində dövlət tədbirlərinin məcmuu, dövlətin pul-kredit siyasətini təşkil edir. Bu siyasətin əsas məqsədi iqtisadiyyatı tənztimləmək və inflyasiya ilə aktiv mübarizə aparmaqdır.

Pul-kredit siyasətinin əsas istiqaməti kredit və pul emissiyasını stimullaşdırmaq və yaxud du onların hərəkətini məhdudlaşdırmaqdır. İstehsalın aşağı düşməsi halında bank kredit konyukturasını genişləndirir, faiz normasını aşağı salır. İstehsalın yüksəldiyi halda isə əksinə.

Odur ki, başlıca problem respublikada həyata keçirilən pul-kredit siyasətinin səmərəliliyinin yüksəldilməsidir. Bunun üçün:

a) mövcud sosial-iqtisadi vəziyyəti nəzərə alaraq pul-kredit siyasətinin səmərəliliyinin yüksəldilməsi məqsədi ilə yeridilən tədbirlər sisteminin ardıcıl olaraq həyata keçirilməsi;

b) dövlətin pul-kredit siyasətinin məşğulluğun təmin olunmasına istiqamətləndirilməsi;

v) manatın stabilliyini qorumaqla milli pul vahidinin alıcılıq qabiliyyətinin möhkəmləndirilməsi vacib şərtlərdəndir.

Beləliklə, dövlətin pul-kredit sferasının müvəffəqiyyətlə tənzimlənməsi o vaxt həyata keçirilə bilər ki, dövlət mərkəzi bank vasitəsilə kommersiya banklarına təsir göstərə bilsin. Çünki, onlar pul-kredit fəaliyyətinin əsasını təşkil edirlər. Bu tənzimləmə qarşılıqlı əlaqədə olan bir neçə istiqamətlərdə aparıla bilər.



downloaded from KitabYurdu.az

Bank sistemi üzərində dövlət nəzarəti. Burada əsas məqsəd maliyyə kredit institutularını möhkəmləndirmək, onların, əmanətçilərin ilk tələbatını vaxtında ödənilməsinə yardım etməkdir. Bu tədbirlər həmçinin dövlət tərəfindən pul kütləsinin yığcamlaşdırılmasında da istifadə olunur.

Dövlət borclarının idarə edilməsi. İqtisadiyyatda xroniki vəziyyətdə dövlət borclarının artması halı baş verir. Bu zaman borcların tənzimlənməsi dövlət tərəfindən aparılır. Dövlətin daxili borcu çoxaldığı vəziyyətdə ölkənin kreditə ehtiyacı artır. Buna görə də mərkəzi bank dövlət borclarının tənzimlənməsi tədbirlərini həyata keçirir: dövlət öhdəliklərini alıb – satır, istiqrazların qiymətlərini dəyişir, onların satış şəraitini dəyişərək onu investorlar üçün cəlb edici – maraqlı edir.

Təcrübədə dövlət borclarının idarə edilməsini rəqəmlə 3 formasından istifadə olunur:

a. Könüllü bazar krediti – dövlətin qiymətli kağızlarının könüllü olaraq bazarlarda yerləşdirilməsi – bu əmanət istiqrazları dövlətin qısamüddətli öhdəlikləri ola bilər.

b. Məcburi bazar krediti – faktiki dövlət borcunun qeyd olunması, daxili valyuta borcunun istiqrazları, xəzinə öhdəlikləri, maliyyə nazirliyinin veksellləri.

c. Mərkəzi bankın Maliyyə Nazirliyinə krediti.

Kredit əməliyyatlarının və pul emissiyasının həcminin tənzim olunması ilk növbədə təsərrüfat fəaliyyətinin artırılmasına və inflyasiyaya qarşı istiqamətlənməlidir.



downloaded from KitabYurdu.az

Dövlətin pul-kredit siyasətini və sisteminin həyata keçirilməsi müxtəlif metodları əsasında aparılır. Bu metodlar:

1. Ümumi metodlardır – məqsəd bütünlükdə borc kapitalına təsir göstərməkdir.

2. Selektiv metodlar –ayrı-ayrı sahələrin, formaların kreditləşməsi üçün verilən konkret kreditə təsir göstərməkdir.

Pul-kredit siyasətinin ümumi metodlarına nəzər yetirək.

1. Diskont siyasəti – ən qədim tənzimləmə siyasəti olub XIX əsrin ortalarından fəaliyyət göstərir. Bu metod mərkəzi bankın kommersiya banklarının kreditorlarına çevrilməsi ilə əlaqədar meydana çıxmışdır. Kommersiya bankları xüsusi öhdəliklər əsasında mərkəzi bankdan kredit alırlar və həmin kreditləri müəyyən faiz stavkası ilə yerləşdirirlər. Bəzən mərkəzi bank həmin uçot stavkasını yüksəldərək kredit əməliyyatlarını məhdudlaşdıra bilər və ya əksinə.

2. Açıq bazarda əməliyyatlar – Mərkəzi bankın kommersiya banklarından dövlətin qiymətli kağızlarını alıb-satması əməliyyatıdır. Bank həmin qiymətli kağızları aldığı halda onun məbləğini kommersiya banklarının hesabına köçürür və bununla da onların hesabındakı ehtiyatları artırmış olur, satdığı halda isə əksinə ehtiyat azalmış olur.

Beləliklə, həmin əməliyyat ehtiyatın səviyyəsində əks olunaraq tənzimləmə metodu kimi çıxış edir.

3. Bank ehtiyatlarına məcburi normaların qoyulması. Bu bir tərəfdən kommersiya banklarında əməliyyatları yaxşılaşdırır, digər



downloaded from KitabYurdu.az

tərəfdən isə bu normalar bir başa investisiyaların sərhəddini məhdudlaşdırır.

Pul – kredit tənzimlənməsinin selektiv metodlarına isə aiddir:

1. Ayrı-ayrı kredit növləri üzərində nəzarət. Bu çox vaxt birja qiymətli kağızı altında verilən kreditlərə, müəyyən müddətə istehlak məhsülları alınması üçün olan kreditlərə və ipoteka kreditlərinə aid edilir.
2. Bank və bankların əməliyyatlarının tənzimlənməsi riski.

Müasir dövrdə pul-kredit tənzimlənməsinin texnologiyasının mühüm xüsusiyyətlərindən biri neokensiyan istiqamətinə uyğun olaraq mərkəzi Bankın uçot stavkasının dəyişdirilməsidir. Yəni məcmunu tələb və işsizlik səviyyəsindən asılı olaraq bank ssudalarının həcmini bir başa məhdudlaşdırılması və ya artırılmasıdır.

Pul – kredit tənzimlənməsinin monetar istiqaməti tənzimləmədə kəmiyyət tərəfindən nəzərdə tutur. Yəni pul kütləsinin artırılması.

İnkişaf etmiş ölkələrdə «bank rəqabətinin» genişləedirilməsi də tənzimləmə aləti kimi çıxış edir.



downloaded from KitabYurdu.az

## *2. PUL SİSTEMİ VƏ PUL TƏDAVÜLÜ.*

İqtisadi fəaliyyətlə məşğul olan hər bir kəs öz ölkəsinin və ya başqa ölkənin pul vahidindən sitifadə edə bilər.

Pul əmtəə təsərrüfatına xas olan tarixi kateqoriyadır. Pul meydana gələnə qədər natural mübadilə hökm sürürdü. Ən qədim pul vahidi kimi müxtəlif məhsullar istifadə olunmuşdur. Heyvan, duz, xəz dəri, balta, üzük, sırğa. Sonrakı inkişaf dövründə pul ifadəsini ən çox qiymətli metallar ifadə etməyə başladı. VII əsrə qədər pul külcə formasında istifadə olunurdu. Kapitalizm və bizim eradan əvvəl pul rolunu qızıl oynamağa başlamışdır. İlk kağız pul XI əsrdə Çində meydana gəlmişdir. Həmin dövrəd onları «uçan pullar» adlandırmışlar. Azərbaycanda Monqol istilası zamanı kağız pul buraxılmasına cəhd edilmişdir. Elxani hökmdarlarından olan Keyxatu xanımın fərmanı ilə Təbrizdə 1294-cü ildə «çav» adlanan kağız pul buraxılmışdır. Sonradan kağız pullar 1690-cı ildə Amerikada, 1726-cı ildə Fransada, 1769-cu ilədə Rusiyada tədavülə buraxılmışdır. Balzak göstərirdi ki, pul insanlarda 6 –ci hissiyatıdır ki, qalan 5 hissiyatdan zövq almağa imkan verir. Smit göstərirdi ki, pul dövriyyə təkəridir. Ənuşirəvanın xəzinəsində tapılan bir lövhədə beş sətir yazılıbmış: Hər kəsin dostu yoxdur ünsiyyəti yoxdur, hər kimin qardışa yoxdur arxası yoxdur, hər kimin arvadı yoxdur, eyşişrəti yoxdur hər kimin malı (pulu) yoxdur, cəlalı yoxdur, hər kimin şeyləri yoxsa, qəm-qüssəsi də yoxdur. Marks göstərirdi ki, pul ümum ekvivalent əmtəədir.



downloaded from KitabYurdu.az

Beləliklə, pul ümum ekvivalent rolunu oynayan xüsusi əmtəə sayılır. Pulun mahiyyəti onun funksiyada ifadə olunur ki, həmin funksiyalar dəyər ölçüsündə, dövriyyə vəsaitindən, yığım vəsaitindən və tədiyyə vasitəsindən iabərtdir. Klassik nəzəriyyəyə əsasən pul dövriyyə vasitəsi olduğu üçün onun həcminin müəyyən olunması zəruridir. Dövriyyə üçün zəruri olanpulun həcmi qiymət kütləsinin məhsulun qiymətinə olan nisbəti ilə ölçülür. Yəni pul kütləsi

$$M = \frac{P}{V}$$

P- məhsul kütləsinin ümumi qiymətini

V-pulun dövretmə sürətini əks etdirir.

Nəzərə almaq lazımdır ki, pulun dövretmə sürəti çoxaldıqca pula olan tələbat azalır. Çünki bir pul vahidi bir neçə dəfə əmtəə alınmasına xidmət edə bilər. Pul kütləsini müəyyən edilməsinə digər baxış (D. Rikardo) ondan ibarətdir ki, bütün iqtisadi dövriyyə üçün lazım olan pul kütləsi dövriyyədə olan əmtəə və pulların həcmi kimi müəyyən edilməlidir.

Bu prosesi başa düşmək üçün pul təklifi və ona olan tələbata nəzər salmaq lazımdır. Real pul siyasətini dövlət təşkil edir.

Dövlət bankı emissiya buraxır, başqa banklar vasitəsilə idarə edir, fond birjalarında əməliyyatları tənzim edir. Pula olan tələbatın formalaşmasına isə daha mürəkkəbdir.



downloaded from KitabYurdu.az

Belə ki, pulun bir hissəsi ticarət və xidmət sahələrində dövr etmək üçün gərəkdir. Yəni bu əməliyyatlar üçün tələb olunan pul qiymətin artım tempi- P, Y – məcmu gəlir, h- pul dövriyyə sürəti olarsa, onda həmin əməliyyatları yerinə yetirmək üçün pula olan tələbat belə hesablana bilər:

$$m_d^t = \frac{1}{h}\text{PY}$$

lakin qeyd etmək lazımdır ki, gəlirin hamısı istehlak edilmir, onun bir hissəsi yığıma (əmanətə) gedə bilər. Onlar (əmanətlər) pula səhm ala bilərlər, bankda saxlayaraq divident götürə bilərlər və s. deməli, ümumi pul kütləsinə ($m_d$) olan tələbat (alqı-satqı tələbatı) nəğdsiz hesablaşmalar r- faiz stavkasından funksional asılı olacaq və belə hesablanacaqdır.

$$m_d = \frac{1}{h}\text{P}У + f(r)$$

r – faiz stavkası yüksəldikcə pula tələbat azalır (investorlar tərəfindən0

Qrafiki olaraq bunu belə göstərmək olar:



downloaded from KitabYurdu.az

Şəkil 25.




Pula tələbat əyrisi r oxuna toxunmur. Çünki pulun bir hissəsi faiz stavkasından asılı deyildir və gəlirlə qiymət səviyyəsi ilə müəyyən olunur.

İkinci bir tərəfdən həmin əyri asimpotetik olaraq $r_0$ düz xəttinə yaxınlaşır. Çünki $r_0$-dan aşağı faiz stavkası ola bilməz. Deməli, $r=r_0$ alınır.

Haradakı, pul təklifi vardır, orada dövlət hökmrandır və onun hüdudunu müəyyən edir. Deməli, pul təklifi $m_s$ və pul tələbatı $m_d$ arasında tarazlıq olmalıdır.

$$m_S = m_D = \frac{1}{h}\mathrm{P}У + f(r)$$



downloaded from KitabYurdu.az

## *3. KREDİT VƏ KREDİT SİSTEMİ.*

Kredit qaytarmaq şərti ilə müəyyən gəlirlə (faizlə) verilən vəsaitdir. Onun əsas mənbəyi bunlardır: 1. Amortizasiya fondu. 2. Dövriyyə kapitalın bir hissəsi (pul formasında). 3. məhsulların satışından daxil olmaqla əmək haqqının ödənilməsi vaxtı arasında sərbəst qalan pul vəsaiti. 4. Yığım fondu. 5. Fərdi şəxslərin əmanətləri.

Kredit sisteminin tarixi qədim olsa da onun əsas formalaşması əsasə XX əsrə təsadüf etmişdir. Kredit sisteminə iki formadan baxmaq olar:

1. kredit pulları. Bu kağız pul olub kredit əsasında qızılın əvəzedicisi kimi çıxış edir. Onun üç forması var: a) veksel forması (kreditorun adına borc alan tərəfindən verilmiş öhdəlik, yeri, tarixi, məbləği göstərilir); tratta – bir şəxsin 3-cü şəxsə kredit verən tərəfindən əmr formasında verilən göstəriş. b) Banknot; v) çek forması.

2. Depozit pullar. Depozit pulları kredit pullardan ödəməlidirlər. Depozit pullar dedikdə elə pullar nəzərdə tutulur ki, bk hesabdan digər hesaba köçürülür.

Kreditin rolu və əhəmiyyəti bazar iqtisadiyyatı şəraitində daha da artmışdır. Buna görə də o, əsasən 2 formada çıxış edir. 1. Kommersiya krediti. Bu kreditin elə formasıdır ki, bir müəssisə digər müəssisəyə malını satmağa verir. Kommersiya kreditinin əsas əlaməti veksel sayılır. Bu XII-XIII əsrlərdə İtaliyada tətbiq edilmiş. Vekselin 2 forması var: a) Sadə veksel. Onun əsas vəzifəsi borc öhdəliyini



downloaded from KitabYurdu.az

kreditorata verilən zəmanətidir. b) ötürülmüş veksel (köçürmə vekseli) – pulu verən transsanton, pulu alan transsaton adlanır, pulu almağa hüququ olan 3-cü şəxs remitempten adlanır. 2. Bank kreditləri. Bu kreditlər xüsusi kredit idarələri vasitəsilə verilən borclardır.

Müasir bazar iqtisadiyyatı şəraitində istehlak krediti və dövlət krediti fəaliyyət göstərir. İstehlak krediti fərdi istehlakçılara verilir. Dövlət krediti isə dövlət və yerli orqanlar tərəfindən verilir. Bu kreditlər maliyyə – kredit orqanları tərəfindən buraxılan istiqrazlar əsasında fəaliyyət göstərir. Beynəlxalq kredit-dövlətlərarasında verilən kredit formasıdır.

Kredit yenidən bölgü funksiyasını həyata keçirməklə iqtisadiyyatın tənzimlənməsində xüsusi rol oynayır. Onun köməyi ilə sərbəst pul vəsaiti dövlət tərəfindən toplanır və borc kapitalına çevrilir.

Kredit istehsal xərclərinə qənaət forması kimi də çıxış edir. Nəqd pulların kredit yolu ilə hərəkəti dövriyyəni yüksəldir. Bununla da xərcləri azaldır. Kredit kapitalnı təmərküzləşməsi və mərkəzləşməsini sürətləndirir.

Bazar iqtisadiyyatı şəraitində kreditləşmənin əsas xüsusiyyətdərindən biri makrosəviyyədə iqtisadiyyatı tənzimləməkdir.

Dövlət ölkənin qarşısında qoyulan sosial-iqtisadi vəzifələr müvəffəqiyyətlə həyata keçirilməsi üçün kreditləşməni müxtəlif istiqamətə yönəldilməsi məqsədi ilə xüsusi tədbirlər sistemi həyata



downloaded from KitabYurdu.az

keçirilir. Keçid iqtisadiyyatı şəraitində bu tədbirlər sistemində ən başlıca istiqamət istehsalın genişləndirilməsidir.

Odur ki, konkret şəraitdən asılı olaraq dövlət maliyyələşdirmə və xüsusilə kreditləşdirmə sistemində sərt kreditləşmə tətbiq edir ki, bunun da nəticəsində iqtisadiyyatın prioritet sahələrinin inkişafını gücləndirir.

Lakin faktiki olaraq keçid iqtisadiyyatı şəraitində respublikanın pul vəsaiti aparıcı banklar sistemi vasitəsilə kredit əməliyyatlarını həyata keçirmək əvəzinə heç bir əsası olmayan çoxlu sayda kommersiya bankları arasında səpələnmişdir ki, bu da əsaslı məqsədli kreditləşməni həyata keçirilməsini mürəkkəbləşdirmişdir. Onu qeyd etmək kifayətdir ki, ölkə üzrə verilən kreditlərin ancaq 2,5 faizi uzun müddətli 97,5 faizi isə qısa müddətli olmuşdur.

Azərbaycan iqtisadiyyatına 1995-2001-ci illərdə Beynəlxalq Maliyyə təşkilatlarından 1343 mlrd. ABŞ dolları həcmində kredit cəlb olunmuşdur və onun 145,4 mlrd dolları qaytarılmışdır. Maliyyə nazirliyinin məlumatına əsasən 2004-cü ildə respublika əhalisinin hər hər nəfərinə xarici borcu 195 dollar təşkil edir. Alınmış kreditlər Respublikanın ÜDM-nun 20%-ə qədərincədir ki, bu da normal sayılır. Xarici borclar ÜDM-un 40%-ə qədəri olduğu halda bu qorxulu hesab edilə bilər (28.II.2004 il Maliyyə Naziri Ə.Ələkbərovun televiziya ilə çıxışı).



downloaded from KitabYurdu.az

### *4. BANK SİSTEMİ VƏ BANK ƏMƏLİYYATLARI.*

Mülkiyyət formasından asılı olmayaraq hər bir dövlətin özünəməxsus bank sistemi fəaliyyət göstərir ki, onun da əsasını mərkəzi milli bank təşkil edir. Bank əməliyyatları və yerinə yetirdiyi funksiyaların kökü çox qədimdir. Qədim Babilistan, Misir, Yunanıstan, Roma imperiyası həmin bankların törəmələri 1587-ci ildə Florensiya, Venesiya olmuşdur. Sonradan 1605-ci ildə Amsterdamda, Hamburqda 1618-ci ildə yaradılmış banklar əsassında ticarət sahələrinə xidmət etmişlər.

Ölkə səviyyəsində banklar: a) Mmərkəzi Milli Bank; b) Kommersiya bankları; v) xüsusiləşdirilmiş kredit orqanları; q) Dövlətlərarası (beynəlxalq) bank fəaliyyət göstərir.

Mərkəzi bank – kassa ehtiyatlarının toplanması və saxlanması funksiyasını yerinə yetirir. Adətən mərkəzi bank ölkənin qızıl valyuta ehtiyatının saxlandığı yerdir.

1996-cı ilin tam olmayan məlumatlarına əsasən Rusiyanın qızıl ehtiyatı 280 ton, ABŞ-ın 8141 ton, Almaniyanın 3182 ton, İtaliyanın 2502 ton, İsveçin 1590 ton, Hollandiyanın 1352 ton, Belçikanın isə 974 ton olmuşdur. Dünyada qızıl hasilatı 2003-cü ildə ABŞ-da 285 ton, ÇXR-da 213 ton, Avstraliyada 284 ton, Kanadada 141 ton, Rusiyada 182 ton, Latın Amerikasında 398 ton olmuşdur. Dünyada ən çox qızıl istehlak edən ölkələr; Hindistan 571,3 ton, İtaliya 339 ton, Türkiyə 260,5 ton, Abş 223,7 ton, ÇXR 210,4 ton, Yaponiya 163 ton, MDB ölkələri 70 ton olmuşdur. (İqtisadiyyat qəzeti №11,13. 2005-ci il).



downloaded from KitabYurdu.az

Qeyd etmək lazımdır ki, ölkələrin qızıl ehtiyatları milli valyutanın stabilliyini dönərliliyinin əsası kimi qəbul edilir. Mərkəzi bank öz fəaliyyətini müəyyən əməliyyatlar əsasında həyata keçirir ki, bu əməliyyatlar 4 qrupa bölünür:

1. Passiv əməliyyatlar.
2. Aktiv əməliyyatlar.
3. Bank xidmətləri.
4. Bankın xüsusi əməliyyatları.

Birinci iki qrup daha çox yayılmış bank əməliyyatlarıdır ki, bank gəlirinin çox hissəsi onların hesabına formalaşır.

Bazar iqtisadiyyatı ölkələrində son zamanlar bank xidmətlərinin həcmi daha da yüksəlmişdir. Onlar bank gəlirinin yaranmasının ikinci mənbəyi kimi çıxış edirlər. Bankların xüsusi əməliyyatları əvvəlki kimi tabeçilik rolunu saxlayırlar.

Passiv əməliyyatlar vəsaitin səfərbərliyə alınmasına xidmət edir. Passiv əməliyyatlar nəticəsində banklar ssuda alırlar ki, sonradan həmin vəsait aktiv əməliyyatların həyata keçirilməsinə xidmət edir. Bu əməliyyatların yekunu bankın balansının passivində öz əksini tapır.

Bankın aktiv əməliyyatları depozitlərdən ibarətdir.

Depozitlər dedikdə əmanətlərdən başqa bankın bütün müştəriləri nəzərdə tutulur (təcili və vaxtsız – müddətsiz). Depozitə yerləşdirilən vəsaitlərin mənbələri müxtəlifdir. Bu o vsəaitlərdir ki, müəssisə və təşkilatların hesabındadır və müəyyən müddətə onlar tərəfindən istifadəsizdir.



downloaded from KitabYurdu.az

Bank əməliyyatların bir növü də bank xidmətləridir. Bu əməliyyatlar 4 növə bölünür:

1. İnkassa – bank öz müştərisinin sifarişinə əsasən ondan əmtəə-qaimə sənədlərini qəbul edərək, yenə də öz müştərisi olan digər subyektin adından həmin məbləği birincisinin nəfinə silir.

2. Akreditiv – akreditiv sənədi şərtlərə uyğun olaraq müəyyən məbləğin verilməsi haqqında tələbnamədir.

Bu əməliyyatlarda iştirak edirlər:

- akreditivin açılmasını sifariş verən müştəri;
- akreditiv açan bank;
- akreditiv açılan bank – hansı ki, əməliyyatın yerinə yetirilməsinə nəzarət edir;
- akreditiv xeyrinə açılan şəxs.

Akreditivin iki formasını bir-birindən fərqləndirmək lazımdır.

Pul krediti – bir şəxs bu şəhərdə banka pul verərək digər əşhərdəki bankdan pulu alır.

Əmtəə krediti – topdansatış formasında alıcı və satıcı arasında olan əlaqədir.

3. Köçürmə əməliyyatları başqa şəhərdən almaq üçün digər şəhər banklarından pulun göndərilməsi.

4. Etibarlılıq əməliyyatları – əmlakın girov qoyulması, əmlakdan şəxsin müvəqqəti istifadə edə bilmədiyi halda onunla



downloaded from KitabYurdu.az

bank arasında əməliyyatlar, ölən şəxsin əmlakı ilə əməliyyatlar, seyflərdə vəsaitlərin saxlanılması.

## *5. DÖVLƏTİN VALYUTA SİYASƏTİ*

Azərbaycan Respublikasının xarici –iqtisadi siyasətinin mühüm tərkib hissəsindən biri də beynəlxalq valyuta siyasəti hesab edilir. Odur ki, beynəlxalq iqtisadi əlaqələrin tənzimlənməsində valyuta münasibətləri ən mürəkkəb və çox cəhətli sahədir.

Belə ki, ölkələr arasında iqtisadi əlaqələr genişləndikcə mallar alış-veriş çoxaldıqca belə bir problem ortalığa çıxır ki, bu ölkələr hansı formada bir-biri ilə hesablaşmalıdır. Türkiyə mallarını alan Azərbaycan alıcısının türk lirəsi yoxdur və ya əksinə. Deməli, bunlar elə bir ortaq pul vahidinə razılaşmalıdırlar ki, hər ikisinin tələbatı ödənilsin. Buna görə də bütün ölkələrdə milli pul vahidi yaradılmışdır və mövcuddur.

Həmin pul vahidi ölkələrə imkan verir ki, başqa ölkələrlə beynəlxalq iqtisadi əlaqələrə girərək hesablaşma aparsın. Belə hesablaşmalar zəruriliyindən ölkələr «Milli valyuta sistemi» yaratmışlar.

Milli valyuta sistemi əsasında beynəlxalq valyuta sistemi yaranır və bu da beynəlxalq valyuta münasibətlərinin tənzimlənməsinə imkan verir. Beynəlxlaq valyuta sisteminin təşkili



downloaded from KitabYurdu.az

beynəlxalq bazarın yaranması nəticəsində meydana gəlmişdir və dövlətlərarası münasibətlərin inkişafını təmin edir.

Dünya valyuta sisteminə məcburi qaydada mütləq aşağıdakı elementlər daxil edilir:

1. Beynəlxalq tədiyyə vasitələri.
2. Valyuta məzənnəsinin dəstəklənməsi və müəyyənləşdirilməsinin mexanizmi.
3. Beynəlxalq tədiyyə qaydalarının balanslaşdırılması.
4. Valyuta dönərliyinin şərtləri.
5. Valyuta və qızıl bazarlarının fəaliyyət mexanizmi.
6. Bütövlükdə sahədə fəaliyyət göstərən dövlətlərarası təşkilatların hüquq və vəzifələri.

Müasir dövrümüzdə fəaliyyət göstərən dünya valyuta sistemi birdən-birə yaranmamışdır və o öz inkişafında təxminən 3 mərhələni keçmişdir:

Birinci mərhələ XIX əsrin əvvəli XX əsrə qədər dövrü əhatə etmişdir. Bu dövrdə beynəlxalq maliyyə – kredit sistemində əsas yeri qızıl tuturdu. Bu əsr rəsmi olaraq qızıl standartı adlanır.

Bu o vaxta təsadüf edir ki, Britaniya İmperiyası öz pul vahidi kimi funt sterlinq qəbul etmişdir. 1 funt sterlinq 7.322 q qızıla bərabər idi. Böyük Britaniyadan sonra qızıl standartı ABŞ-da, Qərbi Avropa ölkələrində, Rusiyada qəbul edilmişdir. Keçmiş SSRİ məkanında 1 rubl 0,77423 qr. qızıla 1.I.1961-ci ildən isə 0,987412 qr.qızıla bərabər götürülmüşdür. Qızıl standartının ən möhkəm qüvvədə olması 1880-1914-cü illəri əhatə etmişdir.



downloaded from KitabYurdu.az

Qızıl standartının və ümumiyyətlə qəzələn beynəlxalq iqtisadi münasibətlərdə istifadə edilməsinin «+» və «-» cəhətləri vardır. Onun «+» cəhətləri ondan ibarətdir ki, o nadir metaldır və öz dəyərini heç vaxt itirmir. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, böyük şairimiz S.Vurğun «vaqif» dramında belə demişdir:

«Qızılı udsada qara torpaqlar
Yenə qiymətini özündə saxlar».

(S.Vurğun)

Bir halda ki, qızıl nadir metaldır, deməli onun kim tərəfindənsə icazəsiz çıxarılması emal edilməsi qadağandır. Yəni onun hərəkəti ancaq dövlət tərəfindən tənzimlənir və idarə olunur. Bu isə inflyasiya prosesini saxlamağa və ya digər ölkədə qızılın qiymətinin artıb azalmasına səbəb olur ki, bu da bəzi ölkələrə ziyan gətirir. Çünki bütün ölkələr beynəlxalq valyuta sistemində bir-biri ilə əlaqədardır. Buna görə də 1914-cü ildə Rusiya beynəlxalq valyuta sistemindən çıxmışdır. VİM-in və qızıl münasibətlərinin formasının ikinci mərhələsi 1914-cü ildən başlayır. Beynəlxalq ticarət iştirakçılarının ABŞ-da konfransı keçirilmişdi və bu şəhərin adı ilə konfrans «Bretton-Vuds konfransı» adlandırılmışdır.

Həmin konfransda beynəlxlaq valyuta yaradılmışdır. Mərkəzi Vaşinqtonda yerləşir. «Bretton-Vuds» sistemi qızıl standartlarına uyğun olduğu üçün ona keçid dövrü xarakteri verilmişdir. Bu sistemdə əsas məsələ pul vahidinə ikili yanaşma idi. Bir tərəfdən qızıl təminatı, digər tərəfdən dollar təminatı. Bretton – Vuds razılaşmasını qəbul edən hər bir ölkə öz pul məzənnəsinin dollar



downloaded from KitabYurdu.az

məzənnəsində ifadə etmişdir. Digər tərəfdən dolların özü də sərt qızıl xarakteri almışdır. 35 dollar bərabərdir. 31.3 q qızıl.

Beləliklə, dollar hesablaşma vahidi kimi sərbəst qızıla dəyişdirilmək hüququna malikdir ki, bu da onun BVS-də inhisarçı mövqeyini müəyyən edir. 1971-ci ildə dolların qızıla dəyişdirilə bilməsi imkanı məhdudlaşdırıldı və bunun nəticəsində dünya valyuta sisteminin üçüncü mərhələsi başlandı. 1976-cı ildə Yamayka adasında dünya valyuta sistemi hüquqi sərhəddən qeydiyyatdan keçirildi və müqavilə bağlanılmışdır. Həmin müqavilənin şərtlərinə görə bütün qiymətlər kimi valyuta məzənnəsinin qiyməti bazardan asılı olaraq tələb və təklif əsasında müəyyən olunmağa başladı. Hər bir ölkənin xarici valyutaya olan tələbatı həmin ölkələrin istehlak məhsullarına olan tələbatı ilə müəyyənləşməyə başlayırdı.

Beynəlxalq hesablaşmalarda beynəlxalq puldan «ekyü» istifadə olunmağa başlanıldı ki, bu da beynəlalq valyuta fondunun Avropa valyutası vahidi kimi çıxış etməsinə imkn verdi.

Valyuta zənbili müəyyənləşdirildi və ona ABŞ dolları, Fransanın frankı, Almaniyanın markası, Yapon iyeni və ingilis sterlinqi daxil edildi. Ümumiyyətlə, Avropa pul vahidinin hesablanması Avropa valyuta sisteminə daxil olan 12 ölkənin pul vahidləri əsasında müəyyən edilir. Valyuta məzənnəsi bir ölkənin pul vahidinin digər ölkənin pul vahidində ifadə olunmasıdır. Məsələn, 1 dollar bərabərdir 1.5636\55 DM. Bu o deməkdir ki, Almaniya 1 dolları 1.5635 markaya almağa və 1.5655 markaya satmağa imkanı varldır. Ümumiyyətlə, valyuta məzənnəsi həmin ölkənin istehlak



downloaded from KitabYurdu.az

zənbilinin həcmi ilə müəyyən edilir. Əgər ölkədə istehlak zənbili 15 min manatdırsa və bu ABŞ dolları ilə 100 manata bərabərdirsə bu zaman 15 min\100=150. Deməli, bu ölkənin 150 manatı 1 dollara bərabər götürülür.

Ümumiyyətlə götürdükdə valyutanın məzənnəsi mürəkkəbdir və dünya miqyasında belə dəqiq hesablaşma yoxdur. Təxmini olaraq bu istehlak zənbilinə uyğun gəldiyi üçün hazırda valyuta məzənnəsi bu əsasda müəyyən edilir. Dövlət valyuta məzənnəsinin tənzimlənməsinə dolayı və birbaşa təsir göstərir.

Dövlət dolayı yolla valyuta tənzimlənməsinə milli mərkəzi bank vasitəsilə həyata keçirir. Mərkəzi bank valyuta məzənnəsinə təsir göstərmək üçün müəyyən tədbirlər işləyib hazırlayır və bunu həyata keçirir. Məsələn. İnflyasiya baş verərsə, o aşağı salınmalıdır, valyuta məzənnəsinə dövlət birbaşa təsir göstərir. Əgər ölkəyə valyuta interveresiyası mövcuddursa, bu zaman dövlət uçot stavkasını yüksəldərək onun qarşısını alır. Dövlətin valyuta məzənnəsinə birbaşa təsiri valyuta məzənnəsinin devalvasiya və revalvasiya vasitəsilə edilir. Devalvasiya ölkədə valyuta məzənnəsinin aşağı düşməsidir. Revalvasiya isə öz valyutasının dəyərinin qalxmasıdır. Valyuta sistemində valyutanın dönərliyindən istifadə edilir. Valyuta dönərliyinin aşağıdakı formaları vardır:

1. Valyutanın hissəvi dönərliyi. Bu o deməkdir ki, bu ölkənin vətəndaşı məhdud miqdarda valyuta ala bilər. Məhdud cəhətcə bu xarici ölkə vətəndaşlarına şamil edilir.



downloaded from KitabYurdu.az

2. Tam dönərli valyuta həm daxili, həm də xarici valyuta mübadiləsini əhatə edir. Yəni ölkədə yaşayan bütün vətəndaşlar istənilən ölkənin valyutasını alıb, sata bilər və yaxud hesablaşma apara bilər. Bütün valyuta sövdələşmələrinin 70 faizə qədəri Amerika dolları vasitəsilə aparılır.

3. Dönərli olmayan valyutadır ki, o da ölkə daxilində fəaliyyət göstərir. Başqa ölkənin puluna dəyişdirilmir.

Müasir dövrün valyuta münasibətləri qeyri-stabildir. Bu onunla əlaqədardır ki, valyuta münasibətlərində iştirak edən ölkələr bu və ya digər formada valyuta hesablaşmalarında riskə girirlər. Buna görə də onlar öz valyuta münasibətlərinin tənzimlənməsini aparmalıdırlar. Bu tənzimləməni qərbin ən aparıcı ölkələri həyata keçirirlər və «Yeddilər» adlandırılmışdır.

Həmin tənzimləməni aşağıdakı təşkilatlar həyata keçirirlər:

1. Beynəlxalq valyuta fondu.
2. Beynəlxalq yeniləşdirmə bankı.
3. Avropa valyuta (fondu) sistemi.

BVF maliyyə orqanı olub VMT-nin xüsusi statusuna malikdir. Həmin təşkilat 1944-cü ildə yaranmış və 49 ölkəni əhatə etmişdir. Həmin orqanın vəzifələri aşağıdakılardır:

1. Beynəlxalq valyuta əməkdaşlığını həyata keçirmək.
2. Xarici ticarəti inkişaf etdirmək.
3. BVF-na daxil olan ölkələrin valyuta kursunu nizama salmaq.



downloaded from KitabYurdu.az

4. Dünya iqtisadiyyatında aparılan iqtisadi islahatlara yardım etmək.

İqtisadi islaşatların aparılması üçün yaradılan BVF bir prinsip əsasında, yəni onlara müxtəlif xarakterli kreditlər verilməsi əsasında həyata keçirilir. BVF-na daxil olan ölkələr iqtisadi islahatların aparılması üçün müəyyən iclaslar keçirirlər və həmin yığıncaqlarda niyət protokolu imzalayırlar. Və həmin protokolda iqtisadi inkişafın əsas yolları əks olunur. Beynəlxalq yeniləşmə bankı kredit təşkilatdır və ona 148 ölkə daxildir. Həmin təşkilat əsasən uzunmüddətli kredit əsasında 15-20 il fəaliyyət göstərirlər.

Avropa valyuta sistemi 1960-cı ildə yaranmış təşkilatdır, o əməkdaşlıq və inkişaf təşkilatı adlanır. Həmin təşkilata 24 sənaye cəhətdən inkişaf etmiş ölkə daxildir. Təşkilatın əsas vəzifəsi onun üzvü olan ölkələrdə makroiqtisadi siyasət aparılmasına istiqamət verməkdir.

Ölkənin ticarət və tədiyyə balansının vəziyyəti valyuta siyasətinə və valyuta kursuna təsir göstərir. Ölkənin tədiyyə balansı onun bütün pul əməliyyatlarını özündə əks etdirir. Əgər ölkəyə idxal vasitəsilə məhsul daxil olursa, bu tədiyyə balansında «+», əgər ölkədən ixrac məhsulu gedirsə «-» hal sayılır. İdxal, ixrac qalığı «Saldo-İmporto-Eksporto» olanda bu o deməkdir ki, ölkə öz milli gəlirinin 1 hissəsini xarici ölkədə reallaşdırır. Bu tədiyyə balansının defisitliyidir. Ölkənin tədiyyə balansı 3 bölmədən ibarətdir:

1. Cari əməliyyatlar hesabı.
2. Kapital əməliyyatı hesabı.



downloaded from KitabYurdu.az

3. Rəsmi beynəlxalq valyuta hesabı.

Tədiyyə balansının tərkib hissəsi ticarət balansı sayılır. Ticarət balansında ancaq idxal-ixrac əks olunur. Respublikanın xarici ticarət dövriyyəsi aşağıdakı cədvəldə öz əksini tapmışdır.

[12]Cədvəl 46.

Xarici ticarət dövriyyəsi (min ABŞ dollar)

| İllər | Ümumi dövriyyə | idxal | İxrac | Saldo |
|---|---|---|---|---|
| 1991 | 4002234 | 1881266 | 2120968 | 239701 |
| 1994 | 1430644 | 777910 | 652734 | -125176 |
| 2000 | 2917291 | 1172071 | 1745219 | 573148 |
| 2002 | 3832883 | 1665484 | 2167399 | 501915 |
| 2003 | 5218146 | 2626427 | 2591719 | -34707 |

Cədvəlin ümumi yekunu «+» saldoya malikdir ki, bu da respublikanın tədiyyə balansının defisizliyini əks etdirir.

[12] A. St.rəq. 2004 il səh.668



downloaded from KitabYurdu.az

# *BÖLMƏ IV. MİLLİ İQTİSADİYYATIN ƏSAS SAHƏLƏRİNİN TƏNZİMLƏNMƏSİNDƏ DÖVLƏT SİYASƏTİ.*

## *FƏSİL XVI. DÖVLƏTİN ELMİ-TEXNİKİ SİYASƏTİ.*

### *1. ELMİ-TEXNİKİ SİYASƏTİNİN MAHİYYƏTİ VƏ VƏZİFƏLƏRİ.*

Elmi-texniki siyasət sosial –i qtisadi siyasətin bir hissəsi olub dövlətlə elmi və elmi-texniki vəaliyyətin münasibətini ifadə edir. Dövlət elmi-texniki nailiyyətlərin tətbiqini idarə və tənzim edir. Bu onunla şərtlənir ki, elmi-texniki inkişaf ölkənin iqtisadi potensialına daxildir. Çünki iqtisadi sistemin elmi-texniki potensialına elmi biliklər, innovasiya, istifadə olunmamış texniki ehtiyatlar, texnologiyalar, kadr ehtiyatları, texniki-texnoloji vasitələr, yaradıcı kollektivlər və s. məcmusu daxildir. Elmi-texniki tərəqqi yaradıcılıq fəaliyyətinin məhsuludur, buna görə də onun nailiyyətlərinin istehsalatda tətbiq edilməsi dövlətin elmi-texniki inkişaf proqramında nəzərdə tutulmalıdır. Buna görə də dövlət elmi-texniki tərəqqinin inkişafına dair düzgün siyasət yeritməlidir.

Dövlətin elmi – texniki tərəqqinin inkişafına müdaxiləsinin digər səbəbi, onun maddi istehsalın inkişafında və strukturunda təkmilləşdirilməsində, istehsal olunan məhsulun rəqabət qabiliyyətli olmasındakı rolu ilə izah olunur.

Bu məqsədlərin ealizə olunması üçün ETT və ixtisaslı mütəxəssislərin hazırlanmasına əlavə xərclər tələb olunur. Bu isə öz



downloaded from KitabYurdu.az

növbəsində dövlətin nəinki istiqamətverici, həm də maliyyələşmə mənbəyi rolunu artırır.

Bundan əlavə müxtəlif ölkələrdə geniş miqyasda elmi tədqiqat təcrübə konstruktor işlərinin sosial istiqamətləndirmə proqramları həyata keçirilir. Həmin proqramların həyata keçirilməsi bütünlükdə dövlətin üzərinə düşür. Çünki, belə proqramların həyata keçirilməsində özəl bölmənin marağı azdır.

Dövlətin ETT prosesinə müdaxiləsinin güclənməsinin bir səbəbi də yeniliklərin tətbiqinin ləng getməsidir. Məsələn, maliyyə çətinliyi ilə əlaqədar olaraq sənayedə yeniliklərin ləngiməsi.

Digər sahələrdən biri ETT-n nəticələrinin gözlənilməz olmasıdır. Yəni ola bilsin ETT işinə vəsait qoyulsun. Lakin nəticə alınmasın. Belə xərcə ancaq dövlət tab gətirə bilər. Dövlətin ETT-nin inkişafı prosesinə müdaxiləsinin bir səbəbi də ictimai məhsul (hərbi məhsul) istehsalının tənzim olunmasıdır.

Beləliklə, bazar iqtisadiyyatı şəraitində elmi-tədqiqat və tikinti konstruktor işlərinin aparılmasında fərdi istiqamətlə, xalq təsərrüfatı istiqaməti bir-birində fərqlənməlidir. Buna görə də dövlət ETT və sosial inkişaf arasındakı ziddiyyətləri yumşaltmağa səy göstərir. Elə bu dövləti ETT sahəsindəki siyasətini əks etdirir.

Deməli, ETT sahəsində dövlətin siyasəti elə tədbirlər sistemini əhatə edir ki, həmin tədbirlər fundamental ETT işlərinə, əsaslı tədqiqatlar aparmağa imkan verir.

Fundamental elmi tədqiqat işlərinin son nəticəsinin dövlət üçün maraqlı olması da nəzərə alınmalıdır. Çünki, fundamental



downloaded from KitabYurdu.az

tədqiqatlar külli miqdarda vəsait tələb edir. Bu isə son nəticədə onun effektli olmasının müəyyən edilməsini zəruriləşdirir. Elmi – texniki potensialın ümumiləşdirilmişeffektivlik göstəricisi belə hesablanır.

$$Э_n = \frac{\sum_{n-1}^{n=1} \frac{a_й}{a_{бй}} \cdot 100}{n}$$

burada $Э_n$ - elmi potensialdan istifadənin ümumiləşdirilmiş effektivlik göstəricisini;

$a_y$- nail olunmuş effekti səciyyələndirən i göstəricisini

$a_{bi}$ b potensialından tam istifadəni əks etdirən i – göstəricisini

n – göstəricilərin sayını əks etdirir.

Beləliklə, sosial – iqtisadi nöqteyi nəzərdən dövlətin elmi - texniki siyasəti onun bütün funksiyalarının yaradıcılıq əməyinin xüsusiyyəti nəzərə alınaraq elmi-texniki fəaliyyətin dəstəklənməsinə istiqamətlənməsidir.

## *2. ELMİ-TEXNİKİ SİYASƏTİN ƏSAS İSTİQAMƏTLƏRİ.*

İnkişaf etmiş ölkələrdə ETT-nin idarə və tənzim edilməsi barədə dövlətlə, müxtəlif subyektlər arasında əmək bölgüsü aparılır.



downloaded from KitabYurdu.az

Elmi və elmi – texniki fəaliyyətin subyektləri fiziki və hüquqi şəxslər ola bilər. Burada mühəndis – texniki fəaliyyətdə olan elmi işçilər, hər hansı bir hüquqi təşkilatın elmi kollektivləri, mütərəqqi elmi yaradıcılıqla məşğul olanlar, kiçik sahibkarlıq əsasında fəaliyyət göstərən innovasiya müəssisələri, elmi və elmi-texniki fəaliyyəti dəstəkləyən xüsusi fondlar, elmi-texniki və elmi – maarifçi cəmiyyətlər daxildir. Bu göstərilən subyektlərə münasibətdə dövlət subyektləri üstünlük təşkil edir. Çünki həmin subyektlərin heç biri bərabər hüquqlu və səlahiyyətli deyildirlər. Buna görə də cəmiyyətin adından ancaq dövlət çıxış edə bilər. Elmi və elmi – texniki subyektlərə nəzərən dövlət xüsusi subyektdir. Buna görə də dövlət həmin subyektlərin qarantı rolunu oynayır, onların fəaliyyətini istiqamətləndirir, xətləndirir və öz üzərinə aşağıdakı funksiyaları götürür:

- plan proqnozların müəyyənləşdirilməsi;
- xətləndirmə və tənzimləmə;
- informasiyaların toplanması və işlənməsi;
- tədqiqat işlərinin xətləndirilməsi;
- normativ-hüquqi aktların tərtibatı;
- xarici iqtisadi mövqeyin müəyyənləşməsi;
- təşkilatı və idarəedici;
- nəzarətedici.



downloaded from KitabYurdu.az

Dövlət ən çox fundamental tədqiqatların aparılmasında və ictimai tələbatın ödənilməsi (səhiyyə, energetika, kənd təsərrüfatı, ekologiya) prosesində məsuliyyət daşıyır.

Son nəticədə ETT sahəsində dövlətin siyasəti bir neçə aparıcı sahələrin və problemlərin həllinin seçilməsi nəticəsində formalaşır;

1. Dövlət resurslarının aparıcı sahələri nəzərə alınmaqla bölünməsi, ETT işlərinin elmi mərkəzlərdə aparılması.
2. Xüsusi bölmədə ETT nəticələrinin stimullaşdırılması (vergilərlə).
3. İqtisadiyyatın bütün sahələrində innovasiya (yeniləşdirmə) mühitinin formalaşdırılması.
4. Kadrların hazırlanması strategiyası.

İnkişaf etmiş ölkələrdə dövlət büdcəsinin formalaşması prosesində, elmin inkişafı dövlət büdcəsində nəzərdə tutulur. Həmin büdcənin köməkliyi ilə maliyyə vəsaiti istiqamətləndirilir. Bu zaman büdcənin bir hissəsi elmi müəssisələrə yönəldilir, müəyyən hissəsi isə müxtəlif kompaniyaların xeyrinə yenidən bölüşdürülür.

Elmi-tədqiqat və tikinti – konstruktor işlərinin müqavilə (kontrakt) üzrə proqram məqsədli maliyyələşdirilməsi dövlət ETT siyasətinin xüsusi forması kimi çıxış edir. Bu forma ikinci dünya müharibəsindən sonru daha çox inkişaf etmiş. Elmin inzibati amiranılik idarə sisteminin, dotasiyalı maliyyələşdirmə sistemi vasitəsilə sıxışdırılır.

İnnovasiya (yeniləşdirmə) siyasəti elmi-texniki tərəqqinin sahibkarlıq sistemində stimullaşdırılmasına yönəldilmişdir. Bu



downloaded from KitabYurdu.az

sahədə sahibkarlara yeni texniki və texnologiyanın tətbiqi sahələrində imkanlar genişləndirilmişdir.

ETT-nin dolayı yolla stimullaşdırılması əhatə edir:

1. Əsas kapitalın aktiv hissəsinə nəzərən ümumi investisiyanın həcmindən güzəştli vergilər qoyulması.
2. Korporasiyanın, birliyin, assosiasiyaların investisiyaya yönəldilən gəlirindən vergiləri 25 faiz azaltmaq.
3. Elmi – tədqiqat və tikinti konstruktor işləri üzrə avadanlıqların amortizasiyalarının müddətinin 5 ildən 3 ilə qədər endirmək.
4. Ali təhsil sistemində və maliyyə sistemi üçün vergi stimullaşdırılmasını həyata keçirmək.
5. Kompaniyalara, kooperativ yolu ilə ETT işləri aparmaq imkanı vermək.
6. Xırda ETT işlərinin bələdiyyə idarə və nazirliklərdə aparılmasının normativ maliyyələşdirilməsini həyata keçirmək.
7. Riskli «Vençurne» sığorta kompaniyalarında təqaüd fondlarının yaradılmasına icazə vermək.
8. Müəlliflik, patent hüququ vermək.
9. ETT üçün xüsusi firma və universitetlər açmaq.
10. ETT-nin MTB möhkəmləndirmək.



downloaded from KitabYurdu.az

## *3. İNKİŞAF ETMİŞ ÖLKƏLƏRDƏ ETT-NİN TƏNZİMOLUNMA MODELLƏRİ.*

Milli model anlayışı (ETT inkişafı haqqında) aparıcı industrial ölkələrdə ETT-nin beynəlxalq inkişafının tənzimlənməsi xüsusiyyətlərini əhatə edir.

Bu konteksdə ABŞ dölətinin təcrübəvi rolu ikili xarakter daşıyır. Bir tərəfdən dövlət ETT potensialının formalaşmasında iştirak edir. Belə ki, subsidiyalar kontrakt (müqavilə) və s. vasitəsilə ABŞ-ı faktiki olaraq sənayenin bütün sahələrini formalaşdırmışdır. Ənənəvi olaraq ABŞ-ın dövlət büdcəsinin təxminən yarısı ET və TKİ-nin maliyyələşməsinə və onun 80 faizə qədəri hərbi sənayenin inkişafına sərf olunur. İki hərbi proqramların hazırlanması yüksək texnologiyaya məxsus sahələrin yaranmasına səbəb olur.

Digər tərəfdən dövlət sənaye sahibkarlığının işinə minimum müdaxilə etmək və ETT-ni stimullaşdırmaq yolu ilə onların azad bazar hüququnu artırır, yeniliklərin tətbiqi sahələrinin genişləndirilməsi imkanlarına yol açır.

ETT-nin inkişafında Yapon modelinin bir sıra xüsusiyyətlərini qeyd etmək lazımdır. Onlardan birincisi iki baxışın sintezi kimi müəyyən olunan sintetik xarakterdir:

a) dövlət proqramlaşdırılması istiqamətilə (nişan alma və s. hansı ki, Qərbi Avropa ölkələrinə xasdır və ABŞ-ın hərbi kosmos proqramına mütabiqdir.)



downloaded from KitabYurdu.az

b) dolayı stimullaşdırıcı yolarla yeniliklərin tətbiqini genişləndirmək.

İkincisi, Abş-na nisbətən büdcədən elmin maliyyələşdirilməsi az olduğu üçün Yaponiyada Dövlət ETT-nin inkişafında ümumi strateji xəttin hazırlanmasında aparıcı rol oynayır. Yaponiya dövlətin xüsusi kapitalın ETT-nin inkişafına istiqamətlənməsi üçün təsirli vasitə olan vergi. Amortizasiya güzəştləri, subsidiya, istiqraz, kredit sistemi hazırlamışdır. Bu zaman iki korporasiyalarla əməkdaşlıq edilməsi də nəzərdən qaçırılmamışdır.

Üçüncüsü, ETT-nin Yaponiyada dövlət strategiyasının, elə razılaşma mexanizmi yaratmışdır ki, firmalar yerli hakimiyyət orqanları ilə elmi dairələrlə əməli təşkilata malik olsunlar.

Yaponiya iqtisadiyyatı üçün elmi kadrların hazırlanması təcrübəsi digər sivil ölkələrə də nümunə ola bilər. Belə ki, yaponiyada vahid həlqədə birləşə beş sistem fəaliyyət göstərir:

1. ömürlük muzdla işləmək.
2. kadr rotasiyası.
3. reputasiya sistemi (ad, şöhrət, etibar)
4. iş yerində hazırlıq
5. əmək haqqı sistemi

Bu sistemin hamısı «millətin fəlsəfəsi» əsasında birlikdə fəaliyyət göstərir. Yapon fəhləsi xalqın mənafeyini öz mənafeyindən daima üstün tutmağa çalışır. Onun hərəkəti öz müəssisəsinə maksimum mənfəət gətirməyə doğru istiqamətlənmişdir. Ömürlük



downloaded from KitabYurdu.az

muzdla işləyən fəhlə heç bir vaxt hətta müəssisə gəlirsiz olduğu vaxtlarda belə işsiz qala biləmz. Belə halda o, ixtisasını dəyişir, ixtisaslaşır və s. ömürlük işlə təmin olunma «dövlət işçisi» nomenklaturasına daxil olur.

Hər iki-üç ildən bir rotasiya (iş yerinin dəyişməsi) aparılır. İş yerini dəyişən hər bir işçi elə ad qoyub getməlidir ki, onun haqqında xoş sözlər söylənilsin (reputasiya).

Yapon işgüzar sistemi elədir ki, o, özü üçün lazım olan işçini iş yerində hazırlayır. Hətta ali təzhsili olanları da ilk əvvəl müəssisədə ən aşağı həlqədə yerləşdirirlər ki, ən yüksək vəzifədə olan halında, müəssisə haqqında tam məlumatı olsun. Yaponiyada elmi və səmərələşdirici təkliflərə, ümumiyyətlə elm və texnikaya çəkilən dövlət xərcləri daha çox təşkil edir. Nəticədə səmərələşdirici təkliflərin və elmi tərtibatların sayı çoxalır. Məsələn, yaponiyada hər 10 min əhaliyə il ərzində 150 səmərələşdirici təklif düşür.

Azərbaycan Respublikası hələlik inkişaf etmiş ölkələr sırasında deyildir. Lakin bununla belə ölkədə gedən islahatlar onun inkişafa doğru meyyli olduğuna sübutdur. Buna görə də ölkənin ETT-nin inkişaf etdirilməsi siyasətində dünya təcrübəsinə istinad edilmişdir. İnkişaf etmiş ölkələrdə ETT siyasətinin reallaşdırılması mexani zmi dörd blok üzrə nəzərdə tutulur:

1. Normativ-hüquqi
2. Təşkilatıi – idarəetmə.
3. İqtisadi.
4. Bazar.



downloaded from KitabYurdu.az

Normativ-hüquqi blok elmi-texniki tərəqqinin hüquqi aktlarının hazırlanmasını əhatə edir. Bu normativ hüquqi aktlar elmi-texniki tərəqqinin və investisiya istiqamətlərini müəyyənləşdirməyə və tənzimləməyə imkan verir. Lakin həmin hüquqi aktlar iqtisadi inkişafın real durumundan asılı olaraq daima təkmilləşməlidir.

Təşkilati-idarəetmə bloku elmi-texniki fəaliyyətin zəmanətliyini təmin edir, dövlət orqanlarının aşağıdakı istiqamətlərdə olduğunu müəyyən edir;

1. Mövcud bazar şəraitində elmi tədqiqat və təcrübə layihə təşkilatlarının təşkilati-hüquqi strukturunun yaradılması və yeniləşdirilməsi.

2. Elmi-texniki və texnologiyaların prioritet istiqamətlərinin seçilməsi, tədqiq edilməsi və təhlili.

3. Elm və elmi-texniki fəaliyyətin sahələrarası koordinasiyasının aparılması.

4. Elm və elmi-texniki proqramların, layihələrin tərtibi və reallaşdırılması.

5. Müəyyən müddətlərdə elmi texnikaya tƏsir edən bazar mexanizmi ilə dövlətin iqtisadiyyatı tənzimlənmə forma və metodların optimal uyğunlaşdırılması.

6. Elmi-texniki tərəqqinin regionlararası və sahələrarası inteqrasiyasını aparmaq.

İqtisadi blok elmi-texniki tərəqqinin inkişafının iqtisadi rıçaqlarını əhatə edir ki, bura da daxil etmək olar:



downloaded from KitabYurdu.az

1. Elmi və elmi-texniki fəaliyyət göstərən subyektlərdən vergilərin yığılması.

2. İnnovasiya sahibkarlığını bütün iqtisadi vasitələrlə dəstəkləmək və onlara güzəştlər etmək.

3. Elmi-texniki fəaliyyət subyektləri üçün xüsusi kömrük rejimi yaratmaq.

4. Elmi-texniki və innovasiya fəaliyyətlərinin dövlət tərəfindən maliyyələşdirilməsi.

5. Elmi yaradıcılıqda büdcüdün kənar fondların iştirakını təmin etmək.

6. Elmi və elmi-texniki tərəqqinin inkişafına kredit verən banklar üçün zəmanət vermək.

Elmi-texniki siyasətin reallaşdırılmasının bazar bloku, elmi və elmi yaradıcılıqla məşğul olan hər bir subyektə sərbəstlik vermək onların müsabiqədə, yarışda, müxtəlif tenderlərdə iştirakı azadlığını təmin etməkdən ibarətdir.

Respublikada elmi-texniki siyasətin iqtisadi inkişafı real durumu nəzərə almaqla yuxarıda qeyd olunanlara istinad etməsi onun iqtisadiyyatını bütünlükdə yüksəltmək imkanlarını daha da genişləndirə bilər. Lakin respublika hökumətinin elmi-tədqiqat işlərinə ayırdığı vəsait hələ də qənaətbəxş deyildir. Bunu aşağıdakı cədvəldən görmək mümkündür.



downloaded from KitabYurdu.az

Cədvəl 47[13]

Elmi-tədqiqat və işləmələrə çəkilən daxili xərclərin maliyyə mənbələri.

| | 2001 | 2002 | 2003 |
|---|---|---|---|
| Tədqiqat və işləmələrə çəkilə daxili xərclər mln. man. | 90367 | 91407 | 116115 |
| O cümlədən Dövlət | 40471 | 49710 | 73654 |
| Sahibkarlıq | 21683 | 19299 | 20683 |
| Ali məktəblər | 28212 | 22396 | 21778 |
| Ümumi daxili məhsula nisbətən faizlə | 0,3 | 0,3 | 0,3 |

Göründüyü kimi elmi-tədqiqat işlərinə çəkilən xərclər ÜDM-un 0,3 faizi qədərdir. Bu vəsait demək olar ki, fundamental bir tədqiqat işinin aparılmasına da bəlkə yetərli deyildir. Elmi tədqiqat işlərinə çəkilən xərclərdən də demək olar ki, nəticə alınmır.

Azərbaycan Respublikasının elmi müəssisələrində 2003-cü ildə 1178 aspirant vardır. Həmin ilin qəbulu 398 nəfər, buraxılışı isə 260 nəfər olmuşdur. Həmin 260 nəfər buraxılışdan cəmi 27 nəfər

[13] Az. St. rəqəm 2004 səh 230-231



downloaded from KitabYurdu.az

dissertasiyasını vaxtında müdafiə etmişdir. Deməli 233 aspiranta xərclənən dövlət vəsaiti nəticəsiz olmuşdur.

Bununla əlaqədar olaraq elmi tədqiqat işlərinin aparılmasına və onların vaxtında başa çatdırılmasına dövləti ciddi nəzarəti olmalıdır.



downloaded from KitabYurdu.az

## *FƏSİL XVII. MİLLİ SƏNAYENİN İNKİŞAFINDA DÖVLƏT SİYASƏTİ.*

### *1. DÖVLƏTİN SƏNAYE SİYASƏTİNİN MƏZMUNU VƏ VƏZİFƏLƏRİ.*

Azərbaycan Respublikasının sənaye kompleksi, iqtisadiyyatın mərkəzləşdirilmiş idarə olunması dövründə formalaşmışdır. Bu dövrdə sənayenin inkişafının məqsədi direktiv qaydada müəyyən edilirdi. Buna görə də sənayenin bəzi sahələrində, əsasəndə istehlak məhsulları istehsalı sahələrində geriləmələr müşahidə olunmağa başlamışdır. Həmin dövrdə Azərbaycan Respublikası keçmiş İttifaqın tərkibində olduğu üçün, iqtisadiyatda baş verən qeyri səmərəli struktur dəyişikliyiümumi məcmu istehsalın azalmasına səbəb olmuşdur və bu da öz əksini milli respublikaların iqtisadiyyatında göstərmişdir. Belə ki, həmin dövrlərdə məcmu məhsulun illik artımı 1976-1980-ci illərdə 4,2%, 1981-1985-ci illərdə 3,3%, 1986-1989-cu illərdə 2,8% təşkil etmişdir.

Respublika müstəqillik əldə etdikdən sonra onun iqtisadi inkişafı haqqında fikir söyləmək üçün İqtisadi İnkişaf Nazirliyinin göstəricilərinə diqqət yetirmək kifayətdir. «2003-cü ildə Azərbaycanın sosial-iqtisadi inkişafı yüksələn xətt üzrə inkişaf edir. Bu irəliləyişlər 1996-cı ildən başlayıb və son səkkiz il ərzində ÜDM 90%, büdcə gəlirləri 3,9 dəfə, əsas kapitala yönəlmiş sərmayələrin həcmi 6,5 dəfə, xarici ticarət dövriyyəsi 3,3 dəfə, əhalinin real pul



downloaded from KitabYurdu.az

gəlirləri 3 dəfə, orta aylıq əmək haqqı isə 6 dəfə artıb»[14]. Həmin dövrdə istehsalın həcmi, istehlakın tələbatına uyğun gəlmirdi ki, bu da əmtəə qıtlığı yaradırdı. Öz növbəsində belə müxtəlif disproporsiyaların mövcudluğu sistemin idarə olunmasının effektiv olmadığını sübut edirdi.

Lakin bununla belə idarəetmənin və istehsal strukturunun elmi texniki tərəqqiyə nəzərən səmərələşdirilməsi səylərinin hamısının effektiv olduğunu da söyləmək olmaz. Belə ki, istehsalın sahəvi strukturu sahələrarası balans vasitəsilə tənzimlənirdi. XX əsrin 70-80-ci illərdə milli gəlirdə yığım fondunun xüsusi çəkisinin azaldılmasına, hərbi sənayedə xalq istehlakı məhsullarının istehsalının təşkil edilməsinə idarəetmədə iqtisadi metodların, təsərrüfat mexanizminin tətbiq edilməsinə səy göstərilmişdir. Lakin bunların hamısı mərkəzləşdirilmiş idarə etmənin və istehsalın strukturunun məqsədinə təsir göstərməyərək, vaxtı çatmış radikal tədbirlərin həyata keçirilməsindən yan keçmişdir. Bununla belə bazar iqtisadiyyatının birinci 10 illiyində, dövlət tənzimlənməsi olmadan sənaye istehsalının sərbəst buraxılması onun durğunluğuna staqnasiya səbəb olmuşdur. Respublikada hazırda əsasən xammal, enerji və bir sıra sənaye sahələri fəaliyyət göstərirlər ki, onlarda ixrac məhsulları istehsal edirlər. Eyni zamanda onların istehsal etdikləri məhsula daxili tələbat azalmışdır.

---

[14] Fərhad Əliyev «Yeni Azərbaycan» qəzeti 17.03.04.



downloaded from KitabYurdu.az

Bazar iqtisadiyyatına keçidlə əlaqədar oalarq istehsalın bütün sahələrində olduğu kimi, sənayenin də inkişafında artım müşayiət olunur. Məsələn, 2000-ci illə müqayisədə 2003-cü ildə (01 yanvar[15]) sənayenin bütün məhsulu 9%, o cümlədən hasilat sənayesində 9%, emal sənayesində 8%, elektrik enerjisi, qaz və su təchizatı 5% artmışdır.

Respublikada sənaye istehsalı liberallaşsada, onun fəaliyyəti üçün əlverişli şəraiti dövlət yaradır. Dunya ölkələrinin təcrübəsindən istifadə edərək dövlət sənaye siyasətini müəyyən edir. Çünki iqtisadiyyatın tərəddüdlü inkişafı dövründə iqtisadiyyatın dövlət tənzimlənməsi metodlarından geniş istifadə olunur. Bunun əsasında milli sənayenin inkişaf strategiyasının hazırlanması durur. Bu strategiyada səmərəli mövqedən daxili və xarici mühiti təhlil edilir, təbii resursları çıx-daşı müəyyənləşdirilərək. Stimullaşdırıcı iqtisadi mexanizmlərə əsaslanaraq texnoloji yeniləşdirmə aparır, dövlət əhəmiyyətli iri investisiya proqramları maliyyələşdirilir.

Sənaye ölkənin milli məhsulunun yaradılmasının əsas mənbəyi sayılır. O, həm daxili tələbatı ödəmək üçün və həm də ixrac üçün məhsul istehsal edir. Dünya təcrübəsindən məlumdur ki, stabil inkişaf edən iqtisadiyyatda sənaye məhsulunun xüsusi çəkisi ÜDM-da təxminən 40% təşkil edir.

---

[15] Az.st.rəq.2003 səh 453



downloaded from KitabYurdu.az

[16]Cədvəl 48.

ÜDM-da sənayenin xüsusi çəkisi.

| | 2000 | 2001 | 2002 | 2003 |
|---|---|---|---|---|
| Ümumi daxili məhs mlrd. man. | 23590 | 26378 | 29602 | 35100 |
| Sənaye məhsulu mlr man. | 18198 | 18445 | 20098 | |
| Sənaye məhsulunun ÜDM-da xüsusi çəkisi %-lə | 77,1 | 69,9 | 67,8 | |

Göründüyü kimi respublikada iqtisadi inkişaf stabilliyi mövcuddur və buna görə də sənaye məhsulunun xüsusi çəkisi yuxarıda qeyd olunan səviyyədən yüksəkdədir. Son on ildə sənaye sahələrinin mülkiyyət formaları üzrə strukturunda dəyişikliklər baş vermişdir. Belə ki, 1998-ci ildə sənayedə dövlət mülkiyyəti 73,6%, qeyri dövlət mülkiyyəti 24,6% təşkil etmişdirsə, 2002-ci ildə bu göstəricilər 45,2%, 54,8% təşkil etmişdir. Göründüyü kimi ölkə sənayesi bazar iqtisadiyyatı tələblərinə uyğun inkişaf edir. Buna görə də dövlətin əsas vəzifəsi mili sənayenin inkişafı səviyyəsini saxlamaqdan və onu hər tərəfli dəstəkləməkdən ibarətdir. Çünki ÜDM-un istehsalındakı roluna görə sənaye digər sahələrə nisbətən prioritet mövqedə durmalıdır.

[16] Az.st. rəq. 2003. səh 452



downloaded from KitabYurdu.az

Dövlət tənzimlənməsi sənayenin inkişafının əsas amilidir. Lakin onun istiqamətinin seçilməsi, nəticə və xərclərin qiymətləndirilməsi bazar mexanizmlərinin fəaliyyətinə nəzərən qurulmalıdır. Bunun əsasında da sənaye məhsulunun istehsalının artırılması, onun reallaşdırılmasının səmərəliliyi, təkrar istehsal istiqaməti, innovasiya-investisiya fəaliyyəti, sosial nəticələri və ekoloji məhdudiyyətləri həyata keçirilməlidir.

Milli sənaye istehsalı ixracla rəqabətə tab gətirməlidir. Respublikanın sənaye məhsulunun xarici ticarət balansı nəinki enerji və hasiledici sahələrin hesabına müsbət olmalıdır, habelə emaledici sənaye məhsullarının ixracı da nəzərdən qaçırılmamalıdır.

Bazar iqtisadiyyatında əsas funksional həlqə kimi, sənaye müəssisələri durur. Bütün tənzimedici amillər müəssisələrin effektli fəaliyyətinin dəstəklənməsinə istiqamətlənməlidir. Bir sözlə dövlət tənzimlənməsisənayenin ümumi effektivliyinin yüksəlməsinə istiqamətlənməklə, müəssisələrin fəaliyyəti üçün səmərəli şərait yaratmalı, onların bazar iqtisadiyyatına adaptasiya olunmasına yardım etməlidir.

Müasir dövrdə sənayenin idarə edilməsi, birbaşa iqtisadi metodlar vasitəsilə həyata keçirilməyə başlamışdır ki, bu da sənayenin marketinq konsepsiyasının işlənib hazırlanmasını tələb edir.



downloaded from KitabYurdu.az

## *2. SƏNAYE SİYASƏTİNDƏ MARKETİNQ KONSEPSİYASI.*

Ölkə iqtisadiyyatı, istehlak etdiyi məhsuldan müəyyən qədər artıq məhsul istehsal etməlidir. Bu istehsal olunmuş məhsulun reallaşdırılması effektivliyini artırır. Bu baxımdan sənaye siyasətində marketinq konsepsiyasının olması birinci dərəcəli əhəmiyyətə malikdir. Tələb və təklifin təhlili bazar iqtisadiyyatının durumunu əks etdirir, dövlətin sənaye siyasətinin istiqamətinin formalaşdırır. Böhranlı dövrdə, dövlət tənzimlənməsi bazar münasibətlərinin dəstəklənməsi aləti kimi çıxış edir. Bu zaman, sənayenin inkişafının istiqamətinin seçilməsi, cari və perspektiv tələbatın təmin olunmasına istiqamətlənməlidir. Beləliklə, bazar amili, sənayenin inkişafının əsas təmayülünün seçilməsinə xidmət edir. Buna görə də sənayenin gələcək strukturu, investisiya siyasəti və dövlətin idarəetmə tədbirləri müəyyən edilərkən, daxili bazarın əmtəə tələbatı, rəqabətə davamlı məhsul istehsalı ilə dünya bazarına çıxması imkanı, sənayenin texnoloji ixtisaslaşma səviyyəsi müəssisələrin investisiya qabiliyyəti, dövlət və kommersiya strukturlarının fəaliyyətə nəzərə alınmalıdır.

Qeyd olunanların hamısı sənayenin inkişafının marketinq konsepsiyasının əsasını təşkil edirlər. Marketinq konsepsiyasının məzmununu aşağıdakılar əks etdirir:

1. Əmtəə mübadiləsi və reallaşdırılması.
2. İstehsal və təkrar istehsal məsələlərinin həlli.
3. Sosial məsələlərin həlli.



downloaded from KitabYurdu.az

Deməli, sənaye üçün dövlət elə maddi baza yaratmalıdır ki, daxili tələbat üçün effektli əmtəə mübadiləsi üçün məhsul istehsal edə bilsin. Həmin məhsulların realizə olunması cəmiyyətin tələbatını ödəyərək, dövlət büdcəsinin formalaşmasına, maddi-maliyyə resurslarının yaradılmasına imkan verir.

İqtisadi nöqteyi nəzərdən sənaye siyasətində nəzərdə tutulmuş mühüm vəzifə istehsal və qeyri-istehsal tələbatının ödənilməsidir. Ölkənin sənaye siyasətində sosial məsələlər də nəzərdə tutulur. Belə ki, əhalinin məşğulluq səviyyəsini nsaxlanılması, onun alıcılıq qabiliyyətinin artırılması və s. bu kimi məsələlər ölkədə sənaye məhsulu istehsalı ilə birbaşa əlaqədardır.

Bu tələblərin yerinə yetirilməsi bütünlükdə sənaye kompleksinin bazar effektivliyini yüksəldir. Nəticədə resursa qənaət tələblərinin yerinə yetirməklə xarici və daxili bazar üçün məhsul istehsalının artırılmasına imkan yaranır. Məlumdur ki, sənaye istehsalının effektivliyinə əmtəə ixtisaslaşması olmadan nail olmaq olmaz. Buna görə də sənayedə əmtəə ixtisaslaşması olmalıdır.

Əmtəə ixtisaslaşması mili sənaye müəssisələrinin məhsul məhsul istehsalı növünün bazar və texnologiyadan asılı olaraq dəyişilməsidir. O, bazar tələbatından asılı olaraq dəyişilə bilir və marketinq sistemi vasitəsilə reallaşdırılır. Buna görə də sənayedə əmtəə ixtisaslaşması, marketin təhlili əsasında, xarici və daxili bazarda rəqabətə davam gətirən, yüksək rentabelliliyə malik olan maksimum məhsul istehsal olunması məqsədini güdür. Sənaye siyasətində marketinqin yeri aşağıdakı qurumda göstərilmişdir.



downloaded from KitabYurdu.az

Şəkil 26.

Respublikada əmtəə istehsalçıları bazarı

| Dünya bazarı | MDB | Respublikada | Reqionlarda |
|---|---|---|---|

↓

Marketinq sistemi

↓

1. Əmtəə ixtisaslaşması üzrə təklif.
2. Əmtəə axınının təşkili üzrə təklif.
3. Əmtəə satışının max. Və təhlili.
4. Dövlət sifarişlərinin effektli yerləşdirilməsi.
5. Əmtəə bazarı məcmunun və müəyyənliyinin təhlili

Bazarda effektli iştirakına görə müəssisələr qrupu

| Effektli işləyənlər | Müəyyən qədər effektli | Effektiv olmayanlar |
|---|---|---|

Dəstəkləmə mexanizmi

| | | |
|---|---|---|
| Dəstəkləmə mexanizmiMəhsul istehsalı və effektivliyi vasitəsilə istehsalın inkişafının dəstəklənməsi | Güzəştli investisiya, kredit, güzəştli vergi, dövlət subsidiyaları | İflas, yüksək borc, güzəştlərin ləğv edilməsi, torpaq və ekologiya üzrə haqların yüksəldilməsi |



downloaded from KitabYurdu.az

Rəqabətə qabiliyyət səviyyəsi, istehlak xüsusiyyəti və məhsulun qiyməti bazarın təbiətindən çox asılıdır.  Buna görə də bütün əmtəələr müəyyən qruplara ayrılırlar. Birinci qrup məhsullar dünya bazarının rəqabətinə davam gətirənlər, ikinci qrupa isə MDB ölkələri bazarı üçün istehsal olunanlar sayılır. Üçüncü qrupa daxili bazarın tələbatını ödəyən məhsullar, dördüncü qrupa isə regionların tələbatını ödəyən kütləvi məhsullar istehsalı nəzərdə tutulur.

Göstərilən qruplardan heç bir nə uyğun gəlməyən məhsullar rəqabət qabiliyyətsiz, effektsz sayılər və onların istehsalının dayandırılması məqsədəuyğundur. Belə məhsullara tələbat idxal hesabına ödənilməlidir. Lakin onların idxal səviyyəsi elə olmalıdır ki, ölkənin iqtisadi təhlükəsizliyinə xələl gəlməsin. Əgər həmin məhsulların gətirilməsi müəyyən fəaliyyəti pozarsa, bu zaman dövlət sənayedə struktur dəyişikliyi nəzərdə tutmalıdır. Həmin məhsulların idxal həcmi (ərzaq məhsulları üzrə) ümumi istehsalın 30% qədərində olması məqsədə uyğundur.

Göstərilən bazarlar, öz həcmi və real imkanları iləbir-birindən əhəmiyyətli dərəcədə fərqlənirlər. Təbiidir ki, həmin bazarlarda rəqabət mövcuddur və hər bir bazar bunu nəzərə alaraq, dünya standartları tələbini ödəyə bilən məhsulla bazara çıxır. Əmtəələrin rəqabət qabiliyyətliliyi bir neçə parametrlərlə müəyyən edilir;

1. Məhsul istehlak keyfiyyətinə görə tələbata uyğun olmalıdır.



downloaded from KitabYurdu.az

2. Qiymət tələbatı stimullaşdırılmalıdır.

3. Məhsulun həcmi və növü istehlakçının tələbatına uyğun olmalıdır.

Müstəqilliyə nail olduqdan sonra ölkədə aparılan ardıcıl iqtisadi siyasət nəticəsində sənaye istehsalının inkişafı yüksəlməyə başlamışdır. Məlum hadisələrdən başlayan iqtisadi tənəzzülün qarşısı 1997-ci ildən başlayaraq alınmışdır. Sənaye məhsulunun istehsalı 1997-2002-ci illərdə 23,8% artırılmışdır. Bu artım emal sənayesində 13,6%, o cümlədən yeyinti sənayesində 22% taxta materialları istehsalında 2 dəfə, kimyəvi məhsullar istehsalında 2.1 dəfə metallurgiya sənayesində 2,5 dəfə təşkil etmişdir.

Respublika sənayesində aparılan struktur irəliləyişləri nəticəsində əvvəllər idxal olunan məhsulların bir qismi respublikada istehsal olunmağa başlamışdır. «Bakı yağ və qiba sənaye» bitki yağı, «Coca-cola Botlers LTD» alkoqolsuz içkilər, «SUN - Tea» qablaşdırılmış çay, «Bakı Kastel» pivə, «European Tabako» papiros və siqaretlər, «Nehir» parket, «DAD» «Bərəkət» üzlü süd, «Azəri - Pen» , «Türk - Baycan» plastik qapı və pəncərə və s. müştərək müəssisələr dünya standartlarına uyğun gələn məhsullar istehsal edirlər.

Respublikanın yanacaq enerci kompleksinin inkişafında da artım sürətinə nail olunmuşdur. Ölkədə 2002-ci ildə 18,7 mlrd. kvt saat elektrik enerjisi istehsal edilmişdir. Nəticədə ölkə əhalisinin hər nəfərinə düşən elektrik enerjisi 2320 kvt-saat olmuşdur ki, bu da MDB ölkələri arasında orta göstəriciyə mütabiq gəlir.



downloaded from KitabYurdu.az

Ölkədə işgüzar mühitin yaradılması sayəsində əhalinin məşğulluğu artmışdır. 2003-cü ilin 1 yanvar vəziyyətinə görə 5202 sənaye müəssisə fəaliyyət göstərir. Azərbaycan Respublikası ölkə iqtisadiyyatının daha da inkişafını təmin etmək məqsədilə «açıq qapı» siyasətini həyata keçirir. Bu iqtisadi siyasətin aparılması sayəsində ölkədə xarici investorların fəaliyyəti gyclənmişdir. Hazırda respublikada 40 dövləti təmsil edən 171 xarici müəssisə fəaliyyət göstərir. Ölkədə aparılan iqtisadi islahatlar nəticəsində, yeni təsərrüfatçılıq formaları geniş vüsət almışdır. Belə ki, sənaye məhsulunun xüsusi çəkisində qeyri dövlət sektorunun payı 1995-ci ildə 5,5%-dən 2002-ci ildə 55,0%-ə qədər yüksəlmişdir. Ölkədə mövcud olmuş iqtisadi böhranın səbəblərindən biri olan keyfiyyətsiz məhsul istehsalı artıq aradan qaldırılmış, hazırda sənayedə istehsal olunan məhsulların keyfiyyəti əksər hallarda dünya standartlarının tələblərinə cavab verir.

## *3. ƏMTƏƏ VƏ TEXNOLOJİ İXTİSASLAŞMA*.

Sənayenin inkişafında marketinq strategiyasının əsas nəticəsi səmərəli əmtəə ixtisaslaşmasının seçilməsidir. Bazar iqtisadiyyatı şəraitində iqtisadi subyektlər istehsal olunacaq məhsulun strukturunu və həcmini özləri müəyyən edirlər. Dövlətin sənaye siyasətinin rolu ondan ibarət olur ki, daha səmərəli və perspektivli



downloaded from KitabYurdu.az

məhsul istehsalı ilə iqtisadi artıma nail olunmasını təşkil etsin, onların texnoloji inkişafına şərait yaratsın.

Ölkə sənayesinin inkişafında ilkin olaraq əmtəə ixtisaslaşması, daxili tələbatı ödəmək üçün perspektivli əmtəə istehsalının təşkil edilməsidir. Onların istehsalında qısa və orta müddətli güzəştli investisiyalar prioritet təşkil etməlidir. Həmin istehsal sahələrinin texniki silahlanması, rəqabət qabiliyyətli məhsul istehsalı ilə müşayiət olunmalıdır. Belə məhsulların əmtəə dövriyyəsinin artırılması yüngül sənayenin və digər maşınqayırma sənaye sahələrinin inkişafını canlandırır. Bu sahələrin elmi-texniki təminatı onların istehsal etdikləri artıq məhsulla və ya xarici lisenziya əsasında ödənməlidir. Onu da qeyd etmək vacibdir ki, bu sahələrdə investisiya qoyuluşunun birinci mərhələsi selektiv (seçmə) xüsusiyyətə malik olmalıdır.

Dövlət tərəfindən o, məhsulların istehsalı dəstəklənir ki, yüksək istehlak keyfiyyətinə malikdirlər və qiymətlərində dünya bazarının rəqabət qabiliyyətinə uyğundur. Eyni zamanda dəyanətli maliyyə-təsərrüfat quruluşuna malik olan müəssisələrdə dövlət tərəfindən dəstəklənməlidir.

Məqsədli investisiyalaşdırma və selektiv (seçmə) yolu ilə əmtəə istehsalının dəstəklənməsi konkret istehalçılar üzrə aparılır. Bunun üçün onların daxili və xarici bazara çıxma imkanlarının iqtisadi qiymətləndirilməsi aparılmalıdır. Eyni zamanda onları kredit qaytarma imkanları araşdırılmalı, bu imkanlar məhduddursa, həm də müəssisə müflis edilməlidir.



downloaded from KitabYurdu.az

İstehsalçılara bu istiqamətdə yanaşılması rəqabətə qabiliyyətli və profil müəssisələrinin seçilməsinə, onların dövlət tərəfindən dəstəklənməsinə, qeyri profil effektsizlərinin fəaliyyətinin dayandırılmasına imkan verir.

Dövlətin sənaye siyasəti dairəsində sahələrin bazar ixtisaslaşmasının formalaşması üçün müəyən məsələlərin həlli zəruridir. Hər şeydən əvvəl marketinq təhlili aparılması məhsulun rəqabət qabiliyytliyi, keyfiyəti və qiyməti, uyğun bazarların inkişaf perspektivi müəyyən edilməlidir. Sonra isə texnoloji əsasda perspektiv üçün sənayenin yeni məhsul istehsalı da daxil olmaqla əmtəə ixtisaslaşması müəyyən edilməli və bazara çıxış imkanları aşkarlanmalıdır. Bu zaman mühüm məsələlərdən biri də qısa müddətli investisiya proqramı tərtib edilməli, müasir texnologiyaya uyğun gələn struktur dəyişikliyi aparılmalıdır. Sənayedə əmtəə ixtisaslaşmasının inkişafında elmi müəssisələr tərəfindən yaradılmış və perspektivdə istehsalının təşkil edilməsi nəzərdə tutulan yeni məhsulların müəyyən edilməsi xüsusi əhəmiyyətə malikdir. Bu sənaye məhsulu istehsalının potensialıdır. Belə məhsulun istehsalı sənayenin dəstəklənməsinin əsas şərtlərindən olmalıdır və dövlətin sənaye siyasəti proqramının çərçivəsində həyata keçirilməlidir.Onlar uzun müddətli marketinq strategiyası ilə uyğunlaşdırılaraq müstəqil ekspertizadan keçirilərək müəssisənin biznes planına daxil edilirlər.

Dövlətin sənaye siyasəti və onun informasiya marketinq təminatını aşağıdakı sxemlə göstərmək olar:



downloaded from KitabYurdu.az

Şəkil 27.






downloaded from KitabYurdu.az

Dövlətin sənaye siyasəti informasiya kütləsinin formalaşmasının aşağıdakı sahələrini nəzərdə tutur:

1. Qəbul edilmiş təsnifat uyğun əmtəə qruplarının bazarda reallaşdırılması haqqında informasiya.

2. Rəqabətə qabiliyyətlə həmin bazara çıxmaq imkanı olan sənaye müəssisələri haqqında informasiya.

3. Ehtimal olunan effektli əmtəə istehsalçıları haqqında dəqiq məlumat.

Əmtəə axınının dinamikası və strukturunun təhlili sənaye siyasətinin mühüm elementidir. Bu müxtəlif ölkələrin bazarında istehlak tələbatı olan məhsulları müəyyən etməyə imkan verir. Həmin məhsullar haqqında informasiya mənbəyi kimi statistik göstəricilər çıxış edir. Həmin informasiyaların təhlili, uyğun bazarlar üçün zəruri olan məhsul kütləsinin müəyyənləşdirilməsi sahəsinin (massiv) aşkar edilməsinin ilkin mənbəyi sayılır. Bütün bu informasiyalar rəqabət qabiliyyətli məhsullar haqqında məlumat bankının formalaşmasına imkan verir. Həmin banka ardıcıl olaraq məlumatların daxil olması, və təhlil edilməsi, sənaye məhsulunun hərəkətinin, onun əmtəə ixtisaslaşmasını qiymətləndirməyə imkan yaradır. Sənayenin dövlət tərəfindən dəstəklənməsinin əməli və məqsədli fəaliyyəti, rəqabətə qabiliyyətli sənaye müəssisələrinin seçilməsi üçün informasiya sahəsi (massivi) yaradılır. Onların effektivliyinin növbə ardıcıllığı sənaye müəssisələrinin investisiya müqavilələri göndərilən balans hesablamaları əsasında müəyyən edilir. Belə məlumatlar çoxluğu müəssisələri effektivliyi üzrə



downloaded from KitabYurdu.az

qruplaşdırmağa, maliyyə təsərrüfat fəaliyyətlərini qiymətləndirməyə, stimullaşdırıcı tədbirlərin məqsədyönlülüyünü aşkar etməyə imkan verir.

İnvestisiya proqramının təhlilində əsas meyar, bazar tələbatına müvafiq olaraq buraxılan məhsulun qiymət və keyfiyyətinin dəqiq müəyyən edilməsidir.

Sənayenin inkişafının dövlət tənzimlənməsi sistemini belə göstərmək olar.



downloaded from KitabYurdu.az

Cədvəl 28.






downloaded from KitabYurdu.az

Beləliklə, sənaye siyasəti cəmiyyətin resurslarının seçilmiş istiqamət üzrə təmərküzləşməsini təmin edir və uzunmüddətli proqramla reallaşdırılır. Onun köməkliyi ilə səmərəli struktur dəyişikliyi aparılır və bunun üçün elmi-texniki potensialın cəlb olunması imkanlarını genişləndirir.

## *4. SƏNAYEDƏ İNVESTİSİYA – İNNOVASİYA SİYASƏTİ.*

Əmtəə texnoloji ixtisaslaşma istehsalın mövcud texnologiyası əsasında formalaşır. Bu zaman elmi-texniki, potent, lisenziya səviyyəsi nəzərə alınmalıdır ki, rəqabət qabiliyyətli məhsul istehsal edilsin. Bununla bərabər sənayedə əmtəə-texnoloji ixtisaslaşmaya investisiya imkanları, təbii resurslarla təmin olunma və ekoloji tələblərdə güclü təsir göstərir.

Sənaye kompleksinin texnoloji ixtisaslaşması ilk növbədə sahə strukturunda öz əksini tapır. Bazar şəraitində o, müəyyən növ məhsul buraxılışı üçün istiqamətlənmiş texniki bazanın mövcudluğuna əsaslanır. Bunun mülkiyyət formalarında istehsal, biznes-plan və investisiya proqramı əsasında yerinə yetirilir.

Dövlətin sənaye siyasətinin investisiya proqramı, orta müddətli sahə proqnozu və texniki inkişaf proqramı əsasında da



downloaded from KitabYurdu.az

tırtib oluna bilər. Bu proqramlarda sənaye müəssisələri üçün istehsalın yüksək effektiviliyi və uyğun bazarda özü üçün möhkəm yer tuta biləcək məhsulların istehsalı üzrə tədbirlər də əks olunmalıdır. Bununla belə sahə proqramları müəssisələrə öz texnoloji siyasətlərini formalaşdırmaq üçün informasiya rolunu oynayırlar.

Bu proqramlar dövlətin investisiya – innovasiya siyasətinin sahələr üzrə həyata keçirilməsinin tənzim olunması aləti olub, bazar şəraitində dəqiq müəyyən olunmuş müəssisələr üzrə reallaşdırılır. Əgər bu reallaşma dövlətin iştirakı ilə baş verirsə, bu zaman o. İqtisadi mexanizmlərvasitəsilə həyata keçirilir.

Müəssisələrin investisiyalaşdırılması proqramında yeni texnoloji tərzə keçidi təmin keyfiyyətli texniki dəyişikliklər nəzərdə tutulmalıdır. Bu tələblər sənaye müəssisələrinin dövlət tərəfindən dəstəklənməsi tədbirləri həyata keçirildiyi zamanda irəli sürülə bilər. Əmtəə bazarında effektli fəaliyyət göstərən kommersiya müəssisələrin protensionist tədbirlərə ehtiyacları olmur. Onlar öz investisiyaları hesabına bazar tələbatına uyğun texniki səviyyəni saxlayırlar. Qeyd olunan dövlət tədbirləri onlara aid edilmir.

Sənayedə investisiya – innovasiya siyasətinə dövlətin investisiya siyasətinin əsas hissəsi kimi baxılır. O, dövlətin investisiya proqramı vasitəsilə reallaşdırılır və sənaye müəssisələrinin, sahələrin proqramlarının inteqrallaşmış məcmu kimi çıxış edir. Bu proqramlar, dövlət büdcəsinin formalaşması üçün keyfiyyətli və zəmanətli olan, elm tutumlu əmtəə ixtisaslaşmasını təmin edən,



downloaded from KitabYurdu.az

stapbil həcmə malik olan yüksək keyfiyyətli məhsul istehsalını şərtləndirir. Belə sahəvi investisiya proqramları kompleksi. İstehsalın texnoloji səviyyəsinin yüksəldilməsini nəzərdə tutmalıdır.

İnvestisiya – innovasiya siyasəti, sənaye müəssisələrinin maddi – texniki bazasının inkişafı və son sosial-iqtisadi məqsədlər üçün texniki silahlanmanın yüksəldilməsi əsasında qurulur.

Dövlətin sənaye siyasətinin tərkibində əmtəə-texnoloji ixtisaslaşma üçün effektli investisiya siyasətinin həyata keçirilməsi müəyyən tədbirlər tələb edir. İlk növbədə müəssisənin investisiya proqramının seçilməsi, sosial-iqtisadi və texnoloji qiymətləndirilməsinin məqsədi müəyyən edilir. Həmin tədbirlərin kreditləşməsi mexanizmi hazırlanmalıdır.

Zəruri olan məsələlərdən biri də investisiya proqramlarının maliyyələşdirilməsi üçün müxtəlif investorların cəlb olunmasıdır.

İnvestisiya proqramlarının yerinə yetirilməsinə nəzarət edilməlidir.

Dövlət investisiya proqramlarının, müqavilələrinin pozulması hallarını aradan qaldırmaq üçün hüquqi baza yaradılmalı, normativ aktlar qəbul edilməlidir.

Respublikada 13 yanvar 1995-ci ildə «İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasının qanunu» qəbul edilmişdir. Göstərilmişdir ki, «Bu qanun Azərbaycan Respublikasında investisiya fəaliyyətinin ümumi sosial, iqtisadi və hüquqi şərtlərini müəyyənləşdirməklə investisiyanın iqtisadiyyata cəlb olunmasına, ondan ölkənin sosial iqtisadi bazasının, habelə beynəlxalq iqtisadi



downloaded from KitabYurdu.az

əməkdaşlığın və inteqrasiyanın inkişafı üçün səmərəli yönəldilmişdir və mülkiyyət formasından asılı olmayaraq bütün investorların hüquqlarının bərabər mydafiəsinə təminat verir»[17].

Həmin sənəddə investisiya fəaliyyətinin dayandırılmasına xitam verilməsi şərtləri də öz əksini tapmışdır. Qeyd edilir ki, investorlar AR Qanunu pozduqda, iflas olduqda, qəza və təbii fəlakət baş verdiyi hallarda onun fəaliyyətinə xitam verilə bilər.

Son 10 ildə Azərbaycanın iqtisadi inkişafında, dönüş yaranmış, bütün sahələrdə o cümlədən də sənayedə istehsalın inkişafı yüksəlməyə istiqamətlənmişdir. Ölkədə bütün sahələrin inkişafı ilə bərabər sənayenin də inkişafı üçün dövlət tədbirləri proqramı fəaliyyət göstərir. Bu tədbirlərə aid etmək olar:

1. Vergi sistemi vasitəsilə sənayenin inkişafının stimullaşdırılmasının iqtisadi mexanizminin yaradılması.

2. Amortizasiya fondunun məqsədli ifadəsinə nəzarət edilməsi.

3. Müəssisələrin öz investisiyalarını tətbiqinə stimullaşdırılması.

4. Sənaye müəssisələri üçün uzunmüddətli investisiya kreditlərinin verilməsi.

5. Sənayenin gələcək strukturunu formalaşdıran elm tutumlu, sosial mahiyyətli və ixrac tələbatına uyğun gələn sahələrə birbaşa dövlət investisiyalarının verilməsi.

---

[17] Azərbaycan Respublikasının iqtisadi inkişafının tənzimləyən qanunlar (1991-1995) Bakı 1996. səh 132



downloaded from KitabYurdu.az

Bu tədbirlər o müəssisələr üçün nəzərdə tutulur ki, onlarda istehsalın real canlandırılması imkanları vardır. Bu məqsədlə onlar öz bizne planlarını uyğun orqanlar qarşısında müdafiə etməlidirlər.



downloaded from KitabYurdu.az

## *FƏSİL XVIII. AQRAR SƏNAYE KOMPLEKSİ VƏ ONUN İNKİŞAFININ TƏNZİM OLUNMASI.*

### *1. DÖVLƏTİN AQRAR SİYASƏTİ, ONUN MƏZMUNU VƏ VƏZİFƏLƏRİ.*

Aqrar siyasəti – dövlətin iqtisadi siyasətinin tərkib hissələrindən biridir. Bu aqrar bölmədə təsərrüfat maliyyə şəraitinin yaradılmasına, onda baş verən proseslərə müəyyən forma və metodlarla təsir edilməsinə istiqamətlənmiş dövlət siyasətidir.

Aqrar siyasət əsasında aqrar qanunçuluq və aqrar struktur formalaşır. Aqrar qanunçuluq, kəndin həyatında baş verən tənzimlənməsi üçün hüquqi normativ aktların tərtib olunmasıdır.

Aqrar siyasətin aparılmasında konkret olaraq aşağıdakı məqsədlər nəzərdə tutulur:

- iqtisadi cəhətdən səmərəli qiymətlərdə, əhalinin ərzaqla təmin etmək.
- Kənd təsərrüfatının ölkə gəlirinin yaranmasında iştirakını təmin etmək.
- Ətraf mühitin mühafizəsi problemini həll etmək.

Aqrar siyasətin obyekti –aqrar bölmədə baş verən cari proseslərdir, predmeti isə aqrar bölmənin fəaliyyəti üçün zəruri olan dövlət və ictimai tədbirlər sistemidir.

Aqrar siyasətin metodoloji əsasını onun təbii sistemə əlaqədar olması (torpaq, günəş, su və s.) və təkrar istehsalın spesifik xüsusiyyətə malik olması təşkil edir.



downloaded from KitabYurdu.az

Dövlətin aqrar siyasətinin ana xətti əhalinin ərzaqla təminatı, sənayeni isə kənd təsərrüfatı xammalı ilə fasiləsiz təmin etməkdir.

Bu sahədə dövlət siyasətinin bir mühüm cəhəti də kənddə sosial münasibətlərin tənzim olunmasıdır. Bu kənd təsərrüfatı ilə aqrar sənaye kompleksinin digər sahələrinin intensiv inkişafı əsasında şəhərlə kənd arasında sosial-iqtisadi fərqlərin aradan qaldırılması məsələsidir. Bunu nəzərə alaraq qeyd etmək olar ki, dövlətin aqrar siyasətinə, kənd təsərrüfatının və bütün ASK-nin inkişaf konsepsiyasının, strateji və taktiki məqsəd və vəzifələrinin işlənib hazırlanması, onların reallaşdırılması yollarının konkret tədbirlərinin və mexanizminin əsaslandırılması, həmçinin həyata keçirilməsi üzrə əməli fəaliyyət daxildir.

Bazar iqtisadiyyatına keçid prosesi ilə əlaqədar olaraq dövlətin aqrar sahəsindəki siyasəti də konkretləşmiş olur. Bu ilk əvvəl aqrar islahatların xüsusilə torpağın özəlləşdirilməsi probleminin həllinin düzgün aparılmasıdır. Torpaq maddi nemətdir və onun satılıb alınması (əmtəə kimi) mümkün deyildir. Deməli, özəlləşdirmə elə aparılmalıdır ki, torpaqdan səmərəli istifadəolunsun. Buna dair bir neçə fikir mövcuddur: torpaq satılmalıdır, torpaq adambaşına bölünməlidir və əmək qabiliyyətlilər arasında bölüşdürülməlidir. Bu fikirlərin hər birinin müsbət və mənfi cəhətləri vardır. Lakin torpağın özəlləşdirilməsinə dair qanunda, torpağın adambaşına bölüşdürülməsi nəzərə alınmışdır.



downloaded from KitabYurdu.az

Dövlətin aqrar siyasətində mühüm yeri fermer (kəndli) təsərrüfatlarının təşkili və inkişafı tutur. Bu məqsədlə yerlərdə torpaq islahatının səmərəli düzgün həyata keçirilməsi üçün müvafiq komissiyalar təşkil edilmişdir ki, onlar da torpağın özəlləşdirilməsinə dair qanun çərçivəsində fəaliyyət göstərirlər. Torpaq islahatında əsas yerifərdi icarə təsərrüfatlarının və kollektiv icarə təsərrüfatlarının yaradılması tutur.

Fermer təsərrüfatları bazar iqtisadiyyatı ölkələrində geniş fəaliyyət göstərməklə yüksək səmərəliliyə malikdirlər.

Dövlət tərəfindən aqrar münasibətlər kompleksi başlıca olaraq hüquqi və iqtisadi təsir metodları ilə tənzim olunur. Kənd təsərrüfatında dövlətin siyasəti onun üstün inkişafına istiqamətləndirilməlidir. Bu məqsədlə aşağıdakıların həyata keçirilməsi məqsədəuyğundur:

Sənaye ilə kənd təsərrüfatı arasında qarşılıqlı iqtisadi münasibətlərin tənzimlənməsinə dair tədbirlər həyata keçirilməlidir.

- sənaye işçiləri ilə aqrar sahədə çalışanlar arasında həyat səviyyəsinin tənzimlənməsinə dair sistemli qaydada tədbirlər həyata keçirilməlidir;

- aqrar bölmədə istehsalın stabilliyini təmin etmək məqsədi ilə dövlət büdcəsindən dotasiyalar, investisiya qoyuluşları, maliyyə yardımları və digər iqtisadi mexanizmlərdən (güzəştli vergi, qiymətlərin tənzimlənməsi, fermer təsərrüfatlarının məhsullarının reallaşdırılması) vasitələrdən istifadə olunmalıdır.



downloaded from KitabYurdu.az

- Torpağın münbitliyinin qorunması, bərpası, istifadəsiz torpaqların dövriyyəyə cəlb edilməsi, kənd yerlərində təbii mühitin və landşaftının mühafizəsi;

- Sosial və istehsal infrastrukturunun kənd təsərrüfatı məhsullarının saxlanılması və emalı kompleksini inkişaf etdirilməsi, kadrların hazırlanması, təkmilləşdirilməsi, kənd təsərrüfatı elminin səmərəliliyinin yüksəldilməsi;

- Regionların kənd təsərrüfatının inkişaf etdirilməsi;

- Kənd əhalisinin sosial müdafiəsi proqramlarının hazırlanıb həyata keçirilməsi;

- Əhalinin sayından və yerləşməsindən asılı olmayaraq, bütün yaşayış məntəqələrində onların sosial müavinətlər və xidmətlərlə təmin edilməsi üçün bərabər şəraitin yaradılması.

Azərbaycan Respublikasının daxili ehtiyaclarını və xarici iqtisadi fəaliyyətini təmin etmək məqsədi ilə dövlət ərzaq və kənd təsərrüfatı məhsulları fondu yaradılmasını nəzərdə tutulmalıdı. Dövlət fondunun tərkibi, həcmi və formalaşma mənbələri (məhsulların respublikada tədarükü), idxalı, ixracı hər il Nazirlər Kabineti tərəfindən müəyyən edilir. Respublikada tədarük hesabına dövlət fondunun formalaşdırılması üçün nəzərdə tutulmuş məhsul üzərində tam və ya qismən dövlət inhisarı müəyyən edilir. Tam inhisar dedikdə məhsulların (pambıq, tütün, şərab məhsulları və s.) alınması və satılması nəzərdə tutulur. Qismən inhisar – əmtəə istehsalçılarına Dövlət fondunun formalaşdırılması üzrə öhdəlikləri



downloaded from KitabYurdu.az

yerinə yetirdikdən sonra qalan məhsulu (taxıl, heyvandarlıq məhsulları üzrə) müstəqil satmaq hüququnun verilməsi deməkdir.

Nazirlər Kabinetinin Dövlət fondunun formalaşdırılması üçün nəzərdə tutulmuş məhsulların qiymət hədlərini müəyyən edir.

Bu qiymətlər indeksləşdirilir və dövlət tədarük orqanları öhdəliklərdə nəzərdə tutulan bütün məhsulun alınmasını təmin edir.

Dövlət fondunun formalaşmasında əmtəə istehsalçılarının iqtisadi marağını təmin edən zəruri güzəştlər müəyyənləşdirilir. İstehsalçıları dövlət inhisarında olmayan kənd təsərrüfatı məhsullarını müstəqil sata bilərlər.

Kənd təsərrüfat istehsalının strukturu ilk növbədə Azərbaycan Respublikasının ərzağa ehtiyacını ödənilməsi zərurəti ilə müəyyən edilməsini nəzərdə tutur. Kənd təsərrüfatının sürətli inkişafı və bununla yanaşı əsas ixracat təyinatlı (pambıq, üzüm, tütün və s.) məhsullarının istehsal həcminin optimal səviyyədə sabitləşdirilməsi dövlət qarşıs ında duran əsas məsələlərdəndir.

Aqrar sahəni dövlət və qeyri hökumət orqanları idarə edirlər. Dövlət orqanlarına Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Komitələri, Meliorasiya və Su Təsərrüfatı Nazirliyi, digər nazirliklər və baş idarələr daxildir.

Dövlət orqanları kənd təsərrüfatında dövlət siyasətinin formalaşdırılması, aqrar-sənaye kompleksi islahatının qanunvericilik əsasının hazırlanması, aqrar islahatına rəhbərlik, hüququ xidmətinin və bazar münasibətlərinin qanunvericilik əsasının hazırlanması təminatını təşkil edirlər. Onlar həmçinin kənd təsərrüfatı məhsulları



downloaded from KitabYurdu.az

istehsalının proqnozlaşdırılması və onun tənzim olunmasına dair dövlət siyasətinin həyata keçirilməsi, öz istehsalı hesabına dövlət Ərzaq və Kənd Təsərrüfatı Məhsulları fondunun formalaşdırılmasını təmin edirlər.

Eyni zamanda sahənin inkişafına dair məqsədli proqramların hazırlanması və həyata keçirilməsi, kənd təsərrüfatı elminin inkişaf etdirilməsi, elmi – texniki nailiyyətlərin təbliğini və bu barıdı informasiyanın təşkili, kadrların hazırlanması, beynəlxalq elmi – texniki və iqtisadi əməkdaşlığın təşkilini genişləndirirlər.

Dövlət orqanları həmçinin fermer təsərrüfatlarının maddi – texniki bazasının təminatını təşkil edirlər. Yəni :

- damazlıq işi, seleksiya, toxumçuluq, kənd təsərrüfat bitkiləri, sort sınağı və sort təzələnməsi, əkin materiallının istehsalı və satışı, baytarlıq, karantin nəzarəti və texniki nəzarəti həyata keçirirlər;
- torpaqların münbitliyinin yüksəldilməsi, onların erroziyadan qorunmasına fikir verirlər;
- maddi-texniki təchizat aqroservisi təşkil edirlər;
- kənd təsərrüfatı istehsalına əməli rəhbərliyi həyata keçirirlər.

Qeyri- hökumət orqanlar, assosiasiyalar, kəndli (fermer) təsərrüfatlarının və digər əmtəə istehsalçılarının itifaqlarıdır. Bu orqanlar:



downloaded from KitabYurdu.az

- kəndlilərə aqroservis, tədarük, zoobaytarlıq, təchizat, hüquqi və digər xidmətlər göstərilməsi üzrə alternativ müəssisə və təşkilatlar şəbəkəsi yaradır;

- məhsulun emalı, saxlanması, satışı üzrə müəssisələr yaradır, əmtəə istehsalçılarının fəaliyyətini qarşılıqlı surətdə əlaqələndirirlər.

Bazar münasibətləri əsasında respublikanın kənd təsərrüfatında aparılan islahatın ilk mərhələsində idarəetmənin inzibati metodları üstünlük təşkil edir. Kənd təsərrüfatında islahatlar həyata keçirildikcə, əhalinin həyat tərzi və psixologiyası yeni təsərrüfatçılıq formalarına uyğunlaşdıqca və problemin sosial aspektləri həll edildikcə sahəyə rəhbərlikdə iqtisadi metodlar ön plana çıxır. Dövlət idarəetmə orqanları yuxarıda göstərilən bir çox funksiyaların həyata keçirilməsində öz fəaliyyətindən imtina edir və bu fəaliyyəti məhdudlaşdırırlar. İstehsalata əməli rəhbərlikdə, aqroservisə, məhsulun satışı və s. ilə əlaqədar bir sıra funksiyaların qeyri- hökumət orqanlarına verilməsi sahəsində ardıcıl dövlət siyasəti həyata keçirilir. Bazar infrastrukturu topdansatış yarmarkaları, hərraclar, əmtəə birjaları yaradırlar. İstehsal vasitələri və aqrar-sənaye kompleksinin malları ilə daxili və xarici ticarətin inhisara alınmasının qarşısını alan tədbirlər hazırlanır.

Kənd təsərrüfatının və emal sənayesinin ehtiyacları üçün maşınlar, avadanlıq, inventar, kimyəvi vasitələr və s. i. A. İstehsalına dair dövlət proqramları, bu məqsədlə bir sıra maşınqayırma



downloaded from KitabYurdu.az

zavodlarının profillərinin dəyişdirilməsi tədbirləri hazırlanır və yerinə yetirilir. Aqrar-sənaye kompleksində məhsulun keyfiyyətinin yüksəldilməsinə, qablaşdırmanın və nişanlamanın yaxşılaşdırılmasına, onun xarici bazarlara çıxarılmasının təmin olunmasına yönəldilmiş dövlətin ixracat siyasəti həyata keçirilir.

Aqrar siyasətin həyata keçirilməsi əsasən dövlətin öhdəsinə düşməlidir. Çünki, aqrar münasibətlərin bazar strukturu səviyyəsində tənzimlənməsi çox istiqamətli və mürəkkəbdir, bu isə müəyyən qədər xərclə əlaqədardır. İnkişaf etmiş ölkələrdə kənd təsərrüfatının xərclərinin müəyyən hissəsini dövlət ödəyir. Məsələn, kəed təsərrüfatı məhsullar istehsalının xərclərinin Almaniyada, Kanadada, ABŞ-da, Fransada 42-52%, Skandinaviya ölkələrində 60-80%, Rusiyada isə 1,4% dövlət tərəfindən ödənilir.[18]

Azərbaycan Respublikasının Dövlət büdcəsinin xərclərinin 19,6% ümumi iqtisadi inkişafa yönəldilmişdir ki, bununda müəyyən hissəsi kənd təsərrüfatının inkişafına istiqamətləndirilmişdir. Bizə belə gəlir ki, bu kifayət deyildir. Çünki, keçid iqtisadiyyatını yaşayan respublikamızda kənd təsərrüfatının inkişafına dövlətin böyük maliyyə dəstəyinin olması vacib məsələlərdəndir.

---

[18] А.М.Бабашкина Гос.Рег.Нац.Экон.Москва 2003. səh.339



downloaded from KitabYurdu.az

## *2. KƏND TƏSƏRRÜFATINDA YENİ İSTEHSAL MÜNASİBƏTLƏRİNİN FORMALAŞDIRILMASI VƏ TƏNZİM OLUNMASI.*

Kənd təsərrüfatı maddi istehsalın mühüm aparıcı sahəsidir. Belə ki, 2000-ci ildə ümumi milli daxili məhsulun 18,1 faizi, 2003-cü ildə isə 13,1 faizi kənd təsərrüfatında yaradılmışdır. Əsas istehsal fondlarının 10,9 faizi, məşğul olan əhalinin 30,8 faizi kənd təsərrüfatında çalışır.

Kənd təsərrüfatı maddi nemətlər istehalının elə bir sahəsidir ki, əhalinin istehlak fondunun 80 faizdən çoxu onun hesabına formalaşır.

İqtisadi ədəbiyyatlarda bəzi müəlliflər kənd təsərrüfatı anlayışı ilə aqrar sənaye kompleksi anlayışlarını eyniləşdirirlər. Lakin bunların bir-birindən köklü fərqi vardır. Belə ki, kənd təsərrüfatı ölkənin kənd təsərrüfatı xammalınav olan tələbatını ödəmək vəzifəsini yerinə yetirir. K.Marks kənd təsərrüfatının rolunu xarakterizə edərək göstərmişdi ki, «yeyinti vasitələri istehsalı bilavasitə istehsalçıların yaşayışı üçün ən birinci şərtdir». K.Marks «Kapital» III cild səh. 655.

Əhalinin maddi vəziyyətinin yaxşılaşması əsasən kənd təsərrüfatı istehsalından asılıdır.

Aqrar Sənaye Kompleksi kənd təsərrüfatı məhsullarının istehalı, emalı, saxlanılması və istehlakçılara çatdırılması ilə məşğul olan sahələrin məcmuudur. Onun əsas tərkib hissəsi isə kənd təsərrüfatıdır. Bundan əlavə ASK-nə kənd təsərrüfatı və onunla bağlı



downloaded from KitabYurdu.az

sahələr üçün istehsal vasitələri göndərən, həmçinin kənd təsərrüfatına istehsal-texniki xidmətlər həyata keçirən sahələr, kənd təsərrüfatı məhsulunu emal və onları istehsalçılara çatdırılması ilə məşğul olan (tədarük, saxlama, daşınma), sahələrdə daxildir.

Digər sahələr yalnız qismən aqrar sənaye kompleksinin tələbatının ödənilməsi ilə əlaqədardır. Xalq təsərrüfatının ASK ilə bərabər, respublikanın rayonları və zonaları üzrə də ASK-ləri yaradılmışdır.

Son zamanlar kəndli (fermer) təsərrüfatlarının inkişafı ilə əlaqədar olaraq bəzi rayonlarda firmala, emaledici müəssisələr təşkil edilir ki, onun da bazasında yaxın gələcəkdə regionlarda ASK-nın yeni tiplərinin formalaşdırılması və inkişafı nəzərdə tutulmalıdır.

Regionul ASK strukturu Respublikada ASK strukturundan fərqlənə bilər. Lakin hər bir regionda infrastrukturun müəyyən inkişaf səviyyəsi vardır, kənd təsərrüfatına istehsal-texniki xidmət göstərən, kənd təsərrüfatı məhsullarının tədarükü, saxlanılması, emalı və realizəsi sistemləri və s. vardır. Regional ASK müəyyən rayonun ixtisaslaşması səviyyəsini əks etdirir.

Kənd təsərrüfatı istehsalı xalq təsərrüfatının digər sahələrindən də fərqlənir. Bu fərqlər aşağıdakılarda ifadə olunur:

Maddi istehsal sahəsi kimi kənd təsərrüfatının spesifik xüsusiyyəti ondan ibarətdir ki, burada başlıca istehsal vasitəsi torpaqdır. Bu mülkiyyət münasibətidir  çünki, torpağa sahib olan kəndli onun mülkiyyətçisinə çevrilir, ondan sərfəli istifadə etmək uğrunda mübarizə aparır. U.Pettinin təbirincə desək «Əmək sərvətin



downloaded from KitabYurdu.az

atasıdırsa, torpaq anasıdır ». Kənd təsərrüfatı istehsalının ikinci bir xüsusiyyəti onun bitkiçilik və heyvandarlığa xas olan xüsusiyyətlərdən asılı olmasıdır və burada iqtisadi proseslər bioloji proseslərlə bir-birilə çulğalaşar.

Üçüncü bir xüsusiyyət istehsalının nəticələrinin təbii iqlim şəraitin qeyri müəyyən olmasıdır. Respublikanın zonaları təbii iqtisadi şəraitinin müxtəlifliyi də onu başqa sahələrdən fərqləndirir. Kənd təsərrüfatını digər sahələrdən fərqləndirən mühüm cəhətlərdən biri də əməyin mövsümü xarakter daşıması və əməyin ödənilməsidir. Kənd təsərrüfatı bioloji sistem olduğu üçün, onda risklərin olması daima mövcuddur. Belə ki, ilin məhsuldar olub, olmaması, qəflətən ziyanvericilərin yayılması, təbii fəlakətlərin baş verməsi və s. kənd təsərrüfatı istehsalına təsir göstərir. Bu isə kənd təsərrüfatı istehsalı ilə məşğul olan subyektləri daima risk etmək zorunda qoyur.

Kənd təsərrüfatı istehsalının mühüm bir xüsusiyyəti də, onun ümumi iqtisadi mütənasibliklərin yaranmasında iştirak etməsidir. Belə ki, kənd təsərrüfatı xammal istehsal edərək, iqtisadiyyatın digər sahələrinin inkişafına təkan verir.

Kənd təsərrüfatı öz daxili tələbatı üçün material ehtiyatı yarada bilən sahədir. (məsələn, toxum fondu, törədici buğalar və s.).

Göründüyü kimi Aqrar istehsalının bazar münasibətləri şəraitində tənzimlənməsi hər şeydən əvvəl istehsal münasibətlərinə kompleks qaydada yanaşmaqla kəndli (fermer) təsərrüfatlarının getdikcə sürətli inkişafını təmin etməkdən ibarətdir. Bu məqsədlə aqrar bölmənin xeyrinə digər strateji sahələrdən əldə edilən gəlirlərin



downloaded from KitabYurdu.az

bu mühüm sahənin inkişafı üçün yenidən bölüşdürülməsi probleminə ciddi fikir verilməsi və kənddə sosial infrastrukturunu kompleks inkişafını təmin etmək lazımdır.

Deməli, kənddə bazar münasibətlərinə xas olan sərbəst istehsal və bölgü münasibətləri formalaşdırılmalıdır.

## *3. KƏND TƏSƏRRÜFATINDA İNFRASTRUKTUR SAHƏLƏRİNİN İNKİŞAFININ TƏNZİMLƏNMƏSİ.*

Aqrar istehsalda infrastruktur sahələrinin formalaşdırılması və inkişafı məqsədilə onun maddi – -texniki təchizatı problemini həll etmək üçün lazım olan texnika, avadanlıq, materiallar, enerji, yanacaq, binalar, qurğular və s. maddi əşya vəsaitləri ilə fasiləsiz təmin olunması zəruridir.

Hazırda respublikanın kənd təsərrüfatının maddi-texniki təchizatında onun əsas istehsal fondları ilə təminatı birinci dərəcəli əhəmiyyət kəsb edir. Məhz buna görə də əsas istehsal fondlarının artırılması lazımdır. Lakin əsas istehsal fondlarının daima artırılması əsas şərt deyildir, əsas problem onlardan səmərəli istifadə edilməsidir. Aqrar istehsalın texniki təminatında xidmətlər servisi mühüm yerlərdən birini tutur. Respublikanın kənd təsərrüfatında 1990-cı ildən fəaliyyət göstərən 36,1 min ədəd traktor parkının



downloaded from KitabYurdu.az

mühərrik gücü 2592 min at gücünə bərabər olmuşdursa, 1998-ci ildə müvafiq olaraq bu göstəricilər 16,3 və 1020 olmuşdur. Üzərində meliorasiya maşınları və digər maşınlar qurulmuş traktordan başqa 1998-ci ildə keçmiş kolxoz və sovxozlarda, təsərrüfatlararası müəssisələrdə, 1,0 min ədəd belə traktor olmuşdur ki, onların da mühərriklərinin məcmu gücü 62,4 min at qüvvəsi təşkil etmişdir.

Son dövrlərdə kənd təsərrüfatının əsas istehsal fondlarının strukturunda dəyişiklik müşahidə olunur.

[19]Cədvəl 49.

Kənd təsərrüfatı müəssisələrində əsas istehsal fondlarının strukturu (%)

| | 1999 | 2000 | 2001 | 2002 | 2003 |
|---|---|---|---|---|---|
| Kənd təsərrüfatlı təyinatlı əsas istehsal fondları, cəmi | 100 | 100 | 100 | 100 | 100 |
| O cümlədən Binalar, tikililə ötürücü qurğular | 54,8 | 67,2 | 80,5 | 82,9 | 81,9 |
| Maşın və avadanlıqlar | 19,2 | 12,5 | 11,2 | 9,6 | 10,2 |
| Nəqliyyat vasitələri | 7,6 | 6,4 | 4,2 | 3,7 | 3,8 |
| İşçi məhsuldar ma qara | 0,8 | 1,4 | 0,9 | 1,0 | 0,9 |
| Çoxillik əkmələr | 12,9 | 7,3 | 1,4 | 1,2 | 1,2 |
| Sair | 4,9 | 5,2 | 1,8 | 1,6 | 2,0 |

Cədvəlin məlumatlarından belə qənaətə gəlmək olar ki, kənd təsərrüfatı təyinatlı maşın və avadanlıqlar, nəqliyyat vasitələri,

[19] Az.st.rəq. 2004 səh 531



downloaded from KitabYurdu.az

çoxillik əkmələr müqayisə olunan dövrdə azalmışdır. Bunun hesabına bina və tikililərin xüsusi çəkisi artmışdır. Deməli, kənd təsərrüfatı istehsalı maşın və avadanlıqla daha az təchiz olunmağa başlamışdır.

Aqrar istehsalın maddi-texniki bazasına həmçinin materiallarla təminatı, xüsusilə gübrələrlə təminatı da aiddir.

Respublikanın kənd təsərrüfatına 1990-cı ildə 144 min ton həll olunan məhlul formasında gübrə verilmişdirsə, 1998-ci ildə bu 4,9 min ton olmuşdur.

Göründüyü kimi respublikanın kənd təsərrüfatının mineral gübrə təminatı 20 dəfədən də çox azalmışdır. Qeyd etmək lazımdır ki, sineral gübrələrin verilməsi məhsuldarlığı artırsa da keyfiyyətə mənfi təsir göstərir. Lakin bu heç də o demək deyildir ki, mineral gübrələrdən tamamilə istifadə olunmasın. Əsas məsələ mineral gübrələrdən istifadə həddinin müəyyən edilməsidir.

Aqrar istehsalın maddi-texniki təchizatı onun enerji təminatını da əhatə edir. Respublikanın kənd təsərrüfatında enerji gücü 1990-cı ildə və hər 100 hektara görə 512 at qüvvəsində olmuşdursa, 1998-ci ildə həmin göstəricilər 600 at qüvvəsi təşkil etmişdir. Bu göstərici isə son dövrlərdə kənd təsərrüfatının maddi-texniki təchizatının aşağı düşməsindən xəbər verir.

Beləliklə aqrar bölmənin istehsal infrastrukturunun formalaşdırılması və inkişafı paralel olaraq kənddə sosial infrastrukturunda kompleks inkişaf edilməsini tələb edir. Sosial infrastrukturunu tərkib hissəsi, əhalinin xüsusilə kənd əhalisinin



downloaded from KitabYurdu.az

maddi-mədəni həyat səviyyəsinin, şəhər əhalisi səviyyəsinə yüksəldilməsinin təmin olunmasıdır. Bu baxımdan ölkədə daxili bazarın əsasən yerli istehsal hesabına təmin edilməsi və səmərəli bazar infrastrukturunun yaradılması bazar iqtisadiyyatının tələbatından irəli gəlir.. məlumdur ki, aqrar sahənin inkişaf səviyyəsi, bazarın formalaşmasına, onun strukturuna əsaslı təsir göstərir. Məhz buna görə də bazar mexanizminin ümumi tələbatına tam uyğun olaraq dövlət aqrar istehsalın tənzimlənməsində sabit bazarın formalaşmasını təmin etməlidir. Bu baxımdan kənd təsərrüfatı məhsullarının dövlət tənzimlənməsi zəruridir.

## *4. KƏND TƏSƏRRÜFATI MƏHSULLARI BAZARININ TƏNZİMLƏNMƏSİ VƏ TAXIL BALANSI.*

Kənd təsərrüfatı istehsalının dövlət tənzimlənməsi aşağıdakı prinsiplərə əsaslanır:

1. Səmərəli aqrar proteksionizm qanunundan istifadə.
2. Proqram-məqsədli tənzimlənmənin həyata keçirilməsi.
3. Dövlət zəmanətinin olması.
4. Kənd təsərrüfatında mülkiyyət münasibətlərinə diferensial yanaşma.



downloaded from KitabYurdu.az

5. Kənd təsərrüfatı istehsalının motivləşdirilməsi, ekzogen və texnogen amillərə əsasən struktur dəyişikliklərinin aparılması.
6. Resurslardan maksimum istifadə olunması.

Dövlət kənd təsərrüfatı məhsulları bazarının tənzimlənməsini əsasən aşağıdakı istiqamətlərdə həyata keçirir:

1. Qiymət, gəlir istehsalın həcmi və strukturu.
2. Torpaq və su resurslarının qorunması və onlardan düzgün istifadə olunması.
3. Kənd təsərrüfatı elminin inkişafı.
4. Kənd təsərrüfatına kreditlər verilməsi.
5. Məhsuldarlığın sığortalanması və s. ilə.

Dövlətin kənd təsərrüfatı məhsulları bazarının tənzimlənməsi mahiyyəti-iqtisadi, təşkilati, sosial, hüquqi siyasi əsasda təkrar istehsalı təmin etməkdir. Bu mahiyyət müəyyən funksiyalarla açıqlanır ki, bunlarda aşağıdakılardır:

1. Bazar subyekti təkrar istehsalın effektli formasını yaradır.
2. Mülkiyyətçilərin, sahibkarların, işçilərin, satıcıların, alıcıların yenidən ixtisaslaşması aparılır.
3. Kənd təsərrüfatı məhsullarına dəyanətli tələbat təmin olunur.
4. Dəyanətli təklif həyata keçirilir.
5. Qiyəmtin dəyanətliliyinə çalışılır.
6. Kənddə infrastruktur sahələri yaradılır.



downloaded from KitabYurdu.az

7. Kənd təsərrüfatı məhsullarının alıcı və satıcılarının bərabər hüquq əsasında beynəlxalq baza daxil olması təmin olunur.

8. Aqrar proteksionizm qanunundan geniş istifadə olunur.

Tənzimləmə amillərindən biri bərabər nisbət konsepsiyasıdır. Bu kənd təsərrüfatının ən mühüm məsələsidir. Yeni kəndlinin müvafiq sənaye məhsullarını əldə etdiyi qiymətlərin səviyyəsi onların satdıqları məhsulların qiymətləri ilə uyğunlaşdırılmalıdır. Bu paritet qiymət indeksində ifadə oluna bilər. Məsələn, əgər kəndlinin aldığı məhsulun qiyməti 2 dəfə yüksəlibsə, kənd təsərrüfatı məhsulun satış qiyməti də o nisbətdə qalxmalıdır, bu zaman paritet indeksi belə hesablanır:

$$\text{Paritet indeksi} = \frac{\text{Kənd təsərrüfatı məhsulun qiyməti}}{\text{Kəndlinin aldığı məhsulun qiyməti}}$$

Paritet konsepsiyasının praktiki mahiyyəti ondadır ki, o dövlətin kənd təsərrüfatı məhsuluna minimum qiyməti saxlamaq üçün imkan verir. (Ona dəyişməz qiymət də deyildir).



downloaded from KitabYurdu.az

Cədvəl 50.[20]

Kənd təsərrüfatı müəssisələrinin satdıqları məhsulların qiymətləri (min manat ton üçün)

| | 2001 | 2002 | 2003 |
|---|---|---|---|
| Taxıl | 474,0 | 449,0 | 582,0 |
| Pambıq | 1073,0 | 1028,0 | 1122,0 |
| Kartof | 707,0 | 557,0 | 726,0 |
| Tərəvəz | 283,0 | 344,0 | 295 |
| Bostan bitkiləri | 215,0 | 225,0 | 258,0 |
| Üzüm | 638,0 | 760,0 | 997,0 |
| Meyvə və giləmeyvə | 535,0 | 644,0 | 524,0 |
| Yaşıl çay | 728,0 | 951,0 | 1085,0 |
| Malqara, quş, diri çəkidə | 4703,0 | 5213,0 | 5958 |
| Süd | 857,0 | 950,0 | 965,0 |
| Yumurta və s. | 193,0 | 207,0 | 184,0 |

Göründüyü kim kəndlinin satdığı məhsullardan pambıq, yaşıl çay və diri çəkidə mal qaranın hər kiloqramı 1000 manatda yuxarıdır. Lakin kobud müqayisə olsa da kənd təsərrüfatında texnikanın işləməsinə imkan verən yanacaqlardan Benzin Aİ-76 – 1600 manat, Aİ –93 1800 manat, Aİ - 95 isə 2000 manat, dizel yanacağının litiri isə 950 manata satılır. Düzdür bu məhsulların kənd

[20] Az.st.rəq. 2004, səh.535-537



downloaded from KitabYurdu.az

təsərrüfatına satılmasında müəyyən güzəştlər edilmişdir, lakin fikrimizcə bu hələ də qənaətbəxş deyildir.

Deməli, raritetə nail olmaq üçün kənd təsərrüfatı məhsuluna qiymət yüksəldilməlidir. Aşağıdakı qrafikə diqqət yetirək.

Şəkil 29.




Dəyişməz qiymət müəyyən nəticələrə malikdir. Fərz edək ki, $P_e$ bərabər çəkili qiymətlə müqayisədə $P_S$ dəyişmə qiymətidir. Burada nəzərə çarpan əsas məsələ məhsulu artıqlığının yaranmasıdır.

Fərdi istehlakçı $P_S$ qiymətində 0Q qədər məhsul almaq istəyir. Lakin kənd təsərrüfatı $0Q_S$ qədər məhsul təklif edir. Burada $QQ_S$ məhsul artıqlığıdır. Bu məhsulu dövlət almalıdır ki, sabit-dəyişməz qiymət vasitəsilə bərabər çəkili qiymətə təsir göstərə bilsin.

Bu zaman kənd təsərrüfatının gəliri $OP_ebQ_e$-dən $OP_SAQ_S$-ə qədər yüksəlir.



downloaded from KitabYurdu.az

İstehlakçının itirdiyi. İstehlakçı məhsul vahidinə $R_S$ qiyməti verəcək və $Q_e$ qədər yox, $Q_S$ qədər məhsul istehlak edəcəkdir.

Cəmiyyətin itkisi iki tərəflidir. Bir tərəfdən istehlakçılar artıq məhsula görə verginin çox verəcəklər, həmin verginin həcmi $QQ_SP_S$ qədər olacaqdır. İkinci tərəfdən dəyişməz (minimal) qiymət $P_SP_e$ qiymətinə nisbətən kənd təsərrüfatına daha çox resurs yönəldilməsini zəruri edəcək. Rəqabət qanununa əsasən rnsursların optimal bölgüsü b nöqtəsinə təsadüf edir. Deməli, istehlakçı $Q_e$ qədər məhsulu $P_e$ qiymətində almağa razıdır.

$Q_S$ qədər məhsul $P_S$ qiymətindən artıqdır və onun istehlakçılar arasında bölüşdürülməsi cəmiyyət üçün «effektivliyin itirilməsi» demək olardı. Bunun üçün dövlət artıq məhsulun yaranmasına qarşı müəyyən tədbirlər hazırlayır. Məsələn, təklifi azaldır.

Təklifin məhdudlaşdırılması üçün əkin sahəsinin məhdudlaşdırılması proqramması hazırlanır. Tələb və təklifi balanslaşdırmaq üçün kənd təsərrüfatı nazirliyi təxminən illik tələbin həcmini hesablayır. Bunun üçün fermerlərə həmin həcmə görə sifarişlər verilir. Digər tərəfdən fermerlər üçün əkin sahəsinin dövriyyədən çıxarmaları üçün konpensasiya verir və s.

Tələbin saxlanılması – elmi-texniki tərəqqinin inkişafı, kənd təsərrüfatında yeni məhsul istehsalı ilə tələbin müəyyən səviyyədə saxlamağa çalışır.

Bazar iqtisadiyyatı şəraitində hər bir dövlət daxili və xarici bazar üçün müəyyən proqram hazırlayır. Məsələn, keçmiş SSRİ-də



downloaded from KitabYurdu.az

«Ərzaq proqramı», ABŞ-da «Dünya ərzaq proqramı» və s. əsas məqsəd artıq məhsulun qıtlıq olan ölkələrdə reallaşdırılmasıdır.

Dövlətin kəned təsərrüfatı istehsalının tənzimlənməsi siyasətinə nəzər salsaq onda aşağıdakıları aşkar etmək olar.

1. Əlamət və səbəblər. Məlumdur ki, kənd təsərrüfatında əsas məsələ mövcud resursların bölüşdürülməsidir. Yəni kənd təsərrüfatı və qalan sahələr üzrəesursların bölüşdürülməsi. Kənd təsərrüfatında qiymət və gəlirin sabit saxlanılması əvəzinə (eyni səviyyədə) səmərəli bölgü prinsipinə əməl edilməsi daha çox faydalıdır.

2. Subsidiyaların istiqamətinin düzgün seçilməsi. Qiymət və gəlirin səviyyələrinin saxlanılması şəraitində kiçik fermer təsərrüfatlarının bu köməyə o qədər də ehtiyacı olmur. Belə ki, kiçik həcmli fermer təsərrüfatları o qədər də məhsul satmır ki, qiymətin sabitliyindən çox gəlir götürmüş olsunlar. Əksinə, iri təsərrüfatlar buna nail ola bilərlər. Deməli, ayrılmış bərabər subsidiyalar iri təsərrüfatlara daha sərfəli olur.

3. Ziddiyyətli siyasət. Məsələn, torpağın dövriyyədən çıxarılması. Torpağın dövriyyədən çıxarılması nəzərdə tutur ki, istifadə qalan sahələrdə məhsuldarlığın yüksəldilməsi təmin olunmalıdır.



downloaded from KitabYurdu.az

Şəkil 30.




DZ – torpağa tələbat əyrisi

S – torpaq təklifi (S –düz xəttdir, ona görədir ki. Torpağın qiyməti tez-tez dəyişilə bilməz. Münbitlik tez yaranmır ).

R – renta.

Torpağa olan tələbat (rentadan) onun gəlirlik səviyyəsindən asılıdr. Bu tələbat torpaq təklifi ilə E tarazlıq nöqtəsində kəsişərək qoyulmuş rentaya uyğun gəlir. Lakin bu zaman renta $RR_1R_2$ həmin nöqtə ətrafında tərəddüd edir.

Yəni torpağa tələbat dəyişilir. Əgər renta R-dən $R_1$-qədər yüksəlirsə, torpağa tələbat azalır. Yəni Q-dən $Q_1$-ə enir. Bu zaman torpaq artıqlığı yaranır ($Q - Q_1$) və torpaq sahibi onu icarəyə verməyə məcbur olur. Əgər renta $R_2$-yə düşərsə, torpağa tələbat azalır. Bazar iqtisadiyyatı şəraitində torpaq islahatının həyata



downloaded from KitabYurdu.az

keçəirilməsində yuxarıda qeyd edilən prinsipial məsələlər öz həllini tapmalıdır. Belə ki, keçid iqtisadi şəraitində daha yüksək münbitliyə malik olan torpaq sahəsi aşağı münbitliyə malik olan torpaq sahəsindən fərqləndirilməlidir.

Taxıl balansı kənd təsərrüfatının material balansları sistemində mühüm yer tutur. Taxıl kənd təsərrüfatı məhsulları tərkibində xüsusi bitki hesab olunur. Burada əsas məsələ taxıl qıtlığını yox etməkdən ibarətdir. Keçmiş SSRİ-də taxıl qıtlığı 60-cı illərdə ən yüksək səviyyəyə çatmışdır və 70-80-ci illərə qədər davam etmişdir. Təbiidir ki, bu hal bütün müttəfiq respublikalarda o cümlədən Azərbaycan Respublikasında da mövcud olmuşdur.

Ölkədə taxıl qıtlığının aradan qaldırılması daxili istehsalla yanaşı idxal hesabına da həyata keçirilir. Taxıl idxalı, onun resursunun yaranmasının daxili mənbəyi hesab olunur. Bunu aşağıdakı cədvəldən də görmək olar:

[21]Cədvəl 51.

Taxıl məhsulları ehtiyatları (min ton)

| | 1995 | 2000 | 2003 |
|---|---|---|---|
| İlin əvvəlinə qalıq | 114,3 | 155,3 | 710,9 |
| Ümumi yığım | 881,5 | 1508,9 | 2010,6 |
| İdxal | 557,5 | 780,8 | 876,8 |
| Cəmi, ümumi ehtiyatda | 1553,3 | 2445,0 | 3598,3 |
| İdxalın xüsusi çəkisi %-lə | 35,8 | 31,9 | 24,3 |

[21] Az.st.rəq.2004, səh 541



downloaded from KitabYurdu.az

Göründüyü kimi respublikada həyata keçirilən aqrar islahatlar nəticəsində kənd təsərrüfatı inkişaf etmiş və ölkənin taxıl ehtiyacı qismən ödənilmiş, idxal taxıl həcmi nisbətlə azalmışdır. Belə ki, 1995-ci ilə nisbətən 2003-cü ildə taxıl istehalı 2.3 dəfə, idxal taxıl həcmi isə 1,5 dəfə artmışdır. Lakin ymumi taxıl ehtiyatında idxalın səviyyəsi 35,8%-dən 24.3%-ə enmişdir.

Ölkədə taxıl balansı kənd təsərrüfatı ili üzrə (1 iyuldan 1 iyula), yəni yığımdan yığıma tərtib olunur. Taxıla olan tələbatın hesablanmasına müxtəlif yanaşmalar mövcuddur. Məsələn inkişaf etmiş ölkələrdə əhalinin hər nəfərinə 700 kq. Taxıl istehlakı nəzərdə tutulr. Keçmiş SSRİ-də bu göstərici 820-850 kq olmuşdur. Azərbaycan Respublikasında hər nəfərə taxıl istehlakı 2003-cü ildə (3598,3 min ton : 8265,7 min nəfər) 435 kq. Olmuşdur. Lakin qeyd etmək lazımdır ki, əhalinin taxıl və taxıl məhsullarına olan tələbatını tam ödəmək üçün hər nəfərə taxıl istehlakı 1000 kq. Çatdırılması zəruridir.

Ümumi taxıl yığımı (daxili resurs) aşağıdakı istiqamətlərə istifadə olunur:

a) Toxum yondu

b) Sənaye emalına (un, yarma, spirt istehsalı və s.)

v) Yem fondu.

Taxıl tədarükünün müəyyən hissəsi natura formasında onun istehlakçısında qalır ki, bu da sonradan əsasən yem məqsədinə istifadə olunur.



downloaded from KitabYurdu.az

Bazar iqtisadiyyatı şəraitində taxıl balansının tərtib hesabı xüsusiyyət daşıyır. Belə ki, balans taxılın istehsalı və istehlakı haqqında ümumi məlumat verir və onun əsasında da ölkənin taxıl siyasəti müəyyənləşdirilir.

[22]Cədvəl 52.

Respublikanın taxıl balansı (2003-cü il)

| Ehtiyatlar | Min ton | İstifadə | Min ton |
|---|---|---|---|
| 1. İlin əvvəlinə qalıq | 710,9 | 1.Toxumluq | 174,4 |
| 2. Ümumi yığı (emaldan sonrakı çəki) | 2010,6 | 2. Yem məqsədi üçün | 1171,1 |
| 3. İdxal | 876,6 | 3. Yeyinti məqsədi üçün | 1387,1 |
| | | 4. İtkilər | 53,6 |
| | | 5. İxrac | 4,5 |
| | | 6. İlin axırına qalıq | 807,6 |
| Balans | 3598,3 | Balans | 3598,3 |

Taxıla olan tələbatın ödənilməsi onun kəmiyyətcə istehsalının artırılması ilə yanaşı, keyfiyyətinin yüksəldilməsi də mühüm rol oynayır. Bu taxılın tələbatının ödənilməsinin ikinci mənbəyi kimi çıxış edir. Məsələn, taxılın miqdarca istehsalını saxlamaq şərtilə, keyfiyyətli taxıl istehsalı, sənaye emalının təkmilləşdirilməsi, itkisinin

[22] Az.St.rəq. 2004 səh 541



downloaded from KitabYurdu.az

azaldılması, əkin materialının yaxşılaşdırılması, taxılın növ tərkibinin yüksəldilməsi və s. hesabına tələbatı ödəmək mümkündür.

Aqrar Sənaye istehsalının tərkib hissəsi olan kənd təsərrüfatının inkişafının dövlət tənzimlənməsi mürəkkəb prosesdir. Çünki, kənd təsərrüfatında təbii iqlim şəraiti, bioloji mühit, yerli adət-ənənə, ərazidə tarixən qərarlaşmış müxtəlif növ məhsul istehsalı və nəhayət mülkiyyətə bağlılıq münasibətləri mövcuddur. Lakin bununla belə kənd təsərrüfatının inkişafının dövlət tənzimlənməsinin ümumi forma və metodlarını göstərmək mümkündür ki, bunlarda aşağıdakılardır.

Cədvəl 53.

Kənd təsərrüfatının tənzimlənməsi forma və metodları.

| Formalar | Metodlar |
|---|---|
| 1. Hüquqi təminat | 1. Çatışmayan qanunvericilik aktlarının qəbul edilməsi.<br>2. Fəaliyyətdə olan qanunların keyfiyyətinin yaxşılaşdırılması.<br>3. Bir-birini təkzib etməyən hüquqi normativ aktların yaradılması. |
| 2. Maliyyə dəstəklənməsi | 1. Məhsul istehsalı və satışının kvotalaşdırılması.<br>2. Dotasiya və zərərin əvəzinin ödənilməsi.<br>3. Təminatlı minimal qiymət. Girov qiymətinin tətbiqi.<br>4. Güzəştli, elmi əsaslandırılmış kreditləşmə, vergiyə cəlb olunma.<br>5. Sığortalama.<br>6. Bələdiyyə və regional fondlara ərzaq alınması. |



downloaded from KitabYurdu.az

| | |
|---|---|
| | 7. Əhalinin dəyanətli alıcılıq qabiliyyətinin dəstəklənməsi.<br>8. Xarici rəqiblərindən müdafiə.<br>9. Kreditlərə dövlət zəmanəti. |
| 3. İnfrastruktur təminatı | 1. ASK-nın fəaliyyətini təmin edən infrastrukturun yaradılması.<br>2. Marketinq xidmət sisteminin yaradılması.<br>3. Topdan və pərakəndə satış bazarları sisteminin yaradılması.<br>4. Əmtəə birjaları, yarmarkaların yaradılması.<br>5. Torpaq, investisiya və kooperativ bankların yaradılması. |
| 4. MT-niki dəstəkləmə | 1. Lizinq mexanizminin yaradılması.<br>2. Yeni texnologiyanın istehsalı və yeni texnologiyanın tətbiqində dövlətin iştirakı.<br>3. Yeni texnikanın yaradılmasına güzəştli kreditlər.<br>4. MTS kooperativlərinin yaradılması. |
| 5. Xarici-iqtisadi fəaliyyətin dəstəklənməsi | 1. Xarici bazara çıxmaq üçün marketinq təşkili, strateji tərəf müqabillərinin investorların tapılması.<br>2. Ərzaq təhlükəsizliyinin təmin olunması.<br>3. Xarici investorlar üçün əlverişli mühitin yaradılması.<br>4. Xarici kreditorlara dövlət zəmanəti.<br>5. İxracda dempin siyasətinin dəstəklənməsi. |
| 6. Elmi əsaslandırma. | 1. Əsas problemlərin həllinin maliyyələşdirilməsi<br>2. Elmi kadrların hazırlanmasının maliyyələşdirilməsi.<br>3. Yeni texnologiyanın hazırlanması xərclərinin maliyyələşdirilməsi |



downloaded from KitabYurdu.az

| | |
|---|---|
| | 4. Sifarişlərin stimullaşdırılması.<br>5. Elmi-metodiki məsləhətçilərin maliyyələşdirilməsi.<br>6. Vəsait qoyuluşunun güzəştli və güzəştsiz sisteminin tətbiqi. |
| 7. ASK-kadr təminatı | 1. Sahibkarların, menecerlərin ixtisasının artırılmasının təminat sisteminin yaradılması.<br>2. Kadrların hazırlanması məktəblərin, ixtisasının artırılması kurslarının normativ-hüquqi bazasının yaradılması |



downloaded from KitabYurdu.az

## *FƏSİL XIX. ÖLKƏDƏ YANACAQ – ENERJİ KOMPLEKSİNİN İNKİŞAFININ TƏNZİM OLUNMASI.*

### *1. YANACAQ – ENERJİ KOMPLEKSİNİN STRUKTURU.*

Energetika sənaye istehsalının mühüm sahəsidir. Onun inkişafı səviyyəsi əsasında ölkənin iqtisadi gücünü, qüdrətini müəyyən etmək mümkündür. Əhalinin hər bir nəfərinə düşən enerji istehlakı ölkənin mədəni səviyyəsinin hansı səviyyədə olduğunu müəyyən edir.

Yanacaq Enerji Kompleksinin (YEK) məhsulunun kütləvi istehlakı istehsal və istehlak məhsullarının qiymətini müəyyənləşdirir. Buna görə də ölkənin enerji balansının strukturunun, enerjiyə qənaət siyasətinin perspektiv proqnozunun müəyyənləşdirilməsi mühüm məsələdir.

Yanacaq Enerxi Kompleksinin strukturuna daxildir.

1. Elektrik enerji istehsalı sahələri.
2. Yanacaq sənayesi sahələri.
3. Yanacağın boru kəməri nəqli.
4. Geoloji kəşfiyyət işləri (neft, qaz, enerji istehsalı üçün xammal).

Elektrik enerjisi istehsalı sahələrinin tərkibinə daxildir.:

1. İstilik və atom elektrik stansiyaları.
2. Hidro elektrik stansiyaları.
3. Elektrik şəbəkələri.
4. Magistral yanacaq şəbəkələri.
5. Yanacaqla təmin olunan atom elektrik stansiyaları.



downloaded from KitabYurdu.az

6. Qeyri ənənəvi bərpa olunan enerji mənbələri.

Yanacaq sənayesi sahələri bunlardır:

a) neft hasilatı

b) qaz hasilatı.

Yanacağın boru kəmər nəqliyyatına aiddir:

1. Magistral neft kəmərləri.
2. Neft məhsullarının nəqli.
3. Qazın nəql edilməsi.

Respublikada energetikanın mahiyyəti, istehsal proseslərində onun bu və ya digər formada istifadə olunması ilə müəyyən edilir.

## *2. RESPUBLİKANIN YANACAQ ENERJİ KOMPLEKSİNİN İNKİŞAFININ STRATEGİYASI*.

Respublikada yanacaq-enerji kompleksinin perspektiv inkişafı və onun vahid sistemdə həli problemləri uzunmüddətli enerji strategiyasında əsaslandırılmalıdır. Respublikanın enerji strategiyasının gələcək persepktivi ölkənin iqtisadi siyasətində birinci dərəcəli əhəmiyyətə malikdir və onun əsas məqsədi ölkənin enerji



downloaded from KitabYurdu.az

təminatını ödəməkdir. Bu ölkədə yanacaq enerji kompleksinin inkişafı strategiyasının əsas mahiyyətidir.

Azərbaycan bazar iqtisadiyyatı şəraitində inkişafının əsas istiqamətlərindən biri kimi neft istehsalı strategiyasını seçmişdir. Bununla əlaqədar olaraq ölkədə neft istehsalının artırılması məqsədi ilə mühüm neft kontraktları bağlanmışdır. Buna misal olaraq 20.IX-1994-cü ildə bağlanmış «əsrin müqaviləsi neft kontraktını göstərmək olar. Bununla da respublikada iqtisadi inkişafın neft strategiyası istiqamətinin əsası qoyulmuş oldu. Hazırda 19 neft müqaviləsi bağlanmış, bu müqavilədə 14 xarici ölkənin 33 iri məşhur şirkətləri iştirak edir. «Əsrin müqaviləsi»nin həyata keçirilməsi üçün nəzərdə tutulan vəsait qoyuluşu 2,4 mlrd. ABŞ dolları təşkil edir.

[23]Cədvəl 54.

Respublikada neft və qaz hasilatı.

| | Neft mln.ton. | | | Qaz mln. $m^3$ | | | |
|---|---|---|---|---|---|---|---|
| | Dənizdə | Quruda | Cəmi | Təbii | Səmt | Dənizdə | Cəmi |
| 2000 | 12,5 | 1,5 | 14,0 | 5642 | 2860 | 5411 | 13913 |
| 2001 | 13,3 | 1,6 | 14,9 | 5535 | 3164 | 5293 | 13992 |
| 2002 | 13,8 | 1,5 | 15,3 | 5144 | 3119 | 4898 | 13161 |

Göründüyü kimi ölkədə enerji daşıyıcılarının istehsalı artıma doğru meyillidir. Lakin qeyd etmək lazımdır ki, respublikada hələ də enerji istehlakında qənat rejiminə rəayət olunmur. Çox vaxt yersiz

[23] Az.St.Rəq. 2003 səh 465-4466



downloaded from KitabYurdu.az

qaz və elektrik yanacaqları hədər yerə istifadə edilir, israfçılığa yol verilir.

Respublikada yanacaq enerji strategiyasının mühüm məqsədlərindən biri də enerjiyə qənaət tədbirlərinin işlənib hazırlanmasıdır. Çünki belə tədbirlər olmadan və enerji daşıyıcılarının qorunub saxlanması çətinləşə bilər ki, bu da bir müddətdən sonra enerji təminatını mürəkkəbləşdirə bilər. Enerji resurslarından qənaətlə istifadə tədbirlərindən biri təkrar enerji ehtiyatlarından istifadə olunmasıdır.

[24]Cədvəl 55.

Təkrar enerji ehtiyatlarının istehlakı.

| | 2000 | 2001 | 2002 |
|---|---|---|---|
| İstifadə edilmişdir min ton şə yanacaq, onlardan | 36 | 38 | 36 |
| Təkrar istilik enerjisi | 36 | 38 | 36 |
| Təkrar istilik enerjisi istehlakından alınan qənaət | 44 | 46 | 38 |

Ölkənin enerji təchizatı strategiyasının mühüm problemlərindən biri qaz istehsalı sahəsinin vəziyyətinin yaxşılaşdırılmasıdır. Qaz istehsalı kompleksi ölkənin fasiləsiz təchizatı ilə məşğul olur. Lakin respublikada qaz hasilatı ilə onun istehlakçıları təchizatı müəyyən qədər məhduddur.

[24] Az.St.Rəq. 2003 səh 431



downloaded from KitabYurdu.az

[25]Cədvəl 56.

Təbii qaz ehtiyatı və istehlakı mln. $m^3$

| | 2000 | 2001 | 2002 |
|---|---|---|---|
| Ehtiyatlar cəmi | 6356 | 9270 | 9408 |
| Onlardan Hasilat | 5642 | 5535 | 5144 |
| İdxal | 293 | 3337 | 3935 |
| Daxili istehlak | 5472 | 8319 | 8342 |

Göründüyü kimi ölkədə qaz hasilatı daxili tələbatı ödəmir. Buna görə də respublika Rusiya və Türkmənistan qazından istifadə etmək məcburiyyətindədir. Həmin dövrlərdə Respublikanın daxili istehsalında idxal qazının xüsusi çəkisi 2002-ci ildə 47,1% təşkil etmişdir.

İstehsal olunmuş qazın çox hissəsi elektrik enerjisi və istilik enerjisi istehsalına istehlak edilir. Bunu aşağıdakı cədvəldən də görmək mümkündür.

[25] Az.St.Rəq. 2003 səh.430



downloaded from KitabYurdu.az

[26]Cədvəl 57.

Təbii qaz istehlakı

| | 2000 | 2001 | 2002 |
|---|---|---|---|
| Daxili istehlak cəmi mln.$m^3$, onlardan | 5472 | 8319 | 8342 |
| Elektrik və istilik ene istehsalına sərf olunub | 1407 | 4136 | 3806 |
| Kimya və s. qeyri səna məhsullarının istehsalına | 214 | 225 | 361 |
| Yanacaq kimi sərf | 3851 | 3958 | 4175 |
| İtkilər | 486 | 622 | 620 |

Göründüyü kimi daxildə istehlak edilmiş təbii qazın 2002-ci ildə 45,5%-i elektrik və istilik enerjisinin istehsalı üçün sərf olunmuşdur.

Qeyd etmək lazımdır ki, elektrik və istilik enerjisinin alınmasına sərf olunan təbii qazın əvəzinə dizel yanacağından və mazutdan istifadə olunsa, qazın məişət xidmətinə istiqamətlənən həcmi artmış olar.

Bu yanacaq və enerji istehsalının mühüm strateji problemlərindəndir. Çünki qazın digər yanacaq növü ilə əvəz edilməsi böyük xərc tələb edir, lakin buna baxmayaraq gündən-günə aktuallaşır.

---

[26] Az.St.Rəq. 2003 səh 430



downloaded from KitabYurdu.az

Müqayisə olunan dövrlərdə təbii qaz itkisi də çoxalmışdır. Ümumi istehlakda bu itkilər 2000-ci ildə 8,8%, 2001-ci ildə 7,4%, 2002-ci ildə 7,4% olmuşdur. Qaz itkisi 2000-ci ilə nisbətən 2002-ci ildə 27,5 dəfə artımşdır.

Həmin dövrlərdə elektrik enerjisi istehlakında da itkilər baş vermişdir. Məsələn, 1990-cı ildə illik elektrik itkisi 3109 mln.kub saat, 1999-cu ildə 2781 mln. kub saat, 2002-ci ildə isə 3941 mln. kub saat olmuşdur. Təkcə onu qeyd etmək lazımdır ki, 2000-ci ilən nisbətən 2002-ci ildə elektrik enerjisi itkisi 42,2% təşkil etmişdir.

Yanacaq enerji kompleksinin qarşısında duran strateji məqsədin həlli investisiya qoyuluşu tələb edir. Bunun üçün ən çox xarici investisiyalardan istifadə olunmuşdur. Azərbaycan Respublikası 2002-ci ildə 2234,8 mln. ABŞ dollarında xarici investisiya cəlb etmişdir ki, bunun da 75,7% neft sektoruna istiqamətlənmişdir.

Azərbaycan Respublikasının iqtisadi inkişaf strategiyasında ümumi məqsəd ölkənin Ümumi Daxili məhsulun istehsalını artırmaq yolu ilə sosial problemləri həll etməkdir. Buna görə də respublika dövləti və hökuməti bu strategiyanın məqsədinin yerinə yetirilməsi üçün neft sektorunun inkişafına belə böyük diqqət yetirməsi düzgündür. Çünki, bu sahənin inkişafı digər sahələrin də inkişafına təkan verəcəkdir.



downloaded from KitabYurdu.az

## *3. YANACAQ ENERJİ KOMPLEKSİNİN İNKİŞAFININ TƏNZİMLƏNMƏSİ.*

Azərbaycan Respublikası Hökuməti təbii inhisar üzrə tariflərin səviyyəsinin son həddini müəyyən edir. Bununla əlaqədar onların investisiya proqramına baxır, neft və qaz kəmərlərinə girişi tənzim edir, daxili tələbat üçün balans tapşırıqlarını müəyyənləşdirir.

Dövlət hakimiyyətinin icra orqanının energetika komissiyası təbii inhisarı tənzim edən orqandır. O, inhisarın xərclərini müəyyən edərək tariflərin dəyişdirilməsi haqqında təkliflər verir.

Bu komissiyanın əsas vəzifəsi istehsalçı və istehlakçı arasında əlverişli şərait yaratmaqdır. Bu istehlakçılar üçün müqabil qiymətə enerjidən istifadəyə, istehsalçılara isə biznesi təşkil etməyə imkan verir. Onun mühüm funksiyasından ən mühümlərindən biri də qiymətləri müəyyənləşdirməkdir.

Regional səviyyədə bu funksiya regional enerji komissiyası yerinə yetirir. Elektrik enerjisi, qaz və neft sənayesi çox hallarda eynicinsli standartlaşmış məhsul istehsal edir. Bu şəraitdə həmin məhsullara sərbəst qiymət rəqabət vasitəsi ola bilməz. Həmin məhsullara qiymətlər vergi sistemi ilə əlaqədar maliyyə imkanlarının real mövcudluğu ilə birlikdə kompleks şəkildə dövlət tərəfindən tənzim olunmalıdır. Bu zaman istehsalçı və istehlakçıların imkanları da nəzərdən qaçırılmamalıdır.

Hazırkı dövrdə enerji kompleksi üzərində dövlətin qiymət və maliyyə nəzarəti daha da gücləndirilməlidir. Çünki, enerji daşıyıcılarının qiymətlərinə və maliyyə axınını həyata keçirən



downloaded from KitabYurdu.az

kompaniyalar üzərində dövlət nəzarətinin olması vacibdir. Belə ki, bu kompaniyalar bəzi hallarda qeyri standart hərəkət edirlər.

Ölkə daxilində enerji qiymətləri valyuta kursundan və dünya bazarında qiymətlərin kəskin dəyişməsindən müdafiə olunmalıdır. Bu heç də onların avtonom və asılı olması deyildir. Onlar ölkənin istehsalçı və istehlakçılarının dünya rəqabətinə uyğunlaşmasını stimullaşdırmalıdırlar. Nəzərə almaq lazımdır ki, qiymətlərin yüksək tərəddüdlüyü yanacaq-enerji istehsalı potensialına mənfi təsir göstərə bilər, investorlar üçün risk yaradar.

İnkişaf etmiş ölkələrdə daxili qiymətlər dünya bazarında qiymətlərin enib-qalxmasından asılı olaraq dəyişilə bilir. Bununla belə daxili qiymətlərin dəyişilməsi dövlətin tənzimləməsi nəticəsində müəyyən qədər az baş verir. Yanacaq Enerji Kompleksinin tarifləri vahid kompleks şəkildə tərtib olunması məqsədə uyğundur. Çünki, qa-yanacaq-elektrik enerjisi-dəmir yolu zəncirvari asılılıq mövcuddur. Buna görə də həmin sahələrin xidmətlərinin dəyərinin koordinasiya edilməsi zəruri hesab edilir.

YEK-rinin fəaliyyətinin tənzimlənməsində Yanacaq Energetika Nazirliyi mühüm rola malikdir. Bu nazirlik dövlətin enerji siyasətini həyata keçirməklə yanaşı bu sahədə fəaliyyət göstərən nazirlik və idarələrin də işini koordinasiya edir.

Yanacaq Enerji Nazirliyinin tərkibində Dövlət Enerji Nəzarət orqanı vardır. Həmin orqan enerji təsərrüfatlarının müəyyən mövsümlərinə hazırlığını yoxlayır onlara pasport verir.



downloaded from KitabYurdu.az

## *BÖLMƏ V. DÖVLƏTİN SOSİAL SİYASƏTİ VƏ ONUN REALLAŞDIRILMASI MEXANİZMLƏRİ.*

## *FƏSİL XX. SOSİAL YÖNÜMLÜ BAZAR İQTİSADİYYATININ FORMALAŞMASI.*

### *1. DÖVLƏTİN SOSİAL SİYASƏTİ, ONUN MAHİYYƏTİ VƏ VƏZİFƏLƏRİ.*

Dünya ölkələri iqtisadi inkişafda müəyyən aspektlərə, istiqamətlərə malikdir: iqtisadi, sosial, hüquqi, mənəvi. Bunların hamısı ictimai münasibətlərin müxtəlif formalarında ifadə olunur. Bu münasibətlərin əsasında azad bazar iqtisadiyyatı və yaxud da dövlət tərəfindən ciddi reqlamentləşdirilmiş iqtisadi proseslər durur.

Məlumdur ki, bazar iqtisadiyyatı istehsal və istehlak vasitələri üzərində dövlət və xüsusi mülkiyyətə əsaslanır. Bu zaman azad rəqabət, - yəni açıq və sərbəst iqtisadiyyat fəaliyyət göstərir.

Müasir sivil ölkələrin təcrübəsi gbstərir ki, inzibati amirlik və bürokratik sistemə nisbətən bazar iqtisadiyyatı cəmiyyətin hərtərəfli inkişafının daha effektli olmasını təmin edir. Bununla yanaşı, həmin ölkələrin təcrübəsi onu da göstərir ki, bazar iqtisadiyyatında inkişaf edən ölkələr dövlətin iqtisadiyyatı tənzimlənməsinin müxtəlif variantlarından istifadə edirlər.

Təbiidir ki, müasir bazar iqtisadiyyatı cəmiyyət üzvlərinin çoxtərəfli tələbatının ödənilməsinə istiqamətlənmişdir. Bununla yanaşı, sənaye cəhətdən yüksək inkişaf etmiş ölkələr öz vətəndaşlarının dövlətin köməyi ilə sosial iqtisadi proseslərdə



downloaded from KitabYurdu.az

müdafiə edirlər. Bu isə sosial yönümlü bazar iqtisadiyyatının mövcudluğu üçün əsas vermişdir.

Sosial yönümlü bazar iqtisadiyyatı konsepsiyasının əsasını qoyan və təşkil edən 1941-45-ci illər müharibəsindən sonra AFR-in xalq təsərrüfatı naziri kansler Lyudviq Erxard olmuşdur. Bu konsepsiyanın mahiyyəti 1956-cı ildə nəşr olunmuş «Hamı üçün əhval-ruhiyyə» kitabında göstərilmiş və bu kitab 1960-cı ildə Rusiyada çap olunmuş və 1991-ci ildə yenidən nəşr edilmişdir.

Sosial bazar iqtisadiyyatı azad rəqabətə, istehlakın sərbəstliyinə və şəxsiyyətin hər tərəfli inkişaf sərbəstliyi prinsiplərinə əsaslanan təsərrüfatçılıq sistemidir. O, daima iqtisadi səmərəliliyə. Kapital tətbiqinə və istehlakın genişlənməsinə şərait yaradır.

Bazar iqtisadiyyatının sosial mahiyyəti iqtisadiyyatda hər hansı nailiyyətin – səmərəliliyin, məhsuldarlığın və sairə əhalinin tələbatının ödənilməsinə yönəldilməsidir.

Müasir dünyada sosial-bazar iqtisadiyyatı konsepsiyası bazarda gedən iqtisadi proseslərlə sosial və ictimai tərəqqinin sintezinə nail olunmasıdır.

Sosial-bazar iqtisadiyyatı konsepsiyasının dövlət siyasəti, cəmiyyətin bütünlükdə və iqtisadiyyatın ədalətli strukturunun sosial sistemin dəyanətliliyinin artırılmasına, iqtisadi effektivliyin səmərəliliyinin yüksəldilməsinə istiqamətlənməsidir. Buna görə də sosial-yönümlü bazar iqtisadiyyatına kapitalizm və mərkəzləşmiş idarəetmə arasındakı «üçüncü yol» kimi baxılır. Bununla əlaqədar olaraq sosial yönümlü iqtisadiyyata aşağıdakılar tərifi vermək olar.



downloaded from KitabYurdu.az

Sosial yönümlü iqtisadiyyat sosial iqtisadi sistem olub, bütün mülkiyyət formalarının plürealizmi əsasında fəaliyyət göstərir. Vətəndaşların şəxsi azadlığı, bazar rəqabətinin sərbəstliyi, qiymət qoyma və s. əsasında dövlətin iştirakı ilə milli məhsulun əməyə görə ədalətli bölgüsünü həyata keçirir, əhalinin maddi mühafizəsinə zəmanət verir.

Bu tərifdən belə məlum olur ki, vətəndaşların sosial problemlərinin həllində dövlətin rolu yüksəkdir və onun aşağıdakı vəzifələri yerinə yetirməsi məqsədə uyğundur:

- ölkədə qanun-qaydanı formalaşdırmaq və saxlamaq;
- daxili və xarici təhlükəsizliyi təmin etmək;
- milli valyutanın sabitliyini təmin etmək.
- Sosial infrastruktura sahəlrini inkişaf etdirmək (təhsil, səhiyyə, ETT və s.);
- Rəqabət mübarizəsi sahələrində qanunçuluğun qorunmasına nəzarət etmək;
- Cəmiyyətin az təminatlı üzvlərinin əmək hüququnu qorumaq və onların sosial müdafiəsinə zəmanəti həyata keçirmək;
- Ətraf mühitin qorunması üçün bazar stimullarından istifadə etmək, qadağa və tələbləri həyata keçirmək;
- Xarici-iqtisadi münasibətlərdə, vergi və sosial hüquqların həyata keçirilməsində ümumi qəbul olunmuş «oyun» qaydalarını müəyyən etmək;



downloaded from KitabYurdu.az

- Bazar iqtisadiyyatı imkanları çərçivəsində sosial-iqtisadi prosesləri makrosəviyyədə idarə etmək.

Yuxarıda qeyd olunan məsələlərin həll olunması isə aşağıdakı məqsədlərə nail olmağa imkan verir.

a) əhalinin həyat səviyyəsinin yüksəldilməsinə;

b) qiymət səviyyəsinin stabilliyinin təmin olunmasına;

v) yüksək məşğulluq səviyyəsinin təmin olunmasına;

q) sosial təminat sisteminin fəaliyyətinin ədalətli olmasına.

Azərbaycan Respublikası ölkədə bazar iqtisadiyyatının formalaşması yolunu seçmişdir və bu Konstitusiyasında qeyd olunmuşdur. Konstitusiyada göstərilir ki, Azərbaycan Respublikası – sosial dövlət olub, siyasətini vətəndaşlarının hər tərəfli inkişafına istiqamətləndirmişdir. Bu məsələlərə nail olmaq üçün aşağıdakı problemlərin həllini zəruri saymışdır.

- hüquqi dövlət yaratmaq;
- korrupsiya və inhisara qarşı qəti mübarizə aparmaq;
- milli valyutanı möhkəmləndirmək;
- büdcə kəsirini azaltmaq;
- aktiv investisiya siyasəti aparmaq;
- kiçik biznesi dəstəkləmək;
- məhsul keyfiyyətinin yüksəldilməsi üçün zəruri şərait yaratmaq;
- investisiyalar üçün əlverişli mühiti formalaşdırmaq;
- əhalinin sosial müdafiəsi proqramını hazırlamaq.



downloaded from KitabYurdu.az

Praktiki olaraq bu məsələlərin həlli üçün proqram tərtib olunmalıdır. Həmin proqramda islahatların keçirilməsinin strateji məqsədləri və sosial yönümün istiqamətləri öz əksini tapmalıdır:

a) əmək sferası və əmək münasibətləri;

b) əhalinin məşğulluğu və kadr potensial siyasəti;

v) əhalinin miqrasiyası;

q) sosial sığorta;

d) pensiya təminatı;

e) əhalinin sosial müdafiə sistemi;

j) uşaqların, gənclərin, qadınların, ailələrin sosial müdafiəsi;

d) sosial sfera sahələri.

Həmin proqramda həmçinin sosial siyasətinin regionlar üzrə istiqamətləri də öz əksini tapmalıdır.

## *2. DÖVLƏTİN SOSİAL SİYASƏT STRATEGİYASI.*

Dövlətin daxili siyasətində mühüm yeri onun sosial siyasəti tutur və onun tərkib hissəsidir.

Bu insanlar arasındakı münasibət formalarının sosial proseslərinin kompleks tənzim olunmasını əhatə edir.

Sosial siyasət iqtisadiyyatın təmərküzləşmiş forması kimi insanların tələbatını, sosial qrupların marağını ifadə edir.



downloaded from KitabYurdu.az

Sosial münasibət insanların bir-biri ilə əlaqəsi prosesində yaranır və müxtəlif formada ola bilər:

a) sosial qruplar arasında;

b) siniflər arasında;

v) millətlər arasında;

q) sosial qrup daxilində, sinif və millətlər daxilində;

d) ailələr və ailə daxilində;

İnsanların həyat fəaliyyətini şəraiti-maddi və mənəvi nemətlərdən və onun inkişafı üçün zəruri olan fəaliyyət sferasından ibarətdir və bu sahədə dövlətin bütün siyasəti bir-biri ilə əlaqədardır.

Cəmiyyətin inkişafı üçün isə iqtisadi və sosial siyasətlər arasında dialektik vəhdət olmalıdır. Bu isə öz konkret ifadəsini aşağıdakılarda tapır:

a) iqtisadi siyasət öz son nəticəsində insanların madi və mənəvi həyat səviyyəsinin durmadan yüksəlməsinə xidmət edir;

b) sosial siyasət isə insanların maddi nemətlərə olan tələbatını dolğun ödəmək əsasında əhalinin müxtəlif sosial tələbatını ödəmək məqsədini daşıyır.

Beləliklə, bir siyasət nəticədə, o birisi isə ilkin moment sayılır. Sosial siyasətini tam reallaşması üçün aşağıdakı prinsiplərə əməl olunması məqsədə uyğundur.

a. İnsanların iqtisadi sərbəstliyi, sahibkarların, muzdlu əməyin, həmkarların hüququnun tanınması.

b. Bazarın tənzimedici roluna etibar edilməsi (tələb, təklif, qiymət, rəqabət).



downloaded from KitabYurdu.az

c. Bazar oyunlarının seçilməsi, oyun qaydalarına əməl olunması, sosial iqtisadi həyatın tənzimlənməsində dövlətin rolu.

d. Əmək qabiliyyətini itirmiş və az təminatlı əhaliyə dövlət qayğısının gücləndirilməsi. Əmək qabiliyyətsizlərə kömək məqsədi ilə əmək qabiliyyətlərinin daha çox yüklənməsi.

e. Dövlətin ictimai həyatında və istehsalın idarə olunmasında işçilərin iştirakı.

Sosial bazar iqtisadiyyatında dövlətin sosial siyasəti elə formalaşmalıdır ki. Birincisi, öz kapitalına görə əhalinin gəlirlərinin artması təmin olunsun, ikincisi, cəmiyyətin iqtisadi və sosial məsuliyyətinin artırılması yolu ilə himayədarlıq aradan qaldırılsın, üçüncüsü, əhalinin sosial müdafiəsi mexanizmi yaradılsın.

Bu baxımdan Azərbaycan Respublikasının sosial siyasətinin strategiyası və taktikasında aşağıdakılar nəzərdə tutulur:

a. Əhalinin həyat səviyyəsinin hiss olunacaq dərəcədə yaxşılaşdırılması;

b. Əhalinin məşğulluğunun effektli təmin olunması.

c. Ölkədə konstitusiya hüququna əməl olunması;

d. Sosial siyasətin ailəyə istiqamətləndirilməsi;

e. Ölkədə demokratik situasiyanın normallaşdırılması.

f. Sosial infrastrukturunun əhəmiyyətli dərəcədə yaxşılaşdırılması.

Bu məqsədlərə nail olmaq üçün aşağıdakı zəruri şəraitin olması məqsədə uyğundur:



downloaded from KitabYurdu.az

a. İnsanların əmək aktivliyinin yüksəldilməsi və istehsaln inkişafının stimullaşdırılmasının əsas amilli kimi, əhalinin pul gəlirlərinin onun əmək fəaliyyətindən asılılığının təmin olunması;

b. Vergi qanunçuluğuna əsasən gəlirlərin ədalətli bölgüsünün həyata keçirilməsi;

c. İnvestisiya fəaliyyətinin sosial proqramların həyata keçirilməsinə istiqamətlənməsi.

d. Düşünülmüş məşğulluq siyasətinin aparılması bir tərəfdən işsizliyin azaldılması, digər tərəfdən isə artıq işçi qüvvəsinin yaranmasına maneçilik törədilməsi.

e. Aztəminatlılara istiqamətlənən vəsaitin ünvanlılığının güclənməsi.

f. Ailələr, qadınlar və gənclər üçün dəyərli həyat səviyyəsinin yaradılması.

g. Sosial sığortanın rolunun yüksəldilməsi.

h. Sosial infrastruktura sahələrinin stabil maliyyələşdirilməsi.

Bu məsələlərin həllində ölkənin illik ümumi daxili məhsulun artımının rolu əhəmiyyətli və böyükdür. Bu baxımdan Respublikada ümumi daxili məhsulun artım dinamikası diqqəti cəlb edir.



downloaded from KitabYurdu.az

Cədvəl 58.[27]

Azərbaycan Respublikasının ümumi daxil məhsulun dinamikası.

| İllər | Cəmi | | Adambaşına dollar |
|---|---|---|---|
| | Mlrd. mant | Min.dollar | |
| 1995 | 10669,0 | 2415,2 | 314,2 |
| 1996 | 13663,2 | 3180,8 | 409,7 |
| 1997 | 15791,4 | 3960,8 | 515,2 |
| 1998 | 17203,7 | 4446,6 | 576,6 |
| 1999 | 18576,2 | 4511,0 | 573,7 |
| 2000 | 21939,8 | 493,6 | 618,6 |
| 2001 | 26578 | 5707,8 | 714,3 |
| 2002 | 30312 | 6236,1 | 774,5 |
| 2003 | 35053 | 7138,0 | 879,7 |

Cədvəl məlumatlarının təhlili göstərir ki, Respublikanın ümumi daxili məhsulu 1995-ci ilə nisbətən 2003-cü ildə yüksək artıma malikdir. Ümumi daxili məhsulun adam başına düşən payı həmin dövrlərdə təxminən 2,0 dəfə artmışdır. Bu respublikada sosial sferanın inkişafı üzrə müsbət göstərici sayıla bilər.

[27] Az.st.rəq.2004 səh 368



downloaded from KitabYurdu.az

Dövlətin sosial siyasətində bir sıra mühüm istiqamətlər nəzərdə tululur ki, onlarında əsasında cəmiyyətdə gedən sosial proseslərin tənzimlənməsi həyata keçirilir;

a. Ailələrin şəxsi istehlakı və gəlirlərin bölgüsü siyasəti.
b. İctimai sosial tələbata dair siyasət.
c. Əhali və işçi qüvvəsinin təkrar istehalına dair siyasət.
d. Cəmiyyətdə «az təminatlı əhali qrupunun» dəstəklənməsi siyasəti.
e. Sosial infraustruktura sahələrinin inkişafına dair siyasət.

Ailənin şəxsi istehlakı və gəlir haqqındakı siyasətinin əsas məzmunu, əməyin stimullaşdırılmasını, gəlirlərin əməklə ölçülməsini, təminatlı əmək haqqı sistemini, əmək haqqının əsassız yüksəldilməsinin qarşısının alınmasını, əmək haqqının minimum səviyyəsinin təmin olunmasını, muzdlu əməyin qarantını əhatə edir.

O, büdcədən maliyyələşdirilən və büdcədən kənar əmək haqqını əhatə edir və onların tənzimlənməsini həyata keçirir.

İctimai sosial tələbata dair siyasəti, minimum istehlak tələbinin təmin olunma mexanizminin işlənib hazırlanmasıdır.

Az təmin olunmuş ailələrin yaşayış minimumu problemi birinci yerdə durmalıdır. Dövlət əhalinin yaşayış minimumunun təmin olunmasının qayğısına qalmalıdır. Bu siyasətə həmçinin səhiyyə, bədən tərbiyəsi, idman, təhsil, mədəniyyət-incəsənət, təbiətin qorunması və fundamental elmin inkişafı daxildir.



downloaded from KitabYurdu.az

Məşğulluq və əmək siyasəti – yeni iş yerlərinin yaradılmasını, müəyyən xidmət sahələrinin fəaliyyətini, məşğulluq fondunu, işsizliyə görə myavinətlərin verilməsi, proqramının hazırlanmasını əhatə edir.

Az təminatlı əhali qrupunun dəstəklənməsi siyasəti nəzərdə tutur:

a. Təqaüd sisteminin daima təkmilləşdirilməsi.

a) təqaüdçülərin yaşayış minimumu həddində təminatı;

b) istehlak qiymətlərinin yüksəlməsi ilə əlaqədar olaraq təqaüdçülərin indeksləşdirilməsi;

v) hər bir işçinin əməyi müqabilində təqaüdlərin hesablanması üçün əmək haqqının müasir səviyyəsinin müəyyən edilməsi;

q) qeyri-dövlət təqaüd fondlarının yaradılması.

b. Əhalinin sosial müdafiəsinin təminatı (ailə və uşaqlara sosial xidmətlər, qoca və əlillərin müdafiəsi, sosial yardımların, təqaüd və konpensasiyaların verilməsi, vətəndaşların dəstəklənmsi)

c. Ailələrin, qadınların, uşaq və gənclərin fəaliyyətinin təmin olunması (əhalinin mədəni-psixoloji və keyfiyyət cəhətdən inkişafı, qadınların və gənclərin siyasi həyatda geniş iştirakı).

Sosial infrastruktura sahələrinin inkişafı siyasəti özündə kompleks tədbirləri sistemini əhatə edir-humanitar sferanın dövlət tərəfindən tam dəstəklənməsi, bələdiyyə məqsədli proqramların üstün sahələrinin müəyyən edilməsi və onlara vəsaitlərin ayrılması, təhsil, səhiyyə proqramlarının həyata keçirilməsi, onların maddi-



downloaded from KitabYurdu.az

texniki bazasının daha da möhkəmləndirilməsi, mənzil-kommunal təsərrüfatının inkişafı və s.

Dövlətin sosial siyasətinin yuxarıda qeyd olunan istiqamətləri, cəmiyyətin həyatında o vaxt praktiki tətbiq oluna bilir ki, bunun üçün xüsusi zəmin yaradılmış olsun.

## *3. SOSİAL PROBLEMLƏRİN TƏNZİMLƏNMƏSİNİN İSTİQAMƏTLƏRİ.*

Bazar iqtisadiyyatı cəmiyyətdə iqtisadi və sosial tərəqqini təmin etmək üçün onda baş verən proseslər tənzimlənməli və idarə etməlidir. Yəni dərk olunmuş, məqsədyönlü və planlı qaydada, subyektlər obyektlərə təsir göstərməlidir ki, onlar öz keyfiyyət xüsusiyyətlərini saxlamaqla yanaşı, xarici və daxili mühitin dəyişməsinə uyğunlaşa bilsinlər. Məlum olduğu kimi sosial sferalar əsasən dövlət büdcəsi tərəfindən maliyyələşdirilir və idarə olunur.

İdarəetmə subyekti kimi, sosial institutlar, təşkilatlar, insanlar qrupu, ayrı-ayrı fərdlər nəzərdə tutulur.

İdarəetmənin iki subyekti fərqləndirilir: əsas və baş subyektlər.

Əsas subyektə daxil etmək olar:

a) makrosəviyyədə dövlət və ona məxsus olan institutlar, hüquq mühafizə orqanları, prezident aparatı, icraedici orqanlar.



downloaded from KitabYurdu.az

b) yerli dövlət orqanları.

İdarəetmənin baş subyekti isə Konstitusiya əsasında dövlət orqanlarına öz nümayəndələrini seçən xalq sayılır.

İşgüzar müəssisələrin baş subyekti onların sahibləri sayılır.

İdarəetmə obyekti kimi – öz üzərində idarəetmə təsirini hiss edən sosial institutlar, təşkilatlar, fərdlər və s. sayılır.

İctimai sistemlərdə idarəetmə həmişə ikili xarakter daşıyır. Bir tərəfdən birbaşa istehsalı təşkil edən, onu obyektiv reallığa uyğunlaşdıran, insanların fəaliyyətini istiqamətləndirən menecerlərin fəaliyyətidir. Bu idarəetmənin təşkilatı texniki tərəfidir.

İkinci tərəfdən, idarəetmə həmişə mülkiyyətin funksiyası kimi çıxış edir. Bu idarəetmənin sosial-iqtisadi tərəfidir. Elə bunun özü də idarəetmə fəaliyyətinin məqsədini, xarakterini və alətlərini təşkil edir.

İdarəetmənin funksiyaları onun mahiyyətini açıqlayır. Qəbul olunmuş həmin funksiyalar bunlardır:

1. İdarəetmə qərarlarının hazırlanması və qəbul edilməsi.
2. İdarəetmə qərarlarının yerinə yetirilməsinin təşkili.
3. Qərarların yerinə yetirilməsinin stimullaşdırılması və motivləşdirilməsi.
4. Qərarların yerinə yetirilməsinin uçotu və təhlili.
5. Qərarların yerinə yetirilməsinin tənzimlənməsi.

Real idarəetmə prosesində bu funksiyalar çulğalaşaraq qarşılıqlı əlaqədə olurlar.



downloaded from KitabYurdu.az

Bazar iqtisadiyyatı şəraitində sosial-iqtisadi inkişafının tənzimlənməsi xüsusi əhəmiyyətə malikdir. Onun mahiyyəti bazar şəraitində qeyri-mütənasibliklərin zərurətindən doğur. Çünki bazar iqtisadiyyatı şəraitində; kollektiv və ictimai təyinatlı məhsul istehsalına maraq; təsərrüfat subyektlərinin öz fəaliyyətlərinin antropogen nəticələrinə reaksiyaları; işləmək istəyənlərin və bacaranların əməyinə zəmanət; insanların yaşayış səviyyəsi standartlarına vətəndaşlıq hüququ, elmin inkişafına stabilliyi olmur, inflyasiya prosesində isə qeyri sabitlik mövcud olur.

Deməli, bu problemlərin həlli dövlət tərəfindən tənzimlənməlidir.

İqtisadiyyatın və sosial münasibətlərin dövlət tənzimlənməsində məqsəd milli iqtisadiyyatın inkişaf stabilliyini təmin olunmasına şərait yaratmaq və sosial müdafiə imkanlarını artırmaqdır. Onun əsas formaları: a) hüquqi normaları; b) büdcə – vergi alətləri; v) kredit-büdcə vasitələri; q) strateji planlaşdırma və proqnozlaşdırma hesab edilir.

İnzibati-hüquqi tənzimləmə, hüquqi normaların vasitəsilə təşkiletmə məqsədi daşıyır: a) insanların müxtəlif fəaliyyəti və onların sosial ümumiliyi; b) ayrı-ayrı vətəndaşların kommersiya strukturlarının, dövlət müəssisələrinin hüquq və vəzifələrini müəyyən etmək.

Hüquqi tənzimləmə mexanizmi müxtəlif hüquqi normalardan (qanun, qərar, hüquqi aktlar) – hüquq mənbələrindən ibarətdir. Buna görə də respublikanın bazar iqtisadiyyatına keçməsi



downloaded from KitabYurdu.az

müəyyən siyasi və hüquqi normaların işlənib hazırlanmasını tələb edir.

Sosial yönümlü bazar iqtisadiyyatının formalaşdırılmasında büdcənin rolu və əhəmiyyəti getdikcə artırılmalıdır.

Bu baxımdan sosial infrastruktur sahələrinin kompleks inkişaf etdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Məlum olduğu kimi iri şəhərlərdə sosial infrastruktur sahələrinin inkişafı regionların sosial infrastrukturunun inuişaf səviyyəsindən xeyli fərqlənir. Məhz buna görə də dövlətin tənzimləyici mexanizmlərinin getdikcə bu fərqlərin aradan qaldırılması istiqamətinə yönəltmək lazımdır. Bir sıra sosial infrastruktur sahələrinin inkişafı və tənzimlənməsi nisbətən uzun müddət tələb etdiyi üçün tənzimlənmənin mühüm forması kimi strateji planlaşdırma xüsusi yer tutur ki, bu da aşağıdakıları həll etməyə imkan verir; konkret vaxt üçün sosial problemlərin həllinə dair iqtisadiyyatın vəziyyətini; sosial münasibətlərin və iqtisadi inkişafın istiqamətini; idarəetmə subyektlərin strateji məqsədinimüəyyən etmək və qoyulmuş məqsədin resurslarla təmin olunmasına nail olmasını.



downloaded from KitabYurdu.az

## *FƏSİL XXI. DÖVLƏTİN SOSİAL MÜDAFİƏ FUNKSİYASI VƏ ONUN MAHİYYƏTİ.*

### *1. SOSİAL MÜDAFİƏ ANLAYIŞI VƏ MAHİYYƏTİ.*

Ölkə iqtisadiyyatının bazar münasibətlərinə keçid mərhələsində, dövlətlə əhalinin münasibətlərinə iki mövqedən yanaşılır. Bir tərəfdən əhali mülkiyyət münasibətlərinin fəali subyektidir. Mülkiyyətə sahib olaraq əmək fəaliyyəti ilə məşğul olur. ÜDM və xüsusi gəlirlərin yaradılmasında iştirak edir, əmtəə və xidmətlərin alıcısı kimi çıxış edir və s. digər tərəfdən isə o, dövlət funksiyalarının obyekti olur. Mövqelərin hər ikisi «sosial müdafiə» anlayışı kimi ifadə olunur. «Qanuna uyğun» inkişaf edən ölkələrdə bu qarşılıqlı münasibətlərin birincisi üstünlük təşkil edirsə, ikincisində dövlət və əhali tərəfdaş kimi çıxış edirlər. Bu vəziyyət keçid dövrünün ağırlığından əziyyət çəkən əhali ilə münasibətlərdə dövlətin himayəçi fəaliyyətinin əhəmiyyətini dərəcədə artırmış olur.

Beləliklə, sosial müdafiə dedikdə insanların yaşayış yerindən, milliyyətindən, cinsindən, yaşayışdan və digər cəhətlərindən asılı olmayaraq onların sosial-iqtisadi hüquq və zəmanətlərinin təmin olunması üzrə dövlətin siyasəti başa düşülür.

Bəzən, sosial müdafiə anlayışı yalnız cəmiyyətin özü üçün zəruri həyat şəraitini sərbəst təmin edə bilməyən, əmək qabiliyyətini itirmiş və digər sosial zəif kateqoriyalarına dövlətin sosial yardımı ilə məhdudlaşır. Sözsüz bu insanların, hər şeydən əvvəl dövlət himayəsinə ehtiyacları vardır. Lakin təcrübi olaraq, hər bir insan əlverişsiz şəraitə, təbiətin, mühitin neqativ təsirlərinə və obyektiv



downloaded from KitabYurdu.az

risklərə məruz qala bilər. Çünki onlar arasında fizioloji qanunauyğunluqlar üzündən hər bir kəs üçün mütləq xarakter daşıyan amillər (qocalıq, xəstəlik, uşıqlıqda məhdudlaşmış iş qabiliyyəti) vardır. Həm də, sosial amillər (iş yerinin itirilməsi, tələb olunan təhsilin və ixtisasın alınması imkanlarının olmaması, müəyyən növ cinayətlər və sairə) arasında gəlirlərin bölüşdürülməsində dərin fərqlər vardır. Bu baxımdan sosial yönümlü iqtisadiyyatda dövlətin vəzifəsi göstərilən risklərin və əlverişsiz çarpışmaların yumşaldılması mexanizmini işləmək və həyata keçirməkdir.

Beləliklə, sosial müdafiə olunmayan vətəndaşların bütün hüquq və azadlıqlara (əmlak hüququ və məşğulluq şəxsi toxunulmamazlıq və ekoloji təhlükəsizliyə qədər) ehtiyajı vardır.

Buna görə də sosial müdafiə həyat səviyyəsi sahəsində hüquq və zəmanətlərin (həyat üçün minimum zəruri vəsaitlər əldə etmək hüququ, əmək və istirahət hüquqları, uşaqların tərbiyəsi üçün, ailə başçısını itirməyə görə, xəstəliyə və qocalığa görə, sosial təminat hüquqları, işsizlikdən müdafiə, sağlamlığın mühafizəsi, təhsil. Mənzil və s. hüquqlar) təmin olunması üzrə müvafiq dövlət siyasətidir.

Bazar iqtisadiyyatına keçidə qədərki dövrdə gəlirlərin bölgüsü sosial ehtiyaclar üçün ölkələrin unitar təşkilinin və ictimai mülkiyyətinin üstünlüyünə əsaslanırdı. Hazırda, yəni yeni iqtisadi sistemin formalaşması köhnənin yeniyə transformasiyası ilə əlaqədardır.



downloaded from KitabYurdu.az

Ölkədə özəlləşdirmə, dövlətsizləşdirmə və mülkiyyət çoxnövlülüyü yaradılır. Bu isə sosial müdafiə funksiyalarının güclənməsini zəruriləşdirir. Buna görə də cəmiyyətin sosial müdafiəsi iqtisadiyyata dövlətin müdaxilə həddi ilə səciyyələnən iqtisadi inkişaf modelləri seçilməsindən çox asılıdır.

Bazar münasibətləri təşəkkül tapmış iqtisadiyyatda əsas iki modelə daha çox üstünlük verilir. Bunlardan biri «İsveç modeli»dir. Bu model gəlirlərin ictimailəşməsində dövlətin xüsusi rolu ilə və ümummilli sosial idarəetmə mexanizminin çox mühüm əhəmiyyəti ilə seçilən sosial-demokratik yönlü iqtisadi inkişafı əks etdirir.

İkincisi, «Amerika modeli»di, sosial-iqtisadi proseslərə dövlətin minimum müdaxiləsi ilə fərqlənir və neoliberal nəzəriyyəyə əsaslanır.

Modellərinin birinin və ya digərinin seçilməsi bütövlükdə əhalinin sosial müdafiəsinin əsas formalaşma yönümündən asılıdr. Belə ki, iqtisadiyyat elə təşkil edilməlidir ki, gəlirlər (əməyə, sahibkarlığa görə, sosial transfertlər) bölüşdürüldükdə bu ailələrin təmin olunması üçün kifayət etsin və bu zaman sosial yardım yalnız ağır şəraitdə olan məhdud sayda əhali qrupları üçün ayrılsın, ya da gəlirlərin bölgüsü və dövlət yardımları ekstremal hallarda deyil, standart şəraitlərdə ayrıca qruplar üçün yox əhalinin böyük bir hissəsi üçün nəzərdə tutulsun.

Dövlətin sosial müdafiə resursları aşağıdakı mənbələrdən formalaşır:



downloaded from KitabYurdu.az

a) dövlət büdcəsinə yığılan vergilər (ümumi münasibətə görə vergilərin səviyyəsi tamamilə yüksəkdir və onların sonrakı artımı onların yığılmasına daha pis təsir edəcək)

b) məcburi dövlət sosial sığorta ödəmələri. (hazırda bu ödəmələr – sığorta proqramları ilə müqayisədə əmək haqqının çatışmayan səviyyəsi və artım tempi üzündən büdcə kəsirliyinə yerləşdirilmişdir)

v) xüsusi vəsaitlər – müəssisələrin öz işçilərinin sosial ehtiyacları üçün yığılan vəsaitlər.

Resursların məhdudluğu sosial müdafiənin təşkilatı modellərindən birinin seçilməsini zəruri edir. Belə ki. Dövlət əmək qabiliyyəti olmayan və kasıb təbəqələri dolayı vasitələrlə (aktiv məşğulluq siyasəti, milli istehsalçılara kömək) deyil, birbaşa vasitələr (müxtəlif müavinətlər) aşağı gəlirli ailələrin uşaqlarına sosial xidmətlər, yoxsulluğa görə və s. birbaşa ödəmələr, işsizliyə görə formasında ödənilməsinə çalışır. Dövlətin belə müdafiə siyasəti islahatlar dövründə cəmiyyətdə yaranan sosial-iqtisadi şəraitlərlə diktə edilir.

Xüsusən böhranla müşayət olunan islahatlar keyfiyyətcə fərqli yeni hallara gətirib çıxarmışdır ki, bu da hər şeydən əvvəl insanların həyat şəraitlərinin dayanıqsızlığını və qeyri müəyyənliyini müəyyən qədər artırmışdır.

Bu yalnız ekstremal situasiyada olan insanlar (işsizlər, qaçqınlar, çoxuşaqlılar, tənha az təminatlı valideynlər, iş bacarığı olmayan təqaüdçülər və b.) üçün deyil, həm də əvvəllər işləyənlər



downloaded from KitabYurdu.az

(büdcə sahələrinin işçiləri) üçün də sabit təkrarlanan reallığa ehtiyac yaratmışdır. Azərbaycan Respublikasında «yeni yoxsulluq»u, az təminatlığı hətta özlərini və ailələrini minimum yaşayış vasitələri ilə təmin edə bilmədiyi kimi hallarda müşayiət olmaqdadır.

Sosial sferada narahatlıq doğuran vəziyyət başqa bir hal sosial sferada, hər şeydən əvvəl təhsil və səhiyyədə meydana gəlmişdir. Bank, büdcə kəsirinin artması bu sahələrə, onların inkişafına mənfi təsir göstərir. Bu, sahələrsiz isə səmərəli sosial müdafiəni təşkil etmək olmaz, çünki tibbi xidmət, peşəkar hazırlıq, təhsil almaq imkanları və s. olması müxtəlif sosial qruplar arasında fərqləri azaldan mühüm amillər olmaqla yanaşı dövlətin sosial himayədarlığının həyata keçirilməsi üçün vacib şərtlərdəndir.

Deyilənlərdən görünür ki, respublikada yeni sosial strukturun formalaşması güclü orta sinif və gəlirlərdəki az təbəqələşmə ilə xarakterizə olunan model üzrə deyil, tipik kütləvi yoxsulluq, məhdud sayda varlı qrupların və az sayda orta sinfin mövcudluğu ilə seçilən model üzrə gedir.

Lakin Respublikada çətin vəziyyətin yaranmasına baxmayaraq sosial amillərin gücləndirilməsi davam etdirilir ki, bu da hökumətin orta müddətli proqramında öz əksini tapmışdır.

Ölkədə gedən mütərəqqi dəyişikliklərdə əhalinin fəal maraqlarını nəzərdə tutan sosial-iqtisadi strategiyanın olması vacibdir. Milli istehsalın genişləndirilməsi məqsədi ilə bütün iqtisadi vasitələrdən maksimum istifadəyə istiqamətlənən bu strategiya (informasiyanın azalmasından, iş yerləri ilə təmin olunmaqdan,



downloaded from KitabYurdu.az

mümkün sosial xidmətlərdən az təminatlı kateqoriyalara bir başa maddi yardım göstərilməsinə qədər) əhalinin sosial müdafiəsinin təmin olunmasının mühüm əsası sayıla bilər.

## *2. DÖVLƏTİN SOSİAL MÜDAFİƏ SİSTEMİ VƏ ONUN ƏSAS İSTİQAMƏTLƏRİ.*

Dövlətin perspektiv dövrlər üçün sosial-müdafiə siyasəti kütləvi yoxsulluğa və keçid dövrünün ditgər neqativ sosial məqamları ilə mübarizə aparmaq və həyat səviyyəsinin aşağı düşməsinin qarşısının alınması məqsədi ilə əhalinin real gəlirlərinin normadan yüksəldilməsi imkanları genişləndirməkdir.

Bunun üçün milli istehsalçıların həvəsləndirilməsi üzrə tədbirlərlə yanaşı şəxsi yığımların artımı və ödəmə qabiliyyətli tələbin gücləndirilməsi, əmək və iqtisadi fəallığın canlandırılması, gəlirlərin artımı ilə əlaqədar islahatlar da əhalinin marağı və sahibkarların mənfəətlərin artırılması, istehsalın canlandırılmasına, müəssisələrin maliyyə vəziyyətlərinin yaxşılaşdırılması həyata keçirilməlidir.

Özəlləşdirilmiş müəssisələrin fəaliyyətinin qaydaya salınması və müəssisələrin dövlətsizləşdirilməsi onlara qoyulan



downloaded from KitabYurdu.az

investisiyaların artırılması elmə, təhsilə, yüksək texnologiyalı məhsullara tələbi artır və bu da birbaşa ixtisaslı işçilərə, mühəndislərə, mütəxəssislərə tələbi artırır.

Digər bir tərəfdən, özəlləşdirmə və dövlətsizləşdirmə kiçik sahibkarların gəlirlərinin artırlıması vasitəsilə sosial münasibətlərin yaxşılaşdırılmasına əlavə stimul yaradır. Kiçik biznesin inkişafı əlavə iş yerlərinin yaradılması yolu ilə sosial mühiti yaxşılaşdırır. Onlardan tutulan vergilər isə büdcəyə daxil olmalar vasitəsilə sosial yardımların artırılması imkanını genişləndirir.

Bu isə öz növbəsində təqaüd, müəllimlərin, həkimlərin, büdcə sferası mütəxəssislərin maddi rifahının yüksəldilməsi imkanını genişləndirir.

Bununla əlaqədar olaraq sosial müdafiənin aşağıdakı istiqamətlərini qeyd etmək olar:

1. ***Əhali gəlirlərinin indeksləşdirilməsi***. İndeksləşdirmə dedikdə qiymətlərin artımı ilə əlaqədar əhalinin əsas gəlirlərinin (əmək haqqı, pensiya, müavinətlər, təqaüdlər) real miqdarının (məzmunun) artırılması üzrə tədbirlər başa düşülür. «Əhalinin gəlirləri və yığımlarının indeksləşdirilməsi haqqında» qanun əsasında indeksləşdirmə ya birbaşa yenidən hesablama konpensasiyalar vasitəsilə, ya da əmək haqqını və pensiyanın minimum miqdarının dəyişdirilməsi vasitəsilə həyata keçirilir. İndeksləşdirmə daha müntəzəm olaraq pensiya münasibətlərində, çox nadir hallarda isə əmək haqqı üzrə həyata keçirilir.



downloaded from KitabYurdu.az

***2. Gəlirlər üzrə minimum sosial zəmanətlərin təmin olunması.*** Bunlardan əsası yaşayış minimumudur. Bu göstəriji ölkədə qanunçuluğu əsasında müəyyən olunur. Beləliklə. Minimum əmək haqqı və pensiyalar normativ səviyyə ilə şərtlənən həddə qədər yüksəldilməlidir. Yaşayış minimum həddinə qədər gəliri olmayan əhali qrupu isə dövlət yardımları nəzərdə tutulr. Respublikada əmək haqqı səviyyəsi yaşayış minimumunu tam ödəmir. Halbuki, bir sıra ölkələrdə (məhz. Rusiya Federasiyasında) əmək haqqı yaşayış minimumunun 80%-ə qədər ödəyə bilir. Lakin bu da son hədd olmamalıdır.

***3. Minimal standartların və normativlərinin köməyi ilə sosial sahələrin tənzimlənməsi.***

Bu təhsil, səhiyyə, mənzil, sahələrinin və əmək qabiliyyəti olmayan əhalinin sosial xidmətlərinə minimum büdcə xərcləridir. Bu normativlər büdcə planlaşdırması və tənzimlənməsində mərkəz və regionun birgə sərəncamı əsasında fəaliyyət göstərir. Həmin sahələrin saxlanılması üçün federal büdcədən sosial transfertlər sistemi mövcud olur. Lakin təcrübədə sosial sahələrin saxlanması üzrə əsas xərclər yerli hakimiyyət orqanlarının üzərinə düşür.

***4. İmtiyazların və güzəştlərin verilməsi.***

İmtiyaz-fəaliyyət göstərən ümumi qaydalara əsasən əhalinin ayrı-ayrı qruplara aid edilən xüsusi üstünlükdür. İmtiyazlara misal olaraq, müharibə iştirakçıları, əlillər üçün pulsuz və güzəştli dərman, pensiyaçılar üçün nəqliyyatda pulsuz və güzəştli gediş və s. göstərmək olar. Daha çox kütləvi imtiyaz – gəlir vergisi



downloaded from KitabYurdu.az

üzrə uşaqlı ailələrə edilən güzəştlərdir. İmtiyazlar həmçinin yalnız əhalinin əmək qabiliyyəti olmayan və sosial zəif qrup və tələbələri üçün deyil. Eyni zamanda iş xüsusiyyətləri ilə əlaqədar olaraq bir sıra işçi qrupları (hərbçilər, dövlət qulluqçuları, məhkəmə, prokuratura və s.) üçün də mövcuddur və bu cür imtiyazlar əslində sosial müdafiə funksiyasını yerinə yetirmir. İmtiyazların verilməsi ilə əlaqədar əsasən problem onların maliyyə təminatsızlığıdır., buna görə də hazırkı dövrdə ünvanlı subsidiyalar formasında imtiyazlar daha məqsədəuyğun sayılmalıdır.

***5. Məcburi sosial sığorta***.

Sosial müdafiənin bir qaydası inkişaf etmiş avropa ölkələrində, xüsusən – Skandinaviya ölkələrində geniş yayılmışdır. Məcburi sığorta cəmiyyətin işləyən üzvlərinə aid edilir və bu prosesdə üç tərəf (dövlət, sahibkar və işçi) iştirak edir. Onun əsas vəzifəsi – nəzərdə tutulmuş qanuna əsasən (qocalıq, xəstəlik, xəsarət, analıq, işsizlik) əmək haqqı və əmək qabiliyyətinin itirilməsi halında minimum həyat səviyyəsinin saxlanmasıdır. İndiki dövrdə məcburi sosial sığortanın rolu çox böyükdür. Sığorta hesabına pensiyaçıların 90%-indən çoxu, tibbi xərclərin 60%, praktik olaraq işə düzəltmə (işlə təmin etmə) və işsizlərə kömək xərclərinin 100%-i ödənilir.

Sosial sığorta sistemində bir sıra yeni baxışlar (aspektlər) meydana çıxmışdır- vəsaitlərin çatışmazlığı üzündən sığorta üzrə xidmət və ödənişlərin verilməsi şəraitində az təminatlılıq meyarının daxil edilməsi, sığorta mənbələrinin (fondlarının) formalaşmasından



downloaded from KitabYurdu.az

işçilərin özlərinin iştirakının artırılması., sığorta prinsiplərindən imtina etmək və xalis yığım sisteminə keçmək.

***6. Sosial təminat və sosial yardım*.**

Sosial təminat cəmiyyətin əmək qabiliyyətini itirmiş üzvləri (ahıl və qocalar, əlillər, ailə başçısını itirənlər, uşaqlar) saxlanmasına yönəlmişdir. Bu təminat qanuna müvafiq olaraq iki mənbədən, büdcə və sosial sığorta fondundan həyata keçirilir. Büdcə hesabına məcburi qaydada sığorta olunanlar deyil, əmək qabiliyyəti olmayan kateqoriyalar (qocalar, əmək stajı olmayanlar, uşaqlar və s.) və ya əmək fəaliyyətində peşəkar xüsusiyyətlərə malik olanlar (hərbi xidmətçilər, dövlət qulluqçuları, Çernobıl iştirakçıları) təmin olunur. Sığorta vəsaitləri hesabına əmək pensiyaları və müavinətləri ödənilir, bir qayda olaraq bunlar muzdlu işçilərdir. Büdcə hesabına sosial təminat sisteminə həm də yaşlılar, əlillər, uşaqlara sosial xidmətlər (əlil və qocalar evləri, müxtəlif yaşama yerləri, rebilitasiya, tibbi xidmətlər, protezləşdirmə, pulsuz dərman) daxildir.

Sosial yardım daimi xarakter daşımır və sosial himayəyə və sosial dəstəyə ehtiyacı olanların hamısına aid edilmir. O, son dərəcə konkret müvəqqəti xarakter daşıyır, onun məbləği müəyyən qanunua əsasən hesablanır. Sosial yardım vətəndaşlara obyektiv olaraq onların həyat fəaliyyətlərini pozan vəziyyətlərində göstərilir.

Göstərilən sosial müdafiə istiqamətlərinin təsnifatı genişlənə, azala və ya digər əlamətlərə görə qruplaşdırıla bilər, lakin istənilən variantda onun əsas elementlərinin olması vacibdir və hər dəfə də müasir şəraitdə uyğunlaşdırılır. Belə ki, inflyasiya tempinin azalması



downloaded from KitabYurdu.az

gəlirlərinin indeksləşdirilməsi mexanizminin əhəmiyyətini bir qədər azalda bilər. Lauin, bununla belə bu problem sabitləşməyə qadir qalır, sonra isə həyat səviyyəsi bərpa edilir. Sosial transfertlərinin məhdudlaşdırılmasında indiki meyl yoxsulluq üzrə xüsusi müavinətlər kimi əvvəl mövcud olan elementlərin daxil edilməsindən məcburi asılı edilir ki, bu da daha çox ehtiyacı olanlar üçün sosial yardımı gücləndirməyə imkan verir. Ölkədə iqtisadi vəziyyətin yaxşılaşdırılması ilə pul yardımları formasında bir başa metodlardan dolayı metodlara keçirilməsi mümkündür. Bu metoda misal olaraq vergi güzəşti və imtiyazların artırılmasını; büdcədən olan xərclərin əhəmiyyətinin nisbətən azalmasını və sosial sığorta hesabına xərclərin genişləndirilməsini göstərmək olar. Sonuncudan görünür ki, birgə məsuliyyət və yığımcıllıq prinsipləri uyğunlaşdırılacaqdır. Əsas gəlir olan minimum əmək haqqı və pensiyaların yaşayış minimumuna yaxınlaşdırılması ümumiyyətlə inkişaf və ümumi uyğunlaşma üçün obyektiv şəraitin güclənməsi və gəlirlərin əldə edilməsi əsasında əhalinin sosial himayədarlığa olan tələbatlarını azalda bilər.

Sosial müdafiə və təminat sisteminin təkmilləşdirilməsinin əsas istiqaməti, yardım və güzəştlərin dairəsinin daha da sıxılması, əhalinin əsas gəlir mənbəyi olan əmək haqqının indeksləşdirilməsi olmalıdır. Əhalinin əmək haqqı təminatı üçün isə əsas məsələ iş yerinin mövcudluğudur. Ölkədə işsizliyin hökm sürdüyü bir halda hansı ölkə olmasından asılı olmayaraq iqtisadi böhrandan çıxmaq



downloaded from KitabYurdu.az

üçün uzun müddət tələb olunacaqdır. Bunu sübut etməyə ehtiyac yoxdur.

Məhz buna görə keçid iqtisadiyyatı şəraitində ən başlıca vəzifə ölkədə sosial təminatın bazası olan məşğulluğun təmin edilməsi və habelə getdikcə sosial təminat sisteminin daha da təkmilləşdirilməsidir.

### *3. ƏHALİNİN SOSİAL MÜDAFİƏSİNİN TƏMİNATININ HÜQUQİ ƏSASLARI.*

Əvvəldə qeyd olunduğu kimi keçid iqtisadiyyatı dövründə əhali ilə dövlətin münasibətlərinə iki mövqedən yanaşmaq olar. Yəni əhalinin mülkiyyət sahibi kimi və ümumi daxili məhsulun yaradıcısı kimi. Bununla da əhali dövlətin iqtisali funksiyasının yerinə yetirilməsi obyekti kimi fəaliyyət göstərmiş olur. Hər iki halda bu sosial müdafiə forması kimi çıxış edir.

Beləliklə, əhalinin sosial müdafiəsi dövlətin sosial siyasəti olub, cəmiyyət üzvlərinin yaşından, cinsindən, harada yaşamasından. Milliyyətindən asılı olmayaraq sosial-iqtisadi hüquqlarının qorunmasına istiqamətlənmişdir.



downloaded from KitabYurdu.az

Sosial yönümlü bazar iqtisadiyyatı şəraitində əhalinin sosial müdafiəsi ilk əvvəl onların həyat səviyyəsinin yaxşılaşdırılmasını nəzərdə tutur. Çünki, firavan yaşamaq hər bir insanın, millətin əbədi arzusudur. Lakin yaxşı uaşamağı arzu etmək çox azdır. Əsas ona nail olmaqdır. Yaxşı işləmədən, məqsədə uyğun, ağıllı şəkildə zəhmət çəkmədən həyat səviyyəsini yüksəltmək arzu olaraq qalır.

Hər bir ölkədə əhalinin həyat səviyyəsi nəticə etibarı ilə məhsuldar qüvvələrinin inkişafından asılıdır. Məhsuldar qüvvələrin inkişafı isə bu və ya digər millətin müstəqil olması, milli dövlətin, milli iqtisadiyyatın yaranması və inkişafı ilə əlaqədardır. Bunlar bir-biri ilə qarşılıqlı əlaqə və asılılıq şəraitində mövcud olurlar. Yəni bunun əsasında, mərkəzində millətin fədakarlığı, buna nail olmağa çalışmaq əzmi durur.

Həyat səviyyəsi hər hansı ölkədə insanların tələbatlarının necə ödənilməsini ifadə edir. Buraya təkcə maddi tələbat deyil, həm də mənəvi və xidmətə olan tələbatların ödənilməsi də daxildir.

Məlumdur ki, tələbat daim inkişaf edir və istehsalı qabaqlayır. Tələbatların ödənilməsi səviyyəsi nə qədər yüksək olarsa, həyat səviyyəsi də bir o qədər yüksək olar. Millətin həyat səviyyəsini qiymətləndirərkən onun bütün tələbatlarının – maddi, mənəvi, sosial və intellektual tələbatlarının ödənilməsi səviyyəsi, onların inkişaf səviyyəsi nəzərə alınmalıdır.

Bir çox adamlar keçid dövrünün inkidi ağır şəraitinin Sovet imperiyası dövründəki  maddi tələbatın ödənilməsi səviyyəsi ilə müqayisə edir və üstünlüyü sovet dövrünə verirlər. Onlar unudurlar



downloaded from KitabYurdu.az

ki, əvvəla belə vəziyyət sosial sistemin fəaliyyətinin nəticəsidir və bununla bağlı olan keçid dövrünün ağrılarıdır. Bu keçid dövrü sosialimin iqtisadi əsasları dağılana kimim davam edəcəkdir. Proses islahat yolu ilə getdiyinə görə uzun çəkəcəkdir. Dövlət əmlakının özəlləşdirilməsinin ləng getməsi bunu sübut edir.

Bu və ya digər ölkədə həyat səviyyəsini müəyyən edərkən hər hansı bir göstəricidən istifadə olunması kifayət deyildir.

Əhalinin həyat səviyyəsinə iki mənada baxmaq olar. Məhdud və geniş mənada. Məhdud mənada həyat səviyyəsi dedikdə əhalinin maddi nemətlər və xidmətlərin faktiki istehlakı nəzərdə tutulur. Lakin qeyd olunduğu kimi bu həyat səviyyəsinin ölçülməsi üçün kifayət deyildir. Geniş mənada həyat səviyyəsi dedikdə isə, əhalinin maddi tələbatının ödənilməsindən başqa, onun mənəvi və sosial tələbatının ödənilməsi, iş şəraitinin yaxşılaşdırılması, fəaliyyət və mülkiyyət azaldığına malik olmasə və s. başa düşülməlidir. Bunlar üçün bütün göstəricilər sistemindən istifadə edilməlidir. Buraya əhalinin gəlirləri və istehlak səviyyəsi; maddi və mənəvi nemətlər və xidmətlər istehlakının həcmi; mənzil, məişət və əmək şəraiti; əhalinin təhsil və tibbi xidmətlərlə təmin olunması səviyyəsi və s. daxildir.

Yuxarıda qeyd olunduğu kimi əhalinin həyat səviyyəsi ilk növbədə məhsuldar qüvvələrin inkişaf səviyyəsindən asılıdır. Bir qayda olaraq məhsuldar qüvvələrin inkişaf səviyyəsi yüksək olan ölkələrdə əhalinin həyat səviyyəsi, iqtisadi zəif inkişaf etmiş ölkələrə nisbətən çox-çox yüksəkdir. Həmıya məlumdur ki, Abş-da, Fransada, Hollandiyada, Almaniyada, İsveçdə, İsveçrədə,



downloaded from KitabYurdu.az

Finlyandiyada və s. əhalinin həyat səviyyəsi Rusiyadakına, eləcə də Azərbaycandakına nisbətən olduqca yüksəkdir.

Azərbaycan Respublikasında əhalinin həyat səviyyəsinin son dərəcədə aşağı olmasının səbəbi sosialist dövründən miras qalmış çətinliklər, bazar iqtisadiyyatına keçid dövrünün doğurduğu problemlər və başqalarıdır. Təkrar olsa da qeyd edək ki, uzun illər səmərəsiz təsərrüfatçılıqla yanaşı sosialist birliyi pərdəsi altında müstəmləkəçilik metodları ilə, qiymət mexanizmi vasitəsilə sərvətlərimiz imperiyanın mənafeyinə xidmət etmişdir.

Respublikamızda əhalinin həyat səviyyəsinin aşağı olmasına yuxarıda göstərilən obyektiv səbəblərlə yanaşı, subyektiv amillər də təsir göstərir. İdarəetmənin köhnə metodlarına öyrənmiş, vaxtı ilə həyat səviyyəsi yüksək olan adamlar bazar iqtisadiyyatının yaranmasına hələlik uyğunlaşa bilmirlər.

Məlum olduğu kimi, bazar iqtisadiyyatına keçidin xüsusiyyətlərindən biri əhalinin həyat səviyyəsinin getdikcə aşağı düşməsi ilə yanaşı sosial təbəqələşmənin güclənməsidir. Normal inkişaf etmiş bazar iqtisadi sistemi ölkələrində dövlət bu prosesləri tənzimləyir. Bizim respublikada isə məlum səbəblərə görə hələ o, lazımi səviyyədə tənzim oluna bilmir. Ona görə də əhalinin sosial təbəqələşməsi artır, müxtəlif əhali qrupları arasında gəlirlərin bölünməsinin qeyri-bərabərliyi güclənir.

Bazar iqtisadiyyatına keçid dövrüdə yeni mülkiyyət formalarının yaranması obyektiv prosesdir. Yeni mülkiyyət formalarının yaranması isə maliyyə vəsaitinin olmasını tələb edir.



downloaded from KitabYurdu.az

Təbii inkişaf yolu keçmiş ölkələrdə bu proses çox əvəllər baş vermişdir. Bu qanunauyğun prosesdir. Belə təbii inkişaf yolunun vaxtilə Çar Rusiyası, o cümlədən onun müstəmləkəsi olmuş Azərbaycanda keçmişdir. Lakin sosializm qurmaq belə təbii inkişaf yolunu əks tərəfə,başqa istiqamətə çevirmişdir.

Bazar iqtisadiyyatına keçid dövründə sərvət toplamağın problemləri çoxdür. Beləliklə, gəlirlərin formalaşmasının həqiqi obyektiv mənbələri arasında ziddiyyət meydana çıxır. Əhalinin ayrı-ayrı qruplarının gəlirləri arasında fərqlər bunun əsasında əmələ gəlir.

ABŞ və Qərbi Avropa ölkələrinin əksəriyyətində dünyanın digər bəzi regionları ilə müqayisədə yüksək səviyyəsi təmin olunmuşdur. Buna baxmayaraq həmin ölkələrin özlərində də əhalinin ayrı-ayrı qruplarının gəlirlərində və deməli, həyat səviyyələrində fərqlər mövcuddur. Əhalinin müxtəlif təbəqələrinin gəlirləri arasında qeyri-bərabərliyin mövcudluğu daimi haldır. Bu təbii və qanunauyğundur.

Bütün dövrlərdə qabiliyyətli, başqa müsbət keyfiyyətlərə malik olan adamların əksəriyyətinin gəliri əsasən çox, təbii ki, həyat səviyyəsi də yüksək olur. Bunun əksinə, tənbəl, bacarıqsız adamların həyat səviyyəsi aşağı olur. Bunu da qeyd etmək lazımdır ki, yüksək inkişaf etmiş ölkələrdə səviyyəli ailələrin miqdarı artmaqdadır.

Bazar iqtisadiyyatına keçid dövründə respublikamızda əhalinin müxtəlif qruplarının gəlirləri arasında qeyri-bərabərlik hələlik artır. Əhalinin əksəriyyəti hələlik yoxsulluq səviyyəsində yaşayır. Əhalinin yoxsulluq səviyyəsinin göstəricilərindən biri



downloaded from KitabYurdu.az

gəlirlərin ərzaq və qeyri-ərzaq xərclərinə bölgüsüdür. Normal, orta həyat səviyyəsində gəlirlərin 15-18 faizinin ərzağa, qalanının isə qeyri- ərzaq, xidmət xərclərinə bölgüsü məbul hesab olunur. Əgər gəlirlərin ümumi məsrəflərinin 50%-dən çoxu ərzaq məhsullarına sərf olunursa, beynəlxalq metodikaya görə, bu əhalinin həyat səviyyəsinin çox aşağı olduğunu göstərir.

Sosial yönümlü bazar iqtisadiyyatı şəraitində əhalinin sosial müdafiəsinin həyata keçirilməsi istiqaməti kimi aşağıdakılar nəzərdə tutulur:

1. Sosial sferanın minimal standartlar və normativlər əsasında dövlət tənzimlənməsi.
2. Sosial təminat və sosial yardımlar.
3. Gəlirlərin ədalətli bölgüsü və onların indeksləşdirilməsi.
4. Təminatların verilməsi.
5. Sosial sığortaların həyata keçirilməsi.

Bazar iqtisadiyyatı şəraitində inkişaf edən Azərbaycan Respublikasında əhalinin sosial müdafiəsinin bu istiqamətlərinə də ayrı-ayrılıqda diqqət yetiririk.

1. Sosial sferanın minimum standartlar və normativlər əsasında dövlət tənzimlənməsi.

Sosial sahənin xidmətlərin əksəriyyəti şəxsiyyət və cəmiyyət üçün mühüm olan rifahdır. Maddi rifahın yaxşılaşdırılması cəmiyyətin qarşısında duran mühüm ali məqsəddir. Bu



downloaded from KitabYurdu.az

kateqoriyanın məzmunu aşağıdakı anlayışlarla: «həyat şəraiti», «həyat səviyyəsi», «həyat keyfiyyəti», açıqlanır.

Həyat şəraiti dedikdə – əhalinin həyat fəaliyyətinin bir başa obyektiv şəraiti nəzərdə tutulur; - məşğulluq, əmək haqqı və gəlirlər, əhalinin yerləşməsi, mənzil şəraiti, ailənin mülkiyyət təminatı, sosial yardımlar və s.

Həyat səviyyəsi – əhalinin həyat fəaliyyəti üçün zəruri olan material və mənəvi nemətlərlə təminatı, onların istehlak səviyyəsi nəzərdə tutulur.

Həyat keyfiyyəti – bir tərəfdən ictimai həyatın və tələbatın subyektinin (həyatın müddətini, davamlığını, fiziki və psixi sağlamlıq səviyyəsi, təhsil, mədəniyyət və intellektual pontensialı) digər tərəfdən konfort həyat şəraitinin yararlığı, insanların yaşayış arealını əks etdirir.

Bütün bunla yaşamaq hüququ, təhsil və mədəni sahələrdən istifadə etmək hüququ, əmək, istirahət, sağlamlığın qorunması, sosial təniman hüquqlarında təsbit olunmuşdur. Bu hüquqların təminatının zəmanətçisi dövlətdir. Dövlət sosial sferanı idarə edərkən, sosial zəmanət və standartalrı, istehlak büdcələri kimi alətlərdən və digər sosial hədd məhdudlaşdırıcılardan-normativlərdən istifadə edir.

Sosial zəmanətlər sistemi dedikdə, bütün vətəndaşlara, onların əmək nailiyyətləri nəzərə almadan və ehtiyacı olmasını yoxlamadan sosial əhəmiyyətli rifah və xidmətlərin təklif edilməsi başa düşülür. Bu sistemdə cəmiyyətin ehtiyatlar imkanları nəzərə



downloaded from KitabYurdu.az

alınmadan, tələbatlar üzrə bölüşdürmə prinsipi reallaşır, bu həmin zəmanətlərin ölçüsünü – normasını müəyyənləşdirir. Bu zəmanətlərin minimal dəsti və səviyyəsi, hər bir ölkənin konkret tarixi şəraitdən asılı dəyişir. Vətəndaşların sosial müdafiəsinin bu forması, ümumi vergi qoyma və sosial xərclərin büdcədən maliyyələşdirilməsi prinsiplərinə əsaslanır.

Sosial zəmanətlər sisteminə, əhalinin ayrı-ayrı kateqoriyalarına sosial zəmanət kimi ifadə olunan sosial güzəştlər də qoşulur. Sosial müdafiənin bu forması, həmçinin əhalinin müəyyən sosial demokrafiq qruplar çərçivəsində (müharibə veteranları, əlillər və s.) sosial rifah və xidmətlərin təklif edilməsinin universallığı və dövlətin vergi – büdcə sistemi hesabına təminatı ilə səciyyələndirilir. Məsələn, Respublikada demokrativ quruluşun yaranmasının ilk dövrlərində əhaliyə sosial zəmanət forması kimi ərzaq məhsulları talonları verilirdi. Hərçənd bu zəmanət sistemi resurs qıtlığı şəraitində əhalinin təminatına müəyyən qədər imkan verirdisə, özünü doğrultmadı. Çünki Azərbaycan Respublikası kimi təbii sərvətlərə malik olan bir ölkədə bu sistem özünü doğrultmamalı idi. Sosial zəmanətlər, həm dövlətin vətəndaşlar qarşısında. Həm də vətəndaşların dövlət qarşısında daşıdığı məsuliyyət və öhdəlikləri təsdiq edən qanunvericilik əsasında təmin edir. Məsələn, təhsildə əsas sosial zəmanət-bütün vətəndaşların dövlət. Bələdiyyə, ümumtəhsil müəssisələri bazasında, pulsuz orta və ali təhsil almaq imkanıdır. Bundan əlavə hər bir vətəndaş istədiyi halda pullu təhsil də ala bilmək hüququna malikdir.



downloaded from KitabYurdu.az

Ümumi formada sosial zəmanətlər sosial xərclərin formalaşması imkanlarını və onların fəaliyyət xüsusiyyətlərini əks etdirməklə aşağıdakı kimi təsnifləşdirilə bilər:

a) bütün vətəndaşlar gəlirlərindən və məskunlaşdığı yerdən asılı olmayaraq minimum xidmətlərlə təmin olunmalıdır.

b) həmin təklifləri dövlət maliyyələşdirir.

v) dövlətin imkanı qıtlığından vətəndaşların müəyyən hissəsi pullu xidmətə müraciət etmək hüququna malikdir.

q) hər bir vətəndaş ona xidmət edən obyektin sərbəst seçilməsi hüququna malikdir.

Bu xidmət sahələrindən bəzilərinə dövlət büdcəsi vəsaiti sərf olunur ki, onlar sekvestrə məruz qala bilməzlər.

Sosialstandartlar – vətəndaşların Azərbaycan Konstitusiyasında nəzərdə tutulan sosial zəmanət sistemində hüquqlarının təmin edilməsi vasitəsidir. Onlar həmçinin maliyyə normativlərini müəyyənləşdirilməsi üçün zəruridir. Dövlət minimal sosial standartları, vahid hüquqi baza və ümumi metodik prinsiplər əsasında işlənib hazırlanır.

Minimal istehlak büdcəsi iqtisadiyyatın böhran dövründə az təminatlı əhali təbəqələrinə yardımı planlaşdırılmasını əsasını təşkil edir, həmçinin minimal əmək haqqının, pensiyaların hesablanmasında istifadə olunur. Bunun əsasında yaşayış minimumu normativlər müəyyən edilir.

Yaşayış minimumu – əhalinin maddi və xidmətlərə tələbatını ödəyən mütləq aşağı gəlir səviyyəsini əks etdirən



downloaded from KitabYurdu.az

göstəricidir. Yaşayış minimumu hesablanarkən müəyyən qrup normativlərindən istifadə olunur.

Statistik xətt yaşayış minimumu ən aşağı gəlirə malik olan əhalinin 15-20 faizinin gəlirinə görə hesablanır.

Normativ – istehlak zənbilinə daxil olan məhsulların faktiki qiymətinə görə hesablanırlar.

Kombinələşmiş və ya normativ – statistik – qidalanma normativinə görə, qalanları isə ümumi xərclərdə onun xüsusi çəkisinə görə hesablanılır.

Subyektiv – sosioloji tətqiqata görə hesablanır.

Resurs – yaşayış minimumunu ödəyə bilən real iqtisadi duruma görə hesablanır.

Median – yoxsulluq həddi əhalinin orta gəlirinin 0,5 qədərini nəzərdə tutur.

Şərti hesablaşma – ABŞ-da tətbiq olunur. Xüsusi qruplaşdırılmış ərzaq məhsulları yığımının 1\3 həddində yaşayış minimumu müəyyən edilir.

Sosial minimum – yaşayış minimumundan əlavə sənaye məhsullarını da əhatə edir.

Ölkədə yaşayış minimumunun həddi ilə rəsmi yoxsulluq həddi təsdiq olunur. O, müxtəlif sosial qrup üzrə beynəlxalq metodologiya hesablanır, qanunla müəyyən olunur və sosial proqramların işlənib hazırlanmasının hüquqi əsasını təşkil edir.

Azərbaycan Respublikasını Milli Akademiyasının müvafiq tədqiqat institutlarının hazırladığı ərzaq və qeyri-ərzaq məhsulları



downloaded from KitabYurdu.az

normativlərini əsas götürərək dövlət təminatların səviyyəsini müəyyən edir. Qanunvericilik yolu ilə pulsuz və ya güzəştli əsaslarlı sosial xidmətlərin həcmini müəyyən edir.Göstəricilərin elm, təhsil, mədəniyyət, səhiyyə üzrə hədd qiymətləri işlənir və bu əsasda onların maliyyələşdirilməsi müəyyən edilir.

Qeyd etmək lazımdır ki, normativlər- ölkənin real iqtisadi durumu ilə əlaqədar olaraq dinamiki xüsusiyyətə malikdir.

Dövlət, iqtisadi inkişafın səviyyəsi ilə əlaqədar bu normativlərin təkmilləşdirilməsi təbirlərini həyata keçirir.

2. S osial təminat və sosial yardımlar.

Sosial təminat əhalinin əmək qabiliyyəti olmayan hissəsinin saxlanılmasına istiqamətlənmiş dövlət vəsaitidir. Bura qocalar, əlillər, ailə başçısını itirənlər və uşaqlar aiddir. Bu vəsait iki mənbədən; büdcə vəsaiti və sosial sığorta fondundan ödənilir. Bunların hamısı az təminatlı ailələrə müavinətlərin verilməsi sayılır və xərclərin strukturunda uşaqlara verilən müavinətlər əsas yer tutur.

Hazırda qüvvədə olan qanunvericiliyə əsasən az təminatlı ailələrin uşaqlarına aşağıdakı müavinətlər təyin edilir:

- validеyni şəhid olmuş 16 yaşına çatmamış uşaqlara minimum əmək haqqının üçdə bir hissəsi məbləğində təyin olunan aylıq müavinət;
- Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial



downloaded from KitabYurdu.az

müdafiəsi haqqında «Azərbaycan Respublikası Qanununa əsasən» Çernobıl qəzası nəticəsində əlil olmuş, xəstələnmiş dispanser qeydiyyatında olan uşaqların ailələrinə, habelə Çernobıl qəzası nəticəsində 1 və 2 qrup əlil olmuş, yaxud vəfat etmiş valideynlərin uşaqlarına, hər bir uşaq üçün ayda minimum əmək haqqının 100 faizi məbləğində müəyyən olunan aylıq müavinətlər.

- «Məzuniyyətlər haqqında» Azərbaycan Respublikası Qanununa əsasən uşağa qulluğa görə məzuniyyətdə olan şəxsə uşaq yaş yarımına çatanadək respublika üzrə qüvvədə olan minimum əmək haqqının 2 misli, yaş yarmıdna üç yaşına çatanadək isə 1 misli məbləğində aylıq müavinətlər.

Bundan əlavə Azərbaycan Respublikasının Prezidentinin 22 may 1996-cı il tarixli 315№-li sərəndamına əsasən aztəminatlı ailələrin uşaqlarına aşağıdakı müavinətlər də təyin edilir:

- uşaq doğularkən minimum əmək haqqının on misli həcmində birdəfəlik müavinət;

- ailədə adambaşına düşən aylıq gəlirin 16500 manat və ondan az olduğu hallarda uşaq doğulduğu aydan başlayaraq 16 yaşa çatanadək 9000 manat məbləğində aylıq müavinət. Bu müavinət uşağın valideyni hərbi xidmətdə olduğu dövrdə 12500 manat, müharibə əlillərinin, şəhid ailələrinin uşaqlarına isə 20000 manat məbləğində ödənilir.

- Dəfn üçün 100000 manat məbləğində verilən birdəfəlik müavinət.



downloaded from KitabYurdu.az

Cədvəl 59

Azərbaycan Respubliksı Dövləti tərəfindən verilən yardımlar.

| | 2000 | 2001 | 2002 | 2003 |
|---|---|---|---|---|
| Uşaq anadan olmasına görə bir dəfəlik müavinət mln. man. | 4993,1 | 6121,4 | 6519,0 | 6708,4 |
| 3 – yaşa çatanadək uşaqlara qulluq üçün müavinət mln.man. | 2910,5 | 4413,4 | 4361,1 | 4299,8 |
| Dəfn üçün müavinət min man. | 8872,1 | 9381,3 | 10799,5 | 11351,6 |
| Uşaq doğulduğu aydan 16 yaşa çatanadək verilən aylıq müavinət mln. man. | 182503,6 | 177238,7 | 169159,9 | 158507 |

Cədvəlin məlumatlarının təhlili göstərir ki, dövlət tərəfindən verilən müavinətlər bütün mövqelər üzrə artmışdır. Xüsusilə dəfn mərasimləri üçün verilən müavinətlər daha çox artmışdır ki, bura respublika dövlətinin kimsəsizlərə göstərdiyi qayğını daha aydın göstərir.

3. Gəlirlərin ədalətli bölcüsü və onların indeksləşdirilməsi.

Məlumdur ki, iqtisadi, o cümlədən bölgü münasibətlərinin əsası istehsal vasitələri üzərində mülkiyyət münasibətləridir. Ona görə də istehlak şeyləirinin bölgüsündən əvvəl istehsal vasitələrinin bölgüsü baş verir. Bununla əlaqədar olaraq istehsal vasitələrinin bölgüsü birincisi, istehsalın nəticəsi olan məhsulun bölgüsü isə ondan sonra baş verir. Bölgünün özü istehsalın nəticəsidir. Məhz



downloaded from KitabYurdu.az

istehsalın nəticəsinin bölgüsü zamanı cəmiyyətin hər bir üzvünün və sosial qruplarının gəlirləri formalaşır.

Cəmiyyətin hər bir üzvünün və sosial qrunu gəlirlərinin formalaşmasının mənbəyi milli gəlirdir. Mülkiyyətçilər – bütün sahibkarlar, torpaq mülkiyyətçiləri milli gəlirin ilkin bölgüsündə onun bir hissəsini mənfəət, tigarət mənfəəti, borc faizi və renta şəklində mənimsəyirlər, digər hissəsini isə mülkiyyəti olmayan maddi istehsalatda çalışanlar, zəhmətlərinə görə əmək haqqı alırlar. Maddi istehsal sahəsində işləməyən əmək qabiliyyətli əhali isə milli gəlirin yenidən bölgüsü zamanı əmək haqqı alırlar. Beləliklə, milli gəlirin bölgüsü və yenidən bölgysy zamanı əmək qabiliyyətli əhalinin bütün təbəqənin milli gəlirdən pay alırlar və bunun əsasında onların gəlirləri formalaşır.

Bazar iqtisadiyyatı istiqamətində inkişaf edən, müstəqil dövlətlərdə gəlirlərin formalaşması yuxarıda göstərilən qanunauyğunluğa əsasən baş verir. Bazar iqtisadi sistemində də milli gəlirin bölgüsü və yenidən bölgüsü tam ədalət əsasında, heç bir pozuntu olmadan həyata keçmir. Bu təbiidir və qanunauyğundur. Çünki cəmiyyət heç vaxt ideal şəkildə idarə oluna bilməz.

Əhali gəlirlərindən, onun kəmiyyətindən daşınarkən nominal pul gəlirlərilə real gəlirləri bir-birindən fərqləndirmək lazımdır.

Nominal gəlirlər hər bir fərdin və ya sosial qrupun əldə etdiyi müəyyən miqdar pul gəlirləridir. Yaranma mənbəyindən asılı olmayaraq əldə edilən pul gəlirləri əhalinin həyat səviyyəsini tam əks



downloaded from KitabYurdu.az

etdirmir. Çünki əhalinin malik olduğu pul gəlirlərinin konkret məbləği hər bir fərdi və ya ictimai qrupun onun tələbatının nə dərəcədə ödəməsi bir çox amillərdən və şəraitdən asılıdır. Ona görə də əhalinin həyat səviyyəsinin ən yaxşı göstəricisi real gəlirlərdir. Real gəlirlər əhalinin alıcılıq qabiliyyətini əks etdirir. Bu, o, deməkdir ki, pul gəliri ilə bazardan nə qədər məhsul almaq mümkündür. Başqa sözlə, nominal gəlirlər əhalinin pul formasında aldığı gəlirləri real gəlirlər isə yaşayış vasitələrində ifadə olunan gəlirləri əks etdirir.

Bu göstəricilər aşağıdakı statistik rəqəmlərlə xarakterizə oluna bilər.

Cədvəl 60.

Əhalinin gəlirləri və qiymət indeksi.

| | 2000 | 2001 | 2002 | 2003 |
|---|---|---|---|---|
| Əhalinin pul gəlirləri cəmi mlrd.man. | 17556,8 | 19010,2 | 21220,3 | 24207,9 |
| Muzdla işləyənlərin orta aylıq nominal əmək haqqı man. | 221606 | 259953 | 315406 | 386974,2 |
| İstehlak qiymətləri indeksi % ötən ilə nisbətən | 101,8 | 101,5 | 102,8 | 105,4 |
| Qiymət indeksi nəzərə alınmaqla muzdla işləyənlərin aylıq real əmək haqqı man. | 219675 | 256111 | 306815 | 367148 |

Göründüyü kimi real gəlirə təsir göstərən amillərdən biri qiymətlərin səviyyəsidir. Göründüyü kimi istehlak bazarındda qiymət indeksi yüksəlmişdir.



downloaded from KitabYurdu.az

Bazar iqtisadiyyatına keçid dövründə bu amil real gəlirə çox təsir göstərir. Belə ki, inflyasiyanın artdığı şəraitdə əhali aldığı nominal gəlirə hər ay, hətta hər gün daha az istehlak şeyləri alır. Qiymətlər nisbətən sürətlə artır. Doğrudur real gəlirlərə təsir göstərən amilin biri də nominal gəlirlərin səviyyəsidir. Lakin əgər vəziyyət normal deyilsə, nominal gəlirləri artırmaqla real gəlirləri artırmaq ümumən mümkün deyil. İnflyasiaynın qiymətlərin yüksəlməsinin qarşısını almağın əsas rolu istehsalın tənəzzülünü dayandırmaq və onu sabitləşdirmək sonra isə yüksəlişini təmin etməkdir. Belə olduqda, həm milli gəlirin həcmi artar, həm inflyasiya dayanar. Bunun əsasında real gəlirlərin artması təmin olunur. Əhalinin nominal və real gəlirlərinin fərqlərinin azaldılması məqsədi ilə dövrü olaraq gəlirlərin indeksləşdirilməsi aparılır.

4. Təminatların verilməsi.

Bunlar əhaliyə verilən müxtəlif formalı güzəştlərdir. Onlar əhalinin müəyyən qruplarına tətbiq olunur. Məsələn, müharibə əlillərinə dərmanların güzəştli satışı, nəqliyyatdan pulsuz istifadə.

5. Sosial sığortaların həyata keçirilməsi. Sosial sığortanın həyata keçirilməsində üç tərəf iştirak edir; işlə təmin edən, işlə təmin olunan və dövrlər. Sosial sığortanın əsas məqsədi qanunla nəzərdə tutulmuş hallarda, iş qabiliyyətini iş yerini itirdiyi dövrlərdə həyat səviyyəsini dəstəkləməkdir. Məcburi sığortanın həyata keçirilməsi günün vacib məsələsidir və bunun dövlət tərəfindən dəstəklənməyə ehtiyacı vardır. Sosial sığorta hesabına təqaüdçülərin 90%, tibbi xidmətlərin 60% təmin olunur.



downloaded from KitabYurdu.az

Bazar iqtisadiyyatı şəraitində sosial sığorta fəaliyyətini gücləndirilməsi daha da əhəmiyyət kəsb edir. Respublikada sosial sığorta göstəriciləri aşağıdakı rəqəmlərlə nümayiş olunur.

Cədvəl 61.

Azərbaycan Respublikasında sığorta ödənişləri (%)

| | 2000 | 2001 | 2002 | 2003 |
|---|---|---|---|---|
| Könüllü sığorta növləri O cümlədən | 84 | 92 | 91,9 | |
| Şəxsi sığorta | 12,3 | 11,6 | 10,3 | 12,6 |
| Əmlak sığortası | 59,6 | 76,1 | 79 | 77,9 |
| Mülki məsuliyyət sığortası | 15,7 | 4,3 | 2,6 | 2,9 |
| İcbari sığorta | 21,6 | 12 | 8,1 | 6,6 |
| Ümumi daxili məhsulda sığor mükafatlarının xüsusi çəkisi | 0,33 | 0,7 | 0,71 | 0,82 |

Göründüyü kimi respublikada sığorta fəaliyyəti bir o qədər də qənaətbəxş deyildir. Belə ki, şəxsi sığorta mülki məsuliyyət sığortası, icbari sığorta hələ də aşağı səviyyədədir. Bu vəziyyətin düzəldilməsi üçün dövlət tədbirləri sisteminin olması vacibdir.



downloaded from KitabYurdu.az

## *4. ƏHALİNİN SOSİAL TƏMİNATININ DÖVLƏT TƏDBİRLƏRİ.*

Dünya təcrübəsi göstərir ki, hər hansı bir iqtisadi sistemin normal fəaliyyətinin təmin olunmasında dövlət həlledici rol oynayır. Bu baxımdan dövlətlə iqtisadiyyatın qarşılıqlı əlaqəsi, dövlətin iqtisadiyyata müdaxiləsinin optimal nisbətinin müəyyən edilməsi, iqtisadiyyatın dövlət tənzimlənməsinin ən mühüm prinsiplərindən biridir.

İqtisadiyyatın dövlət tənzimlənməsinin mühüm atributlarından biri dövlətin sosial siyasətidir. Dövlətin sosial siyasəti əsas etibarı ilə əhalinin sosial müdafiəsi üzərində qurulur ki, onun əsas istiqamətini əhalinin sosial müdafiəsinin dövlət təminatı təşkil edir. Sosial müdafiənin dövlət təminatı əhalinin həyat səviyyəsindəki gərginlik meyllərinin aradan qaldırılmasından ibarətdir.

Bir tərəfdən sistemin dağılması, iqtisadi əlaqələrin pozulması və yeni əlaqələrin yaradılmasında gecikmələr, köhnə strukturaların dağıdılması və yenilərinin hələ də yaradılmaması və s. digər tərəfdən müharibə, onun doğurduğu çətinliklər istehsalın artırılmasına və əhalinin sosial müdafiəsinə çox mənfi təsir göstərmişdir. Respublikada əhalinin yaşayış səviyyəsinin pisləşməsi sosial-iqtisadi gərginliyin yaranmasının başlıca səbəblərindən islahatların qeyri müəyyən aparılmasıdır. Belə ki, islahatların əvvəlki, mərhələləri həyata keçirilmədiyi halda qiymətlərin



downloaded from KitabYurdu.az

liberallaşdırılması təbiidir ki, tənəzzül proseslərini daha da dərinləşdirir.

Qeyd etmək lazımdır ki, hələ də dövlət yeganə hakmi, mülkiyyətçi kimi çıxış edir. Yeni yaranmaqda olan özəl bölmə isə islahatların gecikməsi, bu və ya digər obyektiv və subyektiv səbəblər üzündə çox az miqdarda məhsul istehsal edir. Doğrudur, bazar iqtisadiyyatına keçmiş ölkələrdə də dövlət təsərrüfatçılıq forması mövcuddur. Lakin həmin ölkələrdə dövlət özü xüsusi mülkiyyətçi kimi çıxış edir və həmin ölkələrin iqtisadiyyatında dövlət sahibkarlığı formalaşmışdır. Keçmiş SSRİ respublikalarında, o cümlədən respublikamızda dövlət yalnız ümumxalq mülkiyyətini sadəcə sərəncamçısı kimi çıxış etmişdir. Odur ki, dövlət xüsusi mülkiyyətçi kimi formalaşana qədər məhsul bölgüsü də dövlət tərəfindən həyata keçirilməli idi. Dünya ölkələrinin təcrübəsinə istinad etsək qeyd etməliyik ki, ola bilməz ki, məhsul istehsalı dövlət bölməsində həyata keçirilsin. Onun bölgüsü isə bazar münasibətləri çərçivəsində tənzimlənsin. İqtisadiyyatın bu cür iflic vəziyyətə düşməsinin bir səbəbi də daxili istehsalın getdikcə aşağı düşməsi və nəticədə istehlak olunan məhsulların əksəriyyətini idxal hesabına ödənilməsidir.

Yuxarıda adları çəkilən faktorların təsirinin nəticəsidir ki, hər dəfə qiymət islahatı aparıldıqca əhalinin böyük bir qisminin maddi vəziyyəti ağırlaşır. Çünki, dövlət tərəfindən əməyin ödənilməsinin artırılma səviyyəsi qiymətlərin artım səviyyəsindən qat-qat geri qaldığından real gəlir aşağı düşür və əhalinin müflisləşməsi reallaşır. İqtisadiyyatda irimiqyaslı tənəzzül prosesləri



downloaded from KitabYurdu.az

getdiyindən bütün makroiqtisadi göstəricilər kəskin surətdə azalmışdır. Bu proses 1992-ci ilə qədər davam etmişdir. 1992-ci ildən başlayaraq ümumi daxili məhsulun həcmində irəliləmək meyli başlamışdır. Artıq son illərdə Respublikanın ümumi daxili məhsulu hər il 10%-ə qədər artıma malikdir.

[28]Cədvəl 61.

Ümumi daxili məhsul.

| İllər | Cəmi mlrd.man | ABŞ min dollar | Adambaşına dollar |
|---|---|---|---|
| 2000 | 23590,5 | 5272,6 | 665,0 |
| 2001 | 26578,0 | 5707,8 | 714,3 |
| 2002 | 30312 | 6236,1 | 774,5 |
| 2003 | 35053 | 7138,0 | 879,7 |

Cədvəlin məlumatlarından göründüyü kimi respublikanın ümumi daxili məhsulu 2000-ci ilə nisbətən 2001-ci ildə və 2003-cü ildə sabit olaraq 12,5% artıma malik olmuşdur.

Əhalinin sosial təhlükəsizliyinin müdafiəsi üçün istehlak bazarı və qiymətlərin dövlət tənzimlənməsinin həyata keçirilməsi vacib məsələlərdəndir.

Hesablamalar göstərmişdir ki, pul tədavülünün sabitliyinin saxlanılması və istehlak məhsullarının qiymətlərinin sürətli artımının qarşısının alınmasına baxmayaraq əhalinin əmək haqqı iqtisadi

[28] Az.st. rəq.2004 səh 368



downloaded from KitabYurdu.az

ədəbiyyatda kasıblıq səviyyəsi kimi qiymətləndirilən minimumistehlak səbəti və ya minimum yaşayış həddi ilə müqayisədə çox aşağıdır. İstehlak səbətinin dəyəri istehlak məhsularının bazar qiymətləri ilə ölçüldüyündən və nəzərə alsaq ki, məhsulların qiymətləri sabit qalmayıb, mütəhərrik olaraq daim dəyişdiyindən konkret müddət üzrə mütləq mənada hesablamaq mümkün deyil və bu göstərici istehlak mallarının qiymətinə uyğun olaraq aylar üzrə hesablanır. İstehlak məhsullarına olan tələbat, yəni minimum istehlak büdcəsi hesablanarkən əhalinin istehsal etdiyi 14 adda ərzaq məhsulları həmin məhsulların 1 kq-nın bazar qiyməti, səhiyyə nazirliyinin müəyyən etdiyi normaya uyğun 1 nəfərin qida norması müəyyən edilir. Adları çəkilən göstəricilər müəyyən edildikdən sonra 1 nəfər üçün tələb olunan məhsulların dəyəri, eyni zamanda 1 ailə üçün tələb olunan məhsulların dəyəri müəyyən edilir.

[29]Cədvəl 62.

İstehlak malları və xidmətləri qiymət və tarif indeksləri (%)

| | 2000 | 2001 | 2002 | 2003 |
|---|---|---|---|---|
| Cəmi mal və xidmətlər<br>O cümlədən | 102,2 | 101,3 | 103,3 | 103,6 |
| Çörək və çörək məmulatları | 99,6 | 99,6 | 99,9 | 104,5 |
| Ət | 104,3 | 103,6 | 108,5 | 105,6 |
| Kolbasa | 102,1 | 97,8 | 99,6 | 99,7 |
| Balıq | 117,6 | 111,2 | 105,2 | 91,4 |

[29] Az.st.rəq.2004 səh404



downloaded from KitabYurdu.az

| | | | | |
|---|---|---|---|---|
| Süd və süd məhsulları | 98,8 | 97,9 | 99,4 | 100,9 |
| Pendir | 102,1 | 103,3 | 97,2 | 99,9 |
| Yumurta | 103,3 | 110,7 | 104,0 | 95,4 |
| Yağ | 99,5 | 104,7 | 101,1 | 106,7 |
| Meyvə və tərəvəz | 94,6 | 99,7 | 103,2 | 110,5 |
| Kartof | 94,7 | 97,8 | 108,0 | 107,7 |
| Şəkər | 112,4 | 101,1 | 102,9 | 103,1 |
| Alkoqolsuz içkilər | 99,1 | 99,7 | 99,5 | 91,9 |
| Alkoqollu içkilər | 110,0 | 105,8 | 103,1 | 101,4 |
| Tütün | 120,1 | 100,5 | 105,5 | 99,6 |

Göründüyü kim cəmi mallar və xidmət üzrə qiymət indeksi əvvəlki (2003-cü ildən başqa) illərə nisbətən yüksəlmişdir ki, bu da əhalinin təhlükəsizliyinə mənfi təsir göstərən göstəricilərdir.

Bazar münasibətləri şəraitində əhalinin sosial müdafiəsini səmərəli dövlət təminatı sosial istiqamətli iqtisadiyyatın formalaşdığı zaman fəaliyyət göstərə bilər. Sosial istiqamətin real olması ancaq effektiv və çevik iqtisadiyyatda cəmiyyət yaxşı işlədikdə, səmərəli təsərrüfat fəaliyyət göstərdikdə mümkündür. Sosial istiqamətli iqtisadiyyat ilk növbədə istehsalın istehlakçının diqtəsi əsasında fəaliyyət göstərməsini, son nəticədə əhalinin tələbatının tam və dolğun ödənilməsini nəzərdə tutur. Bu isə məhz inkişaf etmiş bazar mexanizmi əsasında fəaliyyət göstərən iqtisadiyyata xas olan keyfiyyətdir, o şərtlə ki, həmin mexanizm və istehsalçıların



downloaded from KitabYurdu.az

inhisarçılığı ilə, nə də həddən artıq dövlət müdaxiləsi ilə deformasiyaya uğramasın. Tələbin stimullaşdırılması və ödənilməsi istehsalın səmərəliliyinin artırılması sosial bazar iqtisadiyyatının mühüm faktorlarından olub istehsalçıların mənafei son dərəcədə istehlakçıların tələbatını ödənilməsi əsasında təmin edir.

Lakin sosial istiqamət, təkcə istehsalı istehlakçıların tələblərinə tabe etməkdən və bu tələbləri stimullaşdırmaqdan ibarət deyil. O, həmçinin, əhalinin müxtəlif təminatlı təbəqələri arasında gəlirlərin bölüşdürülməsini, dövlət və yerli büdcələrdə, müxtəlif fondlarda iri vəsaitlərin toplanmasını, sosial təminatların ödənilməsini əhatə edir. Araşdırmalar göstərir ki, gəlirlərin yenidən bölüşdürülməsinin kütləvi ödəniş qabiliyyətli tələbin stimullaşdırılmasında, bazarın səmərəli fəaliyyətində müəyyən rolu vardır. Bütün bunlar isə ancaq o vaxt mümkündür ki, cəmiyyət zəruri ehtiyatlara malik olsun, yaxud onları yarada bilsin. Lakin sosial xərclərin həddən çox artması da kifayət qədər inkişaf etməmiş iqtisadiyyatın yüksəlməsinə mane ola bilər. Bəs onda, müasir şəraitdə sosial siyasətin məzmunu nədən ibarət olmalıdır? Mövcud ehtiyatların məhdudluğu şəraitində diqqət respublika əhalisinin sosial cəhətdən ən zəif təbəqələrinə yardım olunmasına yönəldilməlidir. Mövcud reallıqlar baxımından qeyd etməliyik ki, bu sahədə də bir çox həll olunmamış problemlə vardır. Məsələn, əhalinin həqiqətən ehtiyacı olan qruplarının aşkara çıxarılması, yardım sahələrinin seçilməsi, müvafik təşkilati strukturların yaradılması və s.



downloaded from KitabYurdu.az

Bununla belə sosial siyasətin məzmununu ancaq sosial müdafiədə görmək olmaz. Doğrudur, müasir şəraitdə onun əhəmiyyəti artır, lakin sosial siyasət insanların əmək fəaliyyətinin stimullaşdırılması üçün şəraitin yaradılmasına ümumi inkişafına yönəldilməlidir. Bundan əlavə, bu vaxta qədər az diqqət yetirilən bir problem meydana çıxır. Zəruri sosial müdafiəni elə bir həddi tapılmalıdır ki, bu zaman ələ baxımlılığın və sosial fondların artıq xərclənməsinə yol verilməsin. Hazırda əhalinin əmlak üzrə kəskin təbəqələşməsi, əsas kütlənin aparılan sosial-iqtisadi siyasətə qarşı münasibətinə mənfi təsir göstərməklə yanaşı, sosial sahədə bir çox mənfi halların olmasını göstərir.

Müxtəlif dövrlərdə ümumi cizgiləri, əsas istiqamət və prinsipləri dəyişsə də sosial siyasətin məqsədi –əhalinin həyatının səviyyə və keyfiyyətini əmək və təsərrüfat fəallığının stimullaşdırılması əsasında yüksəldilməsi üçün hər bir əmək qabiliyyətli insanın öz zəhməti ilə ailəsinin rifahını təmin etmək, əmanətlər formalaşdırmaq və onları səmərəli şəkildə investisiyalaşdırmağı imkanlar yaratmaqdan ibarətdir. Bundan əlavə, dövlət pensiyaçılar, əlillər, çoxuşaqlı ailələr, əmək qabiliyyətini itirmiş vətəndaşlar qarşısında bütün öhdəlikləri tam saxlayır. Sosial yardım ilk növbədə əhalinin bir qruplarına göstərilir və ünvanlı xarakter daşıyır.

Aparılan araşdırmalardan belə qənaətə gəlmək olar ki, son vaxtlaradək əhalinin sosial təminatı ilə bağlı dövlətin həyata keçirdiyi tədbirlər sistemində əsas məqsəd minimum əmək haqqının



downloaded from KitabYurdu.az

yüksəldilməsinə yönəldilib. Lakin istehlak məhsullarının qiymətləri tənzimlənmədiyindən bu proses gözlənilən nəticəni verməmişdir. Belə ki, dövlət tərəfindən əhalinin sosial müdafiəsinin tənzimlənməsinə kompleks şəkildə yanaşılmamış, əhalinin sosial müdafiəsi, əvvəlki istehsal münasibətlərinin xarakterinə uyğun qurulmuş, bu sahədə bazar münasibətlərinə keçidin obyektiv qanunauyğunluqları nəzərə alınmamışdır. Daha doğrusu, əhalinin sosial müdafiəsinin elmi əsaslandırılmış tənzimlənmə mexanizmi olmamış, o sosial istehsal münasibətlərindəki sosial təminat sistemi ilə eyniləşdirilmişdir.

Odur ki, yeni istehsal münasibətləri şəraitində əhalinin sosial müdafiəsi daha fəal formada həyata keçirilməli və onun tənzimlənməsi aşağıdakı aspektləri əhatə etməlidir:

- əhalinin gəlirlərinin tənzimlənməsi;
- əhalinin sosial cəhətdən ən zəif qruplarına yardım (invanlı sosial müdafiə);
- əmək və sahibkarlıq fəaliyyətini stimullaşdırılması;
- əhalinin gəlirlərinin liberallaşdırılması ilə bağlı həyata keçirilən tədbirlərin pul tədavülünün sabitləşdirilməsi ilə əlaqələndirilməsi;
- əhalinin ayrı-ayrı təbəqələrinin gəlirlərindəki kəskin fərqlərin qarşısının alınması;
- qiymətlərin artması ilə əlaqədar gəlirlərin indeksləşdirilməsi;



downloaded from KitabYurdu.az

- səmərəli məşğullun təmin edilməsi və iqtisadiyyatın müxtəlif sahələrində aparılan islahatlar nəticəsində iş yerlərini itirənlərə yardım.

Bazar münasibətləri şəraitində əhalinin sosial müdafiəsi iqtisadiyyatın dövlət tənzimlənməsinin ən mühüm istiqamətlərindən biri olmalıdır. Əhalinin sosial müdafiəsinə mürəkkəb iqtisadi kateqoriya kimi yanaşılmalı və sosial müdafiə kompleks makroiqtisadi göstəricilər sistemi ilə tənzimlənməlidir.

Hesablamalara görə belə qənaətə gəlmək olar ki, əhalinin sosial müdafiəsini xarakterizə edərkən ayrılıqda götürülmüş hər hansı bir iqtisadi təcrübsi özünü doğrultmur. Belə ki, əhalinin istehsaldan əldə etdiyi əmək haqqı, dövlət tərəfindən təqaüdçülər və aztəminatlı əhali kateqoriyalarına müəyyən edilmiş pensiya və müavinətlərin səviyyəsi əhalinin sosial müdafiəsini bu və ya digər dərəcədə xarakterizə etsə də, onu tam əhatə etmir. Odur ki, bu sahədə kompleks göstəricilər sistemində istifadə etməklə dövlət tərəfindən əhalinin sosial müdafiəsinin aşağıdakı mexanizm üzərində qurulması məqsədəuyğun hesab edilir:

- büdcədən ayrılan vəsaitin istifadəsinin effektivliyinin artırılması;
- ağırlaq mərkəzini qeyri-dövlət strukturlarına yönəltməklə sosial proqramların maliyyələşdirilməsinin qeyri-mərkəzləşdirilmiş əsaslarının gücləndirilməsi;
- əhalinin gəlirlərinin artırılması;



downloaded from KitabYurdu.az

- əhalinin əmlak məhsullarına olan tələbatının ödənilməsi;
- istehlak məhsullarının qiymətlərinin sabitləşdirilməsi;
- manatın alıcılıq qabiliyyətinin yüksəldilməsi, inflyasiyanın qarşısının alınması;
- əhalinin məşğulluğunun təmin olunması;
- tədricən böhrandan çıxdıqca və real gəlirlər artdıqca sosial sahədə pullu xidmətlərin həcminin artması;
- müvafiq maliyyə qurumlarının (qeyri-dövlət sığorta və pensiya fondlarının) rolunun artması.

Sosial ehtiyaclara xərclərin maliyyələşdirilməsində ağırlıq mərkəzi dövlət büdcəsindən vətəndaşların və hüquqi şəxslərin yığımlarına istiqamətlənərsə aşağıdakıları həyata keçirmək imkanları yaranacaq:

- dövlət yardımını əhalinin həqiqətən ehtiyac içində olan təbəqələri üzərində cəmləşdirilməsinə, bu yardımın bərabərçiliyinin və sosial cəhətdən ədalətsiz olan ünvansızlığın dəf edilməsinə;
- vətəndaşların şəxsi əmlaklarının daxili investisiya üçün əhəmiyyətli mənbəyə çevrilməsinə;
- vergi yükünün azaldılması ilə yığımın çoxaldılmasına və iqtisadi artımın stimullaşdırılmasına.

Əhalinin sosial müdafiəsinin dövlət təminatının təkmilləşdirilməsinin mühüm istiqamətlərindən biri istehlak məhsulları və xidmətlər üzərində qiymətlərin səviyyəsinin dövlət



downloaded from KitabYurdu.az

tənzimlənməsi ilə bağlıdır. Sosial təminatlı məhsulların qiymətlərinin tənhimlənməsində başlıca məqsəd əhalinin minimum yaşayış səviyyəsinin təmin etməkdən ibarət olmalıdır. Dövlət əhalinin minimum istehlak səbətinə daxil olan məhsulların qiymətləri tənzimləyərsə, əhalinin böyük bir qrupunun (az təminatlı ailələrin, təqaüdçülərin, işsizlərin və s.) minimum yaşayış səviyyəsini təmin edər və cəmiyyətdə sosial sabitliyə nail olar, digər tərəfdən isə həmin məhsulların qiymətlərinin tənzimlənməsi aztəminatlı əhali təbəqələrinə dövlət tərəfindən ödənilən təqaüd, müavinətlər və s. xərclərin artmasının qarşı alınır.

İnkişaf etmiş dövlətlərin təcrübəsi göstərir ki, istehlak səbətinə daxil olan məhsulların qiymətlərinin tənzimlənməsinə dövlətin əvvəlcədən vəsait sərf etməsi və ya dövlətin transfert ödəmələri sonradan büdcə hesabına maliyyələşdirilən sosial xərclərin artımını ödəməkdən daha sərfəlidir. Bazar münasibətləri şəraitində əhalinin sosial müdafiəsinin tənzimlənməsinə təsir edən amillərdən biri də iqtisadiyyatda inflyasiya əleyhinə tədbirlər sistemi həyata keçirməklə onun doğurduğu sosial-iqtisadi nəticələri neytrallaşdırmaqdır. Məhz bu yola milli valyutanın məzənnəsinin yüksəldilməsinə nail olmaqla məhsulların qiymətlərini aşağı salmaq mümkündür.

Tarixən pensiya sistemlərinə vətəndaşlar qocaldıqda, əmək qabiliyyətlərini, habelə ailə başçısını itirdikdə onların qanunvericilikdə təsbit olunmuş maddi təminat hüququ kimi baxılmışdır. Vətəndaşların pensiya təminatı ilə bağlı məsələlər əsas



downloaded from KitabYurdu.az

etibarilə dövlət tərəfindən tənzimlənir. Azərbaycan Respublikasında əhaliyə pensiyaların verilməsi ilə bağlı məsələlər «Vətəndaşların pensiya təminatı haqqında qanunla» müəyyən edilir.

Dövlət tərəfindən vətəndaşlara aşağıdakı pensiyalar təyin edilir:

a) əmək pensiyaları: yaşa (qocalığa görə), əlilliyə görə, ailə başçısını itirdiyinə görə, xidmətə görə.

B) sosial pensiyalar.

Əmək pensiyasına əlilliyə görə pensiyalar da daxildir. Respublikada pensiyaçıların sayı və onların əmək haqqlara haqqında məlumat aşağıdakı cədvəldə verilmişdir:

[30]Cədvəl 63.

Pensiyaçıların sayı (min nəfər)

| | 2000 | 2001 | 2002 | 2003 |
|---|---|---|---|---|
| Pensiyaçılar | 1219 | 1245 | 1285 | 1327 |
| O cümlədən Qocalığa görə | 734 | 735 | 743 | 751 |
| Əlilliyə görə | 168 | 179 | 199 | 230 |
| Ailə başçısını itirdiyinə görə | 137 | 136 | 136 | 128 |
| Sosial pensiyalar | 180 | 195 | 207 | 218 |

[30] Az.st.rəq.2004 səh 136



downloaded from KitabYurdu.az

Göründüyü kimi respublikada pensiyaçıların sayı bir o qədər də dəyişilməmişdir. Lakin onların əmək haqqında dəyişiklik olmuşdur ki, bunu da aşağıdakı cədvəldən görmək mümkündür:

Cədvəl 64.

Təyin olunmuş aylıq pensiyaların orta məbləği (manat)

| | 2000 | 2001 | 2002 | 2003 |
|---|---|---|---|---|
| Aylıq məbləğ | 71984 | 73705 | 88493 | 119111 |
| O cümlədən Qocalığa görə | 77730 | 80042 | 92877 | 123959 |
| Əlilliyə görə | 72029 | 75026 | 101120 | 131622 |
| Ailə başçısını itirdiyinə görə | 54096 | 53850 | 73715 | 104948 |
| Sosial pensiyalar | 60302 | 60345 | 66791 | 93483 |

Cədvəlin məlumatlarından göründüyü kimi təyin olunmuş aylıq pensiyaların ümumi həcmi müqayisə olunan dövrdə 22,9% artmışdır. Bu artım qocalığa görə 19,4%, əliliyə görə 40,5%, ailə başçısını itirdiyinə görə 36,2% və sosial pensiyalar üzrə 10,7% olmuşdur.

Bu respublika dövlətinin əhalinin sosial müdafiəsinə göstərdiyi diqqətin nəticəsidir. Bununla yanaşı 2003-cü ildə bütün növ pensiyaların artırılması haqqında Respublika Prezidentinin bir çox fərmanları olmuşdur.

Əhalinin sosial müdafiəsinin mühüm istiqamətlərindən biri də sosial sığorta amili sayılır.



downloaded from KitabYurdu.az

Sosial sığortanın mühüm amili kimi pensiyanın ödənilməsi müəssisələrin əmək haqqı fondundan 35% (kənd təsərrüfatı müəssisələrindən 25%) və vətəndaşların əmək haqqında 1% ayrılması ilə müəyyən olunur. Bundan əlavə aztəminatlə ailələrə dövlət büdcəsindən əlavə vəsait ayrılır. Pensiyaların ödənilməsi ilə bağlı sabit mənbə müəssisə və vətəndaşların ödənişidir, büdcədən alınan dotasiyalar isə mütəhərrik olub iqtisadiyyatın vəziyyəti ilə bağlı olub vaxtaşırı dəyişdirilir. Pensiya və müavinətləri həcmi respublika prezidentinin fərmanları ilə müəyyən edilir. Əhalinin sosial müdafiəsinin mühüm amillərindən olan pensiya və müavinətlərin ödənilməsi Dövlət Sosial Müdafiə Fondu vasitəsilə həyata keçirilir. Hazırki şəraitdə Dövlət Sosial Müdafiə fondunun formalaşma mənbələri aşağıdakı kimidir6

- tədiyyəçilərdən (idarə və müəssisələrdən) sığorta ayırmalırı;
- vətəndaşların məcburi sığorta haqları (1%);
- Respublika büdcəsindən ayırmalar;
- Avropa iqtisadi Birliyindən vəsait daxil olmaları (planlaşdırılmır);
- Könüllü ianələr.

Respublikada sığortaçıların fəaliyyəti haqqında məlumat aşağıdakı cədvəldə verilmişdir.



downloaded from KitabYurdu.az

Cədvəl 65.[31]

Respublika sığorta fəaliyyəti 01.01.2003

| | 2001 | 2003 | 2004 |
|---|---|---|---|
| Fəaliyyət göstərən sığortaçılır O cümlədən | 45 | 29 | 29 |
| Milli sığortaçılar | 36 | 21 | 22 |
| Birgə sığortalar O cümlədən | 8 | 9 | 7 |
| Azərbaycan İngiltərə | 3 | 2 | 2 |
| Azərbaycan Türkiyə | 2 | 2 | 2 |
| Azərbaycan İran | 1 | 1 | 1 |
| Azərbaycan ABŞ | 1 | 1 | 1 |
| Azərbaycan Rusiya | 1 | 1 | 1 |
| Azərbaycan Almaniya | - | 1 | - |
| Azərbaycan İtaliya | 1 | - | - |
| Broker kontorları O cümlədən: | 2 | 2 | 5 |
| Azərbaycan Britaniya | 2 | 2 | 2 |
| Nizamnamə kapitalı 1 mlrd manat olan | 25 | 23 | 13 |
| 2-6 mlrd manat | 8 | 5 | 14 |
| 6 mlrd yuxarı | - | 1 | 2 |

[31] Az.st.rəq.2004 səh 397



downloaded from KitabYurdu.az

Cədvəlin məlumatlarının təhlili göstərir ki, ümumi sığortaçıların sayı 45-29 qədər azalmışdır.

Əsasən bu azalma milli sığortaçıların hesabına baş vermişdir. Sığortaçıların sayının azalmasına baxmayaraq onların nizamnamə kapitalı artmışdır.

[32]Cədvəl 66.

Sığortaçıların məcmu kapitalı (mlrd manatla)

| | 2000 | 2001 | 2002 | 2003 |
|---|---|---|---|---|
| Məcmu kapital<br>O cümlədən | 57,7 | 44,9 | 85,6 | 104,6 |
| Nizamnamə kapitalı | 30,3 | 38,1 | 75,0 | 91,7 |
| Əlavə kapital | 4,0 | 4,5 | 8,4 | 10,7 |
| Ehtiyat kapitalı | 23,3 | 2,1 | 21,8 | 21,1 |

Göründüyü kim sığortaçıların məcmu kapitalı müqayisə olunan dövrlərdə 49,1% artmışdırsa onların nizamnamə fondu təxminən 2,5 dəfə artıma malik olmuşdur.

Əhalinin təhlükəsizliyinin təmin olunmasının mühüm istiqamətlərindən biri də ərzaq təhlükəsizliyidir. Bu ərzaq bazarının tənzimlənməsi ilə əlaqədar prosesdir.

Ərzaq bazar mahiyyəti etibarı ilə əhalinin ərzaq və yeyinti məhsullarına olan tələbatının təmin edilməsindən ibarət olub tələb və təklif əsasında fəaliyyət göstərir, istehsalçı və istehlakçı arasındakı

[32] Az.st.rəq. 2004 səh 397



downloaded from KitabYurdu.az

iqtisadi münasibətləri əhatə edir.ərzaq məsələsi bəşəriyyətin tarixi ərzində mövcud olmuş bütün iqtisadi sistemlərdə sosial təzadlar doğuran ən kəskin problemə çevrilmişdir.

Bu problemlərin mərkəzində isə ilk növbədə ərzaq çatışmamazlığı dayanır ki, hazırda MBT-nin ərzaq təşkilatının məlumatına görə dünyada yüz milyonlarla əhali aclıqdan əziyyət çəkir. Son on illiklərə qədər aclıqdan əziyyət çəkən ölkələrə əsas etibarı ilə Asiya, Afrika və Latın Amerikası lkələri daxil idisə, hazırda bu qrupa keçmiş İttifaq Respublikaları da şamil edilsələr də, Azərbaycan Respublikası keçid dövründə aclıqla rastlaşmamışdır. Ümumiyyətlə, Respublikada istər ittifaqda olduğu müddətdə, istərsə də müstəqillik dövründə aclıq problemi olmamışdır. Bunu Respublikanın ticarət təşkilatlarında olan mal ehtiyatlarının həcmi də sübut edir.

[33]Cədvəl 16.

Ticarət təşkilatlarında olan mal ehtiyatları (min manat)

| | 1990 | 1995 | 2000 | 2001 | 2002 | 2003 |
|---|---|---|---|---|---|---|
| Bütün mallar: O cümlədən | 97,0 | 188108 | 532100 | 537608 | 561269 | 454315 |
| Ərzaq | 12,0 | 22516 | 125915 | 111823 | 105674 | 98543 |
| Q\ ərzaq | 85,0 | 165592 | 406185 | 425785 | 455595 | 355772 |

Göründüyü kimi, əhalinin istehlak tələbini ödəmək üçün respublikda kifayət qədər mal ehtiyatı vardır. Nəzərə çarpan bir

[33] Az.st.rəq.2004 səh 340



downloaded from KitabYurdu.az

cəhət ondan ibarətdir ki, ümumi mal ehtiyatında ərzaq mallarının xüsusi çəkisi azdır. Bunu təbii hal kimi qəbul etmək olar. Çünki, birincisi, ərzaq məhsulları gündəlik tələbatı ödəyirlər, ikincisi onların bəzilərinin saxlanılması müddəti qısadır.

Göründüyü kimi Respublika Dövləti əhalinin sosial təhlükəsizliyinin təmin olunmasını həmişə diqqət mərkəzində saxlamışdır. Buna sübut kimi onu da göstərmək olar ki, ölkənin prezidenti İ. Əliyev cənabları 24.11 2003-cü ildə əmək haqqı və pensiya yardımlarının, tələbələrin təqaüdlərinin artırılması haqqına fərman vermişdir.



downloaded from KitabYurdu.az

## *FƏSİL XXII. İQTİSADİYYATIN DÖVLƏT BÖLMƏSİNİN TƏNZİMLƏNMƏSİ.*

### *1. DÖVLƏT BÖLMƏSİNİN STRUKTURU.*

Qarışıq iqtisadiyyatın mühüm tərkib hissələrindən biri dövlət bölməsidir. Dövlət bölməsi dedikdə, dövlət mülkiyyətinə məxsus kompleks obyektlər başa düşülür. (müəssisələr, təşkilatlar, idarələr). Lakin elmi nəşrlərdə dövlət bölməsi daha geniş mənada şərh edilir. Belə ki, onun struktur elementlərinə fəaliyyət göstərən təsərrüfat sistemlərindən başqa, iqtisadiyyatı tənzimləyən qanunverici və icraedici bələdiyyə və regional orqanlar da aid edilir. Bu halda iqtisadiyyatda dövlət bölməsinin funksiyası, iqtisadiyyatın tənzimlənməsi funksiyası ilə eyniləşdirilir.

Beləliklə, iqtisadiyyatda dövlət bölməsi çox komponentli, ço səviyyəli və çoxfunksionallı kompleksləri əks etdirmiş olur. Məqsədindən. Həll olunası vəzifələrin xarakterindən, maliyyələşmə mənbələrindən asılı olaraq dövlət bölməsinin strukturunu aşağıdakı kimi təsnifləşdirmək olar:

1. Dövlət mülkiyyətli müəssisələr və ona daxil olan subyektlərin mülkiyyətləri:

a) dövlət əmlaklı rəsmi müəssisələr

b) mərkəzi bank və infrastruktur xarakterli institutlar.

2. Büdcə bölməsi:

a) müdafiə

b) təhsil, mədəniyyət və incəsənət

v) səhiyyə, bədən tərbiyəsi və sosial təminat



downloaded from KitabYurdu.az

q) elm və elmi xidmət

d) dövlət idarələri (idarəedici orqanlar)

e) məhkəmə və hüquq mühafizə orqanları

j) mənzil-kommunal təsərrüfatı, qeyri istehsal təyinatlı məişət xidməti.

3. Bələdiyyə müəssisələri.

4. İçtimai təşkilatlar.

Bu təsnifatda müəyyən ziddiyyətlər vardır. Belə ki, büdcə bölməsinin müəyyən hissəsi, bələdiyyə müəssisələri kimi də çıxış edə bilər. Dövlət bölməsinin bu qeyd olunan təsnifləşdirilməsi müəyyən maraqları ifadə edir ki, onları da üç qrupa ayırmaq olar.

1. Bütün vətəndaşları əhatə edən dövlət marağı.
2. Müxtəlif birləşmələri, sosial qrupları, müəssisələri əhatə edən korporativ maraqlar.
3. Vətəndaşların fərdi tələbatı (individ, ev təsərrüfatı, ailə).

Buradan da belə bir sual meydana gəlir. Bu maraqların ifaedicisi, müdafiəçisi və həyata keçirəni kim olmalıdır? Burada birinci yerdə ümummilli marağın təmin olunması durmalıdır. Çünki, dövlətin əsas funksiyalarından biri cəmiyyətin tələbatını aşkar etmək, formalaşdırmaq və müdafiə etməkdən ibarətdir. Yəni dövlət öz bölməsini inkişaf etdirməklə vətəndaşların ümumi marağını yerinə yetirmiş olur.

Beləliklə, strukturu və fəaliyyətinə tamamilə dövlət tərəfindən nəzarət olunan müəssisələr dövlət bölməsinə aiddirlər.



downloaded from KitabYurdu.az

Təsərrüfat vahidlərinin dövlət bölməsinə aid edilməsi aşağıdakı əlamətlərə görə aparılır:

1. Müəssisənin nizamnamə kapitalından dövlətin üstün iştirakı.

2. Dövlətlə, təsərrüfat obyekti arasında bağlanmış müqavilə.

3. Müəssisənin nizamnaməsində, ilkin olaraq qeyd olunmuş status.

Beləliklə dövlət bölməsini, ictimai bölmə anlayışı ilə eyniləşdirmək mümkündür, bu şərtlə ki, ona ayrıca blok kimi bələdiyyə əmlakı da daxil edilmiş olsun. İqtisadiyyatın dövlət bölməsi, qarışıq iqtisadiyyatın mühüm bəndlərindən biri olub müəssisə və idarələr kompleksini əhatə edir. Qeyd edildiyi kimi bu kompleksə dövlət mülkiyyətli unitar müəssisələr, maliyyə və qızıl-valyuta müəssisələri, material və təbii resurslar, infrastruktura və sosial-mədəni müəssisələr daxildir. İqtisadiyyatın dövlət bölməsi bir sıra mühüm funksiyaları həyata keçirir.

Birincisi - ölkənin iqtisadi potensialının formalaşmasını təşkil edir. Bunun üçün müəyyən iqtisadi vasitələrdən istifadə olunur. Məsələn. İqtisadi tsikli hamarlamaq üçün investisiyadan, dövlət sifarişindən, dövlət alışından, müəssisələrin rekonstruksiyasında istifadə edir.

İkincisi – iqtisadiyyatın rasional strukturunu formalaşdırır.

Üçüncüsü – dövlət pul gəlirlərinin toplanmasını və bölgüsünü həyata keçirir.



downloaded from KitabYurdu.az

Qarışıq iqtisadiyyatda dövlət bölməsinin rolu və yeri müəyyən göstəricilərlə səciyyələndirilir. Bu göstəricilərə aiddir: 1. ölkənin ümumi əmlakında dövlət bölməsinin xüsusi çəkisi, 2. ölkədə mövcud müəssisələrin strukturunda dövlət bölməsi müəssisələrinin xüsusi çəkisi; 3. Dövlət bölməsində işləyənlərin sayı və xüsusi çəkisi; 4. Ölkənin ümumi daxili məhsulunda dövlət bölməsinin xüsusi çəkisi.

Bu göstəricilər, dövlət bölməsinin fəaliyyətinin keyfiyyət və kəmiyyət tərəflərini səciyyələndirməlidirlər.

## *2. DÖVLƏT BÖLMƏSİNİN İNKİŞAFININ TƏNZİMLƏNMƏSİ.*

Dövlət bölməsinin inkişafının tənzimlənməsi – minimal xərclər əsasında, rəqabət qabiliyyətli və yüksək keyfiyyətli məhsul istehsal edən obyektlərin və strukturların fəaliyyətlərinə məqsədyönlü rəhbərlikdir. Belə rəhbərlik, dövlət əmlakı obyektlərin qarışıq iqtisadiyyatda spesifik xüsusiyyətlərinin nəzərə alınması şərti ilə təsərrüfat mexanizminin kompleks istifadəsinə əsaslanır. Bu dövlət bölməsinin tənzimlənməsində ümumi qəbul olunmuş qiymət, mənfəət, kredit, maliyyə kimi vasitələrin istifadəsi ilə yanaşı inzibati vasitələrdən də (əmr, göstəriş, qərar və s.) istifadəyə imkan verir.



downloaded from KitabYurdu.az

Bununla da elmi idarəetmənin əsas aləti olan plan anlayışının mahiyyətinin saxlamasına şərait yaranmış olur ki, bu da «plan-qanun» sinonimi kimi çıxış edir. Plan –qanun dövlət bölməsinin bütün obyektləri üçün həyati əhəmiyyət daşıyır.

İqtisadiyyatın dövlət tənzimlənməsinin köməkliyi ilə iqtisadiyyatın sosial yönümü üzrə tədbirlər güclənmiş olur, istehsalın innovasiya istiqamətində restrukzasiyanı aparmaq imkanları yaranır, prioritet sahələrin fəaliyyətinin canlanması baş verir, ümumiyyətlə tələb və təklif tarazlığını yaratmaq mümkün olur.

Dövlət bölməsinin idarə edilməsinin və tənzimlənməsinin subyektləri Respublikanın Prezidenti, Qanun verici orqanları, Respublika hökuməti, icraedici orqanlar, müəssisə və təşkilatların idarəedici orqanları hesab edilir.

Respublikanın Prezidenti – Dövlətin daxili və xarici iqtisadiyyatını formalaşdırır, dövlət idarəedici orqanların fəaliyyətini istiqamətləndirir, iqtisadi təhlukəsizlik, müdafiə, daxili və xarici işlər nazirliyinin fəaliyyətinə nəzarəti həyata keçirir. Sosial-iqtisadi məsələlərin ən vacib olanlarının həlli üçün qanun və qərarlar verir.

Ölkənin Milli Məclisi qarışıq iqtisadiyyatın tənzimlənməsi üçün qərarlar qəbul edir. Bu qərarlar vasitəsilə dövlət bölməsinin tənzimlənməsi, vergi və rüsumların yığılması, maliyyə, valyuta, kredit, kömrük tarifləri, pul emissiyası siyasətlərinin aparılması həyata keçirrilir. Qərarlar Milli Məclisdə bir neçə oxunuşdan sonra qəbul edilərək, imzalanmaq üçün Prezidentə təqdim edilir. Qərarlar imzalandıqdan sonra əhaliyə çatdırılır. Ölkənin Ali İcraedici orqanı



downloaded from KitabYurdu.az

Nazirlər Kabinetidir (Hökumətdir). Nazirlər Kabineti nazirliklər, idarə və təşkilatların vasitəsilə ölkənin sosial inkişaf strategiyasını həyata keçirir. Öz səlahiyyəti çərçivəsində iqtisadiyyat dövlət bölməsinin fəaliyyətinə rəhbərlik edir, onlar üzərində nəzarəti həyata keçirir.

Hökumət makrosəviyyədə dövlət bölməsinin bütün bloklarının effektli fəaliyyətinin istiqamətləndirmək üçün mühüm funksiyaları yerinə yetirir.

Hökumət dövlət bölməsinin inkişafını tənzimləmək üçün, strategiya konsepsiyası, proqnoz, proqramlar hazırlayır. Dövlətin struktur investisiya, innovasiya. Sosial və s. siyasətlərini formalaşdıraraq həyata keçirir. Hökumət iqtisadiyyatın sosial yönümünün gücləndirilməsi üçün proqram və planları həyata keçirir, onlara maliyyə dəstəyi verir, dövlət bölməsinin maddi-texniki bazasının təmin olunması tədbirlərini işləyib hazırlayır.

Hökumət dövlət bölməsinin effektli fəaliyyəti üçün zəruri olan və metodiki əsas təşkil edən hüquqi-normativ aktların təkmilləşdirilməsi üzrə qərarlar, göstərişlər qəbul edir, optimal təşkilatı strukturu formalaşdırır və təsdiq edir. Hökumət həmçinin dövlət bölməsinin idarəedici orqanlarının nizamnaməsini, təlimatlarını, reqlament qaydalarını, ştat cədvəllərini formalaşdırır və təsdiq edir.

Məhsul istehsalı üzrə vahid dövlət siyasətinin həyata keçirilməsində iştirak edən, nazirlik idarə və təşkilatların siyahısı da hökumət tərəfindən təsdiq edilir.



downloaded from KitabYurdu.az

Effektli kadr siyasətinin həyata keçirilməsi, kadr potensialının gücləndirilməsi, nazirlik, idarə və təşkilatların rəhbərlərinin təyin edilməsi, dövlətin səlahiyyətli nümayəndələrinin təyinatı. Qarışıq iqtisadiyyatlı səhmdar cəmiyyətlərinin rəhbərlərinin təyin olunması da hökumətin məstəsna hüququna daxildir.

Hökumət zəruri olduğu hallarda kadrların attestasiyasını aparır, müsabiqə elan edir, kadrların sertifikasiyasını aparır. Müsabiqədən keçmiş rəhbərlərlə, işçilərlə kontrakt bağlayır. Azərbaycan Hökuməti bələdiyyə mülkiyyətini (torpaq, təbii resurslar, maliyyə, qızıl-valyuta, maddi texniki baza) idarə edir, dövlət əmlakının mühafizəsini təşkil edir, sahibkarlıq strukturlarının müəyyən bloklarının fəaliyyətinə nəzarət edir. O, həmçinin dövlət bölməsinin fəaliyyəti üzrə monitorinq keçirir, statistika və mühasibat uçotunun aparılmasını təşkil edir.

Hökumətin bu funksiyalarını analoji olaraq mezosəviyyədə bələdiyyə və region orqanları həyata keçirirlər. Bu məqsədlə, hökumət subyektlərin razılığı ilə öz səlahiyyətləri çərçivəsində yerli, ərazi, region orqanları yaradır.

Qarışıq iqtisadiyyatın miqyasının genişlənməsi və sosial-iqtisadi məsələlərin həllinin mürəkkəbliyinə nəzərən, dövlət bölməsinin idarə edilməsi və tənzimlənməsinin təkmilləşdirilməsi zərurəti meydana çıxır. Bununla əlaqədar icra strukturlarının təkmilləşdirilməsi, rəhbərlərin seçilməsi, yerləşdirilməsinin forma və metodlarının müəyyən edilməsi birinci dərəcəli əhəmiyyət kəsb edir.



downloaded from KitabYurdu.az

Hazırda respublikada idarəetmə orqanlarında 65300 nəfər, digər sahələrdə isə 463300 nəfər məmur çalışır. (Az. st. rəq. 2004. səh 97). Dövlət təsərrüfatı, idarəetmə orqanlarının, kooperativ təşkilatlarının və ictimai təşkilatların idarəetmə orqanları aparatı işçilərinin orta aylıq əmək haqqı 165,0 min manat olduğunu nəzərə alsaq, dövlətin həmin məmurların saxlanılmasına xeyli xərc çəkdiyini görmək olar.

Dövlət bölməsinin inkişafının effektli tənzim olunması üçün, icra strukturlarının fəaliyyətlərinin gücləndirilməsi, tərəf müqabillər arasında «oyun qaydaları»na rəayət edilməsi müqavilə və kontraktların vaxtında yerinə yetirilməsi təmin olunmalıdır. Həmçinin onların effektli fəaliyyət rıçaqları, vasitələri müəyyən edilməlidir.

Nəzərə almaq lazımdır ki, dövlət bölməsinin bütün bloklarının idarə edilməsində, bələdiyyə və regional strukturların birgə, qarşılıqlı fəaliyyət göstərmələri zəruridir.

Dövlət ehtiyacını ödəmək üçün mühsul və xidmətlər istehsal edən ictimai bölmə «özaxınına» inkişaf edə, «sükansız və yelkənsiz» fəaliyyət göstərə bilməz. Buna görə də dövlət strukturunun idarə edilməsində plan əsas vasitə sayılır. Dövlət bölməsinin fəaliyyətinin planlaşdırılması müxtəlif formalardan, göstəricilərdən istifadə olunur ki, bunlardan da birinci yerdə ölkənin maliyyə planı durur. Bu planda ölkənin pul gəlir və çıxarının strukturu, həcmi təsdiq olunur, maliyyələşmə mənbələri göstərilir. Qeyd olunan parametrlərin yerinə yetirilməsi tədbirləri əks olunur. Hər il



downloaded from KitabYurdu.az

Hökumət büdcə layihəsi ilə birlikdə dövlət bölməsinin inkişafına dairi plan materiallarını Milli Məclisə təqdim edir. Bu məqsədli proqram paketi olub, dövlət bölməsinin fəaliyyətinin və müdafiə sənayesinin səfərbəredici planıdır.

Maliyyə planının layihəsi təsdiq edildikdən sonra qanun statusu alır ki, yerinə yetirilməsində bütün iqtisadi subyektlər məsuliyyət daşıyırlar.

### *3. DÖVLƏT MÜLKİYYƏTİN İDARƏ EDİLMƏSİ*.

Dövlət mülkiyyəti – Azərbaycan Respublikası və onun subyektlərinə məxsus olan əmlakdır. Respublikada 09 noyabr 1991-ci ildə «Mülkiyyət haqqında Azərbaycan Respublikasının Qanunu» qəbul edilmişdir. Həmin qanuna əsasən Respublikanın mülkiyyət hüququ obyektlərinə aşağıdakılar aid edilmişdir. Torpaq, yerin təki, daxili sular və ərazi suları, qitə şelfi, hava hövzəsi, bitkilər və heyvanlar aləmi, müəssisələr, əmlak kompleksləri, binalar, qurğular, avadanlıq, xammal və materiallar, pullar, qiymətli kağızlar, istehsal təyinatlı, sosial, mədəni və başqa təyinatlı digər əmlak, intellektual və yaradıcı əməyin məhsulları mülkiyyətdə ola bilər.



downloaded from KitabYurdu.az

Eyni zamanda ölkə ərazisində yerləşən sənaye müəssisələrinin müəyyən hissəsi, energetika, nəqliyyatvə rabitə şəbəkələri, dövlət mənzil fondu, dövlət idarələrinin əmlakı mədəni sərvətlər və tarixi abidələr, infrastruktur obyektləri, dövlət vəsaiti hesabına yaradılmış digər əsas fondlar, dövlət bankı, maliyyə kredit ehtiyatları, qiymətli kağızlar Azərbaycan Respublikasının Dövlət mülkiyyətinə daxilidr.

Dövlət mülkiyyətinə məxsus əmlak əsasında vahid (unitar) və rəsmi dövlət müəssisələri (казенные) yaradıla bilər. Vahid birləşdirilmiş (unitar) müəssisə –təsərrüfatın idarə edilməsi hüququna əsaslanan təsərrüfat və kommersiya təşkilatları hesab olunur. Müəssisələr səlahiyyətli dövlət və bələdiyyə orqanlarının qərarına əsasən təşkil edilir. Buna görə də vahid (unitar) müəssisə ancaq dövlətə və bələdiyyəyə məxsus ola bilər. Bu o demək deyil ki, müəssisələrin başqa forması yoxdur. Burada məsələ mülkiyyətin kimə məxsusluğundan asılıdır. (Müəssisə – предприятия, управление – idarəetmə, ведомство – idarə, müəssisə, организация - təşkilat). Unitar (vahid) müəssisə, digər unitar müəssisə də təşkil edə bilər. Onun nizamnaməsini təsdiq edərək, öz əmlakının bir hissəsini ona verə bilər.

Dövlət mülkiyyətinin idarə edilməsi Mülki Məcəllə, digər hüquqi normativ aktlar əsasında həyata keçirilir. Respublikanın Mülki Məcəlləsi mülkiyyət münasibətlərinin tənzimlənməsinin əsas sənədidir.



downloaded from KitabYurdu.az

Dövlət mülkiyyətinin idarə olunmasında icra orqanları, xüsusilə də ölkənin hökuməti böyük rol oynayırlar.

Dövlət mülkiyyətinin istifadəsinə nəzarət də mülkiyyətin yeni münasibətlərə transformasiya olunmasında, mühüm strateji məsələlərin həll edilməsində hökumətin geniş səlahiyyətləri vardır. Bu fəaliyyət dairəsinin genişliyi, həll olunası məsələlərə işgüzar yanaşmasını nəzərə alaraq Hökumət öz səlahiyyətlərinin bir hissəsini, yerli bələdiyyə orqanlarına da həvalə edə bilər.

Mövcud qanunlar və normativ aktlar əsasında dövlət mülkiyyətinin idarə edilməsində ölkənin İqtisadi İnkişaf Nazirliyi mühüm funksiyaları yerinə yetirir.

Dövlət mülkiyyətinin idarə edilməsində strateji məqsəd onun effektli fəaliyyətini təşkil etməkdən, innovasiya əsasında təkrar istehsalının təmin olunması imkanlarını genişləndirməkdir. Buna isə elmi əsaslandırılmış metodolociya əsasında nail olmaq mümkündür.



downloaded from KitabYurdu.az

## *FƏSİL XXIII. SOSİAL İNFRASTRUKTURUN İNKİŞAFININ TƏNZİMLƏNMƏSİ.*

### *1. SOSİAL İNFRASTRUKTURUN MAHİYYƏTİ VƏ STRUKTURU.*

İnfrastruktur (infra-alt, struktura) – iki söz birləşməsi olub iqtisadiyyatın (əsasın0 özülünü təşkil edən sahələri əhatə edir ki, bunlarsız xalq təsərrüfatının inkişafı qeyri mümkündür.

Deməli, infrastruktur – istehsalın ümumi şəraitinin və cəmiyyət üzvlərinin həyat fəaliyyətini təmin edən kompleks təsərrüfat sahələrinin məcmunundan ibarətdir.

Makrosəviyyədə istehsal və sosial infrastrukturlarını bir-birindən fərqləndirmək lazımdır.

İstehsal infrastrukturu istehsala xidmət edir. Həmin sahələr aşağıdakılardır:

1. İstehsalın maddi-texniki təminatı və nəqliyyat təsərrüfatı.
2. Enerji təminatı.
3. Məlumatların verilməsi və qəbul edilməsi.
4. Təbii ehtiyatlardan səmərəli istifadəni təmin edən obyektlər.
5. Məhsul istehsalında bilavasitə iştirak etməyən, lakin ona köməklmk göstərən obyektlər.

Qeyd etmək lazımdır ki, infrastruktur sahələrinin mahiyyətini aşkarlamaq üçün onu istehsalın köməkçisi kimi yox, xidmətedicisi kimi qiymətləndirmək lazımdır.



downloaded from KitabYurdu.az

İnfrastrukturanı belə təsnifləşdirmək olar:

I. İearxiya səviyyəsinə görə;

1. Xalq təsərrüfatı səviyyəsinə görə;
2. Regional səviyyədə;
3. Yerli səviyyədə.
4. müəssisə səviyyəsində.

II. Funksional xüsusiyyətinə görə təsnifatı.

1. İstehsal təyinatlı xidmətlər.
2. Qeyri-istehsal təyinatlı xidmətlər

III. Formalaşma vaxtına görə.

1. Ötücü.
2. Birdəfəlik.
3. Geçikmiş.

IV. Yaranma mərhələsinə görə.

1. Qərarlaşmış (Sabitləşmiş - dayanmış)
2. Yeni yaranan (Törəyən)
3. Gələcək.

İnfrastruktur sahələrinin belə təsnifatı, onun kompleks inkişafını təmin edir.

Bazar münasibətlərinin təşəkkül tapdığı bir dövrdə infrastruktur sahələrinin ən mühüm hissəsini əhatə edən sosial infrastrukturu hesab edilir.

Müasir bazar iqtisadiyatı şəraitində sosial infrastruktur sahələrinin inkişafı və tənzimlənməsi ölkənin təbii iqlim şəraitinə, milli ənənələrə tam uyğun olaraq həyata keçirilməlidir. Məlum



downloaded from KitabYurdu.az

olduğu kimi Azərbaycanın ərazisinin 20%-i müvəqqəti də olmuş olsa da, erməni işğalçıları tərəfindən zəbt edilmişdir. Bunun nəticəsi olaraq doğma ata-baba yurdlarından zorla qovulan qaçqın və köçkünlərin sayı bir milyondan çoxdur. Ədalətsiz təcavüz nəticəsində müharibə ərazisində Ağdam, Şuşa, füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan, Əsgəran, Laçın və Kəlbəcər kimi iri rayonlar zəbt edilərək istehsal və sosial infrastruktur obyektləri tamamilə dağıdılıb məhv edilmişdir. Belə ki, müharibə zonasında 600-dən çox yaşayış məntəqəsi, 4 mindən çox müxtəlif istiqamətli sənaye və kənd təsərrüfatı müəssisələri, ümumi sahəsi 6 milyon kvadrat metrdən çox olan 80 min yaşayış evləri və 2 mindən artıq sosial-mədəni obyektlər, o cümlədən, 490 orta məktəb, 151 məktəbəqədər təlim-tərbiyə ocaqları, 200 tibbi müəssisələri dağıdılaraq qarət edilmişdir. Təxmini hesablamalara görə Dağlıq Qarabağ qaçqınlarına 3,5 -4 milyard ABŞ dollarə məbləğində maddi ziyan vurulmuşdur. Beləliklə dağıdılmış, sosial infrastruktur sahələrinin bərpasına və inkişafına böyük məbləğdə investisiya qoyuluşları tələb edilir, məhz buna görə də bazar iqtisadiyyatı şəraitində ən mühüm problem sosial infrastruktur sahələrinin inkişafının tənzimlənməsidir. Cəmiyyət miqyasında mənafeləri səmərəli əlaqələndirmək məqsədilə Respublikada sosial sahələrin inkişafı əsas dövlət tərəfindən həyata keçirilməli və tənzimlənməlidir.

Sosial infrastruktura əsasən aşağdıakılar daxil edilir:

1. Ticarət və ictimai iaşə.
2. Əhaliyə səhiyyə xidməti.



downloaded from KitabYurdu.az

3. Əhalinin təhsil sistemi.
4. Mənzil-kommunal təsərrüfatı.
5. Sərnişin nəqliyyatı və rabitə.
6. Məişət xidməti sahləri.

Sosial infrastrukturun bu sahələrinin ən əsaslarının inkişafı və tənzim olunmasına diqqət yetirək. Onu da qeyd edək ki, sosial infrastruktur sahələrinin tənzim olunması elmi əsaslandırılmış normativlər üzrə aparılır.

## *2. ÖLKƏDƏ TƏHSİL SİSTEMİ VƏ ONUN TƏNZİMLƏNMƏSİ.*

Cəmiyyətin inkişafında təhsil sistemi son dərəcə mühüm rol oynayır. Belə ki, cəmiyyətin inkişafının əsas bazası hesab edilən təhsil sisteminə ictimai quruluşdan asılı olmayaraq dövlət birinci dərəcəli əhəmiyyət vermiş və verməkdədir. Odur ki, ölkənin təhsil sistemi ictimai tələbatın ödənilməsində və xüsusilə sosial iqtisadi inkişafın təmin olunmasında aparıcı rola malikdir.çünki, təhsilli mütəxəssislər sosial-iqtisadi inkişafı təmin və idarə edirlər. Məhz



downloaded from KitabYurdu.az

buna görə də respublikada təhsil sistemi Azərbaycan Respublikasının Konstiutsiyasına tam uyğun olaraq həyata keçirilir.

Azərbaycan Respublikasında təhsil sistemi

- məktəbəqədər və məktəb təhsilini;
- ali və orta ixtisas təhsili sistemini əhatə edir.

Məktəbəqədər təhsil sistemi 6 yaşa qədər uşaqların təlim-tərbiyə olunması üçün yaradılır. Bu tərbiyə ocaqları körpələr evini, uşaq bağçalarını əhatə edir, həmin tərbiyəmüəssisələrinin kontingentini müəyyən etmək üçün 18-44 yaşında işləyən qadınların sayı əsas götürülür.

Tərbiyə olunanların sayı, tərbiyəçilərin, xidmətedici heyətin müəyyən edilməsi üçün əsasdır.

Belə ki, uşaq tərbiyə elərində normativ üzrə hər qrupdakı uşaqların sayı 25 nəfər götürülür. Hər qrup üçün 2 tərbiyəçi və 1 dayə nəzərdə tutulur.

Uşaq bağçalarında 18-20 nəfərə xidmət etmək üçün 1 həkim, 2 tibb bacısı, 1 dayə nəzərdə tutulur.

Bu sahədəkm dövlət siyasəti ondan ibarətdir ki, uşaq tərbiyə ocaqları şəbəkəsi genişləndirilsin, onların maddi-texniki bazası artırılsın.

Məktəbəqədər təhsil sisteminin davami məktəb təhsilidir. Məktəb təhsili ümumtəhsil, günü uzadılmış məktəbləri və məktəb-internatları əhatə edir.

Məktəb təhsili I – X (XI) siniflərdən ibarət olub, məcburidir.



downloaded from KitabYurdu.az

Lakin elə hal olur ki, VIII sinif təhsilini başa vuranlar peşə texniki məktəblərinə daxil olurlar. Bu zaman onlar peşə ixtisası ilə yanaşı IX – X (XI) sinif təhsilinə yiyələnirlər.

Məktəb təhsilinin tənzim olunmasında mühüm məsələ onun kontingentinin müəyyən olunmasıdır. Birinci sinfə qəbul 6 -7 yaşlı uşaqların qeydiyyatının aparılması əsasında, bu və ya digər səbəbdən 1-ci sinfə getməyən uşaqların sayına görə müəyən edilir. II-VIII sinif şagirdlərinin sayı sürüşdürmə metodu ilə müəyən olunur. Yəni II sinifi bitirənlər III sinfin kontinenti sayılır və i.a. IX sinifə qəbul olunanlar gənclər balansına əsasən hesablanır. Çünki VIII sinfi bitirənlər bəziləri peşə texniki məktəblərə daxil ola bilərlər.

Şagirdlərin sayına görə sinif komplektləşir və pedaqoji heyətə olan tələbat müəyyənləşdirilir. Normativ üzrə hər sinif kompleksində 40 şagird nzərdə tutulur.

I – III siniflərdə tədrisi bir müəllim apardığı üçün müəllimlərin sayı sinif komplektlərinin sayına bərabər götürülür.

IV – X (XI) siniflərində tədris aparan müəllimlərin sayı ştat stavkası ilə müəyyən edilir.

$$M_s = \frac{3}{ND} = \frac{6x6}{3x6} = \frac{38}{18} = 2 \text{ stavka}$$

Haradakı – $M_ç$- müəllim stavkası

3 – həftədəki tədris sattlarını

N- müəllimin gündəlik dərs saatını



downloaded from KitabYurdu.az

D- həftədəki tədris günlərinin sayını göstərir.

Müəllimin 3 saatlıq gündəlik tədris yükü və 6 günlük tədris həftəsində stavkası 18 tədris saatına bərabər olacaqdır.

Müəllimə olan tələbat

$$M = \frac{K3}{NS} = \frac{15x36}{18} = \frac{540}{18} = 30$$

Burada M- müəllimə olan tələbat

K – siniflərin sayı

$N_s$ – stavkaya görə müəlimlərin orta tədris yükünü göstərir.

Aıry-ayrı ixtisaslara olan tələbat ümumi tədris yükündə, həmin ixtisas üzrə tədris yükünün xüsusi çəkisinə görə aparılır.

Odur ki, ali və orta ixtisas təhsilli mütəxəssislərə tələbat təhsil sisteminin mühüm tərkib hissəsidir və təhsil əyani və qiyabi sistemi ilə həyata keçirilir.

Ali və orta ixtisaslı mütəxəssislərin hazırlanmasına olan tələbat xalq təsərrüfatının strukturunun həcmindən asılı olaraq müəyyənləşdirilməlidir. Bu hesablama maddi istehsal sahələrində istehsalın həcminə görə, qeyri-istehsal sahələrində isə xidmət həcminə görə aparılır. Əsas normativ hər 1000 nəfər maddi istehsal sahəsi işçilərinə və xidmət sahəsi üzrə 1000 nəfər əhaliyə görə müəyyən edilə bilər.

Qeyd edilən normativlər hələ keçmiş ittifaq təhsil sistemində vahid resept kimi qəbul edilmişdir. Lakin bu normativlər bazar iqtisadiyyatının tələblərinə tam cavab vermir. Odur ki, milli , təbii



downloaded from KitabYurdu.az

iqlim şəraitindən asılı olaraq bu normativlərin təkmilləşməsinə ehtiyac vardır.

Beləliklə, təhsil sisteminin bazası hesab edilən ümumi təhsil məktəblərinin ən başlıca vəzifəsi cəmiyyətdə hərtərəfli inkişaf etmiş və mükəmməl təhsil almış gənclərin hazırlanmasıdır. Lakin bununla belə ümum təhsil məktəblərində ali məktəblər üçün də müvafiq tələbə kontinentində formalaşdırılır ki, onların ən istedadlıları ali məktəblərə qəbul olunurlar. Keçmiş ittifaqdan fərqli olaraq bazar münasibətlərinin ən başlıca atributlarından biri tələb və təklifdir. Həmin qanunauyğunluq bütün bazar ölkələrinə xasdır.

Respublikada təhsil sistemində aparılan islahatlar nəticəsində ali təhsilli mütəxəssislərin hazırlanmasının aşağıdakı forması məqbul sayılmışdır.

Bakalavr təhsil sistemi bu səviyyədə təhsil alan mütəxəssislər fərdi qərarlar qəbul olmayan sahələrdə çalışmaq hüququna malikdirlər.

Magistr təhsili bakalavr təhsilindən sonra başlanır və 2 il davam edir. Belə təhsilli mütəxəssislər fərdi qərarlar qəbul edilə bilən bütün sahələrdə işləyə bilərlər.

Sonrakı təhsil sistemi doktorantura hesab edilir.

Təhsil sosial infrastrukturuna mədəniyyət və incəsənət sahələri də daxildir. Həmin sahələrin inkişafı aşağıdakı prinsiplərə əsaslanır:

a) Əhalinin daha çox hissəsinin bu sahələrin xidməti ilə əhatələnməsi və onun yaxşılaşdırılması.



downloaded from KitabYurdu.az

b) Mədəniyyət və incəsənət sahələrinin respublika ərazisində daha səmərəli yerləşdirilməsi.

v) Şəhərlə kənd arasındakı fərqin aradan götürülməsi üçün mədəniyyət və incəsənət sahələrindən daha geniş istifadə olunması.

Mədəniyyət və incəsənət sahəsində dövlət siyasəti, kütləvi kitabxanalar şəbəkəsinin genişləndirilməsi, klub müəsisələrinin yaradılması, milli kino sənətinin inkişafı, milli televiziya verilişlərində azsaylı xalqlara efir vaxtının verilməsi, qonşu ölkələrlə televiziya verilişləri mübadiləsinin aparılması və s. vasitəsilə əhalinin intellektual səviyyəsinin, bəşəri dünya görüşünün formalaşmasını həyata keçirməkdir.

Ali və orta ixtisas təhsili sahəsində dövlət siyasəti, qabaqcıl ölkələrin tğəcrübəsinə əsaslanaraq, ali məktəb məzunlarının obyektiv seçilməsini təmin etməkdir. Bununla əlaqədar olaraq 1992\1993-cü il tədris ilindən ali məktəblərə test üsulu ilə qəbul öz müsbət nəticələrini göstərməkdədir.

Lakin test üsulu ilə qəbul çatışmazlıqlarından da xali deyildir. Çünki, məzun testə düşən suallara əzbərləmə formasında hazırlaşır, digər fənnlərə diqqət vermir. Bununla da onda ümumi dünya görüşü formalaşmır, aşağı səviyyədə olur.



downloaded from KitabYurdu.az

### *3. SƏHİYYƏNİN İNKİŞAFININ TƏNZİMLƏNMƏSİ*.

Dövlətin sosial siyasətinin əsas istiqamətlərindən biri də əhalinin sağlamlığının qorunmasıdır.

Əhaliyə səhiyyə xidmətləri a) xəstəliklərə qarşı müvafiq profilaktiki tədbirlərin həyata keçirilməsi; müalicə tədbirləri, əhalinin əmək və iş şəraitinin yaxşılaşdırılması və istirahətinin təşkili, ətraf mühitin mühafizəsi başa düşülür.

Bütün bunlarla yanaşı əhaliyə səhiyyə xidmətinin yaxşılahdırılmasında dövlət siyasəti səhiyyə orqanlarının iş fəaliyyətinin daha da genişləndirilməsidir. İstirahət yerləri, kurort şəbəkələri, turist bazaları sisteminin yaradılması, səhiyyə ocaqlarının maddi-texniki bazasının möhkəmləndirilməsi və s. sağlamlığın əsas şərtləridir.

Səhiyyə xidmətinin təşkilində xəstəxana şəbəkələrinin yaradılması mühüm əhəmiyyətə malikdir. Xəstəxanaların yaradılmasında normativ göstərici kimi əhalinin 10000 nəfərinə görə çarpayıların sayı əsas götürülür. Bu göstərici şəhərlər üzrə 11-130 çarpayı, kənd yerlər üçün 90-110 çarpayı təşkil edir. Həkimlərə olan tələbat çarpayı sayına görə şəhərlərə 4-5 çarpayıya 1 həkim, kəndlərdə 6-7 çarpayı hesabı ilə müəyyən edilir. Bu normativlər müşahidələr vasitəsilə dəyişdirilə bilər. Məsələn, xəstənin orta müailicə müddəti 10 gün, il ərzində çarpayıdan istifadə 340 gün, əhalinin qospitallaşdırılması 20 təşkil edərsə və əhalinin sayı 50 min nəfər olarsa, çarpayıya olan tələbat 294 ədəd təşkil edəcəkdir.



downloaded from KitabYurdu.az

$$Ç_t = \frac{5000x20\%x10\ gün}{340gün\ x\ 100\%} = \frac{50000}{170} = 294$$

Səhiyyənin maddi-texniki bazasının genişləndirilməsində əczaçılıq sistemi də daxildir. Əczaçılıq şəbəkəsinə olan tələbat da normativlər əsasında hesablanır.

Əhalisi 100 min nəfər olan şəhər və kənd yerləri üçün hər 6 min nəfərə 1 əczaçılıq müəssisəsi, 100-150 min nəfər olan şəhərlərə hər 12 min nəfərə 1 əczaçılıq müəssisəsi. 500 min nəfərdən çox olduqda hər 15 min nəfərə bir əczaçılıq müəssisəsi nəzərdə tutulur.

Bu normativlər keçmiş ittifaq tərəfindən tövsiyyə edilmişdir. Lakin bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq bu normativlərin dəqiqləşdirilməsinə böyük ehtiyac vardır.

Bu sahədə dövlət siyasəti, səhiyyə sığortasının daha da genişləndirilməsi, səhiyyə elmi-tədqiqat işlərinin gücləndirilməsi, müştərək maliyyə sistemlərinin işlənib hazırlanması və s. ibarətdir.

## *4. XİDMƏTİ SFERALARININ İNKİŞAFININ TƏNZİMLƏNMƏSİ.*

Xidmət sferalarının tərkib və geniş yayılmış sahələrindən biri əhaliyə göstərilən məişət xidmətidir.



downloaded from KitabYurdu.az

Belə ki, sosial infrastrukturanın xidmət sferasının ümumi məhsulunun 27%-ni təişət xidməti təşkil edir.

Məişət xidməti sahələrinin özü üç qrup müəssisələri əhatə edir.

1. Yeni istehlak dəyərləri yaradan sahələr.
2. Əvvəl yaradılmış istehlak dəyərlərinin saxlanılması və bərpası ilə məşğul olan sahələr.
3. İstehlak dəyərlərinin yaradılması ilə əlaqədar olmayan sahələr.

Ümumi təsnifata görə məişət xidməti sahələri aşağıdakılara aid edilir:

1. Fərdi ayaqqabı tikişi və təmiri müəssisələri.
2. Paltarların fərdi tikilişi.
3. Toxuculuq məmulatları istehsalı müəssisələri.
4. Radio, televizor, apparat, qurğu, soyuducu, kondisioner, məişət maşınlarının təmiri.
5. Nəqliyyatların texniki təmiri.
6. Mebellerəin istehsalı və təmiri.
7. Kimyəvi təmizləmə və rəngləmə.
8. Camaşırxanalar.
9. Mənzillərin tikilməsi və təmiri.
10. Foto-atellər.
11. Hamam və saunalar.
12. Bərbərxanalar.
13. Kirayə məntəqələri.



downloaded from KitabYurdu.az

14. Nəqliyyat xidmətləri.

Məişət xidməti müəssisələrinin əsas vəzifələrindən biri əhaliyə xidmət vasitəsilə onun istirahət vaxtının uzadılması imkanını artırmaqdır.

Əhalinin məişət xidmətinə tələbatı onun real gəlirinin artması ilə birbaşa əlaqədardır. Bunların arasında düz m ütənasiblik vardır.

Azərbaycan Respublikası dövlətinin məişət xidməti sahələrinin inkişafının tənzim olunmasındakı siyasəti, yaxın dövrə həmin sahələr qarşısında qoyulan vəzifələrdə ifadə olunmuşdur.

1. Əhalini daha keyfiyyətli xidmətlərlə təmin etmək, xidmət mədəniyyətini yüksəltmək.
2. Kənd və təzə alınan rayonların məişət xidmətinə olan tələbatını ödəmək.
3. Xidmət strukturunu təkmilləşdirmək.
4. Xidmət sahələrini ərazi üzrə daha səmərəli yerləşdirmək.

Məişət xidmətinin birbaşa istehlak tələbatı ilə əlaqədar olduğu üçün, onun inkişafı tənzimlənərkən əhalinin sosial tərkibi strukturu və yerləşməsi nəzərə alınmasıdır. Məişət xidmətlərinin «sərfəli» və ya «sərfəsiz» ünsürləri nəzərə alınmalıdır. Çünki, «sərfəli» məişət xidməti, digər xidmətləri kölgədə qoya bilər. Buna görə də xidməti sahələrin tipləşdirilməsinə, standartlaşmasına fikir verilməlidir.

Azərbaycan Respublikası suveren dövlətdir və qonşu dövlətlərlə iqtisadi əlaqələrə malikdir. Buna görə də sərhəd



downloaded from KitabYurdu.az

rayonlarında məişət xidmətləri müəssisələrinin işi elə qurulmalıdır ki, sərhədyanı dövlətlərin bəzi məişət xidmətlərini yerinə yetirə bilsinlər.

Məişət xidməti sahələrinin inkişafında dövlət siyasəti əsasən özəlləşdirməni həyata keçirməkdir. Çünki bu sahələr digər sahələrə nisbətən özəlləşdirmə üçün daha yatımlıdır.

Özəlləşdirmənin ən mühüm obyektlərindən biri də əhalidə olan mənzil sahəsi hesab edilir.

Bununla əlaqədar olaraq əhaliyə mənzil və kommunal xidmətləri də həyata keçirilir.

Mənzil xidməti əhalidə olan yaşayış sahələrini və dövlət sərəncamında olan xüsusi mənzilləri əhatə edir.

Kommunal xidməti sahələri isə aşağıdakıları əhatə edir:

1. Şəhər su kəmərləri və su axarları.
2. Şəhər nəqliyyatı.
3. Enerji təsərrüfatı.
4. Sair sahələr ( yaşıllaşdırma, sanitar-gigiyena).

Mənzil və ona olan tələbatın ödənilməsi, cəmiyyət üzvləri qarşısında duran daimi problemdir. Mənzil sahəsinə olan tələbat sanitar normaya görə hər nəfərə 12-15 kv.m. hesabı ilə müəyyənləşdirilir. Bazar iqtisadiyyatı şəraitində xüsusi mülkiyyətin inkişaf etdirilməsi ilə əlaqədar olaraq bu normativlər daha yüksək ola bilər. Əhalinin mənzilə olan tələbatının ödənilməsində dövlət siyasəti əsasən özündə aşağıdakıları əks etdirir.

1. Ölkədə yaşayan bütün əhali rahat mənzillə təmin olunmalıdır.



downloaded from KitabYurdu.az

2. Mənzil tikintisi keyfiyyətli, sanitar-gigiyena tələblərinə uyğun aparılmalıdır.

3. Mənzil tikintisi kompleks olmalıdır. Yəni müəyyən yaşayış massivi zəruri xidmət sferaları ilə birlikdə inşa edilməlidir.

Mənzil fonduna tələbat əhalinin sayına görə aşağıdakı düsturla hesablanır.

$M_t = (Ə_s \times S_n) - M_f + M_S$

Burada $M_t$ – mənzil fonduna tələbat

$Ə_s$- əhalinin sayı

$S_n$ – sanitar norması

$M_f$ – mövcud mənzil fondunu

$M_s$ – silinəsi mənzil fondunu əks etdirir.

Mənzil fondunun inkişafı kommunal təsərrüfatı ilə birbaşa əlaqədardır. Şəhərlərdə kommunal təsərrüfatının inkişafı sənayenin inkişafı ilə sıx əlaqədardır. Çünki əhali tələbatı ilə yanaşı, sənaye sahələrinin də kommunal xidmətlərə tələbatı yüksəkdir.

Əhaliyə göstərilən mühüm xidmətlərdən biri də onun enerji təminatıdır. Lakin Azərbaycan Respubdikası neft və qaz istehsal etməyinə baxmayaraq, hələ də hər beş kənddən biri, şəhər qəsəbələrinin 30%-ə qədəri qazlaşdırılmamışdır.

Su təchizatında da çatışmamazlıqlar mövcuddur. Bakı şəhərinin illik su tələbatı təxminən 520 mln. kub metr təşkil edir. Respublikada sututarlardan, su anbarlarından effektli istifadə olunmur. Su tənzimləyici qurğular çatışmır. Suya tələbatı olan



downloaded from KitabYurdu.az

müəssisələr israfçılığa yol verirlər. Su kəməri vaxtında dəyişdirilmir, dağılaraq su itkisinə yol verilir.

Kommunal təsərrüfatının mühüm hissələrindən biri sərnişin nəqliyyatıdır. Şəhər sərnişin nəqliyyatını – tramvay, trolleybus, metro, avtobus, taksi əhatə edir. Şəhər sərnişin nəqliyyatının nizamla işləməsi, bütün qalan sahələrinin işinin yaxşı getməsinə dəlalət edir. İri şəhər kimi Bakı metrosu əhalinin nəqliyyata olan tələbatının çox hissəsini ödəmişdir, bununla yanaşı yeni metrostansiyalarının tikintisi aparılır. Belə ki, müxtəlif özəl avtobus parklarının sahibləri əmək intizamı və əmək qanunçuluğuna məhəl qoymadan sürücüləri dözülməz dərəcədə istismar edirlər. Bununla yanaşı büdcə vergisindən yayınırlar.

Bütün bunları nəzərə alaraq şəhər sərnişin nəqliyyatının dövlət tənzimlənməsi istiqamətinin yüksəldilməsi məqsədəuyğundur.



downloaded from KitabYurdu.az

## *FƏSİL XXIV. ƏMƏK BAZARININ TƏNZİMLƏNMƏSİ.*

### *1. ƏMƏK BAZARININ SOSİAL-İQTİSADİ MAHİYYƏTİ.*

Əmək bazarı, iqtisadi həlqələrin bütün elementlərini özündə əks etdirən inteqral sistemidir.

Qərb iqtisadi nəzəriyyələrində əmək bazarına istehsal resurslarından ancaq birinin reallaşdırıldığı məkan kimi baxılır (əmək reallaşdırılması.). Bu konseptual məsələyə 4 tərəfdən yanaşılır.

Neoklassik (neoklassik – yeniləşdirmə) yanaşma – Bu konsepsiyanın əsasında klassik baxışlar durur. Yəni bütün bazarlar kimi əmək bazarının əsasında da qiymət bərabərliyi durur. Belə ki, əsas tənzimləyici qiymətdir, yəni əməyin qiymətidir. Əməyin qiyməti – əmək haqqı əməyə tələb və təklifi müəyyən edir. Bir halda ki, qiymət bərabərliyi vardır, işsizlik yoxdur və ya könüllü xüsusiyyətə malikdir.

Keynsçi yanaşma – neoklassiklərdən fərqli olaraq keynsçilər əmək bazarına daimi və əsasən dəyişən qeyri-sabit mühit kimi baxırlar. Onların fikrincə əmək haqqı dəyişməzdir (müqaviləyə görə) və bunu onlar qeyd-şərtsiz qəbul edirlər. Bu konsepsiyada qiymətin tənzimləyici rolu azaldığına görə tənzimləmə funksiyasını dövlət öz üzərinə götürür.

Beləliklə, əmək münasibətlərinin tənzimlənməsi qiymət modeli əsasında deyil, istehsalın həcmi ilə tənzimlənməlidir.



downloaded from KitabYurdu.az

Monetar baxış – Monetaristlər işçi qüvvəsinin qiymətinə sərt struktur nöqteyi-nəzərdən yanaşırlar. Monetaristlər «təbii» işsizlik anlayışından istifadə edərək göstərirlər ki, dövlət əmək haqqının minimum səviyyəsini qoymaqla işsizliyi artıra bilər. Buna görə də əmək bazarını tənzimləmək üçün dövlət pul-kredit vasitələrindən istifadə etməlidir.

Marksistlər əmək bazarını xüsusi bazar kimi qeyd edirlər. Bu digər əmtəə bazarlarından onunla fərqlənir ki, əmək prosesində yaradılan dəyər əməyin özü ilə məhsulun üzərinə keçirilir. Buna görə marksistlər belə hesab edirlər ki, əmək bazarı ümumi iqtisadi qanunlara tabe olsa da, özünəməxsus xüsusiyyətlərə malikdir. Yəni istehsalın amili olmaqla o özü də əmtəə sayılır və bununla da tələb və təklifə təsir göstərir, özünün bazar qiymətini müəyyənləşdirir.

Bu konsepsiyaların hamısının özünəməxsusluğu vardır.

Beləlilklə , əmək bazarı ümumi iqtisadi qanunlara tabe olmaqla tələb-təklif mexanizmi əsasında fəaliyyət göstərərək digər əmtəə bazarlarından öz xüsusiyyətləri ilə fərqlənir. Bu zaman əmək münasibətlərinin tənzimlənməsinin makro və mikro amilləri ilə yanaşı sosial, sosial-psixoloji və s. amillər də fəaliyyət göstərirlər.

Real iqtisadi həyatda əmək bazarının fəaliyyəti çoxlu amillərin təsiri altında tənzimlənir.

Bunlardan biri demoqrafik amildir, doğum səviyyəsi, iş qabiliyyətli əhalinin artımı, onun cinsi quruluşu və s.



downloaded from KitabYurdu.az

İkincisi – müxtəlif etnik qrupların iqtisadi aktivlik səviyyəsi. Məsələn, bir etnik qrupun iş qabiliyyəti digərinə nisbətən yüksək ola bilər.

Üçüncüsü – əhalinin miqrasiyasıdır.

Beləliklə, əmək bazarını belə müəyyənləşdirmək olar. Əmək bazarı – əmtəə bazarının xüsusi növüdür. Bu bazarın məzmunu xüsusi əmtəə olan iş qüvvəsinin alınıb-satılmasında ifadə olunur. İqtisadi kateqiroya kimi iş qüvvəsinin sahibi ilə, iş qüvvəsini alan arasında münasibəti əks etdirir. Deməli, sözün əsl mənasında «əmək bazarı» yox, «iş qüvvəsi bazarı» mövcuddur. Lakin bunların hər ikisini eynilik kimi qəbul etmək olar.

## *2. ƏMƏK RESURSLARI VƏ İŞ QABİLİYYƏTLİ ƏHALİ.*

İqtisadi sistemlərdə «iş qüvvəsi bazarı»nın formalaşması mənbəyi əhalidir. Bütünlükdə əhalinin müəyyən hissəsi qanunçuluq əsasında əmək resursu kimi qiymətləndirilir.

Əmək resursları iş qabiliyyətli bütün əhalinin əhatə edir. İctimai istehsalın inkişafı, ölkənin maddi ehtiyatlarının toplanması və artması, nəhayət əhalinin yaşayış səviyyəsinin yüksəlməsi əmək resurslarından istifadə səviyyəsindən asılıdır.



downloaded from KitabYurdu.az

İqtisadi ədəbiyyatlarda bəzi hallarda əmək resurmları anlayışı işçi qüvvəsi ilə eyniləşdirirlər. Lakin bunlar arasında fərq mövcuddur. Belə ki, əmək resursları iş qabiliyyətli bütün əhalini əhatə edirsə, işçi qüvvəsi əmək resurslarının ictimai istehsalda çalışan hissəsini əks etdirir.

Əmək resurslarının hərəkəti və təkrar istehsalı əmək resursları balansında əks olunur. Həmin balnsın strukturu belədir.

Cədvəl 66.

Əmək ehtiyatları balansı.

| | Miqdarı |
|---|---|
| 1. İş qabiliyyətli və iş qabiliyyətli yaşında olan əhali: | |
| Kişilər 16 – 65 yaş | |
| Qadınlar 16 – 60 yaş | |
| 2. İş qabiliyyətli və iş qabiliyyətli yaşında olmayan əhali: | |
| Kişilər 65 yaşdan yuxarı | |
| Qadınlar 60 yaşdan yuxarı | |
| Yeniyetmələr 16 yaşa qədər | |
| 3. əmək ehtiyatlarına daxil deyildir: | |
| I və II dərəcəli əlillər (istehsal və ya müharibə əlilləri) | |



downloaded from KitabYurdu.az

Azərbaycan Respublikasının iqtisadiyyatında çalışanların orta illik sayı 2003-cü ildə 3747 min nəfər olmuşdur. Bu 1995-ci ildəkindən 134 min nəfərdən çoxdur. Respublikanın xalq təsərrüfatı sahələrində çalışanların orta illik sayı 2002-2003-cü illərdə belə olmuşdur:

[34]Cədvəl 67.

İqtisadiyyat sektorları üzrə məşğul olan əhalinin bölgüsü
(%-lə)

| | 2000 | 2001 | 2002 | 2003 |
|---|---|---|---|---|
| Cəmi iqtisadiyyatda məşğuldur | 100,0 | 100,0 | 100,0 | 100,0 |
| O cümlədən: | | | | |
| Dövlət sektorunda | 34,5 | 33,4 | 32,0 | 31,1 |
| Qeyri-dövlət sektorunda | 65,5 | 66,6 | 68,0 | 62,5 |
| Onlardan: | | | | |
| Fərdi sektorda | 38,9 | 39,0 | 39,3 | 38,8 |

Cədvəlin məlumatları göstərir ki, iqtisadiyyatın dövlət sektorunda məşğul olanlar azalmağa, qeyri-dövlət sektorunda çalışanlar isə artmağa doğru meyllidir. Qeyri-dövlət sektorunda isə fərdi fəaliyyət daha çox xüsusi çəkiyə malikdir.

Deməli, iqtisadiyyatın bazar yönümlü inkişafı iş qüvvəsinin transformasiyasına səbəb olmuşdur.

---

[34] Az. St.rəq. 2004. səh 100



downloaded from KitabYurdu.az

Əmək resurslarından səmərəli istifadə edilməsi məsələsinə iki istiqamətdə baxmaq olar. Bir tərəfdən işsizliyi ləğv etmək üçün bütün işləyə bilən əhalinin işlə təmin olunması. İkinci bir tərəfdən xalq təsərrüfatının tələbatını ödəyə bilən ixtisaslı kadrların, mütəxəssislərin işlə təmin olunması.

Əmək resurslarından səmərəli istifadə olunması və onun xalq təsərrüfatı sahələri üzrə yerləşdirilməsi daimi problemidir. Çünki, bu problemə çoxlu sayda sosial-psixoloji amillər təsir göstərir. Məsələn, hər bir işçi iş yerinin yaxın olmasını, əmək haqqının yüksək olmasını, kollektivdə sağlam mühitin olmasını və s. istəyir. Buna görə də o, daima sərfəli olan iş yeri axtarır.

Əmək resurslarının səmərəli bölgüsünün konkret metodikası yoxdur, lakin qanunauyğunluğu vardır. Belə ki, bu zaman ilk əvvəl maddi istehsalın tələbatı, onun da daxilində aparıcı sahələri tələbatı ödənilir. Bu ardıcıllıqla qalan sahələrin də işçi qüvvəsinə olan tələbatı ödənilir. Lakin bu zaman müəyyən mütənasibliklər: ümumi əhali ilə əmək ehtiyatları arasında maddi istehsal xidmət sahələri kənd təsərrüfatı arasında və s. mütənasibliklər gözlənilməlidir.



downloaded from KitabYurdu.az

[35]Cədvəl 68.

Respublikada ümumi əhali və əmək ehtiyatlarının artım sürəti.

| | 2000 | 2001 | 2002 | 2003 |
|---|---|---|---|---|
| Əhalinin sayı, min nəfər | 8081,0 | 8141,4 | 8202,5 | 8266,7 |
| Artım % | 100,0 | 100,7 | 101,5 | 102,3 |
| İqtisadiyyatda çalışanlar, min nəfər | 3704,5 | 3715,0 | 3726,5 | 3747,0 |
| Artım % | 100,0 | 100,3 | 100,3 | 101,2 |

Göründüyü kimi respublikada ümumi əhalinin sayı artmağa doğru meylli olsa da, iqtisadiyyatda çalışanların sayı daha sabit vəziyyətdədir.

Burada bir fikri də qeyd etmək lazımdır ki, 2000-ci ilə nisbətən 2003-cü ildə əhalinin mütləq artımı 185,2 min nəfər olmuşdursa, iqtisadiyyatda işləyənlərin artımı 45,0 min nəfər olmuşdur.

Əgər iqtisadiyyatda məşğul olanlar ümumi əhalinin təxminən 50%-ə qədərini təşkil edirsə, deməli müqayisə olunan dövrlərdə əhali artımı ilə işləyənlərin artımı arasında da nisbətə yaxın göstərici olmalı idi.

[35] Az. St. rəq. 2004 səh 95-100



downloaded from KitabYurdu.az

## *3. ƏMƏK MÜNASİBƏTLƏRİNİN DÖVLƏT TƏNZİMLƏNMƏSİ.*

İşçi qüvvəsinin bazarının daxili tənzimləyicilərinin çoxluğu nəticəçində və habelə onun effektli fəaliyyətinin sosial vacibliyini nəzərə alaraq əmək bazarının səriştəli idarə olunması və tənzimlənməsi zəruriliyi meydana çıxır. Belə qənaətə gəlmək mümkündür ki, məşğulluğun səriştəli tənzimlənməsi islahatın mühüm vəzifəsinə çevrilmişdir. Qeyd etmək lazımdır ki, bazar iqtisadiyyatına keçən Azərbaycan Respublikasında bu sahədə müəyyən işlər görülmüş və görülməkdədir.

Belə ki, respublikada məşğulluq haqqında qərar qəbul edilmiş, respublikanın Konstitusiyasında hər bir şəxsin əmək hüququ təsbit edilmiş, əmək birjalarının yaradılmasına başlanılmış, işsizlərin qeydiyyatı komitəsi yaradılmışdır. Bütün bunların hamısı başlanğıcdır.

Azərbaycan Respublikası bazar iqtisadiyyatına keçid prosesində çoxlu maneələrlə qarşılaşır, mürəkkəb sosial məsələləri həll etməlidir. Buna görə də əmək bazarının tənzim olunmasında təcrübəsi olan ölkələrin metodikalarından istifadə olunması və ya onlara nəzər salınması məqsədəuyğundur.

Əmək münasibətlərinin dövlət tənzimlənməsinin dörd istiqamətinə fikir verilməlidir.

1. Dövlət sektorunda iş yerlərinin artırılması və məşğulluğun artımının stimullaşdırılması proqramı.



downloaded from KitabYurdu.az

2. İşçi qüvvəsinin hazırlanması və yenidən ixtisasnının dəyişdirilməsi proqramı.

3. İşçi qüvvəsinin icarəyə götürülməsinə şərait yaradılması proqramı.

4. İşsizlərin sosial sığortası proqramı.

Məsələn. Bu proqramlar çərçivəsində ABŞ-da müharibədən sonrakı dövrlərdə dövlət sektorunda ictimai xidmət sahələrində iş yerləri çoxaldılmağa başlanıldı (təhsil, səhiyyə xidməti, kommunal təsərrüfatında və s.). Nəticədə 70-ci illərdə işsizlik səviyyəsi 0,8%-ə enmişdir.

İşçi qüvvəsinin icarə edilməsi üzrə ABŞ-da 2500 qədər məntəqə vardır. Onlar işsizləri qeydə alaraq onları işlə təmin etməyə çalışırlar.

Azərbaycan Respublikasında rəsmi və ya qeyri-rəsmi formada 1 mln. 200 min qaçqın vardır ki, onların da çoxu təbiidir ki, işsizdir. Onlardan 1994-cü ilə cəmisi 23592 nəfəri qeydiyyatdan keçmiş, işsizliyə görə müavinət alanları 3491 nəfər olmuşdur. Bu göstəricilər 2003-cü ildə isə uyğun olaraq 29983 nəfər olmuşdur.

Əmək bazarında dövlət fəaliyyətinin konseptual əsası uzun illər aktiv dövlət siyasətinə söykənmişdir. Əmək münasibətlərinə dövlət müdaxiləsinin məhdudlaşdırılması konsepsiyası vardır. Bunun özü də işsizliyin təbii və könüllü olması ideyası ilə (monetarist fikir) əlaqələndirilirdi. Bu konsepsiyaya dayanaraq ABŞ dövləti 80-ci illərdə əmək resursu sahəsində federal xərcləri azalmışdır.



downloaded from KitabYurdu.az

Bazar iqtisadiyyatında fəaliyyət göstərən əmək münasibətlərinin tənzimlənməsinin əsasını işsizlik və əmək haqqı arasındakı asılılıq təşkil edir. Burada söhbət Filipps əyrisindən gedir. Həmin əyri işsizlik və əmək haqqı arasında qeyri-xətti asılılıq olduğunu göstərir. Fillips (1861 -1958) ingilis amilidr.

İşsizlik, inflyasiya, qiymət və məhsulun real həcminin asılılığını əks etdirən Fillips əyrisinin qrafiki aşağıdakı kimidir.

Şəkil 31.




Məhsulun real həcmi

Fərz edək ki, müəyyən vaxt ərzində məcmu tələb AD-dan $AD_1$-ə qədər genişlənmişdir. Bu məcmu tələb hər hansı bir qeyri-



downloaded from KitabYurdu.az

qiymət amili nfəticəsində baş verə bilər. Məsələn, sahibkarlar çox miqdarda investision məhsulu ala bilərlər və ya dövlət ictimai məhsulu çoxaltmaq üçün öz xərclərini artıra bilər. Hansı səbəb olursa olsun biz məhsulun həcminin $Q_0$-dan $Q_1$-ə qədər artdığını və qiymətin $P_0$-dan $P_1$-ə qədər yüksəldiyini görürük.

İndi isə fərz edək ki, məcmu tələb daha çox kəmiyyətə qədər artmışdır. $AD_0$-dan $AD_3$-ə qədər artmışdır.

Yəni tarazlıq nöqtəsi inflyasiya və məhsulun real həcminin yüksək olduğu halda mümkün olacaqdır. Həm də məhsulun real həcmi yüksəkdirsə, deməli işsizlik səviyyəsi aşağı olmalıdır.

Analoji olaraq fərz edək ki, həmin ildə məcmu tələb faktiki olaraq $AD_0$-dan $AD_1$-ə qədər artıb. Bu zaman $AD_0$-$AD_3$ mövqeyinə nəzərən $AD_0$-$AD_1$ mövqeyində inflyasiya və məhsulun real həcmi aşağıdır, deməli işsizlik yüksəkdir.

Sadəcə olaraq qeyd etmək olar ki, inflyasiyanın yüksək artım sürəti işsizliyin aşağı səviyyəsi ilə müşayiət olunmalıdır. Bu Fillips əyrisi adlanır.

Azad rəqabət bazarında ayrı-ayrı işçi öz əməyini satdığı kimi, müəyyən işçi qrupu, kollektiv öz əməyini sata bilər. Belə halda işçi qrupunu, kollektivini təmsil edən azad Həmkarlar təşkilatları yaradılır və fəaliyyət göstərirlər. Həmkarlar təşkilatlarının daha iri işçi kollektivi adından icarəçilərlə əmək müqavilələri bağlayırlar.

Həmkarlar təşkilatları bir neçə məqsədə xidmət etsələr də, onun əsas məqsədi əmək haqqının yüksəltmək uğrunda mübarizə aparmaqdır. Buna o, müəyyən yollarla nail ola bilər.



downloaded from KitabYurdu.az

Həmkarların fikrincə əmək haqqının artırılmasının arzu olunan yollarından biri əməyə tələbatın artırılmasıdır. Belə ki, əməyə tələbatın artması əmək haqqı stavkasının artması ilə yanaşı, iş yerlərinin də artmasına səbəb olur.

Bu aşağıdakı qrafikdə əyani surətdə əks etdirilir.

Şəkil 32.




Əgər həmkarlar əmək tələbatını $D_1$-dən $D_2$ qədər yüksəldə bilsələr, bu zaman əmək haqqı səviyyəsi $W_s$-dən $W_n$ –ə qədər. İş yerləri isə $Q_s$-dən $Q_n$-ə qədər yüksələ bilər.



downloaded from KitabYurdu.az

Bu zaman istehsal olunan məhsula və ya xidmətə tələbatı, əmək məhsuldarlığını, qiymət və ya digər istehsal amillərinin yüksəlməsi halları baş verə bilər.

Bunlara ayrılıqda nəzər salaq. Həmkarlar təşkilatı istehsal olunan məhsul və xidmətlərə tələbatı, onu təbliğ etməklə, siyasi lobbi fəaliyyəti vasitəsilə artıra bilərlər. Mətbuatda, televizorda çıxış edərək, məhsul və xidmətlərin parametrlərini, keyfiyyətini, müddətliliyini, zəmanətliyini təbliğ edir, onun üzərində «Həmkarlar nişanı» qoyurlar.

Əmək məhsuldarlığının yüksəldilməsi ümumbəşəri xüsusiyyətə malikdir. Çünki işəmuzd sistemində əmək məhsuldarlığının yüksəldilməsi birbaşa əmək haqqının yüksəldilməsinə səbəb olur.

Resurs əvəzedicisinə qiymətlərin yüksəldilməsi vasitəsilə həmkarlar əməyə tələbatı yüksəldə bilərlər.

Qapalı və ya sex tred-yunionizmi vasitəsilə həmkarlar əmək haqqı səviyyəsini yüksəldə bilərlər. Bunun üçün Həmkarlar əmək təklifini azaldırlar. Əmək təklifinin azaldılmasının hüquqi əsası:

a) immiqrasiyanın məhdudlaşdırılması.

b) uşaq əməyinin azaldılması

v) mütləq təqaüdə gedilməsinin dəstəklənməsi.

q) iş həftəsinin qısaldılması ola bilər.

Bu məqsəd üçün daha sərfəli olanı bir qrup ixtisaslı fəhlələr Həmkarlar vasitəsilə öz sayını azaltmaqdır. Daha doğrusu, sex



downloaded from KitabYurdu.az

həmkarları bir qrup yüksək ixtisaslı fəhlələrlə inhisar əldə saxlayırlar və icarədarları əmək haqqı səviyyəsini yüksəltməyə məcbur edirlər.

Şəkil 33.




Əmək təklifini $S_1$-dən $S_2$-yə azaldaraq həmkarlar əmək haqqını $W_s$- $W_n$-ə qədər yüksəltməyə nail olurlar. Bu zaman muzdla tutulan fəhlələrin sayı $Q_s$-dən $Q_n$-ə qədər azalmış olur.

Həmkarlar təşkilatları ixtisasın lisenziyalaşdırılması yolu ilə də əmək təklifini azalda bilərlər. Məsələn, Həmkarlar təşkilatları bələdiyyə idarələri vasitəsilə qanun qəbul etdirə bilərlər ki, hər bir ixtisas sahibinə müəyyən tələbləri ödəmək qabiliyyəti haqqında lisenziya versin. Daha doğrusu, hər bir nəfərin iş qabiliyyəti qanunlaşdırılmalıdır ki, hər kəs bacardığı işlə məşğul olsun.



downloaded from KitabYurdu.az

Beləliklə, bazar iqtisadiyyatı şəraitində ölkədə əmək bazarının formalaşdırılmasının inkişafı mexanizmlərindən istifadə zərurətə çevrilir.



downloaded from KitabYurdu.az

## *FƏSİL XXV. MƏŞĞULLUQ SİYASƏTİ, MAHİYYƏTİ, SOSİAL-İQTİSADİ FUNKSİYASI.*

### *1. MƏŞĞULLUĞUN SOSİAL-İQTİSADİ MAHİYYƏTİ.*

Məşğulluq anlayışı mürəkkəb və çoxcəhətlidir. Bu anlayış özündə faydalı əmək fəaliyyətini, tədris, iş, sənətkarlıq, dayəçilik, hərbi xidmət və s. əhatə edir. Müasir dövrdə məşğulluq sosial-iqtisadi siyasətin tərkib hissəsi kimi çıxış edir və bu ölkənin əmək qanunçuluğunda təsbit olunmuşdur. Həmin qanunlar bunlardır. Əmək qanunu məcəlləsi 10.XII.1971, 22.VII.1992-ci il, Əhalinin məşğulluğu haqqında qanun 27.VI.1991-ci il, Əməyin mühafizəsi haqqında qanun 29.XI.1992-ci il, Məzuniyyət haqqında qanun 2.VII. 2001-ci il. Həmin qanunlarda vətəndaşların bu və ya digər növ əmək məşğuliyyəti müəyyən edilmişdir. Belə əmək növlərinin məcmusu məşğulluğun sosial-iqtisadi strukturunu əks etdirir və aşağıdakılardan ibarətdir:

- muzdla işləyənlər
- sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar
- əmək qabiliyyətini itirmişlər, məzuniyyət, ixtisası artırmaq
- sərbəst fəaliyyətlə məşğul olanlar
- vəzifələrə seçilənlər və təyin olunanlar
- hərbi xidmətdə və digər hərbi işdə olanlar
- təhsil alanlar



downloaded from KitabYurdu.az

Məşğulluğun mürəkkəbliyi və çoxcəhətliliyi nəzərə alınaraq onların fəaliyyətləri müəyyən əlamətlərə görə qruplaşdırılır ki, buna da aid etmək olar:

1. İqtisadiyyatda çalışanlar. Onlar cəmiyyətin sərvətinin əsasını yaradırlar. Onların fəaliyyəti nəticəsində alınan vəsait digər sahələrin inkişafına səbəb olur.

2. Hərbi xidmətdə olanlar. Onların əməyi pulla ödənilməsə də, mühüm funksiyanı, ölkənin müdafiəsini təmin edirlər.

3. İstehsaldan ayrılmaqla təhsil alanlar. Bunlar təbii itkinin yerini doldurmaq üçün ehtiyat iş qüvvəsidir.

Sərbəst SSRİ məkanından ayrılaraq ayrı siyasi-iqtisadi suverenlik əldə etmiş respublikalar, bazar iqtisadiyyatına keçid mərhələsində məşğulluğun formalaşmasının yeni prinsiplərinin yaradılması zərurətində qalmışlar. Həmin prinsiplər bunlardır:

1. Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunmuş əmək sərbəstliyi və azadlığı.

2. Vətəndaşların əmək hüquqlarının pozulmamasına, onun sərbəst fəaliyyət növünü seçməsinə dövlətin şərait yaratması.

3. Milli maraqların hərtərəfli nəzərə alınması.

4. İş qüvvəsinə tələbatın sahə, regional və milli-etnik xüsusiyyətlərinin nəzərə alınması.

5. Məşğulluq probleminə kompleks yanaşılma.



downloaded from KitabYurdu.az

## 2. *İŞSİZLİK VƏ «TAM MƏŞĞULİYYƏT» ANLAYIŞI*.

Əmək ehtiyatlarından səmərəli istifadə olunması işçi qüvvəsinin məşğuliyyətini əhatə edir. Dövlətin bu sahədəki tənzimləmə siyasəti «tam məşğuliyyətin» təmin olunmasıdır.

«Tam məşğuliyyət» anlayışı mücərrəd xarakter daşıyır. Mütləq «tam məşğuliyyət»in təmin olunması mümkün deyildir. İşsizliyin müəyyən səviyyəsi normal hal sayılır. Müasir bazar münasibətləri şəraitində işsizliyin müəyyən tipləri mövcuddur.

1. Friksion işsizlik.
2. Struktur işsizliyi
3. Mövsümi (dövri) işsizlik.

Friksion işsizlik o adamları əhatə edir ki, onlar iş gözləyirlər, iş yerlərini dəyişirlər, iş axtarırlar. Daha doğrusu «iş arasında» qalırlar. Onldar ümumi işsizlik fondunda bir-birini əvəz edirlər.

Struktur işsizliyi friksion işsizliyin davamıdır. O, istehlak tələbinin artması ilə əlaqədardır. İstehlak tələbinin artması, yeni məhsula tələbat doğurur. Bu isə istehsal texnologiyasının dəyişilməsini və yeniləşməsini tələb edir. Bu da potensial mütəxəssislərə tələbat doğurur. Deməli. Struktur işsizliyi o adamları əhatə edir ki, onlar yeni ixtisas alırlar, ixtisaslarını dəyişirlər.

Dövri (mövsümi) işsizlik iqtisadi böhranlarla əlaqədardır. Lakin iqtisadiyyatın elə sahələri vardır ki, (məs. Aqrar bölmə) orada mövsümi işsizlik təbiidir. Bunu aşağıdakı qrafikdən görmək olar. İqtisadi böhran tsiklinin aşağı düşməsində işsizlər ordusu artır. Pik dövründə işsizlik azalır.



downloaded from KitabYurdu.az

Aşağıdakı qrafikə nəzər salaq.

Şəkitl 34.




«Tam məşğuliyyət»in təmin olunması heç də işsizliyin ləğv edilməsi demək deyildir. İqtisadçılar müasir bazar iqtisadiyyatı şəraitində friksion və struktur işsizliyini mütləq sayırlar. «Tam məşğuliyyət» göstəricisi 100 faiz olan iş qüvvəsindən az olur.

İşsizlik həcmi friksion işsizliklə struktur işsizliyin cəmindən ibarətdir.

İşsizlik səviyyəsi isə işsizlərin işçi qüvvəsinə olan nisbəti ilə ölçülür.

$$U_s = \frac{F + Q}{U_q} \cdot 100$$

burada $U_s$ – işsizlik səviyyəsini



downloaded from KitabYurdu.az

F- frikison işsizliyi

Q – struktur işsizliyini

$U_q$ – işçi qüvvəsini göstərir.

Normal işsizlik səviyyəsindən artıq olan işsizlik ümumi milli məhsulun azalmasına səbəb olur. Məsələn, ingilis alimi Huken hesablamışdır ki, işsizliyin 1% artımı milli məhsulun 2,5% aşağı düşməsinə səbəb olur.

Məsələn, təbii işsizlik norması 6,5% nəzərdə tutulubsa, faktiki işsizlik 9% olarsa, bu zaman ÜMM 7,5% (9 – 6,5 x 2,5) azalmış olacaqdır.

Şəkil 35




İşsizliyin səviyyəsinin süni surətdə aşağı salınması, dövlətin düz olmayan siyasətinin nəticəsidir. Bu onun nəyin bahasına olursa, olsun, «tam məşğuliyyətinin təmin olunması siyasətidir.»



downloaded from KitabYurdu.az

Makroiqtisadi mexanizmin tətbiqi ilə dövlət əmək bazarının təbii inkişafını nəzərə almır və bazar prosesinə müdaxilənin həddini keçir. Aydındır ki, dövlətin mühüm vəzifəsi işləmək istəyə bir kəsi işlə təmin etməkdir. Lakin. Bu heç də hamının zəmanətli iş yerinin olması ilə eynilik deyildir.

Müasir bazar təsərrüfatında məşğuliyyət o vaxt «tam» olur ki, işsizlik təbii səviyyəyə yaxındır və o, heç bir zaman sıfır ola bilməz.

Məşğuliyyət siyasətinin müxtəlif variantları artıq bizə məlumdur. Məsələn, qısa müddətli pul tənzimləmə prosesi. Dövlət ağır inflyasiya şəraitini nəzərə almadan faiz stavkasını azaltmaq yolu ilə istehsalı genişləndirməyə və bununla da işsizliyi azaltmağa çalışması. Əgər dövlət bu formada hərəkət edirsə resurslardan, o cümlədən, əmək resurslarından istifadə səviyyəsi yüksək ola bilər. Lakin bu qısa müddətli haldır. Bu halda inflyasiya tələbi ehtimalı vardır və onun uzunmüddətli nəticəsi daha ciddidir.



downloaded from KitabYurdu.az

Aşağıdakı qrafikə diqqət yetirək:




Şəkil 36.

P – qiymətin cari artım tempi

$U_1$ – işsizlik səviyyəsi

$U_n$ – işsizliyi n təbii norması

Tutaq ki, ilkin iqtisadi situasiya $E_1$ nöqtəsi ilə səciyyələnir, ona $P_1$ inflyasiya sürəti və $U_1$ – işsizlik səviyyəsi xasdır. Göründüyü kimi işsizlik təbii normadan, $U_n$ –dən artıqdır və görünür bu məcburi haldır. İqtisadiyyatın bu vəziyyətində dövlətin müdaxiləsi zəruridir və ona bəraət qazandırmaq olar.

Makroiqtisadi mexanizmləri işə s alaraq dövlət işsizlik səviyyəsini təbii normaya ($U_n$-ə qədər) endirir. Bu isə inflyasiya sürətini $P_2$-yə qaldırmış olur. Deməli $E_2$ nöqtəsində işsizliyin təbii səviyyəsinə nail olunur. Bu o deməkdir ki, bu nöqtədə dövlətin işsizliyin makrotənzimləmə mexanizmini tamamilə dayandırmalı,



downloaded from KitabYurdu.az

onun $U_n$ sərhədləri daxilində hərəkətinə imkan verməli və bu çərçivədə tənzimini təshih etməlidir.

Məsələn ( vakansiyalar) boş iş yerləri haqqında informasiyaları təkmilləşdirə bilər, ixtisasın dəyişdirilməsi, min əmək haqqı və s. Əsas vəzifəsi qiymət artımını $P_2$ səviyyəsində saxlamaqdır. Buna isə düzgün pul siyasəti və antiinflyasiya vasitələri ilə nail olunur.

Lakin dövlət başqa yolla da gedə bilər. O, pul təklifini artıraraq, investisiyaları genişləndirərək, dotasiya verərək, işsizliyi $U_3$ səviyyəsinə endirə bilər. Qısa müddətdə işsizliyin aşağı düşməsi inflyasiya sürətinin $P_3$-ə qədər qalxması ilə müşayiət olunacaqdır. Bu isə inflyasiya tələbidir. Bu zaman iqtisadiyyatın $E_2$ – vəziyyətindən $E_3$- vəziyyətinə keçməsi müddəti iki amildən asılıdır.

Birincisi – əmək müqaviləsinin fəaliyyət müddəti. Əgər müqavilədə qiymətin yüksəlməsi halında əmək haqqında dəyişikliklər edilməsi nəzərdə tutulmamışdır sa, bu zaman işçi inflyasiya ilə əlaqədar olaraq real gəlirinin aşağı düşməsi ilə razılaşmağa məcburdur. Müqavilə müddəti qurtardıqdan sonra yenisi bağlanarkən bu nəzərə alınaraq əmək bazarında münasibətin dəyişməsinə və bununla da iqtisadiyyatın $E_3$ nöqtəsindən $E_4$ nöqtəsinə hərəkəti baş verəcək, yəni işsizliyin təbii norması bərpa olunacaqdır.

İkinci amil – işləyənlərin inflyasiya gözləməsidir. Bunun əsasında qiymətin $P_2$ səviyyəsi ilə səciyyələnən təcrübəsi durur. İşləyən hər bir kəs müəyyən müddətə real gəlirinin aşağı düşməsi ilə ravə vəziyyətin yaxşılaşacağını gözləyir. Buna görə də iqtisadiyyatın



downloaded from KitabYurdu.az

$E_2$ –dən $E_3$-ə hərəkəti zamanı nominal əmək haqqı artmır. Əməyin effektivliyinin artması şəraitində xərclər azalır, gəlir, investisiya və məşğuliyyət artır.

$E_3$ – nöqtəsindəki iqtisadi situasiya adaptiv gözləməsi əsasında köklənmişdir. Artıq işçilər prosesinin stabilləşməsi haqqındakı illüziyadan ayrılırlar və onlar görürlər ki, inflyasiya onların real gəlirlərini azaltmışdır. Onlar müəyyən vasitələrlə (məsələn, Həmkarlar İttifaqı vasitəsilə nominal əmək haqqının nail olunmuş yeni səviyyəsi qeyri-bazar mənşəli olub, dövlətin fəaliyyəti ilə əlaqədardır və buna görə də əmək bazarının tarazlığı pozulmuş olur. İşçi qüvvəsi sahibləri qiymətin yüksək olmasına görə məhsullarını əvvəlki qiymətə sata bilmirlər, işsizliyin artması başlayır, beləliklə iqtisadiyyat $E_4$ – nöqtəsinə doğru hərəkət edir, tarazlıq təmin olunmuş olur, lakin inflyasiyanın yüksək sürəti $P_3$ qalır.

İqtisadi şəraitin $E_4$ – nöqtəsində olması göstərdi ki, dövlətin belə hərəkəti inflyasiyanın güclənməsinə və qısa müddətə işsizliyin azalmasına, onun $P_1$ –dən $P_3$-ə hərəkətinə səbəb oldu və sonradan hərəkət $E_4$ – doğru olub tarazlıq yarandı. İndi uzunmüddətli perspektivə nəzər salaq. Bu zaman görürük ki, iqtisadiyyat $E_3$ vəziyyətinə keçmişdir. Beləliklə, SS staqfalyasiya əyrisi ilə hüdudlanmış, $E_3$ $E_5$ sahəsi əmələ gəlmişdir ki, bu da iqtisadiyyatın ən pis halıdır. Staqfilyasiya – işsizlik və inflyasiyanın birlikdə artmasçı deməkdir.

İqtisadiyyat $E_5$ vəziyyətinə düşən kimi yenə də adaptiv inflyasiyası gözləməsi fəaliyyətə başlayaraq əhalinin real gəlirinin



downloaded from KitabYurdu.az

artımı başlayır. Bazar mexanizmi fəaliyyətə düşür və hərəkət $E_6$-da doğru istiqamətlənmişdir. Yenidən $İ_p$ təbii işsizlik norması tarazlığına nail olunur. Daha sonra iqtisadiyyat $E_7$ nöqtəsinə, $E_8$ nöqtəsinə hərəkət edir və s. bu proses dəfələrlə təkrar oluna bilər.

Lakin burada bir məsələni müşayiət etmək olar. Yəni SS staqfilyasiya ilə hüdudlanan $E_3$ $E_5$ sahəsi, $E_5$ $E_7$ sahəsi get-gedə kiçilir, dövlət siyasətinin effektivliyini əks etdirən $E_3$, $E_4$, $E_5$ $E_6$ və $E_7$ $E_8$ xətləri qısalır. Deməli, dövlət siyasətindən asılı olmayaraq, bazar iqtisadiyyatı uzun müddətli tarazlığa aparır.

Əməyə tələbatı səviyyəsinin müəyyən edilməsində tələb və təklif modelindən də istifadə olunur.

Xalis rəqabətli əmək bazarı aşağıdakı xüsusiyyətləri ilə səciyyələnir:

1. Konkret növ əməyin işə cəlb edilməsində çoxlu firmalar rəqabət aparır.
2. Çoxlu sayda ixtisaslı və yarımixtisaslı fəhlə bir-birindən asılı olmayaraq öz əməklərini təklif edirlər.
3. Nə firma, nə də işçi əmək haqqı stavkasını diktə etmirlər.

Fərz edək ki, 200 firmanın konkret əməyə tələbatı vardır. Ümumi bazar tələbatı tələb əyrisi üzrə hesablanacaq.

Qrafiki olaraq bunu belə əks etdirmək olar.



downloaded from KitabYurdu.az

Şəkil 37.




b- bazar tarazlığı

Şəkil 38






downloaded from KitabYurdu.az

Əmək həcmi

D – firma üzrə

Rəqabətli əmək bazarında tarazlı əmək haqqı $W_s$ cəlb olunan işçilərin sayı $Q_{st}$ təklif olunan SS və əməyə tələbatı D ilə müəyyən olunur.

### *3. ƏMƏK HAQQI SAHƏSİNDƏ DÖVLƏT SİYASƏTİ*.

Dövlətin səmərəli və düzgün əmək haqqı siyasəti olmadan iqtisadiyyatı istənilən tərzdə inkişaf etdirmək qeyri mümkündür. Odur ki, dövlət ardıcıl olaraq əmək haqqı siyasətinə ciddi fikir verir.

Əmək haqqı əməkdən istifadənin qiymətidir. O, əməkdən istifadənin saat, gün, həftə ərzində əməkdən istifadənin pulla ifadəsidir.

Real əmək haqqı – nominala alına biləcək istehlak məhsulunun həcmini ifadə edir. O, nominal əmək haqqının alıcılıq qabiliyyətini əks etdirir.

Əmək haqqı diferensiyallaşma təmayülünə malik olmalıdır. Onun səviyyəsi ölkə, region, fəaliyyət gövünə görə fərqləndirilməlidir.



downloaded from KitabYurdu.az

Ümumi və ya orta əmək haqqı göstəricisi mücərrəd xarakter daşısa da, o, ölkə, region və s. üzrə əmək haqqının müəyyən edilməsinin başlanğıc momentidir.

Əmək haqqının səviyyəsi əmək məhsuldarlığından asılıdır. Onların arasındakı asılılıq birinin artımının digərini artımına yaxınlaşmasındadır.

Mövcud əmək haqqı stavkası ayrı-ayrı firmalara məxsus olduğu üçün, bazardan cəlb olunan işçinin əmək təklifi elastiki xarakter daşıyır. Firma üçün cəlb olunan əmək MRP = MRC nöqtəsində effektli olacaqdır. Bu zaman firmanın ümumi gəliri $Q_{abds}$ olacaqdır ki, onun $QW_c$ $bğ_c$ hissəsi əmək haqqı xərcini $W_cabw_c$ hissəsi isə qeyri xərcləri göstərəcəkdir.

MRP hər növbəti cəlb olunan işçinin firmaya verdiyi gəlir.

MRC resurslara xərcin ən kənar həddini göstərir.

Beləliklə, bazar iqtisadiyyatı şəraitində əmək haqqının iki formasından – dövlət stavkasından və xüsusi bölmədən əmək haqqının muzdlu formasından istifadə olunur. Lakin hər iki halda əhalinin maddi rifah halının getdikcə yüksəldilməsi nominal və real əmək haqlarının və qiymət səviyyəsindən asılıdır.



downloaded from KitabYurdu.az

## *4. DÖVLƏT GƏLİRLƏRİ VƏ ƏMƏK HAQQININ TƏNZİMLƏNMƏSİ.*

Dövlətin əmək haqqı siyasətinin həyata keçirilməsində büdcənin gəlirləri və xərclər bölməsinin optimal balanslaşdırılmış tənzimlənməsi ən mühüm problemlərdəndir.

Gəlirlərin bölüşdürülməsi probleminə iki qarşılıqlı yanaşma formasında baxılır.

Funksional bölgü cəmiyyətin gəlirlərinin əmək haqqından, renta, faiz və mənfəət formasında bölgüsünü əhatə edir ki, bu əhalinin ilk gəlirlərini təşkil edir.

Gəlirlərin bölüşdürülməsinin qeyri-bərabərliyi müxtəlif səbəblərdən də ola bilər ki, bunlara da aiddir.

- qabiliyyətin, bacarığın müxtəlifliyi
- təhsil səviyyəsi
- peşəkarlığı, vərdiş, risk
- mülkiyyətə mənsubluğu
- bazarda hakim mövqe
- uğur qazanma.

Bütün bu səbəblər bazar münasibətlərinə qədəm qoymuş ölkələrdə mövcud ola bilər.ö dövlətin gəlirlər siyasətində əsas istiqamət əhali gəlirlərini artırmaq və onun ədalətli bölgüsü üçün şərait yaratmaqdır.

Əhali gəlirlərinin artması tələbin formalaşmasına təsir göstərir. Çünki, gəlir çoxaldıqca tələb də artır. Lakin hər hansı bazarda



downloaded from KitabYurdu.az

alıcının hərəkətini izah edən universal bir əyri yoxdur. Çünki, şəxsi bölgü cəmiyyətin gəlirlərinin ev təsərrüfatları arasında bölgüsüdür ki, bu gəlirlərin yenidən bölgüsünü formalaşdırır.

Lakin qeyd etmək lazımdır ki, iqtisadi fəaliyyətin müxtəlifliyi əmək məhsuldarlığının və iş şəraitinin fərqliliyi gəlirlərin bərabər bölgüsünü inkar edir. Belə vəziyyətdə əhalinin müəyyən hissəsi çox, digəri isə az gəlirə malik olacaqdır. Gəlirlərin bölgü səviyyəsini müəyyən etmək üçün Lorens əyrisindən istiafadə olunur. Lorens əyrisi müəyyən dövrlərdə əhali qrupları arasında gəlirin bölüşdürülməsinin müqayisəsi üçün imkan verir.

Şəkil 39.




Bölgünü bərabər həyata keçirən düz xətt (dessektrisa – kvadratı tən yarıya bölür).



downloaded from KitabYurdu.az

Əgər OEA düz xətti 100% gəliri, 100% əhali arasında bölgüsünü əks etdirirsə, OE nöqtəsi 50% gəliri 50% əhali arasında bölgüsünü göstərir.

Lakin bazar iqtisadiyyatı bərabər bölgünün əleyhinədir. Əhalinin bir hissəsi çox, digcər az gəlir əldə edə bilər. Deməli, onda gəlirin real bölgüsü OFA əyrisi ilə hüdudlanır ki, buna Lorens əyrisi deyilir.

Əgər OEA düz xətti ilə OFA əyrisi arasındakı sahəni müəyyən edərək onu OAV üçbucağının sahəsinə bölsək, bu zaman Cini əmsalını tapa bilərik.

Bazar ərzaq və sənaye məhsulları bazarından ibarətdir. Ərzaq məhsullarına tələbat əyrisi aşağıdakı kmi göstərilə bilər.




Şəkil 40.

Gəlir Oy arasında olarkən ərzaq məhsuluna tələbat əyrisi B – doğru hərəkət edir. BC arasında gəlirin $у_б$ –$у_с$ artmasına baxmayaraq tələbat sabitləşir.



downloaded from KitabYurdu.az

Çünki, artıq o, elə belə, tələbatı ödəyən ərzaq yox, keyfiyyətli ərzaq axtarır. CD sahəsində əhali keyfiyyətsiz məhsula tələbatı azaldaraq daha ekoloji təmiz məhsul axtarır.

Sənaye məhsuluna tələbat əyrisi aşağıdakı kimi təsvir oluna bilər.

Şəkil 41.




Gəlirin artması sənaye məhsuluna tələbatı E nöqtəsinə qədər artırır. EF arasında sənaye məhsuluna tələb sabitləşir. Yenə də alıcı yüksək keyfiyyətli məhsul axtarır.

F nöqtəsindən yuxarı demək olar ki, üçüncü qrup məhsul tələbat xarakterizə olunur. Bütün bu hesablamalar ailə büdcəsi əsasında aparılır.

Beləliklə, əhalinin gəliri artıdqca o, aşağı keyfiyyətli məhsullara daha az vəsait xərc edir. Bk Engel qanunu kimi izah olunur.

İqtisadi inkişafın mühüm prinsiplərindən hər bir kəsin əməyinə görə onun istehlak tələbinin ödənilməsidir. Bu o deməkdir ki, ictimai istehsalda çalışan və maddi nemətlər yaradan hər bir şəxs öz əməyinin müqabilində ictimai məhsuldan az pay almalıdır. Həmin



downloaded from KitabYurdu.az

məhsulun dəyəri onun əmək haqqı formasında çıxış edir. Bazar münasibətləri şəraitində əmək haqqının dörd əsas funksiyasını fərqləndirmək olar.

- təkrar istehsal funksiyası iş qüvvəsini bərpa etmək üçün imkan və şərait yaradır;
- stimullaşdırıcı funksiyası istehsalın inkişaf etdirilməsi istiqamətində marağını artırır;
- sosial funksiyası sosial ədalət prinsipinin reallaşdırılmasına imkanı artırır;
- istehsal-hesabat funksiyası ictimai istehsalda iştirakı səviyyəsini müəyyən edir.

Beləliklə, əmək haqqı çoxfunksiyalıdır və həmin funksiyaların hamısı dialektiki vəhdətdə əmək haqqının mahiyyətinin dərk edilməsinə imkan verir.

Keçmiş ittifaq dövründən miras qalmış əmək haqqının ödənilməsi sistemi, xüsusilə büdcə təşkilatlarında, bazar münasibətlərinin tələbatı ilə uzlaşmır. Belə ki, elm təhsil səhiyyə sahələrində çalışan işçilərin əmək haqqı əsaslı surətdə təkmilləşdirməyi tələb edir. Bizə belə gəlir ki, təhsil işçilərinin əmək haqqı sistemi elə qurulmalıdır ki, o hər bir işçidə ciddi marağa səbəb olsun. Bunun üçün ümumi təhsil məktəblərindən tutmuş, elm təhsil ocaqlarınadək ciddi attestasiya keçirilməsi əsasında birinci, ikinci və üçüncü kateqoriyalar müəyyənləşdirilməli və əmək haqqı uyğun kateqoriyalara görə fərqləndirilməlidir.



downloaded from KitabYurdu.az

Məlumdur ki, ümumi təhsil məktəblərində iş stajından asılı olaraq bir oklad tədris yükünə, ali məktəblərdə isə professor və dosentlərə əmək haqqı fərqləndirilmədən eyni səviyyədə qəbul edilmişdir ki, bu da müasir bazar iqtisadiyyatına cavab verə bilməz. Xarici ölkələrdə təhsil işçilərinin əmək haqqı kateqoriyalardan asılı olaraq kəskin surətdə fərqləndirilir. Hətta belə hər bir xarici ölkədə universitetlərdən asılı olaraq müəllimlərin əmək haqqı fərqləndirilir.

Məhz buna görə də ən mühüm elmi ixtiralar da universitetlərdə əldə edilir. Belə ki, xarici ölkələrdə təhsil sistemi elmi tədqiqat axtarış işləri, qarşılıqlı vəhdət halında birləşdirilmişdir. Daha doğrusu xarici ölkələrin hər bir universitetlərində elmi-tədqiqat institutları, laboratoriyaları təşkil edilərək elmlə təhsilin vəhdətliyi təmin edilmişdir ki, bu da gənc mütəxəssislərin hərtərəfli inkişafına müsbət təsir göstərir.



downloaded from KitabYurdu.az

# BÖLMƏ VI MİLLİ VƏ İQTİSADİ TƏHLÜKƏSİZLİYİNİN TƏNZİMLƏNMƏSİ

## FƏSİL XXVI. MİLLİ İQTİSADİYYATIN TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASINDA DÖVLƏT SİYASƏTİ.

### 1. TƏHLÜKƏSİZLİK ANLAYIŞI VƏ MAHİYYƏTİ

« Təhlükəsizlik» anlayışında istifadə olunması tarixi XII-əsrdən başlanmışdır. ( Rober sözlüyündə 1190 il). Bu pşlayış insanların bütün təhlükədən ruhən müdafiə olunmasını ifadə edirdi. LakinXVII-əsrə qədər bir o qədərdə geniş yayılmamışdır. Bu onunla əlaqədar olmuşdur ki, XIII əsrdən XVII əsrə qədər « təhlükəsiz» anlayışını « polisiya» anlamı ilə əvəz olunmuşdur. «Polisiya» anlayışı daha geniş mənaya malik idi, çünki o. Dövlət quruluşunu, idarəetmənin əks etdirirdiki, əsas vəzifəsidə ümumi əhvalı, təhlükəsizliyi təmin etməkdən ibarət olmuşdur.

XVII-XVIII əsrlərdən başlayaraq bütün ölkələrdə belə bir nöqteyi-nəzər diqqəti cəlb edir ki, dövlətin başlıca vəzifəsi ümumi əhval-ruhiyyəni və təhlükəsizliyi təmin etməkdir. Bunanla əlaqədar « təhlükəsizlik» məvhumu yeni məna; vəziyyət, sabitlik stiuatsiyası mənasını kəsb edir. Bu mənaya həminin maddi-material, iqtisadi, siyasi şərait, anlamlarında daxil edilir.

« Dövlət qaydaları və ictimai sabitliyin qorunması tədbirləri haqqında»

( 14\VIII-1881 ) « dövlt təhlükəsizliyi» anlayışı «ictimai təhlükəsizlik» məvhumu ilə eyni qəvvəli işlədilmişdir. Bir necə ildən



downloaded from KitabYurdu.az

sonra isə « ictimai təhlükəsizliyin» təmin olunması anlayışı qanuni olunması anlayışı qanuni olunması anlayışı qanuni status olaraq dövlət təhlükəsizliyinin saxlanılması üçün mübarizə formasına çevrilmiş və siyasi təhlükəsiz orqanlarının səlahiyyətinə daxil edilmişdir.

Sovet hüquq elmi və təcrübəsi ümumi qəbul edilmiş məvhumların çoxundan imtina edərək uzun bir dövr geniş və mücərrəd olan « inqilabiqa-ydalar» « əksinqilabçılarla mübarizə» anlayışlarından istifadə etmişdir. Həmin dövrdə ( 1920) şəxsi marağın dövlət və ictimai maraqlara tabe etdirilməsi üstünlük təşkil edirdi. Beləki, dövlət və ictimai təhlükəsizliyin təmin olunması şəxsi təhlükəsizliyin təmin olunması kimi qəbul edilirdi. Bu dövrdə şəxsiyyətin maraqlarına təcavüzə nisbətən, dövlət təhlükəsizliyinə təcavüz daha qəddar cəzalandırılırdı.

Sonrakı dövrlərdə, dövlət təhlükəsizliyinə daha çox diqqət verilməyə başladı və 1934-cü ilin qanunçuluğunda « dövlət təhlükəsizliyi» daha çox ictimayətin dövlətləşdirilməsinin əlaməti kimi istifadə olunmağa başladı. Bu zaman dövlət təhlükəsizliyinə cəmiyyətin mənəvi həyatında baş verən stiuatsiyalar daxil edilirdi. ( vicdan azadlığının konstitusiya hüquqi, ittifaqların, birliklərin yaradılmasında vətəndaş hüquqlarının reallaşması və s.) Dövlət təhlükəsizliyinə belə yanaşma, ictimai təhlükəsizliyə diqqətin azalmasına gətirib çıxarmışdı.

Bütün bu qeyd olunanlara nəzərən müasir məvhüm-koteqerial təhlükəsizlik anlayışıııını belə ifadə etmək olar. «



downloaded from KitabYurdu.az

Təhlükəsizlik» həyatı vacib olan sosial maraqların, onun strukturlavının daxili və xarici təhlükədən müdafiyə olunmasıdır.

Həyati vacib maraqlar-dövlətin, cəmiyyətin, vətəndaşların mütəriqqi inkişafı imkanlarının etibarlı təminatını təmin edin tələbatların məcmuudur.

Milli dəyərlər- ölkənin mövcudlüğü və inkaşafı üçün zəruri olan maddi, mənəvi intellektual mülkiiyətlərin məcmuudur.

Milli həyat tərzi – ölkədə bütünlükdə cəmiyyət və ayrı-ayrı milli qruplar tərəfindən qəbul edilmiş və uzun tarixi dövrdə fəaliyyət göstərən davranış qaydaları, mənəvi yaşayış tərzidir.

Təhlükəsizlik-dövlətin, cəmiyyətin şəxsiyyətin tühlükəsizliyinin təmin edilməsi üzrə sosial fəaliyyətin nəticəsidir.

Dövlətin, cəmiyyətin, şəxsiyyətin təhlükəsizliyinin təmin olunması fəaliyyəti, sosial individlər, sosial qruplar arasındakı ziddiyyətlərin həll edilməsidir.Təhlükə-təhlükəsizliyin təmin edilməsi üzrə fəaliyyət obektidir. Bu zaman fəaliyyətin predmeti təhlükənin konkret hədə forması kimi çıxış edir. ( hərbi, siyasi,iqtisadi). Belə hədənin konkret daşıyıcıları isə təbii, sosial-ictimai hadisələrdir.

Təhlükəsizliyin təmin olunması üzrə fəaliyyət obektinin dərk edilməsi ona mürəkkəb sistem kimi baxılmasını tələb edir. Bu sistem bir-biri ilə şaqülü vəziyyətdi əlaqədə olan üç səviyyədən ibarətdir.

1. Şəxsiyyətin təhlükəsizliyi.
2. Cəmiyyətin təhlükəsizliyi.
3. Dövlətin təhlükəsizliyi.



downloaded from KitabYurdu.az

Təhlükəsizliyin təmin olunması üzrə fəaliyyət predmetinin başa düşülməsi bu sistemin üfüqi səviyyəsinin müəyyən edilməsinə imkan verir. Məsələn elmi-texniki informasiya, hərbi, siyasi təhlükəsizliyin təmin olunması.

Dövlətin, cəmiyyətin, şəxsiyyətin təhlükəsizliyi fəaliyyətinin nəticəsi çoxlu predmetliliyə malikdir. Bir halda bu şəxsiyyətin əsas dayaqlarına dəyən ziyanın dəf edilməsi sisteminin qabiliyyətini, ikinci halda onların müdafiyə vəziyyətini,üçüncü halda isə təhlükəsizlik sisteminin inkişafı xüsusiyyətlərini əks etdirə bilər.

Bu ölkənin konkret tarixi inkişaf dövründən asılıdır. Müasir dövrdə təhlükəsizlik sahəsində əsas anlayış kimi nisbətən gənc elmi istiqamət olan
« geosiyası » istiqamət durur. Bu istiqamətdə « geoətrateji və geosiyasi regton»,
« geosiyasi vəziyyət» anlamları mövcuddur.

Geostrateji region- iri coğrafi məkandır. Qolobal mahiyyətə malik olan ərazidir. Yerləşdiyi məkanca dünyanın bir hissəsi olub baş vern aprseslər, siyasi, mədəni idoloji əlaqələrinə, ticarət istiqamətinə və s. görə digər ərazilərdən fərqlənir. Geosiyası region- geostrateji regionun bir hissəsi olub vahid coğrafi əlamətlərə malikdir. Məsələn Azərbaycan Respublikasını geosiyası « geostrateji» kimi qiymətləndirmək olar.Çünki Respublika Avropa ilə Asiya qitələri arasında yerləşib. Türkiya, İran, Rusiya, Gürcüstan, Ermənistanla quru sərhəddinə,Kazaxstan və Türkmənistanla dəniz sərhəddinə malikdir. Geosiyasi vəziyyət – bu və ya digər regionda,



downloaded from KitabYurdu.az

dünyada coğrafi siyasi, hərbi, iqtisadi və amillər nəzərə alınmaqla konkret vəziyyəti əks etdirir.

« Təhlükəsizlik» kateqoriyası belə təsnifləşdirilə bilər.

I. Miqyas əlamətinə görə:

A) beynəlxalq qolobal təhlükəsizlik

B) beynəlxalq regional təhlükəsizlik

V) milli təhlükəsizlik

Q) yerli təhlükəsizlik

Öz növbsində milli təhlükəsizlik bölünür:

A) dövlət təhlükəsizliyi

B) yerli « regional» təhlükəsizlik

V) xüsusi ( firma və şəxsiyyət) təşlükəsizlik.

Milli təhlükəsizliyin müxtəloif aspektləri aşağıdakı anlayışları əhatə edir:

A) milli-dövlət təhlükəsizliyi

B) federal təhlükəsizlik

V) ictimai təhlükəsizlik.

II. Hədənin – qorxunun tipindən asılı olaraq beynəlxalq və milli təhlükəsizlik bölünür:

- ekoloji təhlükəsizlik
- iqtisadi təhlükəsizlik
- hərbi təhlükəsizlik
- resurs təhlükəsizliyi
- informasiya təhlükəsizliyi



downloaded from KitabYurdu.az

- sosial təhlükəsizlik
- elmi – texniki təhlükəsizlik
- enerji təhlükəsizliyi
- nüvə təhlükəsizliyi
- siyasi təhlükəsizlik
- innovasiya təhlükəsizlik
- hüquqi təhlükəsizlik
- mədəni təhlükəsizlik
- texniki təhlükəsizlik

III. Təhlükənin mənbəyindən asılı olaraq

- təbii təhlükəsizlik
- texnogen təhlükəsizlik

## 2. DÖVLƏTİN MİLLİ TƏHLÜKƏSİZLİYİ VƏ MİLLİ MARAQLAR

Milli təhlükəsizlik anlıyışı ilk dəfə siyasi lüğətdə 1904-cü ildə ABŞ Prezidenti T.Ruzvelt tərəfindən işlədilmişdir. T.Ruzvelt ABŞ Konqresinə məktubunda Panama kanalı hövzəsində birləşmələrin hərbi təhlükəsini əsaslandırmış milli təhlükəsizliyin milli maraqlarla eyniləşdirilməsini qeyd etmişdir. Sonrakı dövrlərdə bu istiqamət amerika politoloqlarını tədqiqatlarının əsas xəttinə çevrilmişdir.



downloaded from KitabYurdu.az

Amerika müəllimləri milli təhlükəsizliyin dərk edilməsi mənbəyini milli maraqlar nəzəriyyəsində görürdülər.

Milli təhlükəsizlik-dövlətin, cəmiyyətin, şəxsiyyətin həyat tərzinin, milli dəyərlərin, daxili və xarici təhlükənin geniş spektrindən ( siyasi, hərbi, iqtisadi, informasiya ekoloji) müdafiyə olunmasını əhatə edir.

Dövlətin milli təhlükəsizliyinin təmin olunmasının başlıca məqsədi bunlar hesab edilir:

- ölkənin müdafiyə qüdrətinin artırılması.
- İqtisadiyyatın güzləndirilməsi.
- Demokratiyanın yüksəldilməsi.

Tarixi təcrübə göstərmişdir ki, ölkənin aramla inkişafında aparıcı rolu dövlətin və ya millətin gücü, qüdrəti oynayır. Bunların hər ikisinə adekvat olaraq milli təhlükəsizlik çıxış edir.

«Dövlətin gücü, qüdrəti» konsepsiyası qolobal, miqyasda siyasi və iqtisadi həyata birbaşa təsir göstərir.

Yapon alimləri « dövlətin milli təhlükəsizliyi ( gücü)»-nün ümümiləşdirilmiş göstəriciləri əsasında « kompleks milli güc» səviyyəsini müəyyən etmişlər. Bu hesablama lider ölkələrin gücünün 100 ballı sisteminə əsaslanmışdır.



downloaded from KitabYurdu.az

[36] Cədvəl 69

Dövlətin « milli güc» komponentləri.

| | Yaponiya | ABŞ | İngil-tə | Almaniya | Fransa | SSRİ |
|---|---|---|---|---|---|---|
| 1.Beynəlxalq birliyi zəngin ləşdirmək qabiliyyəti: iqtisadi, maliyyə,elmi və s. gücü | 61 | 100 | 43 | 54 | 45 | 50 |
| 2.Yaşama qabiliyyəti: coğ rafi,əhalinin sayı,təbii resursla milli mənəvi dəyərləri,diplomati və s. gücü | 56 | 100 | 52 | 49 | 47 | 119 |
| 3.Güclə təsifetmə imka hərbi,strateji texnologi-ya diplomatik imkanları və s.gücü | 24 | 100 | 35 | 24 | 42 | 70 |
| « Kompleks milli güc» indeksi | 47 | 100 | 43 | 42 | 45 | 77 |

Dövlət millət o vaxt təhlükəsiz vəziyyətdə olur ki, daha pis vəziyyətdən qurtarmaq üçün milli maraqlarını vermir, milli məqsədləri rəhbər tutaraq siyasi, iqtisadi, psixoloji mübarizə aparmaq vəziyyətində, imkanında olur.

Dövlət və millətin təhlükəsizliyini belə təsnifləşdirmək olar.

1. Əlverişsiz şəraitin yaranmasında subyektiv amillərin rolu və ünvanlı istiqamət xüsusiyyətinə görə.

- Çağırış. – qəti təhlükəli xüsusiyyətə malik olmayan, lakin ona diqqət yetirilməsi vacib olan şəraitlər məcmuudur.

[36] А.С.Олейников



downloaded from KitabYurdu.az

- Hədə, (qorxu,təhlükə)- müəyyən qədər konkret,aktuallaşmış ( və ya artıq fəaliyyətə başlamış) təhlükə,vətəndaşların marağına təsir göstərə bilən amil və şəraitlərin məcmuu.
- Risk – subyektin fəaliyyətindən yarana bilən arzuolunmaz; əlverişsiz qəticələrin ehtimalı.

2. Səbəb – nəticə əlaqələrinə uyğun olaraq təhlükənin yaranması.

- şəxsiyyətin ( vətəndaşın) həyat və sağlamlığına birbaşa ziyan dəyməsi.
- Nəticədə ərazinin boşalması, onun mənəvi dəyərlərinin məhv edilməsi

3. Təhlükənin yaranma mənbəylərinə görə

- təbii təbiit hadtisələri
- texnogen
- sosial.

4. Adekvat olmayan enerji informasiya, maddə, cism axını. Bu təhlükə aşağıdakılardan ibarətdir.

  - təbii-ekoloji, təbii hadisələrin dağadıcı təsiri, təbii miqrasiyanın pozulması.
  - Texnogen-istehsal, enerjilərin arzuolunmaz tullantıları.
  - Antropoqen-sosial, informasiyaların bilərəkdən gtzlədilməsi,təhrif edilməsi, onların şəxsiyyət ( vətəndaş) Tərəfindən dərk edilməsi xüsusiyyətləri.

5. Ehtimallılıq dərəcəsinə görə



downloaded from KitabYurdu.az

- real təhlükə
- mötəməl ( potensial) təhlükə.

6. Səviyyəsinə görə ( əhatə dairəsi, neqativ,nəticəsi).

- beynəlxalq, - qolobal regional, dünyanın bir regionu
- milli yerli ( lokal) – ölkənin regionu
- xüsusi- firma şəxsiyyət

7. Bəşəriyyətin fəaliyyət növü və ictimai həyat sferaları üzrə mövcud olan təhlükələr.

Milli təhlükəsizlik dövlət, cəmiyyət, region, müəssisə, şəxsiyyət səciyyəsində ola bilər.

Milli təhlükəsizlik, milli maraqlarla sıx əlaqədardır. Bu ölkə daxilində

və ölkə sərhədlərindən kənarda da mövcud ola bilər. Hər bir konkret vəziyyətdə milli maraqların təmin olunması üçün xüsusi fəaliyyət metodu tələb olunur və bunlar dövlətin gücünə, vəsaitinə müvafiq həyata keçirilir.

İxtiyari ölkənin milli maraqları onun həyati tələbatlarının məcmuu ilə şərtlənən obektiv amildir.Onun məzmunu dövlətin firavan və təminatlı inkişaf ilə və bununla əlaqədar onun dünya səviyyəsində tapması ilə, xarici siyasətini müdafiyə etmək bacarığı ilə şərtlənir.

Millətin marağında onun maddi-mənəvi, sosial dəyərlərinin məcmu öz əksini tapır.

Milli taraqların köklü əsası özündə aşağıdakıları birləşdirir:



downloaded from KitabYurdu.az

- ölkənin ərazi bütövlüyü.
- dövlət özünü təyin etmə və xalqın siyasi özünü idarə etməsi.
- dünya birliyində özünə layiqli yer tutmaq.
- Bütün sosial qrupların və dövlətin tərəqqi etməsi.

Coğrafi-ərazi baxımından milli maraqlar millətin yaşadığı ərazi ilə

hüdudlanmır. Müxtəlif regionlarda və xaricdə baş verən proseslər millətin drumuna, onun gələcək inkişafına əsaslı təsir göstərə bilər. Bu isə öz növbəsində milli məqsədlərin müəyyən edilməsinə və dərk edilməsinə təsir göstərir. Bununla əlaqədar daxili və xarici təhlükəsizlik fərqləndirilir. Xarici təhlükənin müəyyən edilməsi isə millətin dünyada, coğrafi və geostrateji yeri və rolu ilə əlaqədardır.

Milli maraqların formalaşdırılmasında dünya təcrübəsindən istifadə olunması məqsədə uyğundur. Ümumi halda bu təcrübələr milli maraqların təmin olunması üçün aşağıdakıların vacibliyinin əks etdirirlər.

1. Öz ideallarına və dəyərlərinə mütabiq yeni beynəlxalq sistem yaratmaq.
2. Siyasi, iqtisadi, texnoloji liderliyə çalışmaq.
3. Ölkənin təhlükəsizliyinə qorxu yaradan bütün təcavüzlərin qarşısını almaq.
4. Digər ölkələrlə münasibətdə, sərt qəti mövqedə dayanmaq.



downloaded from KitabYurdu.az

5. Ölkəni və vətəndaşları hədələyən təhlükələrə qarşı effektli mübarizə aparmaq.
6. Ölkənin hərbi balansını saxlamaq
7. Baş verə biləcək təhlükə haqqında informasiyalar toplamaq.

Ölkənin milli maraqlarının predmeti və obyekti məlum olmalıdır.

Milli təhlükəsizliyin predmeti-texnogen-istehsal, təbii-ekoloji, antrogen

sosial təhlükələrin meydana çıxması və ziyanın aşağı salınması ilə şərtlənən obektiv qanunauyğunluqlardır.

Dövlət milli maraqların müdafiyəni,milli təhlükəsizlik eonsepsiyası əsasında hazırlanmış təhlükəsizlik sistemi ilə həyata keçirir.

Milli təhlükəsizlik sistemi- dövlətinkonstitutsiyasında nəzərdə tutulmuş – hüquqi norma və aktların, qanunverici və icraedici orqanların, milli maraqların təmin olunmasına istiqamətlənmiş metodların və s. yaradılmış sistemidir.

Subektin təşkil edici funksiyası ilə əlaqədar olaraq təhlükəsizliyin dövlət sistemi və ictimai sistemi bir-birindən fərqləndirilir. Bunların hər ikisi milli maraqlara qarşı real və potensial təhlükələrin aşkar edilməsində, onlarla mübarizə tədbirlərinin hazırlanmasında, həyata keçirilməsində bir-birini tamamlayır, bir-birilərinə nəzarət edirlər.



downloaded from KitabYurdu.az

Milli təhlükəsiz sistemində yüksək effektivliyə o, vaxtı nail olunur ki, beynəlxalq və regional təhlükəsizlik sistemi qarşılıqlı əlaqədə fəaliyyət göstərmin olsun.

Milli təhlükəsizlik obektləri-siyasi təhlükəsizliyin əsas məzmununu və strategiyasını təşkil edən real hadisələr, proseslər və münasibətlərdir. Bu müəyyənliyə görə milli təhlükəsizliyin obeytləri şəxsiyyət ( insan), cəmiyyət
( xalq), dövlət ( millət) arasında əlaqə və habelə bunları müşayət edən qarşılıqlı əlaqələr ola bilər.

Milli təhlükəsizlik siyasəti- dövlət və sair siyasi institutların qarşılıqlı əlaqəli məqsədyönlü siyasətidir. Bunlar təhlükəsizliyin təmin olunmasının etibarlı fəaliyyətinə xidmət etməlidirlər.Milli maraqların təhlükəsizliyinin müdafiəyə olunması və xüsusi xidmət orqanlarının fəaliyyəti dövlətin milli təhlükəsizliyinin tərkib hissəsidir.

## *3. SOSİAL-İQTİSADİ TƏHLÜKƏSİZLİK SİSTEMİNİN ƏSAS İSTİQAMƏTLƏRİ.*

«İqtisadi təhlükəsizlik» Qərb ölkələrinə nisbətən bizim ölkədə yeni anlayışdır. İqtisadi təhlükəsizlik siyasi iqtisad və politologiya elmlərindən sintez olunmuş kateqoriyadır. Bu



downloaded from KitabYurdu.az

kateqoriya iqtisadi müstəqillik və asılılıq, stabillik və zəiflik, iqtisadi təzyiq və şantaj ilə sıx əlaqədardır.

Ümumi təhlükəsizlik hadisəsində olduğu kimi iqtisadi təhlükəsizliyi də aşağıdakı səviyyələrdə fərqləndirmək olar:

1. Beynəlxalq iqtisadi təhlükəsizlik (qlobal və regional)
2. Milli iqtisadi təhlükəsizlik (region və ya ölkə daxili)
3. Xüsusi iqtisadi təhlükəsizlik (firma, şəxsiyyət)

Beynəlxalq iqtisadi təhlükəsizlik – institusional strukturların birgə danışıqlarının beynəlxalq şəraitləri kompleksidir. Bu zaman dünya birliyinin üzvi olan hər bir dövlət sosial-iqtisadi inkişaf strategiyasını seçməkdə azaddır.

Beynəlxalq iqtisadi təhlükəsizliyə gedən yol, iqtisadi-siyasi inkişaf modelinin təhrikindən, imtina edilməsindən, müxtəlif mülkiyyət və maraqların yaşaması qanuna hörmət olunmasından, hərbi strateji üstünlükdən iqtisadi üstünlüyün dərk edilməsindən, münaqişələrdən azad olunmasından keçir. Perspektiv baxımdan xüsusi kapital ölkələrin talan və istismar edilməsindən daha çox tərəqqidən nailiyyət əldə edir.

Beynəlxalq iqtisadi təhlükəsizliyin təmin olunmasına hüquqi zəmanət, sosial, siyasi quruluşundan asılı olmayaraq ölkələri bərabər hüquqa malik olmalarıdır. Milli iqtisadi təhlükəsizlik iqtisadiyyatın və dövlət institutlarının elə vəziyyətidir ki, milli maraqların zəmanətli müdafiəsi təmin olunur, sosial inkişafda hormoniyaya nail olunur, ölkənin kifayət qədər iqtisadi və hərbi potensialı vardır. «İqtisadi təhlükəsiz»likdə ölkə xarici müdaxilə olmadan öz suveren



downloaded from KitabYurdu.az

inkişaf yolunu və modelini seçmək imkanına malikdir. Xüsusi iqtisadi (firma, şəxsiyyət) təhlükəsizlik – maliyyə, kommersiya, elmi-texniki tərəqqinin, sosial inkişafın təmin edilməsinə imkan verən maddi-material intellektual resurslarının əlaqələrinin və münasibətlərinin hüquqi vəziyyətidir.

İqtisadi təhlükəsizlik problemi özünəməxsus obyektlərə malik olmaqla bərabər, hərbi, sosial, siyasi, iqtisadiinformasiya təhlükəsizliyi ilə culğalanmış obyektlərə də malikdir. Buna görə də iqtisadi təhlükəsizlik problemləri həll olunan zaman, ona daxili və xarici problemlər də daxil olmaqla iqtisadi sfera kimi baxılması zəruridir. Bu zaman iqtisadi sferanın kəsişdiyi digər sahələrdə (müəyyən qədər iqtisadi sfera sayılmayan) nəzərdən qaçırılmamalıdır. Belə sahələrə aiddir:

a. Hərbi –iqtisadi sfera.
b. Ölkənin elmi-texniki və intellektual müdafiəsi.
c. İctimai təhlükəsizliyin təmin olunması (gizli iqtisadiyyat, mütəşəkkil iqtisadi cinayətkarlıq, korrupsiya, iqtisadi fırıldaqçılıq)
d. Təbiətlə iqtisadiyyatın qarşılıqlı fəaliyyət sferası.

Bu problemlərin həllində iqtisadiyyatın rolu azaldılmamalı, onun bazis rolu qeyd edilməlidir. Çünki, həmin sahələrin inkişafı üçün ilkin sayılan istehsal, bölgü, istehlak istehsal prosesi ilə əlaqədardır.

Azərbaycan Respublikasının iqtisadi təhlükəsizlik obyektləri dövlət, dövlətin iqtisadi sistemi və onun elementləri,



downloaded from KitabYurdu.az

bütün təbii resursları, ictimai institutlar və təşkilatlar, iqtisadiyyatın bütün sahələrində fəaliyyət göstərən təsərrüfat subyektləri, həyat üçün vacib olan iqtisadi maraqlar təşkil edir. Respublikanın iqtisadi təhlükəsizlik subyektləri qanunverici, icraedici, məhkəmə orqanları vasitəsilə öz funksiyasını həyata keçirən dövlət, funksional nazirliklər və idarələr, vergi və kömrük xidməti, Milli Məclisin müvafiq komissiyaları, banklar, birjalar, sığorta və pensiya kompaniyaları, ictimai istehlakçılar təşkil edirlər. Bu zaman iqtisadi təhlükəsizliyin təmin edilməsinin əsas subyekti dövlət hesab olunur.

İqtisadi təhlükəsizlik sferasında dövlətin fəaliyyət predmeti: qısa və uzun müddətə dövlətin sosial-iqtisadi sisteminin dəyanətli inkişafını sarsıdan amilləri müəyyən etmək və monitorinq tətbiq etməkdən, vahid proqram çərçivəsində həmin amillərin fəaliyyətinin yumşaltmaq və yox etmək məqsədilə iqtisadi siyasəti formalaşdırmaq və reallaşdırmaqdan ibarətdir.

Azərbaycan Respublikası siyasi-iqtisadi suverenlik qazandıqdan sonra, onun sosial-iqtisadi inkişafına daxili və xarici təhlüklər təsir etməyə başlamışdır. Respublika geosiyasi məkana və təbii resurs potensialına malik olduğu üçük yaxın və uzaq ölkələrin hər biri bunların öz iqtisadi xeyrinə istifadə etmək istəyirlər və bu proses hələ də davam edir. Belə bir şəraitdə dövlət və hökumətin qarşısında duran başlıca vəzifə daxili və xarici amilləri dəqiq qiymətləndirmək, onlara qarşı mübarizə tədbirləri həyata keçirmək olmalıdır.



downloaded from KitabYurdu.az

Bu məqsədlə dövlət hakimiyyəti bütün səviyyələrdə iqtisadi təhlükəsizlik qorxusunu məhdudlaşdırmalı, ondan xəbərdar olmalı və onlara qarşı əks tədbirlər görməlidir.

Daxili təhlükələr:

a. Əhalinin və əmək resurslarının artımını azalda bilən amillərin aşkar edilməsi.

b. Sosial sfera sahələrinin deqradasiyası. Əhalinin az təminatlı hissəsinin təhsil, səhiyyəyə olan tələbatının tam ödənilməməsi.

c. Siyasi stabilliyə təhlükə törədən terrorizmlə, mütəşəkkil cinayətkarlıqla mübarizə.

d. İqtisadiyyatın kriminallaşmasına, cinayətkar ünsürlərin iqtisadiyyat sahələrində kök salmasına qarşı mübarizə.

e. Mülkiyyət diferensasiyasını saxlamaq və artırmaq.

f. İqtisadiyyatın struktur deformasiyası, innovasiya aktivliyinin azalması.

g. Respublika iqtisadiyyatının rəqabət qabiliyyətinin aşağı olması.

h. Texnogen, ekoloji qəzalarən baş verməsi.

i. Maliyyə – kredit sistemində mövcud olan çatışmazlıqlar.

j. Vergi, kömrük sistemindəki çatışmazlıq.

k. İstehsal güclərindən, material resurslarından səmərəsiz istifadə.



downloaded from KitabYurdu.az

l. Sənayenin və energetikanın xammal bazasının pisləşməsi.

m. Şəhər, kənd Regionlar arasında sosial-iqtisadi inkişafın fərqlənməsi.

n. İnfliyasiya.

o. İqtisadi siyasət mexanizminin təkmil olmaması.

p. Özəlləşdirmə sferasında neqativ hallır.

q. Fond bazarları strukturunun təhrif edilməsi.

r. ÜDM-un aşağı diversifikasiyası.

s. İnvestorlar üçün investisiya mühitinin sağlamlığının olmaması.

t. Xarici borcların mövcudluğu.

Xarici təhlükələr:

1. Ölkənin iqtisadi konyukturasının xarici – iqtisadi əlaqələrdən asılılığı.
2. Xarici borcların çoxluğu.
3. Xarici ölkələrin, yerli müəssisələri özəlləşdirməsi.
4. İxrac və alyuta nəzarətinin zəifliyi
5. İqtisadiyyat dəhlizindən səmərəli sitifadə olunmaması.

Azərbaycan Respublikası iqtisadi təhlükəsizliyini təmin etmək və sivilizasiya istiqamətində inkişaf etmək məqsədi ilə, dünya iqtisadi sistemində özünə layiq yer tutmaq üçün aşağıdakı istiqamətlərdə iqtisadi təhlükəsizliyini həyata keçirməlidir.

Demoqrafiya sahəsində – Ölkənin milli maraqlarında demoqrafiya potensialı mühüm yer tutur. Demoqrafik potensialın



downloaded from KitabYurdu.az

artırılması məqsədilə doğum əmsalının artırılması və ölüm əmsalının aşağı salınması imkanlarından istifadə olunmamalıdır.

Sosial sahədə əhalinin həyat səviyyəsinin yazşılaşdırılması, əhalinin gəlirlərə görə diferensasiyası azaldılmalı, əhalinin minimal təminatı üçün dövlət zəmanəti olmalı, yaşayış minimumu təmin olunmalı, əhalinin tam məşğulluğu artırılmalı, işsizlik normal səviyyəyə endirilməli və s.

İstehsal, elmi-texniki, innovasiya sahəsində – sosial yönümlü innovasiyalı bazar yaratmalı, iqtisadiyyatın inkişafı üçün texniki – təşkilatı şərait yaratmalı, istehsalda struktur dəyişiklikləri aparmalı, innovasiya siyasətini həyata keçirməli və s.

Vergi – büdcə sahəsində dövlət öz funksiyasını həyata keçirmək üçün təkmil büdcə sistemi yaratmalı, bütün maliyyə resurslarını cəlb etməli, vergidən yayınma hallarına yol verməməli, optimal vergiyə cəlb olunma sistemi yaradılmalı, iqtisadiyyatın tənzimlənməsində büdcə rıçaqlarından istifadəni artırmalı və s.

Ekoloji sahədə – ekoloji təhlükəsizliyi təmin edən tədbirlər hazırlanmalı və həyata keçirilməli, təbii resurslardan səmərəli istifadəni təşkil etməli, təbiətin qorunması üçün hüquqi normativ aktlar qəbul etməli, ekoloji tədbirlərin həyata keçirilməsini maliyyələşdirməli və s.

Regional iqtisadi inkişaf sahəsində – ölkənin regionlarının inkişafında bərabər hüquqluluq əsas götürülməli, regionların təbii resurslarının iqtisadi dövriyyəyə cəlb olunmasına şərait yaratmalı və s.



downloaded from KitabYurdu.az

Dövlət idarəçiliyi sahəsində:

a) milli suverinetetin qorunması.

b) ənənəvi mənəvi dəyərlərin saxlanılması.

v) bütün təsərrüfat subyektləri üçün vahid iqtisadi qaydalar tətbiq olunması.

q) sahibkarlıq və innovasiya mühitini sağlamlaşdırmalı.

d) dövlət xidmət sistemini inkişaf etdirməli.

e) iqtisadiyyatda yenilikçiliyi təmin etməli və s.

Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyini təmin edən dövlət qanunları aşağıdakılardır.

a. Azərbaycan Respublikasının Konstitusiyası. 25.V.1991

b. Azərbaycan Respublikasının Mülkiyyət haqqında qanunu. 9.XI.1991.

c. Azərbaycan Respublikasının Torpaq Məcəlləsi 9.XI.1991., 2.VV.1993.

d. Azərbaycan Respublikasının Sahibkarlıq Fəaliyyəti haqqında qanun. 15.XII. 1992.

e. Azərbaycan Respublikasının Kəndli təsərrüfatı haqqında qanun 8. IV.1992.

f. Azərbaycan Respublikasının mülkiyyətinin özəlləşdirilməsi haqqında qanun. 7.I.1993.

g. Azərbaycan Respublikasının Əhalisinin məşğulluğu haqqında qanun. 27.VI. 1991.

h. Azərbaycan Respublikasının icarə haqqında qanun. 11. VIII – 1992.



downloaded from KitabYurdu.az

i. Azərbaycan Respublikasının müəssisələr haqqında qanun. 1.VII. 1994.

j. Azərbaycan Respublikasının Səhmdar Cəmiyyəti haqqında qanun. 12.VII.1994., 24,VIII. 1995.

k. Azərbaycan Respublikasının Qiymətli kağızlar və fond birjaları haqqında qanun. 24. XI. 1992., 29,VIII.1995.

l. Azərbaycan Respublikasının İnvestisiya fəaliyyəti haqqında qanun 13.I.1995.

m. Azərbaycan Respublikasının İstehlakçılarının hüquqlarının mühafizəsi haqqında qanun. 19.IX. 1995.

n. Azərbaycan Respublikasının büdcə sistemi haqqında qanun. 1. XII. 1992.

Bu qanunlar əsas götürülərək iqtisadi inkişaf prosesində meydana çıxmış problemlərin həlli üçün müəyyən əlavələr və dəyişikliklər edilmişdir.

## *4. DÖVLƏTİN İQTİSADİ TƏHLÜKƏSİZLİK STRATEGİYASI.*

İqtisadi təhlükəsizliyin təmin olunması məqsədi. İqtisadi təhlükəsizliyin təmin olunması dedikdə iqtisadiyyatın elə inkişaf səviyyəsi başa düşülür ki, şəxsiyyəti və ümumilikdə yaşayış tərzinin yaxşılaşmasına, sosial-iqtisadi və hərbi siyasi stabilliyin təmin



downloaded from KitabYurdu.az

olunmasına və dövlətin ərazi bütövlüyünün qorunmasına imkan verən iqtisadi inkişaf səviyyəsi başa düşülür.

Ümumilikdə iqtisadi təhlükəsizlik strategiyasının mahiyyəti gözlənilən və ya qəfldən baş verə biləcək daxili və xarici təhlükəni aradan qaldırılmasına imkan verən iqtisadi inkişaf səviyyəsinə nail olunmasından ibarətdir.

Respublikada iqtisadi təhlükəsizlik strategiyası istehsal və elmi-texniki inkişaf səviyyəsinin saxlanılmasına, yoxsulluğa qarşı tədbirlərin həyata keçirilməsinə, əhalinin ayrı-ayrı qrupları və ölkədə yaşayan millətlər arasında konfliktlərin aradan qaldırılmasına istiqamətlənməlidir.

İqtisadi təhlükəsizliyin təmin olunmasında dövlətin straetgiyası qanunverici, icraedici, məhkəmə hakimiyyəti, ictimai və s. birliklər sistemi vasitəsilə həyata keçirilir. Dövlət strategiyası ancaq o vaxt müvəffəqiyyətlə həyata keçirilə bilər ki, müəyyən tələblər yerinə yetirilmiş olsun. Bunlara aşğıdakıları aid etmək olar:

a. Prezident aparatının və hökumətin, bələdiyyə icra orqanlarının funksiyaları dəqiq müəyyən edilməlidir.

b. Dövlət idarələri və bələdiyyə idarələrinin funksiyalarına uyğun olaraq bələdiyyə və yerli səviyyələrdə vəzifələr dəqiqləşdirilməlidir.

c. Dövlətin idarəedici funksiyasının zəruri informasiya təminatı olmalıdır.



downloaded from KitabYurdu.az

İqtisadi təhlükəsizliyin təmin olunmasının mühüm əsas məsələləri respublikanın sosial-iqtisadi inkişaf proqnozu tərtib olunarkən nəzərə alınmalıdır.

İqtisadi təhlükəsizliyin təmin olunmasının dövlət strategiyası ölkənin iqtisadi siyasəti çərçivəsində həyata keçirilməlidir. Bu zaman şəxsiyyətin hər tərəfli inkişafı, onların konstitusiya hüquqlarının qorunması, azad və demokratik inkişafa nail olunması, cəmiyyət üzvlərinin və dövlət orqanlarının qanuna sözsüz əmək etmələri nəzərə alınmalıdır.

İqtisadi təhlükəsizlik strategiyasının effektivliyinə nail olmaq üçün etibarlə dəqiq formalaşdırılmış dövlət sistemi olmalıdır. Bu sistem ölkədə baş verən dəyişikliklərin daha az itkilərlə başa gəlməsinə və mühüm məsələlərin həllində tənzimləməni həyata keçirməyə imkan verməlidir. Bu zaman iqtisadiyyata dövlətin müdaxiləsinin hüdudları və dövlət bölməsinin sərhədləri dəqiq müəyyənləşdirilməli, dövlət tənzimləmə metodlarının effektli inkişafı təmin olunmalıdır.

<u>İqtisadi təhlükəsizliyin təminolunması tədbirləri</u>. İqtisadi təhlükəsizlik məqsədinin strategiyasının qoyuluşu və müəyyən edilməsi vəzifə və tədbirlərin konkretləşdirilməsiaparılmadan siyasəti və əməli fəaliyyətin mühüm aləti ola bilməz. Bununla əlaqədar dövlət ölkəni iqtisadi böhrandan çıxarılmasının kompleks tədbirlər sistemini hazırlamalı və həyata keçirməlidir. Bununla da ölkənin iqtisadi təhlüksizliyi üçün zəmanət yaranmış olur. Həmin kompleks tədbirlər iqtisadiyyatın bütün sferalarında reallaşdırılmalıdır.



downloaded from KitabYurdu.az

İqtisadi təhlüksizliyin təmin olunmasının bu tədbirləri dövlətin aktiv struktur, sosial-iqtisadi, instisional dəyişikliklərin aparılması və maliyy-kredit stabilliyinin təmin olunması siyasəti istiqaməti əsasında reallaşdırılmalıdır.

Ölkədə iqtisadi strutru siyasəti makrosəviyyədə reallaşdırılır. Bu zaman məcmu tələbin yüksəlməsi, yığım normasının artırılması, investisiya mühitinin formalaşması tapşırıqları həll olunmalıdır ki, ölkədə transformasiya prosesi rəvan egtsin. Nəzərə almaq lazımdır ki, investisiya vəsaitlərin daha prioritet sahələrə yönəldilməsi, maliyyə axınının sektorlar arasında daha məqsədəuyğun bölüşdürülməsi, yerli istehsalçıların proteksionizm qanununa uyğun olaraq qorunması, ixracın stimullaşdırılması ölkə iqtisadiyyatının transformasiyası ilə uyğunlaşdırılmalıdır.

Makrosəviyyədə aparılan struktur siyasəti, iqtisadi effektivliyə malik olan müəssisələrin dəstəklənməsi. Effektsiz müəssisələrin ləğv edilməsi və ya yenidən qurulması, qiymətlərin tənzimlənməsinin razılaşdırılmış səviyyəsinin saxlanılması, subyektlərin bazar normalarına rəayət etmələri fonunda həyata keçirilməlidir.

Bu məqsədlərin həyata keçirilməsi üçün «artım nöqtəsi» (başlanğıcı) müəyyənləşdirməlidir. Daha doğrusu azad rəqabət bazarında real alıcı tapan müəssisələr və təşkilatlar müəyyən edilməlidir. Bunun üçün:

- təsərrüfat sistemində fəaliyyət göstərən müəssisə və təşkilatların rolu müəyyənləşdirilməlidir.



downloaded from KitabYurdu.az

- Məhsulu dövlət tələbatını ödəyən müəssisələrin siyahısı müəyyənləşdirilməlidir. (hərbi sənaye kompleksi nəzərdə tutulur)

- nəzarət paketinin əsas hissəsi və ya «qızıl səhm» paketinə malik olan təsərrüfat subyektlər aşkar edilməlidir.

Bu subyektlərin efektli fəaliyyəti iqtisadi təhlükəsizliyin təmin olunasının əsasını təşkil edir.

İqtisadi təhlükəsizliyin tələblərinə nail olunmağın əsas şərti, elmi və innovasiya layihələrinin proqramlarının perspektiv dövr üçün inkişafından ibarətdir. Dövlətin həyata keçirdiyi sosial siyasət əhalinin həyat səviyyəsinin yüksəldilməsi şəraitində cəmiyyətin həmrəyliyini yaratmaqdır.

Son zamanlar Respublikada orta əmək haqqının yüksəlməsi müsbət haldır. Lakin bununla belə əhalinin varlı və yoxsul təbəqələrə ayrılmasının artması neqativ hal kimi sosial konfliktlərin yaranması mənbəyinə çevrilə bilər ki, bu da cəmiyyətdə stabilliyin pozulmasına səbəb ola bilər.

[37]Cədvəl 70

Orta aylıq əmək haqqı

| | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 2001 | 2002 |
|---|---|---|---|---|---|---|---|---|
| İqtisadiyyat üzrə cəmi | 62464 | 89730 | 141643 | 168419 | 184367 | 2216( | 259953 | 315406 |
| Əvvəlki nisbətən %-l | 100 | 143,1 | 158,5 | 116,3 | 109,4 | 120,2 | 117,2 | 121,3 |

[37] Az.St.rəq.2003 səh 106, 378



downloaded from KitabYurdu.az

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| İstehlak qiymətləri indeksi % | 511 | 119,9 | 103,7 | 99,2 | 91,5 | 101,8 | 101,5 | 102,8 |

Cədvəlin məlumatlarının təhlili göstərir ki, əhalinin orta aylıq əmək haqqının artımı ilə yanaşı istehlak məhsullarının qiymət indeksi da artmışdır. Bu 2002-ci ilə olan göstəricidir. Son 2004-cü ilin göstəricilərinə qeyri rəsmi nəzər salınarsa, isrtehlak məhsulları indeksinin txminən 50%-ə qədər artdığını müşahidə etmək olar. Bu isə yoxsulluğun artmasına təsir göstərən amillərdir.

Moskva Yeni iqtisadiyyat İnstitutu tərəfindən 1998-ci ildə nəşr edilmiş «[38]Böyük İqtisadi Lüğət»də Yoxsulluq anlayışına aşağıdakı tərif verilmişdir.

Yoxsulluq – əhalinin və ailələrin pul, əmlak və digər vəsaitlərlə nisbətən az təmin olunmuş, ona görə də öz maddi və mənəvi tələblərini lazımi səviyyədə təmin edə bilməyən hissəsinin iqtisadi vəziyyətidir. Əhalinin yoxsul hissəsinin sayı və onların həyat səviyyəsi ictimai istehsalın inkişaf mərhələsindən asılı olub ictimai-siyasi və sosial-iqtisadi şərtlər kompleksi ilə müəyyən olunur: ictimai istehsalın daha yüksək mərhələsi, yoxsulluq həddinin də daha yüksək olmasının potensial imkanlarını təmin edir. Yoxsulluğun hüdudları əhalinin şəxsi istehlak vasitələri ilə faktiki və normativ olaraq təmin olunması, habelə insanların maddi və mənəvi tələblərinin müvafiq təminat səviyyəsi əsasında qiymətləndirilə bilər.

[38] «Böyük İqtisadi Lüğət» Moskva 1998 səh 52



downloaded from KitabYurdu.az

İnsan inkişafına və sosial razılığa nail olmaq üçün iqtisadi təhlükəsizlik tələb olunur. İqtisadi təhlükəsizlik baxımından islahat prosesinin tərkib hissəsi kimi aşağıda göstərilən problem sahələr araşdırılmalıdır:

Aşağı yaşayış standartları:

- işsizlik
- xarici kapitaldan həddən artıq asılılıq
- korrupsiya, gizli iqtisadiyyat və qeyri əlverişli bizns mühiti
- ilkin məhsulların ixracından asılılıq
- əmək qüvvəsinin yüksək peşəkar və yaxşı təlim keçmiş üzvlərinin ölkəni tərk etməsi.
- elmi tədqiqatlara və təhsilə qoyulan sərmayənin aşağı səviyyəsi.
- köhnəlmiş texnologiyalara və avadanlığa investisiya qoyulması.

İqtisadi təhlükəsizlik strategiyasının təmin olunması üçün həyata keçirilən iqtisadi siyasət cəmiyyətin qütbləşməsinə deyil, böhranlı dövrdə ağırlığın əhali təbəqələri üzərinə bərabər və ədalətli bölgüsünə xidmət etməlidir. Bu şəraitdə elə tənzimləmə mexanizmi seçilməlidir ki, iqtisadi cəhətdən güclü olan əhali qrupunun gəlirlərinə nəzarət etmək mümkün olsun. Yüksək məhsuldar əməyə stimullaşdırıcı təsir edən əmək haqqının funksiyası gücləndirilməli və bu məsələnin həllində dövlətin rolu artırılmalıdır. Bu məqsədlə əmək



downloaded from KitabYurdu.az

haqqını gecikdirən müəssisə və təşkilat rəhbərlərini maddi məsuliyyəti artırılmalıdır.

Güclü olan əhali qrupunun gəlirlərinə nəzarət etmək mümkün olsun. Yüksək məhsuldar əməyə stimullaşdırıcı təsir edən əmək haqqının funksiyası gücləndirilməli və bu məsələnin həllində dövlətin rolu artırılmalıdır. Bu məqsədlə əmək haqqını gecikdirən müəssisə və təşkilat rəhrəblərinin maddi məsuliyyəti artırılmalıdır.

Ölkənin strateji marağını təmin etmək üçün ETT-nin və elmi potensialın rolu gücləndirilməlidir. Bu sahədə dövlətin prioritet rolu saxlanılmalıdır. Ölkənin digər ölkələrdən ETT-i asılılığını azaltmaq məqsədilə dövlət proqramları hazırlanmalı, fundamental ETT işləri aparılması genişləndirilməlidir. Ölkədə investisiya siyasətinin həyata keçirilməsi üçün, daxili, xüsusi və xarici investisiyaların cəlb edilməsi məqsədilə əlverişli mühit yaradılmalıdır. Ölkədə xarici və müştərək müəssisələrin fəaliyyəti aşağıdakı cədvəldə verilmişdir.

[39]Cədvəl 71.

Xarici və müştərək müəssisələrin fəaliyyəti.

| | Sayı | İşləyənlər nəfər | Orta aylıq əmək haqqı min manat | Məhsulun həcmi mln man. |
|---|---|---|---|---|
| 1999 | 775 | 18677 | 1216 | 2880221 |
| 2000 | 549 | 22145 | 1041 | 6198878 |

[39] Az.St.rəq. 2003 səh 100-103



downloaded from KitabYurdu.az

| | | | | |
|---|---|---|---|---|
| 2001 | 609 | 25240 | 1679 | 7571519 |
| 2002 | 748 | 31228 | 1892 | 6565188 |

Göründüyü kimi cədvəlin rəqəmləri çox rəngarəngdir. Buna görə də ümumi qanunauyğunluq söyləmək çətindir. Lakin bununla belə, respublikada xarici və müştərək müəssisələrin fəaliyyəti pozitiv vəziyyətdədir. Statistik məcmuənin göstəricilərinə istinadən qeyd etmək olar ki, xarici və müştərək müəssisələrin çoxu sənaye, topdan satış, daşınmaz əmlakla əlaqədar əməliyyatlar aparan sahələrdən ibarətdir. Bu sahələrin çoxunun maddi istehsala istiqamətlənməsi aha müsbət hal sayıla bilərdi.

Ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunması üçün vergi sisteminin təkmilləşdirilməsi zəruridir. Elə tədbirlər həyata keçirilməlidir ki, vergi sistemi effektli fəaliyyət göstərə bilsin. Çünki dövlət büdcəsinin formalaşması əsasən vergilər hesabına həyata keçirilir.

[40]Cədvəl 72.

Dövlət büdcəsi (mlrd.man)

| | 2000 | 2001 | 2002 | 2004 layihə |
|---|---|---|---|---|
| Gəlirlər cəmi | 3573,2 | 3924,0 | 4551,2 | 6957,0 |
| O cümlədən, əlavə dəyər vergisi | 954,2 | 1266,4 | 1674,4 | 2199,0 |

[40] Az.st. rəq. 2003 səh 369



downloaded from KitabYurdu.az

| | | | | |
|---|---|---|---|---|
| aksizlər | 112,2 | 554,6 | 433,3 | 350,0 |
| Mənfəətdən vergi | 629,6 | 588,2 | 739,1 | |
| Halidn gəlir vergisi | 469,9 | 473,6 | 548,3 | 950,0 |
| Rüsumlar və s. | 589,6 | 326,3 | 316,9 | |
| Xərclər | 3819,8 | 4037,5 | 4658,8 | 7272,0 |
| Büdcə kəsiri | -246,6 | -113,5 | -107,6 | -315,0 |

Göründüyü kimi respublikada dövlət büdcəsinin kəsiri 2000-ci ildən başlayaraq azalmağa doğru meyillidir. Lakin 2004-cü ilin layihəsində büdcə kəsirinin artımı planlaşdırılmışdır. Bunu təbii hal kimi qiymətləndirmək olar. Çünki 2002-ci ilə nisbətən 2004-cü ilin büdcə layihəsində onun gəlirləri 52,8% artım nəzərdə tutulmuşdur. Deməli büdcə kəsirin 2002-ci ildə 2,3%-dən 2004-cü ildə 4,5%-ə qədər yüksəlməsi də təbiidir. Hər halda Azərbaycan iqtisadi artıma malikdir və bu inkar edilməzdir.

İqtisadi təhlükəsizlik strategiyasında mühüm yerlərdən biri dövlətin mərkəz region probleminə diqqətinin artırılması durur. Məlum hadisələr nəticəsində əhalinin çox hissəsi şəhərlərə əsasən də Bakı şəhərinə toplanmışdır və nəticədə respublikanın rayonlarında əhalinin sayı azalmışdır ki, bu da şəhərdə sosial vəziyyəti mürəkkəbləşdirmişdir.



downloaded from KitabYurdu.az

Bu problemin həlli ilə əlaqədar olaraq respublika prezidenti cənab İ. Əliyev regionların iqtisadi inkişafı haqqında fərman vermişdir.

İqtisadi təhlüksizliyin təmin olunması strategiyasının mühüm istiqamətlərindən biri də, iqtisadi cinayətkarlığa qarşı mübarizə tədbirlərinin həyata keçirilməsidir. İnsan hüquqlarının pozulmasına qarşı yönəldilmiş mütəşəkkil cinayətkarlığa qarşı mübarizə gücləndirilməlidir, ictimai istehsalın kriminallaşdırılmasına, cinayətkarlar qruplar vasitəsilə təsərrüfat subyektlərinə nəzarət edilməsinə, bank və dövlət orqanlarına korrupsiya elementlərinin daxil olmasına, hüquq mühafizə orqanlarının işçilərinin cinayətkarlarla əlaqəyə girməsinə qarşı mübarizə gücləndirilməlidir.

<u>İqtisadi təhlükəsizliyin</u> <u>reallaşdırılması mexanizmi</u>. İqtisadi təhlükəsizliyin təmin olunması və onun reallaşdırılması müəyyən fəaliyyət mexanizminin olmasını tələb edir.

Ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunması mexanizmi – iqtisadi təhlükəsizliyin dəf edilməsi üçün iqtisadi-təşkilati və hüquqi tədbirlər sistemidir.

Bu mexanizm özündə aşağıdakı elementləri əks etdirir:

- iqtisadi təhlükəsizliyə təsir edə biləcək amillərin proqnozunu aparmaq və onlar üzrə hərtərəfli obyektiv monitorinq tətbiq etmək.



downloaded from KitabYurdu.az

- Sosial-iqtisadi göstəricilərin son mümkün olan həddinin müəyyən edilməsi. Belə ki, həmin həddin keçilməsi cəmiyyətdə sosial konfliktlər, qeyri stabillik yarada bilər.
- İqtisadi təhlükəsizliyin törənməsinə səbəb ola bilən daxili və xarici amillərin aşkar edilməsində dövlətin fəaliyyəti

Bu elementlərin hər birinə ayrı-ayrılıqda nəzər yetirək.

Manitorinq nəzarət sistemidir. İqtisadi monitorinq inkişaf göstəricilərinin səviyyəsini müşahidə etmək üçün tətbiq olunur. Belə ki, monitorinqin aparılması nəticəsində müəyyən etmək mümkün olur:

- Ümumi Milli Məhsulun, Ümumi Daxili Məhsulun, Xalis Milli Məhsulun, Milli Gəlirin səviyyəsi necədir?
- Maddi istehsal sahələrinin inkişafı necədir?
- İdxal-ixrac səviyyəsi necədir?
- İşsizlik səviyyəsi
- Yaşayış minimumu aşağı olan əhali
- Ölkənin xarici borcu
- Büdcə kəsirinin səviyyəsi

İqtisadi göstəricilərin elə səviyyəsinin müəyyən edilməsidir ki, o hədd keçildikdə cəmiyyətdə stabillik pozula bilər. Bu meyar müəyyən kəmiyyət və keyfiyyət parametrlərilə ölçülür. Həmin həddə daha da yaxınlaşmaq iqtisadi təhlükəsizliyə yaxınlaşmaq kimi qiymətləndirilir. Həddin keçilməsi sosial konflikt yarada bilər. Deməli həddin iqtisadi mahiyyəti müəyyən edilməlidir.



downloaded from KitabYurdu.az

İqtisadi təhlükə mühitini yarada bilən vaxtında aşkar edilməsi dövlətin funksiyasıdır. Onu effektli fəaliyyəti təhlükəsizliyi təmin edir. Bunun üçün dövlət.

1. İqtisadi göstəricilərin mahiyyətinin proqnozu ilə faktiki vəziyyəti arasında kənarlaşmanı müəyyən etməli, tədbirlər görməli.

2. İqtisadi təhlükəsizlik tədbirlərini həyata keçirməklə təhlükəni dəf etməli və ya yumşaltmalı

3. İqtisadi təhlükəsizlik baxımından maliyyə və təsərrüfat fəaliyyətini ekspertiza etməli.

Direktiv xarakter daşımayan iqtisadi sistemdə, bu göstərilənlər, dövlət tənzimlənməsi vasitəsilə həyata keçirilir.



downloaded from KitabYurdu.az

## *FƏSİL XXVII. DÖVLƏTİN EKOLOGİYA SİYASƏTİ VƏ TƏBİİ RESURSLARDAN İSTİFADƏNİN TƏNZİMLƏNMƏSİ.*

### *1. MÜASİR ELMİ-TEXNİKİ İNKİŞAF VƏ EKOLOGİYA PROBLEMLƏRİ.*

Cəmiyyət üzvləri öz yaşayışlarını təmin etmək üçün təbiətlə birgə fəaliyyətdə olmalı və onun nemətlərini mənimsəməlidir. Buna görə də təbiət onun üçün yaşayış məkanı, müxtəlif nemətlər mənbəyi, mədəni-estetik tələbatının ödənilməsinin ən mühüm sahəsi sayılır.

İnsanların təbiətlə birgə fəaliyyəti prosesinin əsas hərəkət vericdi qüvvəsi bütövlükdə cəmiyyətdir. Cəmiyyətlə təbiətin arasında maddələr mübadiləsi istehsal prosesi inkişafında baş verir və bu ziddiyyətli haldır. Belə ki, bir tərəfdən insan daha çox istehsala Can atır, digər tərəfdən isə təbii resurslar məhduddur.

Məhsuldar qüvvələrin inkişafı, təbiətdən istifadəni daha da intensiv edir. Belə ki, müasir elmi-texniki tərəqqi şəraitində istehsalın həcmi artır, təbii resurslardan istifadə güclənir. Bu isə neqativ təsir göstərir: biosfera, diqrosfera (yer üzərində həyat olan sahə, yer üzərində sular) atmosfera (yeri bürüyən hava təbəqəsi,) , litosfera (yer qabığı, Daş suxuru 30-80 km dərinliyində). Bütün bunların hamısı bizi əhatə edən ekoloji mühit adlanır.

Ekolojiya – yunan sözü olub oiqos – ev, loqos – elm sözlərinin birləşməsidir.



downloaded from KitabYurdu.az

Azərbaycan Respublikasının ətraf mühitin mühafizəsi haqqında qanunda, ekologiya ətraf mühitin tarazlığını və bu tarazlığın pozulmasına təsir edən təbii amillər və antropogen və fiziki prosesləri öyrənən elm xadimi kimi qəbul edilmişdir.

Təbii resurslar isə insanların ehtiyaclarını ödəmək üçün ətraf mühitdə mövcud olan torpaq, faydalı qazıntılar, bitki örtüyü, flora, fauna. Su və enerji mənbələri kimi göstərilmişdir.

Müasir ekologiya iki hissədən ibarətdir:

Autoekologiya – ayrı-ayrı bitki və heyvan növlərinin qarşılıqlı münasibəti.

Sinekologiya – autoekologiyanın ətraf mühitlə qarşılıqlı əlaqəsi.

Ekolojiya problemlər dünyəvi xarakter daşıyır və onun həlli bütün cəmiyətin işidir. Müasir elmi-texniki tərəqqi şəraitində daha aktual ekoloji problemlər bunlar hesab edilə bilər.

a) dünya okeanının çirklənməsi – müəssisələrinin hesablamalarına görə dünya okeannının səthinin 20 faizi neft təbəqəsi ilə örtülmüşdür. Bu isə su və qaz mübadiləsini poza və yer temperaturasını azalda bilər.

b) istilik çirklənməsi – müasir istehsal hər il $3410^{15}$ kkal istilik verən yanacaq tələb edir. Həmin istilik verən yanacaq tələb edir. Həmin istilik mühitə – fəzaya yayılaraq istilik rejimini pozur. İstilik enerji istehsalının 6 faiz artımı istiliyi dəyişə bilər ki, bu da təsərrüfat fəaliyyətinə əngəl törədir.



downloaded from KitabYurdu.az

v) atmosferin toz çirklənməsi. Son 10 ildə atmosferdə 20 mln. ton toz hissəciklər, 600 min ton miss, 4,5 mln. ton qurğuşun, 3 mln ton sink toplanmışdır.

q) atmosferdə karbon qazının toplanması – alimlərin hesablamalır göstərmişdir ki, XX əsrin əvvəlindən indiyədək atmosferdə $ÇO_2$ – qazının yığılması 0,01%-dən, 0,03 % qədər artmışdır ki, bu da atmosferin aşağı qatının $CO_2$ – 4% artmasına səbəb ola bilər.

d) atmosferin xüsusi qatı – unosfer adlanır. Top mərmilərinin partlayışı, raketlərin atılması, kosmik gəmilərin hərəkəti onu qıcıqlandırır. Hazırda atmosferdə 800-ə yaxın obyekt fırlanır ki, bu da təbii fəlakətlərə səbəb ola bilər.

İnsanların ətraf mühitlə birgə fəaliyyəti yəni təbii resurslardan istifadə çoxtərəfli müxtəlif xarakterə malikdir. Bununla belə həmin fəaliyyətin mühüm istiqamətlərini qeyd etmək olar:

1. resurs istehlakı

a) resursun çıxarılması

b) resursdan istifadə

v) istehsal tullantılarının yerləşdirilməsi

2. Konstruktiv dəyişmə.

a) təbii ehtiyatlardan kompleks istifadə proqrammı.

b) resursların ayrı-ayrı xüsusiyyətlərinin yaxşılaşdırılması.

v) təbii hadısələrdən qorunma



downloaded from KitabYurdu.az

q) təsərrüfat fəaliyyətinin zərərli nəticələrinin ləğv edilməsi

3. Təbii resursların təkrar istehsalı

a ) bərpa oluna bilən resursların birbaşa təkrar istehsalı.

b) bərpa olunmuşların qorunması və səmərəli istifadəsi

v) yer relyefinin bərpası

4. Yaşayış mühitinin yaxşılaşdırılması və təbii resursların qorunması

a) istehsal və istehlak proseslərində zərərli hallarının qarşısının alınması

b) landşaftın (relyefin) qorunması

v) biosferanın genetik müxtəlifliyinin qorunması

5. İdarəetmə və monitorinq

a) resurslar üzərində nəzarət və təftiş

b) resursların istifadə səviyyəsinin tənzimlənməsi

v) təbiətdən istifadənin idarə edilməsi

Lakin müasir cəmiyyətin marağı resursların sadəcə idarə olunması deyil, ondan istifadənin optimallığındadır. Cəmiyyət və təbiətin birgə fəaliyyətinin optimal olması üçün aşağıdakı prinsiplər nəzərə alınmalıdır:

1. Təbii resursların coğrafi və kəmiyyətcə yerləşməsinin hesablanması və onların təkrar istehsal qanunauyğunluqlarının öyrənilməsi.

2. Resursların təsərrüfat fəaliyyətinə cəlb olunmasının səmərəli növbəliliyinin müəyyənləşdirilməsi.



downloaded from KitabYurdu.az

3. Təbii resurslardan kompleks və səmərəli istifadənin proqnozlaşdırılması

4. Resursların məkanca səmərəli istifadəsinin təmin edilməsi.

5. İnsanların yaşayış, istirahət və işləməyi üçün lazımi şəraitin yaradılması.

Bu prinsiplərin reallaşdırılması üçün praktiki olaraq problemlər mövcuddur:

a) təbii resursların mühafizəsi və səmərəli istifadəsinin strateji planlaşdırılması, idarəolunmasının təşkil edilməsi problemi.

b) resursa qənaət, texnika və texnologiyaların yaradılması sahələrinin və elminin inkişafı problemi.

## *2. EKOLOGİYA SİYASƏTİ VƏ EKOLOJİ TƏHLÜKƏSİZLİK*

Azərbaycan Respublikasında ekoloji situasiya, bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq daha da kəskin şəkil almışdır. Bunu aşağıdakı faktlar sübut edir:

1. Ekoloji cəhətdən sərfəli olmayan zonanın genişlənməsi. Təkcə onu qeyd etmək kifayətdir ki, torpaqlarımızın 20% zəbt olunmuş, atəşkəsə qədər olan, 5 illik müddətə nəticəsində ekoloji disbalans yaranmışdır.



downloaded from KitabYurdu.az

2. Ermənistan Respublikasının ədalətsiz ərazi iddiası nəticəsində əhalinin məcburi miqrasiyası ilə əlaqədar olaraq ölüm əmsalı xeyli yüksəlmişdir.

3. Ölkədə iqtisadiyyatın əsaslı surətdə transformasiyaya uğraması nəticəsində texnogen vəziyyət gərginləşmişdir.

4. Ətraf mühitin (atmosferin) çirklənməsi daha da artmışdır.

5. Daxili bazarın əsasən idxal hesabına ödənilməsi ərzaq məhsullarının keyfiyyətinə mənfi təsir göstərmişdir.

Bütün bunların nəticəsində cəmiyyətlə təbiət arasındakı tarazlıq pozulmuşdur.

Azərbaycan Respublikasında ekoloji tarazlığı tənzimləmək məqsədi ilə dövlət investisiyaları artırmaqla ətraf mühitə atılan zəhərləciyi maddələrin ilbəil azalmasını təmin etmişöir. Qeyd etmək lazımdır ki, ətraf mühitin mühafizəsinə 990-cı ildə 2,4 mln. manat vəsait ayrılmışdırsa, 1998-ci ildə bu vəsait 19,1 mlrd. manatadək yüksəlmişdirsə, 2003-cü ildə bu məqsəd üçün 14,8 mlrd. manat vəsait yönəldilmişdir. Ümumiyyətlə 1995-ci ildən (26,7 mlrd. manat) başlayaraq ətraf mühitin mühafizəsinə yönəldilmiş vəsaitin məbləği azaldılmağa başlamışdır.



downloaded from KitabYurdu.az

[41]Cədvəl 73.

Şəhərlər üzrə stasionar mənbələrdən atmosferə tullanan zəhərləyici maddələrin həcmi (min ton)

| | 1990 | 1995 | 1998 | 2002 | 2003 |
|---|---|---|---|---|---|
| Respublika üzə | 2108,5 | 878,5 | 352,4 | 217,4 | 425,9 |
| Bakı | 1393,9 | 623,5 | 268,1 | 110,3 | 331,4 |
| Naxçıvan MR | 61,3 | 0,7 | 0,09 | 20,5 | 21,7 |
| Əli Bayramlı | 67,3 | 27,8 | 22,7 | 20,5 | 21,7 |
| Mingəçevir | 42,9 | 26,7 | 26,5 | 12,0 | 15,0 |
| Sumqayıt | 96,5 | 40,2 | 15,8 | 13,0 | 32,3 |
| Salyan | 12,2 | 3,9 | 3,7 | 12,3 | 13,1 |
| Şəmkir | 35,9 | 1 | 1,9 | 10,3 | 0,02 |

Cədvəlin məlumatlarından ekologiyanın qorunması tədbirləri nəticəsində ətraf mühitin çirklənməsi azalmağa doğru meyl etmişdir. Lakin, bu hələ kifayət deyildir. Bakı hələ də çirkli şəhər kimi qalmaqdadır. Bundan əlavə rəqəmlərin rəngarəngliyi, respublikada ekologiyanın durumu haqqında dçqiq bir fikir söylənilməsini çətinləşdirir.

Ekoloji təhlükəsizlik ictimai dəyərlərə malik olub bir neçə xüsusiyyətlərə malikdir:

1. superüstünlük – onu hərbi təhlükəsizliklə eyniləşdirmək olar.

[41] Azərbaycanın statistik göstəriciləri, 2004 səh 357



downloaded from KitabYurdu.az

2. ictimai xarakterli olması.

3. ekoloji təhlükəsizliyin digər sosioloji dəyərlərlə əlaqəsi.

4. ekoloji təhlükəsizliyin qeyri müəyyənliyi.

5. ekoloji təhlükəsizliyin maddi nemətlərin azalması qanununa tabe olmaması.

6. sistem xarakterli – yəni ekoloji təhlükəsizlik bir sahə yox, bütünlükdə cəmiyyətin fəaliyyəti ilə şərtlənir.

Ekoloji təhlükəsizlik sahəsində proqnozlaşdırma təmayülünü qiymətləndirmək üçün aşağıdakı prinsiplərin tələblərinə əməl olunmalıdır;

1. Ekoloji təhlükəsizliyin prioritet sahəsi müəyyənləşdirilərkən ilk əvvəl insanların sağlamlığı nəzərdə tutulmalıdır.

2. Ekoloji təhlükəsizlik böhranından çıxmaq üçün daha az xərc nəzərdə tutulmalıdır.

3. Ekoloji pisləşməyə yol verilməməlidir. Buna aşağıdakı yollarla nail oluna bilər:

a) ekoloji təhlükəsizliyin azaldılması

b) ekoloji təhlükəsizliyin məkanca nəzərə alınması

4. Bütün maraqları nəzərə alaraq təhlükəsizlik sisteminin aşkarlanması.

5. Ekoloji strategiyanın formalaşmasında bələdiyyə orqanlarının rolunun məhdudlaşdırılması.



downloaded from KitabYurdu.az

Müasir iqtisadi inkişafda ekoloji təhlükəsizliyin təmin olunması mühüm əhəmiyyət kəsb etməyə başlamışdır. Bununla əlaqədar olaraq müxtəlif ölkələrdə ekoloji texnikanın inkişaf etdirilməsinə başlanılmışdır. Almaniyada 1990-cı ildən başlayaraq ekotexnikanın ixracına 8 mlrd. marka sərf olunmuşdur. Fransada firmalardan biri 34 adda ekoloji təmiz məhsul istehsal etməmişdir. Məsələn, elektrobatareyalarda civə tərkibli element yoxdur, kofe qablaşdırılarkən bioloji dağıdıcılardan istifadə olunmur və s.

Ekoloji təmiz məhsul ölkələrdə müxtəlif nişanələrə malikdir. Məsələn, Yaponiyada ekoloji ətmiz məhsul «e» hərifi ilə, ABŞ-da yer kürəsi fonunda «+» işarəsi ilə, Almaniyada «ekologiyanın mavi pərisi» sözü ilə, Skandinaviya ölkələrində «cizgilənmiş dairə» ilə, Avropa birliyi ölkələrində «ES» hərfləri ilə, Rusiyada «ETP» ilə nişanlanır.

## *3. ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ VƏ MONİTORİNQİ.*

Təbii mühitin vəziyyəti haqqında tam məlumat olmadan cəmiyyət və təbiətin qarşılıqlı fəaliyyətinin əsas istiqamətlərinin strateji planlaşdırılması və tənzimlənməsi mümkün deyildir. Bu baxımdan ətraf mühitin qorunmasına dair dövlət tədbirləri sistemin



downloaded from KitabYurdu.az

monitorinqin xüsusi yeri vardır. Çünki ətraf mühitə dair geniş informasiyaların toplanması və işlənməsi monitorinq xidmətinin fəaliyyəti ilə əlaqədardır.

Monitorinq – insanların təsərrüfat fəaliyyəti (antropogen) ilə əlaqədar olaraq təbii mühitdə baş verən dəyişikliklərə nəzarət və müşahidə sistemidir.

Monitorinq sistemində üç istiqamət fərqləndirilir:

1. Bioekoloji monitorinq.
2. Geoekoloji monitorinq.
3. Biosfera monitorinqi

Bioekoloji istiqamət insanların sağlamlığı və həyat fəaliyyətinə təsir edən, təbii mühitə nəzarət və müşahidəni əhatə edir.

Geoekoloji istiqamət ətraf mühitin qlobal dəyişikliklərini müşahidə və onlara nəzarət edir. Onun əsas göstəriciləri atmosfer, hidrosfera, litosfera və biosfera haqqında informasiyalardan ibarətdir.

Monitoriq aşağıdakı qaydaların reallaşdırılması yolu ilə həyata keçirilir:

a) müşahidə obyektinin müəyyən edilməsi;

b) müşahidə olunmuş obyektin tədqiq edilməsi;

v) müşahidə obyekti üçün informasiya modelinin tərtib edilməsi;

q) ölçülərin müəyyən edilməsi və proqnozlaşdırılması;

d) obyektin informasiya modelinin identifikasiyası



downloaded from KitabYurdu.az

e) informasiyalarının tələb edənlər üçün əlverişli vəziyyətdə təqdim olunması.

Monitorinqin bütün altsistemlərinin fəaliyyətlərinin əsas aspekti, ətraf mühitin qiymətləndirilməsidir. Onun həyata keçirilməsinin mərkəzi məsələsi yaşayış mühitinə ziyan verən amillərin müəyyən edilməsidir. Belə ziyanın növləri müxtəlif ola bilər. Bu hər şeydən əvvəl insanların sağlamlığına dəyən ziyandır. İkincisi, ekoloji, üçüncüsü iqtisadi, dördüncüsü estetik (suyun şəffaflığının itməsi), beşincisi psixoloji ziyandır.

İnsanları əhatə edən mühitin faktiki qiymətləndirilməsi üçün müxtəlif meyarlardan istifadə olunur:

1. Sanitar – gigiyena meyarları – mühitdə zərərli maddələrin müəyyən həddə toplanması, konsentrasiyası.
2. Ekoloji yükün mümkün həddə qədər nəzərdə tutulan səviyyəsi.

Ölkədə antropogen (təsərrüfat fəaliyyəti ilə əlaqədar) çirklənmə üzrə monitorinq dövlət orqanları tərəfindən həyata keçirilir. Buna isə Azərbaycan Respublikası Ekologiya Mərkəzi rəhbərlik edir. Vahid Dövlət Ekoloji Monitorinq sisteminə aşağıdakı dövlət orqanları daxil edilə bilər (VDEMS):

1. Ətraf mühitin mühafizəsi və təbii resurslardan istifadə Nazirliyi;
2. Monitorinq (ətraf mühitin) və hidrometeoroloji xidmət idarəsi.
3. Yer resursları və yer quruluşu üzrə dövlət komitəsi.



downloaded from KitabYurdu.az

4. Meşə təsərrüfatına xidmət idarəsi.
5. Kənd təsərrüfatı Nazirliyi.
6. Geodeziya və kartoqrafiya (xəritə) xidməti idarəsi.
7. Dağ və sənaye nəzarəti xidməti idarəsi.
8. Səhiyyə Nazirliyi.
9. Müdafiə Nazirliyi.
10. Dəniz və çay gəmiçiliyi idarəsi.
11. İqtisadi İnkişaf Nazirliyi.
12. Əmək və əhalinin sosial müdafiəsi nazirliyi və s.

Bazar iqtisadiyyatı şəraitində ətraf mühitin mühafizəsivə təbiətdən istifadənin dövlət tənzimlənməsi müəyyən proqnoz sənədlərinin tərtib olunmasını tələb edir.

İqtisadi İnkişaf Nazirliyi maraqlı təşkilat və idarələrlə birgə dövlətin strateji inkişaf proqramını hazırlayır.

Təbiətdən istifadənin strateji planlaşdırılması müəyyən spesifik xüsusiyyətlərə malikdir:

1. Planlaşdırılan obyekt ictimai-istehsal və təbii proseslərin qarşılıqlı fəaliyyətinin nəticəsidir. Bu zaman heç də bütün təbii proseslər insan tərəfindən tənzimlənən deyildir. Onların bəziləri hələ də tamamilə tədqiq edilməmişdir.

2. Təbii proseslərin strateji planlaşdırılması, təbii proseslərə təsir və onun nəticələrinin iqtisadiyyata təsirindən ibarətdir. Lakin ətrafın çirklənməsi nəinki məqsədli proqramla dəf edilə bilər, o həm də texnologiyanın dəyişməsi ilə azaldıla bilər.



downloaded from KitabYurdu.az

3. Ətraf mühitin çirklənməsi heç də həmişə inzibati-ərazi çərçivəsinə sığmır. Onun yayılması episentrdən (mərkəzdən) daha çox sahəni bürüyə bilər.

4. Ətraf mühitin çirklənməsi nəticəçi çox uzaq müddəti əhatə edə bilər. Məsələn, Çernobıl AES-dakı partlayış.

Təbiətin mühafizə tədbirləri və təbii resurslardan səmərəli istifadənin strateji planlaşdırılmasında sistemli təhlil və sintez metodlarından, təbii mühit komponentlərindən istifadə nəticələri və istiqamətlərinin müəyyən edilməsindən geniş istifadə olunur.

Sistemli təhlil və sintez metodu nəzərdə tutur:

a) təbiətlə iqtisadiyyat arasındakı əlaqə səviyyəsini, dərəcəsini, ölçüsünü müəyyən etmək (ərazi, su, yerinsəthi - landşaftı), təbiətdən istifadə sistemlərinin bir hissəsini (mədən sənayesi, kənd təsərrüfatı), iqtisadi prosesin ilkini təşkil edərək ümumi iqtisadiyyatın sonrakı inkişafının şərtləndirilməsini:

b) istehsal sistemlərinin vəziyyətinin qiymətləndirilməsini (istifadə səviyyəsi, tullantılar, texnologiya, resurslardan kompleks istifadə və s.)

v) təbiətin çirklənməsi tipini, təsnifatını və strukturunu müəyyən edilməsini.

q) resursların yekunlaşması və təkrar oluna bilməsi səviyyəsinin müəyyən edilməsini.

Ekoloji – iqtisadi proqnozların tərtib edilməsi zamanı onun nəticələrinin kənar effektinə nəzər yetirilməlidir. Yəni həmin iri



downloaded from KitabYurdu.az

miqyaslı iqtisadi layihələrin yerinə yetirilməsi, cəmiyyətə, ətraf mühitə, insanlara necə təsir göstərəcəkdir.

Bütün təbii resurslar üç qrupda təsnifləşdirilə bilər:

1. Ekoloji resurslar – bitki və heyvanlar. Münbit torpaq (1 sm. münbit torpağın bərpası üçün 300-1000 ilə qədər vaxt lazımdır). Ekoloji resursun bərpası sadə və geniş miqyaslı, təkrar istehsalı. Təkrar istehsal üçün resursun minimum həddi nəzərə alınmalıdır.

2. Bərpa olunmayan resurslar, bura torpaq və bütün mineral resurslar aiddir. Burada başlıca vəzifə – mineral resurslardan tam və kompleks istifadədir. Məsələn, slyuda və kalim duzları çıxarılarkən onun 80faizi, neftin 56 faizi, daş kömürün 40 faizi itir.

3. Tükənməyən resurslar – su, günəş və geotermik enerji, qabarma və çəkilmə, nüvə enerjisi və s.

İstehsalın ekologiyalaşdırılması milli iqtisadiyyatın strukturunun yeniləşdirilməsinin mühüm elementidir.

Təbii mühitin mühafizəsi və istehsalın ekologiyalaşdırılması tədbirləri nəzərə alınmalıdır.

a) nadir, əntiq, əvəziolmayan, bərpası mümkün olmayan təbii sistemlərin qorunması.

b) iqtisadi dövriyyəyə daxil olan uzun müddətli resursların (metal, şüşə və s.) dəfələrlə istifadə olunması.

v) tez bərpa olunan resursların bioloji deformasiyaya uğramadan olunması (bioloji resurslar və s.)



downloaded from KitabYurdu.az

q) cəmiyyətə ziyan gətirən hallaran aradan qaldırılmasına dair tədbirlərin həyata keçirilməsi ilə təbiətdən istifadə olunması.

Bərpa olunmayan, məhdud və idxal materiallarının bərpa olunan yerli xammala və əvəz edilməsi iqtisadi inkişafın mühüm problemlərindəndir. Bu gələcək üçün müəyyən resursların saxlanılmasına imkan yaradır.

Respublikada təbii resurslardan istifadə proqramı, proqnozu və strategiyasının hazırlanması aşağıdakıları nəzərdə tutur:

a) su resursları;

b) atmosfer – hava;

v) torpaq resursu;

q) balıq ehtiyatı ;

d) mineral resurslar;

j) qoruqlar və milli parklar.

Su resurslarının qorunması və səmərəli istifadə olunması, su tələbatını, su istifadə edən texnologiyanı, su dövriyyəsini, su axarlarını, sudan itkisiz istifadəni, suyun buxarlanmasının qarşısının alınmasını, mineral sulardan istifadəni və s. nəzərdə tutur. Azərbaycan Respublikasında 2003-cü ildə bütün su mənbələrindən 10,8 tlrd.$m^3$ su götürülmüşdür. Respublikada su qətləğəna baxmayaraq onun 32,1 % itgiyə gedir. Sudan istifadə haqqında qanuna əsasən içməli sudan məişətdə və texnologiyada istifadə olunması qadağandır.



downloaded from KitabYurdu.az

Atmosfer – havanın qorunması cəmiyyət və təbiət üçün zərərli olan tullantıların qarşısının alınması, kimyəvi zərərləyicilərin azaldılması və s. nəzərdə tutur.

Havanın çirklənməsi dedikdə tibbi- sanitar normadan artıq üzvü, qeyri-üzvü, radioaktiv maddələrin tullantısı nəzərdə tutulr. Respublikanın hava hövzəsinin çirklənməsində avtomobil nəqliyyatı daha çox xüsuçi çəkiyə malikdir. 2003-cü ildə atmosferə atılan 412 min ton zərərli tullantıların 49%-i avtomobil nəqliyyatının payına düşür. Buna görə də havanın qorunması kimi nəzarət – tənzimedici məntəqələrinin yaradılması məqbul sayılır.

Torpağın səmərəli istifadə olunması və mühafizəsi – Torpaq bütün istehsalın təbii əsasıdır. O, ümumi əmək vəsaiti və kənd təsərrüfatında isə istehsal vasitəsidir.

Torpaq erroziyasının (külək) qarşısının alınmas ı tədbirləri əkin – biçənək və otlaqların mövcudluğu ilə həyata keçirilir.

Yaxşı və münbit torpaqların məhdudluğu, ondan səmərəli istifadə olunması problemini yaradır. Bu problem aşağıdakı istiqamətlərdə həll olunur:

a) torpaq istifadəçilərinin fəaliyyətindən asılı olaraq, torpaqların səmərəli bölüşdürülməsi;

b) kənd təsərrüfat torpaqlarının məhsuldarlığının artırılmasını stimullaşdırmaq;

v) torpaqların erroziyaya uğramasının, duzlaşmasının, bataqlıqlaşmasının qarşısının alınması;



downloaded from KitabYurdu.az

q) kənd təsərrüfatı torpaqlarının istifadə təyinatından başqa sərfinin qarşısının alınması;

d) bataqlıqların qurudulması, dağlıq yerlərin təmizlənməsi, qumluqların əkilməsi və s. yolla dövriyyəyə əlavə torpaq sahələri cəlb etmək.

Torpaqdan səmərəli istifadə olunması məsələlərinə aid proqram və proqnozların tərtibi prosesində aşağıdakı göstəricilərdən istifadə olunur:

1. Kənd təsərrüfatına yararlı torpaq göstərilməklə ümumi torpaq fondu (torpaq fondu balansı);

2. Su altında qalmış, bataqlıqlaşmış, duzlaşmış və s. sahələr göstərilməklə onların yararlı hala salınması tədbirləri;

3. Erroziyaya uğramış torpaqların ümumi torpaq fondunda xüsusi çəkisi və erroziyanın qarşısının alınması tədbirləri;

4. Rekulivasiya ediləsi torpaqların ümumi torpaq fondunda xüsusi çəkisi;

5. Bioloji metodlarla ziyanvericilərlə mübarizə aparılan torpaq sahələri.

Torpaqların məhdudluğu və insan fəaliyyətində onun rolu nəzərə alınaraq torpaqların mühafizəsi ümumi bəşəri problemdir.

Meşə resurslarından səmərəli istifadə olunması və qorunması, atmosferin təmizlənməsi üçün ekoloji resursdur. Buna görə də meşələr dövlət tərəfindən qorunmalıdır. Meşə resurslarının qorunması proqram və proqnozları, yeni meşələrin salınması ilə



downloaded from KitabYurdu.az

cavanlaşdırma aparmaq, yaşlı ağacların qırılması və yanğınların qarşısının alınması kimi tədbirlər əhatə edir.

Respublika ərazisində 1998-ci ildə 2460 yanğın hadisəsi qeydə alınmışdır. Bunun nəticəsində respublika iqtisadiyyatına 3695 mln. manat ziyan dəymişdir, 420 tikili məhv edilmişdir.

Meşə resurslarından səmərəli istifadə olunması üçün balans hesablamalarından istifadə olunur:

1. Meşə fondunun balans hesabı.
2. Ümum i meşə məhsulunun və effektivliyinin balans hesabı.

Balıq ehtiyanın təkrar istehsalı və qorunması, balıq ehtiyatlarının qiymətləndirilməsi ilə əlaqədar olub vətəgələrini, balıq kombinatlarını, balıq yetişdirmə strukturlarını əhatə edir. Digər tərəfdən daha qiymətli balıqların – nərə, ağ balıq, qızıl balıq və s. qorunması qanunlar əsasında tənzim olunur.

Mineral resursların səmərəli istifadə olunması və qorunması.

Mineral xammal – metal və qeyri-metal tərkibli faydalı qazıntıları əhatə edən anlayışdır. Mineral xammal resursu hər il üçün nəzərə alınır. Bu zaman:

- balans ehtiyatı ekoloji ehtiyatın bir hissəsi olub, tələbatı ödəyən ehtiyatdır;



downloaded from KitabYurdu.az

- balans altı ehtiyatlar – geoloji ehtiyatın müəyyən səbəbdən istifadə olunmayan hissəsidir, ayrı-ayrılıqda hesablanmalıdır;

- balans ehtiyatı kəşfiyyat xarakterindən asılı olaraq bölünürlər.

$A_1$ – istismar üçün

$A_2$ – sənaye müəssisələrinin tikilməsinin layihələşdirilməsi üçün

B – kateqoriyalı – Əsaslı tikintinin layihələşdirilməsi üçün

C – kateqoriyalı;

$C_1$ – gələcəkdə kəşf olunaraq sənaye müəssisələrinin layihələşdirilməsi üçün

$C_2$ – proqnoz üçün. Ehtiyatlar balansı aşağıdakı prinsipial formada tərtib olunur.

Cədvəl 74.

| Faydalı qazıntıların adı | | Ölçü vahidi | Kateqoriyalar üzrə bala ehtiyatı | | | | | Cəmi ehtiyat |
|---|---|---|---|---|---|---|---|---|
| | | | $A_1$ | $A_2$ | B | $C_1$ | $C_2$ | |
| | İlin əvvəlinə qalıq ehtiyatlarının artımı, ilin axırına qalıq | | | | | | | |



downloaded from KitabYurdu.az

Material resurslarının hesablanması əsasında hər il onların balans hesabı aparılır. Konkret material resurslarının balans hesablanması konkret olaraq ona tələbata əsaslanaraq müəyyən edilir. Balans hesablanması aşağıdakı düsturla aparılır;

$$O = \frac{M}{P \cdot \frac{1}{K_1 K_2 K_3}}$$

O – illər üzrə təminat

M- yerin tərkində olan faydalı qazıntıların bütün plan ehtiyatı

P – faydalı qazıntılara milli iqtisadiyyatın orta illik tələbatı

$K_1$ – faydalı qazıntılarının çıxarılması əmsalı

$K_2$ – yenidən dəyişdirilmə əmsalıdır.

Təkrar xammalla təmin olunma isə aşağıdakı formula ilə hesablanır:

$$O = \frac{M}{\left[1\left(\frac{1}{K_1 K_2 K_3}\right) - \left(Д + K_4 \cdot 3\right)\right]}$$

burada –

$K_4$ – təkrar xammaldan istifadə əmsalıdır.

D – sair mənbələrdən çıxarılan fəaydalı qazıntının miqdarıdır.



downloaded from KitabYurdu.az

Mineral resurslardan səmərəli istifadə yerin tərkindən çıxarılan xammalın tamlılığı ilə texniki emal vaxtı ondan alınan kimyəvi komponentlərin çoxluğu ilə müəyyən olunur.

Faydalı qazıntıların çıxarılması ilə əlaqədar itkilərin azaldılması və ondan alınan komponentlərin sayının artırılması və ümumiyyətlə faydalı qazıntılardın kompleks istifadə üçün vergi mexanizmindən istifadə olunur.

## *4. ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİNİN DÖVLƏT TƏDBİRLƏRİ SİSTEMİ.*

Yaşadığımız cəmiyyətin hər bir üzvi ətraf mühitin qorunmasını dərk etməlidir. Ətraf mühitin qorunması problemi dünyəvidir və bütün dövlətlər onun qorunması tədbirlərini işləyib hazırlmalı və həyata keçirilməsinə nəzarət etməlidirlər. Ətraf mühitin mühafizəsinin dövlət tənzimlənməsi iqtisadiyyatın tənzimlənməsinin ümumi metodlarına əsaslanır. Bununla yanaşı ətraf mühitin tənzimlənməsində aşağıdakı metodlardan istifadə edilir:

1. Psixoloji – sosial dərketmə.
2. İnziabti qaydalar.
3. Elmi – texniki inkişaf.

Cəmiyyətin hər bir üzfi dərk etməlidir ki, o təbiətin bir hissəsidir və o, ətraf mühitdən asılıdr. Buna görə də o, istehsal



downloaded from KitabYurdu.az

mühitini qorumalı, onun çirklənməsi hallarının qarşısının alınmasına çalışmalıdır.

Dövlət ətraf mühitin mühafizəsini inzibati yolla tənzim etməlidir. Bunun üçün vergi siyasətindən geniş istifadə edilir.

Xüsusi nəzarət komitələri dövri olaraq sənaye müəssisələrinin ətraf mühitin çirklənməsi normasını ölçərək onlara nəzarət edir. Həmin müəssisələr bu normaları pozarlarsa, onlara böyük həcmlə vergilər qoyurlar.

Ətraf mühitin mühafizəsinin dövlət tənzimlənməsinin bir metodu da ETT – nin inkişafına nəzarət edilməsidir. Elə texnologiyaların yaradılması layihələndirilməlidir ki, ətraf mühitin çirklənməsi az olsun. Bura tullantısız texnologiya yaradılması, istehsal tullantılarından təkrarən istifadə olunması və s. aiddir.

Beləliklə, dövlətin ekoloji siyasətinə, ətraf mühitin qorunması və təbii resurslardan səmərəli istifadə olunmasıının tənzimlənməsi tədbirlərinə aiddir:

1. Yerüstü və yeraltı sərvətlərdən səmərəli istifadə olunması.
2. İstehsal tullantılarından səmərəli istifadə olunması.
3. Günəş və külək enerjisindən istifadə olunması.
4. Təbii hadisələrdən istifadə olunması.
5. Geotermik resurslarından istifadə olunması.
6. Nüvə enerjisindən istifadə olunması.

İstehsal tullantılarıdan səmərəli istifadə olunması da dövlətin ekologiya siyasətinin əsas istiqamətidir.



downloaded from KitabYurdu.az

Məsələn, sumqayıt boru prokat zavodunun tullantısı olan şlakdan sement alınmasında istifadə olunur. Üzvü tullantılardan gübrə alınır, şüşə tullantılarından şüşə borular istehsal olunur, metal yonqalarından kəsici alətlər alınır, məişət zibilindən kərpic alınır, qətran tozundun gübrə kimi istifadə olunur, ağac kəpəyində penoplast alınır və s.

Azərbaycan Respublikasının su ehtiyatlarından səmərəli istifadə olunması üçün çirkab sularını təmizləyən qurğulardan istifadə olunur. Həmin qurğular gün ərzində 38 min kub m. məhsuldarlığa malikdirlər.

Qaz tullantılarının tutulb təmizlənməsi qurğuları saatda 205 min kub.m. məhsuldarlığa malikdir.

Ətraf mühitin mühafizəsi tədbirləri, təşkilati-texniki tədbirləri də əhatə edir.

I. Ətraf mühitin mühafizhəsinin sənaye üsulu.

1. Emal üçün ayrılmış xammalın hazırlanması (xammalın müxtəlif maddələrdən təmizlənməsi)
2. Son məhsulun alınması üsulunun dəyişdirilməsi (onun aqreqat vəziyyətinin dəyişdirilməsi.)
3. Texnologiyanın təkmilləşdirilməsi (daha mütərəqqisinin tətbiq edilməsi)

II. Ətraf mühitin mühafizəsinin səhiyyə üsulu.

1. Tullantıların təmizlənməsinin səmərəli üsulunun tapılması.



downloaded from KitabYurdu.az

2. Əlavə məhsulun alınması üçün əlavə istehsal texnologiyasının yaradılması.

Dövlətin ekoloji siyasəti reallaşdırılarkən həyata keçirilən tədbirlərin iqtisadi səmərəliliyi də nəzərə alınmalıdır.

Ümumi form ada təbiətin mühafizəsi tədbirlərinin səmərəliliyinin ölçülməsi aşağıdakı kimi müəyyən edilə bilər:

1. Əgər qoyulmuş vəsait müəyyən iqtisadi bölmədə mənfəət verirsə təbiəti mühafizə xərclərinin effekti – təbiətin çirkləndirilməsinin qarşısının alınması nəticəsinin səmərəliliyini əks etdirir.

2. Təbiəti mühafizə tədbirlərinin effektliliyi dəqiq regional xarakter daşıyır. Çünki bu tədbirlərin həyata keçirilməsi bütün regional ərazisini əhatə edir.

3. təbiəti mühafizə tədbirlərinin effekti metrik (ölçülən) xarakter daşımır. Bu insanların sağlamlığında, istirahətində, xəstələnmələrinin sayının azalmasında ifadə olunur.

Təbiəti mühafizə tədbirlərinin effektinin ölçülməsi : iqtisadi və sosial istiqamətlərdə aparılır.

İqtisadi effekt – canlı və keçmiş əməyin itkisinin azalmasını, ona qənaət edilməsini əks etdirir.

Sosial effekt – tədbirin həyata keçirilməsi nəticələrinin xərclərə olan nisbətidir. Ümumiyyətlə təbiəti mühafizə tədbirlərinin effektliyi belə hesablanır:.



downloaded from KitabYurdu.az

$$Э = \frac{\sum_{I=1}^{h}\sum_{j=1}^{n} Э_{Ij}}{C_n + E_n K_i}$$

$Э_{ij}$ i – növ tədbirinin keçirilməsi nəticəsində j – obyektində itginin azalmasını

$C_n$ – həmin tədbirlərin həyata keçirilməsini n illik istismar xərci

$K_i$ – obyektlərin tikilməsinə qoyulan vəsait

$E_n$ – kapital qoyuluşunun normativ effektliyi (əvvəl 0,12 indi 0,16)

Göründüyü kimi ətraf mühitin qorunması təbii resurslardan səmərəli istifadə edilməsi dövlətin kompleks ardıcıl həyata keçirdiyi tədbirlər sistemi ilə bağlıdır.



downloaded from KitabYurdu.az

## *FƏSİL XXVIII . TƏBİİ RESURSLARDAN İSTİFADƏNİN HÜQUQİ ƏSASLARI.*

### *1. TƏBİƏTDƏN İSTİFADƏ HAQQINDA MÜASİR DÜNYA GÖRÜŞÜ.*

Sözün geniş mənasında ekologiya- cəmiyyətlə təbiətin qarşılıqlı əlaqəsidir. Daha müfəssəl desək insanın hər bir fəaliyyəti, ətraf mühitin dəyişməsi və təbii resurslardan istifadə şəraiti ilə əlaqədardır.

Qısa mənada təbiətdən istifadə- ətraf mühütin mühafizəsi və təbii resurslardan ilkin mənimsənilməsi, istifadəsi üzrə insan fəaliyyətinin xüsusiləşdirilmiş sistemdir.

Bütövlükdə təbiətdən istifadə təsərrüfat fəaliyyəti ilə əlaqədar olaraq insanların təbiətə təsiridir onunla əlaqəsidir.

Müasir dövrdə təbiətdən istifadəyə aşağıdakı istiqamətlərdə baxılır.

1.Cəmiyyətin təbii resurslarla təmin olunmasına və ətraf mühitin keyfiyyətinin saxlanılmasına istiqamətlənmiş məqsədyönlü fəaliyyət kimi .

2.Cəmiyyətlə təbiətin qarşılıqlı əlaqəsi prosesində yaranan münasibətlər sistemi kimi.

Təbiətdən istifadəni, insanları ətraf mühitin dəyişdirilməsi ilə birbişi və dolayı yolla əlaqədə olan fəaliyyətinin xüsusi növü kimi də baxmaq olar. Bu zaman təbiətdən istifadənin qövləri ayrılır;

- Əsas – ( kənd təsərrüfatı, meşə, su təsərrüfatı, hidroenerji)



downloaded from KitabYurdu.az

- Köməkçi – ( istehsal prosesində sudan istifadə)
- Əlavə, kənar – ( ətraf mühitin çirklənməsi).

Hüquqi nöqteyi-nəzərdən təbiətdən istifadə iki növdə həyata keçirilir;

ümumi və xüsusi. Ümumi təbiətdən istifadə heç bir xüsusi razılıq, icazə, rüsxət tələb etmir. Bu insanlara verilmiş təbii hüquq əsasında həyata keçirilir. Bu onların dünyaya gəlməsi və yaşaması üçün verilmiş insani hüquqlardır. ( məsələn insanlar nəfəs almalıdır, günəşdən qızınmalıdır və s.)

Xüsusi təbiətdən istifadə isə müvafiq dövlət orqanlarının ( müəssisələrin, təşkilatların) qanunçuluğu əsasında həyata keçirilir. Onlar məqsədli xüsusiyyət daşıyırlar. Məsələn, torpaqdan, sudan, meşələrdən, yerin təkindən, fauna və floradan istifadə qanunçuluqları.

Təbiətdən istifadə iqtisadiyyatın mühüm tərkib hissəsi olmaqla, mürəkkəb təşkilati struktura malikdir. Buna görə də ona aşağıdakı səviyyələrdə baxılır:

- Makrosəviyyədə.
- Regional səviyyədə.
- Mikrosəviyyədə.

Makrosəviyyə, təbii resursların aşkar edilməsi, çıxarılmalı, onların təkrar istehsalının həyata keçirilməsi, təbii resursların uçota alınması və ətraf mühitin mühafizəsinin təşkil edilməsi fəaliyyətlərini əhatə edən xüsusi orqanlar sistemidir. Bu



downloaded from KitabYurdu.az

orqanların tərkibi get-gedə genişləndirilməkdədir. Məsələn, maşınqayırma və cihazqayırma sənaye sahələrin də xüsusi təbiti mühafizə bloklarının yaranması, ekoloji xtdmət sektorunun təşkil edilməsi və s.

Regional səviyyə, regionda fəaliyyət göstərən infrastruktur sahələri əhatə edir. Məsələn, tullantıların toplanması, emal edilməsi su axınları sistemi, təmizləyici komplekslər, regional ekoloji manitorinq sistemi, ərazinin qorunması və müdafiyə edilməsi.

Mikrosəviyyədə – təbiətdən istifadəyə xidmət edən sahələr nəzərdə tutulur. Məsələn ekoloji xidmət bölməsi, şöbələri, sexləri. Onların əsas vəzifəsi istehsalda texnoqen vəziyyətin yaranmasına nəzarət etməkdir.

Təbiətdən səmərəli və səmərəsiz istifadə bir-birindən fərqləndirilməlidir.

Təbiətdən səmərəli istifədənin mahiyyəti, xətti iqtisadiyyatı, dairəvi iqtisadi prosesə çevirməkdən ibarətdir. Yəni istehsal prosesi elə təşkil olunmalıdır ki, tullantılar, zay məhsullar təkrar xammal kimi istifadə oluna bilinsin. Bu ekosistemin yüklənməsini azaldır, təbiətdən istifadəni sərfəli edir.

Təbiətdən, qeyot səmərəli istifadə ətraf mühitə antropogen təsirləri əhatə edir. Yəni ətraf mühitin çirklənməsi, təbii landşaftın korlanması, ayrı-ayrı bitki və heyvan növlərinin məhv edilməsi, ekosistemin elementləri arasında baş verir ki, bu da «demeriorasiya» adlanır. ( pisləşmə, xarab olma).



downloaded from KitabYurdu.az

Təbiətdən qeyri səmərəli istifadə olunması ekoloji böhranlara gətirir, əksinə təbiətdən səmərəli istifadə olunması isə nəinki maddi nemət alınmasına habelə ətraf mühitin mühafizəsinə səbəb olur.

Şəkil 42






downloaded from KitabYurdu.az

## *2. TƏBİƏTDƏN İSTİFADƏDƏ MÜLKİYYƏTİ HÜQUQİ MÜNASİBƏTLƏRİ.*

Bütün dünyada cəmiyyətlə təbiətin qarşılıqlı əlaqəsindəki ziddiyyətlərin mövcud olması, təbii resurslara mülkiyyət hüququnun qeyri müəyyənliyindədir. Ancaq və anaq dəqiq mülkiyyət hüququnun olması təbiətə dəyən zərərin əvəzinin ödənilməsinə və iqtisadi maxanizmlərin ekoloji səeraya yayılmasını genişləndirə bilər. Buna görə də ekoloji-iqtisadi problemlərlə məşğul olan bütün tədqiqatçıların diqqət mərkəzində təbii resurslara mülkiyyət hüququnun müəyyənləşdirilməsi durur.

İlk qövbədə nəzərə almaq vacibdir ki, təbii resurslara mülkiyyət hüququ müəyyən edilməlidir. Təbii resurslar dövlətə və xalqa məxsus olduğu üçün mülkiyyət hüququ hamiya şamil edilir. Yəni, təbii resurslardan hamı istifadə edə bilər, buna görədə ondan kimin necə istifadə etməsinə nəzarət etmək mürəkkəbdir. Buna görədə onlar xüsusiləşdirilə və alqı-satqı obektinə çevrilə bilməzlər. (Hava hövzəsi, çaylar, iri ekoloji sistemlər,landşaft,səs və elektrimaqnit spektirləri). Deməli təbii resurslara mülkiyyət münasibətlərində başlıca vəzifə mülkiyyət subektinin kimin olmasının müəyyən edilməsidir.

Azərbaycan Respublikasının mülkiyyət haqqında qanununda göstərilir ki, respublika ərazisi hüquqlarında torpaq (xüsusi mülkiyyətə verilməmiş sahələr) yerin təki, daxtlt sular və ərazi suları, qitə şelfi, xüsusi mülkiyyətdə olmayan bitkilər və heyvanlar aləmi, hava hövzəsi Azərbaycan Respublikası dövlətinin müstəsna



downloaded from KitabYurdu.az

mülkiyyətidir: habelə Respublika öz ərazisinə bitişik Xəzər dənizi iqtisadi zonasının ehtiyatlarına beynalxalq hüquqla təsdiq edilmiş hədlərdə sahiblik, onlardan istifadə və onlar barəsində sərəncam hüququna malikdir.

Göründüyü kimi torpaq dövlətin mülkiyyəti olmaqla yanaşı, xüsusi mülkiyyətə də verilə bilər. Bir tərəfdən o, dövlətin müstəsna hüquqi obektidir, alqı-satqıya məruz qala bilməz, digər tərəfdən xüsusi mülkiyyətə verilə bilər. Bu halın özü ziddiyyətlidir. Çünki belə halda ondan istifadə üzərində nəzarət çətinləşir. Buna görədə ilk əvvəl təbii resursların hansı obektlərinin hansı sərhədlərdə və mülkiyyətin hansı formasında hansı subektə verilməsi müəyyən edilməlidir.

Təbii resursların, ətraf mühitin elementlərinin mülkiyyətə verilməsi sərhədlərinin müəyyən edilməsində əsas prinsip kimi ekoloji sistemin bütövlüyünün-vahidliyinin qorunması nəzərə alınır. Bu zaman elə obektlərin bütövlüyü nəzərdə tutulurki, onlarda tarazlılıq-nizamlılıq təmin oluna bilinsin. Məsələn hava hövzəsində istifaddə olunması. Bu zaman dövlət təyərələrinin uçuşu ilə yanaşı xüsusi (çarter) reyslərdə fəaliyyət göstərirlər. Bu isə təbii sistemin iştirakçıları ilə onu idarə edənlər arasında mübahisələrə səbəb ola bilər. Buna görədə təbii sistem qorunub saxlanılmasını və təkrar istehsalını həyata keçirməyi bacaran mülkiyyətin olmasını tələb edir. Mülkiyyət münasibətlərinin belə tənzimlənməsi məqsədiilə müxtəlif təyinatlı qanunlar fəaliyyət göstərməlidir. ( hava hövzəsindən istifadə olunması haqqında qanun, su resurslarında istifadə qanunu və s.)



downloaded from KitabYurdu.az

Mülkiyyət obekti müəyyən edilərkən, ekosistemin tamlığı-vahidliyi prinsipindən əlavə resursların məhdudluğu prinsipi də nəzərə alınmalıdır. Əgər təraf mühitin resursları boldursa (limitləşdirilməmişdirsə) bu zaman mülkiyyət hüququnun müəyyən edilməsi mübahisə döğurmur. Lakin qolobal xarakterli təbii mühit ona neqativ təsir göstərilməsi nəticəsində tükənməyə meyillidir. Məsələn balıq ehtiyatının azalması.

Mingəcevir Sə Elektrik Stansiyasının tikilməsi Respublikanın enerji tələbatının ödənilməsində mühüm rola malik olmuşdur. Lakin onun mənfi tərəfidə vardır. Beləki,balıqlar Xəzər dənizindən Kür çayı boyunca yuxarıya doğrru hərəkət edirlərki, şirin suya tökülən kürü Xəzərin duzlu suyuna düşən müddətə qədəo canlıya çevrilə bilsin. Lakin onlar SES-nin su axırını yarıb kecə bilmirlər. (çünki həmin su azardan su çox surətlə çıxır). Nəticədə kürünü vaxtından əvvəl tökməyə məcbur olurlar. Bu isə kürünün canlıya çevrilməsi müddəti ilə yuğun gəlmir. Onlar dənizə çatanda canlı yox, kürü vəziyyətində olurlar ki, buda onların məhvinə səbəb olur. Bu səbəbdəndə vaxtilə müxtəlif balıq növləri ilə zəngin olan Kür çayında ində balıq tapmaq mümkün məsələyə çevrilmişdir.

Təbii obektlərə mülkiyyət subekti təsis edilərkən ekoloji-iqtisadi ictimailəşmə dinamikası ilə əlaqədar proses də nəzərə alınmalıdır. Ekoloji-iqtisadi ictimailəşmə, istehsalın ictimai xarakter daşıması ilə əlaqədar olub, təbiətlə cəmiyyət arasında enerji və informasiyaların mübadiləsi formasında çıxış edir. Bu özünü təbii-istehsal kompleksləri, sahələrarası sənaye qovşaqları, ərazi- istehsal



downloaded from KitabYurdu.az

birlikləri tullantısız istehsal müəssisələri və s.formalarda büruzə verir. Ekoloji-iqtisadi ictimailəşmə ekoloji-iqtisadi sistemin vahidliyi matlığı prinsipi əsasında müəyyən edilir.

Ekoloji-iqtisadi ictimailəşmə təbii resurslardan istifadənin ərazi təşkili prinsipi ifadə edir. Çünki, ətraf mühitin təmizliyi, bölünməz olmaqla kollektiv tələbatı ödəyən nemətdir. Bu onun təbii ictimai xarakterinin təbii olması ilə əlaqədardır.

Ekoloji-iqtisadi ictimailəşmənin mahiyyəti müxtəlif proseslərin qapalı ekoloji-istehsal dövriyyəsinə qovuşmaq, bununlada ekoloji sistemin və ətraf mühitin çirklənməsi xərclərinin əhəmiyyətli dərəcədə azaldılmasından ibarətdir. Ekoloji-iqtisadi ictimailəşdirmə elə texnoloji istehsal tipi tələb edirki, təbii mühitin imkanlarına əsaslanmış olsun.

Torpaq və təbii resurslardan istifadə üçün böyük səlahiyyətlərə və sərəncam verici hüquqa malik olan subektlərin təsbit edilməsi zamanı yuxarıda qeyd olunan prinsiplərdən əlavə təbii sərvətin ictimai dəyərliliyi
( qiymətliliyi) də nəzərə alınmalıdır.

Təbii resurslara mülkiyyət formalarına vəsaitlərin kapital tutumu və dövriyyə sürəti də təsir göstərə bilər. Həmçinin təbiətdən istifadədə mülkiyyət münasibətlərinin formalaşmasında xalqın, millətin qədim adıt və ənənəsinin nəzərə alınması vacibdir. Təbiətə münasibətdə hələdə bəzi xalqlarda, millətlərdə haram edilmiş adətlər qalmaqdadır (məsələn islam dini bəzi məhsullardan istifadəni qadağan



downloaded from KitabYurdu.az

edir). Bunlar təbiəti mühafizə qanunlarında yazılmasış və əvvəlki nəsillərdən bu günə kimi gəlib çıxmış adətlərdir.

Mülkiyyət hüququ, müxtəlif formalarda özünü biruzə verir; - sahib olmaq, istifadə etmək, sərəncam vermək. Bunlarda öz növbəsində mülkiyyət subyeklərinin müxtəlifliyi ilə əlaqədardır. Onlar əsasən mülkiyyətin üç funksiyasına əsaslanırlar:

1. Sərvətin məxsusluğunun müəyyən edilməsi və qeydə alınması.
2. İstehsal vasitələrindən istifadəyə daima maraq göstərmək mənbəyi kimi çıxış etmək.
3. Mülkiyyətdən effektli istifadə və onun taleyi haqqında məsuliyyət daşımaq.

Birinci funksiya sərvətin xalqa məxsusluğunu, onun mülkiyyəti olduğunu ifadə edir. Mülkiyyətin qalan iki funksiyası isə aktiv vadaredici xarakterə malik olub mülkiyyət subyektlərinin şəxsləndirilməsini tələb edir.

Təbii obektlərdə mülkiyyət funksiyasına baxılarkən mühüm məsələlərdən biridə ona sistem kiai; - sosial (birinci funksiya), təsərrüfatçılıq ( ikinci və üçüncü funksiyalar) baxılması ola bilər.

Sosial subekt kimi, cəmiyyət, xalq, gəbilə, kollektiv, şəxsiyyət nəzərdə tutulur. Təsərrüfatçı subekt kimi dövlət, respublika, (ölkə, vilayət) bələdiyyə, təşkilat müəssisə nəzərdə tutulur.



downloaded from KitabYurdu.az

Eyni zamanda sosial subektlər təsərrüfat subektlərinin funksiyasını yerinə yetirə bilər. Lakin onların maraqlarının tam yuğun gəlməsində fərqlər vardır.

Təbii sərvətlərə inhisarçı buraxılmamalıdır. Çünki mülkiyyətin məzmunu və təbii resurslardan istifadə xalqın yaşayış fəaliyyətinin əsasıdır. Mülkiyyətə sahib olan şəxs « nə istəyirəm onu da edirəm» prinsipindən çıxış etməməlidir. Təbii resursların hər bir mülkiyyətçisi, öz maraqı ilə yanaşı dövlətin, xalqın millətin marağınıda güdməlidir. Onlar hər biri resurslardan istifadə etməklə bahəm, onların təkrar istehsalına diqqət yetirməli, təbiətə zərərverici hərəkətlərdən çəkinməlidirlər.

Ümumiyyətlə təbiətdən istifadə və ona mülkiyyət hüququ mürəkkəb struktura malikdir və onu aşağıdakı sxemdə ifadə etmək olar.

Şəkil 43






downloaded from KitabYurdu.az

## 3. *QLOBAL EKOLOJİ TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİ*.

Üçüncü minilliyin əvvəlindən başlayaraq, planetdə insan cəmiyyətinin ekoloji təhlükəsizliyinin təmin olunması bir daha öz kəskin ifadəsini almışdır.

Dünyada baş vermiş dəyişikliklər, nəinki ayrı- ayrı fərdlərin həyatı üçün təhlükəlidir, bu habelə bütün canlı aləmə təhlükə yaratmışdır. Sivil iqtisadiyyatın texnogen fəaliyyəti, cəmiyyət üzvlərinin təmin olunması metodları ətraf mühiti elə bir fəlakətli vəziyyətə gətirmişdirki, onun qarşısının alınmaması planetdə canlı orqanizmlərin bir hissəsinin məhvinə səbəb ola bilər.

Müasir alimlərin tədqiqi sayəsində belə bir nəticəyə gəlinmişdir ki, qolobal təhlükələr ( ekoloji, iqtisadi, hərbi, energi demoqrafik, nüvə) insanların doğulduğu və yaşadığı məkan hesab olunan planetdə ümumiyyətlə yer svilyasiyasının məhvinə səbəb ola bilər. Qolobal təhlükələr, yerdə olan sitiutsiyanı gökündəe dəyişmişdir ki, cəmiyyət belə tez dəyişmələrə adaptasiya oluna bilmir, bu isə onun məhvinə səbəb ola bilən amil kimi çıxış edir.

İnsan cəmiyyətinin təkamülündə yaranmış böhram stiatsiyaları alimləri, dövlət və din xadimlərini gələcək inkişafın təhlükəsiz yolorının axtarılmasına cəlb etmişdir. Bununla əlaqədar olaraq onlar yaranmış vəziyyətin qiymətləndirilməsini formalaşdırmışlar.



downloaded from KitabYurdu.az

Bu sahədə akademik V.İ.Vernadekinin, 1926-cı ildə nəşr olunmuş «Biosfera» əsəri mühüm rol oynamışdır. Sonrakı əsərlərində o, bio sferanın növbəti mərhələdə inkişafı anlayışını « neosfera» kimi şərh etmişdir. ( neosfera yunan tərcüməsində « idrak sferası» anlamındadır).

V.İ. Vernadski tərəfindən « bio sfera» anlayışı təşlil edilmiş, təbiət qanunları və onları modelləri sistemləşdirilmişdir;

1.Orqanizmlərin və onların yaşadığı abiotik mühitdə genetiv və funksional ümumiliyi.

2. İnsan təbiətinin dəyişilməsinin iqtisadi modeli.

3.Canlı və cansız təbiətin qarşılıqlı fəaliyyət prosesi.

4. Yer səthinin yaşayışa yararlı istiqamətində keyfiyyətcə dəyişməsində canlı orqanizmlərin rolu ( atmosferdə oksigenin yaranması və saxlanması, atmosferin üst qatında azon, ekranının formalaşması).
5. Biosferanın inkişafında canlı cismlərin rolu.
6. Maddə və enerjinin cansız təbiətdən, orqanik dünyaya döğru hərəkəti prosesi.
7. Dünyada qolobal dəyişikliklər ( ekoloji, iqtisadi, demokrafik, hərbi, resurs, nüvə).
8. Qolobal ekoloji təhlükəsizliyin vəziyyətinin dəyişilməsi.

İnsanın meydana gəlməsi, canlı aləmdə və biosferada yeni dövrün

başlanmasına səbəb oldu. Ağıllı insan ətraf mühütin dəyişilməsinə nəinki adaptasiya olunmağa habelə öz yaşayışını təmin etmək üçün



downloaded from KitabYurdu.az

onu dəyişməyədə qadirdir. Onun yaranması gələcək təkamülü bəşəriyyətin müəyyən etdiyi məqsəddən asılı etmişdir.

V.İ.Vernadski yazmışdır ki, insanın meydana gəlməsi və inkişaf etmiş istehsalın yaranması Yerdə gedən bütün dəyişikliklərin həlledici amilidir və bu səbəbdəndə onların fəaliyyəti ağıllı məqsədyönlü xarakterə malik olmalıdır. Onların dünyanı və biosferanın dəyişilməsində ki, ağıllı fəaliyyəti « neosfera» anlamı kimi azah olunur. V.İ.Vernadski qeyd etmişdir ki, insan hamı tərəfindən mübahisəsiz qəbul edilən əsas geoloji qüvvədir.

Bəşəriyyətin gələcəkdə inkişafı mövqeyini «neosfera» nöqteyi nəzərdən təhlil edərək V.İ.Vernadski yazmışdır ki, xalqların dünya və bircəyaşayışı ancaq iqtisadi əsaslarda mümkündür. Bu iqtisadi əsas əvvəlki tarixi və geoloji inkişafa əsaslaqmalıdır. Bəşəriyyətin tarixi idrakın yüksəlməsi şəraitində geoloji tarixi inkişafın davamıdır. İdrakın yüksəlməsi ilədə, onun svilizasiyadakı, rolu artır. Çünki, idrakın inkişafı, insanların yeni dəyərlər yaratmasında daha çox rol oynamağa başlayır, texniki və intellekt səviyyəsini yüksəlməsinə şərait yaradır.

Müasir dünya, gedən müharibələrlə, zəlzələlərlə nüvə silahın isteşsalı ilə su daşqını, və s. təbii hadisələrlə əlaqədar qolobal ekoloji böhranla rastlaşmışdır. Qolobal ekoloji böhran vəziyyətini tədqiq edən alimlərdən D.X.Medouza «Bəşəriyyətin mürəkkəb vəziyyəti» və akademik N.N.Moiseyev «Müasir rasionalizm» əsərlərində svilyasiyanın inkişafını müəyyən edən prinsiplər sistemini formalaşdırmışlır;



downloaded from KitabYurdu.az

- insanların yeni məqsədləri əsasında biosferada tarazlığın yaradılması.
- Bəşəri mentalitet və əxlaqi yeniləşdirmə yolu ilə qolobal ekoloji böhranı və cəmiyyətin qolobal təhlükəsini dəf etmək.
- Dünyada qolobal dəyişikliklərin yeni reallığına uyğun ola bilən və insan tələbatına cavab verən sivilizasiyanın formalaşması.
- Neosferanın daşlanğıcı kimi dünyavi idraka yüksəlmək məqsədi ilə yer svilizisiyasının inkişafının təlqin edilməsi.
- Qolobal ekoloji təhlükəni dəf etmək üçün iqtisadiyyatın, elmin təhsilin, insan intellektinin inteqrasiyasının aparılması.

XX - əsrin sonunda və XXI – əsrin əvvəllərindən başlayaraq dünya

iqtisadiyyatının yüksəlişi, resurslardan intensiv istifadə ətraf mühitin dəyişilməsinə səbəb olmaqla yanaşı, qolobal iqtisadi fəlakətlərin başlanğıcını qoydu və bununlada ekosistemin tam dağıdılması təhlükəsi yaranmış oldu.

BMT-nın Stokholmda ( 1972) və Rio-dejaneyroda ( 1992) qolobal ekoloji təhlükədən çıxma probleminə dair iri miqyaslı konfransı keçirilmişdir. Həmin konfransda 114 dövlət başçısı və müxtəlif ölkələrdən 178 diplomat iştirak etmişdir. Həmin konfransda mövcud ekoloji təhlükənin və onun artması ehtimalı ( 1972-1992-ci illər) aparılan müşahidə əsasında belə müəyyən edilmişdir.



downloaded from KitabYurdu.az

- Quru ərazidə, ildə təbii ekosistem sahəsinin 0,5-1 % sürətlə azalması.
- İlkin bioloji məhsulun istehlakının artması ( 1985-ci ildə bu qruda 40%, qolobal miqyasda 25 % olmuşdursa 2030-cu ildə uyğun olaraq 80-85 % və 50-60 % olması ehtimalı vardır).
- Atmosferdə parnik qazının yığılması həcminin dəyişilməsi.
- İl ərzində ozon qatının 1-2 % tükənməsi, ozon dəliyi sahəsinin artması.
- Meşə sahəsinin ildən-ilə azalması sürətinin artması. ( il ərzində 117 min $km^2$)
- İl ərzində səhraların artma sürətinin 60 min $km^2$ qədər çaiması.
- Torpaqların erroziyasının artması nəticəsində illik münbitliyin 24 mlrd ton azalması.
- Təbii fəlakət və texniki avariyaların 5-7 %, tələfatın 6-12 % artması.
- Bioloji növlərin yox olması.
- Suyun keyfiyyətinin azalması
- Reaktiv-mühitin artması
- Həyat keyfiyyətinin pisləşməsi, xəstəliklərin artması və s.

Biosferaya dağıdıcı təsiri əsasən sənaye müəsisələri göstərir. Polad,
çuqun, əlvan metal, kazığ kütləsi, kimyəvi məhsulları istehsal edən zavod və fabriklər, atmosferə küllü miqdarda tullantı atırlar.



downloaded from KitabYurdu.az

Ətraf mühitə təsir edən və qolobal ekoloji böhranın başlanğıcı olan bəzi fəaliyyət dairələrinə nəzər yetirək.

İqtimin dəyişilməsi.

Atmosferdə karbon oksidinin təbii tərkibi qarşılışlı əlaqədə olan priseslərlə saxlanılır. Bu əlaqə hava şövzəsi, okean və biosfera arasında mövcuddur ki, onların məcmuu « Karbonun geokimyəvi tsikli» adlanır. İnsan fəaliyyəti atmosferə müəyyən tullantılar atmaqla karbon oksidinin təbii tərkibinə təsir göstərərək təbii parnik effektini gücləndirir. Son 100 il ərzində Yer kürəsində orta istilik 0,3 - 0,6$^{0}$S yüksəlmişdir. Hesab edilir ki, atmosferdə karbon oksidinin iki dəfə artması, orta istilik səviyyəsinin 1,5 – 4,5$^{0}$ S yüksəlməsinə səbəb ola bilər.

İqlim dəyişiklikləri aşağıdakı proseslərin toqquşması nəticəsində baş verir.

1. Hazırki vaxtda təezibedilməz məlumatlar mövcuddur ki, təbiətdə gedən dəyişikliklər kənd təsərrüfatına əhəmiyyətli dərəcədə təsir göstərir. Məsələn iqlimin dəyişilməsi ziyanvericilərin əoxalmasına səbəb ola bilər. Buna görədə kənd təsərrüfatına texniki və texnoloji yanaşma yeniləşdirilməlidir. Və ya bir regionda bu və ya digər məhsulun istehsalını azaltsaq, digərində isə artırmaq vacib gəlir və s.
2. Yerin təbii ekosistemi iqlim dəyişilməsini özündə əhəmiyyətli dərəcədə hiss edə bilir. Bu isə fauna və floraya



downloaded from KitabYurdu.az

təsir göstərir və onlarda uyğunlaşma halı baş verir. Belə halda fauna və floranın bir növündə məhsuldarlıq arta, digərində isə azala bilər.

3. İqlim şəraitinin dəyişilməsi su hövzəsinin dəyişilməsinə səbəb ola bilər. Belə vəziyyətdə quraqlıqlar yarana bilər və ya çoxlu yağışların yağması nəticəsincə bataqlıqlar meydana çıxa bilər və s. Nəticədə içməli su qıtlığı yarana bilərki, bu hal planetin bəzi regionlarında indinin özündədə mövcuddur.

Torpağın ozon qatının tükənməsi.

Ozon dəliyinin artmasına daha çox təsir göstərən kimyəvi element ( xlorftoruqlerod – boğucu rəngsiz karbon qazı) rəngsiz boğucu karbon qazının atmosferdə çrxalmasıdır. Zərərli ozon yer səthindən 25-70 km yüksəklikdə süzkəc kimi, günəş şüalarının qabağını kəsir, bu isə ulturabənövşəyi şüaların canlı orqanizmlərə çatmasının qarşısını alır ki, buda yaşayış üçün çox zərərlidir.

Təhlükəli tullantılar və kimyəvi məhsulların zəhərliliyi.

Bütün kimyəvi məhsullar müəyyən qədər zəhərli elementlərə malikdirlər. Onların təhlükəliliyi zəhərlilik səviyyəsinə və insan orqanizminə təsir dərəcəsinə görə müəyyən edilir. Hətta ən kiçik miqdarda ( milyardda bir hissə) dioksen insan orqanizmi üçün təhlükəlidir və yaxudda dəmir oksidi,maqtiturşusu insan orqanizminə uzun müddətdə təsir göstərdiyi halda təhlükəlidir.



downloaded from KitabYurdu.az

Müasir teksiologiyanın əsas nəaliyyəti, zəhərli maddələrin insan orqanizminə qısa müddətli təsirini öyrənməklə yanaşı, onun təsirinin sonrakı dövrlərdə hansı fəsadları yaratmasını tədqiq etməkdir. ( Məsələn genə keçməsi, bəd xassəli şişlərin yaranması, əsəbi pozğuntular və s.)

Hazırda ən çirkli regionlar amerika və avropa baseyinin çayları Temza, Reyn, Elza, Dunay, Visla sayılır. Bu regionlarda son 100- 150 ildə sənaye geniş inkişaf etmişdir vvə çoxlu tullantı toplanmışdır.

Respublikada Kür və Araz çaylarıda çirkli hesab edilə bilər. Çünki bədnam qonşularımız (Ermənistan) respublikada bütünlükdə mövcud olan zəhərli maddələri Araz çayına tullayır. Gürcüstanın bütün çirkab suları Kürə tökülür. Hərçənd Kür çayının suyunda olan tullantılar Migəçevir dənizində müəyyən qədər çöksədə yenə özündə zəhərli elementləri daşıyır.

Beləliklə zahırda ətraf mühitə güzlü təsir edən sahə sənaye sayılır. Cəmiyyət qolobal ekoloji təhlükənin başlanğıcındadır. Dünya planetar dəyişiklik vəziyyətindədir ki, buda insanların iqtisadi fəaliyyətinə və sosial vəziyyətinə təsir göstərir.



downloaded from KitabYurdu.az

# FƏSİL XXIX. İSTEHSAL RESURSLARINDAN İSTİFADƏNİN TƏNZİMLƏNMƏSİ.

## 1. İSTEHSAL RESURSLARI ANLAYIŞI.

Sosial iqtisadi inkişafın məqsədi ilə cəmiyyətin resursları ayrılmaz vəhdət təşkil edir. Ölkənin resurs potensialı onun sosial-iqtisadi məqsədini yerinə yetirməyə imkan verir. Buna görə də məqsədlə resursların balanslığın təmin olunması effektli iqtisadiyyatın yaradılmasına imkanları artırır. Müasir dövrdə məqsədlərin strukturu əhəmiyyətli dərəcədə mürəkkəblinmiş və resurs potensialının keyfiyyət dəyişiklikləri baş vermişdir.

Respublikada iqtisadi stabilləşmənin ziddiyətlərinin müxtəlifliyi nöqteyi nəzərindən sərf nəzər etsək, ölkədə iqtisadi inkişafın inkar edilməz bir fakt vardır ki, bu onun əhəmiyyətli potensiala malik olmasıdır. Azərbaycan karbohidrogen resursları ilə məşhurdur. Respublikada neftin sənaye üsulu ilə çıxarılmasından ötən 120 ildə 1 mlrd 400 min tondan çox neft hasil edilmişdir.

Hal-hazırda Azərbaycana aid olan dəniz bölməsində 6,3-6,4 mlrd ton neft ehtiyatı aşkar edilmişdir ki, onunda 2/5 hissəsi çıxarılmışdır. Ölkədə qaz ehtiyatının 1/5 çıxarılmışdır. Göründüyü kimi, Respublikanın resursu hələ tükənməmişdir.

Ölkənin təbii resurslara malik olması onun inkişafında aparıcı rol oynasada, məhsuldar qüvvələrin digər elementləridə mühüm əhəmiyyət kəsb edirlər. Müasir dövrdə müəyyən qədər



downloaded from KitabYurdu.az

həlledici digər resurslarında rolu az deyildir; yeni ideyalar formasında intellektual resurslar, o cümlədən kommersiya ideyaları, idarəetmə resursları və s.

Azərbaycan Respublikası əhəmiyyətli təbii resurslara malik olsada, hələdə beynəlxalq bazarda neft və qaz məhsulları ilə tanınır. Dünya ümumi daxili məhsulunda Azərbaycanın xüsusi çəkisi i qədər də çox deyildir. Bu isə Respublika iqtisadiyyatının zəif inkişafı ilə əlaqədardır.

Cəmiyyətin resurs potensialı sosial-iqtisadi inkişaf məqsədinin reallaşdırılması üçün obyektiv bazadır. Bununla belə, o qarşıya qoyulmuş məqsəddən asılı olaraq, məqsədyönlü dəyişikliklərə məruz qalır. Buna görə də məqsəd və rkesurs bir-biri ilə sıx əlaqədə olub, sosial-iqtisadi inkişafın proqnozlaşdırılmasına şərait yaratmış olur. Ölkənin resurs potensialı son istehlak tələbini ödəmək üçün məhsul istehsal etmək qabiliyyətini müəyyən edir.

Maddi nemətlərin ictimai istehsalı, istehsal resurslarının mənşəyənin dəyişdirilməsidir ki, nəticədə məhsul istehsal olunur. İstehsal olunmuş məhsul isə istehsal resurslarını artırır, tamamlayır.

Resurs potensialının, resurs anlayışının qəbul edişlmiş elmi tərifi yoxdur.Lakin resurs potensialının, anlayışının müəyyənliyi vardır. Resurs potensialı ölkənin imkanlarını onun iqtisadi qüdrətini, gücünü ifadə edir.

Resurs potensialı- iş qüvvəsinin, enerji, informasiya,vasitələr və s. birlikdə fəaliyyəti olub, maddi nemətlər və xidmətlərin istehsalı prosesində iştirak etməsi məcmuudur. Resurs potensialını özəyini



downloaded from KitabYurdu.az

məhsuldar qüvvələr təşki l edir. Onun müəyyən hissəsi «milli sərvət» anlayışınada daxil edilir. Resurslar kəmiyyət və keyfiyyətinə görə fərqləndikləri kimi istifadə səviyyəsinə görə də fərqlənirlər.Buna görə də resurs potensialı onun ayrı-ayrı növlərini əhatə etdiyi kimi, onlardan istifadə səviyyəsinidə əhatə edir.

Resurs potensialının səviyyəsi təhlil edilərkən və proqnozlaşdırılarkən, onun növlərinə ayrı-ayrılıqda baxmaq olar.Bu şərti xarakter daşıyır. Lakin nəzərə alsaq ki, resurs potensialı qarşılıqlı əlaqədə olan vahib sistemdir, bu zaman onlardan istifadə tarazlı olmalı, birinin digərinə olan nisbətində optimallılıq gözlənilməli və tənzimlənməlidir.

## *2. İSTEHSAL RESURSLARININ STRUKTURU.*

Ölkənin iqtisadi sosial inkişafına istehsal resursları həlledici təsir göstərir.Onların optimal strukturu, qarşılıqlı əlaqəsi əsasında ölkənin iqtisadi gücü müəyyən edilir.

İstehsal resurslarının mühüm xüsusiyyəti onların məhdudlüğüdur.Lakin istehsal resurslarının tərkibində məhdud olmayan, hüdudsuz resurslarda vardır; məsələn iqlim, atmosfer, günəş enercisi və s. Su resursları da məhdud hesab edilir.Lakin ondan səmərəli istifadə edilməsinə qayğı göstərilməlidir. Məsələn



downloaded from KitabYurdu.az

dünya iqtisadiyyatı öz tələbatı üçün su ehtiyatənın 10% qədərini istifadə edir.

İqtisadi fəaliyyət üçün bütün resurslardan istifadə zəruri haldır. Buna görədə istehsalın resursaqənaət qaydasında istifadəsi nəzərdə tutulmalıdır. Lakin ifrat resursaqənaət qaydasıda effektli deyildir. Çünki, hər bir məhsulun, keyfiyyət və kəmiyyət parametrləri vardır. Resursaqənaət qaydasına əsaslanaraq həmin parametrlərin sıxışdırılması da, istehsal olunmuş məhsulun effektivliyinə əks təsir göstərə bilər. Müasir dünya iqtisadiyyatında enerci resurslarına tələbat əsas yer tutur. Çünki, enerci resursları texnoloji tərəqqinin əsasıdır.Elm tutumlu sahələrin inkişafı iqtisadi artımın keyfiyyətinə bir başa təsir göstərir. Dünya bazarında 1990-cı illərin əvvəlində 1 barel neftin qiyməti 8-9 ABŞ dollarına qədər yüksəlmişdirsə,artıq 2004-cü ilə bu qiymət 50 ABŞ dollarından yuxarı olmuşdur. Dünya əhalisinin 5 %-nin yaşadığı ABŞ-da, bütünlükdə dünyada istehsal olunan ilkin enerjinin 25 % istifadə edilir.

Azərbaycanda yanacaq-enerci resursları 2003-cü ildə 46,0 mln.ton ( şərti yanacaq hesabi ilə) təşkil etmişdir. Ölkə daxilində onun 60,9%-i istehlak edilmişdir. Resursların qalan hissəsindən 33,5% ixraca 2,7% itgiyə getmiş 2,9% ehtiyat kimi saxlanılmışdır.

İstehlak olunmuş yanacağın 27,6% elektrik və istilik enercisinin alınmasına, 33,7% xammal kimi 38,7% digər ehtiyaclara sərf olunmuşdur.



downloaded from KitabYurdu.az

«Üçüncü dünya» ölkələrinin intensiv inkişafı enerci resursları problemini daha da kəskinləşdirmişdir.

İqtisadi inkişaf prosesində istehsal resurslarının tərkibinin genişlənməsi halı baş verir. Buna görə də istehsal resurslarına aid edilir:

A/ təbi resurslar

B/ əmək resursları

V/ investisiya resursları

Q/ elmi-texniki tərəqqi

D/ informasiya resursları

E/ intellektual resurslar.

Bu resurslardan bəzilərinin respublikada mövcudluğu və istifadə səviyyəsinə nəzər salınması zəruridir.

<u>A) Təbii resurslardan istifadənin tənzimlənməsi.</u>

Bu resurslara iqtisadi dövriyyəyə cəlb olunmuş təbiət elementləri daxildir. Onlar istehsal prosesindəki əmək cisimləridir. Bu kənd-təsərrüfatında – torpaq, içməli su, və s. sənayedə- fazdalı qazıntı ehtiyatından ibarətdir.

İstehsal resursu kimi təbii resurslara tələbat, istehsal prosesi ilə əlaqədar meydana çıxır.Yəni istehsal prosesinin ona tələbatı olduğu halda təbii resurs istehsal resursu kimi çıxış edir. Öz növbəsində təbii resurslardan istifadə texniki tərəqqinin inkişafı ilə əlaqə



downloaded from KitabYurdu.az

genişlənir. Məsələn faydalı qazıntılardan səmərəli istifadə ancaq texniki vasitələrin tətbiqi ilə mümkündür.

Neft yanacaq kimi şələ bizim eradan 600 il əvvəl məlum idi, lakin sənaye istehsalında yanacaq kimi istifadəsi XIX əsrin 60-cı illərindən başlanılmışdır. Bu dövrdən başlayaraq neftin yanacaq məhsulu kimi real istifadəsi texniki inkişaf nəticəsində mümkün olmuşdur. Başqa bir misal XX əsrin ikinci yarısına kimi, dəniz şelfində olan neft yataqlarına resurs kimi baxılmırdı. Hazırda texniki tərəqqinin inkişafı ilə əlaqədar bu yataqlardan səmərəli istifadə olunur.

Bununla əlaqədar olan istehsal resurslarına təbii resursların r hissəsi aiddir ki, onlar ya tam mənimsənilib, yada kəşf olunub istifadəsi gözlənilir.

B) Əmək resursları

İstehsal resurslarının tərkibində əmək resursları xüsusi yer tutur. Əsas milli sərvət- ölkənin intellektual potensialı olan insan resursu, onların bilik və bacarıqlı dəyərlər sistemi, yapradıcılıq qabiliyyəti və s. iqtisadi artımı, əhalinin yaşayışını yaxşılaşmasını milli təhlükəsizliyi təmin edir.

İqtisadi anlamda istifadə olunan «əmək resursları» son zamanlar istehsalın şəxsi amili kimi «əmək potensialı» «insan potensialı» kimidə ifadə olunur. İqtisadçı alimlərin onların mahiyyəti haqında vahid fikir yoxdur.

V) İnvestis iya resursları.



downloaded from KitabYurdu.az

İqtisadi mahiyyətcə investisiya resursları- əsas və dövriyyə kapitalının texniki silahlanmasına, rekonstruksiya edilməsinə, genişləndirilməsinə və yeni yaradılmasına sərf olunan vəsaitdir. İqtisadiyyatın investisiya potensialı-milli gəlirin kəmiyyətindən asılıdır, daha müfəssəl desək onun yığıma gedən hissəsi çox və az olması investisiya potensialını müəyyəe etməyə imkan verir. İnvestisiya potensialının genişləndirilməsi əsasən daxili resursların hesabına formalaşsada ( büdcə vəsaiti, müəssisələrin vəsaiti) onun müəyyən hissəsi xarici investorların hesabına həyata keçirilir.

Q) Elmi texniki tərəqqi.

Elmi texniki tərəqqinin, xüsusi növ kimi istehsal resurslarına daxil edilməsi resursların məhdudluğu ilə əlaqədardır. Çünki, ETT-nın hesabına məhdud resurslardan effektli istifadə etmək mümkündür. İntensiv inkişaf edən iqtisadiyyatda stabil iqtisadi artıma, elmi texniki tərəqqqi əsasında ictimai əməyə qənaət edilməsi hesabına nail olunur.Buna görədə Elmi Texniki Tərəqqi gələcək inkişafın əsas resursuna çevrilir.

D) İnformasifa resursu.

Müasir texnoloji inkişafda informasiya resurslarının mahiyyəti dahada artır. Digər resurslardan fərqli olaraq informasiya resursları istehsal prosesində xərclənir. Elm tutumlu texnologiyaya əsaslanan yeni istehsal sistemində mərkəzi yeri informasiya resursları tutur. İnformasiya ictimai istehsalın amilinə və əsas resursa çevrilir.



downloaded from KitabYurdu.az

İnformasiyanın bu iqtisadi sistemin amilə transformasiya olunması aə çevrilməsi «informasiyalaşdırma» anlamı kimi qəbul edilmişdir.

İnformasiya texnologiyasının əsasını informasiya-kommunikasiya sistemi durur. İnformasiya-kommunikasiya sistemi isə EHM-nı,müxtəlif rabitə sistemlərini, proqram, məlumatların bazasını birləşdirir.

Qolobal kampyuter şəbəkəsinin yaranması və onların İNTERNET sistemi vasitəsilə birləşməsi, vahid dünya informasiya məkanın formalaşmasına imkan vermişdir. İctimai inkişafın yeni keyfiyyəti,müasir cəmiyyətdə «informasiya cəmiyyətində» yeni xüsusiyyətdə əks olunmuşdur.

## 3. *İNTELLEKTUAL VƏ İNFORMASİYA RESURSLARI.*

Maddi aləmin ən mühüm resursu kimi insan cəmiyyəti çıxış edir. İnsanların intellektual səviyyəsi və mentaliteti cəmiyyətin məkmil və ya qeyri təkmil olması haqqında fikir söyləməyə imkan verir. İnsanların intellekti onun düşüncə tərzinin şürunun, idrakının hansı səviyyədə olmasını müəyyən edir. İnellekt idrakın tərkib hissəsi kimi çıxış edir.



downloaded from KitabYurdu.az

Şəkil 44




Müasir cəmiyyət, şüurlu fərdlərdən şəxsiyyətlərdən ibarətdir. Ümumidən xüsusiyə döğru hərəkət edərək, şəxsiyyətin şüurunun strukturuna diqqət edək. Şüurun idrakın özəyini, geniş məlumata malik olmaq, intellekt, ideya, mənəvi dəyərlər təşkil edir. Şüurda intellekt xüsusi funksiyaya malikdir. İntellekt – təfəkkürun dəqəq determinantləşdərəlmış alqoritm əsasında əks etdirilməsi qabiliyyətidir.

İctimai tərəqqinin qeyri-mütəşəkkil inkişafı, özündə intelekti əks etdirən istehsal vasitələrinin toplanmasına və nəsildən-nəsilə verilməsinə səbəb olmuşdur. Bunanla yanaşı nəsildən-nəsilə həyat təcrübəsidə verilmişdir. Bu həm təbii həm də süni şəkildə baş vermişdir.

Təbii intellekt üç əsas formada mövcuddur.



downloaded from KitabYurdu.az

Şəkil 45

Mentalitet

Fərasət → Zəka, ayıqlıq zirəklik → Təfəkkürlü ağıllı iti ağıllı

Bu deyilənlərə istinad edərək, qeyd etmək olarki, ictimai şüurun inkişafı öz ifadəsini məhsuldar qüvvələrin inkişafında əks etdirir. Məhsuldar qüvvələrin intellek səviyyəsi istehsalın aparıcı qüvvəsinə çevrilir.

İstehsal resursu kimi informasiya da mıhım rola malikdir.

Cədvəl 75[1]

Meşə təsərrüfatı

| | 2000 | 2001 | 2002 | 2003 |
|---|---|---|---|---|
| Dövlət əhəmiyyətli meşələrin bərpası Min ha | 5,3 | 5,0 | 7,5 | 8,7 |
| Dövlət əhəmiyyətli meşələrdə savan ağacların qiymətli ağaclar kateqoriyasına keçirilməsi Min ha | 3,3 | 2,0 | 3,2 | 3,1 |
| Yancın baş vermiş meşə sahəsi ha | 264 | 13,7 | 15,0 | - |

[1] Az.st.rəq.2003, səh 354



downloaded from KitabYurdu.az

| | | | | |
|---|---|---|---|---|
| Meşəyə xidmət və sanitariya qırmaları<br>Min ha | 5,5 | 4,0 | 4,6 | 2,8 |
| Satıla biləcək oduncaq qırılmışdır<br>Min $m^3$ | 63,8 | 45,9 | 52,7 | 22,0 |

Göründüyü kimi meşə təsərrüfatlarından istifadə müəyyən qədər nizama düşməyə başlamışdır. Beləki dövlət əhəmiyyətli meşələrin salınması 61,4 % artmış, meşələrin qırılması isə 3 dəfə azalmışdır. Bu meşə resurslarına göstərilən çayğının nəticəsi kimi qiymətləndirilə bilər.

## 4. *ƏSAS İSTEHSAL FONDLARINDAN İSTİFADƏNİN TƏNZİMLƏNMƏSİ.*

İstehsal amili kimi istehsal fondları təkrar istehsal prosesinin dəyişilməz elementidir. Çünki istehsal fəaliyyətinin tam olması əmək vasitələri, əmək cisimləri və canlı əməyin birgə qarşılıqlı əlaqəsi sayəsində mümkün olur. Bu elementlərdən birinin olmaması istehsal fəaliyyətinin baş tutmaması deməkdir. Hər üç elementin mövcudlüğü şəraitində məhsul yaradan sahələr maddi istehsal



downloaded from KitabYurdu.az

sahələrini təşkil edirlər. Elementlərdən birinin olmaması, həmin sahənin qeyri istehsal sahəsi olduğunu göstərir.

Əmək vasitələri ilə əmək cismləri birlikdə istehsal vasitələri adlandırılır. Bu iqtisadi nəzəriyyə baxımından belədir. Sahəvi baxımdan isə əmək vasitələri ilə əmək cismlərinin məcmu istehsal fondları adlandırılır.

Təkrar istehsal prosesinin təmin olunması üçün istehsal fondlarından səmərəli istifadə edilməsi mühüm məsələdir. İstehsal fondlarından istifadə səmərəliliyinin durmadan artirılması onların iqtisadi mahiyyətinin müəyyənliyi ilə bilavasitə əlaqədardır.

Bildiyimiz kimi, cəmiyyətin həyatının əsasında maddi nemətlər istehsalı təşkil edir. Maddi nemətlər istehsalı cəmiyyətin iqtisadi formasiyasından asılı olmayaraq işçi qüvvəsi, əmək cisimləri və vasitələrinin qarşılıqlı əlaqəsindən ibarətdir və bütün bu prosesləri özündə birləşdirir. İstehsalın yuzarıda gösrərilən ünsurləri həm də bir-birindən asılıdır.Belə ki, əmək vasitələrinin inkişafı əmək cisimlərinin texniki səviyyəsinin yüksəldilməsinin, onların təkmilləşdirilməsinin, əmək cisimlərinin təkmilləşdirilməsi isə,öz növbəsində, müasir maşın və aavdanlıqların yaradılmasının əsas şərtlərindən biridir.Əmək prosesində insanlar həm əmək cisimlərinin, həm də əmək vasitələrini təkmilləşdirməklə yanaşı, özlərinin ümumi istehsal vərdişlərini və bilik səviyyələrini də yüksəldirlər. Belə şəraitdə canlı əmək istehsal prosesinin əsasını təşkil edir. Bununla belə, insanlar maddi neməğlərin müəyyən miqdarının istehsal vasitələrinin köməyilə yaradırlar.



downloaded from KitabYurdu.az

Müəyyən  vaxt ərzində istehsal olunan maddi nemətlərin miqdarı istehsal vasitələrinin, daha doğrusu, əmək vasitələrinin texniki səviyyəsindən asılıdır.

Fondların istehsalı əmək vasitələrini və əmək cisimlərini əhatə etməklə, məhsuldar qüvvələrin əsasını təşkil edir.

Ancaq onlar quruluşuna görə elə istehsal fondları və ümumilikdə istehsal vasitələridirlər. Buna görə də istehsal amili kimi, əsas fondları fəaliyyətinin təşlilinə nəzər salmaq lazımdır. Çünki əsas itehsal  fondları əmək vasitələri olmaqla, cəmiyyətin insan əməyi ilə yaradılmış xüsusi mülkiyyətidir. O, istehsalın müxtəlif mərhələlərində iştirak edir.



downloaded from KitabYurdu.az

# *BÖLMƏ VII DÖVLƏTİN REGİONAL SİYASƏTİ.*

## *FƏSİL XXX. DÖVLƏTİN REGİONAL STYASƏTİNİN MAHİYYƏTİ.*

### *1. REGİONAL SİYASƏTİN MAHİYYƏTİ VƏ MƏQSƏDİ.*

Regional siyasətin əsas məqsədi dedikdə, ümumiqaydada region iqtisadiyyatının hərtərəfli və optimal inkişafı nəzərdə tutulur.

Regional iqtisadiyyatın optimal inkişafı üçün hər şeydən əvvəl məlsuldar qüvvələrin səmərəli yerləşdirilməsinə fikir verilməlidir. Yəni məşsuldar qüvvələrin yerləşdirilməsi prinsiplərinə diqqət yetirilməlidir.

1. Regionda məhsuldar qüvvələrin, proporsional yerləşdirilməsi və onların dinamiki inkişafının təmin olunmasıdır;

2. Müxtəlif istehsal sahələrinin xammal mənbələrinə yaxınlaşdırılması. Bu məhsul istehsalında qənaət rejiminə əməl edilməsinə imkanı artırır;

3. Regionun şəhər və kəndləri arasındakı fərqlərinin ləğv edilməsi, sosial iqtisadi inkişaflarının bir-birinə yaxınlaşdırılması;

4.Respublika səviyyəsində regionun müdafiə qabiliyyətinin artırılması;

5.Regionda təbii resurslardan səmərəli istifadə və təbiətin mühafizə olunması.



downloaded from KitabYurdu.az

6. Regionda əmək resurslarının səmərəli yerləşdirilməsi və istifadənin yaxşılaşdırılması.

Bütün bunlar əsasında regionda məhsuldar qüvvələrin yerləşdirilməsinin baş planı müəyyən edilir və aşağıdakı ardıcılıqla həyata keçirilir;

Öncə regionda son illər ərzində məhsuldar qüvvələrin yerləşdirilməsinin təhlili aparılır.

Məhsuldar qüvvələrin gələcək inkişafı və yerləşdirilməsi imkanları araşdırılır. (əhalisi, əmək resursları, sənayesi, kənd təsərrüfatı və s. araşdırılır).

Regionda əsas inkişaf təmayüllünün istiqamətləri müəyyənləşdirilir;

Sənaye qovşağı, kənd təsərrüfatı və s., inkişafı səviyyəsi araşdırılır, onların nisbətini müəyyən edilir;

Məhsuldar qüvvələrin yerləşdirilməsinin iqtisadi effektivliyi müəyyənləşdirilir;

Respublikada gələcək dövrünün baş planında regiononlar üzrə sosial-iqtisadi inkişaf nəzərdə tutulmuşdur.

Məsələn Abşeron iqtisadi rayonu. Neft kimya sənayesinin inkişafı ilə əlaqədar olaraq maşınqayırma, elektrotexniaka dəqiq cihazlar istehsalı üzrə ixtisaslaşması nəzərdə tutulur;

Digər regionların əksəriyyətinin inkişafında başlıca yeri aqrar-sənaye kompleksinin inkişafı və kənd təsərrüfatı xammalının ilkin və son emalı üzrə müvafiq sənaye sahələrinin inkişafı nəzərdə tutulur. Bununla belə bir sıra sənayecə inkişaf etmiş regiononlarda



downloaded from KitabYurdu.az

xüsusilə Naxçıvanda, Sumqayıtda və s-də azad iqtisadi zonolarının yaradılması və inkişaf etdirilməsi istiqamətləri nəzərdə tutulur.

## 2. *İQTİSADİ İNKİŞAFDA REGİONLARIN YERİ VƏ ROLU.*

Məlum olduğu kimi dövlətin regional siyasəti iqtisadi şəraitə uyğun olaraq yeni istehsal sahələrinin yerləşdirilməsi məqsədəuyğunluqdan irəli gəlir.

Regional siyasət aşağıdakı sosial problemləri həll etməyə imkan verir.

1.Rayonlar üzrə əhalinin həyat səviyyəsinin yüksəldirməsi.

2.Regionda əhalinin yerləşdirilməsi və məşğulluğun təmin edilməsinə fikir vermək.

Region daxili təbii resursların qorunmasının və istifadəsinin elmi əsasını əsasını hazırlamaq.

Yuxarıda qeyd etdiyimiz kimi regional iqtisadi inkişafın mühüm cəhəti məhsuldar qüvvələrin yerləşdirilməsinin elmi əsasının olmasıdır. Bunun üçün müəyyən elmi-texniki tədqiqatlar aparılır.

1. ETT-nin regional istiqamətinin öyrənilməsi.

2. Regionun təbii resurslarla təmin olunması səviyyəsinin müəyyən edilməsi.

3.İstehsalın ərazi təşkilinin təhlili.



downloaded from KitabYurdu.az

Regional istisadiyyatın inkişafı kompleksi ərazi planı əsasında aparılır. Bunun üçün aşağıdakılara diqqət verilir:

1. Təbii resurslardan səmərəli istifadə olunmasına
2. Əmək resurslarından istifadə səviyyəsinə
3. Əhalinin həyat səviyyəsinə
4. İstehsal və sosial infrastruktur olmasına
5. Əsas resurslarından istifadə səviyyəsinə
6. Əsas vəsait qoyuluşundan səmərəli istifadə olunmasına

## 3. *«PROBLEM» RAYONLAR VƏ ONLARIN İNKİŞAFININ TƏNZİMLƏNMƏSİ.*

«Problem» rayon dedikdi az istehsal resursları ilə təmin olunmuş ərazilər nəzərdə tutulur. Həmin rayonlarda istehsalın bütün komponentləri tam olmur. Məsələn faydalı resursu mövcuddur, əmək resursu da vardır, lakin nəqliyyat infrastukturu zəifdir.

Həmin rayonların mənimsənilməsi üçün müəyyən tədbirlər sistemi işlənib hazırlanır. Məsələn, güzəştli investisiya qoyulur,rayonda əhalinin məskunlaşması üçün onlara müddətli ssuda verilir. «Problem» rayonların yaranması müxtəlif səbəblərdən ola bilər. Buna təbii fəlakət, müharibələr və s. səbəb ola bilər.



downloaded from KitabYurdu.az

Ölkəmizdə gedən işğalçı müharibə qurtardıqdan sonra, azad olunmuş rayonların hamısı «problem» rayonlar sırasına daxıl edilərək, onların yenidən bərpası üçün dövlətimiz qarşısında mühüm vəzifələr duracaqdır.

Qeyd etmək lazımdır ei, bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq hələ keçmiş ittifaq dövründən problem rayona daxil olan ərazilərin inkişafının tənzimlənməsi dövlətin bu sahəyə daha gücdü investisiya qoumasına zərurət yaratmışdır. Odur ki, problem rayonların inkişafını tənzimləməkdən ötəri dövlət büdcəsi ilə yanaşı yerli bələdiyyə orqanlarının büdcə vəsaitindən də istifadə etmək lazımdır.

## *4. REGİONLARIN KOMPLEKS İNKİŞAFININ TƏNZİMLƏNMƏSİ*

Makroiqtisadiyyatın tərkib hissəsi olan regionların kompleks inkişafının tənzimlənməsi bazar iqtisadiyyatının mahiyyətindən irəli gəlir. Belə ki, bütövlükdə iqtisadi sistemin transformasiyaya uğraması regional inkişafın tənzimlənməsini əsil zərurətə çevrilmişdir.

Bu məqsədlə ölkə miqyasında iqtisadi islahatların xüsusilə özəlləşdirilmənin həyata keçirilməsi problemin həlli üçün xüsusi şərait üaradılmış olur. Respublikada iqtisadi islahatların həyata keçirilməsi istiqamətində qəbul olunmuş hökümət qərarlarında və



downloaded from KitabYurdu.az

qanunvericilik aktlarında regionlar ya respublikanın keçildilmiş miqyasda maketi kimi, yaxud da həmin regionlarda təsərrüfat obyektlərinin mexaniki toplusu, məcmu kimi götürülür. Yeri gəlmişkən qeyd etmək olar ki, belə yanaşmaq mərkəzləşdirilmiş planlaşdırma və idarəetmənin mövcud hökümət tərəfindən yeridilən təsərtüfatçılıq olduğu bütün illərdə mərkəzi üsullarını və iqtisadi siyasətin saxlanması nəticəsidir. Nəzərə almaq lazımdır ki, regional siyasət bütünlükdə iqtisadi siyasətin o sahəsidir ki, burada mərkəzləşdirilmiş planlaşdırma, idarəetmə, fondlaşdırma və investisiya siyasəti özünü daha güclü şəkildə göstərir. Respublikada onun regionlarında təsərrüfat strukturunun formalaşması, heç də yerli ehtiyatlardan səmərəli istifadə olunması, sosial-iqtisadi problemlərin həllinin sürətləndirilməsi mənafeyinə deyil, məhz mərkəzin həmin respublikalara regionlara, yuxarıdan istədikləri kimi müəyyən etdikləri funksiyalar, yuxarıdan istədikləri kimi müəyyən etdikləri funksiyalara müvafiq formalaşmasıdır. Bu hal Azərbaycan Respublikası üçün daha çox səciyyəvi olmuşdur.

Belə ki, ilk beşillikdən başlayaraq respublikanın xalq təsərrüfatının inkişafı üçün nəzərdə tutulmuş kapital qoyuluşunun böyük əksəriyyətini neft-qaz hasili və bilavasitə onunla əlaqədar sahələrin inkişafına yönəldilməsi, nəinki iqtisadiyyatın birtərəfli sahə, daha çox isə qeyri-təkmil, ərazi strukturunun formalaşmasına gətirib çıxarmışdır. Digər tərəfdən, respublikada zəngin yerli xammalın istifadəsinin ancaq ilkin emal səviyyəsində məşdudlaşması onların hazır məşsul istehsalı üçün sonrakı



downloaded from KitabYurdu.az

işlənməsinin başqa regtonlarda həyata keçirilməsi təcrübəsi bu disproporsiyanı bir qədər də dərinləşdirmiş, istehsal potersialı zəif olan rayonlarda sənayenin yaranması üçün real imkanları olan müvafiq sahələrinin inkişafını doldurmuşdur. Bütün bunların nəticəsində Azərbaycan keçmiş müttəfiq respublikalar arasında ərazisində istehsalın, xidmət sferasının, bütövlükdə məhsuldar qüvvələrin qeyri səmərəli formada və ən eybəcər şəkildə yerləşdiyi, iqtisadi rayonlar və zonalar arasına kəskin sosial iqtisadi inkişaf fərqlərinin mövcud olduğu yeganə respublikadır. Məsələn əgər hazırda Ukraynanın, sənaye potensialının cəmi 6,0 %-i, Qazaxıstanın 4,2 %-i, Türkmənistanın 11,0 %-i, Belarusiyanın 14,5 %-i, Özbəkistanın 17,5 %-i, Gürcüstan 31,0 %-i, onların paytaxtlarında cəmləşirdisə, Azərbaycan Respublikasında bu göstərici keçmiş Sovet İttifadında ən yüksək 55,0 % təşkil etmişdir. Digər tərəfdən, Bakı şəhərində yerləşən müəssisələrin həm təmərküzləşmə səviyyəsi yüksək olmaqla belə əsasən ümumittifaq kapital qoyuluşunun artıq mövcud olmadığı, büdcə dotasiyasının ləvğ olunduğu, bir sözlə şeyi müəssisələrin öhdəsinə buraxıldığı indiki keçid şəraitində bi, Azərbaycan Respublikasında sosial-iqtisadi inkişaf sahəsində respublika daxili regionlar arasındakı mövcud fərqləri daha da dərişlənməsinə, əvvəlcədən nəticələri tam təsərrüfat oluna bilməyən bir sıra ciddi sosial problemlər doğurmuşdur.

Ermənistanla münaqişənin geniş miqyaslı müharibəyə keçməsi, münaqişəyə cəlb olunması, çoxlu miqdarda sənaye, kənd təsərrüfatı, tikinti, nəqliyyat, sosial sferaya daxil olan obektlərin məhv olunması



downloaded from KitabYurdu.az

və ya fəaliyyətləridayandırılmalarını nəzərə alsaq, müvafiq regional inkişaf konsepsiyasının işlənib həyata keçirilməsinin nə qədər böyük əhəmiyyət kəsb etməsi aydın olur.

Burada ilk nbvbədə bazar münasibətlərinə keçid prosesində Azərbaycan Respublikasında regional inkişafın dövlət tənzimlənməsi bilavasitə obyektiv zərurətə çevrilir. Yeri gəlmişkən nəzərə almaq lazımdır ki, bazar münasibətləri şəraitində bir çox onilliklər boyu fəaliyyət göstərən ölkələrin təcrübəsi regional inkişafında dövlətin bütövlükdə iqtisadi inkişafına müdaxilə etməsinin ən səmərəli tənzimləşdirici rolunu aşkarlayıp. Məsələn,Yaponiya höküməti tərəfindən 1977-ci ildə qəbul olunmuş və on beş il üçün nəzərdə tutulmuş «Ölkkənin ərazisinin kompleks inkişafının» üstün inkişafını nəzərdə tutulan regionlarda istehsal infrastrukturu və digər ümum dövlət kapital qoyuluşunun konkret yolları müəyyənləşdirilərək həyata keçirilmişdir.

Azərbaycanda regional inkişaf sahəsində keçmişdən miras qalmış durgunluğun, indiki məqyasda ayrı-ayrı rayonlarda məhsuldar qüvvələrin gələcək inkişaf vəzifələrinin həlli ilk növbədə bu işdə çoxcəhətli dövlət tənzimlənmə sisteminin yaradılması və onun fəaliyyəti ilə bağlıdır. Azərbaycan Respublikasında ümumi iqtisadi islahatın həyata keçirilməsi prosesinə regional inkişafın dövlət tənzimlənməsi isə əsasən, respublikanın maliyyə və digər resurslarının hazırda iqtisadi cəhətdən, xüsusilə müxtəlif sənaye sahələri zəif inkişaf etmiş rayonlara və şəhərlərə yönəldilməsindən ibarət olmalıdırlar. Bütün yüksək inkişaf etmiş ölkələrin



downloaded from KitabYurdu.az

təcrübəsində olduğü kimi, bu iki yolla həyata keçirilə bilər. Birincisi, birbaşa təsvir metodlarının, yəni, dövlət kapital qoyuluşu, dotasiya və subvensiya, kontrakt ( dövlət sifarişi) sisteminin tətbiqi, xüsusi inkişaf fondları və müxtəlif səviyyəli büdcələrin ayrılan vəsatənin köməyi ilə, ikincisi, dolayı təsvir metodları, yəni kredit və vergi sistemləri, qeyri-büdcə vasitələri, o cümlədən amortizasiya ayrılmaları hesabına, hər hansı müvafiq rayonun, şəhərin xüsusi statusu olması, güzəştli təsərrüfatçılıq zonası elan olunması yolu ilə və s.

Bunlardan əlavə yaranmış konkret şəraitə məxsus xüsusiyyətlər nəzərə alınmaqla, Azərbaycan Respublikası gerçəkliyində regional inkişafın tənzimləndirilməsinin daha bir istiqaməti tətbiq oluna bilər. Burada söşbət respublikanın əsas sənaye mərkəzləri olan Bakı şəraitində qəti, Gəncə və Sumqayıt şəhərlərində isə əsasən yeni müəssisə və obyektlərin yaradılmasının qadağan olunmasıdır. Bununla yanaşı, hazırda onlarda fəaliyyət göstərən və həmin şəhərlərin bilavasitə profillərinə və yaranmış nlmi-texntkt potensiallardan səmərəli istifadə olunması mənayefinə uyğun gəlməyən müəssisələrin, bəzilərinin respublikanın müvafiq regionlarına və şəhərlərinə köçürülməsindən gedir.

Bu məsələlərin həllinə konseptual formada yanaşılmalıdır.

Dövlət mərkəzləşdirilmiş kapital qoyuluşu, şəraitinə nəitki sadəcə olaraq respublika daxili regionlar arasında mövcud sosial-iqtisadi fərqlərin silinməsinə, ayrı-ayrı regiondarda dövlət əhəmiyyəti infrastruktura obyektlərinin yaradılması və beləliklə də



downloaded from KitabYurdu.az

gələcəkdə bu regionlarda təsərrüfatınyeni-yeni sahələrinin, o cümlədən ixras sahələrin inkişaf etdirilməsinə, sahibkarlıq fəaliyyətinin geniş vüsət alması, məşğuliyyət probleminin həlli və i.a. üçün möhkəm zəmin ola bilər. Bu məqsədlə dövlət mərkəzləşdirilmiş kapital qoyuluşunun ilk növbədə hansı rayonlara, şəhərə və hansı məqsədlə ( məqsədlə proqramlar üçün) yönəldilməsi,respublika Nazirlər Kabineti tərəfindən aləqədər təşkilatların iştirakı ilə tərtib olunur və Milli Məclis, yaxud Prezidenti fərmanı ilə təsbiq olunur.

Dövlət dotasiyası və subvensiyası bir qöv istiqamətin davamı, sonrakı inkişafıdır. Vu vəsait inkişafı ön plana çəkilən regionun az gəlirli, yaxud zərərlə işləyən mövcud müəssisələrin, fermer təsərrüfatının, qeyri-dövlət sektorüna daxil olan dtgər müəssisələrin fəaliyyətinin dayandırılması və ya inkişaf üçün zəruri infrastruktur obyektlərinin saxlanması xərclərinin bir hissəsinin ödənilməsi, habelə yeni sosial obyektlərin, əlavə iş yerlərinin yaradılması üçün yönəlməlidir.

Regional inkişafın dövlət tərəfindən tənzimlənməsinin birbaşa metodlarından biri də mühüm əhəmiyyətli məqsədli regional proqramların həyata keçirilməsi, xüsusi təyinatlı büdcə fondlarının yaradılması ola bilər. Belə məqsədli proqramlara misal olarıq Ermənistanla sərhəd rayonlarında, Qarabağın dağlıq hissəsində müharibə nəticəsində məhv olunmuş istehsal və qeyri-istehsal təyinatlı obyektlərin, nəqliyat-kommunikasiya qurğularının yenidən yaradılması, bərpa olunması və i.a. göstərmək olar.



downloaded from KitabYurdu.az

Dövlət kontrakt sistemi ( yaxud dövlət sifarişi) inkişafı vacib hesab olunan regionlarda ayrı-ayrı məhsulların ( həm sənaye-hasilat və xüsusilə də kənd təsərrüfatı məhsulları) həmin müəssisələrə zərərlə başa gəlməsi nəticəsində yanaşmış xərci dotasiya yolu ilə ödəməkdən ibarətdir. Belə kontrakt sistemi iqtisadi inkişaf səviyyəsi aşağı olan və dağ ətəyi rayonlarında tütünçülük, baramaçılıq, üzümçülük və s. bu kimi vacib eksport sahələrinin inkişafı üçün tətbiq oluna bilər.

Bazar münasibətlərinə keçib şəraitində regional inkişafın dövlət tənzimlənməsinin dolayı, daha doğrusu iqtisadi metodları mühüm əhəmiyyət kəsb edir. Bu iqtisadi metodları arasında ən əsası kredit və vergi siyasətidir. Kredit və vergi sistemləri vasitəsilə regionlarda istehsalı stimullaşdırmaq da olar, məhdudlaşdırmaq da. Söhbət ondan gedir ki, inkişafı vacib hesab olunan regionlarda müəssisələrə geniş miqyasda güzəştli ( faizsiz, aşağı faizlə) kreditlər, borclar verilməsi, vergilərdən tamamilə azad olunmasından gedir.

Əvvəlcədən qeyd etdiyimiz kimi Azərbaycan Respublikası şəraitində regional inkişafın dövlət tənzimlənməsinin ən təsirli vasitələrindən biri əsas sənaye mərkəzi olan Bakı, Sumqayıt, Gəncə şəhərlərində nəinki yeni sənaye müəssisəsi və obyektlərinin yaradılmasının qadağan edilməsi, habelə bəzi mövcud müəssisələrin həmin şəhərlərdən respublikanın müvafiq regionlarına köçürülməsi ola bilər. Birincisi, qadağan müstəsna hal kimi, fasiləsiz texnologiyanın müvafiq vasitəsini təşkil edə bilən yeni müəssisə və istehsalatlara, habelə tikinti başa çatdırılmalı və konservləşdirilməsi



downloaded from KitabYurdu.az

qərara alınmış müəssisə və obyektlərə şamil olunmaya bilər. İkincisi, adları çəkilən şəhərlərdən onların istehsal profillərinə tam uyğun gəlməyən müəssisələrin çıxarılması, onların avadanlıq vvə binaların sökülüb aparılması kimi başa düşülməlidir. Burada söhbət həmin müəssisələrin respublikanın müvafiq rayonlarında təşkilindən və tədricən indi yerləşdikləri şəhərlərdə fəaliyyətlərinin dayandırılmasından, yaxud istehsal profillərinin dəyişdərilməsindən gedir.

Hesablaşmalar göstərir ki, yalnız Bakı şəhərlərində fəaliyyət göstərən sənaye müəssisələri və istehsalatların 18-20 faizi onun istehsal profilinə mövcud elmi-texniki potensialından səmərəli istifadə olunması mənafeyinə tam uyğun gəlmir və başqa rayonlara köçürülən müəssisələr sırasına daxil oluna bilər.

Azərbaycan Respublikası şəraitində regional inkişafın dövlət tənzimlənməsi sahəsində ən mühüm istiqamətlərdən biri də onun müvafiq ərazi bölgülərində sərbəst ( azad) iqtisadi ( təsərrüfat) zonalarının yaradılması təşkil edə bilər.



downloaded from KitabYurdu.az

## *FƏSİL XXXI DÖVLƏTİN XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİ VƏ ONUN TƏNZİMLƏNMƏSİ.*

### *1. XARİCİ – İQTİSADİ ƏLAQƏLƏRİN MAHİYYƏTİ VƏ VƏZİFƏLƏRİ.*

Xarici iqtisadi əlaqələrin müasir mərhələdə qarşısında duran əsas məsələ EET-nin inkişafı ilə əlaqədardır. Belə ki, ETT-nin inkişafı bir ölkə səviyyəsində qalmır, məyəən dövr keçdikdən sonra beynəlxalq səviyyəyə çıxır, bu isə öz növbəsində ölkələrin bir-biri ilə xarici iqtisadi əlaqələrinin yenidən nurulmasına əsas verir. Xarici iqtisadi əlaqələrin fəaliyyəti kompleks norma və normativlərə əsaslanır. Yəni xərici iqtisadi əlaqələr beynəlxalq hüquqi normaları əsasında fəaliyyət göstərilər. Xarici iqtisadi əlaqələrin tənzim olunmasına digər amillər də təsir göstərir. Yəni ölkənin beynəlxalq arenada iştirakı, onun dövlət quruluşu, materil,əmək resursu və maliyyə resursları, təbii resusları, beynəlxalq iqtisadi münasibətlərdə iştirakına zəmin yaradır. Xarici iqtisadi əlaqələrin tənzimlənməsinin aşağıdakı vəzifələrini qeyd etmək olar:

1. Xarici iqtisadi fəaliyyətin hüquqi prinsiplərini müəyyən edən normaların işlənibhazırlanması və onların tənzim edilməsi.

2. Xarici iqtisadi əlaqələri tənzim edən orqanların statusunun müəyyən edilməsi.

3. Xarici iqtisadi əlaqələrin dövlət tənzimlənməsini müəyyən etmək, ölkədə müştərək müəssisələrin tikilməsinin normativ aktlarını tərtib etmək.



downloaded from KitabYurdu.az

4. İxras rejimini müəyyən etmək, ixracı lisenziyalaşdırmaq, məhsul aparılması və gətirilməsinin qaydasını müəyyən etmək.

5. Valyuta, gömrük tənzimlənməsini həyata keçirmək.

6. Xarici, iq8tisadi əlaqələrdə iştirak edən dövlətlərin marağının qorunması tədbirlərini həyata keçirmək.

Xarici iqtisadi fəaliyyət milli istehsal prosesinin tərkib həssəsidir. Azərbaycan Respublikasının həyata keçirməkdə olduğu iqtisadi islahatlar göstərir ki,bu iqtisadi islahatlar dövlətin xarici iqtisadi əlaqələrinin fəaliyyəti siyasətində tərkib hissədir. Dövlət xarici iqtisadi münasibətlərin formalaşmasına makrosəviyyədə baxır və qlobal iqtisadi münasibətləri həll edir. Xarici iqtisadi münasibətlərin yenidən qurulması o vaxt səmərə verir ki, onun fəaliyyət mexanizmi, metod və prinsipləri respublikada aparılan iqtisadi islahatların prinsiplərinə uyğun olsun. Bundan əlavə, xarici iqtisadi münasibətlər sahəsində aparılan islahatlar mövcud təsərrüfat mexanizminin dünya iqtisadiyyatına inteqrallaşmasına uyğun olmalıdır. Bu, respublikanın beynəlxalq bazara çıxmaq imkanlarını genişləndirir. Onu da qeyd etmək lazımdır ki, xarici iqtisadi münasibətlərin formalaşması sahəsində aparılan islahatlar keçid dövrünün üstünlükləri və çatışmazlıqlarını özündə əks etdirir. Yəni, əvvəldən məöcud olan iqtisadi münasibətlərin içərisindən daha uyğun olanı seçilməli və beyqəlxalq səviyyədə mövcud olan yenilikləri özündə əks etdirməlidir.

Xarici iqtisadi münasibətlərin fəaliyyətinin formalaşması zamanı respublika suverenlik mövqeyindən çıxışetməlidir. O, hər



downloaded from KitabYurdu.az

şeydən əvvəl ölkənin vahidliyi baxımından araşdırılmalıdır. Ölkənin suverenliyi və xarici iqtisadi münasibətlər sahəsindəki siyasəti aşağıdakı halların üstünlüyü baxımından nəzərə alınır.

1. Ölkənin iqtisadiyyatı açıq olmalıdır.

2. Xarici iqtisadi mənasibətlərdə ilk başlanğıc iqtisadi münasibətlərin məqsədəyönlü olmasıdır.

3. Xarici iqtisadi əlaqələr resursa qənaət əsasında qurulmalıdır, yəni məhsul ixracatında son məhsul daha çox xüsusi çəkiyə malik olmalıdır.

4. Xarici iqtisadi əlaqələr içərisində elmi-texniki və maliyyə istiqamətləri üstünlüyə malik olmalıdır.

Xarici iqtisadi münasibətlərin dövlət tənzimlənməsində aşağıdakı məsələlər daha da təkmilləşdirilməlidir.

1. Ticarət siyasətinin inzibati qanunauyğunluğunun hüquqi normativ bazası. Məhdudlaşdırıcı məqsəd səviyyələri reqlamentləşdirilir. ( lisenziyaların verilməsi, yeni texnologiyanın alınması).

2. Xarici iqtisadi münasibətlərdə iştirak edən dövlətlərlə hesablaşma qaydası, maliyyə məsələləri, gömrük tarifi və vergi sistemi getdikcə təkmilləşməlidir.

3. İdxal və ixrac və həmin münasibətlərdə iştirak edən şəxslər, subyektlər üzrə vətəndaşlıq qanunçuluğu təkmilləşdirilməlidir.

4. Xarici ölkələrlə beynəlxalq arbitraj və digər qanunçuluqların təkmilləşdirilməsi.



downloaded from KitabYurdu.az

Xarici iqtisadi münasibətlərin liberallaşdırılması ilk əvvəl proteksionizm nəzəriyyəsi ilə əlaqədardır. Proteksionizm – müxtəlif tədbirlərlə milli iqtisadiyyatın rəqabətdən qorunması və xarici ölkələrin müdaxiləsinin məhdudlaşdırılması üzrə dövlət siyasətidir. Bunun üçün müxtəlif tədbirlərdən istifadə edir:

1. Xarici məşsullara yüksək gömrük tarifi qoyulması.

2.Müxtəlif maniələrin, lisenziyaların təhdudlaşmasının qarşısının alınması üçün qeyri-standart tariflərin tətbiq edilməsi.

3. Xarici məhsullara ölkənin milli xüsusiyyətinin, səhiyyəvə digər texniki normativlərin uyğun olması tələbinin qoyulması.

Lakin qeyd etmək lazımdır ki, ifrat proteksionizm ölkə iqtisadiyyatının inkişafını məhdudlaşdıra və beynəlxalq rəqabət qabiliyyətini aşağı sala bilər. Bu halıq aradan qaldırılması və beynəlxalq ticarətin liberallaşdırılmasında vahid maliyyə sistemini tənzimləmək üçün 1944-cü ildə beynəlxalq valyuta fondu yaradılmışdır. Həmin fond ifrat proteksionizmə qarşı ticarətdə böyük müqavilə işləyib hazırlamışdır.Həmin müqaviləyə əsasən xarici ticarətdə müxtəlif tariflər işlənib hazırlanmış, lakin onların yersiz tətbiqi məşdudlaşdırılmışdır. Digər tərəfdən, həmin müqaviləyə əsasən beynəlxalq ticarətdə iştirak edən ölkələr eyni məviyyədə tarif və vergi sistemindən istifadə etməlidirlər.

Xarici iqtisadi əlaqələr sistemində respublikanın xarici ticarət əlaqələri xüsusi yer tutur.

Xarici ticarət dövlətlər arasında mallrın alqı-satqısını əks etdirir. Buna idxal formasında malların hərəkəti daxildir. Ölkələrin



downloaded from KitabYurdu.az

əksiriyyətində xarici ticarət iqtisadi əlaqələrin əsasını təşkil edir. Məlum olduğu kimi keçmiş ittifaqın hökmranlığı dövründə müttəfiq respublikalar sərbəst xarici iqtisadi əlaqələri, o cümlədən də ticarət əlaqələrini ancaq mərkəzləşdirilmiş qaydada həyata keçirirdilər.

SSRİ dağıdıldıqdan sonra respublikalar öz müstəqilliklərini elan edərək xarici iqtisadi əlaqələri yeni bazar iqtisadiyyatı prinsipləri əsasında formalaşdırılmağa və inkişaf etdirilməyə başlamışlar.

Respublikamızda həyata keçirilən özəlləşdirmə və respublikalararası xüsusilə Rusiya ilə iqtisadi əlaqələrin zəifləməsi nəticəsində respublikanın xarici ticarətinin həcmi 1992-1995-ci illərdə azalmış və ölkənin ticarət balansında ciddi mənfi dəyişikliklər baş vermişdir. Belə ki, həmin illərdə idxal ixracatı üstələmişdir. Əgər 1992-ci ildə ixras idxaldan 544 mln. ABŞ dolları atrıq olmuşdursa,1993-cü ildə bu fərq 96 mln ABŞ dollarınadək azalmış və 1994-cü ildən başlayaraq 1999-cu llədək bütövlükdə xarici tisarətin həcminin ildən-ilə artmasına baxmayaraq idxalın həcmi ixracatdan çox olmuşdur. Ancaq 2000-ci ildən başlayaraq ölkədən xam neft ixracatının 5,5 mln.tona çatdırılması idxal-ixrac saldosunun ixracın xeyrinə dəyişməsinə səbəb olmuşdur.

Xarici ticarət əlaqələrini səciyyələndirən göstəricələr sistemindnən istifadə edilir ki, onlar da aşağıdakılardır:

1. İdxal-ixrac mallarının dəyəri və fiziki həcmi
2. Ticarət balansı
3. İxrac kvotası



downloaded from KitabYurdu.az

4. Malların strukturu və onun coğrafi bölgüsü

Xarici ticarət əsasən kommersiya əməliyyatları ilə həyata keçirilir ki, bunun da əsasını ticarət müqavilələri təşkil edir. Müqavilələr xarici ticarətin aparılmasının hüquqi əsaçıdır və onda tədiyyə razılaşmaları kredit münasibətləri əks olunur. Dövlət xarici ticarəti beynəlxalq prinsiplərə əsaslanaraq tənzim edir. Bunun üçün ticarətin aparılması qaydası,malların daşınması, müqavilələrin yerinə yetirilməsi vaxtı, malların daşınmasında məsuliyyətli şəxs və onun mühafizəsi, səhiyyə standartlarının qorunması, kömrük tarifi normativləri kimi göstəricələrdən istifadə olunur.

Tarif idxal mallarına qoyulan vergilər. İdxal malları hərəkətinin tənzim olunması üçün dövlət vergi qoymu sistemindən istifadə edir. Bu zaman tariflər müəyyən ticarət fəaliyyətini ikitərəflə mürəkkəbləşdirir. Bir tərəfdən vergi qoymaqla dövlət öz daxili bazarında qiymətləri yüksəldir,eyni zamanda öz sahibkarlarının xarici firmalarla rəqabətdə dözümlülüyünü artırır. İkinci tərəfdən isə gətirilən mallara yüksək tarif qoyulması və ona proteksioizm nöqteyi-nəzərindən yanaşılması, daxili bazarda qeyri-təbii şərait yaradır. Dövlət bu fəaliyyəti ilə öz bazarını dünya bazarından məhdudlaşdırmış olur.

Deməli, xarici ticarətin daha elastiki tənzim olunması üçün effektli-taktiki gedişlərdən istifadə edilməlidir ki, həm daxili bazar müdafiə olunsun, həm də xarici ticarətdə proteksionizmə yol verilməsin.



downloaded from KitabYurdu.az

Xarici ticarətdə perspektiv təmayül bazar mənasibətlərinin aktivləşməsi istiqamətidir. Yəni ticarətin liberallaşdırılması,gömrük tariflərinin qaydaya salınması və azad ticarət sisteminə keçilməsi zəruridir. Xarici ticarətin tənzim olunmasını dövlət vergilər vasitəsilə sərbəst tənzim edir və yaxud da ki, beynəlxalq valyuta fondu vasitəsilə onu təşkil edir.

Daxili biznesin vergilər vasitəsilə müdafiəsi gücləndikcə bir o qədər dövlət xarici ticarətin tənzimlənməsində qeyri-tarif metodundan istifadə edir. Məsələn, dövlət idxal mallarının həcmini azaltmaq istəyir və bunu o, vergilərin artırılması yolu ilə edə bilmir. Bu zaman dövlət kəmiyyət məhdudiyyətlərindən istifadə edir və yaxud daxili bazarda mallar istehsal edən müəssisələrin xarici firmalarla rəqabətə dözümlülüyünü artırmaq üçün onları stimullaşdırır. Həmin müəssisələrin mallarının müəyyən hissəsini dövlət özü alır, onlara bu və ya digər formada büdcə vəsait verir, qiymət və normal gəlirlə onları dəstəkləyir. Nəticədə belə çıxır ki, bazar açıqdər, eyni zamanda müxtəlif məhdudiyyətlər çoxluğu ona daxil olmağı mürəkkəbləşdirir.

Xarici ticarətdə istifadə olunan ənənəvi tariflərdən fərqli olaraq qeyri-tarif normativləri bəzən proteksionizm əhval-ruhiyyəsi daşıyır, bəzi hallarda isə inzibati güc təzyiqi altında həyata keçirilir.

İxras xarici ölkələrə müqavilələr əsasında çıxarılan mallardır. Makrosəviyyədə ixrac ölkədən kapitalın çıxarılma və kreditlərin yerləşdirilməsi formasıdır. Bazar iqtisadiyyatı şəraitində fəaliyyət



downloaded from KitabYurdu.az

göstərən bütün ölkələr aktiv surətdə ixracın stimullaşdırılması ilə məşğul olurlar. Bununla onlar bir neçə məqsədə nail ola bilərlər.

1. Hər hansı bir ölkə ixracı genişləndirməklə malları ölkə xaricinə yeridilməsinə nail olur və bununla da milli iqtisadiyyatını genişləndirmək imkanı yaradır.

2. İxrac təmayüllü iqtisadi dinamikləşdirir və ixraca yeni keyfiyyət elementləri daxil edir.

3. İxracın genişləndirilməsi istehsal da demonopolizasiyalaşdırır. Yəni öz mallarını diqtə edən dövlət və digər inhisarçını yox edir.

İxracın stimullaşdırılması metodları müxtəlifdir. Dövlət ixracı stimullaşdırmaq üçün aşağıdakı tədbirlərdən istifadə edir :

1. İxracla məşğul olan müəssisələrə güzəştli vergilər tətbid edir.

2.İxrac kreditlərinin zəmanətlərini öz üzərinə götürür.

3.İkitərəfli və soxtərəfli müqavilələr bağlayır.

4. Dövlətarası ticarət maraqlarının nizamlanması tədbirlərini həyata keçirir, məqsədli proqramlar hazırlayır və həyata keçirir.

5. Ölkənin ixrac potensialının artmasına şərait yaradır.

İxracın stimullaşdırılmasının ən güclü təsiredici vasitəsi valyuta məzənnəsinin tənzim olunması sayılır. Müasir dövrdə ixracın ən geniş yayılmış forması məqsədli mal krediti verilməsi və birbaşa investisiya qoyuluşları sayılır.



downloaded from KitabYurdu.az

## *2. BEYNƏLXALQ İQTİSADİ ƏLAQƏLƏRDƏ TİCARƏTİN İNKİŞAF İSTİQAMƏTLƏRİ.*

Müasir şəraitdə ölkələrin beynəlxalq ticarət əlaqələri bir neçə əsas amillərlə şərtlənir. Belə ki, ölkədə olan mövcud resurslardan effektli istifadəyə, dünya elmi və texniki inkişafının əsasında iqtisadiyyatda struktur dəyişikliyi aparmağa imkan verir və nəhayət ölkə tələbatının ödənilməsini rəngarəng edir.

Bununla əlaqədar olaraq beynəlxalq ticarət əlaqələrinə nəzər yetirmək lazımdır. Bu zaman ölkələrin ümumi dünya,mal mübadiləsində iştirakı prinsipləri açılır, ayrı-ayrı ölkələrin rəqabət bacarığı aşkar olunur, beynəlxalq ticarətin inkişafının obyektiv qanunauyğunluqları müəyyən edilir.

Beynəlxalq ticarət əlaqələrinin nəzəri əsası klassik ingilis siyası iqtisadiyyatından başlayaraq müəyyən inkişaf mərhələləri keçmişdirsə də onun mərkəzi məsələlərini aşağıdakılar təşkil etmişdir:

- beynəlxalq əmək bölgüsü;
- ayrı-ayrı ölkə və regionlar üçün daha effektli olan beynəlxalq ixtisaslaşmanın olması;
- beynəlxalq ticarətdə ölkələrin qərabətə qabiliyyətlilik amillərinin müəyyən olunması.

Bu məsələlər bazar iqtisadiyyatına keçid ərəfəsində olan Azərbaycan Respublikası üçün də vacibdir. A. Smit belə bir müddəaya əsaslanaraq qeyd etmişdir ki, beynəlxalq ticarətin



downloaded from KitabYurdu.az

özülündə, ölkələrdə mütləq xərclərin müxtəlifliyi durur. Yəni ölkəyə o mallar gətirilməlidir ki, onların mütləq xərcləri öz ölkəsindəki xərclərdən az olsun. Digər tərəfdən, o mallar satılmalıdır ki, başqa ixracatlardakı malların xərclərindən az olsun.

A. Smitin bu baxışları D.Rikardo ğərəfindən daha da inkişaf etdirilmişdir. L.Rikardo müqayisəli xərclər nəzəriyyəsini formalaşdırmışdır.

Yəni beynəlxalq ticarətin həyata keçirilməsi üçün zəruri şərt, eyni mallara müxtəlif ölkələrdə çəkilən müxtəlif xərclərdir. D. Rikardonun tezisinə görə, hər bir ölkə elə mallar üzrə ixtisaslaşmalıdır ki, digər ölkələrlə müqayisədə xərcləri daha az olsun. Onun fikrinə görə, ticarətin tam sərbəst olduğu şəraitdə müqayisəli xərclər prinsipi avtomatik fəaliyyət göstərir və özlüyündə optimal ixtisaslaşmaya gətirib çıxardır.

Müasir qəob iqtisadçıları D.Rikardonun modelini müəyyən qədər modifikasıya edərək alternativ xərclər modelini yaratmışlar ki, bunun da müəllifi amerika alimi Q. Xeberler sayılır.

Müqayisəli üstünlük prinsipindən istifadəyə əsaslanan iştisaslaşma dünya istehsalının artması və resurslardan səmərəli istifadəni təmin edir. Lakin nəzərə almaq lazımdır ki, əmək bölgüsünün baxılan modeli bir neçə sadələşdirməyə əsaslanır. O, iki ölkə iki məhsul mövcudluğunu nəzərə alır, sərbəst ticarət, ölkə daxilində əməyin mütləq səfərbərliyi; - istehsal xərclərinin sabitliyi, alternativ istifadədə resursların tam qarşılıqlı əvəz oluna bilməsi;



downloaded from KitabYurdu.az

ölkələr arasında əməyin ödənilməsinin təhrik edilməsi və həmçinin nəqliyyat xərclərinin olmaması.

Bu ilkin qeyd olunanlar, beynəlxalq ticarətin əsas prinsiplərinin aşkar olunması üçün zəruridir. Lakin bunlardan bəziləri dəqiqləşdirilməlidir. Çoxlu sahələrdə istehsalın genişləndirilməsi təcrübəsi son hədd xərclərinin artması ilə əlaqədardır. Buna görə də hər bir məhsul vahidinin artırılması digər məhsul istehsalından inkar edilməsini tələb edir. Bu qanunauyğunluq xüsusilə mədən sənayesi sahələrində daha çox özünü büruzə verir. Belə ki, resursların həcmi bir sahədə tükəndikcə digər sahələrdə istehsala başlanılır.

Bundan əlavə, alternativ məhsul istehsalına keçilən zaman heç də həmişə resurslar bir-birini qarşılıqlı əvəz edə bilmirlər. Sünki bir istehsaldan digərinə keçid zamanı istehsal xərcləri arta bilər. Belə ki, müx təlif məhsulların istehsalı xərclənən resursların müxtəlif uyğunluğunu tələb edir. Bundan əlavə, müxtəlif sahələrdə əmək haqqı səviyyəsinin artımı də fərqli olur.

İstehsal həcminin genişləndrilməsi zamanı xərclərin artımı ixtisaslaşmaya sərhəd qoyur. Bu şərtlə əlaqədar olaraq məhsul istehsalında müqayisəli üstünlüyə malik olan ölkənin tam ixtisaslaşması məşdudlaşır. Beləliklə, sənaye cəhətdən inkişaf etmiş ölkələrdə daxili tələbat üçün istehsal olunan məhsulların müəyyən hissəsi ixracata gedir.



downloaded from KitabYurdu.az

D. Rikardonun ölümündən sonrada onun beynəlxalq əmək bölgüsündə və dünya ticarətində müqayisəli üstünlük nəzəriyyəsi demək olar ki, dəyiştlməz qalmışdır.

Həmin modeldən fərqli model İsveç alimləri Eli Xokşer və Bertel Olin tərəfindən yaradılmışdır.

1960-cı illərə qədər Xlkşer-Olin modeli iqtisadi ədəbiyyatlarda hakim mövqe tutmuşdu. 1977-ci ildə Olin iqtisadiyyat üzrə Nofel mükafatı almışdır. Həmin modelə yeniliklər gətirdiyinə görə, Samuelson da Nobel mükafatına layiq görülmüşdür. Buna görə də həmin model çox Xokşer-Olin-Samuelson modeli adlanır.

Həmin modelin mahiyyəti belədir:

Tarixi-sobrafi səbəbdən asılı olaraq ölkələrdə maddi resursların və əmək resurslarının yerləşdirilməsi müxtəlif olur. Bununla əlaqədar olaraq məhsulların qiymətləri də müxtəlif olur ki, bu da millətin müqayisəli üstünlüyünü göstərir. Buradan də mütənasiblik amilləri meydana çıxır; yəni açıq iqtisadiyyatda hər bir ölkə elə məhsullar üzrə ixtisaslaşır ki, onlar daha çox mütənasiblik amilinə malikdir.

Olin bu qanunauyğunluğu belə formalaşdırılmışdır: «Beynəlxalq mübadilə – çoxlu amillərin az amillərə mübadiləsidir. Ölkə o məhsulları ixrac edir ki, onların istehsalı üçün lazım olan amillərin ölkədə çoxluğu mövcuddur».

Xokşer-Olin modelinə uyğun olaraq beynəlxalq ticarət prosesində istehsal amillərinin qiymətləndirilməsinin barəbərləşdirilməsi baş verir. Bərabərləşdirmə mexanizminin



downloaded from KitabYurdu.az

mahiyyəti belədir. İlkin olaraq istehsal amilləri qiyməti, amillər çoxluğu olan ölkədə aşağı olacaqdır, istehsal amilləri çatışmayan ölkədə isə onun qiyməti yüksək olacaqdır.

Kapital tutumlu məhsul istehsalı üzrə ixtisaslaşmaq istəyən bu və ya digər ölkədə ixrac sahələrinə kapital axını başlayır ki, bu da kapitalla tələbatı artırır. Nəticədə kapitalın qiyməti və ona faiz stavkası artmış olur.

Əmək tutumlu məhsul üzrə ixtisaslaşan ölkədə isə əməyə tələbat artır və bu da işçi qüvvəsinin qiymətinin artmasına səbəb olur.

Beləliklə, ölkələr ilkin olaraq bu modelə əsasən öz üstünlüklərini istifadə edirlər və sonra onların istehsal inkişafları hamarlaşır – yəni eyni səviyyəyə yaxınlaşırlar. Bu ixrac dairəsinin genişlənməsinə və beynəlxalq ticarətin dərinləşməsinə gətirib çıxarır.

İkinci, dünya müharibəsindən sonra Xokşer-Olin modeli çoxlu sayda iqtisadçılar tərəfindən təftişə məruz qalmışdır. Onlar əməktutumlu və kapital tutumlu sahələr arasında korrelyasiya əlaqələrini aşkar etməyə çalışmışlar. Onlar Şəmçinin idxal-ixrac əlaqələrini də müəyyənləşdirməyə səy göstərmişlir.

Məşhur amerikan iqtisadiçısı ( rus mənşəyi) V.Leontyev 1956-cı ildə ABŞ iqtisadiyyatında idxal-ixrac strukturunu təhlil edərək Xokşer-Olin nəzəriyyəsinin əksinə olaraq aşkar etmişdir ki. ABŞ ixrasında əməktutumlu məhsullar, idxalında isə kapitaltutumlu və məhsullar üstünlük təşkil edir. Bu nəticə Leontyev ziddiyyəti kimi məşhurlaşmışdır.



downloaded from KitabYurdu.az

Sonrakı tədqiqatlar göstərmişdir ki, Leontyevin aşkar etdiyi ziddiyyət aradan qaldırıla bilər. Əgər ticarət strukturunda iki istehsal amili nəzərə alınarsa Leontyev belə hipotez irəli sürmüşdür ki, bir adam iri hesadı ilə götürülən kapital miqdarının müxtəlif kombinasiyalarında o, başqa ölkələrdə 3 adam ilinə ekvivalentdir. Bu isə onu əks etdirir ki, ABŞ əmək artıqlığı olan ölkədir.

İkinci bir tərəfdən Leontyev göstərirdi ki, iqtisadiyyatdakı məhsuldarlığın yüksəkliyi ABŞ əməyinin ixtisaslı olması ilə əlaqədardər. O, statistik təhlil apararaq göstərmişdir ki, ABŞ ixrac etdiyi məhsullar daha ixtisası əmək tələb edir, nəinki, « rəqabətli idxalınn» istehsalına xərclər. Bunun üçün Leontyev bütün əmək növlərini 5 ixtisas qrupuna bölərək hesablamışdır ki, 1 mln.dollarlıq ixraca və rəqabətli idxala nə qədər adam ili lazımdır. Nəticədə müəyyən olunmuşdur ki, amerika ixracatı ixdxala nisbətdə daha sox ixtisaslaşmış əmək tələb edir.

Müqayisəli üstünlük nəzəriyyəsinin sonrakı təhlili və inkişafı amerikan iqtisadçısı Maukl-Porter tərəfindən aparılmışdır.

Sənaye cəhətdən inkişaf etmiş 8 ölkənin 100 sahənin geniş statistik materiallarının təhlili əsasında M.Porter ölkələrin rəqabət üstünlüyünün orijinal nəzəriyyəsini yaratmışdır. Onun konpersiyasının mərkəzində « milli romb» deyilən ideya qururdu ki, burda mikroiqtisadiyyatda fəaliyyət göstərən ölkələrin iqtisadiyyatının dörd xüsusiyyətini açmağa imkan verir.



downloaded from KitabYurdu.az

« Milli romb» determinant sistemi müəyyən edir ki, onlar da ölkənin rəqabət üstünlüyü üçün əlverişli və əlverişsiz mühit yaradırlar. Bu determinantlar bunlardır:

1. Amillər parametrləri- ölkənin rəqabət sütünlüyünün formalaşması üçüe maddi və qeyri-maddi şəraitdir. Bu ölkə üzrə bütövlükdə və onun ixraca istiqamətlənmiş sahələri üzrə müəyyən olunur. Ölkənin rəqabət üstünlüyünün müəyyən edən ənəpəvi amillərlə yanaşı ( əmək, torpaq, kapital) Porter digər amilləri də ( bilik resurslarını, elmi-texniki inkişaf informasiyalarını, infrastruktura sahələrini) nəzərə alır ( nəqliyyat, rabitə, səhiyyə, yaşayış evləri və s.).

Porter nəzəriyyəsində amilləri ümumi ( avtomobil yolları şəbəkəsi,ali təhsilli heyət, hansılar ki, geniş srektrdə qərabət ystynlüyü yaradırlar.) və ixtisaslaşmış amillərə ( ixtisaslaşma müəyyən sahələ informasiya) bölünür.

Bu zaman ixtisaslaşmış amillər dünya bazarında firmanın bu və ya digər məhsul üzrə uzun müddətli rəqabət üstünlüyünün təmin etdiyi üçün uzunmuddətli kapital qəbulunu də tələb edir.

2. Firmanın strategiyası və onun rəqabətçisi, strukturu. Milli rəqabət üstünlüyünün təmin olunmasında firmanın strukturu və ölkə daxilində onların raqəbətçilərinin olması da az rol oynamır. Əgər ölkə daxilində firmalar arasında rəqabət yoxdursa və firmanın strategiyasə rəqabətə istiqamətlənməmişdirsə, bu zaman həmin firmaların xarici bazarlarda rəqabət üstünlüyü mövcud olmur.



downloaded from KitabYurdu.az

3. Tələb parametnləri tələbatın həcmi, onun inkişafı, diferensasiyası, alıcıların tələbkarlığı. Belə ki, dünya bazarına çıxmamışdan, hər bir məhsulun daxili bazarda aprobsiyası getməlidir.

4. Ekzogen və dəstəklənən sahələr. Milli iqtisadiyyatda firmaların dünya bazarında iştirakını, maddi, material, informasiyalarla və s. təmin edən, dəstəkləyən ekzogen və ona yaxın olan sahələrin olması.

Rəqabət üstünlüyünün determinantlar sisteminə Porter təsədüfü hadisələri də daxil edir. Bu təsadüfi hadisələr rəqabət üstünlüyünü gücləndirə və zəiflədə də bilər.

Təsadüfi hədisələr onlardır ki, dövlət və firmalar ona bəzi hallarda təsir göstərə bilmirlər. Məsələn, yeni kəşflərin edilməsi, texnoloji sıçrayış, « neft şoku» yerli və ya dünya miqyasında tələbatın birdən-birə yüksəlməsi,siyasi məsələlər, müharibə əv s. nəzərdə tutulmayan hadisələr.

Belə təsafüfi hadisələr dövlətlərin rəqabət mövqeyinə təsir göstərir. Onlar bəzən güzlü qərabət üstünlüyünü heçə endirə bilər və digər ölkələrin potensialını artıra bilərlər.

Dövlətin rolu ibarətdir ki, o « milli romb» un büiün determinatlarına təsir göstərir. Bu təsir müsbət, mənfi istiqamətdə ola bilər. Məsələn, istehsal amillərinə dövlət pul-kredit, vergi, gömrük siyasəti və s. təsir göstərir. Belə ki, dövlətin özü hərbi, nəqliyyat, rabitə , təhsil, səhiyyə və s. sahələr üçün məhsul alıcısıdır.



downloaded from KitabYurdu.az

Antinhisar tənzimləməni həyata keçirərək dövlət milli iqtisadiyyatın aparıcı sektorunda optimal rəqabət mühiti saxlayır.

Nəqliyyat, dövlət digər ölkələrdə qohum və ona yaxın sahələrin inkişafına təsir göstərir.

Beləliklə, Porter nəzəriyyəsi ölkələrin rəqabət üstünlüyünü tam açmağa imkan verir.

Beynəlxalq ticarət müxtəlif ölkələrdə alıcılar və satıcılar arasında, alıcı-satıcı vasitəçtləri arasında prosesi,münasiöəti əks etdirir.

Beynəlxalq ticarət malların idxal-ixracını əhatə edir və onlar arasındakı mütənasiblik ticarət balansı adlanır. BMT-nin statistik məcmuələrində dünya ticarətinin həcm və dinamikası bütün ölkələrin ixrac dəyəri kimi verilir.

Qədim keçmişdən mənbəyini götürən dünya ticarəti, XVIII-XIX əsrlərdə beynəlxaln əmtəə-pul münasibətlərinin dəyanətli xarakterini almışdır. Bunun üçün ən mühtin impuls sənaye cəhətdən inkişaf etmiş ölkələrin yaranması olmuşdur. ( İngiltərə, Hollandiya) Həmin ölkələrdən zəif inkişaf etmiş ölkələrdə _ Asiya, Afrika, Latın Amerikasından xammal idxal edib, o ölkələrə istehlak məhsulları ixrac edilirdi.

XX əsrdə dünya ticarəti bir necə böhran keçirmişdir. Onlardan birincisi 1914-1918-ci illər birinci dünya müharibəsi ilə əlaqədar idi. Bu dünyada mal mübadiləsinin dərin pozulmasına səbəb olmuşdu və bu hal ikinci dünya müharibəsinin ( 1941-1945) axırına kimi davam



downloaded from KitabYurdu.az

etmişdir. İkinci dünya müharibəsi isə dünya ticarətinin strukturunu ümumiyyətlə dağıtdı.

Müharibədən sonrakı dövrdə dünya ticərəti daha çətinliklə rastlaşdı ki, bu da dünyada müstəmləkə sisteminin dağılmasından ibarət idi. Qeyd etmək lazımdır ki, bi böhranların hamısı dəf olunan idi.

Müharibədən sonrakı dövrlərdə beynəlxalq ticarətin mühüm əlaməti ondan ibarət idi ki, dünya ticarəti əvvəlki dövrlərə nisbətən ən yüksək inkişaf mərhələsinə çatmışdır. Hətta dünya ticarətinin artım tempindən yüksək olmuşdur.

Buna bir nesə amil təsir göstərmişdir. Bunlardan birincisi müharibədən sonrakı bərpa dövründə yeni istehsal sahələrinin yaradılması və köklü texniki dəyişikliklərin olması idi. ETT-nin inkiqafı beynəlxalq ixtisaslaşmaya səbəb olmuşdur. Bu isə öz növbəsində kommersiya xarakterli mal dövriyyəsinin artması ilə yanaşı, beynəlxalq istehsal-texniki əlaqələrə xidmət edən sahələrində yaranmasına səbəb olmuşdur.

Beynəlxalq ixtisaslaşma və kooperasiyalaşma dünya ticarətinin liberallaşmasına,onnn kəmiyyət məhdudiyyətlərini vəgömrük hıqqının əhəiyyətli dərəcədə azalmasına səbəb olmuşdur.

İkincisi, dünya ticarətinin artması, inkişaf etmiş ölkələri geri qalmış ölkələrə yardım və ticarət fəaliyyətinin genişlənməsi olmuşdur. Həmin geri qalmış ölkələr azadlıq əldə edərək industriya yolu tutdular ki, bu da onların arasında idxal-ixrac fəaliyyətinin genişlənməsinə səbəb olmuşdur.



downloaded from KitabYurdu.az

Proqnozlara görə, dünya ticarətinin artımı gələsəkdə də davam edəcək və təxmini hesablamalara görə 2003-cü ildə 7 trl. Dollar təşkil edəcəkdir.

Dünya ticarəti strukturu öyrənilərkən nəzərə almaq lazımdır ki, statistik məsmuələrdə mallar beynəlxalq ticarət təsnifatına uyğun olaraq qruplaşdırılır.

Ölkələrin çoxu 1991-ci ildən əmtəələrin kodlaşdırılmış sisteminə keçmişlər.

Dünya ticarətinin mal strukturu, beynəlxalq əmək bölgüsünün dərinləşməsi və ETT-nin təsiri nəticəsində dəyişilir.

Hazırda dünya ticarətində emal sənayesinin məhsulları əhəmiyyətli yer tutur. Dünya ticarətinin 75 % həmin sahələrin məhsulu hesabına formalaşır. Maşınqayırma, avadanlıq, nəqliyyat vasitələri və kimya sənayesinin təhsullarının xüsusi çəkisi daha sürətlə artır.

Bundan əlavə, elm tutumlu sahələr və yüksək texnologiyalı məhsulların ticarəti daha dinamiki artır, bu isə ölkələrarası xidmət sahələrini stimullaşdırır- elmi-texniki istehsal və kommunikasiya və s.Eyni zamanda xidmət sahələrinin xüsusilə təlimat-hesablama xarakterli xidmətlər, istehsal təyinatlı dünya ticarətini genişləndirir.

Dünya ticarətinin mühüm xüsusiyyətlərindən biri,dünya qiymət sisteminin olmasıdır. Həmin qiymətin əsasında beynəlxalq istehsal xərcləri durur ki, bu da istehsalın əsas amillərinin orta dünya xərclərinə yaxınlaşmasıdır.Beynəlxalq istehsal xərcləri əsasən o ölkələrin təsiri altında formalaşır ki, həmin ölkələr müəyyən



downloaded from KitabYurdu.az

məhsulun dünya bazarına çıxarəlmasında xüsusi çəkiyə malikdirlər. Bundan əlavə,beynəlxalq qiymətlər müəyyən məhsulun dünya bazarında tələb və təklifindən asılı olaraq formalaşır.

Dünya ticarətinə bir məhsula müxtəlif qiymətlərin mövcudluğu da xasdır. Dünya qiymətləri ilin vaxtundan, yerindən və məhsulun reallaşdırma şərtlərindən asılı olaraq fərqlənirlər.

Təcrübədə, dünya qiymətləri kimi, iri mərkəzlərdə daima alınıb-satılan məhsullar üzrə və iri həcmli firmaların göstəriciləri əsasında qəbul edilir.

Xammal,material üzrə qiymətləri iri əmtəə birjalarında bağlanan müqavilələr əsasında müəyyən edilir.

## *3. AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ – İQTİSADİ ƏLAQƏLƏRİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ*.

Səkkiz milyondan çox əhalisi olan Azərbaycan Respublkikası lazımı enerji və təbii resurslarla zəngin olmaqla yanaşımüvafiq kadr potensialına və geniş əmək ehtiyatlarına malikdir. Lakin Respublikanın malik olduğu bu imkanlar hələlik xarici bazarlarda tam reallaşdırılmamışdır.

Bununla belə son illər ərzində respublikanın xarici iqtisadi əlaqələri cöğrafi nöqteyi-nəzərindən xeyli genişlənməklə, onun



downloaded from KitabYurdu.az

ixracatında xeyli struktur dəyişiklikləri baş vermişdir. Belə ki, 1992-1993-cü illərdə idxalın strukturunda əsas yeri ərzaq və digər zəruri xalq istehlakı malları üstünlyk təşkil etmişdirsə, 1996-cı tldən başlayaraq xarici investisiyaların respublikaya axınının güclənməsi əsasında müxtəlif növ maşın,mexanizmlərin, cihaz və aparatların,avadanlıqların idxaldakı xüsusi çəkisi əsaslı surətdə artmış və 2000-ci ildə 40 % təşkil etmişdir.

Azərbaycan Respublikasının əsas strateji məhsulları neft, pambıq mahlıcı, yun, kimya məhsullarından bəziləri təşkil edir. Bunların sırasında birinci yerdə neft və neft-kimya sənayesinin inkişafı durur.

Qeyd etmək lazımdır ki, Xəzərin Azərbaycan sektorunda yerləşən güzlü karbohidrogen ehtiyatlarının xarici şirkətlərlə birgə işlənməsi ənticəsində 1997-ci ildən etibarən hər il neft hasilatının getdikcə artırılması və onun dünya bazarlarına çıxarılması ixracının strukturunda onun xüsusi çəkisinin 84 % çatmasına səbəb olmuşdur.

Respublikada həyata keçirilən iqtisadi islahatlar və habeləiqtisadiyyatın qeyri neft sahələrinə investisiya qoyuluşlarının artırılması, dünya bazarına daha çox həcmdə, çeşiddə standartlara uyğun gələn metallurgiya neft-kimya və kimya məhsulları sənayesi kənd təsərrüfatı və emal sənayesi məhsulları çıxarılmasına da imkan verəsikdir.

Azərbaycanın beynəlxalq iqtisadi əlaqələrinin daha da genişləndirilməsinin əsas amili ölkədə 1994-cü ilin 20sentyabrında başlanmış əsrin neft müqaviləsi təşkil edir. Həmin ildən başlayaraq



downloaded from KitabYurdu.az

artıq dünyanın 20-dən çox məşhur tanınmış iri şirkətlərlə müqavilələr bağlanmışdır ki, Xəzərin Azərbaycan sektorunda güclü karbohidrogen ehtiyatdalından səmərli istifadə edilməklə yanaşı ölkə dünya bazarına xam neft ixracatını getdikcə genişləndirmək imkanı əldə edilsin.

Həmin problemlərin müvəffəqiyyətlə reallaşması üçün Bakı-Novorosiysui, Bakı-Tbilisi-Ceyhan neft kəmərlrinin çumlməsi, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi, qədim tarixi ipək yolunun bərpası mühüm rol oynayacaqdır. Belə liklə, Avropanın və Asiyanın 30çox ölkəsini birləşdirən bu mühüm nəqliyyat dəhlizinin vaxtında istifadəyə verilməsi Respublikada bir tranzit ölkə kimi lazımi effekt verməklə onun iqtisadi inkişafına də güzlü təsir göstərəcəkdir. Bunlar isə ölkə iqtisadiyyatının inkişafına təkan verməklə yanaşı onun beynəlxalq iqtisadi sistemə inteqrasiyasını gücləndirəcək.

Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrinin əsaslı təşkil edən xarici ticarət strategiyasını aşağıdakı kimi formalaşdırmaq olar:

- Respublikanın ixrac potensialının formalaşması və inkişafı, ixracın strukturunun dəyişdirilməsi, bonus sisteminin hazır məhsul ixracının mükafatlandırılması;
- Respublika müəssisələrinn rəqabət qabiliyyətinin artırılması;
- Texniki modelləşdirmə üçün investisiyaların cəlb olunması;
- Daxili bazarın idxal-ixrac nəzarətinin (valyuta) gücləndirilməsi.



downloaded from KitabYurdu.az

Azərbaycan Respublikasının ixrac potensialının strukturunun dəyişdirilməsi zəruriliyi onunla əlaqədardır ki, respublika 70 ildə Rusiyanın tərkibində əsasən neft, pambıq satışı kimi çıxış etmişdir. Bununla əlaqədar olaraq ixrac bazar iqtisadiyyatı şəraitində ixracat strukturunun təkmilləşdirilməsi zəruridir. Belə ki, xammal ixracından, yarımfabrikatların daha sonra isə rəqabət qabiliyyətli malların ixracını genişləndirmək; milli iqtisadiyyatın üstün inkişafını təmin etmək üçün ölkənin mövcud olduğu zəngin təbii resurslarından və habelə kadr və əmək potensialından tam və səmərəli istifadə etmə; elmi tutumlu məhsul istehsalçılarının mükafatlandırılması.

Göründüyü kimi Azərbaycan Dövlətçiliyi müstəqillik əldə etdikdən sonra onun xarici iqtisadi əlaqələri genişlənməklə sərbəst xarakter almış və milli iqtisadiyyatın inkişafında rolu və əhəmiyyəti artmışdır.



downloaded from KitabYurdu.az

## *«İQTİSADİYYATIN DÖVLƏT TƏNZİMLƏNMƏSİ» FƏNNİ ÜZRƏ*

Test və tapşırıqlar

TESTLƏR

1. İnhisarın hansı reyestri tətbiq oluna bilər:

a) 10 faiz

b) 35 faiz

v) 65 faiz

2. Aşağıdakı məhsul bazarlarından hansı daha çox təkmil rəqabətin şərtlərinə uyğun gəlir:

a) polad

b) bərbərxana xidməti

v) avtomobil

q) firmanın səhmi və istiqrazlar

d) benzin

3. Aşağıdakı sahələrdən hansına effektli inhisar tətbiq edilə bilər:

a) pərakəndə ticarət

b) su şəbəkəsi

v) zibillərin yığılması

q) televiziya və radio

d) kosmik tədqiqatlara



downloaded from KitabYurdu.az

4. Təbii inhisar sahəsinə nümunə ola bilər:

a) Lukyol kompaniyası

b) Milli bank

v) Xalq qəzeti

q) şəhər metropoliteni

d) özəl banklar

5. Mahiyyəti cəhətdən inkişaf etmiş ölkələrin dövlət büdcəsinin üç mənbəyini ardıcıllıqla göstərin:

a) dövlət mülkiyyətindən vergilər

b) vərəsəliyə görə vergilər

v) əlavə dəyər vergisi

q) kömrük rüsumları

d) sərbəst kapital bazarından cəlb olunmuş vəsaitlərdən daxil olmalar.

6. Mahiyyəti etibarı ilə dövlət büdcəsinin xərclərinin dörd istiqamətini ardıcıl göstərin:

a) inzibati idarəetmə xərcləri

b) dövlət borcunun ödənilməsi

v) xarici ölkələrin borcları

q) sosial xərclər

d) müdafiə xərcləri

q) iqtisadi inkişaf xərcləri



downloaded from KitabYurdu.az

7. Dövlət borcu hansılardır:

a) dövlət xərcləri

b) müdafiə defisiti

v) müdafiə xərcləri

q) xarici borcların gələcəkdə ödənilməsi

8. Dövlət borcunun artması səbəb olur:

a) özünü doğrultmayan emissiyasının hesabına inflyasiyanın güclənməsinə

b) əhalinin real gəlirlərinin aşağı düşməsi

v) milli iqtisadiyyatın istehsal imkanlarının aşağı düşməsi

q) dövlətin investisiya fəaliyyətinin genişlənməsi

d) fiziki və hüquqi şəxslərin gəlirlərinə vergi stavkalarının yüksəlməsi.

9. Bazar iqtisadiyyatı şəraitində vergi aşağıdakı funksiyalardan hansını yerinə yetirir:

a) fiskal

b) sosial

v) tənzimedici

q) stimullaşdırıcı

d) hamısını birlikdə

10. Aşağıda göstərilən vergilərdən hansı müvəffəqiyyətlə son istehlak üzərinə keçirilə bilər:



downloaded from KitabYurdu.az

a) Aksizlər

b) vərəsəliyə vergilər

v) korporosiyaların gəlirlərinə vergilər

q) əlavə də  yər vergisi

d) şəxsi gəlirlərə vergilər

e) sosial ödəmələr (haqqlar)

11. Torpağa verginin artırılması hansı nəticələrə səbəb ola bilər:

a) kənd təsərrüfatında məşğul olanların azalmasına

b) fermerlərin gəlirlərinin azalmasına

v) mənzil kirayəsinin artmasına

q) torpaqdan səmərəli istifadə olunmasına

d) kənd təsərrüfatı məhsuluna qiymətlərin yüksəlməsinə

e) sənaye, ticarət, xidmət obyektlərinin tikintisinin azaldılmasına

12. Mahiyyətinə görə federal büdcəyə daxil olan mənbələri ardıcıllıqla göstərin:

a) əlavə dəyər vergisi

b) gəlirlərdən vergilər

v) aksizlər

q) təbii resurslara görə haqq

d) dövlət mülkiyyətini satılmasından vergilər

e) xarici ticarət fəaliyyətindən vergilər



downloaded from KitabYurdu.az

j) xüsusi vergilər

13. Pul-kredit siyasətinin əsas məqsədi nədir:

a) inflyasiya səviyyəsinin aşağı salınması

b) pul-kredit əməliyyatların ümumi həcmindən kommersiya banklarının xüsusi çəkisinin yüksəldilməsi

v) kredit əməliyyatların ümumi həcmində investisiyaların xüsusi çəkisinin yüksəldilməsi

q) dövlət mülkiyyətinin özəlləşdirilməsində xüsusi müəssisələrin payının genişləndirilməsi.

14. Pul dövriyyəsinin sabitliyi şəraitində ÜDM-ın real həcmi 1,2 dəfə, pul kütləsi 8 faiz artarsa, qiymət səviyyəsi necə dəyişilə bilər:

a) 10 faiz yüksələcək

b) 10 faiz aşağı düşəcək

v) dəyişilməz qalacaq

q) 11 faiz yüksələcək

15. Pul təklifi yüksələcək, əgər:

a) ehtiyat norması artırsa

b) «nəqd - depozit» münasibəti artarsa

v) pul bazası artarsa

q) pul multiplikatoru azalarsa



downloaded from KitabYurdu.az

16. Pul təklifi azalacaq əgər Mərkəzi Bank:

a) kommersiya banklarına verilən ssudaların uçot stavkasını yüksəldərsə

b) ehtiyat mütləq normasını yüksəldərsə

v) əhaliyə və kommersiya banklarına dövlət istiqrazları satarsa

q) açıq bazarda dövlət istiqrazlarını alarsa

17. Fərz edək ki, pul təklifi və qiymət dəyişilməzdir. Gəlirlərin artması halında pul bazarında hansı dəyişiklik ola bilər:

a) pula tələbat və faiz stavkası yüksələcək

b) pula tələbat artacaq, faiz stavkası azalacaq

v) pula tələbat azalacaq, faiz stavkası artacaq

q) pula tələbat və faiz stavkası azalacaq

18. Sizin fikrinizcə inflyasiya nədir?

a) kağız pulların hərdən çox artıqlığı nəticəsində qiymətin yüksəldilməsi

b) qiymətin artımı, ÜDM-un real həcminin artımından üstündür

v) pulun alıcılıq qabiliyyətinin aşağı düşməsidir

q) qiymətin artımı, ÜDM-un nominanal artımından aşağıdır

d) bunların heç biri duz deyildir

19. Keçid dövründə maliyyə-iqtisadi stabilliyə nail olmaq üçün hansı tədbirlərin həyata keçirilməsi zəruridir:

a) qiymət üzərindən dövlət nəzarətinin götürülməsi



downloaded from KitabYurdu.az

b)əhalinin pul gəlirlərinin və əmək haqqının azalması

v) dövlət büdcə kəsirinin azaldılması

q) ssuda faizinin inflyasiya səviyyəsindən yüksək götürülməsi

d) xüsusi sahibkarlığın sərbəstliyi

e) xarici-iqtisadi fəaliyyət üzərindən dövlət inhisarının götürülməsi

20. Bazar qiymətləri səviyyəsinin dəyişilməsi nə ilə nəticələnir:

a) fiskal siyasətin nəticələrinə təsir göstərmir

b) fiskal tədbirlərin effektini artırır

v) fiskal siyasətin həyata keçirilməsində iştirak etmir

q) fiskal tədbirlərin fəaliyyətini azaldır

d) dövlətin xərc və vergi multiplikatorunun effektini artırır

21. Mərkəzi uçot stavkasını yüksəldərsə, nəyə səbəb ola bilər:

a) kommersiya banklarının ehtiyatlarının azalmasına

b) mərkəzi bankın şöbələrinin depozitinə qoyulmuş əmanətlərin stimullaşdırılmasına

v) kommersiya banklarına verilən ssudaların həcminin artmasına

q) kommersiya banklarının ehtiyatındakı məbləğin artmasına



downloaded from KitabYurdu.az

22. Aşağıdakılardan hansılar Respublikanın bank sistemi strukturuna daxildir:

a) əmanət bankları

b) mərkəzi bank

v) fond birjaları

q) Bakı şəhər bankı

d) əmtəə birjaları

23. Milli valyuta kursunun aşağı düşməsi ixraca necə təsir göstərir:

a) müsbət

b) mənfi

24. Açıq iqtisadiyyatıl ölkələdə gəlir vergisinin artırılması nəyə səbəb ola bilər:

a) idxalın artmasına

b) ixracın artmasına

v) investisiyanın artmasına

q) Milli valyuta kursunun dönərliliyinin yüksəlməsinə

1b, 2b, 3bd, 4q, 5bvq, 6 dqeb, 7 b, 8a, 9d, 10aq, 11d, 12 aveb, 13 a, 14 a, 15b 16 a, 17 a, 18 a, 19v, 20 q, 21 v, 22 vd, 23 b, 24q.



downloaded from KitabYurdu.az

## TAPŞIRIQLAR

TAPŞIRIQ 1.

Verilənlər

Şəxsi istehlak xərci

a) uzun müddət istifadə məhsulları

b) qısa «---» «----»

v) xidmətlər

Xüsusi bölmənin investisiyası

a) əsas kapital

b) kommersiya xarakter, mal ehtiyatlarının dəyişilməsinə

Dövlət alışı

a) bələdiyyə orqanlar tərəfindən

b) digərləri tərəfindən

Xalis ixrac

a) ixrac

b) idxal

Əsas kapitalın istehlakı ilə əlaqədar ayırmalar. Hesablamalı

UMM-un həcmi fərdi məşğul olanların

Həlli

a) UMM = İt+İv +Da +Xi – Ək=XMM

Milli gəlir – Qulluqçuların ödənişləri Qə



downloaded from KitabYurdu.az

a) əmək haqqı

b) əlavələr

- Fərdilərin renta gəlirləri Fk
- Xalis faiz Xf
- Korporasiyaların gəlirləri Kk

a) dividentlər

b) gəlirə görə vergilər

v) bölüşdürülmüş gəlir

q) əmtəə ehtiyatlarının dəyərinin dəyişilməsi və əsas kapitalın köhnəlməsi

v) Fərdi məşğul olanların gəlirləri Kf

Fk= Xf + Qe + Fk +Kk

## TAPŞIRIQ 2.

Aşağıdakı göstəricilərə əsasən hesablamalı

a) gəlirə görə ümumi milli məhsul

b) xərcə görə ümumi milli məhsul

v) xalis milli məhsul həcmini

q) milli gəlirin həcmini

Hesab (mlrd.dol.)

| | |
|---|---|
| Kreditə görə faiz | 15 |
| Ümumi fərdi investisiya | 60 |



downloaded from KitabYurdu.az

| | |
|---|---|
| Əmək haqqı vəməvacib | 220 |
| Korporasiyaların gəliri | 115 |
| Fərdi sahibkarlara verilən transferent tədiyyələr, ver ödənişləri, qeyri müstəqim vergilər | 21 |
| İcarə mülkiyyət sahiblərinin renta tədiyyələri | 20 |
| Korporasiyaların gəlirlərinə vergilər | 55 |
| Əmtəə və xidmətlərin xalis ixracı | 10 |
| Əmtəə və xidmətlərin dövlətalışı | 95 |
| Xalis fərdi investisiyaları | 50 |
| Mülkiyyətdən gəlirlər | 21 |
| Dövlət müəssisələrinin xalis subsidiyaları | 2 |
| Əhaliyə transferent ödənişlər | 24 |
| İstehlak xərcləri | 260 |

(Hesablanma metodikası dərsliyin müvafiq fəslində verilmişdir).

## TAPŞIRIQ 3.

Nəzərdə tutulan dövrün birinci və beşinci illəri üzrə əmək resursları və məşğulluq haqqında məlumat verilmişdir. /min nəfər/.

| | Birinci il | Beşinci il |
|---|---|---|
| İşçi qüvvəsi | 84889 | 95453 |



downloaded from KitabYurdu.az

| | | |
|---|---|---|
| Məşğuldur | 80796 | 87524 |
| İşsizlik | | |
| İşsizlik səviyyəsi %-lə | | |

HESABLAMALI

a) Birinci və beşinci il üzrə işsizliyi və işsizlik səviyyəsini

b) İşsizlik və məşğulluğun eyni vaxtda artmasını izah etməli

v) Beşinci ildə tam məşğulluq təmin olunmuşdurmu?

HƏLLİ

a) Birinci il 84889-80796=4093

Beşinci il 95453-87524=7929 İşsizlik } İşsizlik

Birinci il 80796:84889 x 100 = 95,2

Beşinci il 87524 : 95453 x 100 = 91,6

4,8 %

8,3% } İşsizlik səviyyəsi

b) İşçi qüvvəsinin artımı 95453 : 84889 x 100= 112,4

12,4%

Məşğulluğun artması 87524 : 80796 x 100 = 108,3

8,3%



downloaded from KitabYurdu.az

v) Yox, çünki normal işsizlik səviyyəsi 6% sayılır. Beşinci ili işsizlik səviyyəsi 8,3% olmuşdur. Deməli tam məşğulluq təmin olunmamalıdır.

TAPŞIRIQ 4.

Aşağıdakı qrafikdə məcmu tələb və təklif əyrisi verilmişdir. Məcmu tələb əyrisi sola hərəkət edərsə nə baş verə bilər?




HESABLAMALI

a) tələb əyrisinin sola hərəkəti qiymətə necə təsir göstərir? Qiymətin ümumi səviyyəsi necə dəyişir?



downloaded from KitabYurdu.az

b) Tələb əyrisinin sola hərəkəti UMM necə təsir göstərir? UMM həcmi dəyişir?

v) Əmək məhsuldarlığı 50% azalarsa bu təklif əyrisinə necə təsir göstərər?

HƏLLİ

a) Qiymət səviyyəi 80-da 70-ə enir.

b) UMM real həcmi 200-dən 180-a enir.

v) Əmək məhsuldarlığı 50% aşağı düşərsə təklif əyrisi yuxarı qalxar. Belə ki, məhsul istehsalı azaldıqca ona tələbat artır.

TAPŞIRIQ 5.

Məcmu təklifi xarakterizə edən göstəricilər verimlişdir.

| Qiymət səviyyəsi | UMM real həcmi |
|---|---|
| 250 | 2000 |
| 225 | 2000 |
| 200 | 1900 |
| 175 | 1700 |
| 150 | 1400 |
| 125 | 1000 |
| 125 | 500 |
| 125 | 0 |

Qrafik quraraq müəyyən etməli:

1. UMM real həcminin Keyns kəsiyində dəyişilməsinin



downloaded from KitabYurdu.az

2. UMM-un klassik kəsikdə dəyişilməsini
3. UMM-un aralıq kəsikdə dəyişilməsini

HƏLLİ




TAPŞIRIQ 6.

Üç variantda UMM-un real həcmi verilmişdir. Qrafik quraraq hər bir variant üçün UMM-un real həcminə görə tarazlılıq qiymətini göstərin.

Ümumi milli məhssulun real həcmi



downloaded from KitabYurdu.az

| Qiymət | I.variant | II. variant | III. Variant |
|---|---|---|---|
| 250 | 1400 | 1900 | 400 |
| 225 | 1500 | 2000 | 500 |
| 200 | 1600 | 2100 | 600 |
| 175 | 1700 | 2200 | 700 |
| 150 | 1800 | 2300 | 800 |
| 125 | 1900 | 2400 | 900 |
| 100 | 2000 | 2500 | 1000 |

HƏLLİ

Əvvəlki (4 və 5 tapşırıqları) tapşırıqdakı qrafiklərdən əyrisini bu qrafikə keçirsək

$AD_2$ üçün 225 2000

$AD_1$ üçün 175 1700 } UMM

$AD_3$ üüçün 125 900



downloaded from KitabYurdu.az




## TAPŞIRIQ 7

Ailənin həftəlik istehlak xərci 100 dollar + 1\2 son gəliri cəmidir.

| Son gəlir «$D_i$»-0 | İstehlak «Ç» | Əmanət «S» |
|---|---|---|
| 0 | 100 | 0-100 |
| 100 | 100+1\2 $D_1$ =150 | 100-150= -50 |
| 200 | 100+1\2 $D_2$ =200 | 200-200=0 |
| 300 | 100+1\2 $D_3$ =250 | 300-250=50 |
| 400 | 100+1\2 $D_4$ =300 | 400-300=100 |
| 500 | 100+1\2 $D_2$ =350 | 500-350=150 |



downloaded from KitabYurdu.az

HESABLAMALI

Bu göstərici əsasında qrafik qurun:




Həmin qrafikdə bissektrisa çəkərək \45\. Bu xəttin hər bir nöqtəsində istehlak və son gəlirin münasibətini göstərin.

## TAPŞIRIQ 8.

İstehlak funksiyası aşağıdakı formada S=100 +09 verilmişdir. \mlrd.dollar\

| Son gəlir «Di»-0 | İstehlak «C» | Əmanət «S» |
|---|---|---|
| 600 | 100+09D=100+09*600=640 | 600-640= -40 |
| 800 | 100+09$D_1$=100+09*800=820 | -20 |



downloaded from KitabYurdu.az

| | | |
|---|---|---|
| 1000 | 100+09D$_2$=100+09*1000=1000 | 0 |
| 1200 | 100+09D$_3$=100+09*1200=1180 | 20 |
| 1400 | 100+09D$_4$=100+09*1400=1360 | 40 |

Tələb olunur:

a) İstehlak xərci və əmanəti hesablamalı

b) İstehlaka meyllik həddini hesablamalı \MRS\

v) Əmanətə meylilik həddinin hesablamalı \MRS\

q) Xərc multiplikatorunu hesablmalı

HƏLLİ

a) İstehlak xərci S=100+09 D kimi hesablanır

b) istehlaka meyllilik həddi MRS =09

v) Əmanətə meyllik həddi I-MRS=MRZ kimi hesablanır

yəni I-0,9=0,1 MRS = 0,1

q) Xərc multiplikatoru Mx= $\frac{1}{MRS} = \frac{1}{1-0,9} = \frac{1}{0,1} = 10$

$M_x$=10

TAPŞIRIQ 9

1. Ölkənin ümumi məhsul istehsalı 5000000 dollardır.



downloaded from KitabYurdu.az

2. Dövriyyədə olan pulun həcmi 1000000 dollar təşkil edir.
3. pulun dövretmə sürəti 4-dür

Bu göstəricilərə əsasən qiymət səviyyəsini hesablamalı

HƏLLİ

Klassik nəzəriyyəyə görə makroiqtisadi tarazlığın təmin olunması MV=PO düsturu ilə hesablanır.

Verilənlərə əsasən

Deməli qiymət səviyyəsi R=8 dollardır

TAPŞIRIQ 10

A və V məhsullarının imkanlarını əks etdirən əyri verilmişdir. Bu məhsulların istehsalı klombinasiyasını. Alınmış nöqtələrin effektli, effektsiz və mümkün olmayan hallarını tapın.



downloaded from KitabYurdu.az




HƏLLİ

1. 200 B. 60 A.
2. 60 B. 80 A.
3. 300 B. 35 A.
4. 300 B. 40 A.
5. 58 B. 250 A.

1-4 variantda nöqtələr istehsal xəttində yerləşir.

- effektli variant

2-5 variantında istehsal imkanı xəttindən kənardadır – mümkün olmayan variant



downloaded from KitabYurdu.az

3 variantda nöqtə istehsal imkanı xəttinin daxilindədir.

- qeyri effektiv variant

TAPŞIRIQ 11

Əmtəə bazarında müxtəlif situasiyaları səciyyələndirən göstəricilər verilmişdir.

| Qiymət | Tələbin həcmi | Təklifin |
|---|---|---|
| 8 | 70 | 10 |
| 16 | 60 | 30 |
| 24 | 50 | 50 |
| 32 | 40 | 70 |
| 40 | 30 | 90 |

Tələb olunur:

1. Cədvəlin göstəricilərinə əsasən tələb və təklif əyrisini qurmalı.
2. Əgər əmtəə vahidinə qiymət 8 – vahiddirsə bu zaman bazar üçün hansı hallar xarakterikdir. Məhsul artıqdır və ya çatışmır. Onun həcmi nə qədərdir?
3. Əgər qiymət 32 vahid olarsa onda dəyişilmə necə olacaq?
4. Bu bazarda taraz qiymət hansı səviyyədədir?

HƏLLİ



downloaded from KitabYurdu.az




1. Qrafik qurulmuşdur.
2. Əgər qiymət əmtəə vahidi üçün 8-dirsə bu zaman tələb 70 vahid, təklif 10 vahiddir ki, bu da \ 70-10=60\ 60 vahid məhsul çatışmamazlığı \ defisit\ vardır.
3. Əgər qiymət 32 vahiddirsə bu zaman bazarda 30 vahid / 70-40/ artıqlıq vardır.
4. Həmin bazarda bərabər çəkili qiymət \ sərfəli, taraz\ 24 vahiddir, bu zaman tələblə təklif bir-birini ödəyir.

## TAPŞIRIQ 12.

Firmanın uzun müddət üçün ümumi xərcləri haqqında məlumatlar verilmişdir.



downloaded from KitabYurdu.az

| İstehsalın həcmi 1 həftə | Ümumi xərc (dollarla – $) |
|---|---|
| 0 | 0 |
| 1 | 32 |
| 2 | 48 |
| 3 | 82 |
| 4 | 140 |
| 5 | 228 |
| 6 | 352 |

HESABLAMALI

a) Orta və son həddlərini

b) Uzun müddət orta və son xərcləri əyrilərini qurmalı

v) İstehsalın hansı həcmində orta xərc minimum olacaq

q) istehsalın hansı həcmində uzun müddətli son hədd xərci orta xərclə üst-üstə düşəcək.

HƏLLİ

| XƏRCLƏR | | | |
|---|---|---|---|
| Həftə | Ümumi | Orta | Son hədd |
| 0 | 0 | | |
| 1 | 32 | 32 | 32 |
| 2 | 48 | 48:2=24 | 48-32=16 |
| 3 | 82 | 82:3=27,3 | 82-48=34 |
| 4 | 140 | 140:4=35 | 140-82=58 |
| 5 | 228 | 228:5=45,6 | 228-140=88 |



downloaded from KitabYurdu.az

| | | | |
|---|---|---|---|
| 6 | 352 | 352:6=58,7 | 352-228=124 |




## TAPŞIRIQ 13

Aşağıdakı cədvəldə məhsula olan tələbat və qiymət verilmişdir.

| Qiymət | Tələbat |
|---|---|
| 2,1 | 10 |



downloaded from KitabYurdu.az

| | |
|---|---|
| 1,8 | 20 |
| 1,5 | 30 |
| 1,2 | 40 |
| 0,9 | 50 |
| 0,6 | 60 |
| 0,3 | 70 |

HESABLAMALI

a) Tələb əyrisini qurmalı

b) Məhsulun qiyməti 0,3 qədər azalarsa tələbin həcmi necə dəyişilə bilər?

v) Qiymətin hər sahiyyəti üçün tələbin xərcini hesablayın.

q) Tələbin qiymət elastikliyi əmsalını hesablamalı.

d) Xərc və tələb əyrisini qurmalı

e) Hansı qiymətdə satışın həcmi maksimum olacaqdır?

j) hansı qiymətdə qiymətin elastiklik əmsalı 1-ə bərabərdir?

z) hansı qiymət hüdudunda tələb elastik və qeyri elastikdir?

HƏLLİ

A) Tələb əyrisini quraq



downloaded from KitabYurdu.az




b) tələb əyrisi düz xətt təşkil etdiyi üçün qiymətin hər dəfə 0,3 vahid aşağı düşməsi məhsula tələbatı 10 vahid artırır.

Məsələn, Qiymət 1,5-0,3=30-10=20

v) Xərcin və elastiklik əmsalının hesablanması

| Qiymət | Tələbat C | Xərc | $K_b$- Qiymət elastikliyi |
|---|---|---|---|
| 2,1 $Ц_1$ | 10$C_1$ | 2,1*10=21 | 7 |
| 1,8$Ц_2$ | 20$C_2$ | 1,8*20=36 | 3 |
| 1,5$Ц_3$ | 30$C_3$ | 1,5*30=45 | 1,67 |
| 1,2$Ц_4$ | 40$C_4$ | 1,2*40=48 | 1 |



downloaded from KitabYurdu.az

| | | | |
|---|---|---|---|
| 0,9Ц$_5$ | 50C$_5$ | 0,9*50=45 | 0,6 |
| 0,6Ц$_6$ | 60C$_6$ | 0,6*60=36 | 0,3 |
| 0,3Ц$_7$ | 70C$_7$ | 0,3*70=21 | |

Tələbatın qiymət elastikliyi belə hesablanır

$$K_E = \frac{100 - \left(\frac{C_2}{C_1} \times 100\right)}{\left(\frac{Ц_2}{Ц_1} x100\right) - 100}$$

Hər bir mövqe üzrə indeks dəyişir.

d) Xərc və tələb əyrisini qurmalı






downloaded from KitabYurdu.az

e) göründüyü kimi qiymətin 1,2 səviyyəsində satışın həcmi maksimumdur.

j) 1,2 qiymətdə qiymətin elastik əmsalı 1-ə bərabərdir.

1,2 qiymətindən aşağı elastikliyi yoxdur. Çünki vahiddən aşağıdır.

## TAPŞIRIQ 14

Aşağıdakı qrafikdə rəqabətli sahədə fəaliyyətdə olan firmanın xərc əyrisi verilmişdir.




HESABLAMALI



downloaded from KitabYurdu.az

a) Firmanın mənfəətinin maksimumlaşdıran məhsul buraxılışı həcmini göstərin

b) Məhsul buraxılışı və qiymət səviyyəsində mənfəətin həcmini göstərən, sahəni göstərin

v) Fərz edək ki, bu sahə tarazlılıq vəziyyətindədir. Fikirləşin, bu tarazlılıq qısa müddətlidir, yoxsa uzun müddətli?

q) Sahənin məhsuluna bazar tələbatı azalarsa, bu firmaya necə təsir göstərər?

## HƏLLİ




Məhsul buraxılışı



downloaded from KitabYurdu.az

a) Müəssisənin məhsul buraxılışı OA vəziyyətində mənfəəti maksimumdur MS=MR=R

b) OR xərcində OA məhsul buraxılışında firmanın maksimum gəliri VRDS sahəsindədir

v) Bu tarazlılıq qısa müddətlidir. Çünki firma «normal mənfəətdən artıq iqtisadi səmərə alır. Uzun müddətli dövrdə sahəyə yəni firmalar daxil olacaq və onlar ancaq «normal mənfəət» götürəcəklər.

q) Tələbatın azalması ilk əvvəl firmanın gəlirinin azalmasına səbəb olacaq. Uzun müddətli dövr üçün rəqabətə dözməyən firmalar sahədən çıxacaq, bu da mənfəətin yenidən artmasına səbəb olacaq.



downloaded from KitabYurdu.az

TAPŞIRIQ 15.

Aşağıdakı qrafikdə inhisarçının xərci və gəlir əyrisi verilmişdir.




HESABLAMALI

a) Qrafikdə maksimum mənfəət verən həcmi göstərməli.

b) İnhisarçının həmin məhsulu satdığı qiyməti göstərməli.

v) İnhisarçının mənfəətini əks etdirən sahəni müəyyən etməli.

q) Məhsula bazar tələbatının azalması inhisarçıya necə təsir göstərəcəkdir?



downloaded from KitabYurdu.az




Məhsul buraxılışı

HƏLLİ

a) OO həcmində mənfəət maksimumdur. Çünki MS (son hədd xərci)=MR (son hədd gəliri)

b) İnhisarçı həmin məhsulu OR qiymətində satır.

v) İnhisarçının mənfəəti SV xəttindən yuxarı olub SRAV sahəsini əhatə edir.

q) Məhsula bazar tələbatı azalarsa MR xətti sola doğru hərəkət edəcəkdir. Deməli MR və MS kəsişdiyi nöqttə daha aşağıda olacaqdır ki, bu da inhisarçının az məhsul istehsal etdiyini göstərəcəkdir.



downloaded from KitabYurdu.az

## TAPŞIRIQ 16.

Aşağıdakı cədvəllədrə ayrı-ayrı firmalar üzrə dəyər ifadəsində son hədd məhsulu verilmişdir /MRR/

| Əmək vahidi | Son hədd məhsulu MRR |
|---|---|
| 1 | 15 |
| 2 | 14 |
| 3 | 13 |
| 4 | 12 |
| 5 | 11 |
| 6 | 10 |
| 7 | 9 |
| 8 | 8 |

İkinci cədvəldə isə əməyə tələbatın həcmi, əmək haqqı stavkası və əmək təklifi həcmi verilmişdir.

| Əməyə tələbat nəfər | Əmək haqqı stavkası | Əmək təklifi nəfər |
|---|---|---|
| | 15 | 850 |
| | 14 | 800 |
| | 13 | 750 |
| | 12 | 700 |
| | 11 | 650 |
| | 10 | 600 |
| | 9 | 550 |



downloaded from KitabYurdu.az

| | | |
|---|---|---|
| | 8 | 500 |

Fərz edək ki, konkret olaraq əməyə tələbatı olan 100 firma mövcuddur.

## HESABLAMALI

a) Əməyə olan bazar tələbatının ümumi həcmini müəyyən edib ikinci cədvəldə göstərməli.

b) İkinci cədvəlin göstəricilərinə əsasən əmək haqqını tarazlılıq stavkasını müəyyən etməli.

v) Cəlb olunan işçilərin ümumi sayını.

q) Ayrı firma üzrə (bir firma) əmək haqqına son xərci, cəlb olunan fəhlələri, əmək haqqının həcmini hesablamalı.

d) Minimum əmək haqqı 12 dollar qəbul edilirsə cəlb olunan fəhlələrin necə dəyişdiyini müəyyən etməli.

## HƏLLİ

a) Əməyə olan bazar tələbatı

| Əməyə tələbat nəfər | Əmək haqqı stavkası | Əmək təklifi nəfər |
|---|---|---|
| 1*100=100 | 15 | 850 |
| 2*100=200 | 14 | 800 |
| 3*100=300 | 13 | 750 |
| 4*100=400 | 12 | 700 |
| 5*100=500 | 11 | 650 |



downloaded from KitabYurdu.az

| | | |
|---|---|---|
| 6*100=600 | 10 | 600 |
| 7*100=700 | 9 | 550 |
| 8*100=800 | 8 | 500 |

b) Əmək haqqının tarazlıq stavkası 10 dollardır. Çünki bu stavka əməyə tələbat və əmək təklifi 600 nəfərdir.

v) Cəlb olunan fəhlələrin ümumi sayı 600 nəfərdir.

q) Ayrı firma üzrə əmək haqqı üzrə son xərc 10 dollar, əmək haqqı da 10 dollardır.

d) Minimum əmək haqqı 12 dollar olarsa cəlb olunan fəhlələrin sayı 600 nəfərdən 400 nəfərə dəyişəcəkdir.

TAPŞIRIQ 17.

Tələb qanununun fəaliyyətini qrafiki şəkildə göstərin.

HƏLLİ

Tələb qanunu qiymətlə təklif arasında əks əlaqəni əks etdirir. Yəni təklif artdıqca qiymət aşağı düşür və əksinə.






downloaded from KitabYurdu.az

TAPŞIRIQ 18.

Tələbin kəmiyyətinin dəyişilməsini qrafiki şəkildə göstərin.

HƏLLİ

Tələbin kəmiyyətinin dəyişilməsi qiymətin dəyişilməsi ilə əlaqədardır. Bu tələb əyrisi boyunca yerləşir.




TAPŞIRIQ 19.

Aşağıda verilmiş qrafiki təhlil edin.




Qrafikin təhlili zamanı aşağıdakı suallara cavab formalaşdırın.



downloaded from KitabYurdu.az

1. E nöqtəsi hansı mənanı daşıyır?
2. R qiymətində KL kəsiyi nəyi göstərir?
3. P qiymətində interpretasiyası nəyi ifadə edir?
4. İstehsal dinamikasını hansı şəraitdə dayandırmaq mümkündür?
5. «İqtisadi azadlıq» anlayışı nədir?
6. Nəyə görə ancaq iqtisadi azadlıq bazar tarazlığını təmin edir?

HƏLLİ

1. E – satmaq və almaq imkanlarının üst-üstə düşməsidir.
2. KL – ifrat istehsaldır.
3. MN- qıtlıqdır.
4. İstehsal dinamikasını ancaq E tarazlıq nöqtəsinə nail olunduğu şəraitdə dayandırmaq olar.
5. «İqtisadi azadlıq» anlayışı istehsal amilləri və mülkiyyət üzərində sərəncam vermək azadlığıdır.
6. Çünki, bazarda tarazlığın təmin olunması ancaq sərbəst qiymət qoyma əsasında mümkündür.

TAPŞIRIQ 20.

Aşağıda göstərilən xərc maddələrini daimi və dəyişən xərclərə ayırın.

1. Avadanlıq və binaların amortizasiyası.
2. Əmək haqqı.
3. Müdirin xidməti əmək haqqı.



downloaded from KitabYurdu.az

4. Daşınmaz əmlaka vergi.
5. Su və elektrik enerjisi xərcləri.
6. Məcburi sığorta ödənişləri.
7. Xammalın alınması xərcləri.
8. Alət və köməkçi materialların alınması xərcləri.
9. Xüsusi pul vəsaitləri qoyuluşuna əvvəlki dövrün faizi

HƏLLİ

| DAİMİ | DƏYİŞƏN |
|---|---|
| 1,3<br>4.6<br>9 | 2,5,7,8 |

## TAPŞIRIQ 21

Aşağıdakı qrafiklərdən hansı rəqabətli məhsula tələbatı əks etdirir. Əsaslandırın.

a)




b)






downloaded from KitabYurdu.az

v)




q)




d)




e)




HƏLLİ

Cavab

q)






downloaded from KitabYurdu.az

Qiymət sərbəstdir, daha doğrusu dəyişməzdir. Lakin məhsulun artımı müşayiət olunur.

## TAPŞIRIQ 22

Müəssisə təkmil rəqabət şəraitindədir. Qiymət 10 min manat səviyyəsində qoyulmuşdur. Məhsul buraxılışından ümumi xərclərin asılılığı cədvəldə verilmişdir.

| Məhsul buraxılışı ədəd | Ümumi xərc min man. |
|---|---|
| 10 | 80 |
| 11 | 86 |
| 12 | 93 |
| 13 | 102 |
| 14 | 113 |
| 15 | 125 |

Müəssisə mənfəətini maksimumlaşdıran hansı istehsal həcmini müəyyən etməlidir?

## HƏLLİ

Marjinal təhlil tətbiq edərək (son hədd xərci) müəyyənləşdirək ki, marjinal xərci ötə bilən məhsul istehsalı həcmi əldə edilsin. Ümumi qəbul edilmiş qaydaya əsasən bu meyarı belə yazmaq olar.

$MR \rangle MC$

MC – marcinal son hədd xərci

MR – son hədd xərcini ötən məhsul istehsalı.



downloaded from KitabYurdu.az

| Məhsul buraxılışı ədəd | Ymumi xərc min man. | Son hədd xərci MC | Marjinal vergi MR | Marjinal gəlir MP |
|---|---|---|---|---|
| 10 | 80 | - | 10 | - |
| 11 | 86 | 6 | 10 | 4 |
| 12 | 93 | 7 | 10 | 3 |
| 13 | 102 | 9 | 10 | 1 |
| 14 | 113 | 11 | 10 | -1 |
| 15 | 125 | 12 | 10 | -2 |

Bu halda MR=P belə ki, qiymətin qeyd olunmuş səviyyəsində verim (otdaça) bu məbləğdə artacaq. Cədvəldən görünür ki, məhsul istehsalını 13 vahiddə saxlamaq lazımdır. Çünki məhsulun hər vahid artıq istehsalı ümumi mənfəətin 1 min manat azalmasına səbəb olacaq.

## TAPŞIRIQ 23.

Əsas fondalırn orta illik dəyəri 100 min manat, o cümlədən:

1. Binalar 20 mln. man, amortizasiya norması 7%
2. Avadanlıq 15 mln. man.-------------------------10%
3. EHM 5 mln. man.---------------------------------12%
4. Nəqliyyat 50 mln.man.--------------------------10%
5. Sair 10 mln. man.---------------------------------12%



downloaded from KitabYurdu.az

İl ərzində istehsal olunmuş məhsul 120 mln. man.

<u>Təyin etməli</u>: İllik amortizasiya məbləğini və fond verimini.

(007 x 20)+(0,12 x5)+(15 x01)+(50 x0,1)+(10 x0,12)=

Amortizasiya məbləği = 9,7 mln.man.

$$\text{fond verimi} = \frac{\text{məhsul}}{\text{kapital}} = \frac{120}{120\ \text{məhsul} + 20\ \text{bina}} = \frac{120}{140} = 0{,}857\ \text{və}$$

ya 85,7%

Xarici-iqtisadi ədəbiyyatlarda çox vaxt əsas fondlar kapital

resursu kimi, fond verimi isə $\frac{\text{məhsul}}{\text{kapital}}$ kimi göstərilir.

## TAPŞIRIQ 24.

Qaz enerjisinə tələbat funksiyası $O_{\ddot{o}}^{d} = 3{,}75\ P_n - 5P_ə$, onun təklif funksiyası $O_{\ddot{o}}^{d} = 14 + 2P_ə + 0{,}25\ P_n$ ifadə olunmuşdur.

$P_ə$ – qazın qiyməti

$P_n$ – neftin qiymətidir.

Müəyyən etməli:

1. Hansı qiymətdə bu enerji daşıyıcılarının tələb və təklifinin həcmi 20 vahidə bərabər olacaqdır?



downloaded from KitabYurdu.az

2. Neftin qiymətinin 25% artırılması qazın satılması həcminə necə təsir göstərəcək?

HƏLLİ

1) 20 vahid qazın matılması aşağıdakı qiymətlərdə ola bilər.

$$\begin{cases} 3{,}75\ P_n - 5P_ə = 20 \\ 2P_ə + 0{,}25P_n + 14 = 20 \end{cases}$$

--------------------------------

$$\begin{cases} 3{,}75\ P_n - 5P_ə = 20 \\ 0{,}25\ P_n + 2P_ə = 20 - 14 \end{cases}$$

$$\begin{cases} 3{,}75\ P_n - 5P_ə = 20 & \vert\ 2 \\ 0{,}25\ P_n + 2P_ə = 6 & \vert\ 5 \end{cases}$$

--------------------------------

$$\begin{cases} 7{,}5\ P_n - \cancel{10\ P_ə} = 40 \\ 1{,}25\ P_n + \cancel{10\ P_ə} = 30 \end{cases}$$

----------------------------------

$8{,}75\ P_n = 70$ $\qquad$ $P_n = 8{,}0$

$3{,}75\ P_n - 5P_ə = 20$

$3{,}75\ x8 - 5P_ə = 20$

$30:20 = P_ə$ $\qquad$ $P_ə = 2{,}0$

2) $8 \times 1{,}25 = 10$ pul vahidli

$P_n = 10$ pul vahidi

$Q_ə = 3{,}75 \times 10 - P_ə = 14 + 2\ P_ə + 0{,}25 \times 10$

$Q_ə = 37{,}5 - P_ə = 14 + 2P_ə = 14 + 2P_ə + 2{,}5$



downloaded from KitabYurdu.az

$Q_ə = 27{,}5 – (14+2{,}5)+ P_ə$

$Q_ə=37{,}5 – 16{,}5+2=23$

$Q_ə=23$

Qaz satışının həcmi art acaq

J=$\frac{23}{20}\cdot 100 = 115\%$ və ya 15% artım.

TAPŞIRIQ 25

Tutaq ki, illik inflyasiya 20% təşkil edir. Birinci ili siz kapitalınızı 10% gəlirlə istiqraza sərf etdiniz. İkinci ili isə 20% dividendlə səhm aldınız və nəhayət üçüncü ili 30% gəlirli sahəyə kapitalınızı istiqamətləndirə bildiniz.

<u>Təyin etməli</u>.

Sizin kapitalınızın real investisiyalaşdırmada neçə faiz artıb azalmışdır?

HƏLLİ

Fərz edək ki, J(k) – kapitalın real hərəkətidir

$H_i$ – inflyasiyanın indeksidir.

Kapitalın üç ildə orta artımı (1,1+1,2+1,3):3=1,2

Deməli

$$J(k) = \frac{I(H_1)xI(H_2)xI(H_3)}{I(U_1)xI(U_2)\cdot(U_3)} = \frac{1{,}1x1{,}2x1{,}3}{1{,}2x1{,}2x1{,}2} = \frac{1{,}716}{1{,}728} = 0{,}993$$



downloaded from KitabYurdu.az

Və ya 99,3% real kapital 0,7 % azalıb.

## TAPŞIRIQ 26

İnflyasiyanın orta illik 4% artımı şəraitində 1997-ci i lə nisbətən 2003-cü ildə 1 dolların dəyərini hesablamalı.

## HƏLLİ

2003-cü ildə 1 dolların nominalı dəyişilməmişdir. Yəni 1 dollar 1996-cı ildə də və 2003-cü ildə eynilə qalmışdır. Lakin onun. Real dəyəri hər il 1,04% azalmışdır.

1996-cı ildən 2003-cü ilə qədər 7 il keçmişdir.

Deməli $I_P = \frac{1}{1{,}04^7} = \frac{1}{1{,}316} = 0{,}7598$

Beləliklə, 1 dollar 2003-cü ildə faktiki olaraq 1997-ci ilin qiymətində 76 sent təşkil edir.

## TAPŞIRIQ 27

Verilən ssudanın məbləği k=10 mln. manat. Kredit 5,5%-lə 5 il müddətinə verilir. Həmin müddətdə inflyasiya 3% təşkil edir.

Həll edərək tapmalı: 1. İnflyasiya nəzərə alınmaqla artan məbləği; 2. Faiz hesablamasının məbləğini; 3. İnflyasiya məbləğini.



downloaded from KitabYurdu.az

HƏLLİ.

1. İnflyasiya nəzərə alınmaqla artan məbləği.

$K_t$= 10000000 x (1+0,055)x (1+0,03)$^{-5}$ = 10000000 x1.3069599 x (1,159274)=13069600 x (1-0,159274)= 13069600 x 0,850726 = 11118647 man.

2. Hesablanmış faiz məbləği.

$K_e$ = 10000000 x (1+0,055)$^5$ – 10000000 = 13069600 – 10000000 = 3069600

3. İnflyasiya məbləği.

$K_2$ = 13069600
- 11118647
---------------
1950953

TAPŞIRIQ 28

Azərbaycan Respublikasının iqtisadiyyatında ümumi qiymət indeksi 1995-ci ildə 184,6%, 2003-cü ildə isə 103,№% olmuşdur. İnflyasiya sürətini hesablamalı.

TAPŞIRIQ

$$I = \frac{2003 - 1995}{2003} \cdot 100 = \frac{103{,}3 - 184{,}6}{103{,}3} \cdot 100 = \frac{-81{,}6 \cdot 100}{103{,}3} = \frac{-81600}{1033} = -78{,}9$$

Yəni inflyasiya səviyyəsi 78,9% aşağı düşmüşdür.



downloaded from KitabYurdu.az

TAPŞIRIQ 29

Rəqabət firması 9 məhsul vahidi üçün ümumi xərci $q^2$-16q+74 tənliyi ilə ifadə olunmuşdur.

Əgər bazar 20 vahid qiymətini diktə edirsə müəssisə nə qədər məhsul istehsal etməli və mənfəəti nə qədər olmalıdır?

HƏLLİ

Müəssisənin marjinal xərcini tapaq (son hədd xərci)

$MC=q^2-16q+74$

Bunun törəməsini alaq

$MC^1$= 16\2 = 8 (buradan)

Q = 16\2=8

Bu şərt daxilində marjinal xərc (MC) maksimum mənfəətə (MR) bərabər olmalıdır. MC =MR yəni istehsal olunacaq məhsul maksimum verimə (otdaça) malik olmalıdır.

Məsələnin şərtinə görə maksimum mənfəət ancaq qiymət 20 vahid olduğu halda mümkündür. Yəni MR=P=20

Bu ifadəni MC=MR ifadəsində yerinə yazaq

MC=MR=P=20    MC=20

Bu ifadəni isə

$MC^1$=2q-16 i fadəsində yerinə yazsaq alarıq.

20=2q-16

2q=36

q=18    məhsul həcminin miqdarıdır.



downloaded from KitabYurdu.az

Ümumi məhsul buraxılışı ilə əlaqədar olaraq istehsal olunmuş məhsulun dəyəri (TR) təşkil edəcəkdir.

TR=P x q=20 x 18 = 360

Ümumi məhsul istehsalına çəkilən xərci hesablamaq üçün

q = 18 ədədindən istifadə edək. Bunun üçün $q^2 - 16$ q + 74 ifadəsində yerinə yazaq.

$18^2 - 16$ x 18 + 74 = TC

TC = 324 – 288 + 74 = 110

İndi ümumi məhsul buraxılışının (TR) dəyərindən, onun istehsalına çəkilən xərci (TC) çıxaraq mənffəti tapaq.

M= TR – TC = 360 – 11- =250

Deməli müəssisə 18 əddə məhsul buraxarsa 20 vahid qiymət şəraitində 250 manat mənfəət əldə edə bilər.

TAPŞIRIQ 30

Ötən dövrdə ölkə aşağıdakı göstəricilərə malik olmuşdur. (pul vahidi)

Ümumi milli məhsul --------------------------------------------500

Xüsusi sektorun xalis invetisiyası-----------------------------75

Dövlət alışı ----------------------------------------------------------80

Ev təsərrüfatında istehlak--------------------------------------250

Dövlət büdcəsinə müstəqim vergilərin daxil olması-------30

Dolayı vergilər-----------------------------------------------------20

Sahibkarlara subvensiyalar-------------------------------------25

İxrac-----------------------------------------------------------------150

İdxal-----------------------------------------------------------------110



downloaded from KitabYurdu.az

Müəyyən etməli

a) ev təsərrüfatının sərəncamında qalan gəliri.

b) Amortizasiya fondunu (D)

v) Dövlət büdcəsinin vəziyyətini

HƏLLİ

a) Milli gəlirin həcmini hesablayaq

$MK_{11}(y)$ = ev təsərrüfatında istehlak + xüsust sektorun xalis investisiyası + dövlət alışı + xalis ixrac

Yəni: $y = 250 + 75 + 80 + (150 - 100) = 445$

$y = 445$

Müstəqim xərclər 30 vahid təşkil etdiyi üçün, sərəncamda qalan gəlir, milli gəlirlə onun fərqinə bərabərdir.

Yəni y = 445-30=415

Deməli ev təsərrüfatının sərəncamında qalan gəlir $y^s$ = 415 vahid təşkil edir.

b) Amortizasiya fondu Ümumi Milli Məhsulla (ÜMM), Xalis Milli Məhsulun (XMM) fərqindən ibarətdir xalis Milli Məhsul isə belə hesablanır:

XMM= Milli Gəlir (MG) = dolayı vergilər – sahibkarlara subvensiyalar.

Yəni XMM = 445 + 20 – 25= 440

Amortizasiya fondu D = ÜMM – XMM = 500 – 440 = 60

D = 60



downloaded from KitabYurdu.az

## TAPŞIRIQ 31

Cədvəldə verilmiş göstəricilərə əsasən 2003-cü ilə qiymət indeksini və deflyatoru hesablamalı.

| | 2002 | | 2003 | |
|---|---|---|---|---|
| | Qiymət mann | Satılmışdır kq | qiymət | satılmışdır |
| Çörək | 1 | 200 | 1 | 300 |
| Ət | 3 | 100 | 4 | 150 |
| Paltar | 6 | 60 | 8 | 50 |

## HƏLLİ

$$I_{г} = \frac{\sum P_i\, q_0}{\sum P_0 q_0} = \frac{1\times 200 + 4\times 100 + 8\times 60}{1\times 200 + 3\times 100 + 6\times 60} = \frac{200+400+480}{200+300+360} = \frac{1080}{860} = 1{,}26$$

Definlyator

$$D = \frac{\sum P_1 q_1}{\sum P_0 q_1} = \frac{1\times 300 + 4\times 150 + 8\times 50}{1\times 300 + 3\times 150 + 6\times 50} = \frac{300+600+400}{300+450+300} = \frac{1300}{1050} = 1{,}24$$

## TAPŞIRIQ 32

Pul vahidilə aşağıdakı göstəricilər verilmişdir:

Ümumi daxili məhsul (ÜDM)---------------------------------------480



downloaded from KitabYurdu.az

Ümumi investisiyanın həcmi ($İ_u$)------------------------------------80

Xalis investisiyanın həcmi ($İ_k$)---------------------------------------30

Ev təsərrüfatının istehsalının həcmi ($E_t$)---------------------------300

Dövlət xərcləri ($D_x$)-----------------------------------------------------96

Dövlət büdcəsinin artıqlığı ($D_a$)-------------------------------------3

MÜƏYYƏN ETMƏLİ:

a) Xalis milli məhsul (XMM)

b) Xalis ixracı ($X_u$)

v) Ev təsərrüfatının sərəncamında qalan gəlirləri, əmanətin həcmini

HƏLLİ

a) Xalis milli məhsul, (XMM), ümumi daxili məhsuldan (ÜDM) amortizasiyanın kəmiyyəti qədər fərqlənir. Bu kəmiyyət qədərdə ümumi və xalis investisiyalar fərqlənir. Deməli:

$XMM = ÜDM - (İ_u - İ_x) = 480 - (80-30) = 480 - 50 = 430$

Tapşırıqda dolayı vergi və subvensiyalar olmadığı üçün

$XMM = M_k$ (milli gəlir) = 430

b) Xalis ixracı ($X_u$) qalıq kəmiyyəti kimi müəyyən etmək mümkündür. Yəni Xalis Milli Məhsuldan (XMM), ev təsərrüfatının istehlakı ($E_t$), xalis investisiyanın həcmini ($İ_x$), dövlət xərclərini çıxmaq lazımdır.

$X_u = XMM - E_T - İ_x - D_x = 430 - 300 - 30 - 96 = 4$



downloaded from KitabYurdu.az

Deməli xalis ixrac ($X_i$) 4 vahidə bərabərdir.

v) Ev təsərrüfatının sərəncamında qalan gəlirləri ($E_d$) müəyyən etmək üçün ilk əvvəl büdcə kəsirini tapmaq lazımdır. (b). bunun üçün dövlət xərcləri ilə büdcə artıqlıq hesablanmalıdır. Yəni b = dövlət xərcləri ($D_x$) + büdcə artıqlığı ($D_a$) = 96 + 3=99

Sonra ev təsərrüfatının sərəncamında qalan gəlir ($E_d$) milli gəlirlə ($M_k$) büdcə kəsirinin (b) fərqi kimi hesablanmalıdır. Yəni sərəncamda qalan milli gəlir = Milli gəlir – büdcə kəsiri = 430 – 99 = 331. Bu ev təsərrüfatının sərəncamında qalan gəlirdir. Bu kəmiyyət ev təsərrüfatında istehlakla, əmanətin cəminə bərabər olduğu üçün əmanətin həcmi (S) 331 – 300 fərqinə bərabərdir. Yəni əmanət S = 331 – 300 = 31

## TAPŞIRIQ 33

Aşağıdakı göstəricilər verilmişdir:

Milli gəlir ($M_k$) ……………………………………………………500

Sərəncamda qalan gəlir (У) ……………………………………410

Sahibkarlıq subsidiyalarından dolayı vergilərin artıqlığı (T)……20

Ev təsərrüfatının istehlakı ………………………………………..380

Ticarət balansının çatışmazlığı (idxalın ixracdan üstünlüyü) ($X_u$) ………………………………………………………………………10

## MÜƏYYƏN ETMƏLİ



downloaded from KitabYurdu.az

a) Əmanətin həcmini və xalis investisiyanı (S0, (İ)

b) Dövlət xərclərini (Dx)

v) Dövlət büdcəsinin qıtlığı 10 vahidə bərabər olarsa, müstəqim vergilərin həcmini (б)

HƏLLİ

a) Milli hesablar sistemin əsasən

İ = S

Əmanət (S) = У - $X_u$ = 410 – 380 = 30

Deməli, investisiya İ = 30

b) Xalis ixrac ($X_u$) milli gəlirin istifadəsi maddələrinin qalıq kəmiyyəti kimi hesablanır.

$X_u = M_k$ – İ – б = 500 – 380 -10 = 80

v) Müstəqim vergi

$T_m = X_u$ – T – б = 80 -20 -10= 50

$T_m$ = 50

TAPŞIRIQ 34

İqtisadiyyatda dövlət və xaricin iştirakı olmadan aralıq məhsul 100 vahidə bərabərdir: ev təsərrüfatında istehlak 50, bütünlükdə investisiya 30, məcmu ictimai məhsul 180, bölüşdürülməmiş gəlir 1, əmək haqqı 60, amortizasiya 4, maliyyə qalığı 25, dividend 15 edir.



downloaded from KitabYurdu.az

HESABLAMALI

1. Sahibkarlıq sektoru üçün

a) istehsal hesabını

b) gəlirin istifadəsi hesabını

v) əmlakın dəyişməsi hesabını

q) ev təsərrüfatı üçün (б və в) axırıncı iki göstəricini.

2. Dövriyyə cədvəlini tərtib etməli:

| Bunlardan çıxıb | Bunlara daxil olub | | | |
|---|---|---|---|---|
| | sahibkarlara | Ev təsərrüfatına | əmlaka | Cəmi |
| Sahibkarlardan<br>Ev təsərrüfatından<br>Əmlakdan | | | | |
| Cəmi | | | | |

HƏLLİ

1. Sahibkarlıq sektoru üçün

a) İstehsal hesabı

| DT | | KT | |
|---|---|---|---|
| Aralıq məhsul | 100 | Aralıq məhsul | 100 |
| Əmək haqqı | 60 | Ev təsərrüfatında istehlak | 50 |



downloaded from KitabYurdu.az

| | | | |
|---|---|---|---|
| Amortizasiya | 4 | Bütünlükdə investisiya | 30 |
| Bölüşdürülməmiş gəlir | 1 | | |
| Bölüşdürülmüş gəlir(əvvəl ildən qalıq) | 15 | | |
| Cəmi | 180 | Cəmi | 180 |

b) gəlirin istifadəsi hesabı

| DT | | KT | |
|---|---|---|---|
| Əmanət (bölüşdürülməm gəlir)1 | 1 | Bölüşdürülməmiş gəlir | 1 |
| Cəmi | 1 | Cəmi | 1 |

v) Əmlakın dəyişməsi hesabı.

| DT | | KT | |
|---|---|---|---|
| İnvestisiyanın hamısı | 30 | Amortizasiya<br>Əmanət<br>Maliyyə qalığı | 4<br>1<br>25 |
| Cəmi | 30 | Cəmi | 30 |

q) Ev təsərrüfatı üçün gəlirlərdən istifadə hesabı

| DT | | KT | |
|---|---|---|---|
| İstehlak<br>Əmanət (maliyyə qalığı) | 50<br>25 | Əmək haqqı<br>Dvidend | 60<br>15 |



downloaded from KitabYurdu.az

| | | | |
|---|---|---|---|
| Cəmi | 75 | Cəmi | 75 |

Əmlakın dəyişməsi hesabı

| DT | | KT | |
|---|---|---|---|
| Maliyyə qalığı | 25 | əmanət | 25 |
| Cəmi | 25 | Cəmi | 25 |

2. Dövriyyə cədvəli

| Bunlardan çıxıb | Bunlara daxil olub | | | |
|---|---|---|---|---|
| | sahibkarlara | Ev təsərrüfatın | Əmlaka | Cəmi |
| Sahibkarlardan | 100 | 60 + 15 | 4+1 | 180 |
| Ev təsərrüfatından | 50 | - | 25 | 75 |
| Əmlakdan | 30 | - | - | 30 |
| Cəmi | 180 | 75 | 30 | |



downloaded from KitabYurdu.az

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Konstiutsiyası., Bakı, 1995.

2. Antiinhisar fəaliyyəti haqqında Respublikanın qanunu. Bakı, 1993

3. Azərbaycan Respublikasının «Qiymətli kağızlar və fond birjası haqqında»

Qanunu. Bakı, 1994.

4. Azərbaycan Respublikası Lizinq haqqında qanunu. Bakı, 1994

5. Azərbaycan Respublikası investisiyalar haqqında qanunu. Bakı, 1995.

6. Azərbaycan Respublikasının islahatlar haqqında qanun.

7. Azərbaycan Respublikasının Özəlləşdirmə haqqında qanunu. Bakı 1992.

8. Azərbaycan Respublikasının Sahibkarlıq haqqında qanunu, bakı 1992.

9. Allahverdiyev H.B. Sosial inkişafın planlaşdırılması, problemləri, Bakı 1986.

10. Allahverdiyev H.B. Bazar iqtisadiyatı şəraitində planlaşdırmanın problemləri. «Nəzəriyyə və praktika» jurnalı, Bakı №1.

11. Allahverdiyev H.B. Bazar iqtisadiyyatı şəraitində idarəetmə strukturlarının təkmilləşdirilməsi problemləri. «Nəzəriyyə və praktika» jurnalı №1, Bakı, 1996.




downloaded from KitabYurdu.az

12. Allahverdiyev H.B. Bazar münasibətləri ali və orta ixtisas iqtisadçı kadrların hazırlanması problemləri. «Nəzəriyyə v praktika» jurnalı № 1-2, Bakı, 1997.

13. Allahverdiyev H.B. Keçid dövründə bazar iqtisadiyatının tənzimlənməsi problemləri. «Nəzəriyyə və praktika» jurnalı № 1-2. Bakı, 1997.

14. Allahverdiyev H.B. redəktəsi ilə iqtisadi və sosial proqnozlaşdırmanın əsasları. Dərs vəsaiti, Bakı, 1990.

15. Allahverdiyev H.B. Sosial inrfastrukturun tənzimlənməsinin regional problemləri. «Nəzəriyyə və praktika» jurnalı № 1-2, Bakı, 1999.

16. Allahverdiyev H.B. Xarici investisiyaların tənzimlənməsi problemləri. «Nəzəriyyə v praktika» jurnalı № 1-2, Bakı, 1999.

17. Allahverdiyev H.B. Bazar iqtisadiyyatına keçid şəraitində ərzq təhlükəsizliyi və onun tənzimlənməsi problemləri. «Nəzəriyyə v praktika» jurnalı № 3-4, Bakı, 2000.

18. Allahverdiyev H.B. Keçid iqtisadiyyatının struktur problemləri və tənzimlənməsinin əsas istiqamətləri. «nəzəriyyə və praktika» jurnalı № 1-2-, Bakı, 2001.

19. Бабич. Экономика общественного сектора. М., 1996.

20. Бузгалин А.Б. Переходная экономика. М., 1994.

21. Дедгаев Е.Е. Госрегулирование и рынок. М., 1996.



downloaded from KitabYurdu.az

22. Əlirzayev Ə.Q. Azərbaycanın iqtisadi inkişafının konsepsiyası və proqrammı. Bakı., 1999.

23. Əlirzayev Ə.Q. İqtisadi və sosial idarəetmə: bazar iqtisadiyyatı metodoloji prinsiplər, qanunauyğunlaqlar. Bakı, 1997.

24. Əhmədov İ.A. Keçid dövründə iqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı, 1999.

25. Əhmədov Ə.M., Qafarov K.S., Bağırov Z.A., Mustafayeva G.M. Makroiqtisadi tarazlığın əsasları. Bakı. 2001.

26. Əhmədov Ə.M., Qafarov K.S., Bağırov Z.A., Mustafayeva G.M. Makroiqtisadi tarazlığın əsasları. Bakı, 1995.

27. Əhmədov Ə., Sultanov K. Xalq təsərrüfatı balansı. Bakı, 1975.

28. Nağıyev Ə. novruzov V. Allahverdiyev N. Əlirzayev Ə. « Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı». Bakı, 1998.

29. İqtisadi nəzəriyyə, dərslik. Bakı, 1999.

30. Иноземцев В. Структирование общественного производства в системе проиндустриональных координат. Рос. Тур. № 11- 12, 1997.

31. Кушмин В.И. Государственное регулирование экономики. Экономист, №2, 1995.

32. Кулиев Т.А. Регулируемая рыночная экономика. Баку, 2000.

33. Qiymətin əmələ gəlməsi (İ.S.Qarayevin redaktorluğu ilə) dərslik. Bakı, 2000.



downloaded from KitabYurdu.az

34. Государственное регулирование рыночной экономики, учебник. Москва, 2001.

35. Макконел Л.Бюро. Экономикс. Москва, 1992.

36. Мартынов А.В. Стратегия структурного регулирование российской экономики. М., 1996.

37. Sadıqov K.F. Milli iqtisadiyyatın dövlət tənzimlənməsinin konseptual əsasları. Bakı, 1999.

38. Yaqubov S., Sadıqov, Əliyev M. Azərbaycan iqtisadiyyatı. Bakı, 2001.

39. Экономика (учебник) под ред. Аркинова А.М., 1999.

40. Экономика и права. М., 2000

41. Azərbaycan rəqəmlərdə. Bakı. 2001



downloaded from KitabYurdu.az